www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"e-Dalğa"

Şəbəkə Kulturoloji-Ədəbi Dərgi

IV sayı

“Ən yeni Azərbaycan bədii nəsri”

Son illərin bədii roman və povestləri.

Şəbəkə Antologiyası

"e-Dalğa" Şəbəkə Kulturoloji-Ədəbi dərginin baş redaktoru:
Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

“Ən yeni Azərbaycan bədii nəsri” roman və povestlərdən ibarət Şəbəkə Elektron Antologiyası milli ədəbiyyatımızın tanınmış nümayəndələrinin əsərlərindən ibarət toplu "e-Dalğa" Şəbəkə Kulturoloji-Ədəbi dərginin dördüncü sayını təşkil edir. Oxucular son 3 ilin milli ədəbi nümunələrində maraqlı sənət axtarışları, estetik-bədii düşüncə formaları, dolğun surətlər və diqqətçəkən hadisələr fonunda çağdaş Azərbaycan insanını əhatə edən aləmdəki mürəkkəb proseslər, eləcə də fərdin iç dünyasında baş verən təbəllüatlarla tanış ola bilərlər...

A4 formatında 350 səhifə.

E-kitab N 21

YYSQ – Milli Virtual Kitabxananın rəqəmsal nəşri N 18

Bakı – 2010

M Ü N D Ə R İ C A T

Ən yeni Azərbaycan bədii nəsri

Roman və povestlər

Antologiya

M.FirA (Cəmilə Mənsurova). “Ruhən güclü”. Roman (I hissə). Səh. 3

Məmməd İsmayıl. “Bayat”. Povest. Səh. 77

Fikrət Qoca. “Dayanacaqda görüş”. Povest. Səh. 133

Mustafa Çəmənli. “Ruhların üsyanı”. Povest. Səh. 195

Kamil Əfsəroğlu. “Xəzri”. Povest. Səh. 255

M.FirA
(Cəmilə Mənsurova)

Ruhən güclü

Roman
(I hissə)

Ana qızı ilə üz-üzə oturmuşdu. Taleyin qismətindən, onlar ikisi də Ağa Əlinin nəticələri idi. Belə ki, ana Ağa Əlinin qızı Fatimə xanımın nəvəsi idi. Onun qızı isə Ağa Əlinin oğlu Şıxəlinin nəvəsi idi.

Onların nəsil şəcərəsi çox qədim idi. Bakı ətrafında hansı yüzillikdə məskunlaşdıqları bəlli deyil, amma məlumdur ki, nəsilləri boyu yaşatdıqları Fatimə adı Həzrət Əli ilə bağlıdır.

-Təəssüf ki, əlyazmaları itib, - deyə Fatimə xanım tez-tez övladlarına, nəvə-nəticələrinə söyləyirdi.

Həqiqətən, peyğəmbərin doğmaları, əzizləri təqiblərdən xilas olmaq üçün hara gəldi qaçıblar və nəsil-nəsil peyğəmbər övladlarının taleyi məlum deyil.

- Fatimə xanımın sözlərini sual altına salmaq olmazdı, - deyirdilər, - ona görə ki, bu söhbəti, o, nənəsindən eşidib, nənəsi də öz nənəsindən və bu tarix yaşayıb.

Həqiqətən də, bu nəsildə şəfaveriçi, bəsirətli insanlar çox olub və özü də bu müdrik nəslin nümayəndələri həmişə mərd-mərdanə yaşayan, haqqı qoruyan, mübariz və ruhən güclü insanlar olublar. Onlar nəinki övladlarına, hətta ətraflarında yaşayan insanlara da ruhən güclü olmağı aşılaya bilirdilər.

Ana qızına nəsil şəcərəsilə bağlı eşitdiklərini, bildiklərini tez-tez danışırdı və bu söhbətlər qızın xəyalında ötən günlərin qanlı-qadalı hadisələrini, əhvalatlarını canlandırırdı...

BİRİNCİ HİSSƏ

MƏRCAN XANIM

I FƏSİL

Ucaboylu, göy gözlü, qara saçlı, lopa bığlı, ağbəniz Ağa Əli otağa daxil oldu. Onun zahiri görkəmində diqqəti çəkən baxışlarındakı zəhm və duruşundakı əzəmət idi. Mərcan xanım onu görən kimi yerindən qalxdı. Balacalar da hərəsi bir küncə çəkildilər.

Ağa Əli çayını içəndən, uşaqları bir qədər dindirəndən sonra öz xanəsinə keçdi və Mərcan xanımı da otağına dəvət etdi. söhbətin nədən gedəcəyi Mərcan xanımın ürəyinə dammışdı.

Ərinin dayısı çoxdan Ağa Əliyə eşitdirmişdi ki, rəhmətlik qardaşı qızını ona ərə vermək istəyir, özü də əməlli-başlı cer-cehizlə. Onun oğlu yoxdu, qızının əri isə qumarbazdı. Artıq qocalıb əldən düşmüş dayı fikirləşirdi ki, ölümündən sonra hər şeyi satıb-sovacaqlar, amma Ağa Əli onun qardaşı qızıyla evlənsə, həm dayısının vəziyyətini düzəldər, həm də qızının əlində-ovcunda qalan dağılmaz.

Söhbət çox çəkmədi. Mərcan xanım sakit tərzdə, hətta zahiri təbəssümlə bildirdi ki, ərinin evlənməsinə razıdır və dərhal da öz xanəsinə keçdi. Mərcan xanım onsuz da ərinin evlənməsinə ciddi etiraz edə bilməzdi, çünki o, özü də ərinin ikinci arvadı idi, amma bununla belə, ona elə gəlirdi ki, bu evdə ərinin birinci arvadı aciz və savadsız Tükəzbanla müqayisədə daha böyük nüfuz sahibidir; hər şeydən öncə ona görə ki, altı oğlan həyata gətirmişdi. Bu xırda üstünlük deyildi və o, istəsə ərinin bir daha evlənməsinə etiraz edə bilərdi. Amma əksinə, razılaşdı. Ürəyində bir təskinlik yeri də vardı.

-Ağa Əli mənim razılığımı alandan sonra evlənir, bu isə balaca məsələ deyil!

...Amma bununla belə, Mərcan xanım bütün gecəni için-için ağladı...

Səhər isə, o, tamam başqa görkəmdə idi. Bəzənmişdi: incə belinə, mütənasib bər-bədəninə yaraşan qırmızı don geyinmişdi. Şabalıdı saçları, qulac-qulac hörükləri, qara, sıx kipriklərin

arasından boylanan badamı gözləri, qaranquş qanadları kimi çatılmış vəsməli qaşları, incə burnu, al dodaqları onu daha da cazibədar göstərirdi. Mərcan xanım sanki ətrafdakılara meydan oxuyurdu, anlatmaq istəyirdi ki, bu malikanənin xanımı odur və o da olacaq.

Ən çətin məqamda da iradəsini göstərmək onun ən üstün məziyyəti idi.

Ağa Əli dayısının əziz-xələfi Məryəmlə evlənəndən bir ay sonra işlərini qaydaya salmaq üçün işgüzar səfərə çıxdı, amma qayıdandan sonra öz rahatlığını Mərcan xanımın qolları arasında tapdı. Mərcan xanım öz ağlı, iradəsi və zərifliyi ilə onu məftun eləmişdi. Ağa Əli yalnız ona inanırdı, yalnız onu qəlbinin, ürəyinin hakimi sayırdı.

Ağa Əlinin yeddi oğlu, iki qızı vardı. Aman və Ayişə Tükəzbandan olmuşdu. Şabanı, Məlik Ağanı, Şıxəlini, Əli Əkrəmi, Baba Əlini, Ağa Xanı və Fatiməni Mərcan dünyaya gətirmişdi. Məryəm sonsuz idi. Ağa Əli çalışırdı ki, uşaqlar yaxşı təhsil alsınlar. Evə iki müəllim gəlirdi. Uşaqlar çeşidli musiqi alətlərində çalırdılar, xarici dillərdə danışırdılar. Quran oxuyurdular. Bu böyük ailədə əmin-amanlıq, qarşılıqlı anlaşma hökm sürürdü. Ailənin iki ərköyünü vardı. Gözlərinin göyünə görə atalarına çəkən və analarının gözəllik naminə ən zərif cizgilərini mənimsəyən Əli Əkrəm və Fatimə idilər. Onlar ailədəki digər uşaqlardan dərhal seçilirdilər. Həm məzəli, həm də dəcəl olduqlarından bütün qohumların onlara rəğbəti vardı. Elədikləri günahlardan da dərhal keçir və ən çox da onları sevindirirdilər. Fatiməyə kiçik yaşlarından elçi düşmüşdülər, Əli Əkrəmə də biri qızını, biri nəvəsini, biri bacısını təklif eləyirdi.

Hətta qohumlardan biri yarızarafat, yarıgerçək Əli Əkrəmə deyirdi:

-İstəyirsən özünə üçüncü arvad elə, istəyirsən dördüncü, təki mənim qızımı al.

-Şah kimi mənim də hərəmxanam olacaq, - Əli Əkrəm söyləyirdi və qardaş-bacılarını belə şux zarafatla əyləndirirdi.

Uşaqlar böyüdükcə qayğıları da böyüyürdü. Suraxanıdakı ev onlara darlıq eləyirdi. Ağa Əli daha bir neçə otaq tikdirib mülkünə caladı və qərara aldı ki, bir mülk də Bakıda alsın. İşlər yaxşı gedirdi, o, əhəng istehsalı və ticarəti ilə məşğul olurdu. Son zamanlarda əkinə-biçinə yararlı təzə torpaq sahəsi də az gəlir gətirmirdi. Mədaxil, məxaric məsələlərinə Mərcan özü nəzarət eləyirdi. O, bu işə çox böyük məsuliyyət hissi ilə yanaşırdı və can yandırırdı. Son aylar Mərcan iş icraçısının işində ciddi yanlışlıqlar müşahidə eləmişdi. Gəldiyi nəticəni əri ilə də bölüşdü.

-Ya mən nəyi isə anlamıram, - dedi, - ya da o, oğurlayır.

Ağa Əli bir ay bundan qabaq iş icraçısı ilə nə danışdığını və dilindən iltizam alandan sonra onu idarədə saxladığını arvadına söyləmədi, amma, görünür, nahaq yerə. Onu idarədən uzaqlaşdırmaq lazım imiş. Təhvil-təslim zamanı Mərcan xanım Ağa Əlidən xahiş elədi ki, iş icraçısı ümumiliklə oğurlanmış pulu ödəmədən, öz xoşuyla getsin.

Amma iş icraçısı idarəni tərk eləyəndə sırtıqcasına dilləndi:

-Bu gün mənim başıma gələndən yüz qat artığı sizin başınıza gələcək!

Mərcan xanım qüssə ilə dedi:

-Namusla işləmək lazım idi.

Və beləcə ayrıldılar.

İlk vaxtlar onun işlərini Mərcan xanım özü icra etməyə başladı, amma bir qədər sonra Andrey Pavloviçi işə götürdülər və çox keçmədi ki, o, ailə üzvlərindən birinə çevrildi. Həyat öz axarına düşdü. Ağa Əli öz sevincini gizlətmirdi və hərdən nahar vaxtı üzünü övladlarına tutub deyirdi:

-Aman, Şaban, Məlik Ağa, Şıxəli, Əli Əkrəm, Baba Əli, Ağa Xan! Siz mənim qolum-qanadım, dayağımsınız! Mən sizinlə qürur duyuram. Ayişə, Fatimə - siz mənim evimin yaraşığısınız, siz mənim qızılım, brilyantımsınız.

Qayğısız böyüyən uşaqlar hiss etmirdilər ki, anaları ayrıdı, çünki evdəki qadınların üçündən də eyni dərəcədə nəvaziş, mehribanlıq görürdülər və yaxşı bilirdilər ki, ataları birdi - Ağa Əlidi və elə bu səbəbdən də ailənin həyatına hakim olan birlik, qarşılıqlı anlaşma, sevgi, şadlıq, rahatlıq və sabaha inam aşılayırdı.

Aman və Şaban xəlvətə çəkilməyi xoşlayırdılar və bu zaman gələcək üçün planlar qururdular. Səyahətə çıxmaq, başqa-başqa ölkələri gəzib-dolanmaq fikrinə düşmüşdülər. Aman biləndə ki,

onu tezliklə evləndirəcəklər və o, hələ bu dünyada heç nə görməyib, kədərlənirdi və hərdən bütün günü atasının alıb gətirdiyi qlobusa tamaşa eləyirdi.

Nahardan sonra yenə Aman və Şaban evdən çıxdılar.

-Günəşin qürub etməsinə baxmaq istəyirik, - Şaban dedi.

Qapının kandarında dayanmış Tükəzban onları məhəbbətlə süzəndən sonra dedi:

-Dünən Günəşin doğmasına tamaşa eləmisiniz, bu gün qüruba baxmağa gedirsiz, nə olar, amma gələn dəfə mən də sizlə gedəcəyəm, axı mən də təbiəti sevirəm.

-Mütləq bir yerdə gedərik! - Uşaqlar bir ağızdan dilləndilər və qaçıb gözdən itdilər.

* * *

Gecə yarıdan keçmişdi, amma uşaqlar qayıtmamışdılar. Ağa Əlinin nökərləri bütün ətrafı dörd dolansalar da, "uşaqları gördüm" deyən olmamışdı. Aman və Şabanın yoxa çıxması xəbəri tez bir zamanda bütün Suraxanıya yayıldı. Həyət adamla dolmuşdu. Gecə yarını keçəndən sonra şəhərətrafı qəsəbələrin şimşəyi kimi tanınan Qaraxan da başının dəstəsilə gəldi. Və Ağa Əli sanki birdən-birə hiss elədi ki, fəlakət baş verib, uşaqların başında qəza var. Qaraxan məsləhət gördü ki, dəstələrə ayrılsınlar və hər yeri - evləri, evlərin zirzəmilərini, xəndəkləri, otlaqları, qamışlıqları axtarsınlar.

Qaraxan hamını axtarışa vadar etsə də, inanmırdı ki, uşaqları sağ-salamat tapa bilələr.

Ağa Əli Ağa Xana və Baba Əliyə tapşırdı ki, evi qorusunlar, özü isə Şıxəlini, Məlik Ağanı, Əli Əkrəmi yanına alıb həyətdən çıxdı ki, itkinlərini axtarsın.

Otaqlara ölüm sükutu hakim idi. Qızlar bir küncə qısılıb sakitcə oturmuşdular. Qadınlar astadan dua eləyirdilər, Allaha yalvarırdılar, inanmırdılar ki, bədbəxtlik bir kabus kimi bu evin kandarına ayaq basır, bu otağın havasına qarışır. Onları göz yaşı, qəhər boğsa da, çalışırdılar ki, pis şeylər barədə fikirləşməsinlər.

Gecənin sükutunu Ağa Xanla Baba Əlinin dəhşətli harayı pozdu. Onlar göz yaşı içində qışqırırdılar:

-Onları öldürüblər! Onları öldürüblər!..

Tükəzban bayılıb yıxıldı. Mərcan xanım eybəcər hala salınmış meyitləri həyətə gətirən at arabasına sarı qaçdı. Amanın hələ nəfəsi vardı. O, Şabana nisbətən daha canlı-cüssəli idi. Bir əli ilə Şabanın əlindən tutmuşdu və hiss olunurdu ki, son nəfəsində nə isə demək istəyir. Mərcan xanım onun qarşısında diz çökdü. Aman güclə eşidilən bir səslə:

-İş icraçısı, - dedi və onun soyumaqda olan cavan sifətinə bir anlığa işıqlı bir təbəssüm gəldi. Elə bil o, son nəfəsini bu sözü demək üçün toplamışdı ki, onların qisasını alsınlar.

Mərcan və Məryəm bütün gecəni meyitlərin yanından aralanmadılar. Məryəm hönkürə-hönkürə deyirdi:

-Axı nəyə görə, nə üçün onları öldürüblər? Onlar ki, uşaqdırlar!

Mərcan xanım isə bircə dəfə səsini qaldırdı:

-İnsanlar! - dedi, - İnsan da belə iş tutar? İnsanlar!!!

Sübhçağı iş icraçısını da tutub gətirdilər.

Qaraxan qorxunc bir səslə qışqırdı:

-Hamı meydana!

At arabası - Amanla Şabanın cənazəsini aparırdı, arabanın önündə Ağa Əli gedirdi, yanında da oğlanları. Qadınlar mərsiyə deyə-deyə ağlayırdılar. Uşaqlar da, böyüklər də bu insan qəddarlığından dəhşətə gəlmişdilər. Məlum oldu ki, onları ölmüş biləndən sonra əhəng quyusuna atıblar. Son damla qanları əhənglə qarışıb! 20 yaşlı Aman, ya 18 yaşlı Şaban kimə neynəmişdi? Kimin xətrinə dəymişdi? Anaların nə çəkdiklərini sözlə ifadə etmək mümkündür, o ki qaldı atanın dərdinə...

Rəngində qan nişanəsi qalmamış Ağa Əlinin dişləri bir-birinə elə sıxılmışdı ki, hərdən çənəsi çıqqıldayırdı. Çaylaq daşı döşənmiş yola Ağa Əli qəddini əymədən ayaq basdı. Amma onun qəddi içindən əyilmişdi. Axı, bu dərdi necə çəkmək olar? Alovlar içində qanı tükənməkdə olan bir ürəyi necə ovutmaq olar? Bu ürəyin sahibi alçaldılmışdı, fəlakətə məruz qalmışdı.

Qisas vacib idi, qaçılmaz idi, çünki o, bu qisasla ailəsinin və nəslinin şərəf və ləyaqətini qorumuş olurdu.

-İntiqamı amansızlıqla almaq lazımdır.

Ağa Əli bu sözü ürəyində dedi və dərhal da səsini ucaltdı:

-Günahkar mən özüməm! Günahkar mənəm ki, oğrunu vaxtında cəzalandırmadım. Bu gün isə o, qatildir! Siz mənim və ailəmin müsibətinə şahidsiz. Ürəyim qan təşnəsinə dönüb! Bu müsibəti, bu günahsız anaların göz yaşlarını unutmayın, bu fəlakəti başqalarına da çatdırın. Mənim övladlarıma qəsd edənin ürəyini parçalamalıyam.

Və bu sözün tamamında o, qeyri-adi bir çevikliklə qatilin üstünə sıçradı və kəmər yerindəki xəncəri çıxarıb sinəsinə sapladı. O, qatilin sinəsindən fışqıran qanı eyninə almadan dartıb ürəyini çıxardı, başı bərabərinə qaldırdı və var səsilə bağırdı:

-Bunu mən elədim! Mən!!! Yadınızda saxlayın!!!

Adamlar tam heyrət içində idilər, özlərini itirmişdilər.

Mənzərə dəhşətli olsa da, qisas haqqına idi...

Amanla Şabanın dəfnindən sonra Ağa Əli övladlarını başına cəm eləyib dedi:

-İndi bizim qan düşmənimiz var, mən hamıya cangüdən təyin edəcəyəm, amma yenə də ehtiyatlı olun, hətta birinə yaxşılıq edəndə də yüz ölçüb, bir biçin, hərdən yaxşılıq da yaxşılıq kimi qarşılanmır.

Çox keçmədi ki, müsibət içində olan bu ailə daha bir matəmlə üzləşdi. Amanla Şabanın ölüm xəbərindən bayılan Tükəzban özünə gəlmədi, dünyasını dəyişdi.

Tükəzbanın qırxı çıxandan sonra Mərcan xanım ailənin yasına son qoymaq qərarına gəldi və:

-Bu müsibət həmişə mənimlə olacaq, - dedi, - amma yaşamaq lazımdı; yaşamaq lazımdı ki, ailəmizi və ailəmizin şərəfini qoruyaq, mən anayam və bu yükü daşımaq mənim borcumdu, vəzifəmdi.

Mərcan xanım dəqiq bilirdi ki, bu böyük ailə onun ümidinə qalıb, bu düşmənli ailənin sabahına o, məsuliyyət daşıyır.

II FƏSİL

...İllər ötdü.

Ayişəyə elçi gəldilər. Amma bu Mərcan xanımı bir qədər həyəcanlandırırdı:

-Tez deyilmi? hələ heç onun on dörd yaşı da olmayıb.

Məcid Ağa Əlinin xoşuna gəlirdi. Yaxın dostunun oğlu idi, Peterburqda ali məktəb bitirmişdi. Mərcan xanımın Ayişənin yaşını diqqətə çapdırmaqda məqsədi var idi, sadəcə, istəmirdi ki, Ayişə ailədən uzaq düşsün, qürbətdə yaşasın, amma Mərcan xanım görəndə ki, oğlanları da Məcidi bəyənirlər, ona qibtə eləyirlər, susdu. Toydan qabaq Mərcan xanım Tükəzbanın məzarını ziyarət elədi, axı Ayişəni dünyaya gətirən, əsl anası o idi!

Mərcan xanım Tükəzbanın qəbrinin üstündə "əl-Fatihə" surəsini oxudu və dedi:

-Qoy sənin ruhun şad olsun, rahatlıq tapsın, qızımız Ayişə ərə gedir, Allah ona yar olsun, xoşbəxt və oğullı-qızlı olsun..

Qəbiristanlıqdan qayıdandan sonra toya hazırlaşmağa başladı.

Bu ailədə neçə illərdən bəri sürən üzüntüdən, qəmdən-qüssədən sonra ilk şadyanalıq idi.

Mərcan xanımla Məryəm xanım qonaqları qarşılayırdılar. Ayişə ilə Fatimə ləziz-ləziz xörəklərlə bəzənmiş süfrə başında əyləşmişdilər. Bəy evi gəlini aparmaq üçün gələndə Mərcan xanım Ayişənin üzündən öpüb xeyir-duasını verib, ona firuzə qaşlı bir üzük bağışladı.

-Bu üzüyü yaxşı saxla, mənim balam, - dedi, - bunu anam mənə toy günümdə bağışlayıb, ona da öz anasından hədiyyədir, sən də öz qızına bağışlayarsan toy günündə.

Məryəm isə milli naxışlar vurulmuş, naxışların arasına səliqə ilə "Tükəzban", "Mərcan" və "Məryəm" - üç qadın adı işlənmiş süfrə bagışladı.

Ayişəni el adətiylə ər evinə apardılar və bir aydan sonra onlar Peterburqa köçdülər.

...Ağa Əli ruhən yüngülləşmişdi.

-Gözün aydın, Məlik Ağa evlənir, özü də Tükəzbanın əmisi qızını alır. Anan sənin üçün də qız tapıb, - Ağa Əli oğluna dedi, - poçtun nəçənniyidi, Cəbrayıl bəyin qızı. Bəy olmasına baxmayaraq, çar ona zadəgan titulu verib, bu titul da nəsildən-nəslə keçir. Qız Mərcan xanımın çox xoşuna gəlib, deyir ki, həm gözəldi, həm də sənin kimi savadlıdır, gimnaziyada oxuyur. Sizin gözəl gələcəyiniz olacaq.

Ağa Əli oğlanlarını çox istəyirdi, amma Əli Əkrəmə rəğbət bəsləyirdi və hətta hərdən deyirdi ki, Əli Əkrəmin Ayın, Günəşin yerini dəyişməyə haqqı var. Bununla belə, bu ocağın gələcək sahibi kimi ən böyük ümidi Şıxəliyə idi. Ağlı-kamalı öz yerində, həm də ötkəm və səbrliydi. Anasının da, elə onun özünün də ən yaxşı xüsusiyyətlərini əxz eləmişdi. Ağa Əlinin ən böyük arzularından biri o idi ki, Şıxəlinin da bəxti gətirsin və Yaradan ona Mərcan xanım kimi həyat yoldaşı qismət eləsin. Oğlanların hamısı böyümüşdü. Onlara baxdıqca fərəhlənir, sevinirdi; çünki bu yurdu-yuvanı, bu ocağı bir-birinin ardınca toylar gözləyirdi.

Ağa Əli yarızarafat, yarıgerçək dilləndi:

-Bəs bizim can-ciyərimiz Əli Əkrəm kimi alacaq, görəsən?!

Ortalığa atılmış bu sualdan sonra Şıxəli gülümsədi və dedi:

-O, birini almayacaq ki, hərəmxana saxlayacaq.

-Sən evlənəndən sonra ona da Şahzadə taparıq, - Ağa əli gülümsədi.

Məlik Ağaya üç gün, üç gecə toy çaldırdılar. Ağa Əli şadlıqdan, şadyanalıqdan özünə yer tapa bilmirdi, bunun bir səbəbi də onun qəsəbəyə başçı seçilməsi idi. Qardaşlar da hamısı sevinc içində idilər. Mərcan xanımla Məryəm xanım sevincdən işıq saçırdılar. Şıdırğı oyun havaları,

müğənnilər, xanəndələr, bütün günü kəsilib şişə çəkilən erkəklər hamını məst eləyib, xumarlandırmışdı. Hətta ailənin sonbeşiyi Ağa Xan da evlənməkdən dəm vurmağa başlamışdı.

Bu toyda şadlana bilməyən, dərdli görsənən bir adam vardısa, o da Qaraxandı. Bu, toy sahibinin də diqqətindən yayınmadı və o, Qaraxandan bunun səbəbini soruşanda Qaraxan gözlənilmədən dilləndi:

-Qızın on altı yaşı olub, amma hələ adını tutan olmayıb, bəyəm bu dərd deyil?

Və bu sözü qulağı çalan Əli Əkrəm gözlənilmədən səsini qaldırdı:

-Necə yəni qızın adını tutan yoxdur? Bəyəm mən ölmüşəm?

Ağa Əli qulaqlarına inanmadı: yəni bu sözləri heç nədən utanıb-çəkinmədən söyləyən onun oğlu idi? Və dərhal Əli Əkrəmi kənara çəkib bir kəlmə sözlə dərsini verdi:

-Sən heç bilirsən nə danışırsan? Ağzına yiyəlik eylə!

Atasının tənbehindən narazı qalan Əli Əkrəm dərdini anasına söyləməyi qət elədi.

Qadın məclisi də təmtəraqla keçirdi.

Ara səngiyəndə, Mərcan xanım nə üçünsə toyxanadan çıxanda Əli Əkrəm dərhal ona yaxınlaşdı.

-Ana, - dedi, - sənə sözüm var.

-De görüm.

-Ana, mən də evlənmək istəyirəm.

Mərcan xanım elə bildi ki, oğlu zarafat eyləyir. Bu səbəbdən də gülə-gülə soruşdu:

-Elə indi?

Amma Əli Əkrəm ciddi tərzlə:

-Mən zarafat eləmirəm, - dedi. -Mən həqiqətən evlənmək istəyirəm.

-Seçdiyin kimdi? - Mərcan xanım gülümsəyərək soruşdu.

-Qaraxanın qızı.

Mərcan xanım həyəcanla:

-Nə dedin?

Əli Əkrəm sualın bu cür qoyuluşundan dərhal başa düşdü ki, anası da bu izdivacın əleyhinədir. Amma qət elədi ki, geri çəkilməsin, yalvar-yaxarla anasını yola gətirsin.

-Bəyəm sən istəmirsən mən evlənəm?

Nahaq söyləmirlər ki, ana ürəyi - dağ çiçəyi, bircə kəlmə sözdən yumşaldı və Əli Əkrəmi həlim səslə dindirdi:

-Mənim ağıllı balam, - dedi, - evlənmək ciddi məsələdir, gərək yüz ölçüb bir biçəsən, amma bir halda ki, sən özün bu qərara gəlmisən, neynəmək olar, - Mərcan xanım sözünə ara verdi, - mən gedim qızı görüm, sonra danışarıq.

Qaraxanın qızının haqqında söyləyirdilər ki, nə isə bir qüsuru var, ona görə də qızı adam arasına da çıxarmırlar. Mərcan xanım bu deyiləni dedi-qodu saysa da, bu sözə şübhə ilə yanaşsa da, hər halda, Qaraxanın qızını oğlanlarından birinə almağı ağlına da gətirməmişdi.

Əli Əkrəmin niyyəti ailədə məsxərə ilə qarşılansa da, o, necə deyərlər, iki ayağını bir başmağa dirədi.

-Yox, mən Qaraxanın qızını istəyirəm, - dedi, - öz sözümü də ona çatdıracağam.

Mərcan xanım Əli Əkrəmin tərsliyindən özünü itirdi, çaşdı və dərindən içini çəkəndən sonra qonaqlara yaxınlaşdı.

Bir qədər sağa-sola var-gəl eləyən Əli Əkrəm isə gözlənilmədən Qaraxanın qarşısında təzim eləyib dedi:

-Sizə sözüm var...

Bu təklif nəinki Qaraxanın özü üçün, elə başının dəstəsindən ötrü də gözlənilməz oldu. Amma Qaraxan özünü itirmədi:

-Buyur, cavan oğlan, - dedi, - dinləyirəm səni, nə istəyirsən?

-Sizin qızınızı!

Əli Əkrəmin bu cavabından sonra elə bil qurbağa gölünə daş atdılar, qonaqlar təşviş, həyəcan içində bir-birinin üzünə baxdılar. Hətta çalğıçılar da yerlərində donub qaldılar. Ağa Əli oğlunun abırsızlığından pul kimi qızardı. Qaraxan da özünü itirmişdi, axı, o da Əli Əkrəmin belə bir addım atacağını - belə bir söz deyəcəyini gözləmirdi.

Araya çökən müəmmalı sükutu yenə də Əli Əkrəm pozdu:

-Siz bu izdivaca razısınızmı, cənab Qaraxan?

Hamı heyrət içində idi. Amma bu zaman Qaraxan da gözlənilməz bir addım atdı, barmağındakı brilyant qaşlı üzüyü çıxarıb təbəssümlə Əli Əkrəmə bağışlamaqla hamını intizardan qurtardı.

-Mən qızıma cehiz də verəcəyəm, o, mənim yeganə övladımdı, - dedi, - Allah sənin də, atanın da canını sağ eləsin, çox sağ olun, siz məni göylərə qaldırdınız, mən belə bir qohumluğu xəyalıma da gətirə bilməzdim.

Məlik Ağanın toyuna qanqaraçılıq salmamaq ücün Ağa Əli susub fikirləşirdi:

-Neynəyə bilərik? Bu məsələ ilə Mərcan xanım məşğul olsa, yaxşıdır, hər halda bir şey fikirləşərik.

Ağa Əli ailə üzvlərinə bildirdi ki, birlikdə Bakıya qayıtmalıdılar və təzə evdə, təzə bəylə gəlini qarşılamalıdılar.

O, Əli Əkrəmin dərsini də yolda vermək qərarına gəldi.

- Qaraxanın qızına evlənmək hardan sənin ağlına gəldi? - soruşdu.

Əli Əkrəm bu sualın cavabını dərhal verdi:

-Onun bizə böyük yaxşılığı keçib, ata, - dedi, - yadındadırmı, qardaşlarım itəndə o, necə canfəşanlıq göstərirdi? Qardaşlarımın meyitlərini o tapmadımı? Bunu necə unutmaq olar? Yadındadırmı...

Ağa Əli oğlunun sözünü kəsdi:

-Dostluq başqa, qohumluq isə bambaşqa bir şeydi! - dedi. - hələ anan da öz sözünü deməyib.

-Hər şey yaxşı olacaq, ata, - Əli Əkrəm barmağındakı qaşlı üzüyə baxa-baxa ,- dedi, - hər şey yaxşı olacaq!

***

Mərcan xanımla Məryəm xanım Qaraxanın evinə, qızını görməyə gəlmişdilər. Əsli onların qarşısına çıxmadı. Elə bu səbəbdən də Məryəm xanım özü qızın otağına girməyi qət elədi. Əsli sir-sifətini başındakı kəlağayı ilə örtərək, qorxa-qorxa yerindən qalxdı. Məryəm xanım onu qucaqladı və öpdü.

-Əyləş qızım, - dedi, - əyləş.

Məryəm xanım da təhsil görmüşdü, fəhminə də söz ola bilməzdi; tükü tükdən seçirdi və sir-sifətini kəlağayının altında gizlətməyə çalışan qıza bir neçə sual verəndən, cavab alandan sonra otaqdan çıxdı.

Məryəm xanım xəyalında Əli Əkrəmi yamanlayırdı: gör bir sən nə hoqqa çıxarmısan, ay oğul? Hirsindən ürəyi az qalırdı sinəsindən çıxa. Məryəm Əli Əkrəmlə fəxr eləyirdi və qəlbinin ən dərin bir guşəsində arzulayırdı ki, Allah ona da belə bir oğul versin.

Qadınlar Əslinin ögey anası ilə də bir neçə kəlmə kəsdilər və Qaraxanın evini tərk elədilər. Yola çıxan kimi Məryəm xanım günübacısından heç nəyi gizləmədən hamısını söyləyəndən sonra:

-Əli Əkrəm çox tələsib, çox yanlış addım atıb, nə isə fikirləşmək lazımdır, - dedi.

Mərcan xanım oğluna bəzi şeyləri anlatmaq qərarına gəlsə də, Qaraxanın qızı haqqında bildiklərini eşitdirsə də, Əli Əkrəm bu mükalimədən sonra pərtliyini büruzə versə də, sözünü dedi:

-Kişi tüpürdüyünü yalamaz, uzaqbaşı sonra bir də evlənərəm.

Mərcan xanım oğlunu bir xeyli dilə tutsa da, Qaraxanın necə bir adam olduğunu anlatsa da, Əli Əkrəm onu eşitmirdi.

- Bəlkə gedəsən Peterburqa? - Mərcan çıxış yolu göstərdi, -Ayişə son məktubunda yazıb ki, özü də, Məcid də səni Piterdə görmək istəyirlər, - dedi. Havanı dəyişərsən, Peterburq gözəl şəhərdi, gəzərsən, təhsilini davam etdirərsən, maraqlı insanlarla görüşərsən, başa düşərsən ki, dünyada nə var, nə yox...

Əli Əkrəm isə öz aləmində idi, anasını arabir eşitmirdi, ona qulaq asmaq istəmirdi. Elə bil Əli Əkrəm divardı və bu sözlər də divara dəyib qayıdırdı.

-Mən onunla evlənəcəyəm.

Mərcan xanım oğlunun bu inadkarlığından uşaq kimi hönkürüb ağladı və bu söhbətə şahid olan cəmi ailə üzvləri, o cümlədən Ağa Əli sevimli arvadını sakitləşdirməyə calışırdı. Hətta uşaqlardan biri Mərcan xanımı toxtatmaq niyyətilə zarafat da elədi:

-Qəm eləmə, ay ana, - dedi, - bəyəm o, uşaqlıqdan demirdi ki, hərəmxana saxlayacaq? Çox keçməz ikinci arvadı da alar, sonra da üçüncüsünü, dördüncüsünü, beşincisini... bu da olar hərəmxana.

Şıxəlidən sonra Əli Əkrəmi də nişanlamağa məcbur oldular. Mərcan xanım fikirləşirdi ki, böyük qardaş olduğunu səbəb kimi ortaya atıb Şıxəlinin toyunu qabağa salar və Əli Əkrəmin toyunu bir qədər də yubadar. O, hələ də nəyə isə ümid bəsləyirdi. Amma bu məsələdə də Mərcan xanımın niyyəti baş tutmadı. Şıxəlinin gələcək qayınatası Cəbrayıl bəy xəbər göndərib xahiş elədi ki, toyu yubatsınlar. Bunun da səbəbi vardı: Cəbrayıl bəy böyük qızını heç bir ay deyildi ki, ər evinə yola salmışdı, ortancıl qızının da toy günü artıq təyin olunmuşdu, üçüncü qız çoxdan nişanlanmışdı, o ki, qaldı kiçik qıza - Səriyyə xanıma, onu da Şıxəliyə ad eləmişdilər və Cəbrayıl bəyin ailəsində bu qərara gəlmişdilər ki, bu izdivacı bir qədər yubatsınlar ki, ailə bu toya əməlli-başlı hazırlaşa bilsin.

Cəbrayıl bəyin kiçik qızı Səriyyə xanım hələ ki, Şıxəlinin yalnız şəklini görmüşdü və bir könüldən min könülə ona aşiq olmuşdu.

-Bu gözəllikdə də kişi olar? - Bu Səriyyə xanımın etirafı idi və hər dəfə haşiyəli çərçivədə nişanın səhəri Şıxəlinin göndərdiyi şəklə baxanda bu etirafı dilinə gətirirdi.

Həqiqətən də, Şıxəli çox yaraşıqlı cavandı; enlikürək, ucaboy, iri, qara gözlü, qara saçlı, qarabuğdayı idi. Amma bununla Şıxəlinin zahiri görkəmində mübhəm bir cazibə də vardı; bu sehr tək-tək kişilərdə olur.

-Onun yar-yaraşığı öz yerində, həm də ağıllı-kamallıdır. - Şıxəlidən söz düşəndə hamı bu sözləri işlədirdi.

Mərcan xanım bir daha cəhd elədi ki, Əli Əkrəmə Qaraxanın qızı ilə bağlı nələrisə anlatsın, amma faydası olmadı; o, heç kimə qulaq asmaq, heç kimi eşitmək istəmirdi. Nəhayət, qardaşlar bu qənaətə gəldilər ki, analarının nigarançılığı təbii olsa da, heç nəyi dəyişməyəcək; qalırdı toy gününü təyin etmək.

III FƏSİL

Uşaqlıqdan xeyirxahlığıyla tanınan, bütün günü gülüb-danışan Əli Əkrəm elə bil "yox" sözünün nə olduğunu bilmirdi, heç kimdən də heç nə əsirgəmirdi. O, artıq yaşa dolsa da, özünü uşaq kimi aparırdı, ətrafındakılara bəslədiyi sevgi bir çox hallarda onun gözlərini gerçəkliyə qapayırdı. Bir dəfə yaxın bir dostunun bacısını oğurlamışdılar. Əli Əkrəm evdə heç kimlə məsləhətləşmədən dostunun köməyinə getdi. Şıxəliylə Məlik Ağa cangüdənlərini də götürüb bu axtarışda Əli Əkrəmə yardımçı oldular. Çox güman ki, Şıxəliylə Məlik Ağa bir qədər geciksəydilər Əli Əkrəmin də, dostunun da özlərini yox, meyitlərini tapacaqdılar, Əli Əkrəmin cangüdəni isə tapançanı öz alnına sıxıb tətiyini çəkəcəkdi.

Fatiməyə qardaşının onun tanımadığı qızla evlənməsi toxunurdu. Əli Əkrəmin adaxlısı haqqındakı söhbətlər Fatiməni həyəcanlandırırdı, amma o, qardaşını narahat etmək istəmirdi, ona görə də çalışırdı ki, heç bu barədə onunla danışmasın. Onlar qonaq otağında oturub maraqla Ayişənin Peterburqdan göndərdiyi jurnalı gözdən keçirirdilər.

-Qaraxan gəlib, - nökər dedi.

Fatimə Qaraxanın salamını alıb yan otağa keçdi.

Əli Əkrəm mehribancasına onu qarşıladı.

-Buyurun əyləşin - dedi və dərhal da soruşdu, - xeyir ola?

Qaraxan söhbətinə çox uzaqdan başladı:

-Mən səndən çox razıyam, oğlum, sən məni şərəfləndirdin, - dedi, amma indi sənə bildirməliyəm ki, hələ neçə illər qabaq mənim qızım Əsli anası ilə birlikdə çiçək xəstəliyinə tutulmuşdu. Anası öldü, amma qız o xəstəliyə tab gətirdi, demək olar ki, o dünyanı görüb qayıtdı. Görünür, Allahın mənə rəhmi gəlib. Mənim bu dünyada Əslidən savayı heç kimim, kimsəm yoxdur. Ona görə də sən yaxşı-yaxşı fikirləş. Yəqin ki, sən Əslidən sonra bir də evlənəcəksən, bu öz işindi, mən sənə mane olmaram, amma sən Əslini toydan sonra saxlamasan, evdən qovsan, mən pərt olaram, ölüb yerə girərəm, amma Əsli ilə evlənməkdən indi imtina eləsən, səni bağışlayaram və hər şeyi də unudaram. Elə buna görə də gəlmişəm. İndi söz sənindir, fikirləş.

Əli Əkrəm sakitcə Qaraxana baxırdı və anlayırdı ki, Qaraxanın taleyi onun əlindədir.

-Mən bu barədə fikirləşmişəm, - Əli Əkrəm qəfildən dilləndi, - hər halda Əsliyə evlənirəm, o ki qaldı gələcəkdə yenidən arvad almağıma, sağlıq olsun, yaşayarıq, görərik....

Onlar bir-birinin əlini sıxandan sonra ayrıldılar.

Əli Əkrəmdən yaraşıqlı bəyi təsəvvürünə də gətirmə. Hər cür gözəlliyi təsvir etmək mümkündür, amma Əli Əkrəmin zahiri qələmə, sözə gəlməz. Rəssam da bu yerdə acizdi. Elə bil onu xəlq eləyəndə xudavəndi aləm özü qələm çalmışdı. Yalnız xudavəndi-aləm özü bəndəsinə belə görkəm, belə gözəllik bəxş eləyə bilərdi. Bunu qonaqlar da etiraf eləyirdi:

- Əhsən xilqətin qüdrətinə, - bir ağızdan deyirdilər, - əhsən!

Toy qızışmışdı. Hamı şadlıq, şadyanalıq içində idi.

Dostları qışqırırdılar:

-Ay bəy, toyun mübarək! Ay bəy, toyun mübarək!

Mərcan xanım danışırdı, gülürdü, qol qaldırıb oynayırdı, ürəyi cox sıxılsa da, büruzə vermirdi. Məryəm xanım öz həyəcanını gizlədə bilmirdi; gah bayıra çıxırdı, gah içəri girirdi, kənizlərə nə isə deyirdi.

Üzü duvaqlı gəlini gətirib gözəl bəzənmiş otaqda oturtdular. Bəyi təntənə ilə gəlin otağına yola salanda başına pul, şirniyyat səpirdilər, xoş sözlər deyirdilər.

Yengə cavanlara xeyir-dua verib otaqdan çıxdı.

Əli Əkrəm qızın üzündən duvağı çəkəndə yerindəcə quruyub qaldı. Çiçək xəstəliyi onu elə bir hala salmışdı ki, üzünə baxmaq mümkün deyildi; dərisi çopur-çopurdu. Burnu yastılanıb sifətinə yapışmışdı, qaşlarından nişanə də qalmamışdı. Qızın boz-bulanıq gözlərində dərhal nəzərə çarpan qorxu vardı. Bəy qızdan aralandı və keçib taxtda oturandan sonra qız özü ona

yaxınlaşdı. Əlində də bir piyalə şərbət ilə. Əslinin nəinki əlləri, bütün vücudu titrəyirdi və görünür, anlayır, dərk eləyirdi ki, o, bu gözəl oğlana layiq deyil. Əli Əkrəm əlinin hərəkətilə şərbətdən imtina elədi və mütəkkəyə dirsəkləndi. O, key-key tavana baxırdı, yalnız tavana.

Əsli özü də bunu duyduğundan bir piyalə şərbəti mizin üstünə qoyub Əli Əkrəmdən aralandı, amma gərdəyə girmədi, bir qədər aralıda xalçalarla döşənmiş yerdə oturdu. Başını aşağı salmışdı və bu anlarda oğlanın gözünə görünməmək üçün yer yarılsa, yerə girməyə hazırdı.

Anlar, dəqiqələr keçirdi və hər ötən an, dəqiqə qüssə gətirirdi.

Qapı döyüldü. Amma elə bil qapını yox, birbaşa Əslinin ürəyini döydülər. Qız gözləyirdi ki, bəy özü durub qapını açsın. Amma o da yerindən tərpənmirdi və kim bilir nəyi, nələri götür-qoy eləyirdi.

Bu zaman evdə nigarançılıq içində vurnuxan, özünə yer tapmayan Məryəm xanım da bəy otağının qapısına yaxınlaşdı. Yengə qapının kandarında dayanmışdı və görünür, məəttəl qalmışdı: "bu qapını onun üzünə niyə açmasınlar, axı? Az qala iki saat keçmişdi".

Məryəm xanım Əli Əkrəmin gözəllik aşiqi, surətpərəst olduğunu bilirdi və ona elə gəlirdi ki, Əli Əkrəm gəlinə yaxınlaşmaya da bilər.

Yengənin hələ də qapının kandarında dayandığını, qulağını qapıya dayadığını görüb dedı:

-Cavanları niyə narahat edirsən? Bəyəm, Əli Əkrəmdən doymaq olarmı? Səhər mələfəni götürüb, bizə də göstərərsən, hədiyyəni də alarsan. Qaçhaqaç deyil ki? Gəl gedək, yaxşı mer-meyvəmiz var.

Məryəm xanım yengəni qonaq otağında mer-meyvəyə yox, çaya qonaq elədi. Çay dəstgahı zamanı da yengə Məryəm xanıma astadan dedi:

-Bəy otağından heç bir səs çıxmayıb, məəttəl qalmışam, belə şey ola bilməz axı...

-Hər şey yaxşı olacaq, bəyin ikinci anası kimi məndən də öz hədiyyəni alacaqsan, - dedi və yengəyə bildirdi ki, onu elə bu otaqda gözləsin, heç bir yana da tərpənməsin.

Məryəm xanım bəy otağının qapısını bir neçə dəfə ehmalca döyəndən və içəridə səs-səmir eşitməyəndən sonra astadan dilləndi:

-Aç qapını, Əli Əkrəm, sənə sözüm var.

Amma Əli Əkrəmdən səs çıxmadı və o, bu dəfə qapını tıqqıldadıb gəlinin adını çəkdi:

-Aç qapını, Əsli. Aç, rica edirəm...

Qapını bərkdən döyməyə qorxurdu, axı, kimsə eşidə bilərdi. O, bir neçə dəfə də Əli Əkrəmi, Əslini səsləyib yalvardı ki, qapını açsınlar.

Nəhayət, Əsli qapını açdı.

Məryəm xanım bəy otağına girib hər şeyi başa düşdü. Əli Əkrəmin üz-gözü elə bil buz bağlamışdı.

-Ay Əli Əkrəm, ay Əli Əkrəm, - dedi və daha ona deməyə söz tapa bilmirdi.

Artıq bir necə arvad üzü görən Əli Əkrəm, bu qızı arvad eləyə bilmədi.

Məryəm fikirləşirdi ki, gərdək döşəyinə salınmış mələfə qana bulanmasa bəyi məsxərəyə qoyarlar və onun sevimlisi biabır olar.

-Yox, mən bu söz-söhbətə yol verə bilmərəm, mən belə biabırçılığa dözmərəm, - Məryəm dedi və Əli Əkrəmin kəmər yerindəki xəncəri çəkib gərdəyə keçdi. Donunun ətəyini yuxarı qaldırıb budunu xəncərin ucu ilə çərtdi və dərhal çıxan qanın bir neçə damcısını mələfəyə damızdırdı və

Əslidən donunu dəyişməməyini xahiş etdi. Qız Məryəm xanımın sözündən çıxmadı. O ki, qaldı Əli Əkrəmə, elə bil bütün bu baş verənlərin ona heç bir dəxli yox idi və elə bil o, tamam başqa bir dünyada idi. Məryəm əlini onun çiyninə qoyub: - Özünü ələ al, - dedi, - hər şey qaydasına düşəcək, - və sonra onun alnından öpüb üzünü Əsliyə tutdu, - indi mən bura yengə ilə qayıdacağam, - dedi və bir xeyli gəlinin üzünə baxdı və bu baxışlarla Əsliyə anlatdı ki, o, özünü necə aparmalıdır.

Əsli də tutduğu əməlin əzabını çəkirdi, tir-tir titrəyirdi, amma özünü zahirən elə göstərirdi ki, guya şadlıq içindədir və bu halda qonaq otağının qapısını açdı və öz boyunbağısını çıxarıb yengənin boynuna saldı. Məryəm xanım ona təklif elədi ki, cavanların otağına getsin.

Artıq hava işıqlanırdı.

Yengə qapını ehmalca döyəndən sonra bəy otağına keçdi, gözləri gərdək döşəyindəki qanlı mələfəyə sataşanda üz-gözünə xoşbəxt bir ifadə gəldi və arxasında dayanmış Məryəm xanımı da içəri dəvət elədi. Bəyin soyunmadığını, elə bəy libasında olduğunu görəndə, nədənsə şübhələndi, amma fərqinə varmadı, onu düşündürən gözlədiyi hədiyyələr idi. Bayırda onu faytonçu gözləyirdi.

Məryəm xanım gəlinə üstü qiymətli daş-qaşlarla bəzədilmiş qızıl kəmər bağışlayandan sonra:

-Bu sənin olsun, - dedi, - amma xahiş edirəm ki, heç kimə heç nə demə. Heç kimə.

Ənənəyə əməl edərək səhər süfrəyə quymaq gətirdilər. Bu quymaq süfrəsində də Məryəm xanım ən çox ona can atırdı ki, Əsli doğmaları ilə tək qalmasın, onlara nə isə pıçıldamasın. O, qorxurdu ki, qız dilindən nə isə qaçırda. Mərcan xanıma da hər şey aydın idi; Əslinin gözlərindəki qüssəyə səbəb nədi. Oğlunun susması da ona aydındı. Arada Məryəm xanım macal tapıb hər şeyi Mərcan xanıma pıçıldamışdı. Mərcan xanım:

-Gözləyək, bəlkə də yollaşacaqlar, - dedi.

...Üç gündən sonra Mərcan xanım bu söhbəti ərinə də açdı. Və Ağa Əlinin hirsləndiyini sezib astadan dilləndi:

-Nə isə bir əncam etmək lazımdı bu işə, - dedi, - amma necə?

Qərara aldılar ki, bu həlli müşgül məsələyə Şıxəlini də calasınlar. Şıxəli eşitdiyi sözlərdən heyrətə gəldi və qət elədi ki, gardaşını evdən çıxarsın və bir kənarda dindirib-danışdırsın.

Qardaşı ilə əməlli-başlı söhbət eləyəndən sonra Şıxəli anladı ki, Əli Əkrəm heç zaman Əsliyə yaxınlaşa bilməyəcək, çünki qızın sifətinə baxanda o, vahimələnir.

Qardaşlar kədər içində ayrıldılar və Şıxəli səhərə qədər götür-qoy elədi ki, neynəsin? Qardaşına necə kömək eləsin? Onu bu burulğandan, bataqlıqdan necə çıxarsın? Və son nəhayətdə ata-anası bu söhbətin çözülməsi zamanı təklif elədi ki, cavanları Kislovodskiyə - onun oradakı evinə göndərsinlər.

-Bir qədər də orada yaşayarlar. Böyük evdi, hər kəs çəkilər bir küncə, sonra Əli Əkrəm də gedər Peterburqa, bacısının yanına, ordakı xadimələr də etibarlı, mehriban adamlardı, Əslini darıxmağa qoymazlar.

Məryəm xanım bu xəbəri cavanlara da çatdırdı.

Bir həftə də belə ötdü.

...Əsli divanda əyləşib evin sükutunu pozmadan için-için ağlayırdı. Dərdi çəkiləsi deyildi.

-Axı, məni niyə anamdan ayırdın, ay Allah? Niyə qoymadın məni də özü ilə o dünyaya aparsın? Bəs məni ərə vermək nədən ötrü idi? Bu əzabları biz niyə çəkməli idik? Əli Əkrəmin nə günahı var? Eh zavallı ata, hamısı səndən oldu, yalnız sənin gözündə mən idbar deyiləm. İlahi, belə də bədbəxtlik olar?

Əsli bu fəryadı öz-özünə qoparırdı, bu sözləri öz-özünə deyirdi.

-Məni bağışla! - Əli Əkrəm gözlənilmədən dilləndi.

Əsli diksindi. Birinci dəfə idi ki, Əli Əkrəmin səsini eşidirdi.

Əli Əkrəm sözünə davam elədi:

-Mən düz hərəkət eləmədim, istəyirdim ki, səni də, Qaraxanı da xoşbəxt eləyim, amma nə edim, özümlə bacara bilmirəm, hər halda, sən bu evdə qalmalısan, sən mənim arvadımsan, namusumsan.

Əli Əkrəm yaxşı başa düşürdü ki, qız ata evinə qayıtsa biabır olar. Əslinin isə günahı yox idi.

-Bütün bunların günahkarı mənəm, - acı təəssüf hissiylə dedi və yataq otağını tərk elədi.

Qəfil güllə səsi ev-eşiyi titrətdi və bir anlığa heç kim bu səsdən baş açа bilmədi...

...Yerə sərilmiş Əli Əkrəmin sinəsindən qan fışqırırdı. Saçı-birçəyi sifətini örtmüş Məryəm xanım qışqırırdı. Mərcan xanım oğluna sarı əyildi, əlini ehmalca başına çəkdi. Qəhərli, titrək səslə:

-Bu nə iş idi sən tutdun, gözəl balam? - dedi. - niyə evimizi yıxdın? Niyə?

Mərcan xanım asta-asta başını yırğalayırdı. Ağa Əli, Şıxəli, Məlik Ağa, Baba Əli, Ağa Xan heyrət içində dayanmışdılar. Hamısı da baş vermiş bu faciədə özünü suçlu sayırdı.

Nökərlərdən hansısa dilləndi:

-Bu günahdır ki.

Mərcan xanım bu sözü təkrar elədi:

- Günahdır?!

Və için-için hönkürəndən sonra səsini qaldırdı:

-Y-o-x!!!

Bu qəfil sarsıntıdan elə bil ayaqları da süstləşmişdi, yerdən qalxa bilmədi, sürünə-sürünə Ağa Əliyə yaxınlaşdı, qollarını yuxarı qaldırdı, amma anlamaq mümkün deyildi ki, kimdən imdad diləyir? Allahdan, yoxsa ömür yoldaşından? Heyrətdən böyümüş yaş dolu gözlərini ərinin üzünə zillədi.

Ağa Əli arvadının baxışlarından dəhşətli bir sual oxudu və başa düşdü ki, Mərcan xanım nə demək, nə xahiş etmək istəyir.

-Mən başıbəlalı, bədbəxt oğlumu kimdən qorumalıyam? Bu günaha batmağa rəvac vermiş Allahdan? Yoxsa şayiələrdən?

Mərcan xanım yerindən dikəldi:

-Bu mənim günahımdır! Mənim! - dedi. - Mən anayam. Allah qarşısında da cavabdeh mənəm. Günahkaram. Qiyamət günü bu günahıma görə də cavab verməliyəm. Mənim oğlumu öldürüblər! O, özü mənə demişdi ki, gəzməyə gedəcək, özü də cangüdəni Qorxmazla.

Ağa Əli ilə Şıxəli sınayıcı nəzərlərlə baxışdılar və bir-birlərini anladılar.

-Mən qatili tapacağam! - Şıxəli otaqdan çıxa-çıxa dedi və dərhal qardaşlar da onun ardınca otağı tərk elədilər. Ağa Əli oğlanlarını həyətdən çıxmamış qabaqlayıb əylədi: - Qaraxanın arxasınca adam göndərin, - dedi.

Təzəbəyin öldürülməsi xəbəri ildırım kimi əks-səda verdi. Bütün tanış-biliş axışıb gəldi. Bu fəlakət barədə hərə öz sözünü yana-yana deyirdi. Mərcan xanım isə diz çöküb xahiş eləyirdi ki, dua eləsinlər, Allaha yalvarsınlar. O, daha ağlamırdı, çünki ürəyi özündə deyildi, Yaradana vermişdi. Yaradan özü onu uşaqlarının günahına görə dindirəcəkdi. O da yalnız Yaradana cavab verəcəkdi. Axı o, alidi, Pərvərdigardı!

-İlahi, bağışla mənim balamı, - Mərcan xanım dedi, - o, günahkar deyil, günahkar mənəm.

Yataq otağından çıxan başı örtüklü Əsli də asta addımlarla meyitə yaxınlaşdı və diz çöküb oturdu.

Onu görəndə Məryəm xanım daha da ucadan hönkürməyə başladı, demək olar ki, nalə çəkdi...

Əsli ehmalca - elə bil meyitin ağrıyacağından ehtiyat edirdi, - Əli Əkrəmin barmaqlarını araladı və qan çilənmiş tapançanı ovcundan çıxardı. Qız bir də Əli Əkrəmin əlinə toxundu, öpmək istədi, amma buna da cürət eləmədi.

Özünü hadisə yerinə yetirən Qaraxan çaşqınlıq içində idi. Ağa Əli onu öz otağına dəvət elədi. Söhbət uzun çəkdi və otaqdan çıxan kimi qızının qarşısında günahkarcasına təzim elədi:

-Gedək qızım, - dedi, - gedək...

-Yox, ata, - Əsli etirazını bildirdi, - mən getməyəcəm, bura mənim evimdi, mən bu evin gəliniyəm, Əli Əkrəmin dul arvadıyam, mən... - Sözünün ardını gətirmədi, çünki artıq bu qərara gəlmişdi ki, sirrini özü ilə o dünyaya aparacaq, heç kimə açmayacaq.

Və dərhal da Mərcan xanıma yaxınlaşdı:

-Xahiş edirəm məni bu evdən qovmayın, - dedi.

Mərcan xanım bir qədər fikrə gedəndən sonra dedi:

-Qal. Məryəm xanımla Suraxanıda yaşayarsan, indi isə dua elə, mənim kimi, başqa yolumuz yoxdur.

Bakıətrafı qəsəbələrin şimşəyi, özünü güclü, cəsur bir şəxsiyyət kimi tanıtmış Qaraxan otaqdan başıaşağı çıxdı.

-Axı, mən niyə yeganə balamı ərə verdim? Niyə? Bəyəm mənimlə yaşaya bilməzdimi? Günah məndə oldu. Bəs Əli Əkrəm? Yox, ona mən hər şeyi söyləmişdim. Hamı günahkardı. Hamı.

Qaraxan baş alıb gedirdi, amma özü də bilmirdi ki, hara gedir. Həyat ondan ötrü öz böyük mənasını itirmişdi.

IV FƏSİL

Əsli Məryəm xanımla birlikdə bu böyük ailənin Suraxanıdakı mülkündə yaşayası oldu. Məryəm xanım Əsliyə gözə və tökülmüş qaşın yerinə sürmə çəkməyi bir neçə günə başa saldı, çünki analığı ona belə şeylər öyrətməmişdi. Toy günü isə ögey anası gəlinlik libasında olan qızın xətrinə dəymişdi. Qulağı eşidə-eşidə söyləmişdi:

-Bu qədər yaşamışam, amma bilməmişəm ki, heç nədən gəlin düzəltmək olar?

Əsli Məryəmin himayəsində özünü əsl insan kimi hiss eləyirdi. Mərcan xanım, demək olar ki, onların yanına gəlmirdi. Ağa Əli qəsəbədə ona həvalə olunan dövlət işi ilə məşğul olurdu və həm də köhnə evin həyətində buruq qazdırmağa başlamış Şıxəlinin işlərinə göz qoyurdu. Şıxəli isə tez-tez Kislovodskiyə gedirdi, o, bu şəhərdə Tamara Qruzinskaya adlı bir müğənni ilə görüşürdü. O, Tamarayla Parisə, Moskvaya, Peterburqa gedirdi, amma yalnız Kislovodskidə tam rahatlıq tapırdı. Bu mülkdə dostlarla bir yerə cəm olanda Tamara Şıxəlinin müşayiəti ilə oxuyurdu. Tamara bu mülkü öz evi sayırdı; vaxtaşırı ev əşyaları alırdı, mebelləri təzələyirdi. Tamaranın bu

hərəkətləri Şıxəlini sevindirirdi və bu səbəbdən o, Tamaranın şıltaqlılarını də incə yumorla qarşılayırdı.

Əli Əkrəmin ölümü ilə bağlı Şıxəlinin toyu bir il təxirə düşdü və o, öz qayğısız həyatını heç bir kənar müdaxilədən çəkinmədən yaşayırdı.

Mərcan xanım bu arada Xorasana - Məşhəd şəhərinə ziyarətə gedib-gəldiyi üçün daha onu Mərcan xanım yox, Məşədi Mərcan çağırırdılar. Fatiməyə üç yerdən elçi gəlmişdi, Baba Əli ilə Ağa Xan Parisə getmişdilər. Yalnız Ağa Əli şəhərdən çıxa bilmirdi, Şıxəlinin Suraxanıda tikdirməyə başladığı teatr binasının inşasına da o, özü nəzarət eləyirdi. Evin həyətində və eyni zamanda Balaxanıda onlara məxsus olan iki yerdə neft fontan vurmuşdu. Şıxəlinin yaxın gələcəkdə öz cavan arvadı ilə yaşayacağı dördmərtəbəli evin də inşasına başlamışdılar. Şüvəlandakı 48 otaqdan ibarət bağ mülkü isə artıq hazır idi. Bu bağ evinin fasadını Şıxəlinin adı bəzəyirdi. Şıxəli istəyirdi yayda bütün ailə onun bağında cəmlənsin. Bu mülkdə hətta cangüdənlər üçün də ayrıca otaq inşa olunmuşdu. Təbii ki, qulluqçular da unudulmamışdı, hamamla camaşırxananın arasındakı otaqlarda onlara da yer ayrılmışdı. Şıxəli şübhə eləmirdi ki, ailə üzvlərini hər şeydən çox burdakı meyvə bağı heyrətə gətirəcək. Bağban Əmir burda elə çeşidli ağaclar əkmişdi, elə bir bağ salmışdı ki, tamaşasından doymaq olmurdu, güllərin, çiçəklərin ətri-rayihəsi adamı məst eləyirdi, oxumağa həvəsləndirirdi.

Məşədi Mərcan qulluqçularından birinə tapşırıq verdi ki, Suraxanıya getsin, ərini də, oğlanlarını da tapıb desin ki, vacib bir məsələ var, gəlsinlər həll eləyək.

Bu vacib məsələ də Fatimənin taleyi ilə bağlı idi. Qıza üç yerdən elçi düşmüşdü və hələlik heç kimə "nə hə, nə yox" deyə bilmirdi, axı, bu məsələdə son sözü evin kişisi - Ağa Əli deməli idi.

-Qoy bir yerə yığışsınlar, biz də bir qərara gələk, - Məşədi Mərcan dedi, - görək Fatiməni kimə veririk?

Mərcan xanım bu barədə çox düşünüb-daşınmışdı, müəyyən bir niyyətə də gəlmişdi: bu, olduqca cəsarətli bir fikir idi. O istəyirdi ki, Fatimə özü seçim eləsin.

- Qoy onu istəyənləri görsün, hansından xoşu gəlsə, hansını bəyənsə ona da getsin, çünki başqa zamandı, elə biz də başqa cür yaşayırıq, teatra gedirik, avropalılar kimi geyinirik, amma ərə getmək gələndə ənənədən çıxa bilmirik.

Mərcan xanım nökərlər üçün təzə paltar sifariş edəndə birini artıq tikdirdi. Fatiməyə özü hər şeyi başa salmışdı, ona anlatmışdı ki, bu məsələdə necə hərəkət etməlidi. Hətta ana-bala məşq də eləmişdilər.

Şıxəli atasından qabaq evə gəldi. Məlik Ağanın əlindən əsəbi idi.

-O, yenə qumarda uduzub, cangüdənini göndərmişdi pul üçün, verdim, amma bir də verməyəcəyəm, - dedi, - pul ayağının altındadı, qara torpaqdadı, o isə hec nə görmür.

-Gözün aydın, Andrey Pavloviçdən eşitdim ki, üç quyun bir gündə fontan vurub, - dedi, - xeyirli olsun. Amma Məlik Ağaya bir də pul vermə.

-Verməyəcəyəm, bir qəpik də...

-İndi belə deyirsən, mən səni tanıyıram, sabah yenə yazığın gələcək ona, verəcəksən...

Şıxəli başını yırğaladı.

- Qardaşdı da, neynəyəsən, - dedi, - mənə elə gəlir ki, Bilqeyis xanım ona bir uşaq dünyaya qətirsəydi, onun da həyatının mənası olardı. İndi isə keyfindən qalmır.

Ağa Əli evə bu söhbətin tamamında gəldi. Başına gələn hadisəni arvadına danışmadı. Ona açılan atəş mərhum oğlu Əli Əkrəmin cangüdəni Qorxmaza dəymişdi və bu cavan oğlan aldığı yaradan yerindəcə keçinmişdi.

Özünü evə çatdırıb yumşaq divanda əyləşib fikirləşirdi ki, ehtiyatı bir an da olsun əldən vermək olmaz.

-O köpək uşaqları heç cür sakitləşmək istəmirlər. Gözü götürməyən də nə qədər istəsən... Amma nə etmək olar? Bu həyatdır. Belə yazılıb. Gərək bu dünyanın sevinci kimi, göz yaşını da qarşılamağı bacarasan. - Ağa Əli bu sözləri öz-özünə deyirdi, özünə təskinlik, toxtaqlıq vermək istəyirdi. Və hiss eləyirdi ki, tez-tez otağa girib-çıxan Mərcan xanımın da ona nə isə vacib sözü

var. Amma evin baş xanımı xadimələrə şam süfrəsi açmaq barədə tapşırıq verəndən sonra mətləb üstə gəldi.

-Sən bilirsən ki, Fatiməyə üç yerdən elçi düşüblər, - dedi, - mən buna bir ana kimi sevinirəm. Amma istəyirəm ki, sən bu oğlanlara baxıb seçimini eyləyəsən.

-Nə demək istəyirsən?

-Fatiməni istəyən cavanların üçünü də evimizə dəvət edək, onlarla bir qədər danışaq və fikirləşib kimə məsləhət olsa, ona da verək.

Ağa Əli dinmədi və görünür, elə bu səbəbdən də Mərcan xanım öz niyyətini daha tutarlı bir dəlillə əsaslandırmaq qərarına gəldi:

-Əli Əkrəmin müsibəti bizə dərs olmalıdır! - dedi, - vaxtında Əli Əkrəm Əslini görsəydi, o müsibət baş verərdimi?

Sual kəskin qoyulmuşdu və əslində cavaba da ehtiyac yoxdu.

Araya çökən sükutu Şıxəli pozdu:

-Padşah ailəsindən nəyimiz əskikdir, kim xoşumuza gələr, ona da verərik...

Şıxəli həyatın diktə elədiyi yeni qaydalara, qanunlara biganə deyildi, əksinə, saf düşüncə tərzinə rəğbət bəsləyirdi.

- Səriyyə xanımın ailəsi icazə versəydi, mən onunla çoxdan tanış olardım, - dedi, - guya nişanlımdı, amma heç üzünü də görməmişəm...

Mərcan xanım sərt baxışlarını oğluna zillədi, çünki bilirdi ki, Şıxəli tanış gimnaziya müəlliminin köməyi ilə Səriyyə xanımı dərs danışmaq üçün lövhəyə çıxanda, qapının arasından ona xeyli tamaşa eləyib və qız çox xoşuna gəlib.

Fatimənin adını tutan, ona nişanlanmaq istəyən cavanların üçünə də xəbər çatdırdılar ki, cümə günü, gündüz saat 3-də Ağa Əli onları görmək istəyir.

Ağa Əlinin ailəsi artıq bu şəhərdə elə bir nüfuz, hörmət qazanmışdı ki, heç kimin ağlına da gəlməzdi ki, bu dəvəti harasa yozsunlar.

Qonaqların üçü də təyin olunmuş vaxtda Ağa Əlinin evində idilər.

Mərcan xanım hər şeyi qabaqcadan ölçüb-biçmişdi.

Bir-birilə parallel olan iki qonaq otağı şüşəbəndli eyvanla tamamlanırdı. Bu ona görə idi ki, evdə şadyanalıq olanda, bir otaqda kişilər, o biri qonaq otağında isə qadınlar əyləşəndə, eyvanda oturmuş xanəndələrin ifa etdiqi muğamlar, çalğıçıların musiqisi hər iki otağa yayılsın. Bu otaqlardan istifadə edib Mərcan xanım öz casərətli addımını atdı.

Mərcan xanım eyvanda açılmış süfrəyə cürbəcür təamlar düzdürmüşdü.

Qonaq otagının birində Ağa Əli sağında Şıxəli, solunda Məlik Ağa əyləşmişdi. Onların arxası eyvana idi. Nağı bəy, Həsənağa və Mir Mehdi onlarla ozbəüz oturmuşdular. Mərcan xanım stulları elə düzdürmüşdü ki, eyvandan baxanda, qonaqların üçünün də üzü görünsün. Əlbəttə, əsas məqsəd də o idi ki, qulluqçu libası geyinmiş Fatimə onları müşahidə edə bilsin. O, qulluqçu libasında süfrədəki qabları rahlayırdı.

Mərcan xanım qonaq otağına daxil olub qonaqları salamladı. Onlar stullardan dikəlib ədəb-ərkanla özlərini təqdim edəndə, Fatimə də bildi ki, kim kimdi. Elə əsas məsələ də bu idi ki, Fatimə onları tanısın.

- Qonaqlarımıza meyvə təklif etmək olarmı? - Mərcan xanım Ağa Əliyə yaxınlaşıb soruşdu.

- Bəli, olar - Ağa Əli gülümsündü.

Mərcan xanım eyvana keçdi və Fatiməyilə o biri qonaq otağından tezliklə cıxdılar ki, onların kələyindən nə qardaşları, nə də Ağa Əli xəbər tutmasınlar..

Fatimə öz otağına keçti, Mərcan xanım isə qulluqçulara tapşırıq verib özü də qızının otağına getdi.

Qonaqları qedəndən sonra Mərcan xanım yenidən qonaq otağına gəlib üzünü kişilərə tutub söhbətə qarışdı:

- Mən sizin fikrinizi bilmək istəyirəm, - dedi, - mənim üçün sizin rəyiniz maraqlıdır.

Məlik Ağanın Nağıdan xoşu gəlirdi, onlar uşaqlıqdan dostluq eləyirdilər. Şıxəli Həsənağanı bəyənirdi:

- O, ağıllıdır, xeyirxahdır, - dedi, - Mir Mehdi də pis oğlan deyil, amma belə yerdə seçim etmək çox qəliz məsələdir, zarafat deyil, bacımızın taleyi həll olunur.

- Mir Mehdidən mənim xoşum gəldi, o etibarlıdır, ona bel bağlamağa dəyər, Mərcan xanım nə deyəcək?

- Nə deyə bilər ki? - Mərcan xanım söylədi.

Əslinə qalsa, Həsənağa onun da xoşuna gəlirdi, amma Fatimə də atası kimi Mir Mehdini seçdi, ona görə də Mərcan dedi: - Əlbəttə, sən haqlısan, Ağa Əli, Mir Mehdi etibarlı oğlandı.

Toydan qabaq ailə üzvləri Şıxəlinin bağına yığışdılar.

Ayişə ilə Məcid körpələri ilə birlikdə Peterburqdan, Baba Əli İngiltərədən - təhsilini davam etdirdiyi şəhərdən, Ağa Xan Parisdən gəldi. Uzun illərin ayrılığından sonra bütün ailə yenidən bir yerə cəm olmuşdu. Yuxarı başda Ağa Əli oturmuşdu. Sağında Məşədi Mərcan, solunda Məryəm xanım. Oğullarına, gəlinlərinə, qızlarına, kürəkənlərinə, nəvələrinə baxırdı və sevincdən gözləri yaşarırdı.

-Yaşadıq, nəvə də gördük, - Ağa Əli iftixarla dedi. Amma Amanın, Şabanın, Əli Əkrəmın yoxluğu onu göyüm-göyüm göynədirdi, çünki övladlarının arasında onların yeri görünürdü.

Xəyalları Mərcan xanımı da ötən günlərə qaytarırdı. O, əziz adları dilinə gətirib salavat çevirdi və astadan dedi:

- Yeriniz görünür, mənim əzizlərim, ruhunuz şad olsun.

- Nahardan sonra mənim qızımın bişirdiyi mürəbbə ilə çay içəcəyik, - Məryəm xanım ucadan dedi və nəvazişlə əlini Əslinin kürəyinə çəkdi.

Artıq Əsli də bu ailəyə qaynayıb qarışmışdı, ailə üzvləri də onun əcaib bir hala düşmüş sifətinə baxmağa alışmışdı, Əsli özü də daha üzünü yaylıqla örtüb ailə üzvlərindən gizlətmirdi, Məryəm xanımı ana, özünü isə bu ailənin tamhüquqlu üzvü sayırdı. Bütün bu münasibətlər qarşılıqlıydı.

Şıxəli sevinirdi ki, böyük və mehriban ailəsi onun tikdirdiyi bağ mülkündə toplaşmışdı.

- Doğma, ən əziz adamların yanındadırsa, bu dünyada bundan daha gözəl nə ola bilər?! Bu, xoşbəxtlikdir! - yadına nişanlısı Səriyyə xanımı saldı, axı, onlar tezliklə qovuşacaqlar və vaxt qələcək, o da bu bagda istirahət edəcək, inşallah, bizim uşaqlarımız da.

* * *

Ağa Əli qızına yaxınlaşdı. Fatimə ailənin əzizlənən övladı idi, Ağa Əli də onu çox istəyirdi. Əli Əkrəmin faciəli ölümündən sonra Fatiməyə daha da mehr salmışdı və çox güman ki, buna səbəb onun Əli Əkrəmə həddindən artıq bənzəməsi idi. Ağa Əli bu əziz gündə qızına xeyir-dua verməliydi. Amma nədənsə, deməyə münasib söz tapmadı, alnından öpdü və aralandı.

Mir Mehdinin doğmaları otağa oynaya-oynaya, oxuya-oxuya girdilər və dərhal hamının diqqəti Fatiməyə yönəldi. Mərcan xanım da başını aşağı salmış, azacıq qızarmış qızına ürək sözünü dedi:

- Xoşbəxt ol, mənim balam. Unutma ki, gələcək səadətin sənin öz əlindədir.

Məryəm xanım da yerindən qalxıb Fatiməyə xeyir-dua verdi:

- Səni Allah özü qorusun!

Çala-çala, odlu silahlardan havaya atəş aça-aça Fatiməni ər evinə aparırdılar. Ağa Əli öz otağının pəncərəsindən onların dalınca baxırdı. Yaşanmış uzun bir ömrün yaratdığı ovqatdan gözləri yaşarırdı.

Bir damla yaş kəmər yerindəki xəncərinin dəstəyindən tutmuş əlinə düşdü.

- Mən necə də sizi sevirəm, mənim balalarım.

V FƏSİL

Çox keçmədi ki, Şıxəli də evləndi. Onun işləri, necə deyərlər, göylə gedirdi. Neftə qoyduğu sərmayə böyük mənfəət gətirirdi. Və o, bu qazancın sayəsində gön-dəri zavodu tikdirmişdi, balıq vətəgələri yaratmışdı, üstəlik, ona sanballı bir vəzifə də vermişdilər. Onu neft sənayesi mühafizə idarəsinin sədri təyin etmişdilər. Elə özünün də adla deyilən mühafizə dəstəsi vardı. Suraxanıda, Balaxanıda fəhlələr üçün tikdirdiyi binalar, yaşayış məhəllələri günbəgün artırdı. Ona məyusluq, qüssə gətirən bircə şey vardısa, o da atasının dərdi idi; Ağa Əli möhkəm xəstələnmişdi. Daha həkimin də əlindən bir şey gəlmirdi. Öz işgüzarlığı və qurduğu insani münasibətlər nəticəsində bu ailənin ən yaxın adamına çevrilmiş Andrey Pavloviç yastığının yanından çəkilmirdi.

- Mən öləndən sonra təsərrüfatı elə bu qaydada davam etdirərsən, Mərcan xanım tək bacarmaz, mən xoşbəxt adamam ki, qarşıma sənin kimi bir insan çıxıb, - Ağa Əli dedi, - sən namuslu, təmiz adamsan və gözəl dostsan.

Andrey Pavloviç gülümsündü və onu sakitləşdirmək istədi:

- Hələ tezdi ölüm haqqında danışmaq, - dedi, - çox tezdi...

- Yox, əziz dostum, tez deyil, mən özüm hər şeyi hiss eləyirəm, doktor Şvartsın da Ağa Xana pıçıldadığı sözü qulağım çaldı, düzdür, mən alman dilini bilmirəm, amma o sözdən sonra Ağa Xanın nə hala düşdüyünü gördüm, - Ağa Əli dedi və bir qədər ara verib, bir-iki dəfə udqunandan sonra sözünə davam elədi, - hər halda, mən bu dünyadan əliboş getmirəm, oğlanlarım sağ olsun, Ağa Xan Almaniyada oxuyur, mühəndis olacaq, Baba Əli Londonda təhsil alır, Məlik Ağa da mənim işlərimi davam edir, o ki qaldı Şıxəliyə, onun işləri göz qabağındadır. Qızlarım da, maşallah, hərəsi bir yıxılı evin dirəyi, özləri də Ay parçası, o ki, qaldı... - Ağa Əli sözünün ardını gətirmədi, arvadları daima ona arxa, dayaq olmuş Məşədi Mərcan və eləcə ailənin şərəfini qoruyan Məryəm xanım haqqında nə isə deməyə ar elədi, çünki onlar yalnız ona məxsus varlıqlardı, yalnız ona...

Mərcan xanım içəri girən kimi Andrey Pavloviç yerindən qalxdı.

- Sizə yemək gətirimmi? - Mərcan xanım soruşdu.

- Yox, yeməyə ehtiyac yoxdur, - Ağa Əli dedi, - Andrey Pavloviç də gedir, yolundan saxlamayaq, amma sən dayan...

Andrey Pavloviç otaqdan çıxan kimi o, arvadının əlini ovcuna aldı və indiyədək ona demədiyi sözləri də əllərinin, barmaqlarının təmasıyla çatdırdı...

O günün axşamı Ağa Əli dünyasını dəyişdi.

Məşədi Mərçanın xahişiylə onu Suraxanıdaki evin həyətində dəfn etdilər.

Qəsəbə matəm içindəydi.

Ağa Əli hamının karına gələn, hamıya yarayan bir insan idi, onun qayğısını bu qəsəbədə kim görməmişdi? Hamı ona rəğbət bəsləyirdi, hamı bilirdi: Ağa Əli qəsəbədə məktəb tikdirib ki, onların uşaqları təhsil alsın, savadlansın. Qəsəbə sakinlərinin iftixarla "bolnitsa" adlandırdıqları tibbi mərkəz də Ağa Əlinin pulu ilə inşa olunmuşdu. Son dərəcə sərtliyinə baxmayaraq, dinləməyi və yardım etməyi bacarırdı. Sayıb qurtarmaq olarmı onun xeyirxah əməllərini? Əsil ata idi.

Üç gün ehsan verdilər, dördüncü gün Mərcan xanım övladlarını başına cəm elədi.

- Sizdən xahiş edirəm, - dedi, - siz nə lazım idisə elədiniz, amma bu gündən sonra sizin burda qalmağınızı, mərhumun 40-na qədər rəva görmürəm. Gedin işinizi-gücünüzü qaydaya salın. Atanızın ruhu qardaşlarınızın ruhuna qovuşdu. Ağa Əli Allahın sevimli bəndəsi idi ki, son mənzilə oğlanlarının çiynində getdi. Bu hamıya nəsib olmur. Mən də sizə başsağlığı verirəm və bir daha xahiş edirəm ki, gedin, 40-a gələrsiniz.

Mərcan xanım oğlanlarını, qızlarını, kürəkənlərini bir-bir bağrına basdı, amma özünü şax tutdu, ağlamadı, sızlamadı, o, yeni bir həyatın astanasındaydı: dul qadın.

- Sən güclüsən, qürurlusan! Sən məğlub olmayacaqsan! - Bu, ürəyinin səsi idi və qəribə səslənsə də, o, hərdən ürəyinin səsini eşidirdi.

Gecəyarı övladları dağılışandan sonra Mərcan xanım ərinin tüfəngini çiyninə keçirib şəxsi nökəriylə evdən çıxdı.

- Düşməndən hər şey gözləmək olar... O alçaqlar onu öldürə bilmədilər, amma qəbrini mundarlamağı bacararlar. Onlardan nə desən çıxar...- dedi.

40 gün belə keçdi, daha doğrusu, 40 gecə... sübhə kimi hələ torpağı soyumamış məzarın keşiyini çəkdi. 40 mərasiminin səhəri öz gözlənilməz niyyətini hamıya bildirdi. O, qərara almışdı ki, cənazənin yerini dəyişsin.

- Axundun razılığını almışam, - dedi, - Allahın köməiylə!

Tabutu elə iri bir xalçaya bükdülər ki, heç kimin ağlına gəlməzdi ki, arasında tabut var.

Bu səfərdə Mərcan xanımı altı cavan oğlan müşayiət eləyirdi. Onlar Şıxəlinin ən inanılmış işçiləri idilər. Təkçə Şıxəli bilirdi ki, anası ərinin məzarını harda bərpa edəcək.

Məşədi Mərcan qayıdandan sonra hamı bildi ki, Ağa Əlinin nəşi Xorasan vilayətindəki müqəddəs qəbiristanlıqda torpağa tapşırılıb.

***

Məlik Ağa uduzurdu, qətiyyən əli gətirmirdi. Növbəti uğursuzluqdan sonra cangüdənini göndərdi Şıxəligilə ki, pul gətirsin. Amma Şıxəli evdə deyildi, xanımı ilə qonaqlıqda idi. O, kazinoya əliboş qayıtdı. Məlik Ağa əsəbiləşdi, o, uduzduqlarını qaytarmaq istəyirdi.

- Gələn dəfə udarsınız, bəy, - cangüdəni onu dilə tutmaq istədi, - gedək...

Məlik Ağa getmək istəmirdi, kazinodakılara göz gəzdirirdi ki, görsün kimdən borc istəyə bilər? O, hələ Şıxəlidən başqa heç kimdən pul istəməmişdi.

Gözünə atasının köhnə dostlarından biri sataşdı və elə ona da yaxınlaşdı.

- Lütfi bəy, mənə bir az pul verə bilərsinizmi? Səhər qaytaracağam. Namusuma and içirəm.

Lütfi bəy gülümsündü:

- Yox, oğlum, mənim pulum yoxdu, - dedi, - incimə, sən öl yoxdu!

Məlik Ağa üzr istəyib kənara çəkildi. Və bir piyalə şərab içəndən sonra qərara aldı ki, kazinonu tərk eləsin. Amma elə qapıdan çıxmaq istəyirdi ki, gözü Lütfi bəyi aldı. Lütfi bəy yaxın qohumlarından birinin ovcuna pul sayırdı. Qan Məlik Ağanın beyninə vurdu.

- Mənə? Mənə "sən öl" vururdun? - Bu sözlərlə Məlik Ağa Lütfi bəyə yaxınlaşdı, - mənə "sən öl" deyirdin? Özün öl! Heyvan oğlu heyvan. Məni məsxərəyə qoyan hələ anasından olmayıb.

Qəfil bir atəşlə Lütfi bəyi yerə sərdi və kazinonu tərk elədi. Özünü itirmiş cangüdən də onun arxasınca çıxdı. Birinci dəfə idi ki, bu kazinoda dəhşətli hadisə baş verirdi. Görünür, elə buna görə də sonradan Bakıda kazinolara silahla daxil olmağı qadağan elədilər. Qumarxanaya gələn birinci növbədə tapançasını, xəncərini kazino nəzarətçisinə təhvil verməli idi, yalnız bundan sonra içəri keçə bilərdi.

Lütfi bəyin qohumunun bağırtısı hələ də eşidilirdi, Məlik Ağa isə tələsirdi. Ona gizlənmək lazım idi, özü də tək yox, cangüdəni ilə birlikdə.

Şıxəli və Səriyyə xanım qonaqlıqdan çox gec qayıtdılar, onlar ən yaxın dostlarının arasında idilər. Şıxəli neft mühəndisi Belenki ilə çoxdan dostluq eləyirdi. Evlənəndən sonra arvadını Belenkinin xanımı ilə tanış eləmişdi və qadınlar da yaxınlıq etməyə başlamışdılar. Belenkinin, Drujeninin, Şvartsın evinə Səriyyə xanım avropasayağı geyinirdi. Onun Avropadan alınıb gətirilmiş belə paltarları kifayət qədər idi və o, bu paltarları geyinib teatra və başqa müsamirələrə gedəndə sevinirdi. Bu libaslarda incəbel və ucaboy (əri ilə yanaşı duranda, Şıxəlinin qaşı

bərabərində idi) Səriyyə xanım daha gözəl görünürdi. Onun son dəbdə daranmış, sahmana salınmış buğdayı saçları bəmbəyaz sifətinə xüsusi gözəllik verirdi. Şıxəlinin yaxın dostları sırasında ruslar da, yəhudilər də, almanlar da vardı və Səriyyə belə müsamirələr zamanı onların hamısıyla ünsiyyət, ülfət yaradırdı və çox sevinirdi ki, əri onu belə bir cəmiyyətə gətirib.

Evə çatandan sonra qonaqlıqda diqqətçəkən söhbətləri müzakirə etməyə başladılar.

Səriyyə xanım divanda uzanmışdı və başını yastığa yox, ərinin dizinin üstə qoymuşdu. O, hamilə idi və arzu eləyirdi ki, ərinə oğul qismət eləsin.

Həyət qapısının zəngi eşidildi.

Şıxəli otaqdan çıxanda artıq şveytsar qapını açmışdı. Astanada pristav və iki yaraqlı jandarma dayanmışdı.

- Hanı sizin qardaşınız?! - Pristav soruşdu. - o, indicə adam öldürüb. Hanı o?

- Mən heç nə bilmirəm, - dedi, - amma çalışıb aydınlaşdıraram.

Pristav dedi: - Siz bizimlə getməli olacaqsınız. Geyinin.

Şıxəli geyinmək üçün otağa qayıdanda, Səriyyə xanım ağlayırdı.

- Narahat olma, hər şey aydınlaşacaq, sən yalnız Andrey Pavloviçə təcili zəng vur, - Şıxəli dedi və arvadının üzündən öpüb pristava təzim elədi, - mən hazır...

Səhər bütün dostlar, yaxınlar Şıxəlinin evinə toplaşmışdılar. Belenki öyrəndi ki, Şıxəlidən şübhələnirlər; özü də yalnız qardaşını gizlətdiyi üçün yox, həm də bu qətldə birbaşa əli olduğuna görə. Məsələ burasındadır ki, Şıxəli də hərdən kazinoya gedirdi və hansısa sərxoş şahidlərdən biri demişdi ki, Lütfi bəyi öldürən elə Şıxəli özü idi. Amma Şıxəli ilə Məlik Ağanı dəyişik salmaq mümkün deyildi. Məlik Ağa həm boyca Şıxəlidən nisbətən balaca idi, həm də ağbənizdi,

mavi gözləri, şabalıdı bığları vardı. O, zahirən daha çox atasına bənzəyirdi, yalnız boyda fərqləri var idi.

İki gün ərzində Andrey Pavloviç Şıxəlinin vəkili Vulfla birlikdə yüksək çinli məmurların qəbul otaqlarına ayaq döydü, Şıxəlinin dostlarından Muxtar bəy, İsgəndər bəy, Səfərəli bəy, Tağı bəy onlara kömək elədilər. Bu dostların tapşırığına, yaratdığı əlaqələrə baxmayaraq, vəkil çox çətinliklə sübut elədi ki, qətl hadisəsi baş verən zaman Xəzər hərbi flotunun kapitanı Drujinin və Şıxəli həyat yoldaşları ilə birgə Belenkinin qonağı olublar. Şıxəlinin qətldə günahlandırılması gündəmdən çıxarılsa da, onu yenə təcridxanada saxladılar.

- Nə qədər ki, qardaşının yerini bizə söyləməyib, onu azadlığa buraxmayacağıq, - Bu sözü baş polis vəkilə dedi və bildirdi ki, bu şərti Şıxəliyə çatdırsın.

Baş polis gözəl bilirdi ki, bu qanunsuzluqdu, amma Lütfi bəyin ailəsi Məlik Ağanın tapılması üçün ona böyük məbləğdə pul təklif eləmişdi. Mərcan xanım çox yerə əl uzatdı, gümanı gələn adamların hamısını dindirdi, amma "Məlik Ağanı gördüm" deyən olmadı və o da bu qərara gəldi ki, ola bilsin ki, İrana, ya da başqa bir ölkəyə qaçıb. Mərcan xanım bilirdi ki, Məlik Ağa kefcil olsa da, mərddi. Bilsəydi ki, ona görə qardaşını incidirlər, özü meydana çıxıb hökumətə təslim olardı, o, qorxaq deyil ki, kiminsə arxasında gizlənə.

Mərcan xanım ümidsiz halda səhərə kimi yata bilmədi. Otağın bu başından o başına, o başından bu başına var-gəl elədi və son nəhayətdə bu qərara gəldi ki, çarın hüzuruna getsin.

- Padşahın özünə ağız açacağam, Nikolayın qarşısında diz çökəcəyəm, yalvaracağam, -dedi, - başqa yol yoxdur.

Məryəm xanım da günübacısının bu niyyətini dəstəklədi.

- Sən Əslini də götür get Suraxanıya, heç kimə də heç nə demə, elə bilsinlər ki, biz bir yerdəyik, - Mərcan xanım dedi, - Şixəli nəyə görə əzab çəkməlidir? Kim günahkardırsa, o da cavab verməlidi.

Məşədi Mərcan geyinib-keçinib evdən çıxanda ərinin tapançasını da, hər ehtimala qarşı, donunun altından buduna sarıdı.

- Uzaq yoldu, hər şey ola bilər, - dedi, - və kənizin artıq əlində tutduğu, azuqə ilə dolu yol çantasını alıb evdən çıxdı.

Peterburqda qatardan düşəndən sonra faytona əyləşib arabaçıya bu şəhərdə yaşayan qızının ünvanı yazılmış zərfi göstərib anlatdı ki, hara getməlidir.

Mərcan xanımı qapının kandarında görəndə Ayişə yerindəcə quruyub qaldı, gözlərinə inanmadı, dili söz tutmadı. Elə Mərcan xanım özü də kövrəldi. Amma ağlamadı, qəribə də olsa, birbaşa mətləbə keçdi və Şıxəlinin başına gələn müsibəti danışmağa başladı.

- Vaxtı itirmək olmaz, Şıxəlinin türmədə keçən hər günü ölümdən betərdir, - dedi, - o, bu zilləti çəkməməlidi, o, günahsızdı.

Ayişəyə elə gəlirdi ki, indicə anasının ürəyi partlayacaq. Eşitdigi hadisə Ayişənin başına sığmırdı. Göz yaşları içində ərinə zəng elədi:

- Məşədi Mərcan gəlib, - dedi, - gəl evə.

Məşədi Mərcan Məcidi görəndə də kövrəlib doluxsundu.

- Mənə Ağa Yusifi tapmaq lazımdı, Hacı Hacıağanın oğlu Ağa Yusifi deyirəm. O, həqiqi mülki müşavirdi, sarayda sözü keçən adamdı. Ağa Yusif bizim ailəni də yaxşı tanıyır, Şıxəlini də, - Mərcan xanım dedi, - mən onunla görüşməliyəm ki, Nikolayın qəbuluna düşməkdə mənə yardımçı olsun. O,xeyirxahdı, məni dinləyib başa düşəcək, həqiqəti qoruyandı.

Məcid üzr istəyib gedəndən sonra divanda oturmuş Mərcan xanım nəvələrini əzizlədi. Ayişə anasını qucaqlayıb öpdü.

- Sənincün yaman qəribsəmişdim, ay ana, - dedi.

Mərcan xanım köks ötürərək dedi:

- Elə mən də sənincün yaman darıxmışdım, - və özünü qınadı ki, nə üçün ər evinə köçürəndən sonra bir dəfə də ona baş çəkməyib. Axı, Peterburqa gəlmək, sən demə, o qədər də çətin deyilmiş, sadəcə, vaxt yoxdu, işdən baş açılmırdı.

Mərcan xanımı fikir apardı, o, bilirdi ki, çarın qəbuluna düşmək hər adama nəsib olmur, amma necə olur-olsun çarın qəbuluna düşməlidi.

Məcid işdən qayıdan kimi dedi:

- Hazırlaşın, Mərcan xanım, Ağa Yusif bəy sizi gözləyir, o, bizə kömək eləyəcək.

- Şükür kərəminə, İlahi, ey yeri-göyü yaradan! - Məşədi Mərcan astadan dedi və geyinməyə getdi.

II Nikolayın qəbuluna?! Yəni onu çar özü qəbul edəcək? O, imperatorla üz-üzə dayanacaq?! Kim inanardı buna? Bəli! Bu incə Azərbaycan qadını bu səddi aşdı, bir Allah bilir ki, nə çətinliklərlə. Məşədi Mərcan Nikolayın qarşısında diz çökdü və hər şeyi ona izah elədi:

- Heç bir taqsırı olmayan oğlumu həbs eləyiblər, - dedi, - ikisi də mənim oqlanlarımdı, amma taxsırı olmayanı tutublar. Mən aman istəmirəm, mən həqiqəti tələb eləyirəm.

İmperator sözünü bir cümlə ilə bitirdi:

- Arxayın ol, ana, evə çatanda oğlunu ailəsinin yanında görəcəksən, yoldan qalma.

Yol boyu elə çarın dilindən çıxan bu cümlə qulağında səslənirdi, imperatorla görüşün məqamları anbaan gözləri önünə gəlirdi.

II Nikolayın sərəncamı bir cümlədən ibarətdi: "Şıxəli Ağa Əli oğlu təcridxanadan buraxılsın, bu məsələdə rus mundirinə ləkə gətirənlər ciddi cəzalandırılsın".

Mərcan xanım evə çatanda onu Şıxəli özü qarşıladı.

Səriyyə xanımın rəngi-ruhundan hiss elədi ki, ərinə görə keçirdiyi sarsıntı öz işini görüb. Dərhal qarnı da çəkilmişdi.

- Qəm eləmə, Allah səni övladsız qoymaz, - Mərcan xanım dedi, - əsas məsələ odur ki, ərin yanındadır. Amma Məlik Ağanın dərsini ozüm verəcəyəm, sağlıq olsun, salamat qayıtsın.

Məşədi Mərcan Suraxanıya yollandı ki, köhnə evin sakitliyində bir qədər dincəlsin.

Məlik Ağa bir aydan sonra peyda oldu. Əlbəttə, o, baş vermiş hadisələr haqqında heç nə bilmirdi. Eşidəndə ki, onun günahı ucbatından Şıxəlini qazamata salıblar: - Bunlar hamısı o gorbagor olmuş Lütfi bəyin qohumlarının hoqqasıdı, - birdən-birə dedi, - eybi yox, onlar sağ, mən sağ, polismeysterə də qandıraram ki, qanun nədi.

- Onu Rusiyaya qaytardılar, - Şixəli dedi.

Baş vermiş qətl hadisəsinə görə Məlik Ağa təzə polismeysterin hüzuruna özü getdi. Hər şeyi olduğu kimi danışdı və sonra da bu məhkəmə işinə Şıxəlinin tutduğu vəkillər qarışdı. Şahidləri də dindirdilər və son nəhayətdə mərhumu baş vermiş hadisənin səbəbkarı kimi müəyyənləşdirib Məlik Ağaya üç il iş kəsdilər.

VI FƏSİL

Bakının ən məşhur uşaq həkimi doktor Qindus və Şıxəli qonaq otağında əyləşib xəbər gözləyirdilər. Doktor Şvarts və mamaça Berta Səriyyə xanımın yanından bir an ayrılmadan çalışırdılar.

- Sizi təbrik edirəm, cənab Şıxəli, - doktor Şvarts qonaq otağına girib dedi, - oğlunuz oldu!

Şıxəli sevincindən qışqırmaq istəyirdi, amma susdu. Əllərini göyə qaldırıb dedi: - Şükür Allaha, mənim arzum yerinə yetdi.

- Səriyyə xanım ozünü necə hiss edir? - Şixəli soruşdu.

- Hər şey qaydasındadır, yarım saatdan sonra onu da, oğlunuzu da görə bilərsiniz, - həkim dedi, - amma indi növbə cənab Qindusundu, qoy körpəni müayinə eləsin.

Qindus da Şıxəlini təbrik edib doktor Şvartsla zahı yatan otağa keçdi. Şıxəli dərhal anasına zəng vurdu. Dəstəyi Ayişə götürdü. Ayişə Peterburqdan gəlmişdi ki, bütün yayı Şüvələndakı bağlarında dincəlsin. İndi o da şəhərdə idi və bütün ailə üzvləri kimi Şıxəlinin ilkini gözləyirdi.

- Məşədi Mərcandan muştuluq ala bilərsən, - Şıxəli dedi, - onun bir oğul nəvəsi dünyaya qəldi.

- Şıxəlinin oğlu olub! Şıxəlinin oğlu olub, - Ayişə sevindiyindən oynayırdı.

Mərcan xanım Ayişəni də, Fatiməni də qucaqladı və sevincindən gözləri yaşardı.

Artıq bu şad xəbər barədə məlumatı olan Məcidlə Mir Mehdi Şıxəlinin mülkünə tələsirdilər və cangüdənlərinə bildirirdilər ki, bu şad xəbəri bütün qohum-əqrəbaya çatdırsınlar.

Şıxəli içəri keçdi və zahıya yaxınlaşdı. Səriyyə xanım ilə Şıxəli bir-birinə baxıb gülümsədilər.

Doktor Qindus qundaqda olan uşağı Şıxəliyə uzadıb dedi:

- Bu da sizin oğlunuz. Sağlam uşaqdır.

- İlahi, bu necə də balacadı! - qollarında yatmış uşağına baxıb dedi. Mənim körpəm! Mənim oğlum!

Həkimlər və mamaça otaqdan çıxdılar.

Şıxəli körpəni Səriyyə xanımın çarpayısına qoyub onun alnından öpdü.

- Çox sağ ol, - dedi, - bu möcüzədi! Sən məni bəxtiyar elədin.

Səriyyə xanımın sir-sifəti, üz-gözü anbaan işıqlanırdı. Onun ən böyük arzusu həyata keçmişdi, dünyaya körpə gətirmişdi, özü də oğlan.

Şıxəli tapşırıq verdi ki, bir sürü qoç alıb qurban kəssinlər və Suraxanının kasıb zümrəsinə qurban əti paylasınlar. Öz fəhlələrinə qurban ətindən əlavə həm də düyü, yağ göndərdi. Şıxəlinin tikdirdiyi teatr binasında üç gün çalıb-oxudular. Bu şənliyə bütün qəsəbə qatıldı.

Uşağın 40-ı çıxandan sonra Şıxəli oğluna şappaxeyir elədi.

Evdəki şadyanalıq təmtəraqlı idi. Qonaq otaqları dolub-boşalırdı.

Səriyyə xanım sevincindən bilmirdi neynəsin, o, daha da gözəlləşmişdi. Qonaqlar ona da, körpəsinə də nələr bağışlamamışdılar!? Amma ən qiymətli hədiyyəni ona Şıxəli elədi. Bu boyunbağı idi. Ortalığında on karatlıq brilyant, sağ və sol tərəfə getdikcə kiçilən brilyantlar düzülmüşdü. Ən axırıncı bəndi bir karatlıq brilyant tamamlayırdı. Şıxəli bu çil-çıraq kimi yanan boyunbağını həyat yoldaşının boynuna saldı.

Səriyyə xanım xoşbəxtliyindən nur saçırdı.

- Musiqinin səsi mənim kabinetimdə eşidilir, gedək oynayaq, - Şixəli dedi. Onlar uşaq kimi bir-birinin əlindən tutub kabinetə daxil oldular. Gözəl oyun havası səslənirdi. Şixəli ilə Səriyyə rəqs eləyirdilər, onlar çox xoşbəxt idilər, dünya onların ayaqlarının altındaydı.

Səriyyə xanım qeyri-adi zövqə malik, gözəl ev sahibəsi idi. Hər xanəni döndərmişdi bir şah otağına. Yataq otağını elə bəzəmişdi ki, hətta bir dəfə Şıxəli bu xanəni yaxın dostlarına da göstərmişdi. Təbii ki, üzr istəyəndən sonra. Qonaqların ağzı açılı qalmışdı. Çarpayıların ipək təxti-rəvanları, örtüklərin üzərində ipək saplarla toxunmuş əl işləri, bu əl işlərinə uyarlandırılmış pərdələr - iki göz istəyirdi tamaşa eləsin.

- Bütün bunları Səriyyə xanım özü yaradıb, - Şıxəli iftixarla dedi.

Ertəsi gün Şıxəlinin dostlarının xanımları da, məxsusi gəlib bu yataq otağına baxdılar, çünki bu otağın tərifi artıq dillərdə dolaşırdı.

Səriyyə xanım məzə ilə dedi: - Sən məni pərt eləyirsən.

- Qoy hamı bilsin ki, Şıxəlinin necə xanımı var!

Həmişə olduğu kimi, erkən oyanmış Şıxəli pəncərənin taxta laylarını örtdü ki, Xəzərdən boylanan günəşin şüaları Səriyyə xanımı səhər yuxusundan oyatmasın. Otaqdan çıxanda körpənin dayəsi ilə qarşılaşdı. O, balaca Əli Ağanı qucağında tutmuşdu.

- Sabahınız xeyir, ağa - dayə dedi, - xanım oyanmayıb? Körpəni xanım əmizdirəcək, ya mən?

- Qoy bir az da yuxusunu alsın, - Şıxəli körpəni qıdıqladı və nəvazişlə oğluna baxıb dedi, - apar uşağı, yoxsa anasını durğuzar.

Dayə körpəni aparandan sonra o, öz kabinetinə keçdi. Qəbul günü idi. Bir qayda olaraq o, qəbul günü öz işinə sübh tezdən başlayırdı. Sənədləri, ərizələri araşdırırdı. Son zamanlar qazdırdığı

daha 12 quyu fontan vurmuşdu. Ona qibtə edənlər çoxalmışdı, axı cəmi 32 yaşı vardı, neft istehsalçılarının ən cavanıdı. Sənədlərin arasında Tamaradan məktub var idi. Yazırdı ki, Kislovodskiyə gəlir və onu səbirsizliklə qözləyir.

Şixəli bığaltı qülümsəyib, - çümə günü yola düşərəm, - dedi.

Cavan ailənin adətən bir yerdə şam elədiyi, deyib-güldüyü otaqda sakitlikdi. Səriyyə xanım Şixəlinin getməsinə razı deyildi, amma qəti şəkildə öz etirazını bildirmirdi.

- Haçan qayıdacaqsan?

- Mənə elə gəlir ki, bir həftəyə, uzaqbaşı on günə. Sən qəm eləmə, - dedi. - Sənin ürəyindən keçən şeylərin hamısını sifariş vermişəm. Mələfədən, qətfədən tutmuş, cib dəsmalına kimi, özü də inisialla. Paris dərzilərinin əlindən çıxan şuba da, şlyapa da, son dəbdə tikilmiş bir cüt don da artıq yoldadır, mən qayıdanacan sən güclə onları səliqə-sahmanla yerbəyer edə bilərsən.

- Onda mən gərək sabah təzə çəkmə də sifariş verəm, - Səriyyə şıltaqlıgla dedi.

Onlar bir az da söhbət edəndən sonra Səriyyə xanım yatmağa getdi, Şıxəli isə kazinoya yollandı ki, bir qədər yaxın dostları ilə əylənsin.

VII FƏSİL

Mərcan xanım heyrət içində idi, eşitdiyi xəbərə inanmaq istəmirdi:

- Demək, Nikolayın taxt-tacını devirdilər, - Mərcan xanım öz-özünə dedi, - bəs onda necə olacaq? Biz neynəyəcəyik? Dərdimizi-odumuzu kimə deyəcəyik?

Mərcan xanım həqiqətən dəhşət içində idi, axı o, çar hökumətində özünü nəinki sərbəst, hətta inamlı hiss eləyirdi.

- Padşahsız da ölkə olar? -Məryəm xanıma deyirdi, - hər köpəyoğlunun ağzından bir avaz gəlir.

Əsli evin bir küncündə oturmuşdu; onu nə Nikolay maraqlandırırdı, nə də taxt-tacı, o, hələ qırxı çıxmamış atasının yasını saxlayırdı. Ölümündən qabaq Qaraxan qızına barmaq boyda bir Quran bağışlamışdı. O, müqəddəs kitabı ovcunda tutaraq xəyala dalmışdı. Ona elə gəlirdi ki, ər evinə gəldiyi gündən böyük bir zaman keçib.

- Nədənsə bizim ailənin başına çox qəribə işlər gəldi, çox qəribə, - Əsli öz-özünə dedi, - biz bu dünyaya nə üçün gəlmişdik? Nədən ötrü? Başa düşmürəm...- və bu düşüncənin ağırlığı altında dərindən ah çəkdi.

Əslini fikirlərindən qəfildən otağa girən Məlik Ağanın arvadı Bilqeyis xanım ayırdı. O da Suraxanıda yaşayırdı, ərinin həbs olunmamışdan bir ay qabaq tikib-tamamladığı yeni evdə. İndi isə o, Mərcan xanıma baş çəkməyə gəlmişdi.

- Məlik Ağadan namə var, - Bilqeyis xanım dedi və əlindəki məktubu Mərcan xanıma verdi. Bu əl boyda kağız parçasını dünən türməyə azuqə aparan nökər gətirmişdi.

Məlik Ağa yazırdı ki, səhhətindən şikayəti yoxdur, amma yaman darıxır. Ona göstərdikləri diqqətə, qayğıya görə bütün ailəyə təşəkkürünü də məktubda bildirirdi. Yazırdı: "Mən sizdən çox razıyam". Elə bu cümlə də Mərcan xanımı kövrəltdi.

- Bəyəm bu yaşamaqdı? Buna nə demək olar? Uşaqlarım ola-ola oturmuşam tək-tənha.

Elə bu anda da Fatimə xanım otağa girdi və gülə-gülə:

- Tək niyə qalırsan, ay ana? - dedi. - Bəyəm biz qoyarıq sən yalqız qalasan?

Fatimə xanım Zabratdan analarına, Mərcan xanıma və Məryəm xanıma baş çəkməyə gəlmişdi. Özü də tək yox, başının böyük bir dəstəsiylə: uşaqları, əri, ərinin qardaşı Mir Abbas, Mir Abbasın arvadı Xavər xanım.

Mərçan xanımla Məryəm xanım son zamanlar Suraxanını tərk etmirdilər. Onlar bütün cavanlığı - acılı-şirinli ömürləri keçən bu mülkdə özünü daha rahat, asudə hiss eləyirdilər. Bu yurd Ağa Əlidən qalan kövrək, isti xatirələrlə bağlı idi və heç kim bilmirdi ki, indi onlar bu xatirələrin oduna isinir.

Nökərlər, aşbazlar tədarük görməyə başladılar. Uşaqlar Əslinin başına yığışmışdılar. O, bu uşaqları bir neçə dəfə şahzadə ilə cadugər gözəllərin macəraları üstündə qurulan nağıllarla məftun eləmişdi. Qadınlar qonaq otağına yığışdılar. Mir Mehdi Mərcan xanımla astadan söhbət eləyirdi. Dünya görmüş bu qadın çox şeylər bilirdi və onun məsləhətləri, tövsiyələri dəfələrlə Mir Mehdinin karına gəlmişdi.

Nahardan qabaq Fatimə bildirdi ki, onlar yaxın vaxtlarda birdəfəlik Zabrata yığışacaqlar və orda yaşamağa başlayacaqlar, çünki əri orda xeyli əkinə yararlı torpaq sahəsi olan bir mülk alıb. Özü də qaynı Mir Abbasın evinin yaxınlığında. Qaynı arvadı Xavər xanım da bu qonşuluqdan məmnundu.

- Bu xəbər məni çox sevindirdi, - Mərcan xanım dedi, - nə çatmırsa, biz də kömək eləyərik. Amma mütləq cangüdənləriniz, onların ailələri üçün də ev tikdirin ki, mən də rahat olum.

Baba Əli son məktubunda yazmışdı ki, tezliklə Bakıya gələcək. Şıxəli bu xəbərə çox sevinirdi, çünki ürəyi hər dəqiqə qardaşlarını istəyirdi. Düzdür, kürəkənləri Məcid də, Mir Mehdi də onun hörmətini qardaşdan artıq saxlayırdılar, amma düz deyirlər ki, hərənin öz yeri var. Məryəm xanım hamıya eşitdirdi ki, Baba Əliyə qız da gözaltı eləyib. Ay parçası. O qız Səriyyə xanımın da xoşuna gəlmişdi, amma Məşədi Mərcanın yox.

- Çox arıqdı, özü də təkəbbürlüdü, hamıya da üstdən aşağı baxır.

Ağa Xan isə son məktubunda yazmışdı ki, dostu Ruslanın toyunda Osetin knyazının qızı Mariya ilə tanış olub və qıza vurulub.

- Bu sevda nə ilə nəticələnəcək, bilmirəm, amma inanmıram ki, yaxşılıqla sona varsın, - Şıxəli öz-özünə dedi. O, daha çox Ayişədən nigaran idi. Ayişə məktub da yazmırdı, ona isə Peterburqdan müəmmalı xəbərlər gəlib çatırdı. Amma elə Bakıda da anlaşılmaz əhvalatlar baş verirdi və bu hadisələrin mahiyyətinə varmaq mümkün deyildi. Dərd birdimi, ikidimi? Özünü daima ağır bir yükün altında hiss eləyirdi. Bu, ailə yükü idi və böyük qardaş kimi bu müqəddəs yükü gərək o çəkəydi.

Xaricdən qayıdan kimi Baba Əli evləndi. Taleyinə, qismətinə yazılmış o qızı ilk dəfə Parisdə görmüşdü. Bəyim xanım və onun iki qardaşı valideynləri ilə Parisə gəzməyə gəlmişdilər. Bu şəhərdə də Ağa Xanla qarşılaşdılar. Ağa Xan da qədər-qismətdən onları qardaşı Baba Əli ilə tanış elədi. Nəticə də belə... Bundan yaxşı nə gözləmək olardı?!

Baba Əli həyat yoldaşı ilə ata mülkünə yığışsa da, fikri-xəyalı qalmışdı İngiltərədə. Bəyim xanım özü də xaricdə yaşamaq arzusunda idi və onu Baba Əli ilə daha çox bu istək birləşdirirdi.

Osetin qızı Mariya Ağa Xanın bütün varlığına hakim kəsilmişdi və o bu sirri qızın qardaşı Ruslana da açmışdı. Ruslan köhnə dostu idi, əvvəl Fransada, sonra isə Almaniyada birlikdə oxumuşdular. Ruslanın atasının da Ağa Xana yaxşı münasibəti vardı və ondan heç biri Ağa Xanın Mariya ilə evlənməinə əleyhinə deyildi. Amma anası qəti şəkildə etirazını bildirirdi. Ruslan Yelena ilə evlənəndə də anası dəfələrlə qanını qaraltmışdı, başına oyunlar açmışdı, amma o, uzun zaman anasını dilə tutduqdan, yalvarıb-yaxardıqdan sonra, nəhayət ki, xeyir-duasını almışdı. Toydan sonra da onun anası ilə münasibətində gərginlik yaşandı, elə bir gərginlik yarandı ki, Ruslan qərara aldı ki, ya öz inşaat idarəsini Almaniyaya köçürsün, ya da baş alıb getsin Peterburqa. Nə o özü, nə də arvadı evə getmək istəmirdilər. Ağa Xan bütün günü ya məktub yazırdı, ya da aldığı məktubları oxumaqla məşğul olurdu, yerdə qalan işlərin heç elə bil ona aidiyyəti yox idi.

Xidmətçi üzr istəyib içəri girəndən sonra sözünü dedi:

- Sizə qonaq gəlib, Ağa Xan ağa.

Ağa Xan özü qapıya çıxdı və Ruslanı görəndə çaşıb qaldı.

- Ruslan! Sənin belə qoçaq olduğunu bilməzdim, əhsən!

- Qoçaq oğlan olsaydım, Baba Əlinin toyuna özümü çatdırardım, - Ruslan dedi və gülümsədi.

Dostlar qucaqlaşdılar. İçəri girən Baba Əli də qonaqla qucaqlaşdı.

Çay süfrəsi arxasında xeyli söhbətləşdilər və sonra da getdilər Şıxəlinin yanına. Ağa Xan çoxdan istəyirdi ki, səmimi qostunu böyük qardaşı ilə tanış eləsin.

Baba Əlinin toyu ərəfəsində qazamatdan buraxılmış Məlik Ağa da Şıxəlinin yanında idi. Qardaşlar çoxdan idi ki, bir yerə cəm olmağa macal tapmırdılar. Bu görüş əslində təsadüfi idi, amma elə bil hər şey ölçülüb-biçilmişdi. Aynalar şaqraq kişi gülüşlərindən silkələnəndə, qardaşlar uşaqlıq çağlarında olduğu kimi bir-birini ayamaları ilə səsləyəndə Şıxəli astadan dedi:

- Bax, buna deyərəm əziz gün! Mən də fikirləşirdim ki, həyatımda çatmayan nədir? Sən demə, qardaşlarımla bir yerdə olmaq.

Hamiləliyi kənardan da sezilən Səriyyə xanım otağa daxil oldu və qonaqları salamladı. Hamı ayaqa qalxıb onu salamladı. Səriyyə xanım onları şam etməyə dəvət etdi.

Qonaqlar dağılışandan sonra Səriyyə xanım Şıxəliyə Novruz bayramına hazırlıq görməyindən danışırdı.

- Novruza bir ay qalıb, sən isə indidən tədarük görürsən, - zarafatyana Şixəli dedi.

- Hamıya hədiyyə hazırlamaq istəyirəm.

- Nəyə ehtiyac varsa, əmrini ver, canla-başla yerinə yetirərəm, xanım, - Şıxəli gülümsədi, - indi isə yatmaq vaxtıdır, gedək...

VIII FƏSİL

Dan yeri sökülәndə qəfil atəş səsləri Fatiməni yuxudan oyatdı. Əri artıq ayaq üstdə, özü də tələş içində idi.

- Bu səslər Mir Abbasgildən gəlir, - Mir Mehdi dedi, - evdən çıxmayın, qapıları bağlayın! - dərhal naqanını götürüb bayıra çıxdı, atının belinə qalxıb qardaşının evinə səmt çapdı. Məhəlləyə bir xeyli qalmış gördü ki, qardaşı arvadı Xavəri kimsə zor gücünə atın belinə sarımağa çalışır, başqa birisi evə od vururdu, içəridən uşaqların qışqırtısı eşidilirdi. Mir Mehdi atəş açdı. Bu arada Mir Mehdinin cangüdəni də özünü hadisə yerinə yetirdi və evi yandıran adamlarla onun arasında atışma başlandı. Mir Mehdi görəndə ki, atın belinə bağlanmış qardaşı arvadını qaçırtdılar, atının başını buraxdı ki, quldurları haqlasın. Mir Mehdinin açdığı atəş atlıya dəydi.

At yıxılmışdı, quldur ilə Xavər yerə sərilmişdilər. Mir Mehdi ağappaq ağarmış Xavərə yerdən qalxmaqa kömək etdi.

- Onu öldürdülər, sonra bizə hücum elədilər, uşaqlar necə oldu, bilmədim, hanı onlar? - Xavər birnəfəsə dedi.

Bu dəmdə yaralı quldur Mir Mehdini vurmağa özündə güc tapsa da, üçüncü atəşi açа bilmədi. Yaralanmış Mir Mehdi gülləni onun başına sıxmağa macal tapdı və gedər-gəlməzə yolladığı adamı tanıdı. Bu Xent idi, məşhur quldur - erməni Xent. Xent erməni quldur başçısı idi. Onların törətdiyi vəhşiliklər müsəlman əhalisini dəhşətə gətirirdi.

Atəş səslərindən qorxub-hürkmüş atlar baş alıb qaçdılar.

Xavər uşaqlarının harayına tələsib qaçırdı. Budundan güllə yarası almış Mir Mehdi də qardaşı arvadının arxasınca qaçırdı. Amma qardaşı arvadı ilə onun arasında hələ xeyli məsafə var idi, yaralandığından bu məsafəni azalda bilmirdi, süzülüb çəkməsinin içinə axan isti qanın təmasını hiss eləyirdi.

Kolun arxasından çıxan Qurgen Xavər xanımı yerə yıxaraq boğub öldurməyə çalışırdı. Qurgen də güllə yarası aldığından öz qanına bələnmişdi, onun gözləri vəhşi heyvanın qan gördüyü hissiyətini göstərirdi. Xavər xanım boğazını onun vəhşi əllərindən azad etmək istəyirdi.

Mir Mehdi özünü hadisə yerinə yetirən kimi xəncərini qınından çıxarıb var gücü ilə Qurgenin sinəsinə sapladı. Mir Mehdi Qurgenin Xavər xanımın ulqumuna keçirdiyi barmaqlarını boşaltdı,.. artıq gec idi, zavallı Xavər xanım keçinmişdi.

Mir Mehdi aldığı güllə yarasının ağrısı anbaan artsa da, onu göynədib-sızıldatsa da qardaşı arvadının hələ soyumamış meyitini qucağına aldı:

-Mən Xavəri aparmalıyam, ya Allah, - dedi, - bu mənim borcumdu!..

Fatimə bir neçə saat qabaq onunla qoşa Xavər xanımın uşaqlarının harayına can atan, indisə artıq bu dünya ilə vidalaşmaqda olan Nadejda İvanovnanın böyründə oturub ağlayırdı. Nadenka - onu hamı belə səsləyirdi - Peterburqdan Ayişə ilə gəlmişdi və bu kimsəsiz qadın Peterburqa qayıtmayıb, Fatimə ilə qalmağa üstünlük vermişdi.

İsa ilə Musa ataları Mir Abbasın meyitini qucaqlayıb ağlayırdılar.

Atışma nəticəsində daha yeddi nəfər həlak olmuşdu. Mir Mehdinin cangüdəni İsmayıl və dörd qulluqçu, hələ qırxı çıxmamış Mürsəl və bu körpənin dayəsi. Nadejda İvanovnaya güllə dəyməmişdi, o, bir yaşlı Fərhadı od almış evdən çıxardanda başına dirək düşmüşdü və Fərhadı qoynuna alıb xilas etsə də, özü tirin altından çıxa bilməmişdi.

Yeddi adamın ölümü və bir mülkün yanıb kül olması ilə nəticələnən bu dəhşətli hadisənin ermənilər tərəfindən törədildiyini, indi yalnız bir yaşlı baldızı oğlu Fərhadı sakitləşdirməyə çalışan Fatimə bilirdi, amma baş açа bilmirdi ki, buna səbəb nədir? İsanın, Musanın yaş dolu gözlərində dolaşan da bu sual, bu sorğu idi: "Axı, nə üçün? Nəyə görə?"

Mir Mehdinin qüvvəsi tükənmək üzrə idi, anbaan laxtalanan, soyuyan qanından islanan şalvarı buduna, baldırına yapışmışdı və çoxlu qan itirdiyindən, daha irəliləməyə taqəti qalmamışdı. Qollarının üstündə anbaan Xavərin bədəni soyuyurdu. Meyitin soyuqluğu Mir Mehdiyə keçirdi və daha da gücdən salırdı, amma o anlayırdı ki, qardaşı arvadının meyitini yolda qoyub gedə bilməz.

- Mən çatmalıyam, mən quvvətliyəm. Bu mənim borçumdu. Kişilik borcumdır, - Mir Mehdi qansız dodaqları ilə özü-özünə deyirdi.

Tamam haldan-heydən düşəndə, gözləri qaranlıq gətirəndə qarşısında Fatiməni gördü və sonra qışqırtısını eşitdi:

- Mir Mehdi! Mir Mehdi sağdı, Mir Mehdi ölməyib!

Fatimə xanım onu qucaqlayanda gözləri tamam qaranlıq gətirdi və o, İsa ilə Musanın analarının meyitini necə qucaqladıqlarını, bir yaşlı Fərhadın meyitə necə sarıldığını görmədi.

Fatimə xanım hönkürə-hönkürə dedi:

- Çox şükür, sən sağsan, salamatsan. Mənim əzizim, indicə yaranı sarıyaram.

Mir Mehdi bərk-bərk arvadının əlindən tutmuşdu, elə bil onu dünyaya bağlayan yalnız bu əlin mənası idi.

- Getmə, Fatimə, hara gedirsən? Getmə!

Mir Mehdinin dodaqlarında qan nişanəsi qalmamışdı, amma bu dodaqlar hələ də Fatimə adı pıçıldayırdı.

- Mən burdayam, əzizim, - Fatimə xanım dedi və ərinin yana əyilmiş başını göz yaşlarından islanmış sinəsinə sıxdı.

- Fatimə... - Mir Mehdinin son nəfəsində yalnız bu adı çəkdi, - Fatimə…

Fatimə xanım sinəsinə sıxdığı başın soyuduğunu hiss eləyəndə var səsilə qışqırdı:

- Mir Mehdi!!!

Elə bil bu harayla cavan ərini o dünyadan qaytaracağına ümid bəsləyirdi və ona elə gəlirdi ki, yalnız ərini yox, onu bu dünyaya bağlayan nə varsa, hamısını itirir.

Cənazələri eyni qəbiristanlıqda torpağa tapşırmaq istəyirdilər, amma ruhani idarəsi buna yol vermədi. Mərcan xanım yenə etirazını bildirdi:

- Bir yerdə həlak olanları niyə başqa-başqa yerlərdə torpağa tapşıraq?

Bu suala cavab verən olmadı. Andrey Pavloviç isə dedi:

- Müsəlman qəbiristanlığı ilə xristian qəbirsanlığının arasında bir çinar ağacı ucalır. O çinarın altında hamısını basdırmaq olar, çinarın budaqları müsəlman qəbirstanlığına kölgə saldığı qədər də, xristian qəbirstanlığına kölgə salır və bu iki məzarlıq bir çinarın kölgəsində birləşir.

Elə həmin gün o çinarın altında yeddi qəbir qazdılar və Nadejda İvanovnanı da xristian dininin ənənələri ilə orda basdırdılar. Onun məzarı daha çox xristian qəbirstanlığına yaxın idi.

Cavan çinar öz budaqlarıyla erməni quldurlarının əlindən həlak olmuş qünahsız gözəl insanları quçaqlayırdı.

Mərhumların və mərhumələrin "40" günü ziyarətə gələnlər çinarın altında bir skamya da gördülər. Bu oturacağı məsçidin və kilsənin nümayəndələri bir yerdə düzəltmişdilər. Bunda da müdrik bir hikmət vardı: Allah birdi və insanlar bir-birini anlamalıdı. Bunu başa düşmək üçünsə, bu skamyada oturmaq, baş daşlarındakı tarixlərə nəzər salmaq və düşünmək lazımdı: "Görəsən, bu yanaşı qəbirlərdə uyuyanların eyni gündə bu dünya ilə əbədi vidalaşmasına nə səbəb olub?"

IX FƏSİL

Şıxəli şəhərin mötəbər toplantılarından birində söz alaraq çıxışına bu cümlə ilə başladı:

- Daşnaklar tamam azğınlaşıblar! Binaları dağıdırlar, yanğınlar törədirlər, günahsız adamları öldürürlər, hətta onlara boyun əymək istəməyən ermənilərə də divan tuturlar, insanlar arasına milli zəmində nifaq salırlar.

Yerbəyerdən səslər ucaldı:

- Tədbir görmək lazımdı!..

- Şəhər iflic olub!..

- Mən də bu fikirdəyəm, - Şıxəli dedi, - tədbir görmək lazımdır.

Maraq dolu gözlər Şıxəlinin üzünə dikilmişdi...

- Mən hesab edirəm ki, biz təcili olaraq birləşib dəstələr yaratmalıyıq və birlikdə onları qırmalıyıq.

Hamı Şıxəlini dəstəklədi.

Daşnaklara və onların əlaltılarına qarşı özünümüdafiə hissələri yaradıldı və o dəstələrdən birinə də Şıxəli özü başçılıq etməyə başladı. Silah və patron almaq üçün şəhər ziyalılarının böyuk köməyi oldu. Daha bir müdafiə dəstəsinə Məlik Ağa başçılıq edirdi. Qardaşları Baba Əli, Ağa

Xan və onlara qonaq gəlmiş Ruslan da bu dəstədə vuruşurdu. Peterburqdan yasa gəlmiş Məcid Şıxəlinin dəstəsində idi.

- Elə bir zaman gəlib ki, torpağı yalnız qan bahasına qoruya bilərik. Başqa yol yoxdu, - Şixəli dedi.

Drujinin və Belenki onların ailə üzvlərini öz evlərində gizlətmişdilər. Bu, təhlükəliydi. Çünki daşnaklar üçün fərqi yox idi, onlar bu qaniçən erməni qruplaşmasına xidmət etməyən bütün insanları sorğusuz-sualsız qətlə yetirirdilər. Buna baxmayaraq, Drujinin və Belenki dostlarının ailələrini göz bəbəyi kimi qoruyurdular.

Mərcan xanımın barısı beş arşın hündürlüyündə olan mülkü qalanı xatırladırdı və burada azərbaycanlılarla yanaşı, daşnak təqiblərindən qaçan ermənilər də sığınacaq tapmışdı. Daşnaklar fürsət tapan kimi o ermənilər qətlə yetirirdilər və dərhal da haray salırdılar ki, onları azərbaycanlılar öldürüb. Bir sözlə, kasıb, məzlum təbəqədən qurban kimi istifadə eləyirdilər. Bu səbəbdən, Mərcan xanımın həyətində yetmişdən artıq adam sığınacaq tapmışdı.

Darvazaya yaxınlaşan silahlı atlılar özlərini ucadan təqdim elədilər. Dəstə başçısı Səid bəy dedi ki, ermənilər aparmağa gəlib. Elə bu səbəbdən də Səid bəyin qarşısına Mərcan xanım özü çıxdı, onun çiynində silah var idi.

- Mən bilirəm, ki sizin evinizdə ermənilər gizlənib, onları mənə verin.

- Yox, Səid bəy, üz vurma, onlar erməni arvadlar, uşaqlar, qocalardı, onları sənə versəm, bunu Allah da götürməz., - Mərcan xanım dedi.

-Bəs onlar mənim günahsız qardaşım Hüseyni öldürəndə?.. Bu hadisədən ki sizin xəbəriniz var.

Bəli, Mərcan xanım Səid bəyin qardaşı Hüseynin erməni Manucarla dostluq etdiyini, Manucarın onun var-dövlətini ələ keçirmək məqsədilə tora saldığını, aldadıb bir erməni toyuna apardığını, orda bıçaqlatdırdığını və sonra da Hüseynin meyitini aparıb bir quyuya atdığını bilirdi.

- Sən ki, Hüseynin qanını aldın, Manuçarı da, Manuçarın fitvasıyla Hüseynə əl qaldıran bütün ermənilərin axırına çıxdın, indi nə istəyirsən?

- Nə qədər ki, bu şəhərdə bir erməni qalıb, - Səid bəy dedi, - mən özümü rahat hiss eləyə bilmərəm. Qana-qan! Mənim şüarım budur, gərək onların kökünü kəsəm!

Məşədi Mərcan həyəcanlı olsa da, çox sakit tərzdə son sözünü dedi:

- Mənim ocağımda pənah gətirmiş yetim-yesir ermənilərdi, mən onlara Allah naminə kömək elədim. Onları daşnaklar özləri öldürürlər. Sən mənim evimə, ancaq meyitimin üstündən keçəndən sonra girə bilərsən.

- Sən qadın olmasaydın, - hirslənib özündən çıxmış Səid bəy dedi, - mən sənինlə belə danışmazdım.

Mərcan xanım kinayə ilə gülümsədi:

- Lap yaxşı, demək, kişisən, onda get silahlı ermənilərlə vuruş. Öz nifrətini daşnaklara sərf elə. Allah özü səni qorusun!

Səid bəy başının atlı dəstəsiylə qapıdan təzəcə aralanmışdı ki, darvaza yenə döyüldü. Üst-başı qan içində olan Ağa Xan idi. Amma o yaralı deyildi. At arabası ilə yaralanmış qardaşı Baba Əlini gətirmişdi. Huşu özündə olmayan yaralını otaqda yerləşdirəndən dərhal sonra Andrey Pavloviçi həkim dalınca göndərdilər.

Doktor Şvartsın həyətində Mərcan xanımın həyətindəki kimi, adam çox idi. Ancaq burda hamısı yaralı insanlardı, onlar zarıyır, inildəyirdilər. Burada Andrey Pavloviçə qəribə gələn yaralı azərbaycanlıların yaralı ermənilərlə bir-birinə mərhəm münasibəti oldu. Elə bil kini-küdurəti, ədavəti unutmuşdular. Doktor Şvarts da, köməkçisi də yaralılara fərq qoymur, hamısını xilas etməyə, yaşatmağa çalışırdılar. Andrey Pavloviç ölümcül yaralanmış Samvelı tanıdı. Doktor Şvarts Samvelın sarğısını dəyişirdi.

Andrey Pavloviç dedi: - Mən sizin dalınızca qəlmişəm. Baba Əli yaralıdır.

Andrey Pavloviç Samvel ilə Ağa Xanın lap uşaqlıqdan dostluq etdiklərini bilirdi.

- Ağa Xan necədi? - Samvel soruşdu.

- Ağa Xan səngərdədi...

- Bilirsiz, xəcələt çəkirəm, onlar öz torpaqlarını qoruyurlar. Amma biz...biz kiminsə əlində oyuncağıq, - Samvel doktora baxıb dedi, - gedin, doktor, mən onsuz da ölürəm... amma nəyin naminə?..

Doktor Şvarts cərrahiyyə alətlərini çantasında yerbəyer eləyib həyətdən çıxandan sonra soruşdu:

- Sabahınız xeyir, ağa - dayə dedi, - xanım oyanmayıb? Körpəni xanım əmizdirəcək, ya mən?

- Qoy bir az da yuxusunu alsın, - Şıxəli körpəni qıdıqladı və nəvazişlə oğluna baxıb dedi, - apar uşağı, yoxsa anasını durğuzar.

Dayə körpəni aparandan sonra o, öz kabinetinə keçdi. Qəbul günü idi. Bir qayda olaraq o, qəbul günü öz işinə sübh tezdən başlayırdı. Sənədləri, ərizələri araşdırırdı. Son zamanlar qazdırdığı daha 12 quyu fontan vurmuşdu. Ona qibtə edənlər çoxalmışdı, axı cəmi 32 yaşı vardı, neft istehsalçılarının ən cavanıdı. Sənədlərin arasında Tamaradan məktub var idi. Yazırdı ki, Kislovodskiyə gəlir və onu səbirsizliklə qözləyir.

Şixəli bığaltı qülümsəyib, - çümə günü yola düşərəm, - dedi.

Cavan ailənin adətən bir yerdə şam elədiyi, deyib-güldüyü otaqda sakitlikdi. Səriyyə xanım Şixəlinin getməsinə razı deyildi, amma qəti şəkildə öz etirazını bildirmirdi.

- Haçan qayıdacaqsan?

- Mənə elə gəlir ki, bir həftəyə, uzaqbaşı on günə. Sən qəm eləmə, - dedi. - Sənin ürəyindən keçən şeylərin hamısını sifariş vermişəm. Mələfədən, qətfədən tutmuş, cib dəsmalına kimi, özü də inisialla. Paris dərzilərinin əlindən çıxan şuba da, şlyapa da, son dəbdə tikilmiş bir cüt don da artıq yoldadır, mən qayıdanacan sən güclə onları səliqə-sahmanla yerbəyer edə bilərsən.

- Onda mən gərək sabah təzə çəkmə də sifariş verəm, - Səriyyə şıltaqlıgla dedi.

Onlar bir az da söhbət edəndən sonra Səriyyə xanım yatmağa getdi, Şıxəli isə kazinoya yollandı ki, bir qədər yaxın dostları ilə əylənsin.

VII FƏSİL

Mərcan xanım heyrət içində idi, eşitdiyi xəbərə inanmaq istəmirdi:

- Demək, Nikolayın taxt-tacını devirdilər, - Mərcan xanım öz-özünə dedi, - bəs onda necə olacaq? Biz neynəyəcəyik? Dərdimizi-odumuzu kimə deyəcəyik?

Mərcan xanım həqiqətən dəhşət içində idi, axı o, çar hökumətində özünü nəinki sərbəst, hətta inamlı hiss eləyirdi.

- Padşahsız da ölkə olar? -Məryəm xanıma deyirdi, - hər köpəyoğlunun ağzından bir avaz gəlir.

Əsli evin bir küncündə oturmuşdu; onu nə Nikolay maraqlandırırdı, nə də taxt-tacı, o, hələ qırxı çıxmamış atasının yasını saxlayırdı. Ölümündən qabaq Qaraxan qızına barmaq boyda bir Quran

bağışlamışdı. O, müqəddəs kitabı ovcunda tutaraq xəyala dalmışdı. Ona elə gəlirdi ki, ər evinə gəldiyi gündən böyük bir zaman keçib.

- Nədənsə bizim ailənin başına çox qəribə işlər gəldi, çox qəribə, - Əsli öz-özünə dedi, - biz bu dünyaya nə üçün gəlmişdik? Nədən ötrü? Başa düşmürəm...- və bu düşüncənin ağırlığı altında dərindən ah çəkdi.

Əslini fikirlərindən qəfildən otağa girən Məlik Ağanın arvadı Bilqeyis xanım ayırdı. O da Suraxanıda yaşayırdı, ərinin həbs olunmamışdan bir ay qabaq tikib-tamamladığı yeni evdə. İndi isə o, Mərcan xanıma baş çəkməyə gəlmişdi.

- Məlik Ağadan namə var, - Bilqeyis xanım dedi və əlindəki məktubu Mərcan xanıma verdi. Bu əl boyda kağız parçasını dünən türməyə azuqə aparan nökər gətirmişdi.

Məlik Ağa yazırdı ki, səhhətindən şikayəti yoxdur, amma yaman darıxır. Ona göstərdikləri diqqətə, qayğıya görə bütün ailəyə təşəkkürünü də məktubda bildirirdi. Yazırdı: "Mən sizdən çox razıyam". Elə bu cümlə də Mərcan xanımı kövrəltdi.

- Bəyəm bu yaşamaqdı? Buna nə demək olar? Uşaqlarım ola-ola oturmuşam tək-tənha.

Elə bu anda da Fatimə xanım otağa girdi və gülə-gülə:

- Tək niyə qalırsan, ay ana? - dedi. - Bəyəm biz qoyarıq sən yalqız qalasan?

Fatimə xanım Zabratdan analarına, Mərcan xanıma və Məryəm xanıma baş çəkməyə gəlmişdi. Özü də tək yox, başının böyük bir dəstəsiylə: uşaqları, əri, ərinin qardaşı Mir Abbas, Mir Abbasın arvadı Xavər xanım.

Mərçan xanımla Məryəm xanım son zamanlar Suraxanını tərk etmirdilər. Onlar bütün cavanlığı - acılı-şirinli ömürləri keçən bu mülkdə özünü daha rahat, asudə hiss eləyirdilər. Bu yurd Ağa Əlidən qalan kövrək, isti xatirələrlə bağlı idi və heç kim bilmirdi ki, indi onlar bu xatirələrin oduna isinir.

Nökərlər, aşbazlar tədarük görməyə başladılar. Uşaqlar Əslinin başına yığışmışdılar. O, bu uşaqları bir neçə dəfə şahzadə ilə cadugər gözəllərin macəraları üstündə qurulan nağıllarla məftun eləmişdi. Qadınlar qonaq otağına yığışdılar. Mir Mehdi Mərcan xanımla astadan söhbət eləyirdi. Dünya görmüş bu qadın çox şeylər bilirdi və onun məsləhətləri, tövsiyələri dəfələrlə Mir Mehdinin karına gəlmişdi.

Nahardan qabaq Fatimə bildirdi ki, onlar yaxın vaxtlarda birdəfəlik Zabrata yığışacaqlar və orda yaşamağa başlayacaqlar, çünki əri orda xeyli əkinə yararlı torpaq sahəsi olan bir mülk alıb. Özü də qaynı Mir Abbasın evinin yaxınlığında. Qaynı arvadı Xavər xanım da bu qonşuluqdan məmnundu.

- Bu xəbər məni çox sevindirdi, - Mərcan xanım dedi, - nə çatmırsa, biz də kömək eləyərik. Amma mütləq cangüdənləriniz, onların ailələri üçün də ev tikdirin ki, mən də rahat olum.

Baba Əli son məktubunda yazmışdı ki, tezliklə Bakıya gələcək. Şıxəli bu xəbərə çox sevinirdi, çünki ürəyi hər dəqiqə qardaşlarını istəyirdi. Düzdür, kürəkənləri Məcid də, Mir Mehdi də onun hörmətini qardaşdan artıq saxlayırdılar, amma düz deyirlər ki, hərənin öz yeri var. Məryəm xanım hamıya eşitdirdi ki, Baba Əliyə qız da gözaltı eləyib. Ay parçası. O qız Səriyyə xanımın da xoşuna gəlmişdi, amma Məşədi Mərcanın yox.

- Çox arıqdı, özü də təkəbbürlüdü, hamıya da üstdən aşağı baxır.

Ağa Xan isə son məktubunda yazmışdı ki, dostu Ruslanın toyunda Osetin knyazının qızı Mariya ilə tanış olub və qıza vurulub.

- Bu sevda nə ilə nəticələnəcək, bilmirəm, amma inanmıram ki, yaxşılıqla sona varsın, - Şıxəli öz-özünə dedi. O, daha çox Ayişədən nigaran idi. Ayişə məktub da yazmırdı, ona isə Peterburqdan müəmmalı xəbərlər gəlib çatırdı. Amma elə Bakıda da anlaşılmaz əhvalatlar baş verirdi və bu hadisələrin mahiyyətinə varmaq mümkün deyildi. Dərd birdimi, ikidimi? Özünü daima ağır bir yükün altında hiss eləyirdi. Bu, ailə yükü idi və böyük qardaş kimi bu müqəddəs yükü gərək o çəkəydi.

Xaricdən qayıdan kimi Baba Əli evləndi. Taleyinə, qismətinə yazılmış o qızı ilk dəfə Parisdə görmüşdü. Bəyim xanım və onun iki qardaşı valideynləri ilə Parisə gəzməyə gəlmişdilər. Bu şəhərdə də Ağa Xanla qarşılaşdılar. Ağa Xan da qədər-qismətdən onları qardaşı Baba Əli ilə tanış elədi. Nəticə də belə... Bundan yaxşı nə gözləmək olardı?!

Baba Əli həyat yoldaşı ilə ata mülkünə yığışsa da, fikri-xəyalı qalmışdı İngiltərədə. Bəyim xanım özü də xaricdə yaşamaq arzusunda idi və onu Baba Əli ilə daha çox bu istək birləşdirirdi.

Osetin qızı Mariya Ağa Xanın bütün varlığına hakim kəsilmişdi və o bu sirri qızın qardaşı Ruslana da açmışdı. Ruslan köhnə dostu idi, əvvəl Fransada, sonra isə Almaniyada birlikdə oxumuşdular. Ruslanın atasının da Ağa Xana yaxşı münasibəti vardı və ondan heç biri Ağa Xanın Mariya ilə evlənməinə əleyhinə deyildi. Amma anası qəti şəkildə etirazını bildirirdi. Ruslan Yelena ilə evlənəndə də anası dəfələrlə qanını qaraltmışdı, başına oyunlar açmışdı, amma o, uzun zaman anasını dilə tutduqdan, yalvarıb-yaxardıqdan sonra, nəhayət ki, xeyir-duasını almışdı. Toydan sonra da onun anası ilə münasibətində gərginlik yaşandı, elə bir gərginlik yarandı ki, Ruslan qərara aldı ki, ya öz inşaat idarəsini Almaniyaya köçürsün, ya da baş alıb getsin Peterburqa. Nə o özü, nə də arvadı evə getmək istəmirdilər. Ağa Xan bütün günü ya məktub yazırdı, ya da aldığı məktubları oxumaqla məşğul olurdu, yerdə qalan işlərin heç elə bil ona aidiyyəti yox idi.

Xidmətçi üzr istəyib içəri girəndən sonra sözünü dedi:

- Sizə qonaq gəlib, Ağa Xan ağa.

Ağa Xan özü qapıya çıxdı və Ruslanı görəndə çaşıb qaldı.

- Ruslan! Sənin belə qoçaq olduğunu bilməzdim, əhsən!

- Qoçaq oğlan olsaydım, Baba Əlinin toyuna özümü çatdırardım, - Ruslan dedi və gülümsədi.

Dostlar qucaqlaşdılar. İçəri girən Baba Əli də qonaqla qucaqlaşdı.

Çay süfrəsi arxasında xeyli söhbətləşdilər və sonra da getdilər Şıxəlinin yanına. Ağa Xan çoxdan istəyirdi ki, səmimi qostunu böyük qardaşı ilə tanış eləsin.

Baba Əlinin toyu ərəfəsində qazamatdan buraxılmış Məlik Ağa da Şıxəlinin yanında idi. Qardaşlar çoxdan idi ki, bir yerə cəm olmağa macal tapmırdılar. Bu görüş əslində təsadüfi idi,

amma elə bil hər şey ölçülüb-biçilmişdi. Aynalar şaqraq kişi gülüşlərindən silkələnəndə, qardaşlar uşaqlıq çağlarında olduğu kimi bir-birini ayamaları ilə səsləyəndə Şıxəli astadan dedi:

- Bax, buna deyərəm əziz gün! Mən də fikirləşirdim ki, həyatımda çatmayan nədir? Sən demə, qardaşlarımla bir yerdə olmaq.

Hamiləliyi kənardan da sezilən Səriyyə xanım otağa daxil oldu və qonaqları salamladı. Hamı ayaqa qalxıb onu salamladı. Səriyyə xanım onları şam etməyə dəvət etdi.

Qonaqlar dağılışandan sonra Səriyyə xanım Şıxəliyə Novruz bayramına hazırlıq görməyindən danışırdı.

- Novruza bir ay qalıb, sən isə indidən tədarük görürsən, - zarafatyana Şixəli dedi.

- Hamıya hədiyyə hazırlamaq istəyirəm.

- Nəyə ehtiyac varsa, əmrini ver, canla-başla yerinə yetirərəm, xanım, - Şıxəli gülümsədi, - indi isə yatmaq vaxtıdır, gedək...

VIII FƏSİL

Dan yeri sökülməndə qəfil atəş səsləri Fatiməni yuxudan oyatdı. Əri artıq ayaq üstdə, özü də tələş içində idi.

- Bu səslər Mir Abbasgildən gəlir, - Mir Mehdi dedi, - evdən çıxmayın, qapıları bağlayın! - dərhal naqanını götürüb bayıra çıxdı, atının belinə qalxıb qardaşının evinə səmt çapdı. Məhəlləyə

bir xeyli qalmış gördü ki, qardaşı arvadı Xavəri kimsə zor gücünə atın belinə sarımağa çalışır, başqa birisi evə od vururdu, içəridən uşaqların qışqırtısı eşidilirdi. Mir Mehdi atəş açdı. Bu arada Mir Mehdinin cangüdəni də özünü hadisə yerinə yetirdi və evi yandıran adamlarla onun arasında atışma başlandı. Mir Mehdi görəndə ki, atın belinə bağlanmış qardaşı arvadını qaçırtdılar, atının başını buraxdı ki, quldurları haqlasın. Mir Mehdinin açdığı atəş atlıya dəydi.

At yıxılmışdı, quldur ilə Xavər yerə sərilmişdilər. Mir Mehdi ağappaq ağarmış Xavərə yerdən qalxmaqa kömək etdi.

- Onu öldürdülər, sonra bizə hücum elədilər, uşaqlar necə oldu, bilmədim, hanı onlar? - Xavər birnəfəsə dedi.

Bu dəmdə yaralı quldur Mir Mehdini vurmağa özündə güc tapsa da, üçüncü atəşi açа bilmədi. Yaralanmış Mir Mehdi gülləni onun başına sıxmağa macal tapdı və gedər-gəlməzə yolladığı adamı tanıdı. Bu Xent idi, məşhur quldur - erməni Xent. Xent erməni quldur başçısı idi. Onların törətdiyi vəhşiliklər müsəlman əhalisini dəhşətə gətirirdi.

Atəş səslərindən qorxub-hürkmüş atlar baş alıb qaçdılar.

Xavər uşaqlarının harayına tələsib qaçırdı. Budundan güllə yarası almış Mir Mehdi də qardaşı arvadının arxasınca qaçırdı. Amma qardaşı arvadı ilə onun arasında hələ xeyli məsafə var idi, yaralandığından bu məsafəni azalda bilmirdi, süzülüb çəkməsinin içinə axan isti qanın təmasını hiss eləyirdi.

Kolun arxasından çıxan Qurgen Xavər xanımı yerə yıxaraq boğub öldurməyə çalışırdı. Qurgen də güllə yarası aldığından öz qanına bələnmişdi, onun gözləri vəhşi heyvanın qan gördüyü hissiyətini göstərirdi. Xavər xanım boğazını onun vəhşi əllərindən azad etmək istəyirdi.

Mir Mehdi özünü hadisə yerinə yetirən kimi xəncərini qınından çıxarıb var gücü ilə Qurgenin sinəsinə sapladı. Mir Mehdi Qurgenin Xavər xanımın ulqumuna keçirdiyi barmaqlarını boşaltdı,.. artıq gec idi, zavallı Xavər xanım keçinmişdi.

Mir Mehdi aldığı güllə yarasının ağrısı anbaan artsa da, onu göynədib-sızıldatsa da qardaşı arvadının hələ soyumamış meyitini qucağına aldı:

-Mən Xavəri aparmalıyam, ya Allah, - dedi, - bu mənim borcumdu!..

Fatimə bir neçə saat qabaq onunla qoşa Xavər xanımın uşaqlarının harayına can atan, indisə artıq bu dünya ilə vidalaşmaqda olan Nadejda İvanovnanın böyründə oturub ağlayırdı. Nadenka - onu hamı belə səsləyirdi - Peterburqdan Ayişə ilə gəlmişdi və bu kimsəsiz qadın Peterburqa qayıtmayıb, Fatimə ilə qalmağa üstünlük vermişdi.

İsa ilə Musa ataları Mir Abbasın meyitini qucaqlayıb ağlayırdılar.

Atışma nəticəsində daha yeddi nəfər həlak olmuşdu. Mir Mehdinin cangüdəni İsmayıl və dörd qulluqçu, hələ qırxı çıxmamış Mürsəl və bu körpənin dayəsi. Nadejda İvanovnaya güllə dəyməmişdi, o, bir yaşlı Fərhadı od almış evdən çıxardanda başına dirək düşmüşdü və Fərhadı qoynuna alıb xilas etsə də, özü tirin altından çıxa bilməmişdi.

Yeddi adamın ölümü və bir mülkün yanıb kül olması ilə nəticələnən bu dəhşətli hadisənin ermənilər tərəfindən törədildiyini, indi yalnız bir yaşlı baldızı oğlu Fərhadı sakitləşdirməyə çalışan Fatimə bilirdi, amma baş açа bilmirdi ki, buna səbəb nədir? İsanın, Musanın yaş dolu gözlərində dolaşan da bu sual, bu sorğu idi: "Axı, nə üçün? Nəyə görə?"

Mir Mehdinin qüvvəsi tükənmək üzrə idi, anbaan laxtalanan, soyuyan qanından islanan şalvarı buduna, baldırına yapışmışdı və çoxlu qan itirdiyindən, daha irəliləməyə taqəti qalmamışdı. Qollarının üstündə anbaan Xavərin bədəni soyuyurdu. Meyitin soyuqluğu Mir Mehdiyə keçirdi və daha da gücdən salırdı, amma o anlayırdı ki, qardaşı arvadının meyitini yolda qoyub gedə bilməz.

- Mən çatmalıyam, mən quvvətliyəm. Bu mənim borçumdu. Kişilik borcumdır, - Mir Mehdi qansız dodaqları ilə özü-özünə deyirdi.

Tamam haldan-heydən düşəndə, gözləri qaranlıq gətirəndə qarşısında Fatiməni gördü və sonra qışqırtısını eşitdi:

- Mir Mehdi! Mir Mehdi sağdı, Mir Mehdi ölməyib!

Fatimə xanım onu qucaqlayanda gözləri tamam qaranlıq gətirdi və o, İsa ilə Musanın analarının meyitini necə qucaqladıqlarını, bir yaşlı Fərhadın meyitə necə sarıldığını görmədi.

Fatimə xanım hönkürə-hönkürə dedi:

- Çox şükür, sən sağsan, salamatsan. Mənim əzizim, indicə yaranı sarıyaram.

Mir Mehdi bərk-bərk arvadının əlindən tutmuşdu, elə bil onu dünyaya bağlayan yalnız bu əlin mənası idi.

- Getmə, Fatimə, hara gedirsən? Getmə!

Mir Mehdinin dodaqlarında qan nişanəsi qalmamışdı, amma bu dodaqlar hələ də Fatimə adı pıçıldayırdı.

- Mən burdayam, əzizim, - Fatimə xanım dedi və ərinin yana əyilmiş başını göz yaşlarından islanmış sinəsinə sıxdı.

- Fatimə... - Mir Mehdinin son nəfəsində yalnız bu adı çəkdi, - Fatimə…

Fatimə xanım sinəsinə sıxdığı başın soyuduğunu hiss eləyəndə var səsilə qışqırdı:

- Mir Mehdi!!!

Elə bil bu harayla cavan ərini o dünyadan qaytaracağına ümid bəsləyirdi və ona elə gəlirdi ki, yalnız ərini yox, onu bu dünyaya bağlayan nə varsa, hamısını itirir.

Cənazələri eyni qəbiristanlıqda torpağa tapşırmaq istəyirdilər, amma ruhani idarəsi buna yol vermədi. Mərcan xanım yenə etirazını bildirdi:

- Bir yerdə həlak olanları niyə başqa-başqa yerlərdə torpağa tapşıraq?

Bu suala cavab verən olmadı. Andrey Pavloviç isə dedi:

- Müsəlman qəbiristanlığı ilə xristian qəbirsanlığının arasında bir çinar ağacı ucalır. O çinarın altında hamısını basdırmaq olar, çinarın budaqları müsəlman qəbirstanlığına kölgə saldığı qədər də, xristian qəbirstanlığına kölgə salır və bu iki məzarlıq bir çinarın kölgəsində birləşir.

Elə həmin gün o çinarın altında yeddi qəbir qazdılar və Nadejda İvanovnanı da xristian dininin ənənələri ilə orda basdırdılar. Onun məzarı daha çox xristian qəbirstanlığına yaxın idi.

Cavan çinar öz budaqlarıyla erməni quldurlarının əlindən həlak olmuş qünahsız gözəl insanları quçaqlayırdı.

Mərhumların və mərhumələrin "40" günü ziyarətə gələnlər çinarın altında bir skamya da gördülər. Bu oturacağı məsçidin və kilsənin nümayəndələri bir yerdə düzəltmişdilər. Bunda da müdrik bir hikmət vardı: Allah birdi və insanlar bir-birini anlamalıdı. Bunu başa düşmək üçünsə, bu skamyada oturmaq, baş daşlarındakı tarixlərə nəzər salmaq və düşünmək lazımdı: "Görəsən, bu yanaşı qəbirlərdə uyuyanların eyni gündə bu dünya ilə əbədi vidalaşmasına nə səbəb olub?"

IX FƏSİL

Şıxəli şəhərin mötəbər toplantılarından birində söz alaraq çıxışına bu cümlə ilə başladı:

- Daşnaklar tamam azğınlaşıblar! Binaları dağıdırlar, yanğınlar törədirlər, günahsız adamları öldürürlər, hətta onlara boyun əymək istəməyən ermənilərə də divan tuturlar, insanlar arasına milli zəmində nifaq salırlar.

Yerbəyerdən səslər ucaldı:

- Tədbir görmək lazımdı!..

- Şəhər iflic olub!..

- Mən də bu fikirdəyəm, - Şıxəli dedi, - tədbir görmək lazımdır.

Maraq dolu gözlər Şıxəlinin üzünə dikilmişdi...

- Mən hesab edirəm ki, biz təcili olaraq birləşib dəstələr yaratmalıyıq və birlikdə onları qırmalıyıq.

Hamı Şıxəlini dəstəklədi.

Daşnaklara və onların əlaltılarına qarşı özünümüdafiə hissələri yaradıldı və o dəstələrdən birinə də Şıxəli özü başçılıq etməyə başladı. Silah və patron almaq üçün şəhər ziyalılarının böyuk köməyi oldu. Daha bir müdafiə dəstəsinə Məlik Ağa başçılıq edirdi. Qardaşları Baba Əli, Ağa Xan və onlara qonaq gəlmiş Ruslan da bu dəstədə vuruşurdu. Peterburqdan yasa gəlmiş Məcid Şıxəlinin dəstəsində idi.

- Elə bir zaman gəlib ki, torpağı yalnız qan bahasına qoruya bilərik. Başqa yol yoxdu, - Şixəli dedi.

Drujinin və Belenki onların ailə üzvlərini öz evlərində gizlətmişdilər. Bu, təhlükəliydi. Çünki daşnaklar üçün fərqi yox idi, onlar bu qaniçən erməni qruplaşmasına xidmət etməyən bütün insanları sorğusuz-sualsız qətlə yetirirdilər. Buna baxmayaraq, Drujinin və Belenki dostlarının ailələrini göz bəbəyi kimi qoruyurdular.

Mərcan xanımın barısı beş arşın hündürlüyündə olan mülkü qalanı xatırladırdı və burada azərbaycanlılarla yanaşı, daşnak təqiblərindən qaçan ermənilər də sığınacaq tapmışdı. Daşnaklar fürsət tapan kimi o ermənilərı qətlə yetirirdilər və dərhal da haray salırdılar ki, onları azərbaycanlılar öldürüb. Bir sözlə, kasıb, məzlum təbəqədən qurban kimi istifadə eləyirdilər. Bu səbəbdən, Mərcan xanımın həyətində yetmişdən artıq adam sığınacaq tapmışdı.

Darvazaya yaxınlaşan silahlı atlılar özlərini ucadan təqdim elədilər. Dəstə başçısı Səid bəy dedi ki, ermənilərı aparmağa gəlib. Elə bu səbəbdən də Səid bəyin qarşısına Mərcan xanım özü çıxdı, onun çiynində silah var idi.

- Mən bilirəm, ki sizin evinizdə ermənilər gizlənib, onları mənə verin.

- Yox, Səid bəy, üz vurma, onlar erməni arvadlar, uşaqlar, qocalardı, onları sənə versəm, bunu Allah da götürməz., - Mərcan xanım dedi.

-Bəs onlar mənim günahsız qardaşım Hüseyni öldürəndə?.. Bu hadisədən ki sizin xəbəriniz var.

Bəli, Mərcan xanım Səid bəyin qardaşı Hüseynin erməni Manucarla dostluq etdiyini, Manucarın onun var-dövlətini ələ keçirmək məqsədilə tora saldığını, aldadıb bir erməni toyuna apardığını, orda bıçaqlatdırdığını və sonra da Hüseynin meyitini aparıb bir quyuya atdığını bilirdi.

- Sən ki, Hüseynin qanını aldın, Manuçarı da, Manuçarın fitvasıyla Hüseynə əl qaldıran bütün ermənilərin axırına çıxdın, indi nə istəyirsən?

- Nə qədər ki, bu şəhərdə bir erməni qalıb, - Səid bəy dedi, - mən özümü rahat hiss eləyə bilmərəm. Qana-qan! Mənim şüarım budur, gərək onların kökünü kəsəm!

Məşədi Mərcan həyəcanlı olsa da, çox sakit tərzdə son sözünü dedi:

- Mənim ocağımda pənah gətirmiş yetim-yesir ermənilərdi, mən onlara Allah naminə kömək elədim. Onları daşnaklar özləri öldürürlər. Sən mənim evimə, ancaq meyitimin üstündən keçəndən sonra girə bilərsən.

- Sən qadın olmasaydın, - hirslənib özündən çıxmış Səid bəy dedi, - mən sənինlə belə danışmazdım.

Mərcan xanım kinayə ilə gülümsədi:

- Lap yaxşı, demək, kişisən, onda get silahlı ermənilərlə vuruş. Öz nifrətini daşnaklara sərf elə. Allah özü səni qorusun!

Səid bəy başının atlı dəstəsiylə qapıdan təzəcə aralanmışdı ki, darvaza yenə döyüldü. Üst-başı qan içində olan Ağa Xan idi. Amma o yaralı deyildi. At arabası ilə yaralanmış qardaşı Baba Əlini gətirmişdi. Huşu özündə olmayan yaralını otaqda yerləşdirəndən dərhal sonra Andrey Pavloviçi həkim dalınca göndərdilər.

Doktor Şvartsın həyətində Mərcan xanımın həyətindəki kimi, adam çox idi. Ancaq burda hamısı yaralı insanlardı, onlar zarıyır, inildəyirdilər. Burada Andrey Pavloviçə qəribə gələn yaralı azərbaycanlıların yaralı ermənilərlə bir-birinə mərhəm münasibəti oldu. Elə bil kini-küdurəti, ədavəti unutmuşdular. Doktor Şvarts da, köməkçisi də yaralılara fərq qoymur, hamısını xilas etməyə, yaşatmağa çalışırdılar. Andrey Pavloviç ölümcül yaralanmış Samvelı tanıdı. Doktor Şvarts Samvelın sarğısını dəyişirdi.

Andrey Pavloviç dedi: - Mən sizin dalınızca qəlmişəm. Baba Əli yaralıdır.

Andrey Pavloviç Samvel ilə Ağa Xanın lap uşaqlıqdan dostluq etdiklərini bilirdi.

- Ağa Xan necədi? - Samvel soruşdu.

- Ağa Xan səngərdədi...

- Bilirsiz, xəcələt çəkirəm, onlar öz torpaqlarını qoruyurlar. Amma biz...biz kiminsə əlində oyuncağıq, - Samvel doktora baxıb dedi, - gedin, doktor, mən onsuz da ölürəm... amma nəyin naminə?..

Doktor Şvarts cərrahiyyə alətlərini çantasında yerbəyer eləyib həyətdən çıxandan sonra soruşdu:

- Bəs siz bu işlərə necə baxırsınız, Andrey Pavloviç?

- Necə baxacağam, mən bilirəm ki, azərbaycanlılar vətən yolunda canlarından keçirlər, bəs ermənilər?

- Bu sual məni də çoxdan düşündürür, - doktor Şvarts dedi və yoluna davam elədi.

Baba Əlinin yarasını sarıyandan sonra həkim qetdi.

Qayıdanbaş da doktor Şvartsı Andrey Pavloviç müşayiət elədi və yarı yolda soruşdu:

- Məşədi Mərcanın həyətini gördüz?! Nə deyə bilərsiz?.. Neçə ailənin həyatın xilas elədi!

- Neçə ildir ki, onu tanıyıram, hələ də təəccüblənirəm. Onun ruhən güclülüyü heyrətə gətirir.

- Doktor, sirr deyilsə, sizin rəğbətiniz kimədir?

- Söhbət rəğbətdən getmir, - dedi, - amma mən vətənini qoruyanları başa düşürəm. Azərbaycanlılar yamanlıq etməyiblər ki, Türkiyədən qaçan ermənilərə öz torpaqlarında sığınacaq

veriblər? Budurmu onların "sağ ol"u? Görəsən insanlar nəyə görə rahat yaşamaq istəmirlər? Rusiyada Nikolay xoşlarına gəlmir, burda daşnaklar bilmirsən nə istəyir. İnqilabçıların da axırı yoxdu, - Andrey Pavloviç dedi, - ədalətdən danışırlar, amma heç özləri də bilmirlər ki, ədalət nə olan şeydi? İnsanların illər boyu qazandığı var-dövləti, tikib-qurduğu evi zorla əlindən alırlar. Bəyəm budur ədalət? Onlar özləri də bilmirlər ki, nə istəyirlər. Yox, nə istədiklərini bilirlər: hər şeyi istəyirlər. Bəyəm bu ədalətdi?

Mart hadisələri Azərbaycan əhalisinin böyuk bir facıiəsi idi.

Amma həyat davam edirdi. Əhali yavaş-yavaş özünə gəlirdi.

Baba Əli də yaxşılaşdı və yenə də qohum-əqrəba Mərcan xanımın evinə cəm oldu. Taleyin, qismətin yarısından yeddi uşağın qayğısını çəkməli olan Fatimə də gəlib çıxdı. Bu uşaqların dördü özünün, üçü mərhum Xavərindi. Balaca Fərhad Fatimənin qolları üstündə uyuyurdu. Bilqeyis xanım körpəyə heyran-heyran baxırdı və təbii ki, əri Məlik Ağa onu anlayırdı. O, neçə ildən bəri ərdə olsa da, hələ ana ola bilməmişdi və bunu özünə dərd eləmişdi.

Bilqeyis xanım körpəni Fatimənin qolları üstündən götürüb öz qucağına alanda, sinəsinə sıxanda Məlik Ağanın da gözləri yaşardı, bütün bunlara altdan-altdan göz qoyan Mərcan xanımın da.

- Gəlin bu körpəni verək onlara, onların da həyatı mənalansın.

Mərcan xanımın təklifi nə qədər gözlənilməz olsa da, hamını sevindirdi. Son sözü isə, Fatimə xanım deməli idi. İsa ilə Musanın səsi yemək otağından gəlirdi və Fatimə xanım istəyirdi ki, onların da razılığını alsın.

- Mən onu göz bəbəyim kimi qoruyacağam, - Məlik Ağa dedi və Bilqeyis xanım da bu sözü astadan təkrar elədi.

Bilqeyis xanım yalvarış dolu gözləri ilə Fatimə xanıma baxırdı. Fatimə xanım İsa ilə Musanı çağırdı və hamının yanında Musaya, böyük qardaşa sualını verdi:

- Məlik Ağa Fərhadı oğulluğa götürmək istəyir, razısan?

- Razıyam, qoy heç olmasa, o, ata-analı böyüsün, - Musanın yanaqları göz yaşları ilə islandı.

Otaqda sakitlik yarandı.

Fatimə xanım Musanı bərk qucaqlayıb dedi:

- Sən necə də böyümüsən, mənim oğlum. Mən həmişə çalışacağam ki, sizin yaralarınızı sağaldım.

İsti yay günləri başlayan kimi hamılıqla bağa köçdülər.

Şüvəlandakı bağ mülkündə Şıxəlinin daha bir oğlu dünyaya gəldi. Bəyim xanım da hamilə idi. Hamı çalışırdı Fatimə xanıma və onun çoxuşaqlı ailəsinə himayəçilik eləsin. Məlik Ağa Fərhadı oğulluğa götürəndən, evində körpə səsi-uşaq gülüşü eşidiləndən tamam dəyişmişdi, daha axşamlar kazinoya getmirdi, evə gəlirdi və bu, Bilqeyis xanımı çox sevindirirdi. Baba Əlinin yarası tamam sağalmışdı. Ağa Xan Bakıda azərbaycanlı dostları ilə bir sırada daşnaklara qarşı vuruşan və elə bu səbəbdən də anasının rəğbətini qazanan dostu Ruslanın yanına yola düşmüşdü. Ruslan Bakıda onlarla bərabər acı günlər yaşamışdı, ölümlə üz-üzə gəlmişdi, əsl dostluğun nə olduğunu bir daha anlamışdı.

Birinci hissənin sonu

Məmməd İSMAYIL

Bayat

Povest

Əvvəllər yer üzündə heç nə yoxdu, vaxt da boş-boşuna gəlib keçirdi. Dünyanın nə ağacı-daşı vardı, ilişib yaşıl yarpağını saraltsın, qayasını üyüdüb quma döndərsin, nə insanı vardı, cavan ömrünü qoca etsin... Sonra dünya dünya oldu, ağacı-daşı və bu ağaca-daşa "mənimdi" deyən insanı yarandı, beləcə, zamanın iş görmə zamanı gəldi...

* * *

...Doğrudanmı bu onun xarakteri idi? Yoxsa bilərəkdən özünü sovet hökumətinin kağız üzərində qalan, həyata keçməyən şablonuna uyğunlaşdırırdı. Amma o, belə idi. Atasız, köməksiz, kimsəsiz, gözüqıpıq böyümüşdü. Bəlkə sahibsizliyin, kimsəsizliyin, köməksizliyin qorxusundan gələn təmizlikdi bu? Bəlkə arxası, köməyi, dar gündə əlindən tutanı olsaydı, o da şeytan əməlinə uyar, halalına haram qatar, rüşvət də alar, hələ bir az o tərəfə də keçərdi. Heç təmizlik, saflıq haqqında düşünməzdi də... Kim bilir? Bunu hər halda ekstremal hadisələr ortaya çıxarır. Hələ ki, xarakterini sınaqdan çıxarmaq üçün belə bir qeyri-adi hadisə ilə qarşı-qarşıya gəlməmişdi də... Özünə normal bir ev tikdirmək istəyirdi, kənddə çoxlarından seçiləcək, fərqli, hətta adını tarixə sala biləcək bir ev. Bu ev ehtirası beyninə hardan düşmüşdü, özü də bilmirdi. Bəlkə tək bacasından gündüzlər günəşin, gecələr ayın işığı düşən daxmada dünyaya gəldiyindən, gözəgörünməz bir əl onun başına bu zamansız ev sevdasını salmışdı? Sovet hökuməti bəylərin, xanların, ağaların axırına çıxsa da onların adlarının axırına çıxmamışdı, çıxa bilməmişdi. İçində dünyanın ən gözəl meyvə ağacları olan kolxoz bağlarından birinə hələ də "Ağalığın bağı" deyirdilər. O ağalığın bağı ki, armudlarının adı çəkiləndə uzaqdan-uzağa adamın ağzı sulanırdı. Çiçəklər uzaqdan tozlandığı kimi meyvələrin də uzaqdan-uzağa ruha qanad verməyi, maddiləşməyi vardı. Yaşlı adamlar hələ sovet hökumətinin kəsə-kəs vaxtında da kəndin bütün evlərindən seçilən kolxoz idarəsinə "Allahyar bəyin imarəti" deyirdilər... O da elə ev tikdirəcəkdi ki, "Ağalığın bağı", "Allahyar bəyin imarəti" kimi tarixə düşsün... Amma nə ilə, hansı pulla? İçində gözəgörünməz qüvvəyə elə böyük inam vardı ki... Hayandansa qarşısına bir təsadüf çıxacaq və bu təsadüf ömrünün axarını dəyişəcək, yetim arzularının həyata kəçməsinə yardım edəcəkdi. Edəcəkdimi? Bu sualı onun özünə versən, özünün də cavab verəndə dili topuq çalardı. Adəti idi, hər zaman əzilənin yanında yer alar, hətta döyülsə, söyülsə də haqqın tərəfini tutardı. Orta məktəbdə oxuyanda belə davranışlarına görə az təzyiqə məruz qalmamışdı... Bağlı qapıları açacaq dayısı, pulu olmadığından, onun Allaha sığınmaqdan başqa bir çarəsi də yoxdu... İçində elə böyük arzuları vardı ki?! Bir gün bu arzuların onu gerçəklik dünyasına aparacağına adına inanan kimi inanırdı. Bəlkə də dünyada ən böyük iş arzulamaqdır. Hər kəsin arzusu olsa da, hər kəsin arzusu yerinə yetmir ki?! Yalnız inadlı canatımlar insanı arzularına qovuşdurur. Bayat da arzu dağarcığıydı... Görəsən, arzuların mənbəyi hardadır? - deyirdi. Hardan gəlib qəlbimizi ünvan seçir? Bizmi arzuları seçirik, yoxsa o da bir vəhy kimi Allah tərəfindən içimizə doldurulur?.. Hərdən Bayata elə gəlirdi ki, arzuların birbaşa Allahla əlaqəsi var... Və insanı doğan, yoğurub yapan, nəhayət, uğura ulaşdıran atadan, anadan əvvəl arzulardır.
Yəqin dünyaya gələn hər kəsin fərqlənmək, seçilmək ehtirası var. Bu dəli ehtiras Bayata da yad deyildi. Anası hər dəfə falçıya baxdıranda qulağının ucuyla da olsa bu deyilənlərin ümidli, inamlı

sözlərini seçib yaddaşının ən qayım yerinə həkk edərdi. Falçılar isə elə bil bir-birinin qulağına pıçıldamışdılar, elə hey anasına ümidli sözlər deyərdilər:
- Yaman günün ömrü azdır, bax, inşallah, görəcəksən, oğlunun axırı yaxşı olacaq, hamı gələcəkdə ona küvənəcək, bax, görərsən.
Əslində, falçıların sözü bir bəhanə idi, elə Bayatın özü də özündən möcüzə gözləyirdi. Bəlkə, elə Allah insanlar dünyaya gəlməmiş, onların içinə özündən də bir şeylər qoyur, bu, Allaha, möcüzəyə inam hissidir. Biriləri o dünyanın bu dünyaya gələn əzab yolunda o hissi itirir, bu dünyaya gətirə bilmir, biriləri, Bayat kimiləri də o hissin içinə harda dolduğunu, kimin doldurduğunu bilmədən ona inanır, ondan gözəgörünməz ümid kəndiri kimi yapışır. Bayat inanırdı ki, elə nağıllardakı kimi ona da gecələrin birində mələklər tərəfindən badə içiriləcək və elə işlər görməyə qadir olacaq ki, hamı onu barmaqla göstərəcək, hörmət edəcək, hörmət yox ey, pərəstiş edəcək. Amma ona badə içirildiyini hardan biləcəkdi? Buna görə də öz-özünü sınaqdan çıxarmağı qərara almışdı. Doğrudur, bu sınaqlar o qədər də çətin sınaqlar deyildi. Hərdən gözünü yumub qarşıda uzanan yolun bir hissəsini gözüyumulu getmək istəyirdi, görsün çaşıb eləmir ki? Əgər çaşmırdısa, bələdlədiyi yerə gözüyumulu çata bilirdisə, deməli, yavaş-yavaş ona badə içirilməkdə idi. Ya da yaz, yay aylarında çayın qabağını kəsib düzəltdikləri göldə tay-tuşları ilə birlikdə suyun altında nəfəs almadan nə qədər qala biləcəklərinin bəhsinə girişərdilər. O, bu yarışda da birinci olardı. Əgər ona vergi verilməmişdisə, burada Allahın əli yoxdusa, o zaman niyə məhz o, hamıdan çox suyun altında qala bilir? Bəlkə hamıdan çox bunu vərdişə çevirdiyindən? Yox, əşşi, guya o biri uşaqlar səndən az çalışır suyun altında çox qalmağa.Yox, burda həqiqətən də qeyri-adi nəsə var. Bunu demək asandır, amma bu "nəsəni" hamıya sübut etməli idi. Onu tay-tuşları arasında fərqləndirəcək işlər elə də böyük işlər deyildi ki, kəndə səs salsın.
- Niyə darıxırsan, - deyirdi, - Allahın köməyi ilə bu gün-sabah onlar da olacaq! Kəndi dolaşan və hər birində də Allah sirri gizlənən özünü sınaqdan çıxarmaq üçün o qədər əfsanələr vardı ki?! Payızın çənli, çisəkli havalarında pələş yarpaqlarının sarılığı elə bu payız çənindəcə göz qamaşdıran ceviz ağaclarının altında ceviz falına baxardı: -Ağ daş, qara daş, buna bir yoldaş! Hərdən ayın-ilin qismətinə düşən nadir bazar günlərinin birində anası ilə rayon mərkəzinə bazara gedəndə şəhərin qoşa qolları kimi uzanan dəmiryol relsinin üstü ilə yerimək cəhdləri də olurdu. Ürəyində özü-özü ilə şərtləşirdi ki, işdi, bax, burdan o biri döngəyədək bu relsin üstü ilə getsə, gedə bilsə, sinəsini göynədən arzuları mütləq həyata keçəcək, mütləq. Yadında qalmışdı, bir dəfə qara paravozların tüstüləyə-tüstüləyə çəkib apardığı eşalonların əvəzinə relslərin üzərindən süd rəngli bir qatarın keçdiyini görmüşdü... Bəlkə də heç görməmişdi, camış sürüsü kimi arxa-arxaya düzülən görüntüsündən qaramat yağan yük qatarlarına baxmaqdan bezdiyindən belə bir süd rəngli qatar görməyi xəyal etmişdi, elə o xəyalların, arzularla dolu süd qoxulu yuxularının yaratdığı bir qatardı bu. Bu dünyada başqa bir dünyanın da olduğuna, bir gün bu maddi dünyanın da xəyal dünyası olacağı haqqında Tanrı işarəti idi gördüyü yuxular...
Müqəddəs yuxular görmək onun uşaqlıq vərdişidir. Amma gördüyü nə idi, görəsən, hamımı belə yuxular görür, yoxsa bunlar onun elə gündüzlər fikirləşdiklərinin gecələr yuxusunda əksidir, bilməzdi. Kəndin tozlu yolları onun xəyalpərəst ruhunu o qədər sıxmışdı ki, yuxuları kəndlərini şəhərə çevirirdi. Niyə rayon mərkəzində yaşayan uşaqlar hər gün keçən, aranı dağa, dağı arana daşıyan qatarları, asfalt küçələrdə şütüyən bir-birindən yaraşıqlı minik maşınlarını görə bilir, istədikləri zaman bazara gedib nə istəsələr ala bilirdilər, onlar- kənd uşaqları yox? Adi bir şey almaq üçün durub pay-piyada önbeş kilometr yolu rayon mərkəzinə bazarlığa getməli idilər? Onların - kənd uşaqlarının o şəhər uşaqlarından nəyi əskik idi ki? Niyə onların qismətinə elə, bizim qismətimizə isə belə yerdə yaşamaq düşməlidir ki?! Bu bölgünü kim aparıb? Bölərkən heç bizim fikrimizi nəzərə alıbmı? Və bəlkə bütün bunların hayıfını o, yuxularından alırdı. Nə yaxşı ki, yuxular vardı və yuxuların aşkarda heç zaman gerçəkləşməsi mümkün olmayan möcüzələri vardı. Bir də, niyə gerçəkləşməsi mümkün olmayan deyəsən ki? Nə fərqi gecə yuxuda gördüklərini gündüzlər aşkarda görmürsən, görə bilmirsən? Ömrümüzün yarısı yuxuda keçmirmi? Yuxu, gecələr də ömürdən deyilmi? Qışda bahar arzusuyla yaşamaq hissi kimə yaddır ki?! Baharı görmədən bahar arzuları ilə yaşamaq! Qışda baharın olmaması o demək deyil ki,

bahar gəlməyəcək. Yuxularda gördüklərinin bir gün bahar kimi Kəmərin yamacından boy göstərməyəcəyini hardan bilirsən? Və beləcə bir dəfə yuxusunda gördü ki, qəbiristanın yoxuşundan üzü kəndlərinə tərəf bir paravoz gəlir. Və qəribəsi də odur ki, sanki bu qatarın polad təkərlərinə relsli, şpallı hazır dəmir yolu sarınıb, lokomotiv irəlilədikcə onun təkərlərinə sarılmış hazır dəmir yolu yumaq kimi açılıb öküz arabalarının, yük maşınlarının gediş-gəlişindən çala-çuxur olan torpaq kənd yolunu mazut qoxusu verən təzə dəmir yoluna çevirir.Və dəmir yolunun kənarında qırağı yamyaşıl ağaclarla çevrəli tər-təzə şüşə kimi parlayan asfalt yol da qalır. Bu yolun isti, hamar asfalt qucağında bardaş qurub beşdaş oynamağın ləzzəti başqa olacaqdı... Bayat bu yuxunu elə canlı görmüşdü ki, möcüzənin həqiqət anını görmək üçün, səhəri yerindən duran kimi daxmalarının dalındakı kənd yoluna qaçmışdı. Amma heyif ki, yağtikanların hörümçək torunda sırsıra bağladığı çiskinli payız səhərində yol elə həmin qərib və yazıq görkəmində idi. Hətta Bayata elə gəldi ki, onun yuxusunun gerçəkləşməsinə yol da xəcalət çəkir. Yoxsa canına bir bu qədər qəriblik çökməzdi ki?! Bayat kənd yolunu heç zaman belə yetim və qərib görməmişdi. Bəlkə yuxusundakı yolla müqayisə etdiyindən gercəkdəki kənd yolunun əyri duruşundan yetimlik yağdığının fərqinə varmışdı... Bayat özünə söz vermişdi ki, böyüyüb əli çörəyə çatanda mütləq dəmir yolu çəkdirə bilməsə də, bu kəndə o yuxusundakı asfalt yolu çəkdirəcək, kənd yolunu bu qərib görkəmindən qurtaracaq. Bəlkə elə gördüyü o yuxu da bunun bir işarəti idi.Yuxusunu kimə yozduraydı ki? Kimə danışsa ona güləcəkdilər. Amma yarıkönül olsa da bu dəfə də içinə damanların bir gün mütləq gerçəkləşəcəyinə inanaraq yaşamağa davam edəcəkdi. O qaranlıq illərdə gündüzün bomboz həqiqətlərindən azad olmaq üçün yaxşı ki, gecələrin elə işıqlı yuxuları vardı, onlar da olmasaydı, günü necə keçərdi?

* * *

...Kürqırağı meşələrdən başlayan otçəkən duman səhərdən üzüyuxarı-yaylağa qalxan qoyun sürüsü kimi dərin dərələrdən zirvələrə doğru sürünür. Bu sis-duman çəkilib getdikdən sonra şehli yamaclarda otun bir quzuqırpımı qalxdığı görünür. Danaqıranlar, bənövşələr, nərgizlər ilahi gücün səssiz "oyan" əmrini duymuş olduqlarından beləcə gözəllik sərgisi açıblar. Amma daha bu sərhəd kəndində məktəb uşaqları yazın gəlişinə əvvəlki illərdə olduğu kimi sevinmirlər. Çiçəkləri boy göstərər-göstərməz dərib yaxalarına taxmırlar, çünki zaman güllük, çiçəklik deyil. Bayatın uşaqlıq xatirələrində də müharibə vardı, onu babasız qoyan, vücudu ilə yaşadığı, tarix kitabından oxuduğu müharibə. İkinci dünya müharibəsi! Onda müharibə uzaqlarda gedirdi, çox uzaqlarda . O zaman müharibənin nəfəsi kəndin seyrələn cavanlarının bir-bir yox oluşunda hiss edilirmiş... Top-tüfəng səsi yalnız bir-birinin ardınca kənd evlərinin çürümüş taxtalı qapısını döyən "qara kağızlar"ın ölümlü-qanlı xəbərindən gəlirmiş... Bu kəndin yenə qara günüdür, bu kənd üçün yenə müharibə gedir. Təkcə bir fərq var, əlli il öncə qara kağızlardan eşidilən top səsləri indi kəndin başının üstündən gəlir. Və indi kəndi əhatə edən uca zirvələrin başını ot çəkən duman bürümür, düşmən tərəfdən atılan top mərmilərinin, qrad raketlərinin çıxardığı tüstü zirvələri görünməz edir... Müharibədəndi, ya nədəndi, daha bu kəndin yazını maral heliyi bəzəmir. İldə bir dəfə o nəydi gələn? Maral heliyi nə olan şeydi? Bir bilən vardımı? Bir də görərdin havada hansı rüzgarın qanadıylasa ağ-ağ liflər uçuşur, önünə çıxan qayaya-daşa, dala-budağa ilişib qalır, dişlərini ağardır. Uşaqların ilk maraq yeri olardı haradan gəldiyi məlum olmayan bir günlük gözəgörümlü uçuş. Uşaq suallarının tək bircə cavabı vardı: Maral heliyi! Nə uşaqlar soruşa bilərdi, axı nədir bu maral heliyi, haradan gəlib, haraya gedir? Nə böyüklər özlərinə əziyyət verərdi bu cavabı bilinməyən sualları cavablandırmağa. Bəlkə bir zamanlar onların da uşaq sualları böyüklər tərəfindən cavabsız qalmışdı, kim bilir. Maral heliyi! Bəlkə bu, Allah tərəfindən olan milyonlarla gözəgörünməzlərin bir-iki gözə görünən möcüzələrindən biri idi. Allah insanlara beləcə ip ucu verirdi, onu dərk etmək üçün. Amma fikrin tənbəli insanlar, bu möcüzəyə bir zamanlar kimdənsə eşitdikləri başaldadan, canqurtaran "Maral heliyi" cavabını verməklə işlərini bitmiş hesab edirdilər. Bu qədər maral hardaydı ki, onların da bir bu qədər heliyi olaydı? Kəndin başının üstünü alan qəfil müharibə maral heliyi ilə bərabər onun yaratdığı bir günlük möcüzəvi havanı da yox etmişdi...

Uşaqlar artıq atalarının yolunu arandan- rayon mərkəzindən gələn yolda gözləmirlər. Çünki sərhəd kəndinin uşaqları artıq özləri neçə ildir gedən savaşın birbaşa iştirakçılarıdır. Bu kəndin adamları dünyanın çeşidli yerlərində gedən müharibələrə nə qədər maraq göstərirdisə, indi dünya da bu kənddə gedən savaşa eyni həssaslığı göstərir, yəni göstərmir. Onda kimsənin ağlına gəlməzdi ki, çiçəklər uzaqdan tozlandığı kimi, o müharibə uzaqlığı beləcə yaxın olacaq, uzaq olaylar bir gün sizə də yaxın gələcək və bir zaman sizin etdiyinizi bu dəfə də dünyanın başqa yerlərində yaşayan insanlar edəcək, başınıza gətirilənlərə çiyinlərini çəkməklə cavab verəcək. Kəndləri ermənilərin Çinari kəndi ilə sərhəddir. Tərs kimi kəndin adı da heç erməni adı deyil: Çinari. Sondakı "i" hərfini götürsən hər şey aydınlanacaq. Bayatgilin kəndləri ilə Çinar xurcun tayıdırlar, tərəzinin iki gözü kimidirlər; Şəhmir dağının sağ dərəsində Çinar, sol dərəsində isə Əsrik yerləşir. Bu kəndlərin hər biri bir çay boyuna, bir dərəyə sığınıb. Sovet illərində bu kəndlərin bir-biri ilə gediş-gəlişi kəsilməzdi... Bayatgilin kəndindəki ən gözəl evləri Çinardan gələn erməni ustaları tikərdi, həm də yerli ustalardan daha ucuz qiymətə... Ev tikdirənlər bu erməni tamahsızlığını, səxavətini anlamazdı. Heç özləri də öz-özlərinə soruşmazdı ki, ey dili-qafil, bu erməni ustaları nəyə görə belə səxavətlə iş görür. Niyə də fikirləşməli idilər ki? Axşamdan sabaha kəndin ortasındakı Caqqulunun hardansa alıb gətirdiyi batareya ilə işləyən pələş-təvərə radio cihazından "Qardaş olub Hayastan, Azərbaycan" mahnıları oxunmurdumu? Həm də xaçpərəst ermənilərlə türk müsəlmanları birləşdirən başqa cəhətlər də yox deyildi. Bu da kirvəlik məsələsi idi. Kirvəlik deyəndə ki, bu yaxınlıq üçün bir bəhanəydi... "İşinin xatirinə ermənіyə dayı deyir", atalar misalı da yəqin ki, başqa bir kənddə yox, elə Bayatın dost-doğmaca Əsriyində uydurulmuşdu. Kəndin varlı-hallı adamları uşaqlarını sünnət etdirəndə kirvə üçün baş sındırmaq gərəkməzdi. Hazırca Çinarın Qarsevəni, Arşağı, Ersüni kirvə olmaq üçün fürsət gözləmirdilərmi? Kirvəlik isə ən yaxın qohumdan da daha şirin olurdu. Zarafat deyil, bir xaçpərəst erməninin qucağında bir türk oğlu müsəlman olurdu. Və bu türk uşağının pülüyündən axan qan dostluğu az qala qohumluğa çevirirdi. Bu qohumluqda isə hər iki tərəfin öz karı vardı. Erməni hazırca iş yeri qazanırdı, kəndin inşaatında söz sahibi olurdu. Türk oğlunun atasının isə öz fəlsəfəsi vardı. Çinarda ermənіnin tut arağından vurub keflənmə, keflənmədən də özünü kefli göstərib marqolara göz qırpma imkanı yaranırdı. Beləcə, nə şiş yanırdı, nə kabab. Qazan örtülü qaynayırdı. Çinara tez-tez gedib - gəlmələr kişilərdə şübhə doğursa da, qadınlarda doğurmurdu. Əsas olan da bu idi... İndi Çinardan - o kirvələrin kəndindən atılan qrad mərmiləri sanki marqoların gecikmiş qisasına bir işarət idi. Bayat başının üstündən uçan qrad mərmilərinin tükürpərdici vıyıltısı şimşəkdən, qartal qıyından başqa bir səs eşitməyən dağların dərə qulaqlarında əks-səda verdikcə keçən günləri xatırlamaya bilmirdi. Şəhmirin Çinar aşacağında qırmızı puf daşından tikilmiş ermənilərin "vəng" deyə adlandırdıqları qədim bir kilsə vardı. Vəngin yan-yörəsi toyuq, xoruz tükü ilə çevrələnərdi. Sanki vəng binası xırman yeri idi, çevrəsindəki tüklər isə xırmandan ətrafa yayılan saman çöpləri. Ermənilər dini bayramlarında nəzir dedikləri xoruz və toyuqları qurban kəsərdilər... Həqiqətən də vəngin təlqinedici bir görkəmi vardı. Ən azından Əsrikdə buna bənzər bir tarixi abidə yoxdu. Axtarsan, kənd evləri də bambaşqa idi. Çinarın evləri daha görkəmli-qumundan, sementindən tox evlərdi. O zaman hayandansa Bayatın ağlına gəlirdi ki, başqa necə ola bilər ki, əlbəttə, erməni ustaları özləri üçün tikdikləri evləri daha gözəl tikəcəkdilər. Sonralar Bayat bir həqiqəti də özü üçün kəşf etmişdi; bizimkilər marqoların xatirinə hər şeyindən keçəndə erməni ustaları kirvə-kirvə oyunu oynaya-oynaya təkcə qazanc üçün deyil, bu türk kəndinin evlərini gizli, uzaqgörən niyyətləri ilə başdan-başa erməni-xristian tərzində tikirdilər. Evlərin pəncərə və qapı tağları xaç şəklində hörülürdü. Vəngdən baxanda Çinar kəndi ovuc içi kimi görünür. Vəng ona "zəng" sözünü anımsadır. Bunun səbəbi hərdənbir kilsədən yüksələn zəng səsləri olmalıydı. Yaşıllıqlar, bağ-bağatlar içindən görünən evlərin qırmızı kirəmitləri qızılgül qönçəsinə bənzəyirdi. Kənd, çay yatağı kimi dərələr boyunca elə dərələrin axarına uyğun şəkildə qıvrılan mavi gölü andırırdı. Ən vacibi isə o zamanlar hətta Bayatgilin rayonlarında su-elektrik stansiyası olmayanda, Çinar axşamları yerli elektrik stansiyasının işıqları ilə çıraqban olurdu.

May ayında Çinar kəndinin məktəbliləri ilə Əsrik kəndinin şagirdləri arasında vəngin ətrafında müxtəlif yarışlar keçirilərdi. Bu yarışlarda çox zaman Əsrikli uşaqlar qalib gələrdi... O zaman

Bayat uşaq ağlıyla bunun səbəbini öyrənməyə çalışardı. Bu, bəlkə də ermənin qanına, canına hopmuş türk qorxusunun təsiri idi, bəlkə də yox, hər halda Əsrikli uşaqların yarışlardakı hər dəfəki qələbəsi hansı sirli bir gücünsə gözəgörünən işarəti idi. Başına gəlmiş bir hadisə də onun bu qənaətini gücləndirmişdi...
Qonşuları Məmmədəli kişi ilə Çinara səfərlərini xatırlayırdı... Hardasa, on yaşı olardı. Qonşuları Məmmədəli kişi Çinara balta və dəhrələrini itilətməyə gedirdi. Bundan xəbər tutan Bayat da ağaca-daşa döyəcləməkdən korşaltdığı baltasını qoltuğuna vurub Məmmədəli kişiyə qoşulub Çinarın yolunu tutmuşdu. Bu, Bayatın Çinara ilk gedişi idi. Vəngdən baxanda, kilsə yamacında yaşıllıqlar içində mavi göl kimi cilvələnən Çinar bir başqaydı, içinə girdiyi Çinar bir başqa. Əsrikdən fərqi çoxdu. Doğrudur, Çinarın sən deyən küçəsi, səliqə-sahmanı yoxdu. Amma içini itburnu kolları dolduran ağac şivlərindən çəkilən çəpərlərin arxasından görünən evlər daha düzənli və gözədəyəndi. Bacalardan burula-burula, yorğun-ağın qalxan tüstülərdən burnuna alışıq olmadığı qoxular gəlirdi. Bu yad qoxu Bayatın içinə dolur, başını gicəlləndirir, ürəyini bulandırırdı. Yoldan evlərə burulan cığırların kənarlarında gərmə yığını gözə dəyirdi, gərmənin çevrəsi püşqarışıq üzüm, tut, alma cecəsi ilə dolu idi. Çinarın samaqonu-meyvə arağı adnan söylənirdi. Doğrudur, Bayatın bu erməni matahından bəhrələnən yaşı deyildi. Amma axşamlar Əsrikdəki evlərdən eşidilən qalmaqaldan bu evə davanın araq üstə düşdüyü bəlli idi. Nə olub? - sorusuna:
- Başı batmış, yenə ermənin samaqonundan içib başını itirib, - cavabı gələrdi.
- Köpək uşağı bizim kişiləri də özlərinin gününə salejaxlar.
O biri səs cavab verirdi:
- Azz, bu kənddə bu qədər erməni ustası işləyib, heç görübsən biri içib ağlını itirsin, onu de bizimkilərə, itin qursağı yağ götürməz ki? Erməni o andır qalmışını elə bizim başıboşlar üçün belə sərt çəkir də.
Bayat bunları düşünə-düşünə fikirləşirdi ki, yəqin bu başını xarab edən qoxu zəhirmar, elə o cecələrdən gəlir.
- Cecəsi belə baş dumanlandıranda indi gör arağı nə təhərdir?
Kəndin ən gözədəyəni isə süd dolu məmələri az qala yerlə sürünən, çevrəsində 10-15 çoşkası nırçıldayan anaş donuzlar idi; iyi almış kimi dağ yolundan gələnlərin buralar adamı olmadığını anladıqlarından da uzun, ətli xortumlarının altından xosunlaşırdılar. İki çəpərin arasına sıxışmış dar yol Bayatgili dəyirmana doğru aparırdı. Çaydan yamaca qaldırılan dəyirman arxı iki tərəfindən də çevrəsinə söyüdləri alıb aşağıya, donuzluğuna doğru irəliləyirdi. Əsrikdə dəfələrlə eşidib bir anlam vermədiyi bu "dəyirmanın donuzluğı " deyimi burada lap yerində səslənirdi. Arxdan kənarlara sızan qaçaq su bərabərində əvəlikli, lilparlı bir halə yaratmışdı. Dəyirman arxı eyni zamanda kiçik elektrik stansiyasının da pərlərini hərəkətə gətirirdi. Çinarda elektrik enerjisi ilə işləyən dəyirman vardı, bunu Bayat əvvəlcədən də bilirdi. Dəyirmanın sağ əlində çardağın altında ev alətlərini itiləmək üçün kiçik bir sex də vardı. Dəyirman arxından bir az aşağıda sahili yamyaşıl ot və mamırla çevrələnmiş dağ çayı üfüqdən aldığı yaz günəşinin sönük şəfəqlərini də sularına qatıb arana tərəf qoşmağında idi...
Məmmədəli kişi ilə yol getməyin də ayrı bir aləmi vardı. Yol boyu dodağının altında elə hey qımqımı çalıb-oxuyur, gümüldənirdi:

Payız aylarında bu vaxtı məni,
Unutdu dostlarım, buraxdı məni.
Qəza pis yerimdə nə yıxdı məni,
Eyləyin toyunuz mübarək olsun.

Bayat Məmmədəli kişinin özündən söz qoşduğunu bilirdi. Onu da bilirdi ki, kəndə toy keçirməyə gələn aşıqlar bəlkə elə Məmmədəli kişiyə görə çəkinə-çəkinə gəlirdilər. Necə olsa, kənddə sazdan, sözdən bu qədər anlayan, anlamağı bir yana dursun, söylədiyi qoşmaları dillərə düşən bir el ağsaqqalı var. Əslində, kənddə şeir qoşan təkcə Məmmədəli kişi deyildi ki? Kimi qurdalasan şeirlə cavab verirdi. Qoşanı məlum olmayan həcv və "poxlamalar" kəndi ağzına götürərdi. Söz

qoşan bir deyil, iki deyildi ki, yaxasından yapışaydın, ona görə də hər kəs bir-birindən şübhələnərdi. Amma Məmmədəli kişi bir başqaydı. Onun öz yeri, öz ağırlığı, sözünün çəkisi vardı. Bayatın da bu kənd dalğasında içində ilham qığılcımları közərməyə üz tutmuşdu, o da kimsəyə göstərməsə də şeir cızmaqaralamağa başlamışdı. Həm də özünü Məmmədəli kişiyə bənzətmək istəyirdi. İndi bu səfərdə balta, dəhrə itilətmək bir bəhanə idi, əsas Məmmədəli kişi ilə belə bir səfərə çıxmaq və bəlkə ondan sözün sirrini öyrənməkdi...
Məmmədəli kişi Çinara bəlkə başının tükü sanı gəldiyindən bu yerlərin hər qarışına bələd idi.Və çardağa çatar-çatmaz:
- Mıkırtıç kişi, ay Mıkırtıç kişi, - deyə çağırmağa başladı. Bayat belə bir erməni adını ilk dəfədi ki, eşidirdi, içində öz-özünə:
- Ad qoyan, atana lənət, belə də ad olarmı, ə? Bütün samitləri elə bil qəsdən bir yerə yığıblar ki, birdən ayrı düşüb itərlər...
Qarşıdakı tox evin zirzəmi qapısının cırıltısı eşidildi. Sanki cavab verən Mıkırtıç kişi idi, səs də ondan gəlirdi. Amma Bayatın düşüncəsinin əksinə his basmış qapının arxasından elə onun yaşda bir erməni dığasının başı uzandı. Dodağının altında ermənicə nəsə söylədi. Sifətindən zəhirmar tökülürdü. Bayata elə gəldi ki, bu erməni uşağının onun ürəyindən keçənlərdən xəbəri var, yoxsa niyə Məmmədəli kişiyə yox, ona belə qanlı-qanlı baxırdı: mən ona nə eləmişəm ki? Sanki Məmmədəli kişi də onun dilini anlamış kimi, yamsılayaraq:
- Ara, a dığa eli, Mıkırtıç kişi evdəmi? Onunla bu günə vədələşmişdik, bizim kəsərləri itiliyəcəkdi...
Dığa başının işarəsiylə "Yoxdur" dedi və içəri girməyi ilə çıxmağı bir oldu. Bayatgilin dilini anladığı, amma qəsdən danışmaq istəmədiyi hər halından bəlli idi. Bir şey söyləmədən özünü çardağın altına verdi... Düyməni basmağıyla çarx işə düşdü, hirsli-hirsli Məmmədəli kişinin alətlərini itiləməyə girişdı. Onsuz da qara olan sifəti bir az da qaralmışdı. Dodaqları kəlbətin ağzı kimi kilidlənmiş, gözləri fırlanan daşla dəhrə tiyəsi arasında qalmışdı. Dığa Məmmədəli kişinin kəsərlərini itilədikdən sonra, növbə Bayatın alətlərinə çatmışdı. Amma dığa o yanlıq deyildi, düyməni basıb motoru dayandırdı. Məmmədəli kişi ağzına su alıb susan, altdan-altdan baxan dığaya üzünü tutub: -- Ayə, ay Allahın ermənisi, niyə matoru söndürdün, bə bu uşağın baltası nə olsun?
Məmmədəli kişi hirsləndiyindənmi, ya nədənsə bu dəfə ermənicə yamsılamağa da ehtiyac duymamışdı. Kişinin inadı faydasız idi. Erməni dığası Bayatı göstərib:
- "Türke dığa", "türke dığa" deyə-deyə özünü çıxdığı yerə- qarşı binanın zirzəmisinə təpdi.
"Dığa" sözü Bayatın yadına kənddə oynadıqları uşaq oyunlarını, təkərləmələri saldı: "A dığa, dığa, şan dığa, səni göndərim pamığa". Ya da ilk dəfə erməni bənnalarının bir-birinə işarası söylədikləri anlamı bilinməz: Hires, hires manqiles, burnotu bol, bol kəses, köhnə kaşa yeqala" misraları beynində gümüş zəncirə dönüb cingildəməyə başlamışdı. Yarıtürk, yarıerməni sözqarışımından qoşulan bu sözlərdə onsuz da ermənıyə qarşı bir sevgi də yoxdu. Buna görə onların tam mənasını öyrənmək Bayatın indiyə qədər heç ağlına belə gəlməmişdi. Bəlkə birindən soruşub öyrənə bilərdi.. Bəzən anlamadıqlarımız anladıqlarımızdan daha vacib olur. Və Bayat uşaq ağlı ilə anlayırdı ki, insanın ruhunda elə bir şey var ki, eşitdiyini tamı tamına anlamadan da keçinə bilir. Bu mübhəmliyin həzzi bir başqadır. Və "Türke dığa" sözcüyünün arxasında da başa düşülməyənin başa düşə biləcəyi bir kinin olduğunu Bayat indi anlamışdı. O, hardan biləydi ki, ağıl çox zaman ruhun qapalı dünyasındakı sirri anlamaqdan aciz olur. Bayatın o zamana qədər nəyin pis, nəyin yaxşı olması haqqında bir elə təsəvvürü də yoxdu, belə yerdə demirlərmi nə evlərində bişmişdi, nə qonşularında görünmüşdü. Doğrudur, anası yeri gələndə nəyin yaxşı, nəyin pis olması haqqında ona bəzi şeylər söyləyirdi, amma məktəbdə keçdikləri cansıxıcı dərslərdə bu xüsusda bir şey öyrənmək mümkün deyildi... Həqiqətin harda, yalanın harda olduğunu öyrədəcək bir kitab da yoxdu. Çətini bir yalanı danışana qədərdi, sonrası gəlir, bir dəfə uydurduğun yalanı sonra həqiqət kimi orda-burda danışırsan. Çünki uşaq xəyal dünyası yalanlar, mübaliğələr uydurmağa acdır, edə bilmədiklərini edə bilmiş kimi göstərmək uşaqların köhnə adətidir. Bayat ən azından bunu bilirdi.

Nə Bayat, belə görünür, nə də Məmmədəli kişi ermənicə bilmirdilər. Onu denən ermənilərə. Çinar kəndinin Əsriyə işləməyə gələn bütün ermənilər türkcə bıdır-bıdır ötürdülər. Bir də Əsriyə yalnızca bənnalar gəlmirdi ki? Əsriyin taxıl zəmilərini çox zaman ermənilər biçərdi. Başlarına yaylıq, bellərinə şal bağlayan erməni biçinçiləri kəddə hətta qəlibləşmiş bir deyimə də dönüşmüşdü: "Nə belini erməni biçinçisi kimi bağlayıb gəzirsən".
Dığa türkcə bilirdisə də danışmaq istəmirdi, istəmədiyindən də özünü zirzəmiyə vermişdi, yəni babam mənə sənin kəsərlərini deyib, daha bu türk dığasınınkını yox. Bunu bilməyə nə vardı ki?! Erməni dığasının bomboz üzü sözə ehtiyac yeri buraxmamışdı.
Kor-peşman geri qayıdırdılar, gələndə yol eniş olduğundanmı, yoxsa baltasını itilədə biləcəyindənmi qov kimi yüngül idi. Dönəndə işinin avand getmədiyindənmi, yoxsa kəsəri qoltuğunda küt qaldığındanmı, ya nədənsə yoxuşu çıxmaqda çətinlik çəkirdi.Yol sanki baltasının küt ağzı kimi yomrulmuşdu. Onun ta ilk uşaqlıq çağlarından gələcək hadisələrin içinə dalmağı vardı. Bir də görürdün səbəbini bilmədiyi bir hal onun əhvalını dəyişir, canı sıxılırdı. Səbəbini tapana qədər də beləcə davam edirdi. Bu hal onu hələ uzun zaman qarabaqara izləyəcəkdi...
Kəndlərindən səhərin tülküdurmazından Çinara yola düşdükləri zaman da qanı qara idi. Yol boyu Məmmədəli kişi ayından-oyundan söz açıb onu danışdırmaq istəsə də, Bayat "hə", "hı" ilə canını qurtarmışdı. Halbuki, kəndin söz ustası Məmmədəli kişi ilə uzaq yola çıxmaq onun Allahından idi. Bəlkə girəvə tapıb ucundan-qulağından şeirdən, sənətdən də bir şey öyrənə bilərdi. Bu dünənki arzusu idi. Bu gün isə...
Hələ kəndin çıxacağına çatmamışdılar ki, qarşıdan üstünə ot şələlənmiş bir eşşək gəldiyini gördülər. Az keçmədən eşşəyin yükünün arxasından yosma boylu, 55-60 yaşlarında üz-başını çallaşmış tük basan bir adam göründü. Adam görünər-görünməz Məmmədəli kişi sanki canlandı:-Ay səni Mıkırtıç kirvə, adə evinə qonaq çağırıb özün də bizim Qurbanəli bəy kimi sıpxıb aradan çıxmısan, bizi əl boyda bir dığanın umuduna buraxırsan, adə, bə belə də iş olar?
Onların qənşərində ayaqları yerə mıxlanan eşşəyin burun pərləri açılıb-örtülməyə başladı, sanki qarşısına çıxanların kim olduqlarını qoxularından bilmək istəyirdi. Ağlı bir şey kəsmədiyindən, ya nədənsə, qarşısını kəsən bu iki qaraltıyla sahibinin başının söhbətə qarışdığını görüb fürsət bu fürsətti deyib, yük altında canı sıxılsa da, yolun kənarında ağac kimi böyümüş itburnu kollarının tikənli yarpaqlarının dodağını dalamağına əhəmiyyət vermədən, hardan gəldi ordan qırpıb həzmi-rabidən keçirməyində idi. Yeni biçilmiş ot ətri cecə qoxusuna qarışıb başqa bir ətir yayırdı. Mıkırtıç kişi onları görüb çaşmışdı, bilmirdi özünə necə bəraət qazandırsın, ikidə-bir əlini cod saqqalına çəkir, sanki bununla da qarşısındakılara verəcəyi cavabı fikirləşmək üçün vaxt qazanırdı. Və birdən Bayatın ağlına gəldi ki, yalnız qarşısında dayanan bu Mıkırtıç deyilən kişi deyil, indiyə qədər gördüyü bütün ermənilər saqqallı idi, elə bil hamısı yas içindədir, kiminsə yasını tuturlar. Doğrudur, Əsrikdə də saqqallı kişilər vardı, amma onlar daha çox gününü görüb, dövranını sürmüş ixtiyarlar, ya da yaslı olanlardı. Bayatı xəyaldan qarşısındakı saqqallının ciy-ciy səsi oyatdı:
- Ara, eli, man sani ahşama gözlüyordum, na tez geldin, bu dığa kimin, səninmi, öyünüzü dikəndə hiç gözümə dəyməmişti...
Məmmədəli kişi Mıkırtıçın sözünü ağzında qoydu:
- Arə, ay imansız, dinsiz erməni, arə, bə sənin Allahın, bəndən yoxmu, bir dığanı da bağlamısan yerinə, o da nə bəndə tanıyır, nə Allah.
- Arə, o bənim navəmdi dayna. Bə it küçüyünə eli, sənin gələcəyini söyləmiştim, demiştim işti, bir az gec kalaram gəlan kimi sanin işini görsün və man gələnə kadar da səni bırakmasın. İmdi bahdım patlanı, dəhrəni ülgüc kimi etmiş, daha nə istəyirsən eli, ha man, ha navəm. Ha o başka şey ki səni evdə tutmamış, imdi kulağını çəkəcəyəm o it küçügünün.
- Ara, sən mənim baltama, dəhrəmə baxma, bu, bizim qonşunun oğlu, onun baltasına bax.
Yaradanı yanılmış nəvənin ermənilıyi tutdu, itiləmədi uşağın kəsərini...
Mıkırtıç kişi:
- Vah, it küçüyü, vah, bir gör da onun başına nə uyun açacam.
Yenidən kepkası sökük çardağın altındaydılar. Mıkırtıç kişinin qışqırığından "it küçüyü" də yeraltı zirzəmidən gün işığına çıxmışdı. Mıkırtıç kişinin səsi kəndi başına götürmüşdü, öz dilində

söyür-söyür söylənirdi. Erməni dığası matoru işə salmışdı, dodağının altında bir şeylər söyləyirdi: Türke dığa, türke dığa!

Bu dəfə də Mıkırtıç kişi başlamışdı, həm də Azərbaycan dilində:
- Qancıktan doğulan, nə "Türke dığa", "türke dığa" salmısan, o kəndin adamları olmasaydı, Osmanlıdan gələn əskərlər babanı da, dədəni də qurşuna düzərdi, onda sənin kimi it küçüyü də dünyaya gəlməzdi.
Yenə ermənicə bir şeylər söylüyürdü. Söyüşün biri bir qəpik olmuşdu. Sözlər adındakı samit cingiltiləri ilə lopa bığlarından görünməz olan çürük dişlərinin arasından çörək qırıntıları kimi ətrafa yayılırdı. Doğuşdan türklərə nifrət edən it küçüyü, deyəsən, babası Mıkırtıç kişinin söyüşlərindən sonra özünə gəldi. Dodağının altında zingildəyə-zingildəyə hirsli-hirsli Bayatın baltasını alıb fırlanan daşa toxundurdu. Daşla dəmirin toqquşmasından ətrafa qığılcımlar saçılmağa başladı. Heç Məmmədəli kişinin kəsərləri itilənərkən bir bu qədər qığılcımlar saçılmamışdı. Bəlkə də saçılmışdı, Bayat indi fərqinə varırdı. "Qancıktan doğulan nə "Türke dığa", "türke dığa" salmısan, o kəndin adamları olmasaydı Osmanlıdan gələn əsgərlər babanı da, dədəni də qurşuna düzərdi, onda sənin kimi it küçüyü də dünyaya gəlməzdi" sözlərinin anlamını hələ uşaq ağlı kəsməsə də Bayata elə gəldi ki, bu qığılcımlar daşla dəmirin toqquşmasından yox, erməni dığasının onlara olan nifrətindən, kinindən çıxır və alovlanmağa fürsət axtarır... Və bu səksəkə onun içinə on yaşından düşəcəkdi, içinə dolanların gerçəkləşməsini isə o, çoxdan sınamışdı...
O balta zaman içində korşalacaqdı... Amma Çinarda başına gələn hadisəni onun dəmir yaddaşı hər zaman capcanlı saxlayacaq və ona rahatlıq verməyəcəkdi... Buna səbəb bəlkə heç Bayatın yaddaşı da deyildi. Ermənilər özləri özlərini unutturmağa qoymurdular.
Orta məktəbdə oxuyurdu. Müəllimlər bir-birinin ağzına tüpürmüş kimi sadəcə dərs kitablarındakı mövzuları tutuquşu kimi əzbər söyləyir, şagirdlərə də əzbərlədirdilər... Sinifdəki şagirdlərin iç dünyası ilə maraqlanan kimdi? Bu yönüylə Bayat ağaclara, çiçəklərə, güllərə, onların ilahi yaşayışına həsəd aparırdı. İnsanlar arasında boğulan, əzbər dərslərdən canı sıxılan Bayat can rahatlığını bağlarda, meşələrdə tapırdı. Bağlar, meşələr ona başqa, Bayatın sirrinə vaqif ola bilmədiyi dünyalardan xəbər verirdi. Bəlkə Bayatın təbiətdən umacağı daha böyükdü, amma təbiət öz dilində ona çox şeylər söyləyirdi. Təbiət ona kitab yazası, sinif müəllimi olası deyildi ki? Kitablar susur, müəllimlər isə ya heç nə bilmir, ya da bildiklərini söyləmirdilər... Dərs kitabları da bir bu qədər cansıxıcı olarmı? Hələ üzərinə "Ana dili" yazılmış kitab?! Bir dəfə valideynlər iclasında müəllimlər ondan - Bayatdan anasına şikayət etmişdilər,- dərslərdə fikri dağınıq olur, ağlı sanki ovda-quşdadır, əvvəllər yaxşı oxuyurdu, son zamanlar buna nə oldu, birdən-birə zəiflədi, gerilədi... Bayat Çinarda başına gələn hadisədən bir xeyli sonra belə olmuşdu. Müəllimlər bu şikayətlərində haqsız da deyildilər. Bayat o "türke dığa" olayından sonra böhran içərisində idi, nə yediyini, nə içdiyini, nə yazıb-pozduğunu bilmirdi, ağlı başında deyildi. Erməni dığasındakı ona olan nifrətin səbəbi üstündə baş sındırır, bir cavab da ala bilmirdi. O hadisədən sonra Məmmədəli kişinin də ağzını bıçaq kəsmirdi, yenə ucundan-qulağından bir söz deməydi, dərd yarı idi. Bayat ha eləmişdi ki, kişidən bir şey qoparsın, heç nə alınmamışdı. Yaxşı, şeirdən, sənətdən söz açmır açmasın, bəs bu erməni məsələsindən niyə bir kəlmə kəsmir? Yoxsa Bayatı ağzı südlü uşaq sayır? Elə bil ermənilər kişinin dilini, ağzını bağlamışdılar. Yoxsa, kim olsa yola körpü salmaq üçün ermənilərin qarasına deyinər, içini tökərdi. Amma Bayat gözləsə də kişi sanki bir söz söyləməyəcəyinə, sirri açmayacağına and içdiyindən ağzına su alıb susacaqdı. Bayat üçün bu böyük sirr də açılmamış qalacaqdı. Amma daxmalarının yaxınlığında torpağa basdırılan başdaşı kimi ucalan daşları Dəlləkli kəndinin adamları qırıb ev tikməyə aparanda Məmmədəli kişi onların qarasına deyinmişdi:
- Qəbir daşlarını da qırarlarmı, ay tanrıtanımazlar. Başdaşından tikilən divar ayaqda qalarmı, vallah, günün birində çat verib dağılacaq. Erməni olanda nə olar, ermənin ruhu yoxdumu, ölülərin ruhunu dərbədər salırlar.

Bayat anasından o daşların nə daşları olduğunu soruşmuşdu. Anası da:
- Bə görməmişdinmi o daşların üzərində xaç çəkilmişdi. Deyirlər, vaxtiylə ora erməni qəbiristanlığı olub. Nə bilim, ay bala, kimin qəbiristanlığı olur-olsun, məzara əl vurarlarmı? Günahdı, vallah. Bizim adamlar günahın nə olduğunu bilmirlər ki? Bilsələr, heç elə qələt elərlərmi? Nolsun o qəbirlərin sahibi yoxdu, görmür, Allah kı, var. Bəs Allahın gözləri?! Onlardan haraya yayınacaqsan, onlar ki, hər əməlimizi görür. Allahın ayrıca xəbərçı mələkləri var, oğul, insan doğulandan onun başının üstə iki mələk də doğulur, xeyir və şər mələyi... Ta ölənəcən bizi qarabaqara izləyir, xeyir, şər, hər əməlimizi can dəftərinə yazır? Ölüm günündə hesab sormaq üçün; dünya boşuna deyil ki? Xeyir əməllilərin yeri cənnətdi, şər-şəbədə ilə ömrü keçirənlər cəhənnəm odunda yandırılacaqdır.
O zamandan Bayatın canına vəlvələ düşmüşdü. Deməli, onun da şər əməlləri ömür dəftərində yazılır. Şər deyəndə ki, kolxoz bağlarına şıldır yığmağa getməyindən, bir də Allahqulunun fitnəsinə uyub qara Mələyin qazını oğurlayıb Qızıl qayanın altında kabab çəkmələrindən başqa nə bəd əməli vardı ki?! Bunlar bəd əməl deyil məgər?! Tərs kimi qaz sahibinin adı da Mələkdi. Anası bu sözləri gərək ona lap uşaqlıqdan başa salaydı, iş işdən keçəndən, günaha batandan sonra yox. Amma günahın yarısından qayıtmaq da xeyirdir, demirlərmi? Özünə söz verəcəkdi ki, bir də heç zaman harama əl uzatmayacaq...
Bayat çox sonra biləcəkdi ki, - Dəlləklilərin qırıb ev tikdikləri daşlar erməni yox, alban qəbir daşları imiş və Dəlləklilər də çöldə-bayırda sürü kimi yatışan daşları qoyub, qəbir daşlarını elə üzərindəki xaça görə - izi itirmək üçün sındırmışdılar. Amma erməni ustalarının əliylə sınan qəbir daşlarının yerinə kənd evlərinin qapı və pəncərə tağları xaça çevrilirdi. Əsas qorxulası şey də bu olmalı idi... Amma gözləri yumulan kənd adamları nədənsə uzun müddət buna əhəmiyyət verməmişdilər. Həm də üzərində xaç olan qəbir daşları çox zaman elə erməni ustalarının gözü qabağında sındırılırdı, bu qəbiristanlıq ermənilərin olsaydı, çoxdan ona sahib çıxmaq istəyərdilər! Amma Bayat özünü hələ o daşlar qırılarkən və o daşların ermənilərə aid olduğunu öyrənərkən dərbədər ruhların bir gün qısas alacağına inandırmışdı. Bəlkə, elə o "Türke dığa" kini də o daşların qisası idi, kim bilir? Bayat istəmişdi ki, müəllimlər onun ürəyindən keçən suallara o soruşmadan cavab versinlər. Bu erməni-müsəlman davası nədir, osmanlılar kimdir və onlar nə zaman buralara gəliblər və Əsrik kəndinin adamları nə təhər ermənləri osmanlıların qəzəbindən qurtara bilib? Türk kəndində erməni qəbiristanlığının nə işi var? Varsa, dəlləklilər niyə qəbir daşlarını sındırırdılar, qəbir daşına da əl qaldırılarmı? Niyə bu mövzularda kimsə heç nə demir? Niyə Azərbaycanın çiçəklənməsi haqqında hər gün şuarlar deyilir, amma Çinarda su-elektrik stansiyası var və gecələr ermənilərin kəndləri çil-çırağban olur, onlarınkı yox? Niyə orada balta və dəhrələri itiləyən sex var, onlarda yox, niyə onların evlərini erməni ustaları tikir? Niyə? Niyə? Yenə atası olsa idi nə vardı, yeri gələndə bu sualları ona verərdi, atası çoxdan ölmüşdü, hardasa Bayatın dörd yaşı olanda. Bayat atasının üzünü, qalan yeganə şəklinə baxaraq çətinliklə xatırlayır. Dörd yaşlı uşağın yadında nə qalasıydı ki, bundan artıq. Bayat evin, ev yox ey, qozbel daxmanın yeganə övladı idi. Yenə özündən böyük bacı, qardaşı olsaydı, dərdini onlarla bölüşərdi. Bir anası vardı. Gücü ona çatırdı...
"Qancıktan doğulan, nə "Türke dığa", "türke dığa" salmısan, o kəndin adamları olmasaydı, Osmanlıdan gələn əsgərlər babanı da, dədəni də qurşuna düzərdi və onda sənin kimi bir it küçüyü də dünyaya gəlməzdi." Bu sözlər qayalara dəyib qayıdan səda kimi qulaqlarından beyninə dolur, onu haldan-hala salırdı...
İndi valideynlər iclasından sonra anası onun üstünə düşüb:
- A yaradanın yanılsın, səni mala-qoyuna göndərmirəm, yer əkdirib su sulatmıram, başqa uşaqlar kimi oduna da getmirsən, peşəyin adı nədir, pis oxuyursan, hə?
Sualı sual üstən verəndə Bayat çaşıb-eləməmişdi:
- O kitabda yazılanları yaxşı başa düşmürəm, belə birtəhər yazılıb ey,- deyə dodaqaltı mızıldanmışdı...
- Nəyini başa düşmürsən? Bu da sənə fizika, kimya, cəbrdi, nədi, başa düşməyəsən? Mən də səni başa sala bilməyəm. Belə, səndən əvvəllər bu dərslərə görə şikayət edirdilər, indi ədəbiyyat müəllimi də şikayət edir. Buna sözün nədi, hay?

Bayatın əlinə firsət düşmüşdü:
- Azz, bax, bu "Ana dili" kitabıdır, hə, bax, bax nejə olur ki, sənin- anamın dediyi sözləri başa düşüm, amma "Ana dili" kitabında yazılanları yox. Belə qağamın canı üçün, bu kitabın dili ilə sənin danışdığın dil eyni deyil, bunun daha harası "ana dilidir", mən ki ondan heç nə anlamıram.
- Bilərəkdən belə deyirdi, əslində isə Bayat sinifin yaxşı oxuyanları arasında idi.
Anasının dilini anlayan, "Ana dili" kitabının dilini anlamayan Bayat çox şeylərin dilini anlamadığını hələ çox sonralar biləcəkdi və bunun səbəbləri qarşısında baş sındıracaqdı...
Yaşı on yeddiyə çatıb orta məktəbi bitirəndə Bakıya oxumağa gedəcəkdi... Və ona elə gələcəkdi ki, qatardan günəş pilləkənləri ilə enəndə Bakı onun ayaqları altına xalı döşəyəcək. Bəs necə, elə o bəyənmədiyi "Ana dili" və "Ədəbiyyat" kitablarında Azərbaycanın paytaxtı Bakı haqqında, sahilində qərar tutduğu Xəzər haqqında nə tərifl ər oxumamışdı ki? "Xəzər bizim dənizimizdir, Bakı bizim paytaxtımızdır" Bu beş-altı sözdə ürəyə ilham, arzuya qanad verən elə böyük işıqlı vədlər vardı ki... Bayat on yeddi il uzun qış gecələri aranın ilğımlı yolundan fit səslərini eşitdiyi qatara minib Bakıya getməyi nə qədər xəyal etmişdi. Aran yollarıyla Bakıdan Tiflisə keçən qatarlar gözəgörünməz xoruz buraxan kal səsləri ilə onu harayasa bitib-tükənməyən uzaq bir genişliyə səsləmişdi. Xəyalında bəlkə min dəfə getmişdi də... Amma dağ havasından nəsibini alan ciyərlərinə o qatarın "obşi" vaqonunun üçüncü qatının boğazına yad bir oxlov kimi girən boğanaqdan qan-tər içində boğulanda özünə də nifrət edəcəkdi, getdiyi Bakıya da, görəcəyi "mavi Xəzər"ə də. Bəlkə başqaları kimi o da "plaskartda", "kupedə" getsəydi, gedə bilsəydi, heç o "obşi" vaqonun cəhənnəm istisini görməz, Bakıya da, "mavi Xəzərə" də nifrət etməzdi... Bəlkə elə "obşi" vaqonlar ona görə icad olunmuşdu ki, imkansızların Bakı arzusunu gözündə qoysun, xəyalını yerlə bir etsin.Yoxsa hər yerindən duran Bakıya rahatca gəlsə və Bakı da ona ana kimi qucaq açsa, onda Bakıda Bakılıq qalmazdı ki?!
Bakı da, "mavi Xəzər" də onu yad kimi qarşılayacaqdı.Yolda-izdə, küçədə, meydanda bir doğmalıq işığı axtaracaqdı. Əvəzində hər yandan ona yad baxışlar dikiləcəkdi. Və burada o, kənddə oxuduğu "Ana dili" kitablarının dilinə də şükür oxuyacaqdı. Çünki Bakı onunla onun dilində danışmaq istəmirdi. Küçələrdə onun dilində danışan birinə rast gəlmək müşkül işdi. Hələ idarələrin qarşısındakı rusca yazılan yazılar... Qəbul olmaq istədiyi məktəbin ünvanını güc-bəla ilə tapacaqdı. Amma imtahanların hamısını versə də qəbul olunmayacaqdı. Kəndlərindən gələn uşaqların çoxu kəsilib getmişdi, axıra qalan bir-iki nəfərdən biri də Bayat idi... Hamı elə bilirdi ki, o da qəbul olunacaq, Ələkbərdən başqa. Hər imtahana girdikcə və biletinə bildiyi suallar düşdüyünə sevinsə də tanrıtanımaz müəllimlər sualı sual üstündən yağdırıb onu çaşdırmağa çalışacaq və axırda da hay-küyünə, çığır-bağırına məhəl qoymayıb:
- Nə haqq, ədalət deyirsən, al bu da sənə tramvay altda qalan bir üç yazırıq, çəm-xəm eləsən onu da yazmarıq, Allahına şükür elə ki, onu da veririk ki, kəsilən, gözü çıxan qardaşlarını görmürsən, çıx bayıra, sürüş buradan, - deyə onu imtahan otağından qovurdular. Elə Ələkbər də öz təcrübəsinə dayanaraq bunu deyirdi:
- Əyə, ay Allah evini yıxsın, əyə, sən nə qanmaz adamsan, hələ də qəbul olacağına inanırsan. Öyün yıxılsın, boşuna gözünü kor etmə, qəbul olmaq üçün rüşvət vermisən? Yox! Pulsuz kimsə səni bu inistuta yaxın buraxmaz, bildin? Keçən il öz başıma gəlib, ondan bilirəm. Bu il lələşin bu ittərin ağzına tula payını atıb, bə görmürsən necə dördləri, beşləri nəqqaş kimi yan-yana düzüblər. Keçən il imtahanlara bundan on dəfə yaxşı hazırlaşmışdım, "bilmirsən" deyib çıxarırdılar bayıra. Bu il isə heç birinci sualı oxumamış, deyirlər keç ikinci suala. Anası ölsün pulun, bə nə bilmişdin, loxma boğmadır, demirlərmi? Hələ sən Allahına şükür elə ki, elə birinci imtahandan bir yağlı iki alıb kənddə biyabır olmadın.

* * *

"Hörmətli, istəkli, mənimçün hər şeydən əziz olan qardaşım Oqtaya məktub!"
Bu onun Bakıdan kəndə ilk məktubu idi. Əslində, heç məktub yazmağın qaydasını da düz-əməlli bilmirdi. Ona məktub yazmağı kimi öyrətmişdi ki, o da öyrənəydi. Amma içini dağıdan dərdi, bir Allah bəndəsi ilə bölüşməli idi. Uşaqlıq dostu Oqtaydan yaxşı bir Allah bəndəsini hardan tapası

idi ?! Bəlkə heç məktub yazmağa da ehtiyac yoxdu, onsuz da üç-beş günə kəndə qayıdasıydı. Amma beş-üç günə səbri çatanı mənə göstər deyirdi öz-özünə.Və məktubuna davam edirdi: "Qardaşım, məlumun olsun ki, dörd imtahandan 14 bal topladım, iki üç aldım, iki dörd! Üçləri tarix və rus dilindən, dördləri isə ədəbiyyat yazı və şifahidən. Kaş mənim barmaqlarım sınaydı, o üçləri almayaydım, kaş mən öləydim, ədəbiyyat yazı və şifahidən dörd almayaydım. Nə isə qardaş, insanınkı gətirməyəndə gətirmir... İndi mən qarşıma çıxan haqsızlığın öhdəsindən gələ bilmədim. Lakin bir şeyin, yalnız bir şeyin öhdəsindən gələ bilməyəcəyəmmi? Öz gələcəyimə də mənim gücüm çatmayacaqmı? Çatacaq! Ya namusla, vicdanla, şərəflə yaşayacaq, elm, sənət yollarında saçlarımı ağardacağam, canımı bu yolda fəda edəcəyəm, ya da...Yox, yazmıram. Yox qardaşım, cavabsız məhəbbətim də, gənclik qüruruma toxunan və qələmlə yazmaq mümkün olmayan, ürək ağrıdan hisslər də, bütün həyat, gözəllər... qardaşım hamısı, hamısı mənə "Oxu!", "Oxu!", "Sənətkar ol" deyə səslənirlər. Olmalıyam! Olmalıyam! Həyat sinəmə dağ çəkdi, mən də həyata dağ çəkəcəyəm, ölməsəm... Ölməyəcəyəm!!! Yaşayacağam, öz yerimi tutacağam!.. Qardaşım Oqtay! Sənə yazdığım bu məktub kimi indi öz şəxsi həyatım da ziddiyyətlidir. Lakin "rədd olsun tərəddüd!" Mən inkişaf etməliyəm!

Bizi istəyənlərin hamısına salam de. Tezliklə görüşənədək. Hörmətlə, qardaşın Bayat. "Sən Allah, bu sayıqlamaları lovğalıq əlaməti sayma. Həyat məni yandırıb kül edibdir..."

* * *

Ələkbərin dedikləri düz çıxacaqdı. Avqustun sonlarına doğru Bakının asfaltı muma döndərən cırhacırında "konkursa düşəcək" və kəndə anasının yanına əli ətəyindən uzun qayıdacaqdı. Kənddə onu yaxşı bir şey gözləməsə də dönəcəkdi. Suyu süzülə-süzülə anasının yanına, kəndə qayıdacaqdı. Yazıq arvadın üzünə necə baxacaqdı? Bir aydı Bakıdan kəndə gedənlər onu ümidləndirmişdilər:
- Bayat, maşallah, imtahanları bir-bir verir, inşallah, qəbul olunacaq.
Anası bir ayı ümidlə, dualar edərək gözləmişdi. Kaş elə birinci imtahandan hamı kimi o da kəsiləydi, nə anasını boşuna ümidləndirəydi, nə də onun sələmə borc aldığı pulu boşuna küləyə sovuraydı, nə də havasından alov yağan Bakının köhnə dalanlarının birində, içində qarafatmalar vız vuran pəncərəsiz otağın cəhənnəm xəfəsində beş adamla birlikdə səhəri diri gözlə açaydı. Belə gecələrdən sonra insan ayaqda güclə dayanır, o ki qalsın gedib imtahandan beş almaq ola. Asfaltı əriyib muma dönən şəhərin neft, mazut, tər, zir-zibilqarışıq qoxusu Bayatın burun pərələrindən boğazını dalaya-dalaya içinə dolur, sərin dağ havasına öyrəncəli ciyərini yaxıb yandırırdı. O zaman Bayatın ağlına da gəlməzdi ki, bu universitet, inistut deyilən xəyanət yuvalarında əkəbəkə professorlar nəfslərinə görə necə millətin gələcəyini kor qoyurlar. O, sonra biləcəkdi ki, ali məktəblərə qəbul olanların yox ey, olunanların yüzdə doxsanı ya rüşvətlə, ya da böyük-böyük vəzifələrdə çalışan dayılarının hesabına daxil olunurmuşlar... Arada-sırada təsadüfən qəbul olunanlar isə bu çıxılmaz tordan təsadüfən çıxa bilənlərdi... Elə o zaman onun gənc və təcrübəsiz ağlına bir fikir də gəlmişdi: Bizim toplum min ildi nəfsinə imtahan verir və hər dəfəsində də kəsilir... ona görə də bir yana çıxa bilmir. Avqustun sonlarına doğru adını instituta qəbul olunanların siyahısında görməyib suyu süzülə-süzülə anasının yanına - kəndə qayıdacaqdı. Amma onun bir ay əvvəl böyük ümidlərlə qoyub gəldiyi kənd heç elə bil o kənd deyildi... Dünənə qədər qarlarla örtülən yamaclar bir gecənin içində boz ayın ilıq nəfəsindən əriyib yox olduğu, qar altından qar bənövşələrinin çıxdığı, danaqıranların boy göstərdiyi yazın gəlişini insanlara xəbər verdiyi günlərə bənzəyirdi bu dəyişim. Onda bu dəyişim "kasıb dostu" yazın insanlara gətirdiyi bəxtiyarlıqla yadda qalırdısa, indi onda suyu soğulmuş dəyirmanın hüznü vardı. Sanki bu kənddə gözəl nə vardısa boz ayın ilıq boz çalpoyundan buxarlanan qar kimi buxarlanmışdı. Bəlkə də belə deyildi, ona-Bayata belə gəlirdi. Allah, o, bu yerlərdən nələri xəyal edib getməmişdi. Doğrudur, onun o romantik xəyalları kəndin nasiranəliyi ilə uyuşmurdu. Əslində kəndin nasiranəliyi demək, heç də doğru deyil, kənd adamlarının desək, bəlkə daha doğru olardı. Kənd isə Qızıl qayası, Kəmərilə, çayı, bulağı, gülü, çiçəyi ilə elə həmin kənddi.

Onun romantik xəyallarına əngəl olan ondan min qat təcrübəli, bic və hiyləgər dünyanın insanlar vasitəsi ilə qarşısına çıxması idi. Hər insan, hətta pis ata və anadan doğulanlar da dünyaya pak və təmiz gəlir və nə yazıq ki, gəldiyi dünya onu olduğu kimi qarşılamağa, yaşatmağa qadir deyil. Bayat da bu yönü ilə gəlib getmiş milyardlardan biri idi. Kənd sovetindən yaşadığı yer haqqında arayış alana qədər, onunku ona dəymişdi, arayışı vermirdilər, vermək istəmirdilər, get, sonra gələrsən deyirdilər. Bayat bunların səbəbini sonra biləcəkdi. Kənd sovetində işləyənlər 4-5 sinif oxumuş adamlardı, istəmirdilər ki, kənddən kimsə gedib Bakıda oxuya bilsin. Oxuyub qurtarandan sonra onların yerinə göz dikəcəkdilər. İkinci gizli bir səbəb isə yuxarıdan onlara tapşırılmışdı ki, hər yetənə pasport almağa arayış verməyin, hamı oxusa, kolxozda kim işləyəcək? Sonra o, zorla aldığı arayışla birlikdə rayon mərkəzinə pasport almağa gedəcəkdi. Anası kənd sovetində katib işləyən qohumundan xahiş edəcəkdi ki:
- Əmisi, Bayata rayonda pasport almağa kömək edərsən. - Kənd sovetinin katibi də Bayatı pasport şöbəsinin qapısı ağzında buraxacaq - gözlə, içəridə adam var, çıxan kimi gir, sənədlərini təqdim et, onsuz da pasportu həmən yazıb vermirlər, bir də hazır olanda gəlməli olacaqsan,- deyib Bayatın cavabını gözləmədən çıxıb getmişdi.
Bayat otağın önündə içəridəki adamın çıxmasını gözləmişdi, amma adamın biri çıxmamış, o biri girmiş, heç Bayata məhəl də qoymamışdılar, dili tutub deyə də bilməmişdi ki, ay əmilər, dayılar, axı, növbə mənimdir. Aradan yarım saatmı, bir saatmı keçmişdi, kənd sovetinin katibi geri qayıtmış və Bayatı otağın önündə görəndə əsəbiləşmişdi:
- Ayə , ay öyü yıxılmışın oğlu, hələ girməmisənmi?
Bayat:
- Yox! Mən neyliyim ki, adamın biri girir, biri çıxır, - deyə dodaqaltı mızıldanmışdı. Kənd sovetinin katibi:
- Ayə, bə sənin dilini pişikmi yiyib, bə deyəmmirsənmi növbə mənimdir. Ağzı ottu heyvansan, vallah, - deyib sənədləri Bayatın əlindən alıb tüstü kimi içəri təpilmişdi... Kənd sovetinin katibi kəndə qayıtdıqlarında elə Bayatın yanındaca anasına:
- Ay evi tikilənin qızı, bu nə uşaqdı böyütmüsən, bu ki, ağzı ottu heyvandı, bunun nəyini Bakıya göndərirsən, gedib orda əl-ayaq altda qalacaq. Onsuz da lütün birisən, havayı yerə borc-xarc eləyib bunu oxumağa-zada göndərmə, mən ölü, sən qalı, bundan heç nə çıxmayacaq, ara yerdə sələmə aldığın pulların batacaq, - demişdi. Amma anası gözünün ağı, qarası bircə balasını nəyin bahasına olursa-olsun oxutmaq istəyirdi. Bəlkə on adamdan sələminə pul alıb onu Bakıya arzularının arxasınca elə böyük ümidlərlə göndərmişdi ki... Və o, Bayat bu Bakı deyilən, yeddi dərənin suyunun qarışdığı qurdlar şəhərindən onun ucbatından saçının birini ağ, birin qara edən, gənc ömrünü şam kimi əridib çürüdən anasının üstünə nə üzlə qayıdacaqdı? Qayıda biləcəkdimi? Qayıtmayıb nə edəsi idi ki? Gedəcək başqa bir yerimi vardı? Yenə o biri uşaqlar kimi elə ilk imtahandanca kəsilib qayıtsaydı, nə vardı. Düz bir ay dəmirçi körüyü kimi közərən Bakı avqustunun qorabişirənində qalmaz, təsadüfi bir "Allah kərimə" ümid bağlamaz, anasının yüz and-minnətlə yığdığı sələm pullarını sağa-sola xərcləməzdi. Sağa-sola xərcləməzdi deyəndə ki, əslində bu pulun çoxu suya gedirdi. Bura kəndləri deyildi ki, hər daşın altından bir bulaq qaynayaydı.Burda hər tində, köşədə su satılırdı, həm də od qiymətinə satılan buz kimi soyuq su.Yox, bu, kəndlərindəki diş donduran bulaq suyu deyildi, buzla soyudulan su idi. Bayat da hamı kimi bu buzlu, süni şəkildə soyudulmuş sudan içmək məcburiyyətində idi. Onun buna öyrəşməyən mədəsi nə qədər alışmaq istəsə də bir şey çıxmır, halı pərişan olurdu... İndi, avqustun sonunda bütün bunların boşuna olduğunu hiss etdikcə içi od tutub yanırdı. Amma elə, ya belə geriyə dönmək zorundaydı: Şöhrət cığırları şəhərdən keçər, ehtiyac yolları dönər kəndlərə! O da geri dönməyib nə edəsi idi ki? Onu böyük ümid və sevgi ilə Bakıya yola salanlar indi ona gəlin otağından baxtı bağlanıb çıxan bəyə baxan kimi baxırdılar. Və sanki o, heç orta məktəbdə də yaxşı oxumamışdı, attestatındakı qiymətlər də onun deyil, bir başqasınındı. Anası elə o qiymətlərə görə müəllimlərlə dava da eləmişdi:
- Niyə mənim balamı yetim görüb qiymətini kəsirsiniz, mənim balam sinfin ən yaxşı oxuyanlarındandır. - İndi az qala anası da attestatında olan qiymətlərə şübhə ilə baxırdı. Bəlkə ürəyində müəllimlərlə boşuna dava etdiyinə indi peşman idi... Sevdiyi, gözaltı elədiyi, amma

rədd cavabı aldığı qıza da yaxınlaşa bilmirdi... Nə üzlə yaxınlaşaydı ki?! Əslində elə o qızın acığına ali məktəbə qəbul olunmaq istəmirdimi? Ali məktəbə qəbul olunacaq və özünün necə sevib sevilməyə layiq olduğunu o, özünübəyənmiş qıza və onun pulgir ailəsinə sübut edəcəkdi. Edə bildimi? Arzuları ilə imkanları üst-üstə düşməzliyin faciəsi idi bu!
Borclular qapıya dirənmişdi. Uşaqlıqda təpədən toplayıb dığarladıqları qar, aşağı endikcə qalınlaşdığı kimi, anasının gün keçdikcə borcları da artırdı. İndi, indi fikirləşirdi ki, anasına sələmə borc pul almağa imkan verməməli idi. Axı, anası nəyə arxayın olub bir o qədər borcun altına girmişdi? Bu qədər borcu nəyi satıb geri qaytaracaqdı?Anasını da qınamaq olmazdı, gözünün ağı, qarası bircə oğlunu da oxutmayıb, kimi oxudası, onun yolunda da borca girməyib kimin yolunda borca girəsi idi? Anası yəqin ilahi qüdrətin köməyi ilə oğlunun mütləq instituta qəbul olunacağına inanırdı. Oğlunu o boyda instituta qəbul olmağa kömək edən gözəgörünməz qüvvə onun yolunda edilən borcun ödənilməsinə də bir yolla kömək edəcəkdi. Yoxsa, o boyda borcun altına girərdimi? Bu xasiyyət anasından ona da keçmişdi, bir işi görməyə bütün can-dillə əlləşirdi, alınmasa onun mütləq gözəgörünməz qüvvə tərəfindən alınacağına özünə inanan kimi inanırdı. Və çox zaman elə belə də olurdu...
Amma bu dəfə anasının düşündüyü kimi olmamışdı, oğlu sələmə alınan pulları Bakının küçələrində yelə sovurmuş, kəndə əli ətəyindən uzun qayıtmışdı... İndi boynuburuq qaldığı kənddə yenidən anasına yük ola bilməzdi...
Bayat anasından xəlvət fəhlə toplayan idarəyə müraciət etmişdi, vaxtı çatan kimi Bakıya işləməyə gedəcəkdi. Bir il Bakıda fəhlə işləyəcək, həm özünü dolandıracaq, həm də borc içində boğulan anasına pul göndərəcəkdi... Ələkbərin institut müəllimləri haqqında dediyi sözlərə nə baxırsan, dünya elə pis adamlardan ibarət deyil ki? Bəlkə bu dəfə qarşısına insaflı müəllimlər çıxacaq? İçindən keçən bu düşüncələr hərdən onu elə riqqətə gətirirdi ki, sevincdən uçum-uçum uçunurdu. Yenidən hazırlaşacaq, sənədlərini bu dəfə də universitetə verəcəkdi...Tanımadığı, bilmədiyi həyatın bomboz üzüylə hər dəfə qarşı - qarşıya gəlib məğlub olsa da, ümidini heç zaman itirməyəcəkdi, məchul gələcəyə elə böyük ümidləri vardı ki?! Yaşın onsəkkizi ona yeni kəşflər də gətirmişdi. Çevrəsində nə vardısa onunçün doğma və əziz idi. Bəzən bir qönçənin açımına, ya da deyək ki, tanımadığı bir qızın uzaqdan yerişinə durub dalmağı vardı. Doğan günəşdə, yağan yağışda, üfüqlərin açılan, ya da tökülən qaşqabağında elə bir şairanəlik vardı ki, bu şairanəlikdən ruhu riqqətə gələr, vücudu titim-titim titrəyər, içinə dolan mənbəyini bilmədiyi həzdən bədəni böyük bir ürəyə dönüb döyüm-döyüm döyünər, əsim-əsim əsərdi. Özünü və dünyanı dərk etdiyi, kainatın şairanəliyini hiss etməyə başladığı zamanda Bakıya yol görünmüşdü.
Dostu Oqtaydan üç manat borc pul alıb özü kimi Bakıya ümidin arxasınca gedən on-on beş cavanla birlikdə qatarın qulpundan yapışıb Bakıya gedəcəkdi. Bakının o yay kəsafətinin qorxusu canından çıxmamışdı, yenə nə üzlə gedirdi oraya? Amma indi yay deyildi, payızdı, kənddə olduğu kimi, yəqin Bakıda da sərin küləklər daşı-divarı yalamağa başlamışdı. Onunla fəhləliyə gedənlərin heç birisini tanımırdı. Tanısa da fərqi yoxdu, hər kəs öz xəyalında, öz can hayında idi. Gecənin sükutunu aşağıda dəmir relslərə nələrsə pıçıldayan təkərlərin taqqıltısı, içində isə ürəyinin döyüntüsü pozur, onu yatmağa qoymurdu. İstəyirdi ki, o təkərlərin taqqıltısına qulaq versin, bəlkə o təkərlər onun taleyindən də bir şeylər söyləyirdi polad relslərə? Ya bəlkə düşdüyü bu sevdanın, getdiyi bu yolun dönüşü olmadığını öz polad diliylə qoynunda ümidinə sığınıb məchul gələcəyə can atan bu gəncə nəsə söyləmək istəyirdi? Demək istəyirdi ki, qəzetlərin birinci səhifələrini dolduran, dərs kitablarının ilk səhifələrindən gözünə çarpan, qulaqlarının radiolardan döşürdüyü şuarların hamısı boş şeydi, o şüarlarla bu yaşadığın həyatın arasında hər hansı bir əlaqə yoxdur, olsa, olsa o şüarlar səni kimi yetim oğlanları aldadar. Aldanma, bala, aldanma! Bakının necə paytaxt olduğunu kor olmuş gözlərin görmədimi? Yenə ona ümid bəsləyirsən? Ümid ancaq yerdə özünə, göydə Allaha qalıb... İçindəki döyüntülər buraya bir "anana" sözünü də artırmaq istəyirdi, amma Bayatın fikrindən keçənlər dilinə gələ bilməzdi. Ümidi anasına qalsaydı, elə kənddə anasının yanında qalıb yaşayar, ona həyan olardı. Ali məktəbə qəbul olmaq ümidini gələn ilə bağlayar, imtahanlara hazırlaşardı.Və yenicə canbir olduğu, hər ağacında - daşında bir ilham qaynağı gördüyü kəndin şairanəliyində gününü gün

edərdi. Heç boz üzünü daş görmüş Bakıya da getməzdi. Kənd də uzaqdan-uzağa şirin olur, bunu Bakıda qorabişirən ayın üz-gözünü qarsıyan bürküsündə hiss etmişdi. (İçində yaşayıb qarında, palçığında ümidsizliyin girdabında çırpınanda isə kəndin üzünü görmə...)
Onsuz da anası borc içində boğulurdu. Sələmə aldığı pulu necə, nəynən qaytaracaqdı? Kənddə qalıb ona yük olmaqdansa, gedib şəhərdə başını girləmək daha yaxşı olmazdımı? Heç olmasa dərdini, yetimliyini bəlkə şəhər tünlüyündə azıda bilərdi. Kənddə qalıb nə edəsi idi ki? Boynuna döyüb kolxoz işinə aparacaqdılar. Anası bircə balasını kolxozda yox, heç öz məhəllələrində işləməyə qoymazdı. Başqa uşaqlar analarının, atalarının yerinə kolxoz işinə gedəndə anası buna imkan verməzdi, - "Ölərəm, bircə balamı kolxozda quru muzda işləməyə qoymaram, - deyərdi. Mən işlədim, əlim bala batdı, indi də oğlum işləyə əli yağa bata."
Kənddə hətta məhəllələrində anasına kömək etməyi, yer belləməyi özünə ar bilən Bayat, Bakıda şəhər qarqaşasında fəhlə işləməyi, işləyə bilməyi toy-bayram kimi düşünürdü. Bütün bunları düşündüyündən, Allahdan, bəndədən tək sığınacağı anasına fəhlə işləməyə gedəcəyini deməmişdi, yazıq arvad evə gəlmədiyini görüb dəliyə dönəcəkdi. Yaxşı ki, Oqtaya demişdi, elə üç manat borcu da ondan almışdı. Oqtay hərdən yağlı cevizlərindən poçt yolunun (nədənsə rayondan gələn tozlu-torpaqlı el yolunu kənddə çoxları belə adlandırardı) qırağında satdığı qəpik-quruş yığdığı pulu dostuna peşkəş etmişdi:
- Sən elədiyini mən eləyəmmərəm, Bayat, halaldı sənə, get, özünə gün ağlaya bilsən, məni də unutma, bu üç manat da sənə peşkəşdir, mən nə də olsa kənddəyəm, yenə yağlı cevizdən satıb özümə əyin-baş ala bilərəm, bu pul sənə daha çox lazımdır, qərib ellərə gedirsən, - demişdi.
Oqtaya tapşırmışdı:
- Qoyma anam nigaran qalsın, sabah məsələni ona de, mən də Bakıya çatıb yerbəyer olduqdan sonra məktub yazacam.
Bayat indi qatar təkərlərinin aramsız taqqıltısında və ürəyinin döyüntü səsləri altında bütün bunları fikirləşirdi. Bakıda isə onu məchul bir gələcək gözləyirdi. Amma Bayat o məchulluqdan qorxub eləmirdi, ilan vuran ala çatıdan qorxmaz ki...

Onsuz da günün birində anasından ayrılmalı idi. Başqa bir səs isə - buna anasından ayrılmaq yox, qaçmaq demək olar, adam anasından beləmi ayrılar? - deyirdi. Elə ya belə, artıq ayrılmışdı və istəsə də geriyə dönə bilməzdi. Bundan sonra hər şey bambaşqa olacaqdı, bambaşqa. Səhəri Bakıda idilər. Fəhlə toplayan idarədən onları Bakıda Bayatın tanımadığı bir yerə gətirmişdilər. Burada onları ayrı-ayrı sahələrə işə göndərəcəkdilər... Kənddə deyilən "qoyunu qoyun, keçini keçi ayağına" deyimi burada başına gəlirdi. Gözü eynəkli adam, Öksürüklü Qara demişkən, gələnlərin bir "bazburutuna", bir də sənədinə baxıb qarşısındakı kağıza qeydlər edirdi. Kimi Neft daşlarına, kimi Keşlə maşınqayırma zavoduna göndərilirdi... Ən sona onu - Bayatı saxlamışdılar, əslində belə də olmalı idi. Çünki gələnlər arasında ən çəlimsizi, "canı cibində" olan Bayatdı. Nəhayət, onun da çalışacağı yer bəlli oldu. Bayatı Bakı Baş Tikinti İdarəsinin 6 saylı tikinti idarəsinə göndərdilər. Bayat o zamankı Lenin adına stadionun idman kompleksinin tikintisində fəhləliyə başlamışdı.Yataqxanaları Səməd Vurğun küçəsiylə tramvay yolunun kəsişdiyi yerdə idi. Bir otaqda 4 kişi idilər. İkisi azərbaycanlı, üçüncüsü isə "Derbatya" dedikləri yaşlı bir rusdu. Xam atın əhliləşdirilməsi nədirsə, onun da ilk fəhləlik günü elə başlamışdı. İş görməmiş, işləməmiş əlləri, ayaqları zoqqum-zoqqum zoqquldayırdı. Qarnı ac olmasaydı, bəlkə işləmək onu bir bu qədər üzüb əldən salmazdı... Heç çörək almağa belə pulu yoxdu, ac qarınla təcrübəsiz bədən necə belə, öyrəşmədiyi, ağır işə davam gətirəydi? Həm də çoxdan işin istisinə, soyuğuna öyrəncəli fəhlələr zəif, nərmənazik bədəninə baxıb onunla məzələnirdilər. Dağıstandan mövsümlük işləməyə gəlmiş boylu-buxunlu ləzgilər xərəyə bəzən iki yerinə 4-5 mişar daşı yükləyib sərt nərdivanlarla yuxarı mərtəbələrə daş daşıyırdılar. Həm də xərəyin ön tərəfini ona verirdilər. İki günün içində əlləri qabar bağlamışdı. Bir söz demirdi, canını dişinə tutub işləyirdi.Yenilmək onun adəti deyildi. Nə deyə bilərdi ki. Desəydi nə çıxasıydı. Deməzdilərmi biz sənə daşı təkmi daşıdırıq? Bir tərəfindən sən tutursan, o biri tərəfindən birimiz, daha nə çəm-

xəm edirsən? Hətta kəndə anasına məktub yazmağa da həvəsi yoxdu. Amma Oqtaya məktub yazacaqdı. Həm də burda iş yerində başına gələnlərdən kəlmə kəsmədən:
"Hörmətli qardaşım Oqtay, sənə küləklər şəhərindən, onun "Qız qalasından", ürəklərə öz söz sənətləri ilə yol tapmış Füzulinin, Vurğunun tunc heykəllərindən, ən nəhayət, sənin səmimi qardaşın olan Bayatdan külli miqdarda salamlar! Qabarlı əllərin - fəhlə sinfinin, kirli-tərli paltarların, lakin nə də olsa, şirin arzuların, fikirli insanların atəşli salamlarını qəbul et.
Mənim qəlbimdə uşaqlıqdan bir sirr var... Bu sirri hətta mən səndən də gizli saxlamışam. Yetimlik, nökərçilik, fəhləllik bu sirri qəlbimdən çıxara bilmədi. Onsuz da sən həssas qəlbə maliksən, bu sirri mən sənə deməsəm də, sən bilirsən. Hətta bir dəfə sən mənə dedin: "Sən ucalmaq arzusu ilə yaşayan adamsan". Bəli, mən ucalmaq arzusuyla yaşayan adamam. Lakin siyasi sahədə yox! Yalnız və yalnız sənətkarlıq sahəsində. Amma bilmirdim hansı sənət sahəsində. Uşaqlığımın yetimlik çağlarında kənddə toylara "çağrılanda" gözəl çalğı aləti olan saz mənim qəlbimə yol tapırdı. Gizlinə çəkilib ağlayırdım... Nə üçün? Oqtay! Oqtay! Sən duyğusal adamsan. Biz uşaqlıqda da dərdli olmuşuq. Bəlkə də dərin fikirlərə görə indikindən daha bilikli olmuşuq...! Qardaşım, mənim əlim yer tutmayıb. Bəlkə də tutacaqdır. Bu iş tarixindir. Yaşayacağıq, görəcəyik. Anam amanatdı. Tez-tez onun yanına get, onu mənə görə dərd çəkməyə qoyma. Cavab yazmağı unutma. Mənim dilimə gəlməyib ürəyimin dərinliyində olandan da yaz. Hamıya səmimi salamlarımı yetir.
Hörmətlə, qardaşın Bayat".
Məktubda ümidli sözlər yazsa da, həyatda çəkilməz dərdlər içində boğula-boğula qalmışdı, doğulduğu, dünyaya gəldiyi günə nifrət edirdi. Kənddən anasından xəbərsiz Bakıya fəhləliyə gəldiyinə görə it kimi peşman olmuşdu... əlinə bir bəhanə düşsəydi, arxasına baxmadan kəndə qayıdardı. Tüpürdüyünü necə yalayaydı? Hətta əlinə bəhanə düşsə də, qayıda bilməzdi, nə ilə, necə qayıdaydı, cibində pul yerinə siçanlar oynaşırdı... Qalan sonuncu qəpiklərlə çay-çörək yeyəcəkdi, sabaha Allah kərimdi. Çayçıdan şirin çay istədi. Armudu stəkanın içinə iki qənd atıb qarışdırmağa başladı.Ya çay soyuq idi, ya qənd bərkdi, ərimək bilmirdi. Çay qaşığının arxası ilə zorla da olsa qəndi əritmək istədi. Qənd əriməsə bunun nəyi şirinçay olasıdır. Belə düşünürdü ki, qaşığın arxası stəkanı qırıb çölə çıxdı. Bir güc-bəla ilə əritdiyi şirin çay da nəlbəkiyə tökülüb şüşəqarışıq zəhər oldu. Bayat bu gözlənilməz hadisə qarşısında nə edəcəyini bilmədi. Süfrədəki pendir-çörəyə əlini vurmadan cibindəki son iyirmi qəpiyi stolun üstünə atıb tüstü kimi bayıra çıxmağı bir oldu...
İşdən sonra bəlkə tanış birini görüb borc alaram - düşüncəsiylə tanıdığı bazarları ələk-vələk etsə də, ümidi boşa çıxacaqdı.
İşləməyə gəldiyi vaxtdan hələ bir ay keçməmişdi ki, ona aylıq verəydilər. Alacağı aylıq da bir aylıq olmayacaqdı. Çünki iş yerində fəhlələrin "usta" dedikləri birisi vardı ki, Bayata göz verib, işıq vermirdi, bir an olsun belə, boş dayanmağa qoymurdu, gah o işə buyururdu, gah bu işə. Həm də çəlimsizin biri idi, boyu, buxunu Bayatdan da zəif idi. Bir dəfə əhəng söndürən adam işə çıxmamışdı. Usta Bayatı çağırıb:
- Bu gün əhəngi sən söndürəcəksən,- dedi. Bayat bu işin heç də asan bir iş olmadığını bilirdi. Gərək geyməyə çəkmən, əlcəyin olaydı. Bayatın isə nə çəkməsi vardı, nə əlcəyi. Yadına düşdü ki, belə yerdə Öksürüklü Qara: - Goru varmı, kəfəni də olsun, - deyərdi. Bayat ustaya - mənim nə çəkməm var, nə əlcəklərim, bu işi görə bilmərəm, - cavabını verdi.
Belə deyirlər ki, boyu qısa adamlar gündə yüz kərə Allahdan allahlıq umur. Usta da belələrindəndi:
- Alə, məə nə var, çəkmən, əlcəyin yoxdur, dedim bu işi sən görəcəksən, deməli görəcəksən, müftəxorun birisən, bir aydı burdasan, hələ fərri-başlı bir iş də görməmisən. Ya bu işi gör, ya da maaş görsən, budu bax, bu dirsəyimin ardını görərsən.
Bayatın onsuz da bu özündənrazı, çəlimsiz ustadan xoşu gəlmirdi, yetənə yetir, yetməyənə bir daş atırdı. İşçilər, görünür, öyrəncəli idilər, ona yaltaqlanır, o nə desə "başüstə" cavabı verirdilər. Sonralar görəcəkdi ki, fəhlələrin başqa çarələri də yoxdu, onların maaşını bu çəlimsiz usta yazırdı. Lap əvvəldən alacağı pulun ustadan asılı olduğunu bilsəydi də, Bayat yenə eyni hərəkəti edərdi. Onun öz ədalət ölçüləri vardı, birisi bu ölçüdən çıxdımı, dava salardı. Elə orta məktəbdə

oxuyanda Oqtayın üstə neçəsi ilə dalaşmışdı. Oqtay uşaqlıqda ağır bir xəstəlik keçirmişdi, bəlkə buna görə də gözüqıpıq böyümüşdü, hamı gücünü, uzaq qaçsa belə, yenə onun üzərində sınayırdı. Bayat buna dözmürdü, Oqtayın yerinə özünü qabağa verir, özü döyüşürdü. İndi burda, Bakıda tikinti meydançasında əl boyda adamın dağ boyda adamların başına oyun açması Bayatın ilk gündən xoşuna gəlməmişdi, elə əvvəldən bu adamla qovğa etmək istəmişdi, amma bir "əstəğfürullah" kəlməsi ilə özünü hər dəfə sakitləşdirmişdi. Amma artıq görünür, bu gün davadan yan keçmək mümkün olmayacaqdı...Usta hirsli-hirsli tərəddüd içində düşüncələrə dalan Bayata:
- "Sənə demədimmi bu gün əhəngi sən yandıracaqsan, kimi gözləyirsən, ay çuşka?" - deyə çımxıranda Bayat "çuşka"nın mənasını bilməsə də, elə deyilişindən nəsə yaxşı bir söz olmadığını anlamışdı. Ona görə də ilk cavabı:
- Çuşka özünsən, mən də sənə dedim ki, əlcək, çəkmə ver, əhəngi söndürüm, -oldu.
- Alə, sən məə cavab qaytarırsan, heç kiminlə danışdığını bilirsən, ay kəndçi eşşəyi, sənə deyirəm gir əhəngi söndür, sən maa nə deyirsən?
Bayat cavabsız qalmadı:
- Belə eşşək də varsan, ondan o tərəfi də, canın çıxsın gir, özün söndür, söndürmürəm.
Ətrafdakı fəhlələr iş-güclərini buraxıb onların qoç döyüşünə baxırdılar, əllərinə fürsət düşmüşdü, dincələ bilərdilər... Anası demişkən, Bayatın beyni qızdımı, qurtardı, ağına-bozuna, irəlisinə-gerisinə baxan deyildi... Kənddə yaşıdlarına yox ey, özündən 3-4 yaş böyüklərə də gün verib işıq verməzdi, yaxaladığı ilə qaldırıb dizinin altına qoyduğu bir olurdı. Özünün kəşf etdiyi bir fəndi də vardı, bərkə düşəndə, qarşısındakı ondan güclü çıxanda o fəndi işlədərdi. İndi bu ustamı, nəmi, o kənd uşaqlarının yanında nəmənə şeydi, - deyə düşünüb, ona görə də onun qabağından qayıtmağa çəkinib eləmədi. Usta əvvəlcə əlindəki əhəngbulaşıq beli onun çiyninə endirmək istədi. Bayat ustanın fikrini qırımından anlamışdı, beli ustanın əlindən almağı ilə kənara atmağı bir oldu. Yaxasından yapışmağı ilə kənddə çətinə düşəndə işlətdiyi fəndini işə saldı, sağ ayağını ustanın sol ayağına dolayıb qanırdığı ilə arxası üstə yerə vurdu. Bunu nə usta gözləyirdi, nə də çörəkpuluna görə bu çəlimsiz ustanın qarşısında boğaz olan ləzgilər... Hamı çaş-baş qalmışdı. Beldən yuxarı əhəng içinə batan usta yerdə çabalayır, Bayatın əlindən qurtulmaq istəyirdi, çabaladıqca da bir az da əhəngə bulaşırdı. Bayatın qarşısındakını yendiyindən doğan bir qürurla kefi kökəlmişdi, amma başa düşdü ki, ustanı bir az da bu vəziyyətdə saxlasa, söndürülən əhəngin istisi üz-gözünü yaxıb yandıracaq, ona görə də tez üstündən qalxdı. Usta tərəddüd içində qalmışdı, gözlənilməz məğlubiyyəti qürurunu qırmış, işçilərin gözündən salmışdı, bəlkə buna görə də elə bil yerindən qalxmağa da tərəddüd edirdi. Amma az keçməmiş sanki hansı bir qüvvəsə ona kömək elədi, özünə gəlib yerindən fırladı. Onun bu laubalı davranışı Bayatı da çaşdırmışdı, usta qalxıb nə edəcəkdi, bəlkə yenidən onun üstünə cumacaq, hayıfını almaq istəyəcəkdi. Ehtiyatlı oğulun anası ağlamaz, - deyib bayaq ustanın əlindən alıb fırlatdığı beli yerdən qaldırdı. Amma bunu elə etdi ki, sanki işə başlamaq istəyirdi. Usta bağlandığı zənciri qırıb yolçunun üstünə cumub burnundan zərbə alan it kimi yerindən qalxıb dodağının altında zingildiyə-zingildiyə tikintidən aralıda dincəlmək üçün qurulmuş baraklara doğru götürüldü. Ustanı izləyən Bayat dörd divarı şumal taxtalardan olan, mavi rəngi odun sobasından çıxan tüstüdən his çəkən barakları sanki indicə görürdü. O baraklarda yalnız iş icracıları "prorab", "desyatnik" və baş usta dincəlirdi. Əslində orası inşaatın beyin mərkəzi idi, işlər oradan yönəldilirdi, maaş orada hesablanır, aylıq oradan verilirdi. Usta barakın qapısından içəri girdikdən sonra bayaqdan donmuş vəziyyətdə olan işçilərin sanki donları açıldı, yeryerdən səslər çıxmağa başladı. Tərəfini tutan olmayacağını Bayat onsuz da bilirdi, sonun necə bitməsindən asılı olmayaraq, o bu qələbəsi ilə xərəyinə qəsdən 5-6 daş yükləyən ləzgi oğlanların da gözünün odunu almış, dərslərini vermişdi. Bir daşla iki quş vurmuşdu. Bəlkə bunu bildiklərindən də onlar öz aralarında:
- Elə bilir, qəhrəmanlıq elədi, sən görərsən, indicə necə mitilini bayıra atacaqlar, - deyirdi.
Bir başqası canyananlıq edirdi:
- Mitilini bayıra atmasalar da, ay başında aldığı maaşı heç yol pulunu ödəməyəcək...
Bayat öz-özünə fikirləşirdi ki, görən bunların hansı baş verəcək? Əgər bu ləzgi oğlanlarının dediyi kimi, mitilini atsalar, axır günü nə olacaq? Borc aldığı üç manat çoxdan xərclənmiş, hələ

yataqxanadakı otaq yoldaşlarından da borc almışdı. Gələndə fəhlə toplayan idarənin hesabına gəlmişdi, qayıdanda nə ilə qayıdacaqdı. Lap deyək ki, qayıtmağa birtəhər borc-xərc pul da tapdı, kəndə nə üzlə dönəsiydi?.. Orada Bayatı nə gözləyirdi? Anasımı? İndi yəqin ki, borc içində boğulan anası da ondan üz döndərib. Keç görüm, həyat deyilən və hər anı gözlənilməz hadisələrlə dolu olan bu zəhrimarın arasından, necə keçirsən?.. Hər zaman içindən keçənlər yenə güclü bir axınla təkrarlanmaqdaydı. İnsan oğlu çiçəyə bənzəyir; çiçək nə qədər ki, tumurcuğun, qönçənin içindədir, dərdi yoxdur, elə ki, tumurcuqlar, qönçələr açılır, tumurcuğun, qönçənin çiçək ömrü başlayır. Bax, əsl çətinliklər də o zaman qarşıya çıxır. Zamanın sərt rüzgarları vaxt-bivaxt o güllərin, çiçəklərin ləçəklərini bir-bir yolur. Ana, ata qayğısında böyüyən uşaq da eyni taleyi yaşayır, nə qədər ki, körpədir, onu dövranın sərt səmt küləklərindən ana, ata qayğısı qoruyur. Bayat ata qayğısından da məhrum qalmışdı. Elə ki, körpə böyüyüb, müstəqil həyat yoluna başlayır, həyatın bomboz sərt sifəti ilə üzləşir bax, çətinlik o zaman başlayır. Bu keçid - həyat dönəmi, görünür, hamı üçün çətin olur. Başqa bir keçid yox, istəsən də, istəməsən də bu dar boğazdan keçməlisən. Bu yönü ilə həyat qum saatına bənzəyir, bir gözündən o biri gözünə keçmək üçün daş olsan da üyünməlisən. Bu düşüncələr axını beynindən elə-belə keçmirdi. Bayat da indi o dar boğazdan keçirdi. Anasının ondan üz döndərmiş olması da bütün bunlara görə ağlına gəlirdi. Lap döndərməsə də, onun ucbatından borca düşən anasına yenidən yük olmaq, yox, o, bunu bacarmayacaqdı. Ona görə də barakdan gələcək xəbəri səbirsizliklə gözləyirdi. Handan-hana barakın qapısı açılmış, usta ilə "desyatnik" qadın onlara tərəf gəlmişdilər. Bayat ölüm hökmünü gözləyən dustaq vəziyyətində idi. Dəymiş, sitip tökülən Ordubad əriyinə bənzəyən yanaqları ilə ilk gündən Bayatın diqqətini çəkən bu qadının ona bir pislik edəcəyinə nədənsə ağlı kəsmirdi. Gözəl qızlar ağacın ən yüksək, əlçatmaz budağındakı günəşin şəfəqlərindən yanıl yanaqları alışıb yanan meyvə kimidir, zamanında dərilmədiyindən qalıb qurda-quşa yem olurlar... Ordubad əriyinə bənzəyən yanaqları ilə ilk gündən Bayatın diqqətini çəkən bu qadının taleyi necədir görəsən? Odamı qurda-quşa yem olub? Bu suallar beynini qurcalayarkən Bayat, özü öz düşüncələr axınına "dur" dedi:
- İndi sənin bunları düşünən vaxtındır?
Müqəddəsliklə murdarlığın arasında gedib-gələn insan nə olan şeydi, ilahi?! Hər dəfə ağlına gələn fikrini qarışdırırdı. Ağzına nemət kimi gələn vücudundan murdarlıq kimi çıxırdı. Bu insanda murdar olan nə var ki, müqəddəsi murdar edir... Adamın ağlından keçənlər dilinə gəlsə, gündə neçə yerdə ölüm-qan olar... İndi yanaqları Ordubad əriyinə bənzəyən qadın haqqında düşüncələrə dalarkən yenə ağlını eyni fikirlər qurcalayırdı.
O, gözəgörünməz qüvvələrin gücünə inanırdı. İnanırdı ki, deyək ki, hətta barakın içində onun işdən qovulması haqqında qərar çıxarılmışsa da, yenə oradan buraya -inşaat meydançasına gələnə qədər o gözəgörünməz güclər o qadının ürəyinə mütləq rəhm salacaq və o, ilk öncə, ustanın, sonra da hadisənin necə bitəcəyini dördgözlə gözləyən fəhlələrin təəccüblü baxışları altında bir yolla onu - Bayatı üzdə danlasa da, içərisində bağışlayacaq və elə edəcək ki, Bayatı işdən qovmasınlar. "Desyatnik"lə usta onlara yaxınlaşanda Bayat ürkək-ürkək qadının Ordubad əriyinə bənzəyən yanaqlarına oğrun-oğrun baxmağa fürsət tapdı. Sanki bunu, bu ani təması hiss etmiş kimi qadın, süni qəzəblə işsiz-gücsüz dayanan fəhlələrə, bir də Bayatın hələ bığ yeri yenicə tərləməyə başlayan sifətinə baxdı. Amma bu keçici ciddilik Ordubad əriyinin mehriban rəngini hələ soldura bilməmişdi və o rəng Bayata təsəlliverici bir hiss pıçıldayırdı. Qadın qarşısındakı bu adı kimi özü də qəribə, fərqli bir sifətə malik yeniyetməni başdan-ayağa süzdü. Solğun sifətində qara çatma qaşlarının altında içindən qəriblik yağan bir cüt gözlə qarşılaşdığından bir anlığa, sadəcə bircə anlığa duruş gətirə bildi. İçində - bu canıyanmışın nə nüfuzedici, iti baxışları var, - deyə düşündü. Və nədənsə bir anlığa gözündə ürküdülmüş cinlər oynaşan bu qəribə oğlanı başdan-ayağa soyundurub ona yaraşan paltar geyindirib, bir də yenidən ona müştəri gözü ilə baxmağa başladı. Belə birisinin, - aman Allahım, bu hisin-pasın, daşın-torpağın içində nə işi var, - deyə diksindi. İçindən o da keçdi ki, kaş yaşı yaşıma uyğun olaydı, heç nə deyəcəyini, necə deyəcəyini soruşmadan onu bu çıxılmazlığın əlindən alar, öz həyatını da, onun həyatını da qurtarardı. Adamın bir belə üzü üzlər, gözü gözlər görməmiş əri olsaydı, nə vardı ki? Kim bilir burada kimin əlinə düşəcək, başına hansı oyunlar gələcək, gətiriləcək? O da az qala belə bir

həyat yaşamamışdımı, bu bic və hiyləgər dünya onun da başına oyun açmamışdımı, əldən-ələ salmamışdımı? Bayat, intəhası, onun oğlan variantı idi... Bəlkə bir belə təmiz, pak birisi ilə bir yastığa baş qoymaq onun da pərişan həyatını dəyişə bilərdi və o pak olan və onu da paklaşdıran bu insanın yolunda canından keçərdi. Keçərdi ki, heç olmasa bir insan, bircə insansa da bu kirli dünyada təmiz qala bilsin. Amma xəyalların içimizdən keçib gerçəklik qazanmasına imkan varmı? Kaş olaydı.
"Desyatnik"in onu belə mənalı-mənalı süzməsi Bayatı ürəkləndirsə də bu mənzərəni süzən fəhlələri, ən çox da ustanı haldan çıxartmışdı. Usta az qala qışqırmaq istəyirdi:
- Biz ağzıbirdə beləmi danışmışdıq? İndi nəyi gözləyirsən, niyə bu çuşkanın dərsini vermirsən?
Sanki qadın da duyğularına bir anlığa da olsa əsir düşdüyünü anladı, birdən-birə halına, duruşuna yaraşmayan bir şəkildə:
- Sən kimsən axı ustanın sözündən çıxır, ona əl qaldırırsanə Bu tərbiyəsizliyi harda öyrəndin, evdəmi, məktəbdəmiə Adını da komsomolçu qoyub bunu kənddən Bakıya göndəriblər ki, işləsin, çalışsın, oxusun adam olsun. Bu gör gəlib burda nə edir, dünən şeş, bu gün beş. İndi necəsən milis çağırıb səni türməyə soxdurum, hə? Bir gör ətrafında neçə şahid var... Çıx, hardan gəlmisən oraya da vasil ol. İşdən qovuldun, aramızda səni kimilərə yer yoxdur.
Qadın bu sözlərin heç birisini Bayatın üzünə baxaraqdan demədi, bəlkə də deyə bilmədi. Üzü Bayata tərəf olsa da, danışdığı müddət bircə dəfə də başını qaldırıb onun üzünə baxmadı, baxa bilmədi. Sanki sözlər ona- Bayata yox, Bayatın ayağının altındakı əhəngli torpağa deyilirdi, torpaq da sanki buna görə hirsindən bomboz kəsilirdi. Bayat gözünün ucuyla yanaqları Ordubad əriyi kimi allanan "desyatnik"i süzdü. Və ona elə gəldi ki, eşitdiyi sözlər heç onun dilindən çıxmayıb, çünkü elə dodaqlardan belə sözlər çıxa bilməzdi. Bəlkə kiminsə səsidir vala yazdırıb oxudurdular . Bayat içinə damanların bu qədər yanlış olacağını ağlına belə gətirməmişdi. Amma ediləcək bir şey də yoxdu, artıq işdən qovulmuşdu. Qadın sözlərini bitirər-bitirməz dikdaban tuflilərinin parlayan rənginə əhəng tozu qonmasın deyə aram addımlarla inşaat meydançasından uzaqlaşdı. Bayatı burada saxlayacaq heç nə qalmamışdı, kor-peşman yataqxananın yolunu tutdu. Yol boyu bu olmuş hadisələri fikrində az qala yüz yol təkrarladı. Qadının ona mənalı-mənalı baxmağını, sonra qəzəbli sözlərini beşaçılan güllələri kimi bir-bir cərgələyəndə duruşu ilə sözlərinin uyğun gəlmədiyini fikirləşdikcə burada mütləq dərkiçətin bir şeylərin olduğunu düşündü. Yataqxanaya necə qayıtdığını çalışsa da xatırlaya bilməzdi. Adəti idi, həm cibində siçanlar oynaşdığından, həm də gah trolleybusa, gah da tramvaya minməli olduğundan, çox zaman işdən yataqxanaya yorğun-arğın olsa da, piyada qayıdırdı. Bu dəfə də piyada qayıdacaqdı. Əslində, yataqxanaya qayıdan ayaqları idi, fikri isə gah geriyə, kəndə, uşaqlıq xatirələrinin yanına, gah da irəliyə, hələ görmədiyi, görmək istədiyi məchul gələcəyə qanadlanırdı. Elə gələcəyi də yaşadığı, əli ilə tutub, gözü ilə gördüyü şirin xatirələr kimi xatırlayırdı. Bu onun adəti idi, gələcəyə o qədər böyük arzuları var idi ki? Bakı ilə ulduzu barışmasa da, onunla bağlı xatirələri də baş qaldırırdı...
Günəşin gözü təzəcə açılanda gecikmiş gecə qatarlarından Bakının səhər alatoranına düşmüşdü. Açılmaqda olan bu payız səhəri bürkülü qatar kupesinin cansıxıcı havasını canından çıxarsın deyə hələ maşın sürüsü yellənməmiş əyni çılvaq şəhərin küçələrini tək-tənha eninə-uzununa addımlamaq istəmişdi. Gecələrin tənhalığı, sükunəti divarlara dəyib qayıdan addım səsləri ilə pozulurdu. Bu səslər nigaran, həyəcanlı ürəyinin tappıltısı ilə yarışmaqda idi. Gündüzləri bu küçələri min dəfə o baş-bu başa ötsə də nə divara dəyib qayıdan ayaq səslərini, nə də könül çırpıntılarını eşidə bilmişdi. Bu şəhərin gündüzləri yalnız ayaq səslərini, ürək çırpıntılarını deyil, kimliyini də əlli-ayaqlı udur, əridir, bir də gözünü açırsan ki, gün axşam olub, ömrün-günün su kimi axıb keçdiyini hiss edirsən. Onda da gec olur, həm də çox gec... Nə yaxşı ki, ilk dəfə gecə qatarıyla gəlmiş və bu qaynar şəhərin sübh sükunətinə düşmüş, heç olmasa bir anlığa, bu qışı yazından seçilməyən şəhərdə bir dəfə, tək bircə dəfə də olsa öz addım səslərinə, könül çırpıntılarına qulaq asa bilmişdi. Bu addım səsləri, bu könül çırpıntıları ona unutduğu çox şeyi pıçıldayacaqdı, çox şeyi... Bayat əslində Bakıya Bakını fəth etmək üçün gəlməmişdi, o, Bakıda görəcəyi işlərlə mütləq özünü o kəndə də, o rayona da sübut edəcəkdi, mütləq. Bu necə olacaqdı, nə təhər olacaqdı, soruşsan heç özü də bilməzdi, bildiyi tək şey fikrindən keçənlərin bir gün

həqiqət olacağına vərdişlə gələn inam idi. Nə yaxşı ki, bu gündən daha çox, lap acı da olsa yaşanmış keçmiş var, keçmişin payız rəngarəngliyini xatırladan dünyası var. Və nə yaxşı ki, hələ yaşanmamış, amma mütləq yaşanacaq gələcək var. Gələcəyin gətirəcəyi əsrarəngiz möcüzələr var. Gələcək yaşana-yaşana bu gün olmurmu? O, bu günü, bu günün çəkilməz qəhrini aradan kəsib götürmək, ya bir gün öncəyə qayıtmaq, ya bir gün sonraya keçmək olsaydı, bu günün taleyini dəyişəcək hadisəsindən qurtara bilərdi. Amma bu mümkünmüdür? Və beləcə bir də gözünü açacaqdı ki, yataqxanaya çatıb. Yolda hardansa qulağına Əkrəm Naibovun "Kirpi" jurnalında çap olunmuş, radioda verilən satirik şeiri çatacaqdı. Başqa zaman olsaydı bu şeiri dinləyə-dinləyə özünü onun yerinə qoyar, radionu öz şeirini dinlər kimi dinlərdi. Amma indi oralıq deyildi. Yaxşı ki, yataqxana vardı və yataqxanada otaq yoldaşları vardı. Heç olmasa başına gələnləri onlara danışacaqdı, bəlkə bu çənə söhbətindən sonra ürəyi yüngülləşəcəkdi. Axşam otaq yoldaşları Derbatya da, Kamil də gec gələcəkdilər. Bəlkə bu onun yataqxanada qalacağı son gecəsi idi, sabah işdən çıxarılmağı yataqxana komendantına çatacaq, o da onun mitilini, ləzgi iş yoldaşları demiş, çölə atacaqdı. Birdən o, min dəfə eşitsə də bu "mitil" sözünün mənasını ilk dəfə dərk edəcəkdi. Mitil yəni yorğan, döşəyin işlənməkdən mitili çıxmış içi. Bayatın mitili vardımı, onu da çölə ataydılar. Özünü küçəyə atacaqdılar, bu elə mitilin çölə atılmağı deyildimi? Bu düşüncələrdə ikən otağın qapısı bərk-bərk döyüləcəkdi. Dik atılacaqdı. Kimdi bu? Gələn bir yerdə çalışdıqları Mustafa idi. Çulunu sudan çıxarmağı bacaran Mustafa, atasına söysən də dişini ağardan, "bəli", "bəli" deyən Mustafa. Mustafanı hansı rüzgar onun otağına atmışdı, görəsən? Həm də Mustafa hardasa başqa bir yataqxanada qalırdı. Bayatın qaldığı yeri hardan öyrənmişdi, buraya gəlməkdə məqsədi nə idi? Qapıdan içəri girər-girməz:
- Nə olub, - dedi, ə, - dəryada gəminmi batıb, sənə şad xəbər gətirmişəm, başın haqqı, "desyatnik" məni çağırıb tapşırdı ki, sənə deyəm, işdən çıxarılmayacaqsan, bundan sonra bizim briqadada işləyəcəksən. Bayat bilmirdi içində adını "güləyən" qoyduğu Mustafaya nə desin, durub qucaqlayıb öpsünmü? Yoxsa..
Bayatın içinə bir rahatlıq çökmüşdü, deməli, gözəgörünməz güclər lazım gələndə adama kömək eləyə bilir, yoxsa "desyatnik"in ürəyinə bu rəhm hardan gəlməli idi? Bayat əvvəl çalışdığı yerdən xeyli uzaqda başqa bir briqadada işə başlamışdı. Buradakı işin əvvəlki işindən yüngül olduğunu demək düz olmazdı. Amma heç olmasa ləzgi oğlanlarının xərəyindəki içi balıqqulaqlı Bakı kubiklərindən canı qurtarmışdı. İnşaat meydançasının kənarında böyük təkərliklərdə naqil sarıqları vardı. Onları qazıb yerin altına basdırmaq lazım idi. Bayat bu xınanın o xına olmadığını bilirdi, bu onun son fürsəti idi, burada da biri ilə dalaşsaydı, heç şübhəsiz, işdən birdəfəlik qovulacaqdı. Ona görə də can-dillə işləyirdi. Onlara birbaşa "desyatnik"in özü göstəriş verirdi. O hadisədən sonra ilk qarşılacaqları anı Bayat dördgözlə gözləmişdi. Görəsən, o yanaqları Ordubad əriyi kimi sarımtıl şölə saçan qadın onu niyə müdafiə etmişdi? Bəlkə... bəlkə ondan xoşu gəlmişdi. Ac toyuq yuxusunda darı görür, - deyə düşünmüşdü də. Nə iştaha düşmüsən bala, o hara, sən hara? Ağlını başına yığ.
İlk aylıq maaşını alanda Bayatın az qala gözəgörünməzlərə də inamı itəcəkdi. Ona inşaatda işləyən bir-iki qadınla bərabər maaş yazılmışdı. Görünür, usta ondan bu yolla qisas alırdı. Amma olsun, işdən qovulmaqdansa yenə buna da şükür, bu olmasa nə edəcəkdi ki? Ara sakitləşəndən sonra anasına məktub yazacaqdı:

"Əziz anam! İşimin çoxluğumu deyim, yoxsa hər dəfəki yalançılığımmı deyim, qabağımı kəsdi, sənə verdiyim vədə xilaf çıxdım. Sənə əlli manat pul göndərirəm. Bilirəm gileylənib deyəcəksən ki neynirəm, nəyimə lazımdır onun əlli manatı, mənə özü lazım idi, özü də gəlmədi. Nə deyim, ay ana. Deyimmi ki, düz demirsən. Allaha and olsun ki, mən səni elə gün olmur ki, xatırlamayım. Bir də bu ona görədir ki, Bakıya görünməmiş qar yağır və mən bilirəm ki, evimiz necə soyuqdur, siz necə vəziyyətdəsiniz... Yadıma kəndimizin qışı düşür, ana... Təkgöz pəncərəli qara damımız yadıma gəlir. Və uzun qış gecələrində diz-dizə ana-bala gəlmişdən-getmişdən danışdığımız günləri xatırlayıram. Düz o günlərdən bu günlərə, sənin də, mənim də

arzuladığımız, niyyət elədiyimiz bu günlərə gəlirəm, ana. Qəlbimə dəli bir fikir gəlir. Bu həmin fikirdir ki, mən bunu sənə həsr etdiyim bir şeirimdə yazmışdım:

Oğullar kəndlərdən çəkilib gəlir,
Kəndlərdə nə qədər analar qalır...

Və sən də eşidib -"anan ölsün, niyə belə yazıbsan, oxuyanlar deməzlərmi ki, Bayat özü-özünü tənbeh edir", - demişdin.
Hərdən elə dəli oluram ki, mənim bu haylı-küylü şəhərdə nə azarım vardı? Bəlkə də qarşıma çəpər çəkən yolun uzaqlığı, vaxt imkansızlığıdır, bilmirəm... Onu bilirəm ki, mən səni kənddəkindən də on qat artıq istəyirəm. Allah eləməmiş, sən olmasan, az qala, yaşadığım rayonu da, gözdən - könüldən uzaq, xatirə dumanında uyuyan doğulduğum kəndimizi də unudaram. Sənin həsrətin uşaqlıq xatirələrimi, kəndimizi, onun qəribə və əziz adamlarını yada salır, ana! Və mən burada-Bakıdakı insanların mədəniyyətini, qeyrətini, nəyini, nəyini onların tərəzisiylə ölçürəm...Özünə fikir ver, qağamın canı üçün, ilk imkan düşən kimi yanına gələcəyəm, darıxma. İmza. Oğlun Bayat. Öpürəm ağrıyan gözlərindən!"
Bozbulanlıq günlər bir-birini əvəz edirdi. Nə olsun ki, anasına başına gələnlərdən bircə kəlmə də yazmırdı. Niyə də yazaydı ki? Yazsa, nə olacaqdı qan qaraltmaqdan başqa... İçindəki özünə və arzularına inamı da, deyəsən, yavaş-yavaş sönməyə başlamışdı. Bunun səbəbi sadəcə az maaş almağı deyildi.

* * *

Otaq yoldaşı Kamil bir qıza vurulmuşdu. İşdən geri döndümü, üstünü-başını səliqə-sahmana salıb özünü sahil bağına verməyi vardı. Sevdiyi qız, demək olar ki, hər gün rəfiqələri ilə birlikdə sahil bağına gülşən seyrinə çıxardı. Kamil də qarabaqara o qızın arxasınca sürünər, amma qıza bir söz söyləməyə cəsarəti çatmazdı. Qızın şəhər qızlarında heç görünməyən uzun hörükləri kürəkləri aşağı şəlalə kimi axar, biçarə Kamili də arxasınca sürükləyərdi. Saçıkəsik qızlardan biri olsaydı, yəqin dost olmalarına baxmayaraq, Kamilə qoşulub qızın ardınca bir addım da atmazdı... Amma o qızın kürəklərinə axıb tökülən şəlalə hörükləri sehirli bir ilğım kimi onu da arxasına salıb süründürürdü. Yox, Kamilə göz xəyanəti etmək onun ağlının ucundan belə keçməzdi. Sadəcə, o da Kamil kimi təbiilik aşiqi idi. Həm də kənddə ilk eşqini daşlara çırpan qıza bənzədiyinə görə. Şərt deyil ki, gördüyün gözəlliyə könül bağlayasan, onu sevmək, qorumaq isə hər kəsin borcudur. Bu, fəlsəfənin nə olduğunu bilməyə-bilməyə Bayatın həyat fəlsəfəsi idi. Bayat aradabir Kamilə yol yoldaşlığı etmişdi. Əslində baxanda Kamilin Bayatın yoldaşlığına bir elə də ehtiyacı yoxdu. AZİ-nin axşam şöbəsində oxuyurdu, çevrəsində bir yığın tələbə yoldaşları vardı... Amma bəzən Kamil şəlalə hörüklərin arxasınca sürünməkdə yalnızbaşına qalırdı... Bu axşam da növbə Bayata çatmışdı. Qızın uzun hörüklərindən başqa, rayon adamlarına oxşar bir yönü yoxdu. Geyim-kecimindən varlı-hallı ailənin qızı olduğu anlaşılırdı... Hörüklü qızın özünəməxsus vərdişləri; axşamüstülərin sərinliyi başlayanda rəfiqələri ilə görənləri heyran buraxaraq nazlana-nazlana, Allahın verdiyi gözəlliyin əmin-arxayınlığı ilə sahil bağını o baş-bu başa ölçməyi vardı. Heyranları da bir-iki deyildi ki! Gəmi dəniz dalğalarını ikiyə yarıb üzdüyü kimi, hörüklü qız da bulvar qələbəliyini ikiyə bölərək irəliləyərdi... Adəti üzrə sonunda hardasa köhnə kinoteatrın yanında rəfiqələri ilə tramvaya minər, oradan beşmərtəbəyə qədər gələr və sonra beşmərtəbənin yanında tramvaydan enib həyət evlərindən birinə gedərdilər. Kamilə də qızı arxasınca qarabaqara izləməkdən, boynubükük baxmaqdan savayı bir şey qalmazdı. Öz dediyinə görə, bir-iki dəfə təklikdə qızın önünü kəsib söz demək istəmişdi. Qız onun könül harayına nə "hə" demişdi, nə "yox". Kamili də cəsarətləndirən qızın bu qeyri-müəyyən cavabı idi. Ona görə də "bəlkə bir gün..." ümidiylə hər axşam işdən sonra özünü bulvara verərdi. Bayatın növbəsi çatdığı axşam vəziyyət bir az fərqli idi. Qoşa hörüklü qızı qarabaqara izləyən oğlanların sayı bu dəfə hər zamankından daha çoxdu. O zamanlar "vengerski kok" deyilən saç modeli dəbdə idi. Hörüklü qızı izləyənlər saçlarını bu dəbdə vurdurmuş, şəhərdə yenicə boy göstərməyə başlayan

dörd-beş "stilyaqa" oğlandı... Bayatı çıxsaq, Kamilgil də dörd nəfərdilər; Kamilin institut yoldaşları idi. Bayat da onlara qoşulmuşdu. Bulvarı dörd dolandıqdan sonra qızlar adəti üzrə yenə köhnə kinoteatr döngəsində tramvaya mindilər. Bayatgil də qızların arxasınca tramvaya minmişdilər. Amma sahildə qızları izləyən stilyaqalar Kamilgili qabaqlamışdı. Fürsət tapıb onlardan qabaq tramvaya minmişdilər. Geyim-kecimlərindən "şəhər uşaqları" olduqları anlaşılırdı. Kamilin sevdiyi o adıbilinməz hörüklü qız "şəhərli oğlanlara" nə soyləmişdisə, ikidə-bir qanrılıb Kamilgil olan tərəfə baxırdılar. Qızlar bu dəfə adəti üzrə Beşmərtəbənin yanında enmədilər. Tramvay yavaş-yavaş üzü yoxuşa qalxırdı. Bu zaman gözlənilməz hadisə baş verdi, oğlanlarla Kamilgilin aralarında əl-ayaq davası başlamışdı. Bayat nə edəcəyini bilmirdi. Bu zaman arxadan bir nəfərin Kamili bıçaqla vurmaq istədiyini görəndə tələsik özünü aralığa verib burub bıçağı oğlanın əlindən aldı. Bıçağı almışdı ki, sağdan-soldan başına, gözünə zərbələr enməyə başladı. Bu zaman yumruqların çalpoyunda Kamilgilin tramvaydan küçəyə atıldıqlarını gördü. O da özünü tramvaydan yerə atmaq istədi. Amma arxadan ona təpik atanlar buna imkan vermədi, Bayat göz açmağa macal tapmamış özünü asfaltın üstünə yıxılan gördü. Ovucları, diz qapaqları qan içində idi... Amma işin pisi sonra ortaya çıxacaqdı. Zərblə yerə çırpılan sağ əlinin baş barmağı qırılmışdı... Onsuz da işdə vəziyyəti yaxşı deyildi, indi bundan sonra halı-günü necə olacaqdı? Doğrudur, Kamilgil başlarını götürüb qaçmamışdılar, onun köməyinə gəlmişdilər. Tramvay başıbəlalı hörüklü qızı və onu yumruqlayan adamları da aparıb getmişdi. Gecəni ağrılar içində qıvrılmış, səhəri dirigözlə açmışdı, - Allah, bu necə işdi, ilandan güllə çıxmadığı kimi ondan da bəla uzaq olmurdu. Bir adamın başına bu qədər də pis iş gələrmi, həm də köməksiz, kəsəksiz bir adamın... Səhəri özünü poliklinikaya güclə çatdırmışdı. Barmağını rentgenə salmışdılar, deyilənlər doğru çıxmışdı, barmağı qırılmışdı. Barmağı qırx gün gipsdə qalacaqdı. Nə yatmışdı ki, nə yuxu görəydi? Yenə iş stajı olsa nə vardı ki, xəstələndiyinə görə pul ödəyəydilər... Həm də axı barmağı işdə qırılmamışdı ki? Yaşının elə vaxtı idi ki, başına gələn bütün bu müsibətlərə məna verə bilmirdi. Başını sındırıb bütün bu uğursuzluqların səbəbini axtarırdı, axtarırdı, amma bir yana çıxara bilmirdi.Hansı bəd əməlin sahibi idi ki, başına bir bu qədər oyunlar gəlirdi? Tay-tuşları işində-gücündə, kefində-damağında olduğu vaxtda bütün bu dərdləri niyə o çəkməli idi? Xəlvətə salıb göz yaşlarını xısın-xısın axıtmağı vardı və əllərini dilsiz göylərə qaldırıb fəryad edirdi:
-- A şükür kərəminə, niyə məni bu günlərə qoymusan, atamı əlimdən alıb məni yetim qoyduğun, anamı damların altında yalqız buraxdığın yetmir, hələ mənə bu zülüm-zillətləri də rəva görürsən. Yanında nə günah işləmişəm, hay? Əsəbdənmi ya nədənsə mədə ağrıları yenidən baş almışdı. Mədə yazıq ağrımayıb neyləməli idi ki?.. Uşaqlığı aclıq, qıtlıq içində keçmişdi, bəzən günlərlə yavan çörəyin üzünə də həsrət qalırdı. Yenə orası kənddi, nəyi yoxdusa da, təmiz havası, təmiz suyu vardı. Burda Allahın suyu da pulla verilir. İç görüm krantdan gələn suyu, necə içirsən? Amma Bayat içmişdi, bir də içməyib nə edəsi idi ki?! Hər gün suya veriləcək pulu hardandı? İçmişdi və mədəsi yenidən pozulmuşdu.Mədəsi pozulmuş adamın Bakıda yaşaması çətindi. Bir də görürdün küçənin ortasındaca mədəsində gurultular başladı... Düz-əməlli tanımadığın şəhərdə mədən səni təntidəndə gəl, bu darmacalda tualet axtar görüm haradan tapırsan? Bakı, kəndləri deyildi ki, özünü kolun-kosun arxasına verəydi...
Küçələrdən keçən maşınlar sanki yoldan deyil, onun mədəsindən keçirdi. Mədəsi ikinci ürəyə dönüb döyüm-döyüm döyünür, zoqqur-zoqqur zoqquldayırdı. Elə ümidsiz vəziyyətə düşmüşdü ki, ali məktəbdə oxumaq yox, heç olmasa traktorçu, ya da sürücülük kursuna yazıla bilsəydi, özünü xoşbəxt sayacaqdı. İndi bu kurslara da yazılmaq çətin olmuşdu. Bir tərəfdən də qırılan barmağı! Sonradan hadisələr elə gətirəcəkdi ki, qırılan barmağına şükür oxuyacaqdı. Nə vaxt idi ki, işə getmirdi, gedə bilmirdi. Getsə də qırıq barmağı ilə nə iş görəcəkdi ki? Həftədə bir dəfə poliklinikaya barmağını sarıtmağa gedirdi. Bu dəfə poliklinikaya gedəndə orada iki-üç cavanla qarşılaşmışdı. Onlardan biri heç Bayatın gözləmədiyi bir vaxtda:
- Səndəmi sağlamlıq kağızı almağa gəlmisən? - dedi. Bayat bu gözlənilməz sualın qarşısında bir müddət tutuldu, nə cavab verəcəyini bilmədi, handan-hana:
- Yox, mən barmağımı sarıtmağa gəlmişəm. - Qarşısındakı güləş sifətli oğlan:

- Allah şəfa versin, barmağına nə oluf ki,-dedi. Bayat tramvaydan yıxıldığını demədi, deyə bilməzdi də, yalandan zəhləsi getsə də müqəddəs bir yalan uydurdu, işdə yıxılmışam.
Qarşısındakı oğlan sanki əvvəlcədən onun başından keçənləri yerli-yataqlı öyrənməyi qarşısına məqsəd qoymuş kimi:
- Harda işləyirsən?
"Tikinti idarəsində". Könülsüz-könülsüz cavab verdi. Oğlan yenə sorğu-sualını davam etdirdi:
- Oxuyub eləyirsənmi?
Bayat söhbəti bitirmək üçün tək kəlmə ilə:
- Yox! - dedi.
- Mən də oxumuram, elə ona görə də işimi məktəbə vermək üçün sağlamlıq kağızı almağa gəlmişəm.
Bayat:
- İndi qəbul zamanı deyil ki?
- Qiyabi şöbəyə tələbə qəbulu mayda başlayır. İstəyirsən, sən də sənədlərini hazırla, işimizi birlikdə verək, Allah kərimdi, bəlkə tutdu. Bayatın içində ani bir dalğalanma oldu, hətta bu xəbərdən riqqətə də gəldi:
- Hansı şöbəyə iş vermək istəyirsən?
- Kitabxanaçılığa!
- Niyə kitabxanaçılığa?
- Çünki yalnız orada rus dilindən imtahan yoxdur, kəndçi babayıq, rus dilini hardan öyrənəydik? Orta məktəbdə ildə üç dəfə rus dili müəllimi dəyişilirdi...Keçən il də rus dilindən kəsildim...
- Doğru deyirsən. Heç mən də rusca bir şey bilmirəm.
- Soruşmaq ayıb olmasın, hansı rayondansan?
- Tovuzdan!
- Deyirəm axı, bayaqdan niyə suyun çəkir. Ayə, ay eloğlu, adın nə oldu?
- Bayat. Bəs səninki?
- Akif! Nə qəribə adın var. Bayatını bilirəm, amma Bayatı yox.
Bayat borclu qalmadı:
- Necə tovuzdusan ki, Bayatı bilmirsən? Mən öyrənmişəm, Bayat türk qəbilələrindən birinin adıymış.
- Nə yaxşı dedin, mən də öyrəndim. İndi de görüm sənədlərini hazırlayıb mənimlə birlikdə universitetə vermək istəyirsən yoxsa, yox?
Bayat elə oxumaq arzusuyla gəlməmişdimi bu xaraba Bakıya? Ona görə də əlüstü cavab verdi:
- Niyə istəmirəm. Sağlamlıq kağızından başqa daha hansı sənədlər lazımdır? Sağlamlıq kağızı deyəndə qeyri-iradi gözü qırılmış baş barmağına sataşdı, ona bu barmaqla belə bir kağız verərdilərmi? Akifdən soruşmağa da utandı, bir də o, bunu hardan biləsiydi ki? Beləcə, bu sağlamlıq kağızı məsələsi elə ilk addımındanca ona dərd oldu.
Akif lazım olan sənədləri bir-bir sadaladı, onların bəzilərini keçən ildən hazırlamışdı. Amma sağlamlıq kağızı kimi, iş yerindən arayış məsələsi də onun canını sıxmağa başlamışdı. Kim idi ona bu kağızı verən? Deməzdilərmi ki,-nə işləmişsən ki, sənə sağlamlıq kağızı da verək... Amma bütün bunları Akifə deyə bilməzdi ki? Desəydi faydası nə olacaqdı? Vədələşib yenidən görüşmək qərarı ilə ayrıldılar. Ümid yenə də gözəgörünməzlərə qalırdı, bağlı qapıları açan gözəgörünməzlərə. İndiyə qədər sınamışdı, nəyi çox istəmişdisə, çoxu baş tutmuşdu. İnşallah, bu dəfə də belə olacaqdı... Üzünə üz tutub ilk dəfə idi ki yanaqları Ordubad əriyinin mehriban rəngini yaşadan qadının yanına gedəcəkdi. Qadın barakların qarşısında Bayatı görəndə diksinən kimi olacaqdı, handan-hana püstə dodaqlarına ani kinayəqarışıq bir təbəssüm qonacaqdı:
- Ooo, səni hansı rüzgar biz tərəflərə atdı. Əvvəlcədən xəbərimiz olsaydı, ayağının altına atmağa xalıdan, xalçadan hazırlayardıq.
Bayat çəkinə-çəkinə:
- Mən... mən...
"Desyatnik" sözünün sonunu gətirməyə imkan vermədi.
- Hə sən, nə sən?

Amma Bayat verilən bu sualın arxasında qadının səs tonundan gizli bir marağın olduğunu da sezməmiş deyildi.
- Mən işləməyim haqqında arayış almağa gəlmişdim.
- İşlədinmi ki, arayış da alasan? - Sonra nə düşündüsə:
- Arayış nəyinə lazımdır, sənin?
- İşimi qəbul üçün məktəbə təqdim edəcəyəm, ora üçün lazımdır.
- Hansı məktəbə verəcəksən işini?
- Üniversitetə.
"Desyatnik" Bayatı ayaqdan-başa süzdü, onun burnu dirsilmiş ayaqqabılarına, sementqarışıq toz basmış şalvarına, nimdaş sətin köynəyinə baxdı. Oğlanın sızanaq basmış sifətindən ona elə göz baxırdı ki, içində baş qaldıran ironiyasını elə içindəcə öldürdü:
- Sənə bircə şərtlə arayış verərik, bax, o torpaq tığını görürsən, onu əl arabası ilə daşıyıb qarşı tərəfdəki quyuya tökəsən, özü də elə bu gün.
Bayat bir qırıq barmağına, bir də tərəddüdlə yanağı Ordubad əriyinin mehriban rənginini andıran qadına baxdı. Elə bil baxışıyla "mənim vəziyyətimi görmürsənmi, bu sarıqlı qırıq barmağımla o boyda toprağı mən necə daşıya bilərəm ki?" - demək istədi. Sanki yanaqları Ordubad əriyinin mehriban rəngini andıran qadın onun fikrindən keçənləri anlamışdı:
- Özün bil, işləmirsən işləmə, biz sənə işləməyə-işləməyə arayış verə bilmərik. Nə vaxtdır saçkavatlıq eləyib işləmirsən, heç olmasa idarəyə bir faydan olsun də...
Bayatın başqa bir seçimi qalmamışdı. Canını dişinə tutub işə başladı. Əvvəlcə kiçik bir torpaq topası kimi gördüyü yer, işlədikcə azalmaq yerinə sanki yavaş-yavaş artır, təpələnirdi. Bütün günü qan-tər içində işləyəcək, gecə gecədən keçənə gədər çalışacaq və axırda torpaq təpəsini əridəcəkdi. Amma torpaq təpəsi azaldıqca əlindəki suluq təpələri böyüdükcə böyüyür, sızım-sızım sızıldayırdı. O günü, günü yox ey gecəni, o torpaq tığının axırına çıxa bilməyəcəkdi. Az da olsa bir qismi sabaha qalacaqdı. Bütün günü arzusu uğrunda canını dişinə tutub ac-susuz işləyəndən sonra özünü yataqxanaya gecənin bir aləmində zorla salacaqdı. Onsuz da xəstə olan mədəsinin ağrısı başına vururdu. Ac qarın qılınca gələr demirlərmi, çörək qabındakı quruyub qaxaca dönmüş qırıntıları bir güclə gəvələməyə çalışdı... Sonra çarpayısına uzansa da, gözlərinə yuxu gəlmədi. Yuxu hardan gələydi ki, işdən yorğun-ağrın dönən, qarnını doyuzdurub yataqlarına girən otaq yoldaşları çoxdan uyumuşdular, indi Nəsib-Yusuf quşları kimi xorultuları bir-biri ilə ediləşirdi. Əvvəllər heç onların bir bu qədər xoruldadıqlarının fərqinə varmamışdı. İndi sanki onlar da Bayatın yorğun və ac olduğunu bilib onu bir az da yuxusuz qoymaq istəyirdilər. Amma o nə olursa olsun, sabah tezdən qalxıb işə getməli idi, son ümid yerinin-oxumağının taleyi sabah alacağı arayışdan çox asılı idi. Bir tərəfdən xorultular, hələ tam sağalmayan qırılmış baş barmağının zoqqultusu, o biri yandan xəstə mədəsinin aclıqdan başlayan ağrı və qurultusu Bayata yatmaq imkanı vermirdi. Və o istər-istəməz çarəni xəyallara dalmaqda, qayğısız uşaqlığını xatırlamaqda görürdü. Uşaqlıq hər kəsin ana vətəni deyilmi? Nə gözəl günlər idi o günlər... O aclığın, yoxsulluğun içində dərki çətin, xəyalı qanadlandıran nəsə də vardı... Səhər oyanmaq istəməsə də oyanacaqdı, çünki işə getməyə hazırlaşan otaq yoldaşlarının gürültüsündən oyanmamaq mümkün deyildi. Onsuz da səksəkəli yatmışdı.Tələsik geyinib iş yerinə qaçdı...İş yenicə başlamışdı...İş icraçısı ilə "desyatnik" qadın barakların önündə durub söhbət edirdilər. Bayatı görəndə yanaqları Ordubad əriyinə bənzəyən qadın:
- Şərtə beləmi əməl edərlər, biz sənin lə beləmi danışmışdıq?
Bayat dodağının altında:
- Vallah, gecəyarıya gədər çalışdım, amma heç cür bitirə bilmədim. Bir-iki saata bitirəcəyəm.
- Bitir görək. Nəyi gözləyirsən, tez ol işinə başla, yoxsa bax, fikrimi dəyişərəm.
Bayata da elə bu lazım idi. Dünəndən, işi bitirə bilməyəcəyini gördükdən sonra içini gəmirən sualın cavabını qadının özü verdi. Deməli, onun verdiyi sözə əməl edəcəyinə şübhə etməyə dəyməzmiş.
Əllərinin qabarı ona istədiyi arayışı verəcəkdi. Arayışı alan kimi universitetin yolunu tutacaqdı. Sənədlərin qəbulunun bitməyinə bir gün qalmış işini könlü istəməyə-istəməyə kitabxanaçılıq şöbəsinə verəcəkdi, çünki Akif demişdi axı, orada rus dilindən imtahan yoxdu... Bir yerə on bir

adam iş vermişdi, indi onbir adamdan biri ol görüm, necə olursan? Həm də ixtisası üzrə işləyənlər lap üç alsalar da qəbul olunacaqdılar. Bayat isə tam başqa bir sahədə işləyirdi, həm də 5-6 aya iş stajı da demək olmazdı...Qəbul imtahanlarına hazırlaşmağa imkan tapmayacaqdı. Keçənilki biliyi ilə bu il yenidən qismətini sınayacaqdı. Bəlkə gözəgörünməzlər bu dəfə onun baxtına yar olacaqlardı... Bəlkə...
İlk imtahan ədəbiyyat yazıdan idi. M.S.Ordubadinin "Dumanlı Təbriz" əsəri düşmüşdü. Bayat mövzunu görər- görməz sevinmişdi, bu, onun yaxşı bildiyi mövzu idi. Amma işin tərsliyindən sağ baş barmağı qırıq və "gipsdə" olduğundan xətti yaxşı alınmırdı. Amma yenə də yazılı imtahandan kəsilməyəcəyinə inanırdı. İkinci ədəbiyyatdan şifahi imtahan olmalı idi. Yazıdan kəsilənlərin siyahisi divara vurulmuşdu. Amma onların arasında Bayatın adı yox idi. Buna çox sevinmişdi, kəsilməmək sevindirici olsa da, hər halda, neçə aldığı da çox vacibdi... Şifahi imtahan çoxdan başlamışdı, içəridən adla çağırırdılar, axıra iki-üç adam qalanda içinə şübhə düşdü, niyə məni çağırmırlar, bəlkə mən də kəsilmişəm, sadəcə adımı siyahıya salmağı unudublar. İrəli durub qapının ağzındakı oğlandan çəkinə-çəkinə adının niyə çıxmadığını soruşdu. Cavan oğlan köntöy-köntöy:
- Mən nə bilim, niyə çıxmır, get, onu qəbul komisyonundan soruş ,- cavabını verdi. Əlacı kəsilən Bayat qəbul komissiyasından nəyi, kimdən soruşacağını götür- qoy edə-edə qapıdan uzaqlaşırdı ki, arxadan onun adını çəkdilər. Bir az əvvəlki oğlan idi, ən axırda onu çağırırdılar. İçəri girib içində "Ya Allah" deyə-deyə bilet çəkdi. Gözucu biletə baxanda üzü gülməyə başladı, biletdə olanların demək olar ki, hamısını əzbər bilirdi... Xüsusilə ilk sual: M.P.Vaqifin "Görmədim" müxəmməsi. Bu şeir onun həyatı və düşüncəsiylə o qədər yaxın idi, hətta hərdən ona elə gəlirdi ki, şeiri Vaqif rəhmətlik elə onun üçün yazıb. Biletə düşən bildiyi suallar onu cəsarətləndirmişdi:
- Müəllim, mən hazırlaşmamış cavab vermək istəyirəm, - dedi. Eşitmişdi ki, kim "eksterni", yəni hazırlaşmamış imtahan verərsə, verə bilərsə, ona "beş" yazırlar. Beş ona, ona görə lazımdı ki, yazıdan bir "tramvay altında qalan üç almışdı." Bu iki daşın arasında aldığı üçə təəccüblənirdi. Axı o, "Dumanlı Təbriz"i demək olar ki, əzbər bilirdi. İşləri korlayan qırıq barmağı olmuşdu. Bildiyi mövzunu ilan-qurbağa yazmışdı. Bu dəfə beş almasa işlər yaxşı olmayacaqdı. İmtahan götürənlər 4 nəfər idi. Bir yaşlı, ikisi orta yaşlarda, dördüncüsü isə yarından-yaraşığından, yaşından heç müəllimə oxşamayan gənc bir qadındı. Orta yaşlılardan biri onun tük basmış sızanaqlı sifətinə, cırıq-sökük əyin-başına baxıb :- Keç, fikirləş, sonra peşiman olmayasan,-dedi. Ondan başqa sinifdə cavab verməyə hazırlaşan dörd adam vardı. Bir azdan:
- Kim gəlmək istəyir, - deyə müəllimlərdən biri dilləndi. Heç kim yerindən tərpənmək istəmirdi. Bu vəziyyət Bayatın könlüncə idi. Ürəyi qəfəsə salınmış quş kimi çırpınır, bir an öncə müəllimlərin önündə oturmaq, onları hazırcavablılığı ilə heyrətləndirmək istəyirdi. Sanki müəllimlər onun bu hazırcavablığına sevinəcəkdi. Sevinəcəkdilərmi? "Nə yenə kəndçi sadəlövhlüyünə salmısan, qaqaş, Ələkbərin keçən il dediyi sözləri nə tez unutdun?" Axırda bayaq onu fikirləşməyə göndərən müəllim:
- Sən gəl görək, bayaqdan dil-dil ötür, hazırlaşmamış cavab vermək istəyirdin.
Bayat biletini də götürüb müəllimlərin qabağında əyləşdi. Ondan əvvəl orta yaşlı biri imtahan vermişdi. İndi ona qiymət vermək zamanı gəlmişdi. O, müəllimlərə dil çıxarır, yalvarır:
- Müəllim, qurban olum, başınıza dönüm, evdə bir çətən külfətim var, oxumasam məni işdən qovacaqlar, çünki ixtisasım yoxdur, ac qalacaqlar, mənə beş verin, dörd işimə yaramır.
Müəllimlər ona dörd vermək istəyir, o isə az qala müəllimin əlini tutub dörd yazmasına imkan vermirdi:
- Yenə sual verin, cavab verim, amma məni boynuburuq yola salmayın. Ermənistandan buraya min zülüm-zillətlə gəlmişəm...
Bayatın içindən ani bir hiss keçdi: "indi ona beş yazsalar mənim üçün çətin olacaq, dalbadal iki adama beş yazmazlar ki?" Sonra da öz düşündüyündən özü utandı, niyə başqalarının paxıllığını çəkirsən, sənin öz qismətin var, onun öz qismməti.

Bayatın başqa bir seçimi qalmamışdı. Canını dişinə tutub işə başladı. Əvvəlcə kiçik bir torpaq topası kimi gördüyü yer, işlədikcə azalmaq yerinə sanki yavaş-yavaş artır, təpələnirdi. Bütün günü qan-tər içində işləyəcək, gecə gecədən keçənə gədər çalışacaq və axırda torpaq təpəsini əridəcəkdi. Amma torpaq təpəsi azaldıqca əlindəki suluq təpələri böyüdükcə böyüyür, sızım-sızım sızıldayırdı. O günü, günü yox ey gecəni, o torpaq tığının axırına çıxa bilməyəcəkdi. Az da olsa bir qismi sabaha qalacaqdı. Bütün günü arzusu uğrunda canını dişinə tutub ac-susuz işləyəndən sonra özünü yataqxanaya gecənin bir aləmində zorla salacaqdı. Onsuz da xəstə olan mədəsinin ağrısı başına vururdu. Ac qarın qılınca gələr demirlərmi, çörək qabındakı quruyub qaxaca dönmüş qırıntıları bir güclə gəvələməyə çalışdı... Sonra çarpayısına uzansa da, gözlərinə yuxu gəlmədi. Yuxu hardan gələydi ki, işdən yorğun-ağrın dönən, qarnını doyuzdurub yataqlarına girən otaq yoldaşları çoxdan uyumuşdular, indi Nəsib-Yusuf quşları kimi xorultuları bir-biri ilə ediləşirdi. Əvvəllər heç onların bir bu qədər xoruldadıqlarının fərqinə varmamışdı. İndi sanki onlar da Bayatın yorğun və ac olduğunu bilib onu bir az da yuxusuz qoymaq istəyirdilər. Amma o nə olursa olsun, sabah tezdən qalxıb işə getməli idi, son ümid yerinin-oxumağının taleyi sabah alacağı arayışdan çox asılı idi. Bir tərəfdən xorultular, hələ tam sağalmayan qırılmış baş barmağının zoqqultusu, o biri yandan xəstə mədəsinin aclıqdan başlayan ağrı və qurultusu Bayata yatmaq imkanı vermirdi. Və o istər-istəməz çarəni xəyallara dalmaqda, qayğısız uşaqlığını xatırlamaqda görürdü. Uşaqlıq hər kəsin ana vətəni deyilmi? Nə gözəl günlər idi o günlər... O aclığın, yoxsulluğun içində dərki çətin, xəyalı qanadlandıran nəsə də vardı... Səhər oyanmaq istəməsə də oyanacaqdı, çünki işə getməyə hazırlaşan otaq yoldaşlarının gürültüsündən oyanmamaq mümkün deyildi. Onsuz da səksəkəli yatmışdı.Tələsik geyinib iş yerinə qaçdı...İş yenicə başlamışdı...İş icraçısı ilə "desyatnik" qadın barakların önündə durub söhbət edirdilər. Bayatı görəndə yanaqları Ordubad əriyinə bənzəyən qadın :
- Şərtə beləmi əməl edərlər, biz sənlə beləmi danışmışdıq?
Bayat dodağının altında:
- Vallah, gecəyarıya gədər çalışdım, amma heç cür bitirə bilmədim. Bir-iki saata bitirəcəyəm.
- Bitir görək. Nəyi gözləyirsən, tez ol işinə başla, yoxsa bax, fikrimi dəyişərəm.
Bayata da elə bu lazım idi. Dünəndən, işi bitirə bilməyəcəyini gördükdən sonra içini gəmirən sualın cavabını qadının özü verdi. Deməli, onun verdiyi sözə əməl edəcəyinə şübhə etməyə dəyməzmiş.
Əllərinin qabarı ona istədiyi arayışı verəcəkdi. Arayışı alan kimi universitetin yolunu tutacaqdı. Sənədlərin qəbulunun bitməyinə bir gün qalmış işini könlü istəməyə-istəməyə kitabxanaçılıq şöbəsinə verəcəkdi, çünki Akif demişdi axı, orada rus dilindən imtahan yoxdu... Bir yerə on bir adam iş vermişdi, indi onbir adamdan biri ol görüm, necə olursan? Həm də ixtisası üzrə işləyənlər lap üç alsalar da qəbul olunacaqdılar. Bayat isə tam başqa bir sahədə işləyirdi, həm də 5-6 aya iş stajı da demək olmazdı...Qəbul imtahanlarına hazırlaşmağa imkan tapmayacaqdı. Keçənilki biliyi ilə bu il yenidən qismətini sınayacaqdı. Bəlkə gözəgörünməzlər bu dəfə onun baxtına yar olacaqlardı... Bəlkə...
İlk imtahan ədəbiyyat yazıdan idi. M.S.Ordubadinin "Dumanlı Təbriz" əsəri düşmüşdü. Bayat mövzunu görər- görməz sevinmişdi, bu, onun yaxşı bildiyi mövzu idi. Amma işin tərsliyindən sağ baş barmağı qırıq və "gipsdə" olduğundan xətti yaxşı alınmırdı. Amma yenə də yazılı imtahandan kəsilməyəcəyinə inanırdı. İkinci ədəbiyyatdan şifahi imtahan olmalı idi. Yazıdan kəsilənlərin siyahisi divara vurulmuşdu. Amma onların arasında Bayatın adı yox idi. Buna çox sevinmişdi, kəsilməmək sevindirici olsa da, hər halda, neçə aldığı da çox vacibdi... Şifahi imtahan çoxdan başlamışdı, içəridən adla çağırırdılar, axıra iki-üç adam qalanda içinə şübhə düşdü, niyə məni çağırmırlar, bəlkə mən də kəsilmişəm, sadəcə adımı siyahıya salmağı unudublar. İrəli durub qapının ağzındakı oğlandan çəkinə-çəkinə adının niyə çıxmadığını soruşdu. Cavan oğlan köntöy-köntöy:
- Mən nə bilim, niyə çıxmır, get, onu qəbul komisyonundan soruş ,- cavabını verdi. Əlacı kəsilən Bayat qəbul komissiyasından nəyi, kimdən soruşacağını götür- qoy edə-edə qapıdan uzaqlaşırdı ki, arxadan onun adını çəkdilər. Bir az əvvəlki oğlan idi, ən axırda onu çağırırdılar. İçəri girib içində "Ya Allah" deyə-deyə bilet çəkdi. Gözucu biletə baxanda üzü gülməyə başladı, biletdə

olanların demək olar ki, hamısını əzbər bilirdi... Xüsusilə ilk sual: M.P.Vaqifin "Görmədim" müxəmməsi. Bu şeir onun həyatı və düşüncəsiylə o qədər yaxın idi, hətta hərdən ona elə gəlirdi ki, şeiri Vaqif rəhmətlik elə onun üçün yazıb. Biletə düşən bildiyi suallar onu cəsarətləndirmişdi:
- Müəllim, mən hazırlaşmamış cavab vermək istəyirəm, - dedi. Eşitmişdi ki, kim "eksterni", yəni hazırlaşmamış imtahan verərsə, verə bilərsə, ona "beş" yazırlar. Beş ona, ona görə lazımdı ki, yazıdan bir "tramvay altında qalan üç almışdı." Bu iki daşın arasında aldığı üçə təəccüblənirdi. Axı o, "Dumanlı Təbriz"i demək olar ki, əzbər bilirdi. İşləri korlayan qırıq barmağı olmuşdu. Bildiyi mövzunu ilan-qurbağa yazmışdı. Bu dəfə beş almasa işlər yaxşı olmayacaqdı. İmtahan götürənlər 4 nəfər idi. Bir yaşlı, ikisi orta yaşlarda, dördüncüsü isə yarından-yaraşığından, yaşından heç müəllimə oxşamayan gənc bir qadındı. Orta yaşlılardan biri onun tük basmış sızanaqlı sifətinə, cırıq-sökük əyin-başına baxıb :- Keç, fikirləş, sonra peşiman olmayasan,-dedi. Ondan başqa sinifdə cavab verməyə hazırlaşan dörd adam vardı. Bir azdan:
- Kim gəlmək istəyir, - deyə müəllimlərdən biri dilləndi. Heç kim yerindən tərpənmək istəmirdi. Bu vəziyyət Bayatın könlüncə idi. Ürəyi qəfəsə salınmış quş kimi çırpınır, bir an öncə müəllimlərin önündə oturmaq, onları hazırcavablılığı ilə heyrətləndirmək istəyirdi. Sanki müəllimlər onun bu hazırcavablığına sevinəcəkdi. Sevinəcəkdilərmi? "Nə yenə kəndçi sadəlövhlüyünə salmısan, qaqaş, Ələkbərin keçən il dediyi sözləri nə tez unutdun?" Axırda bayaq onu fikirləşməyə göndərən müəllim:
- Sən gəl görək, bayaqdan dil-dil ötür, hazırlaşmamış cavab vermək istəyirdin.
Bayat biletini də götürüb müəllimlərin qabağında əyləşdi. Ondan əvvəl orta yaşlı biri imtahan vermişdi. İndi ona qiymət vermək zamanı gəlmişdi. O, müəllimlərə dil çıxarır, yalvarır:
- Müəllim, qurban olum, başınıza dönüm, evdə bir çətən külfətim var, oxumasam məni işdən qovacaqlar, çünki ixtisasım yoxdur, ac qalacaqlar, mənə beş verin, dörd işimə yaramır.
Müəllimlər ona dörd vermək istəyir, o isə az qala müəllimin əlini tutub dörd yazmasına imkan vermirdi:
- Yenə sual verin, cavab verim, amma məni boynuburuq yola salmayın. Ermənistandan buraya min zülüm-zillətlə gəlmişəm...
Bayatın içindən ani bir hiss keçdi: "indi ona beş yazsalar mənim üçün çətin olacaq, dalbadal iki adama beş yazmazlar ki?" Sonra da öz düşündüyündən özü utandı, niyə başqalarının paxıllığını çəkirsən, sənin öz qismətin var, onun öz qismməti.
Axırda o adama beş yazıb yola saldılar. Sıra Bayata gəlmişdi. O, ərəb, fars tərkibli sözləri çox olsa da, "Görmədim" müxəmməsini əzbər bilirdi. Bunun səbəbi təkcə şeirin onun ruhu hali ilə bağdaşması deyildi, axı arada, sırada özünün də şeir quraşdırmağı vardı. Hətta bir ay əvvəl Səməd Vurğunun Elmlər Akademiyası binasında keçirilən yubiley gecəsində iştirak etmiş və salondan rəyasət heyətinə məktub yazıb, fəhlə şair olduğunu, S.Vurğunu çox sevdiyini və ona həsr etdiyi şeirini oxumaq istədiyini söyləmiş və özü inanmasa da məclisin axırında bir möcüzə baş vermiş, fəhlə şair kimi ona da söz vermişdilər. O da ömründə belə salonlarda çıxış etməyin yox, hətta orada keçirilən tədbirlərdə iştirak etməyin nə olduğunu bilməyən biri kimi həyəcandan dili tutula-tutula şeirini oxumuş və alqış qazanmışdı... Bəlkə də bu alqış onun oxuduğu şeirə yox, S.Vurğunun ruhuna olan alqış idi. Ya da elə ona bu uğuru qazandıran S.Vurğunun bu salonda olduğuna özünə inandığı kimi inandığı ruhu səbəb olmuşdu. Səməd Vurğunun özü də bu yolu keçməmişdimi? Hələ uşaq yaşlarında məktəbə yazdırılarkən Firudin Bəy Köçərlinin önündə söylədiyi sözlər cəsarətin gözlə görünürlüyü deyildimi? İndi o da hardasa 50-60 ildən sonra eyni yolu keçmirdimi? Nigaran ruhların gözəgörünməz bir şəkildə özünəbənzərlərə kömək etdiyinə o, elə inanmaq istəyirdi ki?! Əslində, bu hadisə də onun ali məktəbə qəbul ola biləcəyi ümidlərini artırmışdı. Elə o boyda məclisdə, o tribunadan adlı-sanlı adamlarla bir yerdə ona da söz verilməsi və onun da şeir oxuması bəlkə ali məktəbə qəbuldan da vacib bir işdi. Bayatın gözlərində bu, elə möcüzənin özü idi. Hətta o zaman içindən belə bir hiss də keçmişdi ki, bəlkə, sabah məndən qəbul imtahanı götürəcək müəllimlərdən biri bu salondadır və onun oxuduğu şeirin necə alqışlandığını görmüşdür... İçindən keçənlərin təsadüf olmadığına elə inanmaq istəyirdi ki?! Qeyri-ixtiyari içimizdən keçənlər, bəlkə, heç bizim iradəmizdən asılı deyil. Bəlkə onları da bizim içimizdən keçirən var. Xəyalı gerçəyə çevirən o, hansı qüvvədir? Onunla üz-üzə gəlib təmənnidə

bulunmaq mümkün olsaydı, dünya güllük-gülüstanlıq olmazdımı? Bəlkə içindən keçənlərdə də elə S.Vurğunun ruhunun bir iştirakı var, kim bilir? Bu ümidlə də Bayat "Görmədim" müxəmməsini başdan-ayağa əzbər deməyə başladı. Bu zaman yaşlı adam - yetər, - dedi, - oğlum, lap şeiri şair kimi oxuyursan. Bayata da elə bu lazım deyildimi?
- Müəllim, - dedi, - mən də şairəm. Yaşlı müəllimin ironiya və təəccübqarışıq cavabı gecikmədi:
- Yox, əşşi?!
- Hə, müəllim.
- Bir şeir oxu görək necə yazırsan?
Bayat həm akademiyanın salonunda sınaqdan keçirdiyinə, həm də S.Vurğuna görə, bəlkə, insafa gəlib bu müəllimlər ona yüksək qiymət verə bilərlər düşüncəsiylə:
- Səməd Vurğuna həsr elədiyim bir şeirim var, onu oxuyummu?
- Oxu!
Şeir bitdikdən sonra orta yaşlı müəllimlərdən biri:
- Niyə bizi aldadıb başqasının şeirini öz adına oxuyursan?
- Müəllim, vallah bu, mənim şeirimdir.
- Necə yəni sənin şeirindir. Bunu Səməd Vurğunun akademiyada keçirilən yubileyində bir fəhlə şair oxumuşdu, - dedi.
- O fəhlə şair, məndim də, müəllim.
Müəllim tərs-tərs Bayatın səliqəsiz əyin-başına, tük basmış üzünə baxıb:
- Yox, o, sən deyildin.
Bayat müəllimin onu müştəri gözü ilə süzməsindən demədiyi sözləri də anlamışdı.
- Müəllim onda... mən fəhlə yoldaşlarımın hərəsinin bir paltarlarını geyib yubileyə gəlmişdim, bəlkə ona görə məni tanımadınız, - deyə mızıldandı.
Bayatın bu səmimi etirafı gülüşqarışıq bir ortam yaratmışdı. Bu zaman yaşlı müəllim:
- Yaxşı, yaxşı... inandıq şeirin sənin olmağına. Gəncsən, yaşının şeirini oxu görək necə yazırsan. Məhəbbət şeirin varmı? Bayat bir az çəkinsə də:
- Var, müəllim,-dedi.
- Elə isə, de gəlsin.
Bayata da elə bu lazım deyildimi? Tələsik "Yolunu gözlərəm sabahdan bəri", "Sevgilim gələcək qabaqdan bəri" misralarının yer aldığı şeirini riqqətlə oxumağa başladı. Şeir bitər-bitməz yaşlı müəllimin güləş sifətinə nurlu bir təbəssüm yayıldı:
- Bala - dedi, - siçan olmamış dağarcıq yırtırsan, hələ universitetə qəbul olmamış, gənc müəlliməni işarə edərək gözümüzün qabağında bizim qıza eşq elan edirsən, ayıb deyil?
Bayat bu sözləri ciddiyə alıb:
- Müəllim, vallah, yox, mən bunu kəndimizdəki qıza yazmışam, mənim bu müəllimə ilə nə işim var...
Qızqarışıq müəllimlərin hamısı bir-birinə qoşulub güldülər. Sonra yaşlı adam: - İkinci sualın cavabını bilirsənmi? - dedi.
Bayat anında:
- Bilirəm, müəllim, danışımmı?
- Cümlə təhlilini necə?
Müəllimlərdən başqa birisi:
-Mən soruşmadan ona "beş" verirəm,- dedi.
Bu zaman yaşlı müəllim:
- Bax, biz sənə "beş" veririk, amma unutma ki, beş hər adama verilmir, qiyabi şöbədə sənin nə işin var, yaxşı oxu, yanvardan əyaniyə keç, gündüz oxu, sənin kimi istedadlar gərək gündüz oxusun, Bakı mühitində yaşasın ki, sənətin cikini-bikini bilsin.
Və sonra yaşlı müəllim nə fikirləşdisə:
- Sənin ədəbiyyat müəllimin kim olub, Məmmədağa müəllimmi?
Məmmədağa müəllim o zaman Tovuzun ən adlı-sanlı ədəbiyyat müəllimlərindən biri idi, rayon mərkəzindəki orta məktəbdə dərs deyirdi. Bayat bir istədi, canqurtaran bir cavab versin: - Bəli , - desin. Nə biləcəklər, kimdi mənim hansı orta məktəbi bitirdiyimi bu iki daşın arasında öyrənən,

bir halda ki, yaşlı professor (Adamın professor olmağını özündən uydururdu: Hər halda, belə yaşlı adam, özü də üniversitetdə qəbul imtahanı götürən bir adam mütləq professor olmalıydı, Bayata görə) Məmmədağa müəllimin adını çəkmişdi və o da verilən suallara yaxşı cavab vermişdi, deməli, onun müəllimi başqası yox, elə məhz Məmmədağa müəllim olmalı idi.Tez də ağlından ani keçən bu yalana "dur", - dedi. Niyə yalan danışıram ki, yaxşısı budur düzünü deyim, birdən yalan danışdığımı bilsələr, onda halım-günüm necə olar?
- Yox, mənim ədəbiyyat müəllimim İmamverdi müəllimdir, - dedi.
Və yaşlı professora yalan danışmadığına görə öz-özündən xoşlandı da...
Bayatın gözlədiyi kimi olmuşdu, imtahan listinə bir yağlı əla yazılmışdı, sanki dünyanı ona vermişdilər. İmtahan otağından tüstü kimi çıxmaq istəyirdi ki, orta yaşlı adam:
- Oğlum, tarixdən necə, keçə biləcəksənmi?
Bayat hardan ağlına gəldiyini sonralar yüz dəfə fikirləşib bir yana çıxarmadığı bir cavab verdi:
- Nə bilim, müəllim, bilməyinə bilirəm, amma adamın gərək dayısı, adamı olsun.
Bu cavab müəllimləri çaşbaş saldı. Orta yaşlı gözü eynəkli o biri müəllim:
- Nə boş-boş danışırsan, sənə beşi dayına görə verdik?
Bayat qapı ağzında söz güləşdirməyin ona baha başa gələcəyini anlayıb "asta qaçana göy imam qənim olsun" deyib, dabanına tüpürüb oradan baş götürüb getdi. Xəyalı göylərdə uçurdu, qələm tuta bilməyən qırıq barmağına görə ilk yazılı imtahandan üç alsa da, zarafat deyil, şifahidən beş almışdı. Fikrində hesablamışdı, əgər tarixdən də heç olmasa, bir dörd ala bilsəydi, əzəli arzusuna çatmış olacaqdı...
Haçan, harada troleybusa minmişdi, yataqxananın yolunu tutmuşdu, yadında deyildi, dünya gözündə cənnətə dönmüşdü, içi aşıb-daşırdı, öz-özünə gülüb danışırdı... Bu zaman çiyninə bir əl qonduğunu hiss etdi. Qanrılıb baxanda iş icraçısının olduğunu gördü. İş icraçısı onun bəxtiyarlıq yağan üzünə baxıb:
- Nə olub , nə məsələdi, yenə göynən gedirsən?
- Beş almışam, ey, beş almışam! - Sonra birdən iş yerindən arayış almaq üçün başına gətirilən oyunu xatırlayıb, - daha sizin o xarabaya qayıdan deyiləm, - dedi.
İş icraçısı qarşısında oturan gəncin yay günəşindən tunclaşmış sifətinə, qara qaşları altından içində ilğımlar oynaşan gözlərinə baxıb nə deyəcəyini bilmədi... Keçmişlə gələcəyin, tərəddüdlə inadın kəsişdiyi bu anda iş icraçısının onun haqqında nə düşünəcəyi Bayatı əsla maraqlandırmırdı... Çünki imtahanın sonu nə olursa-olsun artıq bir də o xarabaya qayıdan deyildi. Doğrudur, içinin içində yanaqları Ordubad əriyi kimi haldan-hala düşən "desyatnik"ə qarşı mənasını özünün də aydınlaşdırmadığı bir hiss vardı. Amma bu hissin yenidən onu o xarabaya aparmağa gücü yetməyəcəkdi... Qəbul olsam da, olmasam da (Yox, yox, "olunmasa da" sözünü heç ağlına belə gətirmə, deyirdi öz-özünə). Sonra yenə də şər deməsən xeyir gəlməz, - deyirdi. Yəqin ağlımızdan keçən bəd fikirlər elə bu atalar sözünə görə oyanır. Atalarımızın da deməyə başlarına söz qəhətmiş, deyirdi, sonra da özü-özünü qınayırdı, atalar, sözü elə-belə demir ki?
Beynində aldığı xalları hesablayırdı. Birinci imtahan üç, ikinci beş, toplam səkkiz edir, şükür, hələlik ki, pis deyil. - Nə yaxşı ki, şifahidən beş aldım. Verdilər demirdi, demək istəmirdi... Yox, qardaşım, aldım demə, verdilər de. İçindən bu etiraf da keçməmiş deyildi. S.Vurğunun yubileyində iştirak etdiyinə, cəsarəti çatıb söz istəməyinə və orada sanki salonda heç kim yoxmuş kimi gözünü bir nöqtəyə-S.Vurğunun rəyasət heyəti ilə üzbəüz salonun arxa tərəfindən asılmış şəklinə zilləyib şeir oxuduğu günə min dəfə şükürlər oxuyurdu. Bu bir təsadüfdümü? Yox, bu boyda da təsadüf olardımı? Bəlkə elə ona S.Vurğunun ölümsüz ruhu kömək etmişdi, kim bilir? Uşaqlığından özünü belə şeylərə inandırmamışdımı? Atalılar, arxalılar atalarına, arxalarına arxayın olur, elə isə bəs yetimlər kimə və nəyə sığınmalıdır?! Bəxtdən, taledən, gözəgörünməz qüvvədən başqa yetimin sığınacaq yeri yoxdur ki. Elə isə niyə "verdilər" deyim, məgər dədəm oğlu, qardaşımdılar ki, durub dururkən mənə beş verəydilər, belə, o beşi alın tərimlə aldım.
Özü-özü ilə içində mübahisə edirdi. Sonra sanki üçüncü bir güc onun yadına gözəgörünməzləri salırdı...

Tarix imtahanı üç gündən sonra olacaqdı...Vaxt gəlib çatmış, imtahan başlamışdı... Universitetin həyətindən keçib imtahan otağını axtarıb tapması xeyli çəkdi: Kor kimdi, nabələd! - Demirlərmi? Mayın sonları olsa da, hava küləkli idi. Və bu külək universitetin həyətini adamı sərxoş edən gözəgörünməz bir ətirlə doldurmuşdu. Hardansa iydə çiçəyinin qoxusu gəlirdi. Bakının neft, mazut, tozqarışıq bir surroqat yağan havasından iydə ətrini duymağın ayrı bir ləzzəti vardı. Və bu ətir onu bir andaca dağlar arasındakı kəndlərinə götürdü. Sanki uğuruna qədəmi sayalı bir mömin çıxmışdı. Və içindən keçdi ki, bu xeyirliyə işarədir, əgər bu neft, mazut qoxulu şəhərin havasını iydə ətri doldurmuşdusa, deməli, burada nəsə bir sirr gizlənib. Burnunun duyduğu ətrin ünvanını gözü ilə aramağa başladı. Qoxu onu əzəmətli universitet binasının yavaş-yavaş qaralmağa başlayan küncünə tərəf yönləndirdi. Qara fonda sapsarı çiçəkləri, gümüşü yarpaqları ilə gəlin kimi bəzənmiş bir iydə ağacı ucalırdı...
Başı bu düşüncələrə elə qarışmışdı ki, az qala imtahana gecikəcəkdi...Özünü tələsik imtahan gedən sinfin önünə yetirdi. İçəridə biri yaşlı qadın, o biri şişman, iki müəllim oturmuşdu...Bir neçə adam bilet çəkib fikirləşirdi. Ədəbiyyat şifahidən fərqli olaraq, Bayatı bu dəfə bilet çəkməyə daha tez çağırdılar. Yenə əyni-başı bərbad gündə idi. Neçə gün idi, nə hamama getmiş, nə də paltarını dəyişmişdi, sızanaqlı üzünü tük basmışdı, quruyub çöpə dönmüşdü, ordu ordundan keçirdi...Amma bütün bunlar onun vecinə də deyildi. Əsas olan o idi ki, imtahanları başarı ilə verib universitetə qəbul olunaydı, sonra xoşbəxtliyin kələfi corab ilməsi kimi söküləcəkdi...İçəri girəndə saçları bəmbəyaz olan qadın müəllimə eynəyinin altından onu bir müştəri gözü ilə süzdü. Bayat biletini çəkib nömrəsini deyib arxa partalardan birində oturdu. Sualları bileti çəkən kimi gözdən keçirmişdi, üç sualın üçü də bildiyi şeylərdi. Birinci sual İkinci dünya müharibəsində düşmənə vurulan on zərbə idi. Bu suala elə cavab verəcəkdi ki, heç ondan, ədəbiyyat şifahi imtahanında olduğu kimi, o biri sualları soruşmayacaqdılar. Suallar könlüncə idi. Hələ imtahana girmədən içəriyə boylanmış, divardan asılmış tarix xəritəsini görmüşdü. Həm də bu xəritənin üzərində müharibədə faşistlərə vurulan on zərbə böyük və qırmızı oxlarla işarətlənmişdi. İndi bileti çəkərkən məhz bu sualın da onun çəkdiyi biletdən çıxmasını gələcək uğura yozmuşdu, inşallah, bundan da beş alacaqdı. Alsaydı, əlbəttə, iş stajı olmasa da, universitetə qəbul oluna bilərdi...Cavab verməyə hazırlaşan gənclərdən biri yerindən qalxıb xəritəyə yaxınlaşanda Bayat da xəritəyə baxmaq fikrinə düşdü. Yenicə xəritənin önündə dayanmışdı ki, əvvəlki gənc yerinə qayıtdı. Bunu görən şişman müəllim:
- Sən orda nə edirsən, kimdən icazə alıb xəritəyə baxırsan, keç yerinə, lap beşə bilsən də, iki xalın kəsiləcək, - dedi. Bayat kor-peşman yerinə qayıtdı. İçində ondan əvvəl xəritədən istifadə edən tanımadığı gənci sallaqxana keçisinə bənzətdi. Sallaqxana keçisi qoyunları ölümə- qəssab bıçağına aparıb özü aradan çıxdığı kimi, bu gənc də xəritədən istifadə edib yerinə oturmuş, beləcə Bayatı həvəsləndirmiş, çanaq onun başında çatlamışdı. Bütün bunları fikirləşə-fikirləşə Bayat çıxılmaz vəziyyətdə qalmışdı, - kaş ayaqlarım qırılaydı, heç xəritəyə yaxın düşməyəydim, indi doğrudan da mənə "beş" yerinə "üç" versələr, halım-günüm necə olacaq? Bayat bu fikirdə ikən şişman müəllim əlinin işarəti ilə: - Sən gəl görək, - dedi. Halbuki, ondan əvvəl bilet çəkənlər hələ cavab verməmişdilər. Bayat imtahan vərəqini müəllimlərin qarşısına qoydu. Yaşlı qadın eynəyinin altından bir imtahan vərəqinə, bir Bayata baxıb şişman müəllimə tərəf əyilib qulağına nəsə pıçıldadı. Mal bir yana gedər, iman hər yana deyirlər. Bayat bu pıçhapıçı yüz yerə yozdu: Yəqin qiymətimi kəsməyi məsləhətləşirlər. Birinci sual "On zərbə" idi. Bu zərbələri harada, hansı mövqedə hansı ilin, hansı ayın, hansı günündə vurulduğunu saat dəqiqliyi ilə söylədi. Birinci suala könlü istədiyi kimi cavab vermişdi, amma şişman müəllim:
- Birinci sualı bilmədin, tarixləri də xəritədən yazmısan, keç ikinci suala, - dedi.
İstədi etiraz etsin, amma etmədi, - onsuz da bayaqdan məni qaralayıblar, indi də acığa salmayım, - deyə düşündü. İkinci sualı da bülbül kimi ötdü. Amma yenə də şişman müəllimin səsi ovqatını təlx etdi:
- İkinci sualı da bilmirsən, keç üçüncü suala.
Üçüncü suala könülsüz cavab verəcəkdi. Yox, onunku gətirmirdi, gətirsəydi, bu tanrıtanımaz müəllimlər onu yox, xəritədən ondan əvvəl istifadə edən gənci cəzalandırardılar.
Üçüncü sualın cavabını tamamlamağa imkan vermədilər:

- Heç nə bilmirsən, get, gələn il daha yaxşı hazırlaşıb gələrsən.
Bayatın başından sanki bir qazan qaynar su tökdülər:
- Müəllim, mən tarix kitabını əzbər bilirəm, harasından istəyirsinizsə sual verin, kəsməyin məni, yetim oğlanam, kimim-kimsənəm yoxdur, insafınız olsun, - deyə mızıldandı.
Yaşlı qadının eynəyinin altından baxan gözlərində dumanlı da olsa bir şəfqət işartısı vardı. Bayat gözucu da olsa bunu sezmişdi. Belə idisə, niyə bu şişman müəllimə belə Allahsız hərəkət etməyə imkan verir, deyə düşündü. Şişman müəllim ötkəm bir əda ilə:
- Başımızı aparma, çıx eşiyə, işimiz-gücümüz var,- dedi. Bayatın bütün ümidləri suya düşmüşdü, buna görə də suyu süzülə-süzülə qaralamalarını da ovcunda əzib qapıya doğru yönəldi, sanki arzularını gözündə qoyan bu müəllimlərin acığını ovcundakı kağızlardan çıxırdı. Qapının ağzında imtahana girməyə növbə gözləyənlər onu sual yağışına tutdular:
- Neçə aldın?
- Nə aldın?
- Nə düşmüşdü?
Bayat acıqlı-acıqlı:
- Nə alacam, kəsildim, - deyib imtahan gedən sinfin önündən uzaqlaşmaq istəyirdi ki, içəridən çıxan başqa bir gənc: - Bayat kimdir, Bayat, - dedi. Bayat geriyə döndü. Gənc:
- İmtahan listini kimə qoyub gedirsən, al vərəqini, təbriklər, beş almısan, - dedi.
Bayat imtahan vərəqini almağa macal tapmamış, bayaqdan ondan neçə aldığını soruşan gənclər yer-yerdən:
- Utanmırsan yalan danışıb, kəsildim deyirsən, biz sənin düşməninik?
- Ə, tapşırılıb, ona görə gözdən pərdə asırdı ki, tapşırıqla beş aldığını kimsə bilməsin.
Bu zaman imtahan vərəqini gətirən qarabuğdayı gənc:
- Nə kişinin üstə düşmüsünüz, onun necə cavab verdiyini, müəllimlərin ona kəsilirsən dediklərini öz qulağımla eşitdim və onun üstünə nahaq yerdən necə düşdüklərini öz gözlərimlə gördüm, amma sonra imtahan vərəqinə "beş" yazıb mənə verdilər ki, ona çatdırım, - cavabını verdi.
Bayat olub bitənlərə bir anlam verə bilmirdi. Bu pişik quyruğu ilə oynamalar, bilə-bilə heç bir şey bilmirsən demələr nə, bu sonradan verilən "beş" nə idi? Yataqxanaya gedə-gedə beynini çatladan bu cavabsız suallara cavab arayacaqdı. Amma sevincinin də həddi-hüdudu yoxdu, sizə zarafat gəlir, üç imtahandan on üç bal toplamışdı. Amma bu sevincə kölgə salan ixtisası üzrə işləməməsi idi.

* * *

İmtahanlar bitmişdi...Bir neçə günə qəbul olanların siyahisi asılacaqdı.Bayat yerində dura bilmir, gecələr yuxusu, gündüzlər qərarı yox idi, nə olacaqdı, necə olacaqdı? Universitetin həyətində qəribə şayiələr dolaşırdı. İmtahanların hamısından qiymət alanların sayı az idi. Amma deyirdilər ki, lap imtahanların hamısından üç almış olsalar da, ilk öncə, ixtisası üzrə işləyənlər qəbul olunacaqdı. İçini şübhələr didirdi. Bu şübhələrdən qurtarmaq üçün özünü qəbul komissiyasına - sənədlərini verdiyi yerə salmışdı. Şüşənin arxasında özündən razılığı hər hərəkətindən bəlli olan bir qadın əyləşmişdi. Sakitlikdi. Xanım Bayatın bir əzik-üzük paltarına, bir sızanaqlı tüklü üzünə baxıb:
- Nə var, nə istəyirsən, - dedi. Bayat adəti xilafına çəkinə-çəkinə:
- Mən on üç bal toplamışam, öyrənmək istəyirəm görüm, bu balla qəbul oluna biləcəyəm, ya yox?
Xanım etinasızlıqla - iş stajın var, ixtisasın üzrə işləyirsən? - dedi.
Bayat cavabında:
- Yox, iş stajım yoxdur.
- Onda daha boşuna ümid etmə, iş stajı olmayan heç kim qəbul olunmayacaq, istəsən sənədlərini ala bilərsən, sonradan it-bat olmasın.

Bu vaxt gözlənilməz bir hadisə baş verdi. Bayatın arxa tərəfindən bir səs:
- Salam, Səhəryaz xanım, necəsiniz, nə var, nə yox? - Qadın səs sahibinin qarşısında duruş gətirməyib tez yerindən dik atıldı:
- Çox sağ olun, Əlövsət müəllim, Siz... yetər ki, siz yaxşı olun, Allah kölgənizi üstümüzdən əksik eləməsin.
Qadının əzilə-büzülə söylədiyi bu sözlər hara, bayaq onunla danışandakı ədası hara? Bayat əlüstü geriyə qanrıldı. Qarşısında ədəbiyyat şifahidən ona beş yazdıran orta yaşlı müəllim dayanmışdı. Tez-tələsik salam verdi. Orta yaşlı müəllim zəndlə qarşısındakı oğlana baxdı və sanki nəyisə xatırladı:
- Sən burada neynirsən?
Orta yaşlı müəllimin bu sualına Bayatdan daha çox xanım çaşbaş qalmışdı. Bayat, dili tutar-tutmaz:
- Gəldim, öyrənəm görəm, mən qəbul olunacam, yoxsa yox.
Orta yaşlı müəllim:
- Ürəyini buz kimi saxla, mütləq qəbul olunacaqsan, daha sənin kimi bir şairi də qəbul etməyib kimi qəbul edəcəyik?
Xanım:
- Şairmi?
Orta yaşlı adam:
- Səhəryaz xanım, özünü bundan gözlə, bilirsən gözəllərə necə gözəl şeirlər qoşur, bilirsən necə şairdi?- dedi.
Səhəryaz deyilən xanımın bu sözlərdən sonra ağzı açıla qalmışdı...Bayat bayıra çıxmaq istəyirdi ki, orta yaşlı adam üzünü ona tutub,- uzağa getmə, indi mən də çıxıram,- dedi. Çox keçmədən orta yaşlı adam da bayıra çıxdı. Bayat bu adama indi peyğəmbərə baxan kimi baxırdı. İçində tarix imtahanından aldığı beşlə bu orta yaşlı adam arasında bir bağlantı qurmağa çalışırdı. Birdən yadına düşdü ki, yaşlı qadınla şişman müəllim pıçıldaşarkən sanki bir Əlövsət adını da çəkmişdilər. Deməli, Əlövsət müəllim onu tarixdən imtahan götürən müəllimlərə tapşırmışdı və onlar da onunla heç nə bilmirsən deyə məzələnirmişlər...Yoxsa bu orta yaşlı adam onun qəbul olunacağını hardan bilə bilərdi ki?
Orta yaşlı müəllim bayıra çıxmağı ilə onun qoluna girib həyətdəki iydə ağacına tərəf addımlamağı bir oldu. İydə ağacından bir az aralıda yaşıl bir "Volqa" dayanmışdı. "Volqa"nın yanı kölgəlik olduğundan oraya gəldilər. Orta yaşlı adam, yəni Əlövsət müəllim:
- Canını sıxma, sənin məsələn rektorluqla da, qəbul komissiyası ilə də danışılıb, hər şey yaxşı olacaq. Bayat bilmədi bu təmənnasız yaxşılığın əvəzində nə cavab versin, necə təşəkkür etsin, burası sözün bitdiyi yer idi. Yenə də riqqətdən ağlamsınmış bir şəkildə:
- Mü-əl-lim, mü-əl-lim! - Orta yaşlı adam ona sözünü davamını deməyə imkan vermədi:
- Yaxşı, yaxşı! İndi de görüm, rayona nə zaman qayıdacaqsan?
- Allah qoysa, qəbul kağızımı aldıqdan sonra.
- Kimin var rayonda?
- Bir anam var.
- Bəs atan?
- Atam yoxdu, müəllim, ölüb.
Yaşlı adamın qaşları çatıldı, qəhər onu elə boğdu ki, kəlmələri deməyə sanki çətinlik çəkdi:
- Gəl, sənlə bir şərt kəsək.
Bayatın içində bir səksəkə, şübhə oyanmağa başladı:
- Aha, indicə Ələkbərin keçən il söylədiyi hadisə baş verəcək, nə şərtdi görəsən, yoxsa bütün bu etdiklərini təmənna üçün edirmiş? Təmənna üçün etsə də mənim nəyim var ki, ona da verəm, üstümdən - başımdan halım aşkar deyilmiə
Orta yaşlı adam əlini cibinə salıb bir dəstə pul çıxartdı:
- Belə bir iş edək. Universitetə qəbul olub, ananın yanına gedəcəksən. Mən istəyirəm sevincini ananla tam bölüşəsən. Yanlış başa düşmə, mən sənə bir az pul verəcəm, gedib özünə əyin-baş al, ondan sonra get rayona...

Bayat bu qəfil təklifin qarşısında donub qaldı, nə edəcəyini, nə cavab verəcəyini bilmədi. Bu iki daşın arasında keçən il Ələkbərin ali məktəb müəllimləri ilə bağlı dediyi xoşagəlməz sözləri xatırladı. Müəllim deyəsən bu qaraqaş, qaragöz, əynindəki nimdaş paltarı bədəninə və qüruruna sığmayan, yaraşmayan bu kəndli balasının içində qopan tərəddüd fırtınalarından xəbər tutmuşdu ki:
- Nə tərəddüd edirsən? Al görüm! - dedi.
- Yox , müəllim, elə şey olarmı? Vallah, mənə pul-para lazım deyil, burada fəhlə işləyirdim, barmağım sındı, ona görə maaş ala bilmirəm, siz mənim əyin-başıma baxmayın, rayonda vəziyyətimiz pis deyil. - Bunları deyə-deyə yalan söylədiyinə görə özünə nifrət edirdi, amma yalan söyləməkdən başqa çarəsi də qalmamışdı. Müəllimdən elə-belə, ya da borc pul almazdı, ala bilməzdi, nə adla alasıydı ki\? Bu müəllimə nə düşüb ki, durub-dururkən mənə pul verir, bunun arxasında kim bilir nə məqsəd var. Sanki orta yaşlı müəllim Bayatın içindən keçənləri bilmiş kimi:
- Yaxşı, elə-belə almırsan, borc verirəm, əlin gətirəndə qaytararsan, mənim də oğlum yoxdu, elə bilərəm sən də mənim oğlumsan, al görüm, al.
Müəllim zorla pulu Bayatın döş cibinə soxmaq istədi. Bu arada Bayat yenə öz-özünə filosofluq eləməyə başladı. Görünür, dünyada nə varsa qaralara, ağlara bölündüyü kimi, insanlar da qaraya - ağa bölünürlər, Allah adamı, şeytan adamı var. Baxır sənin yollarına hansısı çıxacaq? Qarşına çıxanların hardasa elə sənin öz içinlə də birbaşa əlaqəsi var... Mizan-tərəzi deyilən adını eşidib üzün görmədiyin şey bəlkə elə budur. Amma qərarı qəti idi:
- Müəllim, vallah, almaram, niyə məni utandırırsınız, yəqin mənə yazığınız gəlir, hə?! Müəllim, vallah, düşündüyünüz kimi deyil, mənə yazığınız gəlməsin, mən yazıq gəlinəsi adam deyiləm.
Bunları deyə-deyə pulu almadığına görə içində bir peşmanlıq hissi də baş qaldırmışdı. Amma o belə hisslərini içində boğmağa ac-yalavac böyüdüyü uşaqlıq illərində çoxdan alışmışdı. Kəndlərində "Şəmşəd xəngəl yemir" deyimi dillər əzbəri idi. Uşaqlıqdan dili lal, bədəni şikəst olan Şəmşəd gününü qapılarda keçirər, onun-bunun verdikləri ilə qarnını doyuzdurardı. Kəndin bicəltək uşaqlarının hərdən Şəmşədi ac qoymaqları vardı. İçəridən qurudlu xəngəlin soğança iyi bayıra vuranda, sinilərə xəngəl çəkiləndə, Şəmşədə də pay düşəndə uşaqlardan kimsə ortalığa bir söz atardı:
- Şəmşəd xəngəl yemir.
Aclıqdan qarnı quruldayan Şəmşəd beləcə inada düşüb xəngələ əlini vurmazdı. Bayatın da başqa yerlərdə bəlkə yüz dəfə ağzı sulansa, acından ölsə də, qürurundan və inadından nəfsinə "tət" deməyi vardı. Yemək üçün ürəyi getsə də inada düşüb yeməzdi. Bu, onun çoxdankı adəti idi.
Orta yaşlı müəllim:
- Oğlum, - dedi. - Mən də çox çətinliklər çəkə-çəkə bu yerlərə gəlmişəm, əlimi geri çevirmə, bu, sidq-ürəkdən etmək istədiyimdi.
- Müəllim, elə siz mənə yüksək qiymət verməklə ən böyük yaxşılığı etmisiniz, bunu ömrüm boyu unutmaram.
- Oğlum, bəlkə də düşdüyümüz vəziyyət hamımızın təsəvvürünü korlayıb, mənim, səninə bölünmüşük, millətin hər istedadlı gəncinə öz övladımız kimi baxmasaq, o zaman millətimizin axırı nə olar? - Bu dəfə də müəllim filosofluq eləməyə başlamışdı.
Bayat bu böyük insanın pulunu almayacaqdı. Cibi onsuz da boşdu, amma qəlbi elə dolacaqdı ki, atasızlığını da, yetimliyini də unudacaqdı. Hətta ata əvəzi qarşısındakı bu mübarək insanı qucaqlayıb öpmək istəyəcəkdi. Amma fikrindən keçənləri etməyəcəkdi... Müəllim Bayatın inadını görüb:
- Görürəm, qürurlu oğlansan, yaxşı, qoy sən deyən olsun. Universitetə qəbul olacağına şübhən olmasın. Amma bir məsələni unutma, ali məktəbə qəbul olunmaq bir başqa şeydir, oranı oxuyub bitirmək bir başqa... İndidən sənə başarılar diləyirəm. Əyər bir problemin-filanın olsa, çəkinmədən mənə söyləyə bilərsən. Yetər ki, yaxşı oxuyasan, həm də gözəl bir şair olasan...
Bayatın içi bu ilıq ümidli sözlərdən riqqətə gəlmişdi. Və ona elə gəlirdi ki, qarşısındakı adam heç də ona ədəbiyyat şifahidən beş yazan müəllim deyildi, xəyalında yaratdığı gözəgörünməzlərdən

biri idi...Bu gözəgörünməzlərin gözə görünəni orta yaşlı müəllimə bütün varlığı ilə ikicə kəlmə şükranını hayqırmışdı:
- Sağ olun, müəllim!

* * *

Universitetə qəbul olunanların siyahisi asılan lövhələrin önü qarışqa yuvasına dönmüşdü. Bayat bir güclə adamların arasından siyahını görə bildi, ən sonuncu ad onun, Bayatın adı idi... Sevinci yerə, göyə sığmırdı, utanmasa qarşısına çıxan hər kəsi bağrına basıb öpərdi... Nədənsə bu ekstaz anında ilk öncə Akifi xatırladı... Hətta şofer, traktorçu kurslarına belə yazılmağının çətin olduğunu düşündüyü böhranlı zamanlarında qarşısına ağ atlı oğlan kimi çıxıb ona ali məktəblərin qiyabi şöbəsinə sənəd qəbulunun başlandığını xəbər verən Akifi! Universitetin kitabxanaçılıq şöbəsinə iş verəndə də, sonra qəbul imtahanları zamanı da gözü hər yerdə onu aramışdı. Amma heç yerdə rastlaşmamışdı, sanki yağlı əppək olub göyə çıxmışdı. Hərdən fikirləşirdi ki, bəlkə heç yerli-dibli Akif adlı birisi ilə qarşılaşmayıb. Akif elə onun xəyalının məhsulu idi. (O xəyalında hansı mənzərələri qurmurdu ki? Əslində ona "dava dağarcığı" deyənlərin onun iç dünyasından xəbərləri olsaydı ona "xəyal dağarcığı" adını verərdilər... Onun iki əl barmağından bir az artıq olan həyat yolu demək olar ki, xəyallar, arzular içində keçmişdi. Bəlkə boşluğun yerini xəyallarla doldurmaq atadan, ya da anadan yetim qalanların tale qismətidir?) Amma qırıq barmağı hələ əməllicə sağalmadığından onun poliklinikaya getməyinin və orada Akiflə tanış olmağının hazırca şahidi deyildimi? Görəsən onun - Akifin vəziyyəti necə oldu? Axı o da sənədlərini kitabxanaçılığa verəsi idi... Versəydi, necə olsa imtahanlarda görərdim. Bəlkə də elə ilk yazılı imtahandan kəsilib, daha harda görəsiydim ki? Başıma lənət, gərək elə poliklinikada görüşümüz zamanı adresini alaydım.
İlk sevincini anası ilə bölüşmək istəyirdi... Yox, bu dəfə ehtiyatlı olacaqdı, bu da keçən dəfəki deyildi ki, qəfildən anasının qarşısına çıxsın, özündən getməsinə səbəb olsun...Yaxşı xatırlayırdı, Bakıya gəlişinin dördüncü ayında işdən yataqxanaya qayıdanda birinci mərtəbədə növbətçinin qırmızı mahud örtüklü masasının üstünün məktubla dolu olduğu gözünə çarpmışdı. Gözünün ucuyla o, məktublara baxıb yuxarı qalxmaq istəyirdi ki, növbətçi adresini kənddə düz-əməlli bilən də yoxdu. Anasına da çoxdandı məktub yazmırdı. Bir də nə yazası idi ki? Bəlkə gələn teleqram dostu Oqtaydandı. Hələ Bakıda əli ətəyindən uzun idi. O isə tam başqa ümidlərlə gəlmişdi Bakıya. Durub anasına uğursuzluqlarındanmı, usta ilə savaşdığından, qadınlarla eyni maaş aldığındanmı, otaq yoldaşının güdazına, anası demiş, "barmağını becərdiyindənmi" yazaydı? İndi "sənə teleqram var" sözündən ona görə bir anlığa tutulmuşdu. Teleqramı oxuduqda dünya başına dar olmuşdu. Kimin vurduğu bilinməyən teleqramda anasının bərk xəstə olduğu və təcili kəndə gəlməsi yazılmışdı...
Dünya gözündə qaraldı, nə edəcəyini bilmədi, dizləri taqətdən düşdü, yaş gözlərini alacalandırdı... Yoxsa... Allah eləməmiş, anamın başında bir işmi var?.. Sabahı gözləmək olmazdı, özünü elə indi gecə qatarlarına yetirib rayona getməli idi... Cibində də ki, siçanlar oynaşırdı, Allah qoymasa, Bakıdan anasının yanına gedirdi, əli boş, tullana-tullana.Qatar ayağına gedənəcən dağı arana, aranı dağa daşımışdı... Hətta aradabir özünü tramvaydan atmaq belə istəmişdi. Öz-özünə için-için ağlayır, göz yaşı tökürdü: -An-am-dan son-ra, anam-dan son-ra ya-şa-mağın nə mənası var". Ətrafdan heyrətli gözlər ona çəp-çəp baxırdı... Bayat onsuz da heç nəyin fərqində deyildi. Bir təhər ümumi vaqona bilet ala biləcəkdi... gecə boyu vaqonu dolduran çeşid-çeşid adamların xorultuları arasında səhəri diri gözlə açacaqdı. Bu boyda insan arasının gecə tənhalığında onun halına aşağıda təkərlə polad relslərin taqqıltısı, öndə isə buxar lokomotivin siqnal səsləri şərik olacaqdı... Səhər bazara açılırdı və Bayat fikirləşdi ki, yaxşı ki sabah bazardı, heç olmasa, bazarda tanış-bilişdən birini tapıb anasının halını soruşa bilər, yoxsa kəndə maşın tapıb gedənə, anasından səhih xəbər tutana qədər bağrı çatlayacaq...
Qatardan düşən kimi gözü tanış adam aramağa başladı. Amma tanış adam onun halını hardan biləsiydi ki, qarşısına da çıxaydı... əlac dəmir yolunun dağlara tərəf uzanan səmtində yerləşən bazara qalırdı. Anasının az qala hər bazar yumurtadan, toyuqdan, merdən-meyvədən bir şey

götürüb bazara gəlməyi vardı. Sonra düşündü ki, nə umudlanırsan, məğər ananın başı üstündədir ki, hələ bir bazara da gəlsin...Dəmir yolunun qırağı ilə bazara tərəf üz tutmuşdu. Hətta bir istədi ki, hərdənbir anasıyla birlikdə bazara gəldikləri zamanlarda olduğu kimi ürəyində anası ilə bağlı niyyət tutub gözlərini yumub bəlli bir nöqtəyə qədər relsin üstünə çıxıb getsin, əgər yıxılmasa, deməli anasının başında heç nə yoxdur, yox, əgər, Allah eləməmiş, yıxılsa, onda heç, deməli vəziyyət ağırdır. Amma uşaqlığında alışdığı bu vərdiş indi fikrindən keçsə də təkrarlamağın mənasız olduğunu düşündü, yaxşısı budur gedib bazardan tanış bir adam tapıb anamın vəziyyətini soruşum, - deyə fikirləşdi. Bu zaman uzaqdan tanış birinin gəldiyini gördü, bu, qonşuları Öksürüklü Qara idi. Tənbəki eşməsindən dişləri, bığı, saqqalı sapsarı saralmış bu kişidən Bayatın uşaqlıqdan zəhləsi gedərdi. İndi heç bunu xatırlamağın yeri idimi? Bayat özünü Öksürüklü Qaranın üstünə saldı:
- Ay Qara əmi, - dedi və... sözünün dalını gətirə bilmədi, hönkür-hönkür ağlamağa başladı.
Öksürüklü Qara qarşındakının əvvəlcə kim olduğunu anşıramadı, sonda handan-hana: - Əyə, a bala, Bayatsanmı, noluf, niyə ağlıyırsan?
- Qara əmi, sən imanın, dinin, düzünü de, anama noluf?
Elə bil Qaranın üstündən dağ götürüldü:
- Ə, a bala, noluf anana? Maşallah, sapsağlamdır, odu ey bazarda yumurta satır, bir az əvvəl orda qoyub gəlmişəm.
- Qara əmi, sən Allah, məni aldatma, doğrudanmı anam bazardadır?
- Ə, a bala, səninlə ikidən-birdən zarafatımmı var, odu ey, inanmırsan get özün gör...
Bayat verdiyi bu şad xəbər üçün heç Öksürüklü Qaraya "sağ ol" belə demədən bazara tərəf götürüldü... Amma Öksürüklü Qaranın sözünə inanmaq istəsə də, içində bir səksəkə də vardı... Bəlkə pis xəbər verib vayqanlı olmaq istəmir. Amma nə də olsa ağsaqqal kişi idi, bu qədər yalan danışmazdı ki? Bir də adama nə düşüb ki, yalan da danışsın?
Bazar qazan kimi qaynayırdı. Belə yerdə deyirlər ki, iynə atsan yerə düşməz... Boz ayın bozbulanlıq havası çisək gətirmişdi. Bazar yerinin nəmişli torpağı ayaqlanmaqdan zımıra dönmüşdü. Bayat dörd gözlə anasını axtarırdı, bircə onu sağ-salim görsəm, bircə onu bağrıma basa bilsəm, sonra ölsəm də dərdim olmaz... Toyuq-cücə, yumurta satılan yeri ələk-vələk elədi, anasının izi-tozu yoxdu, tərs kimi tanış bir adama da rast gəlmədi ki, burada olub-olmadığını xəbər ala. Əlac bazarı dörd dolanmağa qalırdı. Bazarın ən gur yerində uzaqdan tanış bir fiqur gördü. Oydu, anasıydı, adamları sağa-sola itələyə-itələyə anasına tərəf götürüldü. Ürəyi əsim-əsim əsirdi. Bu qəfil sevincdənmi, ya da anasını sağ-salamat gördüyündənmi nə ağıl elədisə səssizcə arxa tərəfdən anasına yaxınlaşıb arxadan əlləri ilə gözlərini tutdu. Anası bu qəfil hərəkətdən çaşdı, geri çevrildi və... qarşısında ciyərparasını görəndə birdən-birə camaatın arasında bazarın ortasında oğlunun qolları arasından yerə yıxıldı. Bayat bu ani gəlişmədən elə çaş-baş qaldı ki, nə edəcəyini bilmədi, anasını havada tutmaq istəsə də tuta bilmədi və anası palçığın içinə yıxıldı. Bayaqdan onun itələyə -itələyə özünə yol açdığı adamlar da bir anlığa bu mənzərə qarşısında yerlərində narazı-narazı dondular. Qadınlar bir anda ətraflarına yığışdılar, kimi isə ananın üzünə səpmək üçün su gətirdi... Sonra adamların qınağı başladı:

- Yekə oğlansan, beyqafıldan nə işdi gördüyün? Yazıq arvadın qorxudan bağrı yarıldı ki!
- Kimsən sən, bu qadının nəyisən?
- Axmaq adam, adam da belə iş tutarmı?
Bayat xəcalətdən nə deyəcəyini bilmirdi. Fikirləri başında ərəb saçına dönmüşdü, ayağının birini qaldırıb birini qoyurdu. Dili tutar-tutmaz:
- Anamdır, - dedi.
Amma tutduğundan nə qədər utanıb xəcalət çəksə də, anasını sağ-salamat gördüyünə elə sevinirdi ki?!..
O teleqramı kim göndərmişdi, niyə göndərmişdi, nə anası bilirdi, nə Bayat öyrənə biləcəkdi. Mal bir yana, güman hər yana gedər, onun da gümanı yüz yana getmişdi: Yəqin kimsə onu işindən-gücündən etmək üçün qəsdən belə bir teleqram vurmuşdu. İçindən bu fikirlər keçirdi, sonra bir başqa səs də ilan quyruğunun üstə qalxırdı, - yaman da işin, gücün var, kimin hansı ağ gününə

paxıllığı tutacaq? Kim fikirləşsə də gərək sən belə fikirləşməyəsən, orda, şəhər tünlüyündə başına gələnlərdən kimsənin xəbəri olmaya bilər, bəs özün? Özün özünü necə qandıracaqsan? Bu zaman içində başqa bir hiss də baş qaldırırdı; yəqin anası orda-burda ondan o qədər giley eləyib ki, poçtda işləyənlər tək oğlunun həsrətini çəkən ananın dərdinə əlac üçün bu qabırğası qalın oğluna bir teleqram qulaqburması veriblər. Əgər belədirsə (yəqin ki, belədir), sağ olsun o gözəgörünməz xəyali adam, özünə qalsaydı cibində siçanlar oynaşdığı vaxtda qoynuna diri ilan salsalar da kəndə gələn deyildi. Yaxşı ki, o teleqramı çəkdilər, Allah kömək olsun onu çəkənə, mən də məcbur olub kəndə anamı görməyə gəldim, həm anamın ürəyi təskinlik tapdı, həm mən bir az suyumu dəyişdim...

Yox, bu dəfə acı təcrübəsi vardı, qəfil-filan gedəsi deyildi. Hətta universitetə qəbul olunduğunu da birdən-birə anasına xəbər verməyəcəkdi, yenə, Allah eləməmiş, bu dəfə də sevincdən özündəngetməsi tutar. Anasının özündəngetməsi çoxdan vardı, lap çoxdan...

O illərdə anası evdə az-az olardı. Gündüz səhərdən axşamacan kolxoz işində, axşamlar isə bir-birini əvəz edən vergi iclaslarında. Bir evə nə qədər vergi qoyularmış: tüstü pulu, könülli vergi, naloq, ağac vergisi, ev vergisi. Hətta meyvə verməyən ağaclara da vergi qoyulurdu, kimin nə həddi vardı ki, bar verməyən ağacını kəssin, evdəki uşaqların sayı, dolanışığı, öldüsü, qaldısı kimsəni maraqlandırmasa da bar verməyən ağacların heç birinin kəsilməsinə imkan verilməzdi. Buna görə də axşamlar davamlı vergi iclasları keçirilirdi. Bir fikirləşən yox idi ki, dünən keçirilən iclasda vergini verə bilməyəcəyini göz yaşı tökə-tökə söyləyən, həm də bütün günü kolxoz işində çalışan adam, bir gün sonra pulu hardan tapasıydı ki, onu yenə iclasa çağırırdılar. Gündüzlər dərdini üzə vurmayan ana, gecələr Bayatı yatmış bilib yerinin içində xısın-xısın dil deyib ağlardı: "Qovğa günü qoç iyidə meydan gendi, gen, Qılıncının tiyəsindən axan qandı, qan", "Ya məsərləcaim, ya Murtaza Ali..."Bəlkə də bütün bu vergi əzablarından dövlətin xəbəri yoxdu, yerlərdəki tanrıtanımazlar edirdi bunu, amma edilənlər dövlətin adına edilirdi.Anası bütün bu dərdlərdənmi, ya nədənsə özündəngetmə tapmışdı. Tez-tez özündən gedirdi. Bayatın gözünün yolda, qulağının səsdə qaldığı dərdli-ələmli belə payız axşamlarının birində evlərinin yuxarı idarənin yerləşdiyi tərəfindən hər dəfə olduğu kimi itlərin hürüşməsi başlamışdı. Deməli, anası hardasa yaxınlıqda idi. Anası gecə iclaslardan qayıdan zaman hər dəfə eyni hadisə təkrarlanırdı. Evləri yox ey, daxmaları kəndin ən aşağı, ucqar yerində yerləşdiyindən yolboyu anasının iş-boyunduruq yoldaşları bir-bir evlərinin-damlarının yanında tökülüb qalır, anası isə bundan sonra yoluna təkbaşına davam edirdi. İt hürüşmələri də yolüstü kənd həyətlərindən qanadlanır, ananın ayaq səslərini bir-birinə ötürürdülər. Sanki yolçunun yolda yalnız başına olduğunu hiss edir, onu qorxutmağın tam zamanı olduğunu bir-birinə xəbər verirdilər. Damların altında axşam-axşam yalnızbaşına qalmaqdan bağrı yarılan Bayat artıq bu səslərə, it hürüşmələrinə adət etmişdi, əslində bu səslərə sevinirdi də. Bu səslər ona anasının artıq evlərinə yaxınlaşmaqda olduğunu xəbər verirdi: Qorxma, bir az da döz, bir azdan anan yanında olacaq. Tənha qəlbi bu axşam da həmişəki kimi təskinlik tapırdı. Bax, indicə tüccar Qaranın səlvərinin quyu dibindən çıxan ölü zingiltisi eşidiləcək, sonra Saqqallı Sadığın Bozdarı haray qoparacaq və Bayat biləcək ki, anası Güllü çökəyin döngəsini burulur. Dartınıb göyə zəncir salan isə Hasan Hasanoğlunun qanıxmış köpəyidir. Sahibi kimi harın köpəyin səsi hər dəfəkindən daha qəzəbli səslənirdi. Bayat köpəyin səsindən hiss etmişdi ki, irəli, geri gedir, atılıb düşür, zənciri gəmirir, bağından qopub, gecənin bu vaxtı şirin mürgüsünə haram qatan yolçunu basmarlayıb altına almaq istəyirdi... Bəlkə, elə bu həyasızlığına, sərtliyinə, atlını atdan saldığına görə də onu həmişə zəncirdə saxlayırdılar. Uzaqdan-uzağa dartınan sanki köpək deyil, səs idi, eləcə alçalıb, ucalır, kəndi başına götürürdü. Bu qərib payız gecəsində də köpək əvvəlki vərdişindən qalmırdı. Bayat bir anda hiss etdi ki, köpəyin səsi bağlandığı yerdən yox, həyət qapısından bir xeyli yuxarıdan, Güllü təpənin çökəyindən gəlir, görünür, zəncirini qırmışdı ya da onu qəsdən açıb buraxmışdılar. Mal sahibinə oxşamasa haramdır, demirlərmi? Bəlkə də təkcə gəlin ocağa gəlmir, itlər də ocağa gəlir...Hasan Hasanoğlunun hərdənbir qonum-qonşulardan hansısınınsa pisliyinin əvəzini çıxmaq, gözlərinin odunu almaq üçün köpəyi açıb buraxmağı, iş işdən keçəndən sonra da yalandan, - vallah, gözünə quduz dəymiş, özü zəncirini qırıb mən neylim,- deyə yalan danışmağı vardı. Deyəsən, bu dəfə də belə olmuşdu. Bayat, bəlkə, bir az buna görə toxtamışdı, Hasan

Hasanoğlunun bizimlə nə qəsdi-qərəzliyi ola bilər? Yəqin, yoldan keçən başqa adamdı. İtin yol qırağında çatmağı ilə səsinin xırıp kəsilməsi bir oldu... Elə bil ürəyinə nəsə damdı... Birdən, Allah eləməmiş, anam olar. Qəlbinə damanın başına gəldiyi az olmamışdı. Və bir göz qırpımında çölə fırladı. Özgə vaxt olsaydı, qorxusundan ətini də kəssən təkbaşına gecənin bu vədəsində ayağını bir addım da çölə atmazdı. Amma indi qorxumu yada düşürdü?! Ayaqyalın, başıaçıq səs gələn, əslində, kəsilən tərəfə qaçırdı. Ürəyinə daman başına gəlmişdi. Ayın Kəmər qayasının arxasından macal tapıb tuşlandığı yerdə qəribə bir mənzərə vardı. Köpəklə əlbəyaxa olan ana qanıxmış köpəklə birlikdə yolun ortasına düşüb qalmışdı. Amma yerə-göyə zəncir salan köpək də elə bil heç o qanıxmış köpək deyildi. O da sanki tutduğu işdən peşiman kimi başını ananın dizi üstə qoyub uzanmışdı. Bu kənardan görünən mənzərə idi, yaxına gəldikdə isə... Bayat qorxulu-qorxulu özünü anasının üstünə atdı. Nəyi görsə yaxşı idi? Anasını ürəkgetməsi tutmuşdu, ağzından köpük daşlanırdı... Əlləri kəlbətin kimi köpəyin boynunu sıxmaqdaydı... Anlaşılan o idi ki, anası üstünə cuman köpəyin boğazından iki əllə qamarlamış və beləcə də bayılmışdı... Bayat anası özündən gedəndə çox görmüşdü, dişləri və əlləri bir-birinə kilidlənirdi. Onu öyrətmişdilər, - elə ki, gördün özündən gedir, qoyma dişi ilə dilini kəssin. Özündən getdimi kilidlənən əlini və çənəsini ayırmağa beş adamın gücü yetməzdi. Bu dəfə də belə olmuşdu. Qorxulu-qorxulu köpəyin boynundan necə yapışmışdısa, kənddə ad çıxaran qanıx köpək ananın kəlbətin əlləri arasında ölümlə əlləşirdi. Bayatın ani qışqırığı kəndi başına götürmüşdü. Səsə qonşular tökülüşüb gəlmişdilər, hamı ananın hayında idi, köpəyin öldüsü-qaldısı ilə maraqlanan belə yoxdu. Amma qanıx köpək ölməmişdi. Su gətirmişdilər, kimi ananın üzünə su səpir, kimi əllərini, qollarını ovuşdururdu. Ana özünə gələndən, əlləri boşalandan sonra köpək birtəhər sürünə-sürünə qaratikan çəpərinin altından özünü tanış həyətə təpmişdi.
O zamandan sonra kimsə qanıx köpəyin səsini eşitmədi...

* * *

...Bayatın kəndə dönüşü anası üçün toy-bayram oldu. Sən demə, neçə vaxt imiş xəstə yatırmış, Bayatın gəldiyini eşidən kimi sıçrayıb ayağa qalxmış, sapsağlam olmuşdu... Neçə vaxtdır ocaq qalanmadığından mürgüləyən buxarı nəfəsini alıb verməyə başlamışdı. Bir azdan qurumlu bacalarından kəndə anasının məşhur əriştəli plovunun ətri yayılacaqdı. Qonşu arvadları Xatınla Tamam anaya gözaydınlığı verməyə gəlmişdilər. Aradabir Bayata da sataşırdılar:
- Bayat bala, sən elə oxumamışdan doxtur oldun, vallah, billah, anan elə xəstə idi ki, az qala əlimizi üzüb bu dəfə doğrudan da sənə tel vurduracaqdıq ki, başını Bakıda istad, kənddə qırxdır. Yaxşı ki gəldin, bu günü qara gəlməmiş elə bil heç o dünənki yolu oyanlıq olan adam deyil.
Gəldiyini eşidən kimi dimdik ayağa qalxdı, səndən yaxşı doxtur olar. Anası da cavabı gecikdirməmişdi:
- Neylim, ay qızlar, vallah, canım gədiyə bağlıdır, onu gördüm, dərdim, ağrım gəldiyi kimi də yox olub getdi. Allah da məni belə yaradıb, neylim?
Təklikdə qaldıqlarında anası:
- Anan ölsün, neçə günlüyünə gəlmisən, xeyirdirmi, çoxmu qalacaqsan? -deyəndə:
- Ana, daha birdəfəlik gəldim yanına, bir də Bakıda fəhləlik eləməyəcəyəm, daha səni tək buraxan deyiləm. Muştuluğumu ver, sənə şad xəbər gətirmişəm, -cavabını verdi.
- Muştuluq məndən, dərdin alım, yetər ki, Allah sənin işini avand gətirsin, di söylə görüm nədi elə o muştuluqluq olanə - Anası Bayatın ali məktəbə girməsini ağlına belə gətirməzdi. Çünki hələ ali məktəblərə qəbula iki ay qalırdı. Kənddə qəbul imtahanlarının vaxtını bilməyənmi vardı?! Hər il, hər evdən də olmasa, kənddə nə qədər uşaq Bakıya imtahan verməyə getdiyindən bu tarixi böyüklü- kiçikli hamı bilirdi. Həm də gilasın, tutun sitib töküldüyü, dəydiyi zaman arıqıran quşlarının bir gün mütləq gəlib yetişmiş meyvələrin yediyini yeyib, yemədiklərini yerlə bir edəcəklərini bildikləri kimi bilirdilər...Qiyabi təhsil yayğınlaşmamışdı, həm də olsa-olsa yaşlı

adamlar işləyə-işləyə qiyabi oxuyurdular. Daha ağzından süd iyi gələn işsiz-gücsüz Bayat kimi birisinin qiyabi ali məktəbə qəbul olunacağına kim inanardı. Bəlkə, anası da buna görə:
- Anan ölsün, yoxsa məktəbə qəbul olmusan? - sözünü anında söyləyərdi. Amma söyləmədi. Nəydi bu muştuluqluq xəbər? Ananın vücudu əslində indi bu sual idi. Bayat:
- Ana, - dedi, - daha rahat ola bilər, kəndin içində başıyuxarı gəzə bilərsən, oğlun məktəbə qəbul olundu, özü də universitetə!
Ana çaşbaş qalmışdı. Bu xəbərə sevinsinmi, sevinməsinmi? Amma içindəki ani tərəddüd sevincini üstələyirdi: Bu nə vaxtın məktəbə qəbul olunmağıdır. Yoxsa oğlu ona yalan danışırdı? Kənddə ağzına yalan gətirməzdi, mən onu elə böyütməmişdim, yoxsa, o, ağzıyanmış şəhər, mənim bircə balama da yalan danışmağı öyrətdi?
Amma içindən keçənləri dilinə gətirmədi:
- Bıy, anan gözünə qurban, ay oğul, Allaha min şükür, sonunda dualarım müstəcəb oldu. Allah, sana fəda olum, axırda səsimi eşitdin, eləmi?
Ana əvvəlcə oğlunu bağrına basdı, sonra da əllərini göyə dirək edib dualarına başladı. Bayat anasının yazı-pozusunun olmadığını bilə-bilə yenə qəbul kağızını anasına göstərdi. Ana kağızı alıb dodaqlarına sürtdü, sonra dua kimi öpüb, gözünün üstə qoydu...
Sentyabrın gəlməsinə az qalırdı... Kənddən ali məktəbə qəbul olan bir neçə uşağı çoxdan Bakıya pay-pülüş və sevinc göz yaşlarıyla yola salmışdılar... Amma Bayat hələ kənddə idi. Anası arada bunun səbəbini soruşanda:
- Ana, mən, sən tək qalmayasan deyə qiyabi qəbul olundum, inşallah, ya kənddə, ya da rayonda bir iş tapıb işləyəcək, həm də işləyə-işləyə oxuyacağam, -cavabını vermişdi. Ana oğlunun bu sözlərinə bəlkə də inanmışdı, amma inanmayanlar inanmamışdı. Sentyabrın ilk həftəsində qulağına dəyən sözlər ananın əlini çaşdırmışdı. Tamam arvad idi, qonşusu Xatınla dərdləşirdi, həm də guya qeybət qırırdı. Amma bu qeybəti elə qırırdı ki, sədası ucundan, qulağından gəlib Bayatın anasının qulağına da çatsın:
- Azz, bə mən sana deməmişdimmi o Bayatdı, boyatdı nədi, yazıq arvada yalan danışır, məktəbə-zada qəbul olunmuyub, gördün, dediyim doğru çıxdı, qəbul olsaydı, o da Dıvır İbişin oğlu kimi çoxdan Bakıda olardı, görmürsən, o hələ də buralarda veyillənir? Görmədin, keçən il yazığ arvadın sələmə aldığı pulu necə yelə verdi, indi də belə yalan danışır...
Ana bircə balasına inanır, inanmaq istəyirdi, amma qayanı dələn damlalar kimi qonşu arvadların dedi-qoduları da yavaş-yavaş işini görməkdəydi...
Amma Bayat ali məktəbə bir zülüm-zillətlə qəbul olunmuşdu, həm də ürəyi istəməyən bir şöbəyə. Onun əlinin suyuna yaraşmayanlar daha yaxşı şöbələrdə oxuyur və bununla ona acıq da verirdilər. İçində hər zaman bir sual gəzib dolaşırdı: Axı, onların nəyi məndən artıqdır, niyə onlar məndən pis oxuya-oxuya daha yaxşı şöbələrə qəbul olunurlar, mən yox? Sirr nədədir? Sirrin cavabını çox sonra biləcəkdi. Bunlar bir yana qalsın, hələ bir kənddə onun ali məktəbə qəbul olmağına da inanmırlar...

* * *

Dədə-babadan qalma evləri (buna ev demək olardısa) əmisioğullarınkı ilə bitişik idi. Bu yanaşı otaqların qara yükünü iki kərən çəkirdi... Əmisioğlu maliyyə texnikumunu bitirib rayonların birində neçə il idi ki, mühasib işləyirdi... Məzuniyyətdən-məzuniyyətə kəndə gəlişlərində: "ev yola çox yaxındır, əvvəllər araba yolu idi, dərd yoxdu, çoxalan yol maşınlarının səs-küyündən, gurultusundan, ələlxüsus da toz-torpağından evə girmək olmur, - deyirdi, həm də təzə yol çəkilir, elə ya belə, onsuz da evimizi sökəcəklər, hökumətlə hökumətlik eləyəsi ha deyilik, yaxşısı budur, onlar buldozerin ağzına verib dağıtmamış, özümüz üzüsulu evlərimizi aşağıya- yoldan aralıya köçürək".
Nəsillər dəyişdikcə bu kənddə evlərin yeri də dəyişirdi. Bunu ora-bura səpələnən kalafa-köhnə ev yerlərindən də görmək olardı, hələ, Allah bilir, bundan sonra da neçə yol bu yurd yerləri yenidən dəyişəcəkdi...Dəyişməyən nəsil şəcərəsinin çay yatağı kimi sağa, sola burula-burula davam etməsi idi... Bayata nisbətən yaşlı olan əmisioğlu bilməli idi ki, hökumət yol çəkirdisə,

evləri plana düşürdüsə, bu evlərin müqabilində onlara pul da ödənməli idi. Amma nədənsə əmisioğlu buna inanmır: - "eh, kimdi bizə pul verən, anası ölmüşdü sovet hökumətinin, dovşanı araba ilə tutur, indi durub bizəmi pul verəcək? On-onbeş günlük məzuniyyətə gəlmişəm, gərək bu müddətdə anama bir kümə qaraldıb gedəm", - deyirdi. Və evin onlara aid olan hissəni sökdürüb bir az aşağıda bir tövlə qaraltmışdı... Bayatgilin daxması isə bir qanadı qırılmış qarğa kimi yol qırağında əsə-əsə qalmışdı... Artıq orada qalmaq olmazdı, adicə bir təkandan quzulayıb başlarına uça bilərdi... Onların daxması əvvəllər arı damı olmuşdu, ehtiyac bir-bir arıların axırına çıxdıqdan sonra əmisi damın üstündən işıqlıq adına bir baca açmış və hardansa da qalın bir şüşə tapıb bacanı qapatmışdı. Gündüzlər bu bacadan üstlərinə günəş, gecələr ay işığı düşərdi və Bayatın gen dünya ilə ünsiyyəti bu bacadan və bacanın üstünə düşən işıqdan başlayardı. O, çəpəki düşən bu şüaları tutub işıqlı dünyaya çıxmaq istəmişdi, çıxmışdı da... İndi o bacanın işığı birdəfəlik kəsiləcəkdi... Bayata elə gəlirdi ki, o bacanın işığı kəsildikdən sonra işi düz gətirməyəcəkdi, o bacadan düşən işıq adi işıq deyildi, Allahınmı, gözəgörünməzlərinmi nurlu baxışı idi, Bayatın üstünə sayə salır, uğurunu xeyir edirdi. O baca ilə, o bacanın olduğu daxma ilə Bayatın o qədər xatirələri vardı ki... Bəlkə buna görə də heç cür onun yıxılmasını istəmirdi... Ana-bala ayqaranlıq gecələrdə az o daxmanın başına qurbanlıq qoyun kimi dörd dolanmamışdılar. Dillərinin duası evlərinin tilsiminə çevrilərdi:

Bəndi bənd Allah,
Bəndi Qulf Allah,
Qulf Allah açar olsun,
Dörd yanı çəpər olsun,
Qıfılı Həzrət Abbas,
Açarı Allah olsun!

Və bu duanı oxuduqdan sonra əmin-arxayın şirin yuxularına baş qoyub yatardılar, bilərdilər ki, oxuduqları bu dua onları daxmalarıqarışıq bəd nəzərdən, qurddan-quşdan qoruyacaq. Elə gecələr olurdu ki, Bayat yuxularında evlərinin ətrafına gümüşü rəngli bir həlqənin dolandığını görürdü, əslində, bu həlqə deyil, gümüşü ülgücdü, önünə çıxanı biçib doğrayırdı. İndi o daxmanın xarabaya çevrilən sınıq quş qanadını xatırladan görüntüsü yadına nələri salmırdı ki?

* * *

...Əmisigil hörülmüş ocağının gündöyən tərəfinə evin qapağı deyərdilər, elə doqqazları da bu qapağa açılardı. Yazda, payızda deyil, hətta qışda belə ilıq hənirtisi olduğundan çox zaman dərslərini də günəşdən isinmiş daşların üstə oturub hazırlayar və kolxoz işindən qayıdacaq analarının yolunu bu qapaqda gözləyərdilər. Qara qış başlayıb hər yanı qar bürüyəndə ilk öncə qarı əriyən də bu qapaq olurdu. Qapağın hörük daşlarına dəyən günəşin şəfəqləri yerə yansıyır, qar yavaş-yavaş divarın dibindən geriyə çəkilməyə başlayır və elə qapağın özü boyda yer açılırdı. Hərdən Bayata elə gəlirdi ki, açılan heç yer deyil, elə qapağın qara kölgəsi, ya da gözəgörünmək istəyən ruhudur. Evin önündə bir ağcaqayın, iki də dağdağan ağacı vardı. Sulanmadıqlarından, boyları dəyişməz qalırdı. Ağacların aran səmtində balaca bir bağça da gözə dəyərdi. Yazın burnu dəlinəndən qışın qara nəfəsi dəyənə qədər bu kiçik cənnət bağçasından göy-göyərti, yaşıllıq əskik olmazdı. Evlərinin yola dirənən yeri torpaqlıqdı. Torpağın yaratdığı yarğanda külfə düzəltmişdilər... Hərdənbir unun bollaşan vaxtlarında o külfədən çörək ətri aləmə yayılardı .Və anası "nəfsi keçər" deyərək yoldan keçənlərə mütləq o külfə çörəyindən pay verərdi. Elə külfədən qalxan ətirqarışıq tüstünün milləndiyi zirvəyə baxan olsa, orada gözünə ilk dəyən Kəmərin başındakı çörəyi daşdan çıxan tək dağdağan olacaqdı. O tək dağdağanla Bayatın arasında hələ uşaqlıqdan kimsənin anlayıb duya bilmədiyi gizli bir ünsiyyət vardı. Soruşsan, dürüst tarixini bəlkə özü də bilməz. Ağlının təzəcə kəsdiyi hansı ilin hansı ayındasa yetimlikdən, tənhalıqdan dünyada özünə yer tapa bilməyəndə, dərd-qəm torbasına dönüb qıvrıldığı qara günlərin birində gözü qaya başındakı tək dağdağana sataşmışdı. Başının üstündə ildırımlar

şaxıyır, atlı burulğanlar oynaşırdı. Ayağı daşda, başı savaşda olan o ağaca baxdıqca, sanki elə o ağacın ucalığından içinə bir şeylər damırdı:
- Zalım oğlu, nə olub, nə dərd edirsən, bir başını yuxarı qaldır, Kəmərin başındakı ayağı daşda, başı savaşda olan tək dağdağana bax. Sənin əlin, ayağın var, heç olmasa, keyfin istəyən zaman istədiyin yerə gedə, dərdini istədiyin adamla bölüşə bilirsən, bəs ayağı qayadan, başı fırtınadan nəm çəkən o ağac neyləsin?
Bu səs nə səsdi, ilahidən gəlirdi, ya elə öz içinin səsi idi?! Bayat bunu kəsdirə bilməyəcəkdi. Amma həqiqət bu idi ki, içinə bu mübhəm hisslərin dolduğu vaxtdan Bayatın həyatında çox şey dəyişmişdi. Ömrünə düzən gəlmiş, əmin-arxayınlıq başlamışdı. Allah onun nigaran hisslərinə cavab vermişdi, daha nə istəməli idi ki?!
Amma artıq o daxma da, o daxmanın altındakı xatirələr də o yıxılan daxmanın altında qalacaqdı, özü özünün məzarına çevriləcəkdi. Bayatın gözü görə -görə hər şey sıyrılıb əldən çıxırdı, o, müqavimət göstərsə də, bir şey alınan deyildi. Bu, dönüşü olmayan bir gedişdi.

* * *

Başqa əlac da yoxdu. Ciblərində pulları, ürəklərində umudları olmasa da, ana-bala, bu daxmanı öz əlləri ilə dağıtmaq məcburiyyətində idilər. Görünür, yalnız insanların deyil, daxmaların da ömrü var və zamanı gələndə onlar da ölürlər. Kolxoz sədri də, partkom da yardım edəcəklərinə, kolxozun hesabına (anası qabaqcıl kolxozçu idi) onlara bir koma qaraldacaqlarına söz verirdilər, amma söz söz olaraq qalırdı. Bu sözə arxayın olan, inanan ana-bala bir müddət bir-iki dəst yorğan-döşəyi, qab-qacağı, var-dövlət adına olan-qalanı bir çadırın altına yığıb gözləyirdilər. Amma yetimə ürək verən çox, çörək verən az olduğunu da bilirdilər. Bayat bunun belə getməyəcəyini, payız yellərinin çadırın içini şadaraşavaş etdiyini görəndə özünə kümə qurmağa qərar verdi. O da əmisi oğlu kimi ilk əvvəl tövlə tikəcək, inəkləri ilə bir yerdə yaşayacaqdılar, sonrasına da Allah kərimdir.Və ilk dəfə, anası demiş, "kişi qırığı" kimi ilk yurdunun xımını qazmağa başladı. Hətta xım qazmadan öncə içindəki dörd misra da kağıza köçməyə hazırlaşırdı:

Mənə ev tikirdik o ilin yazı,
Gecəni qalırdıq soyuq dəyədə.
Bizim içimizdə səhər dünyası,
Ümidlə baxırdıq gələcəyə də...

Sonralar hələ neçə dəfə ona yeni evin xımını qazmaq nəsib olacaqdı... Hələ ki, uşaqlıqdan, yeniyetməlikdən yenicə ayrılan gənclik ömrünün ən ağır və müstəqil işini görməyə başlamışdı. Doğrudur, onun az da olsa Bakıdan fəhləlik təcrübəsi vardı, amma bu, acı təcrübə idi, burda nə qədər işə yaraya bilərdi, özü də bilmirdi. Xəyalında nəyəsə, kiməsə elə böyük ümidi vardı ki. Bu ümid olmasa, o, yalnızbaşına nə edə bilərdi ki?! Həyatında yüz cür çilələrdən keçmiş, kirpiyi ilə od götürmüş ana, könülsüz olmaqda haqlı idi, köməksiz, kəsəksiz bu işi necə görə biləcəkdilər? Amma Bayatın ümidli inadkarlığı, deyəsən, ananı da hərəkətə gətirmişdi. İşin ağırı tövlənin torpağını qazmaq idi. Kənd yerində tövlənin daş-divarını torpaq əvəz edir. Buna görə də tövlənin xımı elə dərin qazılmalıdır ki, köveri atıldıqdan sonra qazılan yer daşı-divarı əvəz edə bilsin. Yəni bunun üçün tövlənin xımı ən azı bir adam boyu qazılmalı idi. Xım kvadrat şəklində qazılır, ortada isə dördkünc torpaq sahəsi qalırdı. Qazılan divarların üstünə kərən, kərənin üstünə pərdi qoyulandan, pərdinin üstünə isə şax-budaq düzüləndən sonra, orta bacadan kəvər deyilən o dördkünc torpaq tövlənin üstünə atılmalı idi. Bu isə təkin işi deyildi. Kəvər atmaq elin işi idi. Elbirliyi, əlbirliyi kəvəratmada özünü göstərərdi. Kənddə kimin ev tikdiyi, kümə qaraltdığı hamıya məlum olardı. Hər iş bir yana, kəvər atmağa təklif-filan gözlənilməzdi. Axşamlar hər kəs ya kolxoz sahəsində, ya da öz bağ-bağatında işlərini görüb qurtarandan sonra kəvər atmağa yığışardılar. Xım qazmaq ev ya da tövlə qaraldanın öz işi idi, bu yükü onun özü təkbaşına çəkməli idi. Dünya və yaşamaq növbəsi çatmışdı, indi bu yükü Bayatın özü çəkirdi... Amma

ürəyində səbəbi məlum olmayan elə bir səksəkə vardı ki?! - Birdən, Allah eləməmiş, gördüyüm iş yarımçıq qalar...
Allahdan tövlənin kəvəri sarı torpağa çıxmışdı, işdi, daşa-qayaya çıxsaydı, onda axır-günləri nə olardı? Məhsul verməyə üzüqara olan sarı torpaq xım qazımında üzüyolaydı. Və yaxşı ki, vaxtın, zamanın üzü kimi torpağın üzü bərk deyildi, rahat qazılırdı. Ana-bala xım qazdıqları çiskinli payız günlərinin birində açıq olan aran tərəfdən gələn yolda Bayat ürəyinə damanın baş verdiyini görəcəkdi. Yol yoxuşunda görünən vergi agenti Musa idi. Bayata içinə çökən mənbəyi məchul hissdən bu gün xoşa gəlməyən bir şeylər olduğunu anlamışdı, indi ürəyinə çökən o bəd hissin nə olduğunu görürdü. Anladı ki, kişi elə-belə piyada gəlmir, istəsə yol maşınlarının birinin tərkində çoxdan çıxıb getmiş olardı, piyada gəlirsə və ikidəbir onlara tərəf boylanırsa, deməli, bu gəlişdə nəsə xoşagəlməyən bir bəd xəbər də var. Həm də bu bəd xəbər mütləq onunla bağlıdır. Çünki birinci, kənddə hamı Musa kişinin nə yuvanın quşu olduğunu yaxşı bilirdi, peşəsi vergi yığmaq ya da əsgərliyə gedənlərə povestka- yəni çağırış vərəqəsi daşımaq idi. Gəlişi xoşbəxtlik yox, bədbəxtlik gətirərdi. Əslində, onu da qınamaq doğru olmazdı. Hərə balalarını bir cür dolandırırdı. Musanın da qismətinə belə bir vəzifə düşmüşdü. Bir də, kəndin aran tərəfi onsuz da gözü kölgəli idi. Ta ikinci dünya müharibəsindən bu yana ər, qardaş, oğul, ata yolu gözləyən neçə-neçə gözü kor qoymuşdu bu dolanbac aran yolları. Adamlar yox, Bayata elə gəlirdi ki, hətta kəndin ağacları da aran yoluna tərəf əyilmişdi. İndi bu yol Bayatımı sevindirəcəkdi? Başına döndüyüm ağsuyun yolu, gələndə boş gəlir gedəndə dolu... İndi də həmin tərəfdən üzü ana-balaya tərəf Musa kişinin dilində yağlana-ballana bir bəd xəbər gəlirdi... Bayatın aran yoluna baxdığını görən anası da o tərəfə göz qoydu:
- Nə oldu, nəyə baxırsan?
- O gələni görürsənmi, bilirsənmi kimdir?
Ana təfərinc elədi:
- Belə, bu bizim vergi agenti Musa kişi döyülmü?
- Özüdür ki, var.
- Gəlsin də.
- Xeyirliyə gəlmir.
- Xeyirliyə gəlməyib nə edəcək? Son vergini keçən həftə ödəmişəm.
- Vergi məsələsi deyil.
- Bə nə məsələsidir?
- Belə mənə çağırış vərəqəsi gətirir.
- Pavıskamı?
- Hə, poveska.
- Nə poveskası? Bə demerdinmi instituta qəbul olubsan.
- Yalan ha demirdim. Olunmuşam, amma qiyabidən əsgər aparırlar.
- Ə, ağzını xeyirliyə aç, hələ sənin nə yaşındır ki, əsgərə də çağırsınlar.
- Mən ürəyimə damanı deyirəm. Bax, düz çıxmasa onda mənə nə deyirsən de.
Musa kişi qırğı kimi başlarının üstünü almışdı:
- İşiniz avand olsun,-dedi Musa kişi.Və başladı çantasından bir qalaq kağız çıxarıb araşdırmağa.
- Sağ ol,- dedi, ana.
Bayat dodağının altından:
- Sən qoysan işimiz avand olar,- deyə mızıldandı.
Musa qulağı ağır eşidən adam kimi:
- Hay, - dedi.
Sanki heç bir şey eşitməmişdi. Amma Bayat adına əmin olan kimi əmin idi ki, Musa kişi eşidib, amma özünü eşitməməzliyə vurur. Kağızı Bayata tərəf uzatdı, ayın iyirmi ikisində vayenkomatda olmalısan, saat doqquzda, gecikmə, məndən deməkdi... Sonra üzünü anaya tutub:
- Narahat olma, ay bacı, hələlik əsgərlik-zad yoxdur, eləcə şota salacaqlar,-deyib dabanına tüpürdü.
- Və onlar beləcə yenicə tikdikləri tövlənin yox, dərdin içinə yığışdılar. Bayat anasının tək övladı olduğundan, qanuna görə əsgərliyə aparılmamalı idi. Amma qanuna baxan kim idi. Hələ neçə yol

onu oraya-buraya sürüyəcək, çək-çevirə salacaqdılar, anasından aldillə rüşvət istəyəcəkdilər, anası da ondan xəbərsiz onun yolunda quzusundan, qoyunundan olacaqdı. Bayat bundan gec xəbər tutacaq və anasına üsyan edəcəkdi:- A yaradanın yanılmasın, niyə belə edirsən, axı mən kimin tırtıxlı oğlundan əskiyəm, niyə qoymursan gedib əsgərliyimi çəkib gələm, nəyin var bu it-qurda yem edirsən, onsuz da görürsən bu xarabada mənə iş də verən yoxdur, yenə gedib əsgərlikdə rus dilindən-zaddan öyrənərdim.
Anası:
- Bə oxumağın nə olacaq, ay anan ölsün?
- Oxumağım da sənin sağlığın, gələndə dalını davam etdirəjəm.
- Heç olmasa, ağzıyanmışlar səni yaxınlara salsalar nə vardı ki?! Mən ondan qorxuram ki, səni uçurumun dibinə salalar.
Ana da qınanılası deyildi. Ərinin yadigarı əlində-ovcunda qalan tək övladını, kor tutduğunu buraxmadığı kimi gözündən uzağa buraxmaq istəmirdi, itirə-itirə gəlmişdi, tək tapdığı təsəlli yeri Bayat idi. İndi onu əlindən "ərəseyin" hansı dağılmışınasa gözü görə-görə buraxası ha deyildi. Ən azından sonradan özünü yeyib-tökməsin deyə, nəyi bacarırdısa onu da edirdi ki, oğlunu əsgər aparmasınlar. İçində gizlənmiş bir duyğu da vardı ki, heç olmasa, axırda heç nə alınmasa, "neylim, anası ölmüşün yolunda nəyim var tökdüm, amma yenə apardılar" - deyə bilsin.
Qəfil gələn ümidsiz qara xəbərdən bir az da qatılaşan o dumanlı-çiskinli payız günlərinin birində Tanrının kəraməti ilə çətin də olsa, ata yurdunda özbaşına bir kümə qaralda bilmişdi. Elliklə damın kəvəri atılmış, damı qaralmışdı. O ağır zəhmətdən əllərinin qabarı və yamacda qaralan ümid və qürur yeri daxma qalmışdı. Amma bu daxma Bayat üçün ağ saraylardan daha önəmli idi. Bunu edən onu da edə bilərdi. Yəni, Allahın köməyi ilə günəşli günlərin birində elə bu şahid qara damın yanında mütləq bir ağ imarət də qurduracaqdı. Həm də onu başqaları kimi erməni ustalarına tikdirməyəcəkdi. "Arım arı olsa, balı Bağdaddan gələr" misalı o günlər içinə işıq salır, güzgü tuturdu. Nə çoxdu öz ustalarımız, pul olduqdan sonra lap dünyanın o başından gətirdə bilərəm. Bu qaraltdığı daxma onda gələcəyə böyük ümidlər oyandırmışdı: Böyük arzulara ümid oyanar, kiçik arzulara çata biləndə... İş görülüb qurtarıldıqdan, toyuğu, cücəni, qoyunu, keçini qara daxmanın qanadları altına yığdıqdan sonra özünə inamı artmış, əsgərlik - filan gözünə belə görünmürdü. Özünütəsdiqin nə demək olduğunu Bayat yaşda böhran keçirənlər yaxşı bilir. Əsas olan o idi ki, görülən işə Allahın şərik olduğunu anlamışdı, kənd sovetinin sədrinə, partkoma, kolxoz sədrinə qalsa anasını yarıuçuq damın altında qoyub gedəcəkdi. Amma içinə elə bir hiss və inam doldurulmuşdu ki, Bayat yox yerdən bu uşaq deyiləcək yaşında özünə kümə qaralda bilmişdi. Su gələn yerdən bir də gəlmişdi, ata-baba yurdu boş qalmamışdı.Tikilən hisli-paslı bir daxma olsa da!.. Amma mütləq bu qara daxmanın yanında bir imarət tikdirəcəkdi, mütləq.
Bu inam yerdən çıxmamışdı, göydən enmişdi və içinə damanların sonralar mütləq həqiqət olacağına o, artıq özünə inanan kimi inanmağa başlamışdı... Bu düşüncəni həyat yollarında təcrübədən hələ çox keçirəcəkdi.
Sonunda isə əsgərliyin yolu görünəcək, ananın ürəyinə damanlar olacaq, həm də dünyanın o başına, yolların bitdiyi yerə əsgərə gedəcəkdi. Bayat əsgərliyini Vladivostokda - "uçurumun dibində" keçirəcəkdi... Sıxıntılı iki illik əsgərlik həyatından "qazancı" rus dilini öyrənmək və rus balası Sergeylə dostluğu olacaqdı. Bayata baxanda Sergey şanslı idi... Çox da uzağa düşməmişdi, əsgərliyə Sibirdən-İrkutsk vilayətindən gəlmişdi...

Əsgərlik həyatı Bayata çox şeyi öyrətdi, çox şeyi... Hərdən fikirləşirdi ki, onun- Bayatın buraya, Sibirin bu ucqar küncünə düşməyi də təsadüfi deyil. Burdakı yer adlarının dostdoğma türk kəlmələri olduğunun yeni-yeni fərqinə varırdı. Və ağlına belə bir fikir də gəlmişdi ki, tale dədələrimizin bir vaxt buraxıb getdiyi yerlərə onu elə-belə atmayıb. Atıb ki, uzun illər kimsənin bilməsinə imkan verilməyən həqiqətləri o, Bayat öz gözləri ilə görüb dərk etsin, fərqinə varsın, ən azından hansı millətə mənsub olduğunu və bu millətin millətlər içindəki yerini dərk etsin.

Beləcə əsgərlik illərində keçmişi, yaşadığı günü, daha çox da gələcəyi uzun-uzadı düşünməyi özünə iş-peşə eləmişdi...
Özündən yüz il əvvəl yaşayanların ruhunu söyürdü, niyə aciz olub bir ovuc ermənin önündə geri çəkiliblər? Niyə Naxçıvanla Azərbaycanın arasında olan torpaqları ermənilərə veriblər? O torpaqlar ermənilərə verilməsəydi və ermənilər aranı ərəbzəngi kimi kəsməsəydilər, Türkiyədən ta Tanrı dağlarına, yəni Sibirə, hətta Kamçatkaya qədər bütün türk dünyasının qan damarları fasiləsiz işləyər, quzeylə güneyin türk vadisində bambaşqa bir gəlişmə olardı. Xəyanətin bundan böyüyü olurmu? Dağlıq Qarabağ hadisələri başlayanda Azərbaycanı idarə edən qanı pozulmuş rusbaşlılar silahlanmaq yerinə Moskvanın əmri, erməninin hiyləsi ilə Azərbaycanda başı qarışdırılan adamların evlərindən ov tüfəngini də yığışdırtdılar. Bu az imiş kimi Bakıdan Mərkəzi komitədən, Nazirlər sovetindən Ermənistanla sərhəd rayonlarına o sərhəd rayonlarının ziyalıllarından təşkil olunmuş təbliğat briqadası göndərmişdilər... Onlara yerlərdə tarix boyu ermənilərlə qardaş kimi yaşanıldığının və bundan sonra da yaşamaq lazım gəldiyinin təbliğatını aparmaq tapşırılmışdı. Həm də elə bir zamanda ki, artıq ox yaydan çıxmış, ermənilər qanıxmış dişlərini Azərbaycan torpaqlarına qıcamışdılar...
Təbliğat briqadası Bayatgilin kəndinə də gəlmişdi. Natiqlər bir-bir söz alıb ermənilərlə azərbaycanlıların tarixi dostluqlarından danışdılar. Hətta kənd ağsaqqalları Bakıdan gələnlərdən daha yerli-yataqlı danışmağa başlamışdılar:
- Bizim uşaqların çoxusunun kirvəsi Çinarlı ermənilərdir.
- Kənddəki evlərin çoxusunu erməni ustaları tikib, onlarla aramız pozulsa, bu işi kim görəcək?
- Yenə bizdə undan, qənddən qıtlıq olanda, sağ olsunlar dükan-bazarlarına gedir, əskiyimizi tamamlayırıq. Bayat bu yaranmaları eşidib Amerika ata sözünü xatırlamışdı:Təmiz su tapmadan kirli suyu atma, təmiz su tapıldıqan sonra kirli suyu mütləq at və ikisinin birləşməsinə imkan vermə. Bizim toplumda nə yazıq ki, bu ikisi birləşdi, indi hansının təmiz, hansının kirli olduğunu bəlkə Allahın özü də müəyyən edə bilməz. Bunları düşünə-düşünə öz-özünə giley eləyirdi:
- Allahım, yoxsa bu gördüklərimin hamısı bir yuxudu, biri dümsükləyib oyadacaq məni... Bu necə iclasdı, Allahım? Bu necə milli ziyalılıqdır, a sənə fəda olum? Biz bunamı layiqik? Bu necə vətən insanlarıdır, Tanrım? Oyat məni bu yuxudan, Allahım, oyat!
Bayat həm Bakıdan gələnləri, həm də, bu yerli ağsaqqalları yaxşı tanıyırdı, işinə yarayanın ağsaqqalı idi onlar. Dünyanın o başında yaşayan erməni dünyanın bu başında yaşayan ermənin səsinə səs verib müdafiə edəndə gör bizim ağsaqqallarımız nələrdən danışır? Dağlıq Qarabağda yaşayan azərbaycanlılar od-alovun içindədir, bunlar burada qardaşlıqdan dəm vurur. Həm də necə qardaşlıqdan. Bayat hələ uşaqlığında Məmmədəli kişi ilə birlikdə balta və dəhrəsini itilətməyə gedəndə görmüşdü erməni dığasının üzünü. Ona görə də yerində durmadı, söz alıb kürsüyə çıxdı. Adamların arasında çaxnaşma, pıçı-pıçı düşdü, -yenə sarsaqlayıb ədalətdən dəm vurub bizi qonaqların yanında rüsvay edəcək. Onların belə düşünməyə haqları da vardı. Çünki Bayat gah rayon qəzetində, gah da elə Bakıda çıxan qəzetlərdə kənd-kəsəyin əyər-əskiyindən, vəzifə sahiblərinin özbaşınalığından, rüşvətxorluğundan məqalələr yazırdı. Bu yazıların beşinin təsiri olmasa da, birininki olur və kimlərinsə başı ağrıyırdı. Aradan bu qədər zaman keçməsinə baxmayaraq, ona pasport almaq üçün arayış verməyən kənd soveti sədrinin kəmfürsətliyi yadından çıxmamışdı. Yaşı altmışı yaxalasa da hələ də oturduğu stoldan bərk yapışan bu kəmfürsətin əməllərini də qəzet səhifələrinə çıxarmışdı... Şişman qarnını kef məclislərində sevimli övladının başı kimi sığallayan və:
- Qadasını alım bunun, düşmən qaraltısıdır,- deyən, gödənini öyən bu adamın əməllərini gün işığına çıxartmışdı. Bu yazıdan sonra kənd soveti sədrinin atası Bayatın anasının yolda qabağını kəsib demişdi:
- Ay qız, küçüyünü baldırına bağla, qulağını aç, eşit, elə bilərəm doqquz oğlumdan biri yoxdur.
Bayatın anası da söz altında qalmamışdı:
- Kişi, hörmətini saxla, ağzını dağıtma, nə doqquz oğlum, doqquz oğlum var deyirsən, yüz qarğaya bir sapand daşı...

Bayat kənddə yüz qarğaya bir sapand daşı idi. Əlinin suyunu yaxşı bilirdilər, onu da bilirdilər ki, bildiyini Allaha da verməz. Ona görə də indi məclisdə söz alanda araya bir şuluqluq salacağını bildiklərindən xosunlaşır, amma cəsarətləri çatıb bir şey də deyə bilmirdilər.
Bayat kürsüdəydi:
- Bayaqdan fikir verirəm, Bakıdan gələn ziyalılar, nədi ey, o bir mahnı vardı hər gün radioda oxudulan. "Qardaş olub Hayastan, Azərbaycan" saxta şuarı ilə yenə başımızı qatmaq istəyirlər. Əskik olmasınlar, Bakıdan zəhmət çəkib biznən görüşə gəliblər. Amma bu sərhəddə biz yaşayacağıq, onlar yox, onlar bu gün burdadırlar, sabah çıxıb gedəcəklər. Mən bir şeyi anlamıram, əyər bu qardaşlıq həqiqətən də yaxşı şeydirsə, niyə ermənilər də bu qardaşlıqdan danışmırlar. Danışsaydılar biz də eşidərdik. Elə beynəlmiləlçilik bizə qalıb? Beynəlmiləlçilik yaxşı şeydirsə, qoy Bakı kimi Yerevan da beynəlmiləlçi şəhər olsun. Beynəlmiləlçilikləri başlarına dəysin. Aqanbekyanlar Yerevandan deyil, Parisdən bizə dil uzadıb Dağlıq Qarabağın erməni torpağı olduğunu bəyan edir. Bəs bizimkilər nə edir? Bizimkilər də cavab vermək əvəzinə gəlib bizə qardaşlıqdan moizə oxuyurlar, necə deyərlər, səni sevəcəyəm sən sevməsən də. Ey mənim həmkəndlilərim, qulağınızı açıb eşidin, bir gün belə gecikmədən bax, odu ey Koxanəbinin sərhədində indidən səngər qazmağa başlayın, bax sonra deməyin ki, söyləmədi. Çox keçəməyəcək ki, ermənilər üstümüzə hücum edəcəklər. O kirvə, usta dediklәriniz dönüb yaraqlı olacaq, üstümüzə gələcəklər. Allaha şükür, kəndimizin dəlmə-deşiyini də əlləri ilə qoymuş kimi bizdən yaxşı tanıyırlar. O günü düşünün. Dediklərim olsa, heç olmasa zəhmət çəkib səngər qazmış olacaqsınız, daha bir də əziyyət çəkməzsiniz, elə məni diri-diri o səngərlərin birinə gömərsiniz. Məndən bu qədər...
Bayat kürsüdən endikdən sonra salon bir-birinə dəymişdi... Kənd sovetinin sədri qoçubəylərinə him eləmişdi. Bayatı süpürləyib bayıra atmışdılar. Bayatın çıxışından bir gün sonra sahə müvəkkili onu rayon milis idarəsinə aparacaqdı. Başqa bir zaman olsaydı, ya da o çıxışı edən başqa birisi olsaydı, çoxdan boynundan vurub donuzluğa salarlardı, amma Bayatın qəzetlərdə çıxan tənqidi yazılarının nə olur, nə olmazıyla, başına "ağıl qoyub" buraxmışdılar. Aradan çox keçməmiş Bayatın dedikləri olacaqdı. Amma Bayat da Bayatdı, artıq kənddə özünümüdafiə dəstələrinin yaradılmasına başlamışdı... Çox keçməyəcəkdi ki, dünənə qədər kirvə kimi, usta kimi gələn ermənilər, özləri ağırlığında çörəklərini yeyib, sularını içdikləri qonşu kəndin üzərinə topla, tüfənglə gələcəkdilər... Amma kəndi Bayatın sayəsində əliyalın yaxalaya bilməyəcəkdilər, aralarında yaralananlar olsa da düşməni geri oturdacaqdılar. Bayatgilin güclü müqaviməti ilə qarşılaşan çinarlılar bir daha Əsriyə yaxın düşə bilməyəcək, uzaqdan-uzağa qrad mərmiləri ilə gözlərini qorxutmağa çalışacaq, kəndə vahimə salacaqdılar. Və hərdənbir də erməni snayperləri yer sulayan, ot çalan adamlardan birini vuracaq və kənd beləcə qurbanlarını verəcək, şəhidlər qəbiristanlığını salacaqdı.
Özünümüdafiə dəstəsinə Bayat rəhbərlik edirdi. Və ürəyində təkrarladığı yalnız bir şey vardı, nə yaxşı ki, vaxtında əsgərliyə getmiş, həm də topçu alayına düşmüş, bir çox hərbi sirlərə yiyələnmişdi, savaşmasa da savaş manevrlərindən başı çıxırdı. Əgər anasının əl quzusu olub rüşvətlə əsgərlikdən qalsaydı, indi dişinə qədər silahlanmış ermənilərin qarşısında necə duruş gətirəcəkdi?.. Və bu qanlı günlərdə sovet ordularında oynanılan oyunların indi-indi fərqinə varırdı. Orduda xidmət edən azərbaycanlıları ya mətbəxdə, ya da inşaatda işlədirdilər. Əslində, günah elə bizim özümüzdə idi. İşin asanına qaçırdıq. Ermənіləri isə hərbi işlərlə uğraşan bölüklərə göndərirdilər. Bayatın içini dağıdan o idi ki, ruslar heç, niyə komandirlər arasında çoxlu erməni, gürcü var, bizdən yox, bizim onlardan nəyimiz əskikdir? Bu yöndə baş sındırsa da o zaman bu qıfıla açar tapmaqda çətinlik çəkmişdi. Bayat uşaqlıqdan gözüaçıq böyümüş, türklüyünü vaxtında dərk etmişdi. Doğrudur, bu barədə ona nə evdə, nə də məktəbdə bir şey deyən olmamışdı, Allahdandı, bəndədəndi, nədəndisə bu qənaətə özü gəlmişdi. Həm də əsgərlikdə - uçurumun dibində bunu bir daha dərk etmişdi. Amma bir şeyi anlaya bilmirdi ki, hərbi hissədə əsgərlər arasında dava ruslarla ermənilər, gürcülər arasında düşmür, azərbaycanlılarla qırğızlar, özbəklər, türkmənlər, qazaxlar arasında düşürdü, yəni türklər arasında. Ağzından süd iyi gələn bu gənclər hələ türk olduqlarının fərqinə varmamışdılar, bəlkə heç sonra da varmayacaqdılar.

Bayat nə qədər əlləşsə də kənddə ağızbirliyi olmurdu, hərə bir tərəfə çəkirdi. Başda da, sovetlərin yıxılması bu gün - sabahlıq olsa da, hələ də stolunu buraxmayan, məlum kənd sovetinin sədri olmaqla varı, imkanı olan adamların kənd ilk şəhidini verməyə başlayanda, hamıdan əvvəl ev-eşiyini gizli şəkildə qabqardığını eşitmişdi, bir hay-küy olan kimi dabanlarına tüpürüb kəndi tərk edəcəkdilər... Bayat yalnız sərhədləri qorumurdu, o eyni zamanda kənd adamlarının inamını da qorumağa çalışırdı. Çoxları yır-yığış edəndə Bayat çoxdan arzusunda olduğu evi tikdirməyə, daxmalarının yanında ağ daşdan yeni bir ev ucaltmağa başlamışdı. Çoxları şayiə yayırdı ki, yəqin Bakıdan sərhədi qorumaq üçün silah-sursat üçün göndərilən pulu ev tikməyə xərcləyir. Yoxsa, yetimin biri o boyda evi nəynən tikdirəsi idi. Xım yeri qazarkən bir küp qızıl tapıb indi yavaş-yavaş həzmi-rabidən keçirir - deyə düşünənlər də yox deyildi. Bir Allah bilirdi ki, bu şayiələrin heç bir əsası yoxdu. Bayatın ömrü boyu ev tikdirməkdən, vaxtsız ölmüş atasının yurdunu şənləndirməkdən başqa arzusu olmamışdı. İllər boyu qazandığını qəpik-qəpik bu arzusunu həyata keçirmək üçün toplamışdı, yeməmişdi, içməmişdi, qarnından, boğazından, əynindən, başından kəsib günlərin birində bir kümə qaraldacağını düşünmüşdü... İndi nə yazıq ki, sanki dünyanın sonu gəlmiş, başlar ayaq, ayaqlar baş olmuş, aləm qarışmış, bütün dəyərlər qiymətdən düşmüşdü. Hərdən Bayat göylərə boylanıb sitəm edirdi:
- A şükür kərəminə, atamı əlimdən aldın, çəkilməz dərdlərlə böyüdüm, indi-indi əlim çörəyə çatırdı, bu nə tufandı çıxardın belə, gəncliyimi qara gətirdin. Elə hər dərdi çəkmək mənəmi qalıb? Niyə bir dərzi kimi bütün qəm libasını mənim əynimdə sınaqdan keçirib sonra sayını artırırsan? Niyə mən, niyə mənim gəncliyimə əslinə qalsa, yığdığı pul bir evi tikib başa çatdırmağa yetəsi deyildi, amma Bayat varlı, imkanlı adamların yüklərini qabqardığını duyunca, kasıbların çıxılmaz vəziyyətdə qaldığını görüncə, kimsənin gözləmədiyi halda ev tikdirməyə başladı. Həm uşaqlıq arzularını yerinə yetirəcək, həm də kənddən başlayan köçün qabağını alacaqdı. Elə də oldu. Çeşidli şayiələr yayılsa da Bayat istəyinə nail olacaqdı. Doğrudur, qulağına çatan, canını sıxırdı. Bəziləri deyirdi ki, - kasıb çıxacağını bilsə geydiyi atlas olar, yetimin biridir, neyniyir evi? Hələ üstəlik sərhəd kəndində, sabahı məchul bir yerdə:
- Ayə, mən sizə demişdim dəlinin biridir, dəli olmasaydı, camaat bir ayağını kənddən qaçaq qoyub, bu isə ermənilərçün ev tikdirir, bu gün-sabah, Allah eləməmiş, düşmənlər kəndi işğal etsələr, o ev kimə qalacaq?
- Yox, canım, Bayatın, görünür, bir bildiyi var, yuxarılarla əlaqəlidir, kəndin işğal olunacağını bilə-bilə pulunu havayı yerə daşa-divara verərmi?
Bu sonuncu dedi-qodu Bayatın canına sarı yağ kimi yayılırdı. Adamlar onun ev tikdirdiyini görüb ümidlənir, köçəri quşlar kimi perikməyin qarşısı alınırdı... Bayatın məqsədi elə bu deyildimi? Bayat bu dedi-qoduları eşitdikcə yenə Allaha üz tuturdu:
- A şükür kərəminə, bu nə millətdir, hərəsinin ağzından bir avaz gəlir, bəs nə zaman ağızbirliyimiz olacaq? Bizə nə vermirsən vermə, heç olmasa ağızbirliyi ver, a kərəminə şükür.
Bayatın öz-özünə etdiyi bir kəşfi də vardı. əgər çox yox, bir günlüyünə, tək bircə günlüyünə Azərbaycanda hamı bir nəfər kimi eyni şeyi düşünə bilsə, Azərbaycan torpaqlarını işğal etmələri bir yana dursun, heç Ermənistanda nübar üçün bir erməni də qalmaz. Torpağın bioenerjisi ilə onun üstündə yaşadığı xalqın bioernerjisi üst-üstə düşmürsə, torpaq o toplumu üstündən qovur, ermənilər torpağın sevmədiyi bir toplumdur, tarix boyu yüz yer dəyişiblər, bu səfər də olsun yüzbirinci. Amma hardaydı bizdə o ağızbirliyi ki, hamı eyni şeyi düşünəydi və ermənilər də bunu uzaqdan-uzağa hiss edib dabanlarına tüpürüb qədim türk torpaqlarından cəhənnəm olub gedəydilər. Onlar uzaqdan-uzağa yox, uzun illər içimizin içində yaşadıqlarından bizim kim olduğumuzu bizdən yaxşı bilirlər, bilirlər ki, bizdə ağızbirliyi yoxdur, bunu bildiklərindən də fürsət bu fürsətdi deyib aldıqları ilə yetinməyib başqa torpaqlarımıza da göz dikirlər...
- Ya Rəbb, biz nə təhər xalqıq, bir toyda, şənlikdə bir yerə yığılıb xor da oxuya bilmirik, çünki hərəmizin ağzından bir avaz gəlir, xor oxuya bilməyən bir toplumun fikir birliyi haradan olacaq? Hamı sifətinə bir yalan maskası taxıb gününü gün edir... Belə olmasaydı, Bakıdan sərhəd rayonlarına təbliğat - "qardaşlıq" briqadaları göndərilərdimi? Bizim başıboşların sayəsində ermənilər vaxt qazanıb sonra da başımızın üstünü aldılar.

Bakıdan rayonlara kömək yerinə pozucu, ürəkbulandırıcı xəbərlər gəlirdi... Bakı milli düşüncənin mərkəzi olmaq əvəzinə xımına qoyulan beynəlmiləl xəyanəti nəticəsində o biri yerləri də uğursuzluğa sürüyürdü.

* * *

Haraya getməli, nə etməli? Yenə əsgərlik dostu Sergey yada düşmüşdü. Sovetlər birliyi dağılsa da, dostluqları hələ az da olsa davam edirdi. İrkutska teleqram vurub Seryojaya oraya işləməyə gəlmək istədiyini söylədi:
- Gəlsəm, mənə işə düzəlməkdə kömək edə bilərsənmi?
Seryojanın cavabı gecikmədi:
- Gəl, hər halda bir iş taparıq.

Özünümüdafiə dəstələri ləğv olunur və ermənilərə güllə atanlara xalq düşməni kimi baxılırdı. Bayat fikirləşdi ki, deyəsən, yenə beynəlmiləlçilik zamanı başlayır... Üzüsulu ikən kənddən ayrılmağa qərar verdi. Bu, onun kənddən neçənci ayrılışı idi?.. Gözə görünən yaraları tənziflə sarıyırsan, görünməyən yaraları isə zaman və məsafələrlə. Zamanın vurduğu yaraları sağaltmaq üçün özünü məsafə və məkanların qucağına atdı, sağalda biləcəklərmi görəsən?
Seryoja hansı reyslə gələcəyini bilirdi. Bayatı təyyarə meydanında qarşıladı. İrkutskda iş olmayacaqdı. Seryoja onu meşədə ağac qırmaqla məşğul olan briqadaya işə düzəldəcəkdi... Həm maaşı çox olacaq, həm də elə o qırılan ağaclardan kənddə tikdirdiyi ev üçün bəlkə inşaat materialı da göndərə biləcəkdi. Nə də olsa özü bu işlə məşğul idi... Başının üzərindən qrad mərmiləri uçan evi yarımçıq qalmışdı... Harda yeni tikilən bir ev görürdüsə, öz evi yadına gəlirdi. Tərs kimi də burada Sibirin ortasında elə gözəl evlər tikilməyə başlanmışdı ki! Yaşıl meşələrin arasındakı talalarda qırmızı kərpicdən tikilən evlər, yaşılla alın rəng qovuşağı onda elə şirin xatirələr oyadırdı ki! O da sağlıq olsa, evin yerdə qalan qismini qırmızı kərpicdən hördürəcəkdi. Amma Azərbaycanda hardadır belə gözəl kərpic. Sanki havanın saflığı, meşələrin yaşıllığı kərpiclərə də təsir etmişdi. Buranın kərpicləri bir başqaydı, elə gözəl və saf idi ki, adamın bu kərpicləri sacda qızardılmış xamralı çörəyi kimi yeməyi gəlirdi...
Bayat qədərin iki anlayışını öz həyatında təcrübədən keçirmişdi. Birincisinə kadəriyyə deyilir ki, burada insan öz iradəsi ilə öz taleyini müəyyən edə bilir. Başlangıc budur. İkincisi isə cəbriuyyə adlanır. İnsan öz əlləri ilə öz taleyini dəyişə biləcəyini düşünsə də, yaşanan hadisələri görəndə iradəsinin üstündə başqa bir iradənin olduğunu və insanı arxasınca sürüklədiyini və taleyini müəyyənləşdirdiyini hiss edir. Bayat xeyli hissəsi keçmiş ömrünün keçid dolaylarına daldıqca heyrətlər içində qalırdı. Buna bəlkə burada - Sibirdə buddist rahiblərlə tanışlığı da səbəb olmuşdu. Yaşadığı həyat onun öz həyatı idimi, yəni doğrudanmı karma var, yəni doğrudanmı keçmiş həyatlarda etdiyimiz bəd əməllər bizim gələcək həyatlarımızın da sərgüzəştini bəlirləyir. Mən hara, Sibirin tayqa ormanları hara? Bu karma deyilsə, bəs nədir? Yaxşı, bəlkə keçmiş həyatlarında bunu bilmirdi, indi ki, karmanın, yəni insan əməlinin ya bu dünyada, ya da o biri dünyalarda onu qarabaqara izlədiyini və taleyini müəyyənləşdirdiyini anlamışsa, indi, bundan sonra niyə yanlışlığa yol verir? Bir fərdin satqınlığı, bütün toplumun satqınlığı deyilmi, bir fərdin günahına bütün toplum cavab verəcək düşüncəsi Dədə Qorqud dastanlarından gəlmirmi? İndi bu Sibir ormanlarında xırxının ağzına verib Allaha, bəndəyə sığmayan bir günahla ağacları məhv edərkən Bayat yavaş-yavaş bunların da fərqinə varmağa başlamışdı...

* * *

Hər gecə bir-birindən maraqlı, bir-birinə bənzəməyən yuxular görür. Bu yuxuların bolluğunu səhər oyanarkən qürbətə düşməyinə yozur. Bu onun yozumudur, əslində isə... Bu yuxuları bəzən sistemli, bəzən də düşəndən-düşənə ya yuxular üçün ayırdığı dəftərə, ya da əlinə keçən kağız parçasına qaralamağı var. Amma gündəlik qayğılardan başı açılıb vaxt tapıb bu gəlişinə, səliqəsiz yazıların arasında eşələnəndə gördüyü bir yox, bir neçə filmə hazır ssenari olacaq

yuxuların bir əsas süjeti olduğunu fərq eləyincə özü özünə eymənmişdi. Bu yuxuların böyük əksəriyyəti bir evin başında dönüb dolanır, - tənha yetim bir evin başına. Yaşının bu çağına qədər irili, xırdalı iki-üç kümə tiksə, tikdirsə də onların heç birini yuxuda görmür, görmək istəsə də görə bilmir. Gördüyü evlərin heç biri onun görmək istədiyi evlərin heç biri deyil. Çeşidli dəftərlərə səpələnmiş bu yuxu qırıntılarını bir yerə toplasan, orda həyəcandan, intizardan, təəssüf və sızıdan başqa bir şey görməzsən. Bunun bir çox səbəbi ola bilərdi. Ya budur ki, o, arzuladığı, xəyalı ilə illər boyu yaşadığı evi tikdirə bilmədiyindən, arzularında deyil, imkanlarında bir ev tikdirə bildiyindən tikdirdiyi yox, arzuladığı evi və ya evləri yuxuda görür. Bu yuxular yoxluqla varlıq arasında dönüb dolanır, nə yoxluqdan yoxluqdur, nə varlıqdan varlıq. Bu ikilik, ziddiyyət səbəbiylə də elə yuxuları da çox nigarandır. Heç zaman, ən azı yuxularında olsa da, istədiyi evə qovuşa bilmir, qovuşduğu evlərin heç birisi onun gizli arzularına uyuşmur, elə hey nigarandır. Ona onun evi kimi göstərilən evlər ya tərs tikilib, ya da yanlışlıqla qapılarla pəncərələrin, pilləkənlərlə buxarıların yeri səhv qoyulub. Elə aşkarda da aralarından soyuq yellər əsən və onun bu yetim torpağının hətta bir qarışında belə gözü olan qonşusunun yenə bir qələt qarışdırdığının şahidi olur. Yuxuda söyür, söyür, söylənir, əsib-coşur, özünü yeyib-tökür, kiminsə qarasınca deyinir, amma bir kimsə də əlinə keçmir. Səhər qan-tər içərisində oyandığında həyatda gördüyü kimi canlı yaddaşının aynasında güzgülənən bütün bu olaylara bir anlam verə bilmir... Bu yuxuların paralelində və bəlkə də arxa planında təkrar- təkrar gördüyü bir qutsal yuxusu da var ki, bu yuxunu gördüyü günün sabahı, içinə səbəbi onun özünə də bəlli olmayan bir fərəh dolur, sanki gerçəkdən də yuxuda gəzdiyi yerlər cənnətin özüdür...

Sibirdə kəsdikləri ağaclar da hərdənbir yuxusuna girir. Bu yuxulardan sonra əli işə yatmır. Uzandıqca uzanan, Allaha çatmaq istəyən şüy şam ağaclarına əlləri qalxmır. O, sadəcə kəsilmiş ağacların qol-budaqlarını arıtlayır... Bəlkə heç bunu da etməzdi, amma buraya yuxusunu tez-tez qarışdıran yarımçıq evini tamamlamaq üçün pul yığmağa gəlməmişdimi? Pul da ki, ağac qırmaqdan çıxır... İki daş arasında qalmışdı, nə edəcəyini bilmirdi. Bu ağacları kimdən icazə alıb kəsirik, ağacların özündənmi, yoxsa onları yüz il çiynində böyüdən torpaqdanmı? Onlardan bunu soruşsaydılar, soruşa bilsəydilər icazə verərdilərmi? Çətin! Dərədəki təpələrlə boy ölçmək üçün yarışıb ucalan şamlar şalğam kimi qırılmışdı, indi növbə yamacların lap yuxarısındakı əlçatmazlığa sığınan ağaclara qalmışdı... Bu ağacların arasında hələ bir ağac vardı ki, Bayatın bu ağacın gövdəsinə yox, heç çıl-çırpısına da əli qalxmazdı... Amma bir azdan ona da sıra gələcəkdi...

...O hansı dağ yamacındasa yaşılca bir ağac idi... Yazına yağmurlar yağardı şıdırğı, iynə yarpaqları başına ələnən damlaları içinə çəkərdi. Bu yağışlı-günlü yağmur, üfüqdə bathabatda olan günəşin son şəfəqləri ilə bu şivərək şam ağacını yaşıllığında xırdaca rəngarəng lampalar yanan yeni il yolkasına döndərmişdi; saf və canayatımlı dağ havasında işım-işım işıldayır, par-par yanırdı. Bu şivərək şam ağacının ömrünün ən yaşanası çağlarıydı. Yenicə özünü tanıyan, dərk edən, kimliyini içinə sindirən və dərki çətin duyğunun sevincqarışıq anlaşılmazlığının içərisində nazlanan çağı idi. Ağ atlı oğlanların gələcəyi xəyali yollara boylanan qız kimi bu yağmurdan bəyazlaşan yaz buludları, bu günlü yağış altında əbədiyyətə yaşıllıq məktubları göndərən uçsuz-bucaqsız vadiyə göz və könül dolusu baxır və kim bilir nə arzular qururdu. Tanrıya çatmasa da ən azından gəlib dünyaya düşdüyü yeri müsait idi...

Bayatın yuxusuna da elə bu görkəmdə girmişdi şivərək şam ağacı. Gəl, bundan sonra ona əl qaldır görüm, necə əl qaldırırsan... Bayatın hərdən dalğıcın dənizə dalmağı kimi özünə dalmağı, içində bir şeylər aramağı, saf-çürük eləməyi vardı... Burda - uzaq Sibirdə isə özünə dalmalar daha tez-tez olurdu. O da bunun səbəbini araşdırmaq istəyir, yenə kələfin ucunu itirir, sonunu bir yana çıxara bilmirdi... İnsanın əməli gecə yol gedən maşına bənzəyir. Maşın öz içindən işıq salıb öz yolunu aydınlatdığı kimi, insanın əməli də onun gələcək yoluna işıq tutur. Yalnız bir fərq var; maşın ötüb keçdikdən sonra yollar yenidən qaranlığa bürünür. İnsanın xeyirxah əməli isə hər zaman aydınlığını qoruyur, insan bu dünyadan köçüb getsə belə... Hərdən öz düşüncələrinə özünün də gülməyi vardı. Amma bu düşüncələrini kiminlə bölüşə bilərdi ki?! Üzdə olmasa da ürəkdə ona için-için gülərdilər. Bəlkə onu Sergey anlaya bilərdi, onunla da arası erməni məsələsinə görə dəymişdi. İnsan xəyalından keçənlərin həyata keçdiyini gördükcə bir az da

ürəklənir və həyatın boşuna olmadığına və hər şeyin gizli bir məna daşıdığına inanır... Bayatın bu fikirlərə düşməyə haqqı da vardı... Hələ Bakıda fəhlə yataqxanasında yaşayarkən yataqxananın alt qatında olan bilyard otağında bilyard oynamağı öyrənmişdi, elə öyrənmişdi ki, hətta yataqxanada qarşısına çıxacaq bir oyunçu tapa bilmirdi. Hərdən uduzanlar ona acıq vermək üçün sataşırdılar da: - Tovuzdan patafasını çıxarıb dünən gəlib, bu gün burda bilyarddan bizə dərs deməyə çalışır. Qudurassan, qurbağa. Başqa birisi onun səsinə səs verirdi:
- Eh, bir təsadüfdü də uddu, oğuldu gəlsin bir də oynayaq, gününü o zaman görsün.
Bir də oynayırdılar, Bayat bir də udurdu, amma bu söz-söhbətlər yenə davam edirdi. İndi burda - İrkutskda inşaatda çalışdığı vaxtda bilyard oynamağı Bayata əməllicə şöhrət qazandırmışdı, iş elə gətirmişdi ki, onu vilayət birinciliyinə yarışmağa göndərmişdilər. Bayat bu yarışda da birinci yerə çıxmış və qızıl medalla mükafatlandırılmışdı. İnşaat qəsəbəsinə qızıl medalla dönürdü. Amma dönmədən öncə İrkutsk bazarını, dükanını dolaşıb ayından-oyundan alacaq, sonra gecə qatarı ilə yola çıxacaqdı... Şəhər meydanlarının birində səyyar bazar açılmışdı. Tərəcələrin üzəri çeşidli geyim-kecimlə dolu idi... Şıdırğı alver gedirdi. Bayat əsgərlik illərini xatırlamışdı, o zamanlar bir belə bolluğu xəyal belə etmək olmazdı. İndi isə... Tərəcələrin birinə yaxınlaşdı. Üz-gözündən nur yağan, bəyaz saqqallı yaşlı birisi alt paltarları satırdı. Belə bir nurlu sifətin alverlə məşğul olmağına içində bir təəssüf hissi də keçirdi, bundan yaxşı molla, axund olardı, deyə fikirləşdi. Qarşısındakı adamın Sibir tatarlarından biri olduğunu düşündü. Üz-gözündən buralar adamı olmadığı bəlli idi. Orta Asyadan, ya da Qafqazlardan gəldiyini də güman etmək olardı. Elə rusca da aksentlə danışırdı. Bayat əvvəlcə üç alt dəyişəyi seçdi, sonra nə ağıl etdisə də- almışkən çox alım, onsuz da bəzən gündə birini dəyişmək lazım gəlir,- deyə qərarını dəyişdi. Və beləcə 5 dəyişək götürdü, pulunu yaşlı adama uzatdı, çevrəsi alıcılarla dolu olan yaşlı adam Bayatın əlindəki dəyişiklərə bir gözucu nəzər salıb pulun qalığını Bayata qaytardı. Qatar vağzalına bir xeyli yol vardı. O bu səmti pis tanımırdı. İstirahət günləri Seryoja ilə birlikdə İrkutska tez-tez gələrlərdi. Amma aradan uzun zaman keçdiyindən ətrafda xeyli dəyişikliklər olmuşdu. Nə də olsa sovet hökuməti yıxılıb, yerini kapitalizmə buraxdıqdan sonra hər yanda olduğu kimi burda, İrkutskda də bir canlanma vardı, yollar, meydanlar ticarət köşkləri, tərəcələrlə dolub-daşırdı... Əvvəlcə taksiyə minmək istədi, sonra bu fikrindən vaz keçdi, tələsəcək yeri yoxdu. Saatına baxdı, qatarın yola düşməyinə hələ üç-dörd saat qalırdı. Buna görə də yavaş-yavaş dükan və mağazalara baxa-baxa yoluna davam etdi. Yorulmuşdu, göl kənarındakı parkın yaşıllığında dincəlmək istədi. Həm dincələcək, həm də aldığı şeyləri yerbəyer edəcəkdi. Elə problem də bu yerbəyer etmədən başladı. Üç dəyişik almaq yerinə beşini almış, amma üçünün pulunu vermişdi. Dəfələrlə sınamışdı, əyər bilə-bilə birinə bir yanlışlıq edirdisə, beşi qarşısına çıxırdı. - Mütləq geri qayıdıb o adamın pulunu verməliyəm, ya da dəyişəyin ikisini geri qaytarmalıyam, - deyə düşündü. Amma tərəddüd də baş qaldırırdı: "Necə qayıdacaqsan, buradan oraya ən azı 3-4 km yol var, yenə əlimdə bu zir-zibil olmasa, nə vardı ki? Bir də, canım, mən onu bilə-bilə aldatmadım ki, pulunu verdim, özü pulu səhv çıxıb, burda mənim nə günahım?".
Bayat inşaat qəsəbəsinə səhərə yaxın çatmışdı, qatarda rahat yata bilməmişdi, içindəki tərəddüd dalğaları hələ də fikrini döyəcləyirdi, ona görə də işə çıxmadı, bütün günü yataqxanada istirahət etdi. Axşama doğru yataqxananın sükutu pozuldu, işçilər işdən qayıdırdılar. Bayatın yarışın qalibi olması və qızıl medal alması həm vilayət qəzetlərində, həm də radioda verilmişdi. Hətta radiodan verilən xəbəri qatarda öz qulaqları ilə eşitmişdi. Axşam yataqxana yoldaşları onunçün sürpriz hazırlamışdılar. Bazarlıq edib gözəl bir süfrə açmışdılar. Yeddi-səkkiz adamdılar. Məclisin gur yerində Bayatın sağlığına badələr qaldırıldı:
- Hə, çempion, göstər görək aldığın qızıl medalı, araq şüşəsinə salaq görək həqiqi qızıldır, yoxsa adını qızıl qoyub sənə saxtasını sırıyıblar. Bayat medalı özü ilə götürməmişdi, niyə də götürməli idi ki, deməzdilərmi ki, görməmişin oğlu oldu, çəkdi ... çıxardı... Bayat:
- Nəyinə baxacaqsınız, adi bir medaldır,- deyə mızıldandı. Yoldaşları əl çəkmədi. Bayat otağına gedib medalı gətirəsi oldu, medal əldən-ələ gəzdi, təbriklər, sağlıqlar bir-birinə qarışdı. Gecə gecədən keçəndə hər kəs öz otağına çəkiləndə medal bir də yada düşdü. Amma medal, yeddi-səkkiz adamın arasında yox olmuşdu. Otağın sahibi Sergey çıxılmaz vəziyyətdə qalmışdı:
- Sluşay, çto za bezobraziyi, iz vas kto vzyal? Nemedlenno vernite obratno. A - nu - ka davay.

Hər kəs bir-birinin üzünə baxır, yəni mənimi deyirsən, deyə çiyinlərini çəkirdi. Hətta Sergey bu bəd xəbərin bədliyindən içkili başları avazıyan dostların ciblərini axtarmaq istədi. Buna heç kim etiraz etmədi, hər kəs yarıkönül ciblərinin astarını çevirməyə başlamışdılar ki, Bayat imkan vermədi:

- Seryoja, ne nado, eto ya vinovat. Medal məndə imiş, unudub döş cibimə qoymuşam. Sergey inad etdi:
- A - nu - ka pokaji.
Amma Bayat heç nə çıxarmadı, çıxara da bilməzdi, nə çıxarasıydı ki? O, medalını iki "şmotkaya" qurban vermişdi, bazarda o yaşlı satıcının pulunu düzgün vermədiyi vaxtdan itirmişdi... Günahkar özü idi, yalnız özü. Haramın ona düşmədiyini ta uşaqlıqdan bilirdi. Elə isə niyə nəfsinə qurban getmişdi?
Allah daha betərindən saxlasın. Bəlkə Allah, onu nəfsinin ucbatından gələcəkdə gözləyən bəlalardan qurtarmaq üçün qarşısına belə bir sınaq çıxarmışdı.

* * *

Televiziya, radio, qəzetlər vasitəsi ilə vətəndən gələn qara xəbərlər Bayatı qürbət eldə üzüb haldan çıxarırdı. Bayat buraya pul qazanmaq üçün gəldiyinə görə min peşman olmuşdu. Qalıb nə edəsi idin ki, onsuz da dəstəni ləğv etmişdilər... Yenə başqa bir fikir də baş qaldırırdı. Sən də açıq-aşkar mübarizə aparmazdın, partizan dəstəsi yaradar, ermənilərdən aranda ala bilmədiyin qisası dağlarda alardın... Niyə qırx ildə israillilərə qarşı ölüm-dirim mübarizəsi aparan fələstinlilər bunu bacarırlar, biz yox? Allahım, belə də qısır topluluq olar? Hələ bircə nəfər də Ermənistan ərazisində partizanlıq edib şəhid olmamış, halbuki Ermənistandan gələn, torpaqları əlindən alınmış, erməni dilini ana dili kimi bilən nə qədər soydaşımız var? Onlar harda itib-batıb? Bir nümunə, tək bircə nümunə də yoxdur ki, təsəlli tapasan... Qalıb qul yaşamaq gümanı varsa, ölüb azad olmaq imkanı qalır... Niyə sən bunu başqalarından umursan, özün niyə etmədinə Necə edəydim? Partizan olmaq məgər təkbaşına mümkündürmü? Dağdakı qaçağı, partizanı aşağıdakı el-oba dəstəkləməsə bir gün də partizanlıq etmək olmaz. Xalqdan gileylənməyə dəyərmi? Bu əliyalın xalq nə qədər şəhid verdi, bu azdımı?
Özü ilə həsbi-hal davam etdikcə qürbət canını sıxır, vətən üçün burnunun ucu göynəyirdi. Sibirə gedəli ağlına gələn fikirləri bir dəftərə yazmağı vardı. Masanın üstündə açıq qalan dəftərdəki son yazıya gözucu baxan olsa, aşağıdakı cümlələri oxuyacaqdı:
"Ey gələcəkdəki düşüncədaşlarım, mən də sizin təki millətimin arzuladığı kimi yaşaya bilməsi üçün yanıb-tutuşurdum; bu yolda nə etməli, necə etməli sualı üzərində illər boyu baş sındırır, çalışıb-çarpışırdım. Bunu elə-belə söz olaraq demirəm. Siz əgər gördüyüm işlərə baxsanız, dediklərimin tarixə yalançı şahidlik etmək üçün söylənmədiyini görəcəksiniz. Amma nə edim ki, tək əldən səs çıxmır, çıxmadı da... "
Yox, o, bu sözləri kənddə yaza bilməzdi, gərək mütləq bu uzun yolu keçib sonra yazaydı. Bax, sirrin qapısı o zaman açılacaqdı. Açıldı da.
Buralar o on doqquz-iyirmi yaşlarında qoyub getdiyi yerlər deyildi... Həm də o zaman əsgəri qanunlar sərt olsa da, yemək, içmək dərdi, filan da yoxdu. Onunku nümunəvi xidmətdi, onu da edirdi. Sovet ittifaqı zamanı idi, mənim, sənin söhbəti də edilməzdi. İndi burası dədə-baba türk torpaqları olsa da, başqa bir dövlətin ərazisi idi və burda artıq başqa qanunlar işləyirdi. Bayat, bədəni Sibirdə olsa da, fikri hey kəndlərində hörüyünün üstü açıq qalan evində idi. Axşamdan gecə gecədən keçənə qədər çalışsa da, qəpiyi qəpiyin üstünə qoysa da, elə də yaxşı pul qazana bilmirdi. Beləcə, tökə-tökə gəldiklərini yığa-yığa qayıtmaq məcburiyyətində idi. Gəldiyi bu iki ildə cəmi üç min dollar pul yığa bilmişdi, düşünürdü ki, elə Azərbaycanda da toqqanı belinə bərk çəksən bəlkə bu pulu yığmaq olardı... Qərara gəlmişdi, işdən əlaqəsini üzüb vətənə qayıtmalı idi. Hər kəsin vətəni uşaqlığı deyilmi? Vətənə qayıtmaq elə qayğısız uşaqlığa, onun şirinli, acılı xatirələrinə qayıtmaqdı...

Uşaqlığında evlərinin önündə kolxoz bağları vardı. Hələ sovet hökuməti deyilən əjdaha da ayaqda idi... Kolxoz bağları da onun - bu gözəgörünməz əjdahanın, yəni kolxozundu. Əslinə baxsan, kənddə yaşayan adamların heç birinin bağında belə nəhəng ceviz ağacları yoxdu. Bunun iki səbəbi vardı; o Sovet deyilən əjdaha kəndə ilk ayaq basanda yaxşı nə varsa ona əl qoymuşdu. Ya da dədə-babadan qalma bağlarının çox az bir qismini əlində saxlayan, acı qışın iliyə işləyən soyuğunda ehtiyac ucundan bir zamanlar qollarının kəsilməyinə razı olan, amma bu ağacların bir budağına qıymayan kənd adamları əlacsız qalıb "torpaqlı meşə" adlandırdıqları bağda bar ağaclarına da balta çəkmişdilər. Bəlkə zəmanənın özü kimi sərt olan qışlar bağlardakı ağacların hamısını çoxdan həzm- rabedən keçirmiş olardı, bar verən, verməyən hər ağaca qoyulan vergi olmasaydı. Amma uşaqları ocağa atan sərt qışlar adamları xəlvəti də olsa, bağdakı ağacları qırmağa məcbur edirdi. Başqa bir çıxış yolu da yoxdu. Göz görə-görə ciyərparalarını soyuqda dondurub öldürəsi deyildilər ki?.. Beləcə qorunan kolxoz bağı, şəxsi bağlardan daha toxunulmaz qalmışdı. Ona görə belə hüröyün və gümrah idilər. Kolxoz bağları çökəkdə yerləşirdi. Minillik qoz ağacları dərə boşluğunu doldurmuşdu... Yuxarıdan-təpədən baxanda adama elə gəlirdi ki, bu ağacların bir belə ucalmasının səbəbi onların təpə ilə bərabərləşmək arzusudur. Payız aylarının sisli günlərində aşağıda ceviz bağları dərəni limhəlim dolduran sarı dumana bənzəyirdi... Uşaqlar səhərin tülküdurmazında isti yerlərindən ilan kimi sıyrılıb hələ hava yellənməmiş, qoruqçular ayaqlanmamış özlərini kolxoz bağlarının nəmli soyuğuna təpirdilər... Və gecənin nəfəsindən islanan sarı pələş yarpaqlarla birlikdə nəm çəkən ceviz qərzəkləri də dodağını açır, göz yaşı kimi meyvələrini aşağı boşluğa buraxırdı... Bunu qış azuqəsi yığan siçovullar bildiyi kimi, bijəltək kənd uşaqları da bilirdi... Və beləcə səhərin gözündən yuxu tökülən tülküdurmazında ceviz ağaclarının dibində sarı pələş yarpaqların arasında şıldır axtaran uşaqların milçək vızıltısı kimi: "Ağ daş, qara daş, buna bir yoldaş" arayış nəğmələri qanadlanardı... Bayat da tay-tuşları ilə o kolxoz bağlarında qoruqçuların gözündən iraq az belə ceviz yığmamışdı. Hətta Bayat, qonşu uşaqlarından xəlvət, dərədəki belinə örkən gəlməyən və kənddə, payızda çırpmaq üçün Mehralı kişidən başqa belinə ip bağlayıb, ölümünü göz önünə alıb kimsənin çıxmadığı, çıxa bilmədiyini Yastı cevizə dırmanmış və qoynunu-qoltuğunu cevizlə doldurmuşdu. Çıxanda çətinlik çəkməyən Bayat enəndə, enə bilmirdi. Həm yuxarıdan baxanda onsuz da qaranlıqlaşan gecədə qorxudan, vahimədən gözləri bir az da qaralır, həm də qoynuna, qoltuğuna doldurduğu cevizlərin soyuqluğu canına işləyir və ona ağacın gövdəsindən tutmasına mane olurdu. Əvvəlcə qoynundakı cevizləri aşağı boşaltmaq istədi. Amma deyək ki, boşaltdı, sonra onları qaranlıq yerdə bir də təzədən necə yığacaqdı? Yastı cevizin dadı bir başqaydı... Elə Bayatı kolxoz bağlarının ən dadlı cevizinin başına oğurluğa çəkən də yağlı cevizin bu dadı deyildimi? Sanki bu oğurluğun şahidi olmaq istəməyən Ay da çoxdan qara buludların arxasına çəkilmişdi. Göyün Qızıl qayaya dirəndiyi yerdə qara buludların çevrəsini zərə bəzəyib kənara çıxmaq istəsə də çıxa bilmirdi... Əslində, heç Bayat da oğurluq etmək istəməzdi. Qonşu uşaqlardan fərqli olaraq o, səhərin tülküdurmazında qoruqçulardan xəlvət kolxoz bağlarına şıldır yığmağa yox, öz bağlarındakı qoz ağaclarının dibinə enərdi. Amma qonşuların ondan yaşlı uşaqları Novruzla Qoca onu birlikdə kolxoz bağlarına ceviz yığmağa şirnikləndirər, hələ desən, təhrik də edərdilər. Amma Bayatın ağlına da gəlməzdi ki, Novruzla Qoca onu suç ortağı etmək üçün özləri ilə aparırdılar. Bəs çaya balıq tutmağa gedəndə niyə ona - sən uşaqsan, nə yaşın var, otur oturduğun yerdə, bizimlə gəlmə, başına bir iş gələr, ananın əlində qalarıq, gəlmə bizimlə deyərdilərmi? Bağ məsələsində isə vəziyyət bir başqaydı. Bayatgilin çəpəri ilə kolxoz bağları yanaşı idi. Yəni onsuz da Bayat onların gizlicə kolxoz bağlarından oğurluq etdiklərini görəcəkdi. Və sabah bu gördüklərini öskürüyü başından çıxan, cevizlərin dibinin silinib süpürüldüyünü görən "Te indi, te indi" deyə söyür-söyür söylənən qoruqçu Hasan Hasanoğluna xəbər verə bilərdi... Bu dəfəki isə onun öz pəstahı idi. - Mehralı kişinin gündüz çıxdığı ağaca mən gecə də çıxa bilərəm inadı və qışa yastı cöyüzdən torba tikmək arzusu onu bu ağılagəlməz işə sürükləmişdi. Bir də "Anası gəzən ağacı, balası budaq-budaq gəzər, demirlərmi? Mehralı kişi Bayatın yadı ha deyildi, dosdoğma əmisi idi.

Nə edəcəyini bilmirdi, bir zülüm -zillətlə ağacın haçasına qədər endi. Oradan aşağı necə düşəcəyini bilmirdi. Amma ağacın başında qalası deyildi ki? Əlləri nə zaman ağacın gövdəsindən üzüldü, arxası üstə nə zaman ağacın kökünə düşdü, özü də bilmədi... Nəfəs almaq istəsə də, ala bilmirdi, çığırıb bağırmaq istəyirdi, səsi çıxmırdı. Eləcə "Hı... hı... hı... " səsi çıxara bilirdi. Amma ağlı başında idi. Uşaq yaşında ağlına gələn fikirdən özü-özünə məəttəl qalmışdı: - Allahım, məni buradan qurtar, bir də oğurluq etməyəcəm... Handan-hana nəfəs almağa başlamışdı. Yaxşı ki, heç yeri qırılmamışdı. O boyda yüksəklikdən yıxılasan və sənə də bir şey olmaya, lap möcüzə idi. "Allah saxlayanda saxlayır" buna deyirlər. Uşaq ağlıyla bunun bir möcüzə olduğuna inanacaq və ömrü boyu da bu inamla yaşayacaqdı... Yerindən bir zorla qalxdı, üstünü, başını çırpdı, evə-anasının yanına toz-torpaq içində getsəydi, şübhələnərdi. Ağacın gündöyər yerindən min zülüm-zillətlə yığdığı şıldırlar yerə, sarı yarpaqların arasına pəsələng olmuşdu. Əvvəlcə əyilib birtəhər toplamaq istədi, amma qıçları, beli əzildiyindən əyilə bilmirdi, bədəni sızım-sızım sızıldadı, bu halda gözünə ceviz toplamaqmı görünürdü?

... Aradan nə qədər vaxt keçmişdi. Yox, bunlar yuxu deyildi, bunlar uşaqlıqda başına gələnlərdi. Bəs niyə indi bu qədər yol keçib qürbətdə beynini qurcalayırdı. Bəlkə o keçmiş xatirələrin corab ipliyi kimi çözələnməsinə qeyb olan medalın itməsi, itirilməsi səbəb olmuşdu? Tərs kimi vətənə səfər ərəfəsində bu gecə də qürbətdə elə həmin o kolxoz bağları yuxusuna girmişdi. Sovet dönəminin kolxoz bağları. Halbuki, sovetlər yıxıldıqdan, torpaqlar kəndlilərə paylandıqdan sonra o bağlarda da bir bağlıq qalmamışdı. Sanki sarı duman o dərə boşluğundan çəkilmiş, yerində isə ceviz ağaclarının başdaşı kimi kötükləri qalmışdı. O dərə boşluğu indi bağdan daha çox ağac gəbiristanlığını xatırladırdı... Elə bir zaman gəlmişdi ki, sözdə də olsa Sovet hökumətinin ellik mal-dövləti bir qrup işbazın əlində cəmlənmişdi, "eybəcər kapitalizm" məzarından xortlamış, sanki iyirminci əsrin əvvəllərində yarımçıq qalan ömrünü yenidən yaşamağa davam edirdi... Varlı-hallı adamların villaları yağışdan sonrakı göbələk kimi Bakının ucqar məhəllərində ucalmağa başlamışdı. Və buna görə də qapı-pəncərələrin qoz taxtasından olması dəbdə idi. Dəb olduğundan da az qala qızıl qiymətində məzənnəyə minmişdi. Kəndlərdəki qoz ağacları kapitalizm baltasının zərbəsinə qurban getmişdi... Tamah baltaları işə düşmüş, qoz ağacları doğranmış, dərə boşluğunu dolduran sarı duman çəkilmiş, kənd gözəlliyini itirmişdi. Amma yox, Bayatın yuxusuna girən elə sovet dönəminin cah-cəlallı ceviz bağları idi... Bayat o bağların gümrah çağlarını görmüşdü... Həm də qəribəsi o idi ki, Bayat yuxuda özünü bir dəfə çıxdığına min dəfə peşman olduğu Yastı cevizin başında görürdü. Və bu yuxu elə inandırıcı bir yuxu idi ki, Bayat az qala yuxu gördüyünü hiss edə-edə bu yuxunu gördüyünə məəttəl qalmışdı. Ağacın lap uc budağından aşağı baxırdı. Sarı yarpaqların arasında dollar gizlədilmişdi; İki amerikan yüzlüyü... Birdən xatırladı ki, bu pullar onun kiməsə verəcəyi borcudur. Amma yüzlükdə yüzlük qalmayıb, gündənmi, yağışdanmı kənarları didik-didik olub, sanki siqaret közü ilə yandırıblar, uclarında yanıq yerlərinin dairələri aydınca gözə dəyir. İndi bu pulu borc əvəzinə necə verəcək, versə də, adam bunu qəbul edəcəkmi? Çətin. Fikrindən keçir ki, bəlkə ya bankda, ya da dollardəyişmə məntəqəsində bir az ucuzuna dəyişə bilər. Fikrindən o da keçir ki, "bə deyirlər bu "mənfur kapitalizmin" pulları möhkəm olur, budumu möhkəmliyi? Yastı cevizin gündöyən tərəfində isə bir yerdə qomalanmış "paçka-paçka" pullar gözə çarpır, amma bu pullar dollarlar kimi əzik-büzük, piltə-piltə olmayıb. Onlar kimin puludur, hansı dövlətə aiddir, heç fikirləşmir də. Niyə də fikirləşsin, onun borcu dollarladır, onları salmağa çalışmalıdır. İndi bu pulları budağın əlçatmaz yerindən necə salacaq? İstəsə də budağın uclarına qədər gedə bilməz. Yuxuda xatırlamasa da, aşkarda canında Yastı cevizdən yıxılmaq qorxusu hələ də var. Əlac budaqları silkələməyə qalır. Və o, belə də edir. Var gücü ilə budaqları bir-bir silkələyir, uzun əlləşmədən sonra, pullardan biri sarı yarpaqlara qoşulub xırda budaqlara ilişə -ilişə aşağı enir. O biri isə uzun bir budağın ucuna ilişib qalır. Yerə endiyində ağacın dibində adamlar olduğunu görür, tanıdığı, tanımadığı adamlar... Onlar burada nə axtarırlar sualı keçir fikrindən. Şıldır yığmağamı gəliblər? Bəlkə onlar da dollar yığmağa gəliblər, səssizcə davranan bu adamların hallarından Bayatın dərdinə şərik olduqları görünür. Pələş ceviz yarpaqları arasından palçığa bulaşmış dollarları yığmağa çalışırlar, belə çıxır ki cevizin başında sadəcə o iki yüzlük deyilmiş. Bayat da özünü yarpaqqarışıq otların arasına verir, budaqlardan saldığı pulları axtarır, tapmasa necə olacaq? Bu

qayğılar içində yarpaqların arasından bir yüzlüyü tapır! Amma yüzlükdə yüzlük qalmayıb. İndi bu pulu borc sahibinə necə verəcək? Bu zaman əlində bir dəstə pul olan bir qadın ona yaxınlaşır, görünür, o da cevizin dibinə pul səpildiyindən xəbərdardır, toplamağa gəlib. Əlindəki puldan bir neçəsini dinməz-söyləməz Bayata uzadır, qəribədir, pullardan biri səksənlikdir, yerdə qalanları birlik, ikilik, beşlik... Bayat səksənlik dolların olmadığını bilir. Amma fikrində özünə təskinlik verir, görünür, mən bilmirəm, yeni səksənlik dollar da çıxarıblar, indi bunun üstünə bir iyirmilik də qoyub borcumu ödəyərəm deyir... Beləcə, bu qat-qarış yuxular içində gecəni səhər edir. - Allah, sən özün saxla, bu nə əcaib yuxu idi belə, mən gördüm? Tərs kimi özü də səfər ərəfəsində, Allah, sən özün xeyirə cala, - deyə düşünür. Döşəyin altında gizlətdiyi pula əlini sürtür. Pulun yerində olduğunu görüb hələ sevinir də... Sanki puldan canına bir enerji də yayılır: Allah, sənə min şükür!

* * *

Əvvəlcə İrkutska gedəcək, oradan Moskvaya uçacaq, sonra Bakı və əlini ver... - Tovuz. Orada vəziyyətə baxacaqdı. İşi üzünə gülsə, dönməyəcəkdi, işdi işlər tərs getsə, Sibir dururdu, o, dururdu. Yenə dönə bilərdi.
Təyyarə ilə Moskvaya uçmuşdu, təkərli kiçik əl çamadanını təyyarə meydanında saxlama kamerasına verib şəhərə getmək istədi. Hələ Bakıya uçmasına bütöv bir gün qalırdı. Amma nə olar, nə olmaz düşüncəsiylə çamadanını da yanına alıb əvvəlcə avtobusla, sonra da metro ilə şəhər mərkəzinə gedəcək, oradan da şəhəri gəzməyə çıxacaqdı... Moskva da heç əvvəlki Moskvaya bənzəmirdi. Qanadları sınmış quş kimi idi, elə ilk baxışdan yaralarını sağaltmağa çalışdığı görünürdü. Zarafat deyil, candan can ayrılmış, Rusiyadan neçə-neçə dövlətlər qopmuşdu. Moskva artıq böyük bir imperiyanın deyil, sadəcə Rusiya Federativ Respublikasının paytaxtı idi. Həm də kapitalizmin sosializmlə amansız mübarizəsi indi-indi başlamışdı. Metro meydanlarında bu daha aydın hiss olunurdu. Satış köşklərinin sayı birə-on artmışdı, ətrafda insanlar qarışqa kimi qaynaşırdı... Çeşidli yönlərə gedən yolların kəsişdiyi Novoslobodskaya stansiyasına enmişdi. Bayat Moskvanın bu yeraltı dünyasını yaxşı tanıyırdı, çaşıb-eləyəsi də deyildi. Metronun içinə enəcək, oradan pilləkənlərlə qalxıb Domodedovaya gedən qatarların xəttinə keçəcəkdi... Polisin Qafqazdan olanlara şübhə ilə baxdığını bilirdi. Amma Allahdan, bütün günü qarşısını bircə polis belə kəsməmişdi. Seryoja deyirdi ki, narahat olmağa dəyməz, sən də qrek profili, intelligent üzü var, kimsə sənin Qafqazdan olduğunu bilməz. Sergeyin təxmini doğru çıxmışdı. İnsan axını arxasınca qarşı stansiyaya keçmək üçün pilləkənlərə doğru üz tutdu... İnsanlar bir-birini itələyə-itələyə pilləkənləri qalxırdılar. Pul kisəsini şalvarının arxa cibinə qoyub düymələmişdi. Sanki canı arxa şalvar cibindəydi, ürəyi orada döyünür, nəbzi orada vururdu. Hərdən-hərdən ilan vurmuş kimi diksinib qeyri-ixtiyarı əlini arxasına aparır, qorxduğunun yerində olduğunu hiss edib arxayınlaşırdı. Amma yenə də arxadan kiçik bir təmas hiss edəndə eyni hal təkrarlanırdı... Olub-qopanı, varı-yoxu, Ziynət arvad demiş, canı cibindəydi... Bu zaman heç gözləmədiyi bir hadisə baş verdi; qarşıdan gedən adamlardan tam önünə bir "paçka" dollar düşdü. Amma qəribəsi bu idi ki, düşən pul düşüb mərmər pilləkənlərdə qalmır, hərəkət edib sürünürdü. Bu hadisə elə ani baş vermişdi ki, Bayat olub-bitənlərin nədən ibarət olduğunu düşünməyə macal belə tapmamışdı. Bu elə bir an idi ki, Bayat - mənə nə var, deyib keçə bilməzdi, bu onun adəti deyildi. Ona görə də tam qarşısında gedən adama, - pulunuz düşdü, götürün, - demədi, eləcə çiyninə vurdu. Adam sanki bunu gözləyirmiş kimi tez geriyə qanrılıb əlini dodağına gətirməklə, yəni "suss" işarəsi verməklə pulu yerdən götürməyi bir oldu:
- Səs eləmə, - dedi.
Və sanki min ilin tanıdığı adam kimi Bayatın qoluna girib geriyə nərdivanların aşağısındakı skamyalar tərəfə dartdı. Bayat çəkinib qolunu tanımadığı adamın əlindən qoparmaq istəsə də, bir şey alınmadı. Bir əlində çamadan vardı, o biri qolundan isə tanımadığı adam yapışmışdı. Əlacsız qalıb adamla birlikdə aşağı endi. Əndişə etməyə gərək görmədi, hələ təyyarənin uçmağına çox vardı və bu adam bu boyda adamın içində ona nə edə bilərdi ki, həm də metronun hər tərəfində polislər dolaşırdı, bərkə qalsa onları çağıra bilərdi.

- Səs eləmə, - deyirdi tanımadığı adam.
Bayat bu darmacalda qarşısındakı adamı kiməsə oxşatmışdı? Adamın rucsa o qədər də yaxşı danışmaması şübhəsini bir az artırsa da, yenə işin sonunu öyrənmək marağı ona güc gəldi.
- Sən gördün, mən götürdüm, şərikik, bölüşərik, səs eləmə.
Kəndlərində qaraçıların xoruz və toyuqları tutmaq üçün qarğıdalı dəninə sap bağlayıb yerə atdıqlarını və toyuqları dimdiyindən tora saldıqlarını, hətta bu barədə qoşduğu iki misranı xatırladı:

Sən demə ip varmış buğda dənində,
Toyuq dimdiyindən çidara düşdü...

Xatırladı xatırlamağına, amma içinə dolan şübhədən niyə nəticə çıxarmadı, bu, bəlli deyil. İnsan niyə belədir görəsən. İçi insanı heç zaman aldatmır. O, qarmaqarışıqlığın içində səni gözləyən təhlükədən xəbər gətirir, sən isə... Görünür, insanın içi göylərdən, Allahdan, çölü - bədəni isə yerdən, torpaqdan olduğundan içinə dolan hissi, gələn təhlükəni zamanında dəyərləndirə bilmir, içi çölünə əngəl olur. Bütün bu fikirlər bir yana, hətta gecə ceviz ağacının başında gördüyü yanları didilmiş dollarlar da gəldi gözlərinin önünə. Bəlkə bu yuxu xatırlanması onu bir az silkələdiyindən Bayat anında cavab verdi:
- Yox, mənə başqasının pulu lazım deyil, sahibi kimdirsə, ona verək, ya da polis çağırıb məsələni ona deyək.
- Dəli olmusan nədir, kim qarşısına çıxan bu fürsəti əldən verər? Cibə girməmişik, oğurluq etməmişik, göydən qarşımıza çıxan puldur, nə bilək sahibi kimdir, polisə versək, sən elə bilirsən polis bizə inanacaq, deyəcək ki, kiminsə cibindən çıxartmısınız, sən Moskva polisini tanımırsan, neçə gün get-gələ salacaqlar, əynindən, başından buralar adamına oxşamırsan, qarşımıza çıxan qismətdir, gedək bir yerdə bölüşək, sonra sən sağ, mən salamat.
Bayat yenə inad etmək istəyirdi ki, bir az öncə endikləri pilləkənlərlə birisi başı alovlu onlara tərəf qaçdı:
- Mən, mən pulumu salıb itirmişəm, bir az əvvəl cibimdəydi, bəlkə, bəlkə təsadüfən görmüş olasınız, əyər görmüşsünüzsə, Allah rizasına mənə yardımçı olun.
Adam onların üstünü elə anında aldı ki, Bayat götür-qoy etməyə macal tapmadı. Pul itirən adam yüzlərlə adamın içində niyə itmiş pulunu gəlib onlardan soruşurdu? Ağzını açmışdı ki, desin:
- Ver bu adamın pulunu çıxıb getsin, mən pay-filan istəmirəm. O biri buna imkan vermədi:
- Nə pul, nə filan, get, işinlə uğraş, bu boyda izdihamın arasında pulmu qalar, bizə mane olma, vacib işimiz var.
Yalana şərik olduğuna görə Bayat içində hələ özünü söydü də. Yalanın sahibi sənsən, həqiqətin sahibi Allah, indi özün bilərsən, istər yalan danış, istər gerçəyi söylə... Dilin xəyanəti bədənin xəyanətindən daha betərdi. Dil xəyanəti bilərəkdən şüurlu bir şəkildə edir... Bədən isə heyvani hissin əsiri olduğundan xəyanətə girişir. Sözlə əxlaqsızlıq bədəninlə əxlaqsızlıqdan daha dəhşətlidir... Çünki söz şüurlu düşüncənin, bədən isə heyvani hisslərin ixtiyarındadır və onlardan qaynaqlanır. Yalan da siqaret tərgitmək kimi bir şeydir, gündə bir yalan yaz, bir də görəcəksən ki, yalanın axırına çıxmısan... Ömrü boyu risk etməmiş və həyatın sakit axarında qocalığa gəlib çatmış, qocalığın imkan və rahatlığından yararlananlar bəlkə də xatırlanası və anıb da qürur duyacaqları yaddaş köşələrində bir şey tapa bilmirlər. Bax, faciə burdadır. İndi Bayat da bunları düşünə-düşünə tərəddüd içində qalmışdı. Sussun, yalana şərik çıxsın, ya risk eləsin?
Fikrindən keçən bu düşüncə axını onu cəsarətləndirmişdi ki, bu ara Bayata elə gəldi ki, yanındakı adam pulunu itirdiyini söyləyən adama göz vurdu. O da eyni şeyi təkrarladı. Pul itirən adam da bunun fərqindəymişcəsinə gözünə çöp düşmüş adam kimi bir neçə dəfə gözünü yumub-açdı, sanki Bayata demək istəyirdi ki, göz-filan vurmadım bu, mənim adətimdir. Pul itirən adam ümidsizcə yenidən gəldiyi səmtə doğru qaçıb izdihamın içində gözdən itdi... Pul tapan adam Bayatın qolundan tutub:
- Gedək, - dedi, - burda olmaz, dalda bir yerdə pulumuzu bölüşək... Bayat bu dəfə:

- Burax qolumu, - dedi, - yoxsa polis çağıracağam, nə pul, nə filan, indi ki, sahibinə vermədin, nə var sənin olsun, yaxamdan əl çək.
Adam qırsaqqız olub yapışmışdı Bayatın qolundan:
- Elə şey olarmı, - dedi. - Polis çağıracaqsan, mən də sənin üzünə duracağam ki, pulu mən yox, sən çıxartdın. Şahidin var həqiqətin kimin tərəfində olduğunu sübut etməyə? Polis pulu da bizdən alacaq, ən azı yeddi sutka da türməyə salacaqlar. Sən gəl mən deyənə bax, boşuna polis - filan çağırma, gedək münasib bir yerdə qismətimizə çıxan pulu bərabər bölüşək.
Bu zaman Bayatın içində tərəddüdlər başlamışdı... Gözümlə gördüm, o boyda paçkada ən azı əlli-altmış min dollar olar, cibimdəki üç min nəmənə şeydir, onunla ev tikdirmək, evlənməkmi olar? Bölüşsək, payıma dinməzcə 20 min dollar düşəcək, götürərəm, kasıblığın da daşını ataram... Bu fikirdə idi ki "pulunu itirdiyini" söyləyən adam yenə başlarının üstünü aldı:
- Axtarmadığım yer qalmadı, mənim pulum sizdə olacaq, Allah rizasına verin mənim pulumu, - deyə fəryad etməyə başladı.Bu zaman adətinin xilafına Bayat:
- Bizdən nə istəyirsən, nə pul, pul-filan görmədik, dəf ol get,-dedi. Adam bu dəfə də kor-peşman metro qarqaşasında gözdən itdi. - Molodes, - dedi qarşısındakı adam, - bax, indi gəldin Allah yoluna, gedək. Metrodan çıxmışdılar... Adam öndə, Bayat arxada suyu süzülə-süzülə gedirdi. Çamadanı saxlama kamerasına vermədiyinə görə indi elə peşmanlıq çəkirdi ki. Bu zəhirmar əlimdə olmasaydı, heç olmasa, qaçıb canımı qurtarardım. Canavarın gözlərinin cəzbinə onu qarabaqara izləyən qoyun kimi adamın arxasınca düşmüşdü. Adam onu haraya aparırdı?
Tamahla insaf bir-biri ilə ölüm-dirim mübarizəsinə çıxmışdılar. İnsaf deyirdi:
- Axmaq adam, haram puldan fayda yoxdu, günahın yarısından da qayıtmaq savabdandır, qayıt bu yoldan, itirdiyin qızıl medal nə tez yadından çıxdı?
Tamah isə:
- Oğlum, - deyirdi, - birdən-birə varlı olacaqsan, ev də tikdirəcəksən, evlənəcəksən də, daha nə istəyirsən? Allah yox yerdən bir qapı açıb başına göydən bərəkət yağdırıb, tanrına təpik atıb şadlığına şitlik etmə... Adamın əlinə fürsət bir dəfə düşür, bunu unutma. Bəlkə elə gecə yuxuna girən dollarlar da bunun işarətiymişə
Metrodan xeyli aralanmışdılar, qarşıdakı binanın arxasına keçdilər, bura gediş-gəlişsiz dalda bir yerdi. Bunu görən Bayatı sanki ildırım vurdu. Ruhu bir andaca sanki iki addımlıqdakı böyük təhlükəni anlamışdı, içində çırpınır, haray qoparırdı. Geriyə qayıtmaq, qaçmaq istədi. Bir yandan da içindəki vahimədən qarşısındakının xəbəri olmasın deyə özünü tox tutmağa çalışdı... Adam əvvəlcə cibindən öz pul kisəsini çıxardı, sonra qoltuğunda gizlətdiyi dollar "paçkasını":
- Bu məndə olanlar, - dedi, - indi də sən pul kisəni çıxart görək,- dedi.
- Mənim pul kisəmlə nə işin var?
- Nəyimiz var, qardaş malı kimi bir yerə qatıb ikiyə böləcəyik, yarısı sənin, yarısı mənim.
Bayatın nitqi tutulmuşdu. Özündən asılı olmayaraq ürəyi istəməsə də əlləri avtomatik bir şəkildə pul kisəsini çıxartdı. Adam bir göz qırpımında kisəni dartıb Bayatın əlindən aldı. Öz dədə malı imiş kimi kisədəki üç min dolları aldı, sonra bir qədər rus rubli vardı, onları da götürdü, yerdə qəpik-quruş qaldı. Və kisəni Bayata qaytardı...
Bu zaman qarşı döngədən yenə pulunu itirdiyini söyləyən adam başı alovlu qaça-qaça gəldi:
- Mən bilirəm, mənim pulum sizdədir, verin mənim pulumu, verməsəniz polis çağıracağam,- dedi, - bax, görərsiniz... - Bu sözləri söyləməyi ilə geriyə qaçmağı bir oldu. Adam da onun arxasınca üz qoydu. Bayat:
- Haraya? Qaytar mənim pulumu, bəs biz pul bölüşdürəcəkdik, - dedi. Adam sanki Bayatın bu harayını gözləyirmiş kimi:
- Polis gəldi, polis, polis, - deyə-deyə qaçmağa başladı. Bayat nə edəcəyini bilmirdi. Qaçsınmı? Qaçsa da əlindəki çamadanla adamı tuta bilməyəcəkdi. əvvəlcə çamadanı atmaq istədi. Amma çamadanını ata bilməzdi, bütün sənədləri də çamadanda idi, onsuz da itirdiyini itirmişdi, sənədlərinidəmi itirəydi? Əgər adamın dediyi kimi doğrudan da polis gəlirdisə nə cavab verəcəkdi? Bəlkə pulunu itirdiyini söyləyən adam doğru deyirdi, polisə xəbər vermişdi. Bayatın ağlı başında olsaydı heç belə düşünməzdi. Pul itirən adamı metronun qarqaşası içində qoyub gəlmişdilər. Adam onların gedəcəyi yeri hardan bilirdi ki, polis də çağıraydı. Bunun bir qurğu

olduğunu Bayat anlamaq durumunda deyildi. İki illik zəhmətini iki dəqiqədə yelə vermişdi, indi isə can hayında qalmışdı. Əgər doğrudan da bu çevrədə polis vardısa və onu yaxalardısa, o zaman varı cəhənnəm, canı da gedəcəkdi. Ona görə də varının - o adamın arxasınca deyil, canını götürüb əks istiqamətə doğru qaçmağa başladı... Nə qədər qaçdığını bəlkə özü də bilmirdi. Amma aranın sakit olduğunu gördüyündən polisin gəlmədiyini yəqin etdi. Və içi boşalmış pul kisəsini cibindən çıxarıb baxdı, qalan qəpik-quruş onu təyyarə meydanına qədər apara biləcəkdimi? Metronun qiymətini bilirdi, avtobusun qiymətini soruşdu, yaxşı ki, təyyarə meydanına qədər gedə biləcəkdi... Təyyarəyə bileti vardı, Bakıya uçacaqdı. Bakıdan sonrasına Allah kərimdi, kəndə əli ətəyindən uzun dönəcəkdi...
İnsan saxta pul kəsir, pul saxta adam axtarır. Pul, demək olar ki, nadir hallarda saxtakarın deyil, səxavət sahibinin əlinə keçir... Yol boyu başına gələnləri xatırlayacaqdı... Bu xatirələr içində iki şey ağlından çıxmırdı. İtirdiyi qızıl medal və bir də uşaqlıqda Çinarda gördüyü qəzəbi bülöv daşında qığılcıma dönən erməni dığası... O erməni dığası ilə indicə metroda qarşısına çıxan adam arasında elə qəribə bənzərlik vardı ki!!!

... Qaraçılar qarğıdalıya sap keçirib arxaları ilə sürüyüb kənd toyuqlarını dimdiyindən tora saldığı kimi kvadrat kəsilmiş kağız topasının altına, üstünə saxta yüz dollarlıq yapışdırıb onu tora salan da bəlkə elə Çınarda qarşılaşdığı erməni dığası idi. Fikirləşdikcə, tüstüsü təpəsindən çıxırdı. Min bir ümidlə dişiylə, dırnağı ilə qazandığı pul cəhənnəm, erməninin gülləsi qarşısında duruş gətirən, onları ta çıxdıqları yerə- vəngə qədər qovan Bayat burda erməni hiyləsinin toruna düşdüyünə, qabağından qaçdığına yanırdı. Çinardakı erməni dığası ilə onu metroda qandıran adamın sifətini müqayisə etdikcə ikinci birincinin böyüdücü aynada görünən sifəti kimi gəlirdi. Elə isə niyə indi, iş-işdən keçəndən sonra xatırlamalıydı bütün bunları? Yenə ağlına gələn bir fikir əlfini çaşdırmağa başladı. Erməni demirmi "müslümanın sonrakı ağlı məndə ola"... Müsəlmanın sonrakı ağlı! Həyatdan nə istədiyini bildinmi və sənin istəyinlə Allahın sənincün istədiyi eynidirmi? Bəlkə sən istəyən heç Allah sənincün istədiyi ilə üst-üstə düşmür.

İçində atlı burulğanlar oynaşırdı; bulaq niyə çaya, çay niyə dənizə can atır, görəsən? Bulaq çayda, çay dənizdə adını itirəcəyini, yox olacağını bilə-bilə yoxda var olmağa bu canatım inadı hardan gəlir axı? Onun başına gələnlər də buna bənzəmirdimi? Başına gələnlər, gələcəklər hardan gəlir? Kimdi onları bizə tərəf itələyən? Yoxsa, bütün bunların hamısı biz dünyaya gəlmədən içimizə qoyulmuşdur, hər toxum içindəki xassəni açа-açа özünü böyütdüyü kimi, biz də başımıza gələnləri içimizdən dünyaya-başımıza gətiririk bəlkə? Sonradan heç nəyi dəyişdirə bilmirik, içimizə bizdən xəbərsiz nə qoyulubsa, oyuq. "Əslində olan dırnağında bildirər" atalar misalı boşuna yaranmayıb ki? Birdən-birə Məmmədəli kişinin bir hədisi fikrinin xatirə deposunda canlanmağa başladı. Birdən-birəmi? Yox, içimizə damanlar da bizdən asılı deyil. Məmmədəli kişinin adəti idi, kənddə birinin başına dolaşıq bir iş gəldimi, özünü o adamın yanına yetirər, gəlmişdən, getmişdən söhbət açar, sözü döndürüb, dolandırıb qarşısındakı adamın başına gələnlərə bağlayardı. Qarşısındakı adam əvvəlcə Məmmədəli kişinin ona mənasız və boş görünən söhbətlərindən bezsə də, sonunda kişinin danışdıqlarından dərdinin azaldığını hiss edər, üstündən dağ götürülərdi... Məmmədəli kişinin hədisləri bitməzdi ki! Bu savadsız adam bu qədər hədisi çinadanına harda, nə zaman yığmışdı, bir Allah bilir... Çay kənarında paltar yuyanlara iş avandlığı üçün "Günün yağlı olsun" deyərlər. Uşaqlığında Bayat bu deyimi eşidəndə içində şübhələr də baş qaldırmışdı. Gün, qoyundumu yağlı ola? Amma deyilən bu alxışlardan, dualardan insanların doğrudan da günün yağlı olduğunu, işinin avand getdiyini Bayat sonralar biləcəkdi. Bəlkə elə Məmmədəli kişinin də içinə bu hisslər bu alxışların, duaların səbəbi kimi elə uşaqlıqdan qoyulmuşdu. Böyüyəndən bəri əlini kisəsinə aparıb pul çıxarar kimi, yeri gəldiyində içinə yerləşdirilmiş hədisləri bir-bir sözünə sökək edirdi. Belə idisə bu, haqdan gəlmə bir şeydi, oxumaqla-filanla da bir əlaqəsi yoxdur. Bu hədisi Məmmədəli kişidən Bayat harda, nə zaman eşitmişdi, indi xatırlaya bilməzdi. Əsas olan o idi ki, neçə illər yaddaşının harasındasa ilişib qalan bu hədis indi bu darmacalda yadına düşmüşdü. Düşməsi də, görünür, elə-belə deyildi.

Məmmədəli kişi çoxdan dünyasını dəyişsə də, söylədiyi hədis biletsiz-filansız onunla birlikdə Moskvada idi...
Bir padşahın ağıllı bir vəziri vardı. Padşah nəyi olsa onunla məsləhətləşirdi. Amma bir dəfə sözləri çəp gəlmişdi. Sözləri çəp gəldi deyəndə ki, vəzir, padşahını tanımırdımı, bir sözünü iki eləyəydi? Olan etirazı da padşahını yersiz, səbəbsiz bəlalardan qorumaq idi. Padşah deyirdi ki, vəzir, soy-sop, əsil-nəcabət bir yana, əsas olan o dünyadan gətirdiyin deyil, bu dünyada öyrəndiyin, qazandığındır. Vəzir isə başqa cür düşünürdü:
- Padşah sağ olsun, doğru buyurursunuz, amma...
Padşah:
- Nə amma? Amması-filanı yoxdu.
Padşahın Nuh deyib, peyğəmbər deməməyinin də səbəbi yox deyildi. O axşam şah sarayının gözləri qamaşdıran çil-çiraqlı sarayında şənlik vardı. Rəqqaslar, şərqiçilər, məddahlar, oyunbazlar əyanlar qarşısında məharətlərini göstərirdilər. Bu zaman səhnəyə, bellərinə bağlanmış xonçalar üzərində şamlar yanan pişiklər çıxdı... Pişiklərin bu gözlənilməz, alışılmamış yanar rəqsi salonda alqışlarla qarşılanırdı. Keyfi yerində olan padşah çevrilib məğrur, dediyinin doğru çıxdığından əmin bir ədayla vəzirə baxdı:
- Gördün? Hər şeyə əmma qoymaq sənin əski adətindir. Bax, gözünə işıq gəlsin.
Vəzir:
- Padşah sağ olsun!
Padşah əlinin işarəsiylə vəzirin sözünü ağzında qoydu, yəni kor ha deyilsən görməyəsən. Allahın heyvanına belə vərdişlər öyrədilirsə, o zaman insan hay-hayla öyrənər.
Padşahın əl hərəkətində, ədasında deyilməyən bu sözlərin zindan ağırlığı vardı. Amma vəzir də ağıllı adamdı. Anında cavab qaytarıb, hamının qarşısında padşah tərəfindən alçaldılmasını istəmədi, tədbirli tərpəndi...
... Çil-çiraqlı salonda yenə şənlik vardı. Saray əhli nəşə içində idi... Vəzirə də vəzir deməzdin fürsəti əldən versəydi. Əvvəlcədən ölçüb-biçmiş, tədbirini tökmüşdü... Məddahlar bəy tərifini bitirmiş, rəqqaslar rəngli rəqsləri ilə salondakıları sehrləmiş, müğənnilər bir-biri ilə yarışmış, sıra oyunbazlara çatmışdı... Bir azdan pişiklərin yanar rəqsi başlayacaqdı... Vəzirə də elə bu lazım idi... Elə ki pişiklər səhnəyə çıxarıldı, torbada gizlətdiyi siçanları xəlvətcə salona buraxdı. Siçanların qoxusunu duyan pişiklərin bircə qöz qırpımında pərənləri pozuldu, öyrəndikləri rəqslər büsbütün unuduldu, anadangəlmə fəhm işə düşdü və bu dəfə yanar rəqs yerinə siçan-pişik qaçdı-qovdusu başladı... Padşah da ağıllı padşah idi. Ağıllı olmasaydı, heç yanında belə ağıllı vəzir saxlardımı? Vəzirin bu hərəkətinə qızmadı. Əksinə, ona ənam verilməsini tapşırdı. Yenilməyi bacarmaq da bir məziyyətdi...
- Allah sənə rəhmət etsin, Məmmədəli kişi, yoxsa, hardasa, haçansa başıma gələnləri hansı ayın hansı günündəsə "A qızım, sənə deyirəm, a gəlnim, sən eşit" misalı, bu hədisi başqa birisinə mənə eşitdirmək üçün danışmışdın?
Bayat Bakıya uçan təyyarədə çıxılmazlıq içində bunları- sonrakı peşmanlığın faydasız olduğunu düşünür, özünə bir təsəlli yeri arayırdı. Sonunda yenə Məmmədəli kişidən eşitdiyi başqa bir əfsanə düşdü yadına... Və bu hədis və əfsanələri xatırladıqca heyrətlər içində qaldı. Allah bilir, bu hədis və əfsanələr onun yaddaşında neçə ildi ki, yol gəlir, xatırlanmırdı. - Bu darmacalda onları mənim yadıma salmaqda məqsədin nədir, a şükür kərəminə, - deyə ürəyində Allahı ilə dərdləşirdi...
... Dənizin ortasında duyğular adası vardı. Bütün duyğular bu adada yaşayırdı. Qabaran dalğaların duyğular adasını dənizə göməcəyi an bütün duyğular qayıqlarına minib dənizdən sahilə çıxmağa çalışır, yalnız Sevgi duyğusu adadan ayrılmaq istəmir. Amma artıq adanın batmaqda olduğunu görən Sevgi də adadan ayrılmağa qərar verir. Ən yaxında Var duyğusunun qayığı idi. Sevgi Var duyğusundan onu da qayığına almasını xahiş edir. Var duyğusu:
- Qayığım qızıl, gümüş, yaqutla doludur; yer yoxdur, səni haraya alım? -deyir.
Bu dəfə Sevgi üzünü Xoşbəxtlik duyğusuna tutur:
- Nə olar, məni də qayığına al.

Başı sevincdən, bəxtiyarlıqdan məst olan Xoşbəxtlik duyğusu da Sevgini qayığına götürmək istəmir:
- Başım onsuz da öz bəxtəvərliyimə qarışıb, sənə bizim aramızda yer yoxdur.
Əlacı kəsilən Sevgi bu dəfə də Dərd duyğusuna üz tutur. Dərd duyğusu:
- Dərdim o qədər çoxdur ki, bir qayığa onları zorla yerləşdirmişəm, səni haraya götürüm?
Bu vaxt dənizdən Sevgiyə kömək əli uzanır; Zaman duyğusuydu.
- Qayığım sənə peşkəşdir, gəl yanıma,-deyir.
Sevgi özünü Zamanın ixtiyarına buraxır.
Bayat da özünü zamanın ixtiyarına buraxacaqdı. Zaman onun günahlarını yuya, yaralarını sağalda biləcəkdimi? Bəlkə, əziz oxucum, sən deyəsən, hə?!

* * *

Əvvəllər yer üzündə heç nə yox idi, elə vaxt da boş-boşuna gəlib keçirdi. Dünyanın nə ağacı-daşı vardı ki, ilişib yaşıl yarpağını saraltsın, qayasını üyüdüb quma döndərsin, nə insanı vardı, cavan ömrünü qoca etsin... Sonra dünya dünya oldu, ağacı-daşı və bu ağaca-daşa "mənimdi" deyən insanı yarandı, beləcə Zamanın iş görmə zamanı gəldi...

Mart-avqust, 2008

Çanaqqala-Bakı

Fikrət Qoca

“Dayanacaqda görüş”

Povest

Bu dünya bir dayanacaq,

Allah bilir,

Kim nə qədər

Dayanacaq.

Soltan dedi:

- Allahım, mənə kömək elə.

Soltan müəllimə elə gəlirdi ki, olanların ona heç bir dəxli yoxdu. Gələnlər onun üstünə gəlirdi, onu qucaqlayırdı, kimi hönkürürdü, kimi kövrəlirdi, kimi də sakitcə onu qucaqlayır: "Allah sənə səbr versin" -pıçıldayırdı. Bunlar hamısı köhnə, səssiz kino lentlərinə oxşayırdı. Soltan müəllim elə bil özünə də kənardan baxır, bu köhnə, səssiz filmdə özünü əlacsız, yazıq vəziyyətdə görür, kömək edə bilmirdi. Bu olanlara hardansa uzaqdan, yuxarıdan baxırdı. Elə bu lentdə iyirmi bir yaşlı oğlu Qisməti mafaya qoyub adamlar çiynində aparırdı. Soltan müəllimin də qoluna girmişdilər, mafanın dalınca qəbiristanlığa aparırdılar. Elə bil ona sübut eləyirdilər ki, oğlun Qismət ölüb. "Bax, aparırıq dəfn etməyə, gedək gözlərinlə gör. İnan, daha onun hardansa qayıdıb gələcəyini gözləmə".

Molla Soltan müəllimə yanaşdı:

- Professor, qəbrə düşün, uşağın yanına, mən Quran oxuduqca ona toxunun.

Soltan istədi etiraz etsin, desin ki, "oğul atanın məzarına enər, ata oğulun yox", dili tərpənmədi, dodağı açılmadı. Məzara endi. Əlini kəfənə toxunduranda qəlbində qəribə bir ümid oyandı. "Bu çox yaxşı adətdi. Bəlkə uşaq ayıldı. Əlbəttə ki, yanında olmağım yaxşıdı. Ayılar, qorxar". Sonra qolundan yapışıb ona qəbirdən çıxmağa kömək elədilər. Qəbrin üstünə beton pilətələr düzdülər. Plitələrin üstünə beton suvaq çəkdilər. Elə bil deyirdilər: "bax, ölüb, görürsən, üstünü də örtdük". Kimsə kürəyi ona uzatdı. O, əyilib bir ovuc torpaq götürdü, məzarın üstünə atdı.

Soltan müəllim yas mərasimlərində çox olmuşdu. Bu adət-ənənəni əzbər bilirdi. Bunlar ona uzun, darıxdırıcı, üzücü görünürdü. Mərasim qurtaranda dərin bir nəfəs alıb qəbiristanlıqdan tez uzaqlaşmağa çalışırdı.

İndi Soltan müəllimin qoluna girib onu qəbiristanlıqdan çıxarmaq istəyəndə az qaldı qışqırsın: "Hara?! Nə tez?! Uşaq qaldı". Dili tərpənmədi, dodağı açılmadı, səsi çıxmadı. Əslində, Soltan müəllim kənarda idi, uzaqda, hardasa yuxarıdan bu mənzərəyə baxırdı. Heç nəyə qarışmağa, əlavə etməyə, dəyişməyə gücü çatmırdı. Onu qəbiristana aparan insan seli geri qaytardı. Çadıra gətirdi, onu məclisin başında otuzdurub, dalğa geri çəkildi. Hər kəs yerini tutdu və hər kəs öz qayğısına, öz söhbətinə qayıtdı.

Soltan müəllim bir anda özünü onun dərdinə, özünə yad adamların arasında hiss etdi. Ürəyi darıxdı, ətrafa boylandı. Yanında oturub yerini rahatlayan molla narahatlığını hiss edib ona tərəf əyildi:

- Professor, nə lazımdı? Nə istəyirsən?

Soltan müəllim biganə Adam kimi onun üzünə baxdı:

- Durub qaçmaq istəyirəm.

Molla onu başa düşən Adam kimi başı ilə təsdiq etdi. Əlini onun əlinin üstünə qoydu:

- Bismillahi rəhmani rəhim. Professor, özündən və ölümdən hara qaçmaq olur ki, qismət budu.

Qismət sözünü eşidəndə Soltan müəllim elə bil səksəndi, ayıldı:

- Qismət, Qismət - deyib, təslim adam kimi başı ilə təsdiq etdi.

- Bağışla, professor, cənnətliyin adının Qismət olduğu yadımdan çıxmışdı, bağışla...

- Allah bağışlasın, neynək. Qismət qismət olmadı, olmadı...

Axıra Nəsrin xanımın yanında qapı qonşusu Çiçək xanım qalmışdı. Qucaqlaşdılar, Çiçək kövrəldi, tez də göz yaşlarını sildi:

- Adam söz də tapmır deməyə, nə deyəsən. Bilirəm, işığın qaralıb. Bilirəm, belin qırılıb, bilirəm. Amma yenə sən güclüsən, güclü ol. Bundan betərindən Allah saxlasın.

- Ay bacı, bundan betər...bundan betər nə var ki...

- Vallah var, gündüz Soltan qədəşə fikir vermişəm. Bu iki gündə kişinin üzü çönkələ qalıb. Sən gərək ona dayaq olasan. Bilirəm ey, çətindi, Qismət elə bizim də balamız idi. Bir ağız dolusu xala deyirdi ki, üç-dörd dəfə can deyirdim, ürəyim soyumurdu.

- Bilirəm, ay bacı, bilirəm. Səni çox istəyirdi.

- Qurban olum, özünü ələ al. Kişini sınmağa qoyma. Ava-qavasına baxma, kişilər dərdə dözə bilən şey deyillər, əsas da övlad dərdinə. Ürək-dirək ver, qoru. Allah göstərməsin, ortada qalarsan. Kimin var ondan başqa?!

- Düz deyirsən, ay Çiçək. Haqlısan. Bu bəlkə qırıb-dağıtmağa gəlib. Düz deyirsən, gərək dirənək, dayana bilək.

Nəsrin Çiçəyin nə dediyini yaxşı başa düşürdü. Qərara almışdı ki, gərək Soltana mehribanlıq göstərsin. Xoş sözlər desin. Amma necə? Çünki lap əvvəldən evdə hökmranlıq Nəsrində idi. Onun bir sözü iki olmazdı. Acı sözünün üstündən keçilərdi. Nəsrinin atası İsmayıl Dağlaroğlu akademik, Fəlsəfə İnstitutunun direktoru idi. Soltan da universiteti bitirib, akademiyada mövzu götürüb, işə düzəlmişdi. Dağlaroğlunun əvvəl ona yazığı gəlirdi, bilirdi ki, atası, Soltan kiçik olanda rəhmətə gedib, ona anası baxıb. İki ay idi ki, institutda işləyirdi, anasının öldüyünü xəbər verdilər. İnstitutda pul yığdılar ki, ona versinlər. Götürmədi. Onun bu xasiyyəti akademikin xoşuna gəldi. Özü bir neçə alimlə kəndə yasa getdi. Soltangilin kəndində bu hadisə hələ də bir nağıl kimi yaşayır. Sonra Soltan daim İsmayıl Dağlaroğlunun himayəsində oldu. Namizədlik müdafiə etdi. Dağlaroğlunun evində hər məclisə dəvətli sayılırdı. Nəsrinlə yaxın münasibətləri yarandı. Toyları oldu. Amma Dağlaroğlu əvvəlcədən şərt qoymuşdu ki, gərək bizimlə yaşayasınız. Soltan razılaşmaq istəmədi. Gördü akademikin əməlli-başlı xətrinə dəyib. Sonra könlünü aldı. Dedi: "Belə çıxmasın mən gəlin gəlmişəm. İcazə verin ev tutum. Nəsrini ora gəlin aparım, bir-iki ay yaşayaq, sonra köçərik sizə". Elə də etdilər. Yaşadıqları bu illər ərzində Soltan bir dəfə də olsa Nəsrinin üstünə səsini qaldırmamışdı. Yox, yox qorxudan deyildi. Əvvəllər evdəki ağbirçəyə, ağsaqqala hörmət edirdi. Onlar dünyasını dəyişəndən sonra isə Nəsrini tək, qəlbisınıq sayırdı. Onun ərköyünlüyünü qoruyub saxlayırdı.

Çiçəyin "ortada qalarsan" sözü Nəsrini bərk qorxutmuşdu. Soltana mütləq dil-ağız etməli idi. Amma necə, nə desin? Çox sözlər fikirləşdi, çox götür-qoy elədi, layiqli bir-iki cümlə quraşdıra bilmədi. Soltan evə girəndə isə Nəsrinin ürəyində, beynində olan bütün ağrılar, sözlər pərən-pərən düşdü. Soltanın üstünə yeridi. Nəsrinin ixtiyarsız, əlacsız yerişi, mavi gözlərindəki ümidsizlik, boşluq, havasızlıq Soltanın dizlərini titrətdi. Ayaqları onu saxlaya bilmədi. Soltan kresloya çökdü. İki gün idi Soltan hər şeydən çox bu görüşdən qorxurdu. Nəsrinlə üz-üzə gəlməkdən, göz-gözə baxmaqdan qorxurdu. Nəsrin saçını yolub, yaxasını cırıb ondan oğlunu istəyəcəkdi. Nəsrin səssiz-səmirsiz gəlib kreslonun qabağında dizi üstə düşdü, qorxmuş uşaq kimi Soltanı qucaqladı, başını onun dizinə qoydu. Soltan titrəyən əlləri ilə Nəsrinin kürəyini sığalladı elə bil, "qorxma, sakit ol, mən burdayam" deyirdi.

Soltan-pıçıldadı Nəsrin. Soltandan səs çıxmadı, daha doğrusu, Soltan bir-birinə yapışmış dodaqlarını tərpədə bilmədi. Nəsrin bir də "Soltan" - dedi.

- Hı...

- Biz neyləyəcəyik, ay Soltan. Necə yaşayacayıq?

Soltan boğuq bir səslə "görək da"...-dedi.

Nəsrin alnına bir damla düşdüyünü hiss etdi.

- Ağlayırsan?! - deyib, cəld başını qaldırıb Soltanın üzünə baxdı.

Soltanın iri qara, işıqlı gözlərinin üstünə elə bil hansısa naşı rəngsaz qara rəng çəkmişdi. O rəng qurumuşdu, indi o rənglərin arasından su axırdı. Soltan onun baxdığını görüb özünü ələ aldı:

- Yox, yox, vallah ağlamıram, Nəsrin, ağlamıram. Su özü axır. Anam öləndə ağlamamışdım. Yığılıb daşlaşıb qalmışdı buramda - o hulqumundan yapışdı - burda neçə illər idi deşirdi boğazımı. İndi əriyib özü axır, ağlamıram.

Nəsrin bərk qorxdu, Soltanı daha bərk qucaqladı.

- Qurban olum, Soltan, Soltan, başına dönüm sən ölmə. Ölmə, qadan alım, ölmə sən - nə düşündüsə, tələm-tələsik ayağa qalxdı - dayan, sənə valerian gətirim - danışa-danışa otaqdan çıxdı və tez də bir əlində stəkan su, ovucunda iki sarı həblə gəldi - bu sənə yaxşı təsir eliyir. Gərginliyi götürür- Nəsrin bu sözlərin arasında həbi Soltanın ağzına qoydu. Uşaq yedizdirən kimi suyu içizdirdi. Onun üzündən, alnından öpdü və baxdı ki, Soltanın iri qara gözlərinin üstündən rəng yuyulub gedib, gözlər dirilib. Soltanın gözlərindən öpdü - gözlərinə qurban olum, ay Soltan. Soltanın dodaqları ağlamaq istəyən körpə dodaqları kimi titrədi, mavi gözlərindəki yaxınlaşan leysanı görüb Nəsrinin başını sinəsinə sıxdı.

- Ağla, Nəsrin- dedi, - ağla, doyunca ağla. Sən nə yaxşısanmış. Sən, sən beləsənmiş.

Onlar bir-birini tanıdığı otuz il ərzində heç vaxt belə yaxın, belə səmimi olmamışdılar. İndi dünyada iki tənha insan acı bir yağış altında bir-birinə qısılıb dayanmışdı. İyirmi beş il bir otaqda yaşayıb, bir-birini yenicə, indicə tapmışdılar.

Bir qədər sükutdan sonra Soltan sinəsindən, lap elə bil öz ciyərindən Nəsrinin pıçıltısını eşitdi.

- Sabah tezdən məni uşağın yanına apar.

Soltan öz-özüylə danışan adam kimi:

- Yaxşı, amma sən də orda özünü yaxşı apar.

Bir xeyli susdular. Nəsrin başını Soltanın sinəsinə bir az da bərk sıxıb:

- Yaxşı, yəni nə təhər?

- Onsuz da bizə olan olub. Nə bilim yaxşı, yəni elə belə.

Bu söhbətdənmi, boğazında daşa dönmüş göz yaşlarının əriyib axmasındanmı, valerian həbindənmi, Soltan özünə gəldi. Gərginlik yox, yorğunluq hiss etdi.

- Görəcəkli günlərimiz varmış, Nəsrin, - Nəsrinin başını öpdü - bu dərd biznən yaşamağa gəlib, buna öyrəşməliyik. Qalx, qalx, əzizim, gedək yataq.

Yerinə uzanan kimi Soltanı yuxu apardı. Nəsrin gözlərini tavana zilləyib gözləyirdi. Heç nə düşünə bilmirdi. Qismət doğum evindən gələn gündən Soltan hər dəfə bir bəhanə ilə gecə saat iki-üç arasında yuxudan ayılır,uşağın otağına keçir, Qismətə tamaşa edir. Nəsrin ayılıb soruşanda deyirdi: "elə bildim uşaq ağlıyır", "taqqıltı eşitdim, elə bildim yıxılıb", "hava soyuqdu dedim üstünü açmış olar". Sonrakı illərdə daha Nəsrin də soruşmurdu, Soltan da bəhanə axtarmırdı. Hər gecə yuxunun şirin vaxtı ayılırdı, tualetə getmək bəhanəsi ilə Qismətin otağını girirdi. Qismət də buna vərdiş etmişdi. Son illərdə çox vaxt atasının otağa girdiyini yuxuda hiss edirdi, gözünün birini açıb "ata, sənsən?" -deyirdi. Cavabı gözləmədən o biri üzə çevrilib yatırdı. İndi də Nəsrin gecənin o vaxtının gəlməyini qorxa-qorxa gözləyirdi. Nəhayət, o vaxt gəldi. Nəsrin haqlı imiş. Soltan yerində qurcalandı. Gözləri yumulu durub çarpayıdan ayağını salladı. Şətəlləri ayaqları tapdı, geydi. Yerdən gözləri yumulu qalxdı, tualet tərəfə getdi, çatanda dayanıb, geri, Qismətin otağına addımladı. Qapını açdı, gözlərini də elə indi qapı ilə bərabər açdı. Çarpayını boş görüb gözlərini bir az da geniş açdı, yuxusu tamam qaçdı. Yadına dünənki gün düşdü. "Off" - dedi. Keçib Qismətin çarpayısında oturdu, bir də "off" - dedi. Nəsrin özünü yuxuluğa vurub yatağından qalxmasa da, olanları eynilə belə təsəvvür edirdi. "Off" səsini eşidəndə hıçqırmaqdan özünü zorla saxladı, ağlaya-ağlaya:

- Can, anası ölsün Soltanın... - pıçıldadı.

- Allahım, mənə kömək eylə. Allahım...

Nəsrin gözlərini qurulayıb Soltanın yanına getmək istəyəndə, Soltanın qəzəbli səsini eşitdi:

- Bunu istəyirdin, Allahım. İstəyirdin sənə yalvarım. Bilirəm, bu qəza deyildi, cəza idi verdin mənə.

Nəsrin əllərini göyə qaldırıb Allaha yalvardı:

- Allahım, ona fikir vermə, dərd onu çaşdırıb, dərd belini qırıb, ağlını alıb, özün hamıdan yaxşı bilirsən, birliyə, böyüklüyə bağışla onu. - Nəsrin ara vermədən pıçıltı ilə Allaha yalvarırdı. Qismətin otağından Soltan daha qəzəblə dilləndi:

- Hə, indi yalvarıram sənə, ləzzət alırsan, al! Yer üzünü insan adlanan bu məxluqla doldurmusan. Altı milyard insan minlərlə dillərdə sənə dua edir, yalvarır. Tərif deyir, yaltaqlanır. Bu xaravod burulğanında məst olub həzz alırsan, al!

Nəsrin özünü saxlaya bilməyib otağa qaçdı. Soltan Qismətin çarpayısında oturub, əllərini göyə açıb, gözlərini tavana zilləmişdi. Elə bil orada kimi isə görürdü. O gördüyünə qarşı üsyan edirdi. Nəsrin gəlib onun əllərini aşağı saldı:

- Soltan, Soltan, başına dönüm sakit ol! Allahım, keç günahımızdan, bunu mən tənhaya, kimsəsizə bağışla, Allahım. Əstəğfürullah elə, Soltan. - Nəsrin elə qorxmuşdu, bütün bədəni əsirdi, danışa-danışa Soltanı otaqdan çıxarırdı. Nəsrinə elə gəlirdi, iki dalaşanın arasına girmişdi. Soltanı otaqdan çıxardı. Soltan da, Nəsrin də otaqdan çıxan kimi susdular. Dərin nəfəs aldılar. Hər ikisi bir az əvvəl Allahla üz-üzə dayandıqlarını sanırdılar. Qismətin otağından çıxan kimi, yaradanla onların arasına uzaq, çox uzaq, sonsuzluğa kimi uzaq bir məsafə çökmüşdü. Bu məsafənin belə uzaq olduğundan hər ikisi də rahatlandı, dərin bir nəfəs aldı. Dinməz-söyləməz yataq otağına keçdilər.

Günlər keçirdi, cümə axşamları eləməməyi qərara almışdılar, üç, yeddi verdilər. Onsuz da hər gün ev gələn-gedənlə dolu olurdu. Ən çətini hər gecədən səhərə çıxmaq idi. Bu günlər ərzində hər gecə Soltan yataqdan qalxanda, Nəsrin də ayılıb onun ardınca gedirdi. Soltan Qismətin otağına dönəndə Nəsrin onu ayıldırdı. O da tam ayılıb öz otağına qayıdırdı.

İndi də beləcə qayıtdı, yatağa uzandılar, bir müddət susdular. Soltan Nəsrinin saçlarını oxşadı...

- Nəsrin, sən məndən nigaran olma. Bu vərdişdi, bir növ, adətkər olmuşam. Gör, iyirmi bir ildi eyni vaxtda ayılıram. Mənə görə yuxunu qaçırma. Nigaran olma. Yadındadı, mən papiros çəkirdim, həm də çox çəkirdim. Qismət evə gələn gündən tərgitdim. İyirmi bir ildi çəkmirəm. Amma Nəsrin, bu iyirmi bir ilin gecələrinin çoxunda yuxuda papiros çəkə-çəkə deyinirəm "bu zəhrimarı belə çətinliklə tərgitmişdim, yenə başladım?" - deyirəm. İndi bunu da birdən-birə tərgitmək çətin olacaq. Sən məni bağışla.

- Başa düşürəm. Nigaran deyiləm. Bir sən özün-özünlə danışanda qorxuram. O qurban olduğuma ağ olanda qorxuram. Bu yeri-göyü yaradanla nə işin? Bizə övladı verən də o idi, alan da. Şükür böyüklüyünə, bizimki də bu qədərmiş.

- Əvvəla, mən onnan danışmıram, özüm-özümlə danışıram. Bir də axı sən bilmirsən, cicim kənddə namaz qılanda mən burda Allahsızlıqdan məruzələr oxuyurdum. Mən rəhmətlik sosializmin, ölüb getmiş ateizimin elmlər doktoruyam. Yoxdu, yoxdu deyə-deyə gəlib alim olmuşam, indi yoxdu dediyimlə necə danışa bilərəm. Nəsrin yerindən qalxıb oturdu, diqqətlə Soltana baxdı:

- A kişi, vallah məni qorxuzursan. Əstəğfürullah de. Tövbə elə, səndə günah yoxdur, o vaxt belə idi. Hərə bir yannan çörək qazanırdı. Sən də helə. Soltan, bilirəm yandığından nə gəldi danışırsan. Özünü ələ al. Sənə bir həb gətirim at!

- Yox, yox. Səni də yuxudan elədim. Yat, qorxma. Bağışla, mənə fikir vermə. Papiorosu tərgidəndə də bir müddət belə oldum. Qınımdan çıxdım. Yavaş-yavaş özümü qaytarıb qınıma salacam.

Nəsrin Soltanın danışığında bir qarışıqlıq, uyğunsuzluq hiss elədi. "Papiros tərgitmək hara, gözünün ağı-qarası bir oğlunun ölümü hara. Son gecələr evdə tək qalan kimi öz-özünə danışır.

Bu yaxşı əlamət deyil. Sarsılıb, gərək onu psixoloqa göstərəm, vaxtında üstünə düşmək lazımdı" -qərara aldı Nəsrin.

- Yat, sən də yat, ay Soltan. Allah rahatlıq versin.

Səhəri gündən Nəsrin Soltanın hərəkətlərinə, sözlərinə diqqəti artırdı. Gördü evdə çox ehtiyatla yeriyir. Elə bil ayağının altında nəyinsə qalacağından qorxur. Bəzən ətrafına baxıb gülümsəyir. Bir gün Nəsrin xörəyin qaynar suyunu qazana süzüb qabyuyana atmaq istəyəndə Soltan onun qolundan tutdu. Qazanı əlindən aldı. Qabyuyana yanaşıb "bismillah" -dedi, boşaltdı. Nəsrinin ona diqqətlə baxdığını görüb gülümsündü.

- Rəhmətlik nənəm, elə cicim də, qaynar suyu bir yerə atmazdan əvvəl "bismillah" deyərdi. Bizim görmədiklərimiz, görə bilmədiklərimiz var. Odu, suyu qəfil töküb cinlərin uşaqlarının əl-ayağını yandıra bilərik. Bismillah deyəndə onlar eşidir, çəkilir. Yoxsa onlar da bizə ziyan verə bilər.

Nəsrin başını buladı:

- Ateistlərin axırını elə belə gördüm. Ya cindar olurlar, ya da faldar.

- Yaxşı, ay Nəsrin, onun buna nə dəxli? Sən şəhər uşağısan, bilmirsən. Bizim yerlərdə yol yanında qoca bir ağacın kölgəsinə girməmişdən ağaca salam verirlər. Bəlkə orda dincələnlər var. Ağacın kölgəsinə sığınırsan, barı özünə salam ver. Hələ də bizdə elə adamlar var, öz evinə girir, bilir ki, evində heç kəs yoxdu, öz evidi də. Amma qapını açan kimi evinə salam verir.

- Bağışla, Soltançik, bağışla. Ora lap dəlixanadır ki...

Soltan hirsini gizlədə bilmədi:

- Niyə dəlixana olur. Siz bəyəm yerin göbəyisiz! Dünyada boş yer var? Hər qarış torpağın minlərlə sakini var.

Nəsrin səhv etdiyini başa düşdü. Vəziyyətin ciddi olduğunu anladı. Onu sakitləşdirməyə çalışdı.

- Bağışla, zarafat eləmək istədim. Deyəsən mən yumor hissimi də itirmişəm. Sən allah, bağışla, ay Soltan. Bu dərd elə ağır, elə böyükdü, elə qəfil düşdü başımıza, bizi əyib içimizdə olan hər şeyi qatıb-qarışdırıb. Bir göz qırpımında uşağın qırxı çatdı. Allah, qırx gündü balam, oğlum, Qismətim yoxdu...Soltan ona yanaşıb qolunu Nəsrinin boynuna saldı, o yan-bu yana baxıb, xəlvət iş görən adam kimi, xanımının saçına dodaqlarını toxundurdu.

- Can, ay Nəsrin, sən od içində yanırsan, mən də hətərən-pətərən danışıram. Vaxt da elə ağır keçir. Bu uşağın yoxluğu qurtaran şeyə oxşamır. Ondan uzaqlaşmaqdansa, bu yoxluq hər saatla, hər günlə bir az da yaxınlaşır. Bizə kömək olun, ay evdəkilər, çöldəkilər, yerdəkilər, göydəkilər.

Nəsrin təəccüblə ona baxdı:

- Qırxa adamları çağırırlar. Gərək siyahı tutaq.

- Tut, Nəsrin, tut, verin bir-bir zəng etsinlər.

- Bəzilərinə özün gərək zəng edəsən, bilirsən kimləri deyirəm.

- Dəvət edərəm balamın toyuna...

Soltanın hərəkətlərində, danışığında nizamsızlığı, məntiq dolaşıqlığını Nəsrin görürdü, haqlı olaraq ciddi narahatlıq keçirirdi. Soltanın ruhi çaşqınlıq kimi nəzərə çarpan hərəkətləri, danışığı günbəgün daha qabarıq gözə çarpırdı. Nəsrin daha çox qorxuya düşürdü. Axır vaxtlar Soltana başı elə qarışmışdı ki, uşağın qırxının necə keçdiyini də bilmədi. Qəti qərara gəlmişdi ki, qırx çıxan kimi gərək Soltanı həkimə göstərim. Gərək Çiçəklə danışım. Bu işi elə görək ki, onsuz da həssas olan vəziyyəti daha da gərginləşdirməyək. Soltan alim də olsa, ömrünün qırx ilini şəhərdə yaşasa da, Nəsrin onu kəndli, kənd psixologiyası ilə yaşayan insan sayırdı. Ona desə ki, psixiatr həkim səni müalicə etsin, Soltan üçün bu, xüsusilə bu həssas vaxtında "səni dəlixanaya qoyaq" kimi səslənəcək. Və bunun nəticəsini təsəvvür etmək çətindir. Bunun deyiliş tərzini, formasını, xüsusilə Soltan anlaya biləcəyi dilini tapmaq lazım idi. Şəhərin baş psixiatrı Nəsrinin uşaqlıq yoldaşı idi. Soltanı da yaxşı tanıyırdı. Adı Cəfər idi. Nəsrin ona Cefri deyirdi. Burada bir incə məsələ vardı. Gənclik illərində Soltan Nəsrini Cəfərə qısqanırdı. Doğrudu, bu çoxdan olmuşdu, amma nə bilmək olar. Şübhənin doqquz canı var. İllər sonra ürəkdə münbit şərait yaranan kimi cücərib boylana bilər. Sevdiyin qadın, otuz il bir yerdə yaşadığın qadın kimi səni heç kəs tanıya

bilməz. Hətta öz doğma anası da oğlu haqqında o qadının bildiklərindən az bilir. Qadın onu sevəndən sonra zərrə-zərrə araşdırır. Ürəyinin ən qaranlıq yerlərinə baş vurur. Onun düşüncəsinin məntiqini, hərəkətlərinin məntiqini, inkişafını öyrənir. Ona görə də ərinin hərəkətlərindəki ən kiçik uyğunsuzluq qadının gözündən qaçmır. Cümləsində ona aid olmayan, uzlaşmayan bir söz də qadının nəzərindən qaçmır. Ona xəbərdarlıq kimi səslənir.

Yerinə düşməsə də deməliyəm ki, oğlu ev, ailə, övlad sahibi olmuş analar oğul, gəlin üstündə hökmranlıq hissi ilə yaşayanda unutmamalıdırlar onların oğlunu onlardan daha yaxşı tanıyan qadın var. Onlar sizə qalib gələcəklər. Bir təsəlliniz var ki, sonra da onlara gəlinləri qalib gələcək. Amma gəlin ümidi də puça çıxmışdı. İndi Nəsrin xanımın atası, anası, oğlu, hamısı bir yerdə Soltan idi. O da belə. Əlbət ki, Soltanda olan bu dəyişikliyi onun yaşadığı faciənin üstünə atmaq olardı. Bu çox təbii də qəbul edilərdi. Amma Nəsrin xanım özünü aldatmaq istəyən, problemdən qaçan insan deyildi. O bilirdi ki, bu, başqa bir şeydi. Nəsrinin Soltanda görmədiyi bir şeydi. Soltanın həyatının Nəsrin bilməyən qaranlıq qatlarında mürgülü bir şey varmış və doğrudan da bu faciə ona təkan verib, oyadıb. Hər halda, bunu aydınlaşdırmaq lazım idi. Nəsrin yanılmamışdı. Qismətin üçü çox ağır keçmişdi. Səhər tezdən axşam qaranlıq düşənə qədər gələn-gedən əlindən dincəlməyə aman olmadı. Gecə hamı dağılandan sonra ər-arvad əldən düşmüş halda yatağa girdilər. Nəsrini elə həmin an yuxu apardı. Soltan bir müddət o üzə, bu üzə çöndü, nə vaxt yatdığını bilmədi. Amma gecənin bir aləmi həmişəki kimi oyandı. Yuxulu - yuxulu tualetə tərəf getdi, elə gözləri yarımyumulu Qismətin otağına tərəf döndü. Qapını açdı. Qismətin çarpayısının yanında, küncdə üç nəfər oturmuşdu. Onun gəldiyini görüb bir az kənara çəkildilər. Soltana elə gəldi ki, hələ tam ayılmayıb, yuxu görür. Gözlərini açdı. Yox, çarpayının yanındakılar ona baxıb mehribanlıqla gülümsünürdülər. Bu təbəssüm, mehribanlıq Soltanın ürəyindən keçən tükürpədən soyuq vahiməni götürdü. Soltan sakitləşdi. Nəsrini oyatmasın deyə pıçıltı ilə:

- Siz kimsiz? -soruşdu.

- Biz bir ailəyik, kölgəsizlərik.

- Burda neynirsiniz?

- Biz elə əvvəlindən burdayıq.

- Mən sizi görməmişəm.

- Siz nəyi görürsüz ki, biz həmişə burda olmuşuq, bu ev olmayanda da burda idik, ev tikildi, evin altında qalmalı deyildik, evdə yaşadıq. İndi gözünüz açılıb, görən kimi də salamsız-kəlamsız, "siz kimsiz" - deyirsiz.

- Nəsrin sizi görüb qorxacaq.

- O görməyəcək bizi.

- Bu yuxu deyil ki, siz yəni, doğrudan varsız?

- Əlbət ki, sən ateistsən, sizin üçün görmədiyiniz şey yoxdur deməkdir.

- Danışan hansınızdı, mən ayıra bilmirəm.

Bunlar işıqdan yaranmış insan siluetləri idi. Çarpayının baş tərəfində dayanan irəli yeridi.

- Mənəm - dedi.

- Sənin heç ayağının səsi də gəlmir.

- Bizdən işıq da, kölgə də sərbəst keçib gedə bilir. Biz nuruq. Axı bizim anamız, atamız Adəmlə Həvva kimi tamahı ucundan dünya meyvəsi yeməyib. Görünməzlərimiz görünməyə başlamayıb.

- Yəni belə şeylər var dünyada?

- Var. Sənin gözün açılıb, görürsən. Görməyənlər elə bilir dünya bunlar üçün yaranıb. Dünyada boş yer yoxdu. Ağıllı insanların çoxu görməsə də fəhmi ilə bilir ki, həyatda başqaları da var. Ağaca, oturmaq istədiyi ağac kölgəsinə salam verir. Bəzisi hətta öz evinə girəndə evə salam verir. Nənən, baban sənə deməyib ki, gecə çölə qaynar su, od atmazlar. Atası olsan, əvvəl "bismillah" de, səs çıxart, su, od düşən yerdən çəkilsinlər.

- Mən bunları eşitmişdim. Elə bilirdim boş şeydi.

- Ona görə də deyirdin Allah yoxdu, olsaydı görən olardı. Siz heç ətrafınızdakıları görmürsünüz.

- Mənim oğlum ölüb, Qismət.

- Hə...Qismət. Şən oğlan idi. Elə oyunlar çıxardırdı, elə tamaşalar göstərirdi bizə. Hey gülürdük.

- O sizi görürdü?

- Yox. Biz onu görürdük. İnsanlar evdə tək olanda elə bilirlər onları görən yoxdu. Əsl üzləri açılır, elə oyunlar çıxarırlar.

- Qismətim, oğlum öldü.

- Ölmədi, azad oldu.

- Nəydən azad oldu?

- Cəzadan.

- Hansı cəzadan?

- Sizin hər birinizin içində bizim kimi işıqlı bir nur var. Əslində, adam içinizdəki o nurdu. Siz ona ruh da deyirsiniz. O zərif ruha bu bədəni, piyi, əti, suyu, qanı yükləyirsiniz. Neçə kilosan?

- Yetmiş iki idim. İndi bilmirəm.

- Sənin zərif ruhun yetmiş iki kilonu necə daşıyır. Yazıq, yalnız bədən yatanda yazıq ruh qaçıb bir az dincəlir. Oğlun yükdən azad olub. Xoşbəxtdi.

- Mən onu görə bilərəm?

- O bizim işimiz deyil. Biz, adətən, heç bir işə qarışmırıq.

- Deyirsən Qismət sağdı...

- Ruh ölmür axı.

Nəsrin yuxudan ayılıb yanında Soltanı görmədi. Tez ayağa qalxdı. Qismətin otağına qaçdı. Qapı açıq idi. Soltan Qismətin çarpayısında uzanmışdı.

- Soltan, ay Soltan, oyan, canım. Oyan, ay Soltan.

Soltan oyandı, gözünü açmadan:

- Hı...elə gözəl yuxu görürdüm- dedi. Gözünü açdı, otağın küncündə həmin üç nəfər yenə dayanmışdı. Ona baxıb gülümsəyirdi: - Siz burdasız? - dedi. Üçlərdən biri ona əli ilə sus işarəsi elədi.

- Nəsrin qorxar, ehtiyatlı ol.

- Hə... - dedi, Nəsrinə baxdı.

- Hələ ayılmamısan?

- Yox, ayıldım, gedək.

- Xeyir ola, yuxuda kimi görmüşdün ki, mənə "siz" deyirdin?

- Oğlumuzu gördüm, gördüm ölməyib deyillər.

- Of, of, of, ay kişi, evimiz elə yıxılıb ki, bir də dikələn deyil. Gəl, gəl görək. Sən alim adamsan. Gərək reallıqla barışasan.

- Olmaz mənim kimi alimdən, ölmüş sosializmin ölüb çürümüş ideologiyasından yazıb, elmlər doktoru olmuş bir müqəvvayam.

- Yaxşı, sən Allah bəsdir. Başqaları kimi işini o, bu yazmayıb ki. Özün çesni yazmısan, müdafiə eləmisən. Yuxuda nə görmüşdün?

- Hə...yadımdan çıxdı. Yadıma düşəndə danışaram.

Soltan gördü ki, kölgəsizlərdən böyüyü onun yanı ilə gedir - hara belə - dedi.

Nəsrin ayaq saxladı, ona diqqətlə baxdı:

- Necə yəni hara? Gedək yataq. Səhərə hələ xeyli var.

Nəsrinin şübhəsinin əsası o gecə qoyuldu. Soltana diqqəti artırdı. Akademiyaya zəng edib institut direktoru ilə danışdı. Soltanın yorğun, çaşqın olduğunu dedi. Qırx çıxandan sonra da Soltanı bir müddət işə buraxmaq istəmədiyini dedi. Dedilər ki, Akademiyanın binası əsaslı təmir olunur. Toz-torpaq içindəyik. Gəlməsinə ehtiyac yoxdu. Maaş vaxtı-vaxtında hesabına keçiriləcək.

Vacib iş olsa, zəng edərik. Biz bilirik ki, elmi kəşf etmək üçün Soltan müəllimin evində şərait burdan yaxşıdır -dedilər. Nəsrin bilmədi "kəşf" məsələsi zarafat idi, yoxsa sataşmaq idi. Ürəyində narahatlıq qalsa da, üstünü vurmamağı, Soltana da bu barədə deməməyi qərara aldı.

Soltan son günlər kölgəsizlərə elə öyrəşmişdi, görməyəndə darıxırdı, xüsusilə böyüyünü. Ailə başçısı da həmişə Soltanın yanında idi. Tək olan kimi söhbətə başlayırdılar. İndi də Soltan hava almağa həyətə düşmüşdü. Həyətdə yaşlılardan heç kəsin olmaması onu sevindirdi. Taxta oturacaq vardı. Soltan diqqətlə baxdı, oturacaq bulaşıq deyildi. Əlini yanındakı boş yerə vurdu, kölgəsizə oturmağa yer göstərdi.

- Qonşu, bu bədənin insana yük olması mənim üçün qaranlıq qaldı.

- Qonşu sözündən xoşum gəldi. Sən məni qəbul eləyirsən, deməli, inkişaf var.

- Sən mənə başa sal. Axı insan elə o bədənlə dünyaya gəlir.

- Dünyaya yox, anadan doğulur. Dünyaya anadan olandan doqquz ay əvvəl gəlib. Bir zərrə nur kimi. Sonra doqquz ay ona bədən geyindirirlər, yükləyirlər, dünya üçün hazırlayırlar. Əvvəl anasından yeyib bədəninə oturur. Nəinki bədəni gəzdirməyi, yeməyini də tapmağı boynuna çəkir. İnsan şəklinə düşür, dünyaya gəlir. Dünyaya gələn kimi necə ağır bir yükün altına girdiyini duyub ağlayır.

- Bəs niyə bədən çıxıb qaçmayır?

- Adəmi, Həvvanı yoldan çıxardan tamahdan onun övladlarında da var. Tamah qoymur. Sonra da Allah bu bədəni onların ruhuna zindan yaradıb. İnsan cəza çəkib təmizə çıxmalıdı. Cəza evindən qaçanı daha ağır cəza gözləyir.

- İnana bilmirəm, qonşu, insan ruhuyla, bədəniylə bir yerdə insandı. Bədən ona yük ola bilməz.

- Elə isə, niyə insan doğulan kimi yerimir, yüyürmür... aylarla sürünür, iməkləyir. Sonra səndələyə-səndələyə birtəhər bədənini qaldırır.

- Danışmağı da bacarmır.

- Xeyr, körpə doğulan kimi ağlayır, az sonra gülür, danışır - bizim kimi. Körpələr bizi görür, bizimlə danışır. Onlar tək qalanda biz onları əyləndiririk. Doğulduğu ailənin, xalqın dilini öyrənmək üçün ona xeyli vaxt lazım olur - bir an susdu.

- Nə oldu?

- Pəncərədən Nəsrin xanım sənə baxır.

Soltan dönüb pəncərəyə baxdı. Nəsrin ona baxırdı. Soltan ona əl eləyib döndü, söhbətə başlamaq istəyəndə kölgəsiz ona susmaq işarəsi verdi.

- Niyə susum, indi nə olub?

- O xanım məni görmür axı. Elə bilər ki, öz-özünlə danışırsan. Bu sizdə yaxşı əlamət deyil.

- Hə adamı dəli sayarlar. Başqa cür necə danışım?

- Bizim kimi.

- Necə?

- Diqqətlə bax mənə, üzümə bax.

Soltan fikir verdi, birdən hiss etdi ki, onun ağzı açılmır, dodaqlar tərpənmir. Amma danışmamış eşidilir.

- Bu necə olur?

- Sənin ruhunun gözü ilə yanaşı, qulaqları da açılıb. Sən mənim fikrimi eşidirsən. Sən də ürəyində düşünərək sual-cavab eləsən, biz eşidəcəyik. Yoxsa sənin başına çox işlər gələ bilər. İnsanlar dəli olmur ki, onlar ürəyindən keçənləri son dərəcə səmimi danışır və eləyir. Ətrafdakılar bu səmimiyyəti onlara bağışlaya bilmir. Aparıb salırlar dəlixanaya.

- İndi Nəsrin mənim haqqımda...

- Elə bilir ki, sarsılmısan, xəstəliyə doğru gedirsən.

- Bəlkə Nəsrinə də görükəsiz. Onu hazırlayaram, sizdən qorxmaz.

- Yox, lap biz istəsək də, o bizi görə bilməz, onun ruhunun gözü-qulağı açıq deyil. Bizim barədə ona heç danışma.

- Nəsrinə nə olar?

- Heç nə. Bir az qorxar. Amma səni aparıb qoyarlar dəlixanaya.

- Niyə?

- İnsanlar görmədiyinə inanmır, belə şeyləri deyənləri də ya dəli sayır, ya da yalançı.

- Belə getsə, məndən də qorxmağa başlayacaq.

Pəncərədən baxan Nəsrin Soltanın həyətdə tək olduğunu görüb əvvəl ona yazığı gəldi. Sonra diqqətlə baxanda onun özü-özü ilə danışdığını hiss etdi. Çiçəyə deməyi qərara aldı. Telefonu yığdı.

- Alo, Çiçək. Təksən? Lap yaxşı, bir bizə keç.

Dərhal qapının zəngi çalındı. Nəsrin qapını açdı. Çiçək elə danışa-danışa içəri girdi. Öpüşdü, görüşdü.

- Ay qız, vallah, Nəsrin, məndən olsa, sənin yanından bir an da əl çəkmərəm. Amma fikirləşirəm bu qədər gələn-gedən, ayaq altında qalmısız. Mən də bir yandan səni bezdirməyim. Soltan qədeş necədi? Evdədi?

- Yox - Çiçəyi pəncərənin qabağına gətirdi -odu e... Təkcə oturub.

- Darıxır da...

- Yox, ay Çiçək, qorxuram qara günlərim hələ bundan sonra başlaya...

- Niyə, nə olub?

- Diqqətlə bax. Öz-özünə danışır. Axır vaxtlar evdə də belədi, dolaşıq sözlər deyir.

- A...a...dönüb bizə baxır.- Çiçək pəncərədən çəkildi.

Soltan dönüb Nəsrinə əl yellədi - a...a.., Nəsrin bacı, o, hardan bildi ki, sən ona baxırsan. Elə bil səni görürmüş.

- Görür, Çiçək. Deyirəm da...

- Burda nə var ki. Baxışını hiss eləyib. Məhəbbətdəndi da... Ay qız, onun yerinə kim olsa havalanardı.

- Deyirəm bəlkə Cəfərə göstərək.

- Onda da dedin. Nə adla aparaq? İşi daha da çətinə salarıq.

- Bəlkə sən gedib məsləhətləşəsən.

- Ceflə?

- Hə?

- Deməz ki, Nəsrin, Soltan özü niyə gəlməyib.

- Deməz. Başımıza gələni bilir. Yasa da gəlmişdi. Soltanı ora aparmağa bəhanə tapsın.

- Bəlkə mən Qasançikə deyim.

- Yox, yox, ərin bilməsin. Ağzından söz qaçırar, kişi biabır olar. Ümumiyyətlə, bu mənim təşəbbüsüm olmasın. Cəfərə de ki, bir yol fikirləşsin, tapsın.

Soltan dönüb pəncərədən baxan Nəsrinə əl yelləyəndən sonra ürəyində danışmağı qərara aldı; düşündü.

- Düz deyirsən, dil danışanda baş, əl ona fikri izah etmək üçün köməkçi olur. Onda da adam kənardan özü ilə danışan dəli kimi görünür.

- Ay maşallah, öyrəndin. İnsanlar hamısı ürəyində danışır. Hamı ona ehtiyac duyur. Söz halını almamış fikir bəşəri dildir. Ən doğru fikirdi. Ruhun dilidi. Həmin fikir gəlib boğazda səsə, dildə, dodaqda sözə dönəndə bir xalqın dilinə dönür. Fikir içəridə çox təmiz və səmimi olur. Boğaza, dilə, dodağa gəlincə həyata yaxınlaşır. Fikrin həyatla uzlaşmadığını görüb dil-dodaq ruhun düşündüyünü bədənin, başın xeyrinə redaktə edir, bəzən isə bədəni, başı salamat olsun deyə, fikrin tərsini sözə çevirib deyir.

- Niyə axı bir şeyi fikirləşəsən, başqa şeyi deyəsən?

- Cəmiyyətdə hamı, elə sən özün də belə danışırdın.

- İndi yox!

- Əlbət ki, indi itirəcəyin şey qalmayıb. Qalanlar da hələlik sənə əhəmiyyətsiz görünür.

- Niyə, Nəsrin var!

- Nəsrini sən sevməmisən axı.

- Sevmişəm.

- Yox, sən rahatlığı sevmisən. Nəsrin rahat qadındı. Evi də rahatdı, atası, anası da rahat idi... zəmanən də rahat idi, iş yerin də, vəzifən də. Oğlun vardı, balan, canın. Onlara görə ağzında fikirlərini dəyişdirib danışırdın. Sap qırıldı, yuxarıda sadaladığın mirvarilər dağıldı. Bundan sonra da düşündüyünü deməsən, sənin ruhun bu bədənindən azad olanda daha ağır cəza olacaq. Bəlkə ruhuna fil bədəni yükləyəcəklər. Sən fili də daşıyacaqsan, üstündəki yükü də. Sus, gəlir.

- Kim gəlir?

- Nəsrin.

Nəsrin arxadan ona yanaşıb əllərini onun çiyinlərinə qoydu.

- Tək niyə oturmusan burda? Soyuq olar. Gedək evə.

- Bu boyda binada bir adam yoxdu ki, gələ oturub söhbət eləyəsən.

- Onları qınama, ay Soltan. Başımıza gələni hamı bilir. Yanına gəlib sənə nə desinlər?! Sən özünü onların yerinə qoy. Çölə çıxmaq istəyəni də səni görüb çıxmır. Sənə hansı söznən təsəlli vermək olar?

- Haqlısan, Nəsrin, haqlısan. Gedək evə. - "Gedək evə" sözü kölgəsizə aid idi.

Soltan müəllim indi pəncərənin qabağında dayanıb həyətə baxırdı. Bir az əvvəl oturduğu yerdə bir dəstə həyət adamı yığışmışdı. Kimi nərd oynayırdı, kimi də domino. Deyib-gülürdülər.

Soltan düşündü ki, "hə də...burdan baxıb, görüb ətrafda ins-cins yoxdu, amma mən danışıram. Yazıq Nəsrin. Ağlına nə desən gələr.“ Yanında kölgəsizi gördü.

- Düz fikirləşirsən - bunu kölgəsiz dedi - çağır söhbət elə.

- Deyərəm ki, qorxma, elə şey yoxdu.

- Yox, elə desən daha da çox şübhələnər. De ki, belə şeylər olan şeydi. İnsan həmişə düşünür. Yəni öz-özüylə danışır, ürəyində danışır. Bəzən yuxuda danışan kimi səsi bərkdən çıxır. Xüsusilə belə gərgin vaxtlarda. Olan şeydi. Amma keçib gedəcək. De ki, məndə də olur, bəzən səndə də olur.

- Onda olmur axı. Görməmişəm.

- İnsanların hamısı öz-özü ilə danışır, inanacaq.

- Nəsrin!

- Hay can!

- Xeyir ola, arvad. Mənə "can" deyirsən.

- Sənə demirəm ey...Səsin Qismətin səsinə oxşayır. Səsi eşidən kimi ixtiyarsız can sözü dilimdən çıxır.

- Dedim, belə can deməkdə bəlkə könlündən başqa...

Nəsrin gəlib ona yanaşır. Sözünü kəsir:

- Düz deyiblər, kişilərin beynində ancaq o məsələdi. Gör nə deyir, özü də bu gündə.

- Ay qız, zarafat elədim. Deyirəm ürəkdən ürəyə yol var ey...bayaq oturmuşam həyətdə, xəyalımda sənnən danışırdım, dönüb pəncərəyə baxdım, gördüm ordasan. Görünür, biotoklar məsələsi doğrudu.

- Düzü, Soltan, sən dönüb baxanda mən də çaşdım. Elə bil məni görürsənmiş. Baxan kimi əl elədin.

- Məndə elə şeylər olur, daha doğrusu, lap uşaq vaxtlarımda olardı. Yeriyən adamın yıxılacağını bir an əvvəl görürdüm, bir an sonra həmin adam elə mənim gördüyüm kimi yıxılırdı.

- Soltan, sən bunu doğrudan deyirsən? Yoxsa zarafatdı?

- Nə zarafat. Lap balaca olardım. Yəni üç yaşım olarmış. Anamın qucağında olmuşam. Görürəm anamın gözlərindən qan axır. Barmaqlarımla göz yaşı əvəzinə axan qanı silirəm, yenə axır. Gözünü sil, ağlama. Sonra bildim ki, o vaxtlar atam rəhmətə gedibmiş. Fikirləşdim, anam içində qan ağlayırmış.

- Bu dəhşətdi ki, sən bunu mənə heç danışmamısan.

- Hə, elə həmin vaxtda sərçə boyda quşlar görürdüm. Hər tərəfdə dörd qanadı vardı, hər qanadı bir rəngdə. Aradan əlli altı il keçib, hələ də gözüm o quşları axtarır.

- Ay Soltan, bəlkə bunları sən yuxuda-zadda görmüsən?

- Yox, arada elə mən də şübhələnmişdim. İnstituta daxil olan ili kənddə idim, cicimə dedim: "yadımdadı, qucağında idim, gözündən qan axırdı". Əvvəl boynuna almadı, sonra dedi hə... qızdırman vardı. Ağlayırdın ki, gözlərini sil, qan axır. Atan təzə rəhmətə getmişdi- dedi. Onda bildim ki, bunlar hamısı olub. Olub, keçib gedib. Yorulmuşam, gedim bir az uzanım.

Soltan yataq otağına keçən kimi Nəsrin özünü telefona yetirdi. Nömrəni yığdı. Mətbəxə keçdi.

- Alo...Çiçi. Soltan mənə elə şeylər danışdı, tüklərim biz-biz oldu. Yox, uşaq vaxtından. Telefon söhbəti deyil. Bunları da Cəfərin bilməyinin xeyri olar. Gəl, amma zəngi basma, qapını açıq qoyuram. Yatmağa keçib, oyatmayaq. Gəl elə indi...

Nəsringilin yaşadığı bina Bakıda sovet dövründə tikilən ən gözəl yaşayış binası idi. Sahildə bütün otaqları dənizə baxırdı. Əlbət ki, indiki binalar daha gözəl, daha geniş tikilir. Unutmayın ki, o bina əlli il bundan əvvəl tikilib. Həsən o dövrün ən məşhur neft mühəndisinin oğlu idi. Kişinin bir qızı, bir oğlu vardı. Qız bir idmançı rus oğlana vurulmuşdu. Atası razılıq vermirdi. Oğlan üzgüçülük üzrə respublika çempionu, SSRİ üzrə yarışda gümüş medal almışdı. Leninqrad yığması ilə danışıb ora köçürdü. Son günəcən hər şeyi xəlvət görmüşdü. Oğlan Həsənlə dostluq edirdi, köçməyə iki gün qalmış Nərgizə dedi ki, qoy Qasançikə deyim bilsin ki, səni də aparıram. Nərgiz qəti etiraz etdi:

- Nə danışırsan, olmaz! Qardaş mənimdi, tanıyıram ağzında söz qalan deyil. Bir saatdan sonra papamın ovucunda olacaq. Valentin, bax ha...Desən, əlini məndən üz.

İki gündən sonra yoxa çıxdılar.

Bir həftə sonra Şahsuvar Mərdanlı teleqram aldı. Ata, biz Valentinlə evlənmişik, xoşbəxtik, nigaran qalmayın. Axtarmayın.

Qız yoxa çıxandan, onsuz da xəstəhal olan Sənəm xanım yatağa düşmüşdü. Şahsuvar teleqramı gətirib Sənəmin yanında stolun üstünə çırpdı.

- Bu da sənin tərbiyə verdiyin qız. Papağını şök qoy. Aşığın alçı gəlib. Arvad qeyrətin mübarək.

Sənəm xanım ay yarımdan sonra rəhmətə getdi. Yalançı deyənlər olsun, guya Sənəmin ölümünə əsas səbəb bu hadisə olub. Deyilənə görə, arvad əri ilə küsülü ölüb. Deyirlər də...

Amma bir şey dəqiqdir ki, Şahsuvar qəzəblənib böyük vəzifədə olan ixtiyar sahibi bir dostunun yanına gedib. Onları tapdırıb gətirtməyi xahiş edib. Dostu onu diqqətlə dinləyib:

- Sən bunu başqa adama deməmisən ki?

- Yox.

- Otur. Yaxşı ki, deməmisən.

- Mümkün deyil? - Şahsuvar elə bil yuxudan ayıldı:

- Sən bilirsən ki, mən bu vəzifədən başqa ayrı bir idarədən də maaş alıram.

- Təxminən...

- Bilmirsənsə, bil!

- Sənin ağzın deyəni qulağın eşidincə, neçə yerdə eşidirlər -o, bir əli ilə tavanı, döşəməni, stolu, stulları göstərdi.

- Qaçırdıb ey qızı.

- Qız sənə yazıb ki, xoşbəxtik. Şübhəsiz, sən oğlanın rus olduğuna etiraz etmirsən. Rus bizim böyük qardaşımızdır. Müəllifin adını demiyəcəm. Bir şairin "atalar sözü" kimi səslənmiş iki misrası var:

Kimin arvadı rusdu

Onun işi dürüstdü - eşitmisən?

- Hə, eşitmişəm.

- Sən bu söhbəti eləməmisən. Mən də eşitməmişəm.

- Yəni heç bir...

Dostu qəsdən onun sözünü tələm-tələsik kəsdi:

- Şahsuvar, səni təbrik edirəm, xoşbəxt olsunlar. Səməd Vurğun gözəl deyib:

Dağ olsan da dağa arxalanmasan,

Didər səni torpaq kimi küləklər.

Sən böyük bir xalqla qohum olmusan.

Sənəmdən bir-iki ay sonra da kişi rəhmətə getdi. Günahı deyənlərin boynuna, guya kişini o dərd içəridən yeyib öldürüb. Qorxusundan heç xəstəlikdən də şikayət eləməmişdi. Bir gecə yatıb səhər oyanmamışdı. Kim bilir, yuxuda nə görüb ürəyi dözməyib. Dərdini də, sirrini də özü ilə aparıb o dünyaya. Bu qohumluğun keyfini Qasançiklə Çiçi çəkirdi. Hər yay on beş gün, bəzən bir ay gedib qalırlar Leninqradda, indiki Sankt-Peterburqda. Axşamdan bəri Çiçək xanım evə-eşiyə sığmırdı. Ürəyini söz deşir, Həsənə deməyə qorxur. Nəsrin xanıma söz verib. Həsən də hiss eləyib ki, Çiçəkdə söz var. Aclığı yadından çıxıb. Həsənə çörək, su vermə, xəbər ver, xoşbəxt olacaq.

- Çiçi, sən bilirsən ki, mən ağızdan möhkəməm.

- A...a...a, bilirəm, bilirəm, elə ona görə demirəm da...

- Sataşırsan mənə?

- Yox, niyə, deyirlər hardasa bir oğlun var, gör indiyə kimi bir dəfə ağzından qaçırmısan? - dedi.

- Çiçi, kim deyir, yalan deyir, bilirlər uşağımız olmur, uydururlar da...

- Desinlər, heç vecimə deyil. Qasançik, kasıb doğma anadan, varlı ögey ana şirin olur. Qoy bir az böyüsün, bir maşın alıb verərəm, olaram "Çiçi mama" - Bu yerini ürəyində düşündü. O da Qismət kimi çırpar özünü qayaya, olar "puçu bala" -düşündü. Həsənə baxıb gülümsündü.

- Vallah, Çiçi, gözəl olduğun qədər də ağıllısan. Heç sultanlara da belə gözəl qismət olmur.

- Sultan demə, elə bilərlər qonşu Sultandan danışırsan.

- Hə, nə oldu. De, səndə söz var. Soltan ha...Kasıb itinin adını Gümüş qoyar. Ağzına gələni yazıb olub elmlər doktoru.

-İnsafın olsun, deyə bilmərəm içində nə var, hər nə yazıb, özü yazıb. Adam var onun üçün yazılan doktorluq işini oxumayıb, akademik olub.

- Çiçi, bəlkə bir adam tapaq, mənə də bir doktorluq yazsın. Pulunu verərəm.

- Nəyinə lazımdı. Sənətkarsan. Torpağı iyləyəndə neftin harda, nə qədər olduğunu bilirsən.

- Nə bilim. İndi ölkənin pulu artır. Bir azdan ölkəyə ağıllı adamlar, alimlər də lazım olar.

- A kişi, pulun var, gətir xərcləyək. Biz o vaxtı görmərik.

- Çiçi, mazgimi xarab eləmə, de görüm bunlarda nə var, nə olub?

Çiçək səsini pıçıltıya qədər endirdi:

- Soltan qədeş xərəbliyib.

- Neyləyir ki...

- Dinmir, danışmır, xəlvətə düşən kimi başlayır öz-özü ilə danışmağa.

- Hı...nə bilmişdin. Kişinin o boyda oğlu dünən vardı, bu gün yoxdu. Ağır işdi. Keçər.

- Yox ey...Bunda əvvəllər də deyir belə şeylər olub.

- Onu kim deyir?

- Nəsrin.

- Nəsrin billə-bilə ona ərə gedib.

- Yox, Nəsrin də təzə bilib. Özü danışıb.

- Həkimə aparmaq lazımdı.

- Gərək başqa bir bəhanə tapaq. Yoxsa gəl səni aparaq psixiatra göstərək desək, sağlam adam dəli olar. Özü də bu vəziyyətdə.

- Çiçi, məni bu işə qatma. Onsuz da məndən xoşu gəlmir. Allah bilir nə fikirləşər.

- Yox, Nəsrin xahiş edib ki, mən gedim Cefri ilə məsləhətləşim.

- Vot tibe na!!! Yaxşı bəhanə tapmısan Cəfərin yanına getməyə.

- Ha-ha-ha - gülüb Həsəni qucaqlayır, - Qasançik, məni qısqanırsan?

- Da neet! Əşi, bu Cəfər nə belə matah olub. Camaatın əlli faizi dəlidi, iyirmi beş faizi də özünü dəliliyə vurub, nöşün ki, sərfəlidi. Bütün ölkə qalan o iyirmi beş faiz ağıllının çiynində gedir.

- Aaa... Sən nə danışırsan!

- Canın üçün, Çiçi, Cəfər bu gün özünü prezidentliyə namizəd versə, keçər və bu ölkədə dəlixana qanunlarını həyata keçirər. Xoşbəxtlikdən, Cəfər millət naminə gül kimi dəlixana azadlığını, prezident əsarətinə dəyişməz.

- Vay, vay, indi tapdım səni zavadit eləməyin yolunu. Qısqanclığından milləti dəli elədin, Cefrini prezident. Bu ölkədə ikicə ağıllı qaldı, biri sən, biri də mən.

- Yox, üç, biri də Nəsrin.

- Aha sözə gəlirsən, malades.

Nəsrin xahiş elədi ki, sənə deməyim, ağzı boşun birisən. Qonşuyuq, rəfiqəyik...

- Ağzı boş ha. Olaram da. Məclisdə oturanda onun ərinin əvəzinə də, öz əvəzimə də danışıram. Oluram ağzı boş. Cefri, Cefri, bu Cəfər nə vaxtdan Cefri olub.

- Əşi, neyniyək, sən özün də onu görəndə març-març öpüşürsən.

- Tfu, neynim ey, gəlir adamın üstünə... neynim. Vot tibe na...

Gecənin bir aləmində Soltanın ayılıb yataqda oturduğunu Nəsrin hiss elədi. Qəsdən qımıldanmadı. Soltan da oturduğu yerdə qalmışdı.

- Çox qaranlıqdı -Soltan pıçıldadı.

- Gecədi da, elə çox qaranlıq da deyil - Nəsrin yerindən qalxıb stolüstü lampanı yandırdı. Soltana baxdı, heyrətləndi. Soltan gözüyumulu oturmuşdu -gözünü yumub oturmusan, özün də deyirsən qaranlıqdı.

- Hə? - Soltan gözlərini açdı - doğrudan ey ...deyirəm axı. Həm işıqdı, həm də qaranlıq. Çarpayıdan düşə bilmirdim.

Nəsrinin canından üşütmə keçdi.

- Bismillah - dedi.

- Nə olub, Nəsrin? Səni yuxudan elədim?

- Yox, yox. Nə lazımdı, nə gətirim sənə.

- Heç nə. Özüm gedirəm. Sən yat.

- Yox, mən də gəlirəm.

- Sən rahat yat. Bəlkə mən elə Qismətin yerində yatdım. Sən dincəl.

Nəsrin istədi etiraz etsin, elə həmin an Soltanın başqa otaqda yatmasının ürəyincə olduğunu duydu.

- Nə deyirəm, yatırsan - yat.

Az sonra Soltanın qonşu otaqdan pıçıltılı səsini eşitdi.

- Salaməleyküm.

Nəsrin əllərini göyə qaldırıb, ürəyində dua etdi:

- Allahım, sən bizi el gülüncü eləmə. Ağlımızı alıb bizi dillərə salma, Allahım.

Nəsrinin gözünə yuxu getmədi, qorxurdu, amma ondan daha güclü bir hiss, maraq maqnit kimi onu Qismətin otağına çəkirdi. Soltan orada neyləyir? Yatıbmı? Yox, yatırdısa elə burda yatardı. Çarpayısından endi. Səs salmasın deyə şətəl də geymədi. Ayaqyalın, barmaqlarının ucunda, balerina kimi səssiz-səmirsiz gedirdi. Əslində, getmək istəmirdi, onu maraq, həyəcan ovcunda aparırdı. Elə bil ayaqları döşəməyə toxunmurdu. Qapı azca aralı qalmışdı. İçəri aydın görünürdü. Soltan çarpayıda bardaş qurub oturmuşdu. Gözlərini otağın küncünə zilləmişdi. Elə bil kimisə maraqla dinləyirdi. İçərini daha yaxşı görsün deyə qapını bir az da araladı. Həmişəki boş otaqdı. Soltanla söhbət eləyən kölgəsiz ona Nəsrinin qapının arasından baxdığını dedi. Soltan üzünü döndərmədən:

- Gəl içəri, gəl, Nəsrin - ürəyindən keçdi ki, burada kölgəsizlər yaşadığını, onları gördüyünü Nəsrinə desin - Gəl otur burda...

- Demə! Qorxacaq, dözməz, ürəyi dayana bilər - kölgəsiz dedi.

Soltan sözü dəyişdi:

- Gəl, burda Qismətin ətri qalıb, havası qalıb. Havam çatışmayanda bura mənə kömək eliyir, dərman kimi kömək eliyir.

Nəsrin gəlib onun boynunu qucaqladı. Sonra bir əli ilə oğlunun yatdığı yeri, çarpayını sığalladı. Az qala deyəcəkdi ki, "uşağa mane olma, qoy yatsın", özünü yığışdırdı. Soltanın qoluna girib çarpayıdan endirdi.

- Gəl, gəl gedək yerimizə. Allah bizə dözüm, səbr versin. Allah ruhumuza dinclik, gözümüzə yuxu versin. Gedək, Soltan.

- Özünü ələ al, bizim burada olduğumuzdan Nəsrini şübhələndirmə. Qorxudan evdən qaça bilər, havalanar. - Bunları kölgəsiz deyirdi, amma tam əmin deyildi, bu içində eşitdiyi özünün ürəyində düşündüyüdü, yoxsa kölgəsizin ona dediklərıdi.

- Gedək, ay Nəsrin, gedək. Deyəsən mən sənə lap zülm eliyirəm.

- Niyə elə deyirsən? Allah eləməsin, ay Soltan, sənsiz bir günüm olmasın, Soltanım mənim.

Çiçək zəng edib vədə aldı. Cəfərlə görüşdü. Sonra bütün günü o görüşün təsiri altında buludların üstündə uçdu. Cəfərin Çiçəyə dediyi komplimentlərdə sözlərin parıltısı göz qamaşdırırdı. Elə cümlələr qururdu, elə bəlağətli sözlər deyirdi, heç bir qadın ürəyi ona biganə qala bilməzdi. O da ola yerişi kəpənək uçuşu kimi rəqs edən Çiçək ola. Çiçəyi dəlixananın seçilən-sayılan qadınlarının palatasına apardı. Çiçək xanımı Şah İsmayıl Xətai nəslindən qalmış yeganə nümayəndə kimi təqdim etdi. Zadəgan dəli xanımlardan bir neçəsi şahzadə Çiçək xanımın əlini öpüb xoşbəxt oldu. O gün, o saatlarda Çiçək xanım da onlardan daha çox xoşbəxt idi. Söhbətə başladılar. Nəsrinə görə hər ikisi də xeyli kədərləndi.

- Çiçi, Qasançik neyləyir?

- Qasançiki tanımırsan, Cef, yerin altında da, üstündə də, hər yerdə olur - evdən başqa.

- Eh, bu kişilər. Heç bir kişi öz xanımı kimi bir xəzinənin qədrini-qiymətini bilmir. Hara getsə sənin ayağına gələcək, Çiçi.

- Elədir, hara gedə bilər, ipi əlimdədir.

- Nəsrin xanım yəqin ki, sarsılıb - Cəfər mətləbə keçdi.

- Əlbət ki, sarsılıb.

- Yasa getmişdim. Onu görə bilmədim. Soltana təsəlli verdim, əlimizdən nə gəlir.

- Allah səbr versin onlara, ağır dərddi. Bir olub belə olunca, mənim kimi heç olmamağı yaxşıdı.

- Sənin olar, inşallah. Rəhmətlik Xəlilin neçə illər sonra uşaqları oldu.

- Ya qismət. Hə, Qismət demiş, mən elə Soltana görə gəlmişəm.

Olanları Cəfərə danışdı.

Cəfər Soltanı gətirmək üçün bəhanəni elə həmin an tapdı.

- Çiçi, siz deyin ki, Nəsrin bu boyda stress keçirib, sarsılıb. Srıv ola bilər. Həkimə aparmaq, bir məşhur psixiatrdan məsləhət almaq lazımdır. Əlbət ki, onu Soltan gətirməlidir. Məşhur psixiatrı hardan alacaq, əlbət ki, mənim yanıma gətirəcək. Mən adamları soyundurub baxmıram ki. Söhbət zamanı görəcəyəm nə var, nə yox. Gəlsinlər.

Həsən də boş qalmamışdı. Bu vaxt ərzində Soltanın xəstəliyini bütün instituta, bütün akademiyaya çatdırdı. Dedi günbəgün xəstəliyi artır, aqressivləşir. Gecələr yatmır, öz-özünə danışır.

Soltan evdə darıxıb aşağı endi. İstədi dənizkənarı parka keçsin. Maşınların sıx və sürətli hərəkəti gözünü qorxutdu. Yolun o üzünə keçmək ona ağır bir iş kimi göründü. "Bəlkə dağüstü parka gedən fünkulyora minim. Şəhidlər Xiyabanına qalxım?! Yenə məzarlar" - düşündü. Bu vaxt yanında taksi dayandı:

- Dayı, taksi lazımdı?

Soltan elə bil yuxudan ayıldı:

- Hə, bala -taksiyə oturdu.

- Dayı, hara gedək?

- Akademiyaya -maşın getdikcə Soltan şəhərə hardansa təzə gəlmiş adam kimi baxırdı. Bağların, evlərin əksəriyyəti hasara alınmışdı, təmir olunurdu. Yeni göydələnlər tikilirdi. Küçələri bir yandan tikirlər, bir yandan sökürlər. "İndiyə kimi haradaymış, bu qədər iş tökülüb qalıbmış. - Özü də ürəyində özünə cavab verdi. - İndiyə kimi başımız açıldı ki. İmperiya dağıldı, Qarabağ müharibəsi, xaos, sonra Qismətim getdi. Bura bax, kölgəsiz, mənim içimdə danışan sənsən, yoxsa mənəm? Yox, mənəm, sən olsan, səni görərdim."

- Dayı, akademiyadı.

- Hə, düşüm - pul çıxartdı - sağ ol, bala.

- Gözləyim, dayı?

- Yox get, sağ ol.

Akademiyanın bağına girən kimi görənlər ona yanaşdı; maraqla, təəccüblə:

- A kişi, xoş gördük.

- Professor, sizdən nə yaxşı.

- Soltan bəy, əyləş bir nəfəsini dər.

- Taksidən elə indi düşmüşəm. Yorğun deyiləm.

- Bir əyləş görək, son qəmin olsun. Eşitdik bir az nasazlamısan.

- Yüngülvarı.

- Zarafatdı, o boyda faciədir?!

- Canım, nə zəhmət çəkib gəlmisiz. Toz-torpaq içindəyik. Təmir eliyirlər. Sağ olsun Prezident, böyük pul ayırıb, hər şey dəyişəcək.

- Necə yəni hər şey?

- Hər şey kompüterlər, stol, stullar, çıl-çıraqlar. Aləm olacaq.

Soltan müəllimin akademiyaya gəlmə xəbəri artıq bütün mərtəbələri gəzmişdi, kabinetlərin qapılarını döymüşdü. Dəhlizdəki qeybətlərin arasına girmişdi. Soltan da adamların ona böyük maraq göstərməsindən əvvəl xoşhal olsa da, marağın həddən artıq olmasından alındı. İnstitutun direktoru düşüb həyətdə onu qucaqlamışdı:

- Eşitdim gəlmisən, sevindim, həmişə ayaq üstə. Dedim qalxıb toz-torpağa bulaşma. Özüm aşağı endim. Maşallah, yaxşısan. Neynək, dünyadı, yas da, toy da ömrün iki qanadıdı. Gərək özün sınmayasan. Biz gərək gələk səni görək. Sən bizdən etibarlı çıxdın.

- Sağ ol, İsmayıl müəllim, yasda gəlməyiniz mənəvi dayaq oldu, sağ olun.

- Nə sözdü, hər gün xəbər alıram. İşdi-gücdü, gəlmək olmur. Təmir də bir yandan. Ay Həsən, mənim şoferimə de, kişini aparsın evinə.

- Zəhmət çəkməyin.

- Nə sözdü, nə lazım oldu zəng elə , gələrlər nə lazımdı edərlər. -Sürücü gəldi - bax bu sənin şoferindi. Hara desən aparacaq. Amma evə getsən yaxşıdır.

- Yox, lazım deyil.

- Etiraz qəbul olunmur.

Soltan hiss elədi ki, onu evə göndərmək istəyirlər. Onun gəlişi rahatsızlıq yaradıb. Bu gəlişi gözləmirlərmiş. Başa düşdü ki, onu maşına otuzdurub evinə göndərəcəkdi. Bu da belə bir əzab verən məhəbbət, ağrılı bir qayğıdır. Təslim olmaqdan başqa çarə yoxdur. Ürəyində qəribə bir fikir səsləndi: "Bu, deyəsən, akademiyaya mənim son gəlişimdi. Gəlsəm də məni qapıdan içəri buraxmayacaqlar deyəsən. Kölgəsiz, bu fikir mənimdir, yoxsa sənin? Yox mənim özümün hissimdi". Heç kəslə xudahafizləşmədən sürücünün qabağına düşüb maşına getdi.

* * *

Axır vaxtlar Nəsrin xanım Soltanın Qismətin otağına girib orda vaxt keçirməyinə mane olmurdu. Çünki otaqda keçən vaxtdan sonra elə bil Soltanın rəngi durulurdu. Əsəbləri nisbətən sakitləşmiş olurdu. Sözü-söhbəti öz köhnə ahənginə qayıdırdı. Bu gün də akademiyadan qayıdanda Nəsrin elə bildi dənizkənarı parkdan gəlir:

- Gəldin?

- Hə.

- Yorulmadın ki?

- Yox - dedi Soltan. Qismətin otağına keçdiyini Nəsrin hiss elədi:

- Dincəl - dedi. - Yemək hazır olanda çağıraram.

Soltan otağa keçdi. Kölgəsizlər üçü də çarpayının yanında həmin küncdə dayanmışdı.

- Siz elə beləcə, gecə-gündüz burda dayanırsız-dedi. Çarpayıda oturdu.- İşiniz-gücünüz yoxdu.

- Var, həm də çox işimiz var -böyük kölgəsiz idi cavab verən -amma bu iş bizim işimizdi. Sizin görməyiniz üçün görülən iş deyil.

- Axı mən sizin işi heç görmürəm bir yana. Heç hiss də eləmirəm. Sizi görürəm axı.

- Bizim işlərimiz də, zaman ölçülərimiz də fərqlidi. Mənim altı yüz on üç yaşım var. Nə qədər az iş görmüş olsam, müqayisədə çox-çox olar. Mənim işim başqa müstəvidə, başqa zaman ölçüsündədir.

- Niyə bizim ömrümüz belə qısadır?

- Dedim axı sizinki ömür deyil, cəzadır, siz cəza çəkirsiniz. Ömrünüz Adəmlə Həvvadan başlayıb sayılır. Bu çəkdiyiniz cəzadan sonra da davam edəcək.

- Mənə kömək eləyə bilməzsən?

- Sənə cəza kəsilib, mən kömək eliyəndə sənin cəzana şərik çıxıram. Sənin cəzanı mən çəkəndə biz kimi aldadırıq?

- Deməli, siz bizə şahidlik eləyirsiz.

- Bizim şahidlərimizə ehtiyac yoxdu. Sizin şahidiniz öz əliniz. Ayağınız, gözünüz, qulağınız, dilinizdir. Biz sizin işinizə heç qarışmırıq. Qarışmağa da ixtiyarımız yoxdu.

- İndi biz söhbət eləyirik.

- Sən bizi görürsən. Ona görə də danışırıq. Bu ailəni görürsən. Mən də bu gecə vaxtı başa salmaq istəyirəm ki, dünya təkcə sizin deyil. Sizinlə eyni dünyada, eyni yerdə paralel həyat sürənlər var. Siz özünüzü xəlvət, kimsənin görmədiyi yerdə sayıb min oyundan çıxanda unutmayın ki, minlərlə tamaşaçınız var.

- Mən sizi görürəm, bəs onları niyə görmürəm?

- Niyəsini deyə bilmərəm. Sən aldığın nəfəsi görürsən? Sən aldığın bir udum nəfəsdə neçə radio dalğası var. O dalğalarda nə qədər səslər. Nə qədər sözlər, nə qədər fikirlər var. Bunlar hamısı sənin içindən gəlir, keçir. Onlar həm yaşayır, həm də sizi yaşadır.

- Bizi necə yaşadır?

- Nəfəs almamış yaşaya bilərsən? Bax, belə havaya da şərikik. Hər şey hamınındı.

- Soltan, ay Soltan - Nəsrinin səsi gəldi.

- Bəli, eşidirəm.

- Yatmısan?

- Yox!

- Gəl, yemək hazırdı.

Kölgəsiz ona baxıb gülümsündü.

- Get, sizin əzablarınızın birincisi yeməkdi, ondan sonra ömrünüz boyu çəkdiyiniz əzablar, işgəncələr, məşəqqətlər, bax, o yeməkdən başlayıb törəyib, törəyib artıb. Get.

- Bəzən məndə şübhə oyanır ki, bəlkə mən heç sənlə danışmıram. Özüm-özümlə mübahisə edirəm.

- Bəlkə də...

- Bəlkə bu dəliliyin başlanğıcıdı?

- Dəlilik dahiliyin də, insanlığın da başlanğıcı, vicdanın oyanışı ola bilər.

- Necə bilək, nədi?

- Soltan, gəl, yemək soyuyur -Bu, Nəsrin idi.

- Get. Dəlilik bir tufandı, keçəndən sonra görək yerində nə qalacaq. Get, gözlətmə.

- Gəldim! - Soltan gümrah addımlarla mətbəxə getdi.

* * *

Soltanı inandırmışdılar ki, Nəsrinin əsəbləri pozulub. Tanış psixiatra göstərmək lazımdı. Soltan Həsənlə Çiçəyin yanında Cəfərə zəng etdi:

- Professor, salam! Soltandır. Nəsrin xanımın da sizə salamları var. Bəli, çox sağ olun. Bəli, sizin təsəlliniz və dostların mənəvi dəstəyi ilə vəziyyətdən çıxmağa çalışırıq. Sizin söhbətinizə, məsləhətinizə ehtiyacımız var. Mənim də, Nəsrinin də. Bəli, əlbət ki, izi qalır. İnsan daş deyil, dəmir deyil. Elədir, professor, belə faciələr izsiz ötüşmür. Sizinlə görüşə ehtiyac duyuruq. Oldu. Altıncı gün. Saat on birdə. Oldu. Təşəkkür. Burda Çiçək xanımın da, Həsən müəllimin də sizə salamları var. Çatdıraram.

Soltan dəstəyi yerinə qoyan kimi Həsən tapança kimi açıldı:

- Pah atonnan. Alim ki alim. Malades, Soltan müəllim. Əsl centlmendi. Nəsrin xanımı tək demədi, dedi ikimizi də. Vot ona çto. Nəsrin xanım, sizdən üzr istəyirəm.

- Allah bağışlasın, burda nə var ki, həkimdi də.

- Elədi, elədi, Nəsrin xanım. Çiçi, gördün da. Necə yüksək mədəniyyətlə, hansı səviyyədə söhbət getdi. Vot ona çto.

* * *

Altıncı gün saat onbir idi. Baş həkimin kabineti qarşısında Nəsrin xanımla Soltan müəllim dayanmışdı. Uzun dəhlizə açılan qapılardan biri açıldı. Oradan bir neçə ağ xalatlı çıxdı. Doktor Cəfər Nəsringili görən kimi saatına baxdı. Düz onlar tərəfə gəldi. Ağ xalatlı qızlardan biri qaça-qaça gəlib kabinetin qapısını açdı.

- Xoş gəlibsiniz. Abxod, yəni palataları gəzirdim. Yenə çatdıra bilmədim. Xoş gəlibsiniz. Keçin içəri. Əyləşin, əyləşin -yer göstərdi. Narahatlıqla ətrafa göz gəzdirdi.

Soltan hiss etdi ki, Cəfər harasa tələsir. Darıxmalıdı, rəngi də boğulub. Birdən ürəyinə damdı ki, gələndən palataları gəzir. İndi də birbaşa bizim yanımıza gəldi. Onun tualet ehtiyacı var. Bizimlə söhbətə başlamağın narahatlığını keçirir. Soltan düşünmədən dedi:

- Professor, siz gedin ora, rahat-rahat əlinizi yuyun. Biz heç hara tələsmirik, gözləyirik.

Cəfərin elə bil çiynindən dağ götürüldü.

- Çox gözəl, siz oturun - katibəyə - qızım, qonaqlara çay ver. İndi gəlirəm - qapıdan çıxdı. Nəsrin baxdı ki, kabinetdə əlüzyuyan var. Onun baxışını Soltan da hiss etdi. "Onun başqa işi var. Qısnamışdı" - pıçıldadı.

- Ayıb oldu - Nəsrin Soltana məzəmmətedici nəzərlə baxdı-heç belə şeyi deyərlər?

Qız çay gətirdi:

- Buyurun, çay için. Xoş gəlmisiniz. Professor sizi gözləyirdi. Bizə tapşırmışdı sizi qarşılayaq. Başımız qarışıb.

- Sağ ol, qızım - Nəsrin xanım dilləndi - Professor Soltan müəllimin gənclik yoldaşıdı. Soltan müəllim də professordu.

- Elə o saat bildim. Cəfər müəllimə ərki olan adamdı. Elə ərklə dedi ki, -qız gülüb otaqdan çıxdı.

Az sonra Cəfər gəldi. O, gülərüz, gümrah idi. Gəlib yerində əyləşdi:

- Bu başqa məsələ - dedi. Düz Soltanın gözlərinə baxdı, bir an susdu. Gülümsündü - Siz hardan bildiniz ki, mən qısnanmışam?

Soltan sualı gözləyən adam kimi sakitcə cavab verdi:

- Rənginizdən, darıxmağınızdan, çatdırmadım deməyinizdən.

- Hı...Bunu çox adam hiss edə bilər. Amma bunu demək...

Nəsrin onun sözünü kəsdi:

- Cef, elə indi mən də Soltanı danlayırdım ki, adam belə sözü... vallah nə bilim. Hər halda bağışla bizi.

- Yox, yox, əksinə, onu deyə bilmək mədəniyyətin yüksək, çox yüksək olduğunu göstərir. O bunu elə adi, elə təbii dedi ki, mən söz tapmadım-gülümsünür-sadəcə, tapşırığı yerinə yetirdim.

- Əgər sizə toxunan bir şey olubsa, bağışlayın.

- Tam səmimi deyirəm ki, sizin hərəkətiniz yüksək mədəniyyətin göstəricisidir. Yüksək mədəniyyət və özünə arxayınlığı olan insanlar belə hərəkət edərdi. Nəsrin xanım, bağışlayın, sizin üçün bu ağır gündə görüşümüz lətifəvari bir söhbətlə başlasa da, yenə Allah sizə səbr versin.

- Çox sağ olun, Cəfər müəllim.

- Mən sizin üçün həmişə qardaşınız Cefəm. Siz də bacım Neskasınız. Bunu Soltan bəy də yəqin bilir.

- Bilirəm, Cəfər bəy -bəy sözünü xüsusi vurğuladı -biz elə bir dövr keçmişik ki, bəy deyəndə özümü yaxşı hiss etmirəm. - Niyə, bəylərin çoxu elə burdadı. Vaxt vardı, adamlar tərcümeyi-halına fəxr ilə "nökər oğluyam" yazırdılar. İndi sən niyə deməyəsən ki, bəy oğlu bəyəm. Qeyrət, millət keşikçisi o bəy babalarımızın nəyindən utanmalıyıq, qardaş.

- Cəfər müəllim, ey, bağışla, Cəfər bəy, ölkə belə ağır yol keçdi, Qarabağ, İyirmisi yanvar, az qala vətəndaş müharibəsi. Yəqin bu səbəbdən xəstələrin də sayı artıb.

- Burda bir az var. Amma vəzifə başında olan, pulu çox olan xəstələr də var. Onların xəstəliyi pul gedəndən, vəzifədən çıxardılandan sonra bilinəcək. Bu elə bir xəstəlikdi ki, əsl həkimi Allahdı.

- Bunu həkimlər müalicə edə bilmir.

- Yox, bu, ruhun xəstəliyidir. Ruha iynə vurmaq, dərman içizdirmək olmur axı. Allah bu elmin qapısının açarını insanlara verməyib. Düzdü, Soltan bəy, sən ateistsən. Allaha inanmırsan.

- Əstəğfürullah, mən inanıram, amma bu dindarlar deyən kimi yox. Bir az başqa cür.

- Soltan, Soltan, yaxşı bəsdi, başlama - Nəsrin hirsləndi.

- Naska, sakit ol, qoy desin. Özümüzük - səsini bir az da alçaldıb -bura dəlixanadı, heç kəs dediyinə cavabdeh deyil. Qoy desin. Ürəyini boşaltsın. Daha nədən qorxacaq. Daha bundan da ağır günü olacaq? Qoy desin, ürəyi boşalsın, bəlkə bir az yüngülləşdi.

- Yox, yəni mən elə də allahsız deyiləm. Bu kainatı bir idarə eləyən var axı. Kainatda milyardlarla planetlərin bu qədər nizamlı, məntiqli hərəkəti təsadüf ola bilməz axı. İdarə edən qüvvə var.

- Yəni Allah var demək istəyirsən, Soltan bəy, de utanma. Bax, otuz beş ildi bu sahədə çalışıram. Doktorluq müdafiə eləmişəm, professoram, çlenkoram. Özüm də indicə dedim ki, bu xəstəlikdən heç nə bilmirəm. Təcrübəm var, vəssalam. Yaxşı, o qüvvə kimdi, nədi?

- Bəlkə biz o qüvvənin içindəyik.

- Hə, bu maraqlı versiyadı, de görək.

Şəfqət bacısı içəri daxil oldu. Qonaqları görüb özünü yığışdırdı. Cəfər onun çaşdığını görüb:

- Buyur, qızım, nə olub?

- Bağışlayın, mane oldum.

- De qızım. Bunlar yaxın adamlardı, de.

- On ikinci palatadakı qoluyox kişi sizi çağırır, yenə zarıyır.

- İynə hazırla...gedək -nəsə düşündü -dayan qızım. Ordan-yan otağı göstərdi-iki xalat ver. Maraqlı variantdır. Soltan bəy, Nəsrin xanım, xalat geyin, gedək. Soltan bəy doktordu, hə, professordu, hə. Gedək.

Maraq elə böyük idi ki, Nəsrin xanım da etiraz edə bilmədi. Xalatı geydi, getdilər. Otaq tərtəmiz idi. Mələfələr ağ, səliqə göz oxşayırdı. Divarın biri yaşıl rəngdə idi, o biri qırmızı. Yaşıl divarın yanındakı çarpayıda uzanan xəstə üzünü divara çevirib zarıyan otaq yoldaşına, gələnlərə məhəl qoymadan divarda barmağı ilə dairələr cızırdı. Qırmızı divarın çarpayısında xəstə ağrıdan qıvrılırdı. Qolu dirsəkdən aşağı yox idi. Sol əli ilə sağ qolunun olmayan yerini çarpayıda sığallayıb zarıyırdı.

- Oy, oy, oy, əlim dondu oy-gələnləri görüb səsini bir az da qaldırıb- ay doktor, mən öldüm, əlim soyuqdan ağcaqayın ağacı kimi çatdayır. Oy, oy, oy.

Cəfər asta, lakin xəstənin də eşidə biləcəyi bir səslə dedi:

- Soltan bəy, cənab professor. Bu nadir hallardandır. Əli yoxdur, sinir yaşayır.

Soltan xəstəyə yanaşdı. Diqqətlə onun qolunun kəsilən yerinə baxdı. Adyalın üstündə əli ilə qolun davamını izləmək istədi. Xəstə sol əli ilə olmayan qolun yerini göstərdi.

- Burdadı, burda...

- Harda olub?

- Nə?

- Qolun harda kəsilib?

- Omsk şəhərində.

- Hə...Omsk, Omsk-Soltan təkrar etdi.

Xəstə maraqdan zarımağı unutmuşdu, diqqətlə yeni həkimə baxırdı:

- Dəzgaha düşdü əlim, tamam əzildi. Kəsdilər.

- Hə...hə indi may ayıdı. Hə də, Omsk hələ soyuqdu. Hələ orda qar-buz tam əriməyib- əlin yerini göstərdi - bura isti şey qoyun. İsti saxla buranı. Xəstə özü tez yastığı sol əli ilə götürüb o yerə qoydu. Əli ilə üstündən basdı, sakitləşdi.

- Oxqay...sağ ol, professor.

Şəfqət bacısı iynəni Cəfər müəllimə göstərib:

- Bunu neyləyək, professor, vuraq?

- Yox, ağrı kəsdi, lazım deyil - deyib xəstə üzünü divara çevirdi. Cəfər əli ilə qıza yox işarəsi verdi, otaqdan səssizcə çıxdılar. Dəhliz boyu kəlmə kəsmədən, bir-birinin üzünə baxmadan getdilər. Otağa keçib hər kəs öz yerində əyləşdi. Bir an susdular. Cəfər nə isə kəşf etmiş adam kimi sözə başladı.

- Soltan bəy. Sizin oxşar cəhətiniz var. Sən də ağrıyırsan. Sənin də olmayan və ağrıyan yerin var. O xəstə səndən çox sənin üzündəki ağrıya inandı. Siz ikiniz də Soltan bəy, siz də, Nəsrin xanım da ruhən çox sağlam və gümrah insanlarsız. Mənimlə telefonda danışanda Soltan bəy dedi ki, insan daş deyil, dəmir deyil. Doğrudu. Sizdə də izi qalıb. Siz bunu heç kəsin köməyi olmadan keçəcəksiniz. Soltan bəy, siz nəsə maraqlı bir şey başlamışdınız, yarımçıq qaldı.

- Yox, siz hələ deyin görüm o divarın hərəsini niyə bir rəng eləmisiniz?

- Bu mənim metodumdu. Onlar çox səliqəli və dəqiqdilər. Həm də vasvasıdılar. Əli o birinin dəsmalına dəysə, aparıb tez yuyur. Yaddaşları yoxdu. Çarpayılarını dəyişik salırlar. Ona görə divarı hərəsinin xoşladığı rəngdə boyayırıq. Problem qalmır. Hə, siz söhbətinizi tamamlayın.

- Nə söhbət idi?

- Xəstəyə baş çəkməzdən əvvəl.

- Yadımdan çıxıb, məndə bəzən belə şeylər olur.

- Allahın içində yaşayırıq deyirdin.

- Hə, hə! Yadıma düşdü. Bu kainat bir canlıdı. Mənim kimi, mənim bədənimdə milyonlarla hüceyrələr yaşayır. Barmağımın ucunda yaşayan hüceyrə nə bilir ki, mən nə boydayam, nə formada. Görə bilmir və deyir ki, mən yoxam. Amma bir gün o hüceyrə ağrıyanda, ağrısının səsi

beynimə çatır. Bütün bədən o hüceyrəni sağaltmaq əmri alır. Çünki, hətta o bir hüceyrənin yoxluğu bütöv bir bədənə zədə sala bilər. Bu kainatdakı nizam-intizam ona görədi ki, planetlər bir orqanizmin hüceyrələridir. Odur ki, Allahın hər şeydən xəbəri var. Biz az şey bilirik. Cəfər bəy, mən bunları dəlixanada deyirəm ha. Bax, sözlərimə görə məsuliyyət daşımıram -Soltan hiss etdi ki, Cəfərin fikri başqa şeylə məşğuldu, burda deyil - Cəfər bəy! - dedi.

- Bəli, bağışlayın - deyib fikrini topladı, ciddi görkəm aldı. Diqqətlə Soltana baxdı-Nəsrin xanım, sizin ruhunuz güclü və sağlamdı. Elə ikinizin də. Amma mənə elə gəlir ki, Soltan bəyin bir problemi var. Ruh əsəblə bağlı deyil. Mən müsəlman kimi yox, həqiqi dost və həkim kimi düşündüyümü deməliyəm. Allah eləsin, düşüncəmdə yanılmış olum. Diaqnostika mərkəzinə getmək lazımdı. Başınızı yaxşı-yaxşı yoxlasınlar.

Nəsrin qorxmuş adam kimi yerindən dik qalxdı:

- Nə olub? Cef, sən nə deyirsən?

- Bacım Neska, qorxma. Mən həkim kimi işin bir tərəfini deyirəm. Düzünü deyirəm ki, bir az qorxmayasınız. Gedib yoxladasınız. Heç nə olmaz, lap yaxşı olar, tez düşərik üstünə. Əyləşin. Soltan bəy uşaq deyil.

- Nədən şübhələnirsiniz, həkim, mən özümü yaxşı hiss edirəm.

- Mən də dedim, maşallah indilik sağlamsınız. Nəsrin xanım əyləşin -Nəsrin əyləşir - Bəlkə haçansa beyin travması almısınız. Vulkan kimi yatıb, indi oyanmağa başlayır.

- Beyin travması? Yadıma gəlmir. Məncə, elə şey olmayıb.

Nəsrin xanım nəsə demək istədi. Boğazı qurumuşdu. Səsi çıxmadı. Qarşısındakı qalıb soyumuş çaydan bir qurtum içdi.

- Deyim çay gətirsinlər?

- Yox, yox. Mənim də travma kimi bir şey yadıma gəlmir.

- Ola bilər, sizdən əvvəl uşaq vaxtı. Ola bilər heç olmayıb. Mənim təcrübəm deyir ki, gərək yoxladaq. Təki heç nə olmasın. Arxayın olarıq. Sizi gördüm abxodu yarımçıq qoydum. Sürücünü çağırım sizi aparsın.

- Yox, yox, sağ ol. Vaxtını aldıq. Özümüz gedəcəyik.

- Sağ ol, Cef, səni işdən elədik.

- Nə sözdü, siz mənim əzizlərimsiniz, amma mütləq yoxladın. Soltan bəy, Tusi Mərkəzinə gedin, orda yaxşı mütəxəssislər, aparatlar var.

- Gedərik, mütləq gedərik. Gedək Nəsrin. Otaqdan çıxdılar.

Cəfər bir müddət onların arxasınca baxırmış kimi gözlərini qapıya zillədi, susdu. "Gözlərindəki azmalar, baxışlarındakı qırıq-qırıq donmalar. Elə indi yaddaşında əmələ gələn qırılmalar". Allah eləsin, zənnimdə yanılmış olum.

Nəsrinlə Soltan bir qədər yanaşı addımladılar. Sükutu Soltan pozdu:

- Buna nə oldu, birdən-birə yüz səksən dərəcə dəyişdi?!

- Siz qəribə bir intellektual duel keçirdiniz. Sən onu mat elədin. O da həmişə birinci olub, uduzmağı bacarmır.

- Hər halda, özümü gərək yoxladım. Son vaxtlar hərdən əlim, ayağım, dilim iradəmdən kənar hərəkətlər edir.

- Məni qorxutma, ay Soltan. Yoxladaq, amma məni qorxutma. Adam fikirli olanda bəzən özünə nəzarət edə bilmir. Bəzən əlimdə tutduğum bir şeyi axtarıram, olur belə şeylər -köks ötürdü- Allaha təvəkkül.

* * *

Diaqnostika mərkəzindəki yoxlamalar, gəlinən nəticə baş psixiatr Cəfərin haqlı olduğunu göstərdi. Nəsrin xanım onkoloq Cəmillə uşaqlıq yoldaşı idi. Ataları dostluq edərdi. Zəngləşib vaxt təyin etdilər. Soltandan xəlvət getməyi qərara aldı. Görüşdülər.

Cəmil onu çoxdan görmədiyi bacısı kimi hərarətlə qarşıladı.

- Dəyişmisən.

- Dəyişərəm də, Cəmil... başıma o qədər işlər gəlib ki...

- Eşitdim. Gəlmişdim də. Allah səbr versin. Orda sizi görmək mümkün deyildi. Düzü, heç özüm də sizi görmək istəmədim.

- Sizi başa düşürəm. İndi də Soltan belə...hamısı bu qovluqdadı.

Professor həkimləri dəvət etdi. Məsləhətləşdilər. Nəhayət, qərara gəldilər "cərrahın müdaxiləsini məsləhət bilmirik", bura, xaric, fərqi yoxdur, hamımız eyni işi görürük. Gecdir". Nəsrin təəccübünü bildirdi:

- Axı lap bu yaxınlarda hiss eləmişik. Heç özü də şikayət eləmirdi.

- Nəsrin xanım, bu xəstəlik bildirmir. "Uroqanıy" formasıdır.

Yaşlı bir həkim söhbətə qarışdı.

- Nəsrin xanım, kənd yerində xəlvət tutan itlər olur. Gəlirsən yanından keçirsən, sənə baxıb üzünü yana çevirir. Keçib gedirsən, hürmür, mırıldamır, bir də görürsən arxadan ayağını qapdı. Bu elə naməd xəstəlikdi. Beyin əməliyyatı çətin deyil. Amma bu vəziyyətdə ümidsizdi. Sizə yalançı ümid verərik, ona əlavə əziyyət...

Cəmil bu söhbətlərdən əziyyət çəkdiyini açıq hiss etdirdi. Nəsrin xanımın qoluna girdi:

- Gedək, Nəsrin xanım, sizi yola salım.

- Siz zəhmət çəkməyin.

- O nə sözdü? Etiraz qəbul etmirəm! Kaş ki əlimizdən daha çox şey gəlsəydi.

- Bu qədərmiş...

Cəmil özünü eşitməməzliyə vurdu:

- Maşınınız harda dayanıb?

- Maşınsız gəlmişəm. Xəlvət gəldim.

- Mənim maşınım aparacaq.

- Yox, yox...

Cəmil onun sözünü kəsdi.

- Eşitmək istəmirəm. Yox, yoxdu! Vəssəlam. Əyləş maşına.

* * *

Nəsrin qapını ehmal açdı. Elə həmin an Soltanın səsini eşitdi.

- Nəsrin, gəldin?

- Hə, mənəm.

- Arada oyandım, evdə yox idin. Tənbəllik basdı, yenidən yatdım. Hardaydın?

- Çiçəkgilə keçmişdim. Acmısan? Hazır yemək var. Qızdırım.

- Gəl bura. Gəl yanımda otur. Bir nəfəsini dər. Gəl. Ora-bura qaçmaqdan əldən düşmüsən.

- Yox a... sözə bax ey... hara qaçıram ki. Sən çox mintelli olmusan. Özün-özündən şübhələnirsən -Nəsrin sözarası qovluğu gizlətdi - gəlirəm. Hə gəldim-divanda Soltanın yanında otur - ox, of...yoruldum.

- Töşük basıb səni.

- Bu pilləkanları qalxanda həmişə belə oluram.

- Bəyəm Çiçəkgil aşağı mərtəbəyə köçüblər.

- Eh, sən də...

- Ay qız, sən yalan danışa bilmirsən axı...danışma.

- Düşmüşdüm bulvar tərəfə.

- Gözəl eləmisən. Arvad -qolunu Nəsrinin boynuna salıb üzündən öpür-qoy bir dəfə sənə ağızdolusu arvad deyim, dədə-baba qaydasıyla.

- Qurban olum, nə deyirsən de.

- Sən mənə "can", "qurban olum" deyəndə gözüm dolur. Biz axı bu otuz ildə belə sözləri işlətməmişik. Son günlər gör necə qorxmuşuq.

- Vallah, mən səni həmişə çox istəmişəm. Çox, lap çox istəmişəm -kövrəlir.

- Yaxşı, yaxşı. Nə yaxşı indi də olsa, bir-birimizə bu sözləri deyə bilirik. Çox şükür. Bayaq sən evdə olmayanda hardansa yadıma düşdü ki, bu otuz ildə bir dəfə də dodaq - dodağa öpüşməmişik.

- Yaxşı, Soltan, ayıbdı, gör nə danışırsan? Yas içindəyik.

- Mən səni həmişə sevmişəm. Elə indi də dərdindən ölürəm, amma indiyə kimi ürək dolusu "səni sevirəm, dərdindən ölürəm" deməmişəm sənə. Niyə? Özüm də bilmirəm.

- Aydın idi, ehtiyac yox idi.

- Var ehtiyac, ehtiyac həmişə olub. İndi də ehtiyac var deyəsən; Cəfər haqlı çıxdı. Ehtiyac var deyəsən, hara özümü çırpıram xeyri olmur. Deyirlər gecdi. Əlac yoxdu.

- Kim deyir onu? Yalan deyir.

- Birinci mənim halım deyir, ikinci sənin halın. Biz bir-birimizi yaxşı tanıyırıq, Nəsrin. Mən onu da bilirəm, mənim dəniz gözlüm, sən qürurunu sığışdırmayıb, özün üçün eləmədiyini mənim üçün edirsən.

Nəsrin birdən onun boynunu qucaqlayıb körpə kimi hıçqıra-hıçqıra ağladı. Soltan onun başını tumarlayırdı. Belə bir söhbətin başlanmasına ürəyində sevindi. Nəsrini hazırlamaq üçün bunu yaxşı fürsət bildi, pıçıltılı səslə:

- Əzizim, - dedi, - burda çox sıxlıqda yaşayırıq. Suyun altında balıqlar, suyun, torpağın üstündə biz, havada, başımız üstündə quşlar yaşayır. İnsan heç vaxt tək olmur, sən də tək qalmayacaqsan.

- Nə danışırsan sən - Nəsrinin boğuq pıçıltısı eşidildi- səndə heç nə yoxdu. Kim nə deyib sənə?

- Nəsrin, əzizim, mənim bir az təhsilim var axı. Sənədlərə səndən xəlvət baxmışam. Diaqnostikada dostum var. Onunla söhbət elədim. Əməliyyatın xeyri yoxdu, amma zərəri ola bilər.

- O quşlardan, balıqlardan nə istəyirsən? Nə deyirdin elə - Nəsrin mövzudan qaçmağa yeganə bəhanə idi tapmışdı.

- Hı, hı, hı -güldü- aydındı, -dedi.

- Nə aydındı? - Abırsız adamsan da... bu halımıza gülürsən də...

- Nəsrin, mələyim, bu mənzil də bir ərazidir. Burada da gördüyümüz, görmədiyimiz sakinlər yaşayır. Biri onlara mələk deyir, biri damdabaca, hərə bir ad qoyur. Bizim evdə də elə bir ailə yaşayır.

- Deyəsən, sən məni də dəli eləmək istəyirsən.

- İstəyirəm sən tək qalanda qorxmayasan. Onlar səni qoruyacaqlar. Mən xahiş etmişəm.

Nəsrin Soltana bərk-bərk sarıldı. Ayaqlarını da yerdən qaldırıb divanın üstündə altına yığdı.

- Soltan, belə danışma, tüklərim biz-biz oldu.

- Niyə qorxursan, onlar bizdən çox-çox əvvəl burda yaşayır. Hələ heç kəsə toxunmayıblar.

- Necə yəni bizdən əvvəl?

- Əvvəl bina olmayanda burda, torpağın üstündə, sonra bina tikildi, onlar da qalxıb otaqlarda yaşadılar.

- Hər yerdə onlar var?

- Əlbət ki, bu mənim ərazimdi, mənim evimdi demək sadəlövhlükdü. Orda yüzlərlə gördüyümüz, görmədiyimiz canlılar yaşayır. Mən bizim evdəkiləri görürəm, onlarla danışıram.

- Boy, nə deyirsən. Məni doluyursan? Qorxudursan?

- Yox, canım-gözüm, yox. Amma onlar səni həmişə qoruyacaqlar.

- Lazım deyil, çıxıb getsinlər.

- Nə deyirsən, ay qız. Yersiz gəldi, yerli qaç. Bir də onlar bizim kimi adam deyillər, hədə gələn kimi yer-yurdunu qoya qaça.

- İndi deyirsən evimizdə başqa yaşayanlar var?

- Deyirdim axı, köhnə kişilər, qadınlar öz evinə girəndə də evinə salam verir. Onlar səni qoruyacaq. Sən də unutma, evdə tək deyilsən, səni görürlər. Hərəkətlərinə fikir ver.

- Onsuz da mən neyləyəcəyəm, tək, ya cüt -çiyinlərini çəkdi.

Nəsrinin sözləri o qədər səmimi, o qədər sadəlövh səsləndi ki, Soltan gülüb, uşaq oxşayan kimi Nəsrinin yanağından öpdü.

* * *

Nəsrin qapının zənginə ayıldı. Elə mətbəxdə yuxuya gedibmiş. Qapıya qaçdı. Çiçək xanım idi.

- Xoş gəldin. Çiçi, keç mətbəxə. Mən baxım Soltan yatıbmı -yataq otağına getdi. Qapı aralı idi. Soltan yatmışdı. Qapını örtdü. Mətbəxə gəldi, mətbəxin də qapısını örtdü ki, səs getməsin -ay qız, necəsən? -gəlib Çiçəyin yanında əyləşdi.

Çiçək tələm-tələsik danışmağa başladı.

- A... a... bəs necə, getmişdim Cefrinin yanına, yenə səpdi komplimentləri başıma. Ölürəm onun komplimentləri üçün -gülüb bir əli ilə Nəsrinin çiyninə vurdu, - ağəz, onsuz da komplimentdən başqa əlindən bir şey gəlmir.

- Ay qız, bəsdi, abırın olsun.

- Eh, haçan olub ki, indi olsun. Abırdan kompot düzəldəcəyəm?

- Yaxşı, de görüm nə dedi.

- Sən deyənləri dedim. Dedim Nəsrin ərinə yenidən aşiq olub, deyir ağıllıdır, həssasdır, səmimidir. Dedi mən də tamam başqa bir Soltan gördüm. Dedi bu özü də o xəstəlikdəndir.

- Necə yəni xəstəlikdən?

- Elə mən də dedim, Cefri, o nə xəstəlikdi ki, adamı ağıllı, səmimi, həssas edir. Qurban olum, Qasançiki də bu xəstəliyə yoluxdur.

- Tfu sənin dilinə. Çiçi, adam kimi danış.

- Ağəz, deyir ki, bu beyin şoğərib kainatın modeli kimidi. Orda da çoxlu ulduzlar var-yəni mərkəzlər. Bu şiş onlardan yaxşısına toxunub, oyadıb, olub ayrı Soltan. Amma dedi bu da çox çəkməz.

- Necə yəni çox çəkməz?

- Yəni şiş böyüyür, başqa mərkəzlərə də toxunacaq - gördü Nəsrinin halı pozuldu. Söhbəti dəyişmək istədi - qoy sənə bir anektod danışım. Az qalmışdım Cefriyə danışım, birtəhər qaytarıb uddum. Yaydı, ər-arvad oturub...

- Yavaş, ay qız. Sənin ağzına bələdəm, danışma, ayıbdı...

- Kimdən? Kimdən ayıbdı?

- Heç utanırsan? - Nəsrin "ayıbdır" deyəndə Soltanın dediyi kölgəsizləri, ev şəriklərini nəzərdə tuturdu.

- Ağəz, səndən niyə utanmalıyam?

- Cefə danışardın, utanmazdın?

- Aaa, nöş danışmıram. O da mənim kimi şeydi da... Amma məmə canı, danışmadım, uddum.

- Dedin ki, evdə canlılar görür, onlar adamın fikrini də eşidirlər.

- Elə deyirdi.

- Aa... - ətrafa boylanır. Evin künclərinə müraciətlə - siz Allah bağışlayın, sizin də tərbiyənizi pozdum.

- Ay qız, yaxşı. De görüm nə dedi?

- Dedi ki, dediklərinin Nəsrinə ziyanı yoxsa inansın, inananda nə itirir. Bəlkə görür. Bəlkə doğrudu. Biz olanların mində birini bilmirik. Dedi havada efiri görürük? Yox, gözümüz o qədər həssas deyil, atom zərrələrini görürük? Yox, çünki gözümüz üçün çox kiçikdi. Yer kürəsini bütöv görürük? Yox, çünki gözümüz üçün çox böyükdü. Bəlkə o görür.

- Hə də, gözünü yum, de ki dünya yox oldu. Bir qədər bundan əvvəl oğlum, ərim vardı, dünyanın ən xoşbəxt adamı idim. Özümün xəbərim olmayıb.

* * *

Ölənin sahibi çox olur. Nəsrinin ən çox qorxduğu şey Soltanın da, özünün də qohum-əqrabasız olması idi. Ortada tək qalacağı qorxusu idi. Qonşular, akademiyanın işçiləri, xüsusilə institutun əməkdaşları qardaş-bacı qayğısı göstərdi. Nəsrinin əlini ağdan-qaraya vurmağa qoymadılar. Hər şeyi özləri təşkil elədilər. Xəstəxanadan məscidə apardılar, yuduzdurub namazını qıldılar. Sonra elə birbaşa vida mərasimi üçün akademiyanın kiçik binasına apardılar. Evindən götürülməsini Çiçək xanımla Həsən müəllim məsləhət bilmədi. Dedilər Nəsrin xanım tək adamdır, üst-üstə iki ağır zərbəyə dözmək çətindir. Həyat yoldaşı olsa da, meyidin vahiməsi ağırdır. Əsas təşkilatçılar Çiçək xanımla Həsən müəllim idi. Həsən müəllim belə şeylərdə özünü suda balıq kimi hiss edirdi. Soltan son günlər adam tanımayanda, gecə-gündüz zarıyanda Həsən dedi "daha Soltana harda olmasının əhəmiyyəti yoxdur, amma Nəsrin üçün bu, evdə ağır işgəncə ola bilər". Xəstəxanaya qoydu. Akademiyada, dəfnin təşkilində də Həsənin böyük rolu vardı. Dedi akademiyanın bütün institutları ayrı-ayrı əklil sifariş versin. Ailə üzvləri adından akademiyanın prezidentinin yanında olanda əvvəlcədən düşündüyü cümlələri ürəyində dəfələrlə təkrar eləmişdi.

- Bu gündən hamımıza var. Biz ailəsiyik, hər şeyi özümüz eləyə bilərik. Amma akademiya, bu elm məbədi də ona evi, ailəsi qədər əziz idi. Dedik sizin iştirakınızdan, qayğınızdan onun ruhu şad olar. Yaradıcı ziyalılar sağlığında bir-birinin paxıllığını çəksə də, qeybətini qırsa da, bir-birini bəyənməsə də, ölüb gedəni hamısı çox istəyir. Hamısı sevir. Onun istedadının böyüklüyünü görür, sağ qalanlara da nümunə göstərirlər.

Vida mərasimində hamı canla-başla iştirak edir. Bir çətin iş çıxışçıların siyahısını azaltmaq idi. Hər kəsin deyilməli sözü vardı, heç kəs də geri addım atmaq istəmirdi. Əslində, bu rəhmətliyi bəhanə edib çıxış edənlər sözarası bir-birini sancmaq üçün səhnəyə can atırdı.

Adlar dəyişir, pozulur, yazılır. Amma bir ad dəyişməz qalırdı. Həsən Mərdanlı ailəsi adından təşəkkür edəcəkdir.

Çiçək Nəsrinin geyiminə kömək elədi. Qoluna girib zala gətirdi. Birinci sırada əyləşdirdi, özü də yanında oturdu. Çantasını Nəsrinin o biri yanındakı stula qoydu, astadan pıçıldadı:

- Həsənə yer saxlayaq.

Zal dolurdu. Bu arada Çiçək qolu ilə Nəsrinə toxundu. Nəsrin başını qaldırdı. Çiçək pıçıldadı:

- Fatma xanımdı.

Fatma xanım hüznlü görkəmlə salamlaşdı.

- Tanıdım -dedi Nəsrin. O da başı ilə razılığını bildirdi.

- Prezident səfərdədir - dedi Fatma xanım.

- Hə, çox sağ olun -dedi, eyni anda Nəsrin nəyə görə sağ ol dediyini anlaya bilmədi. Utanıb başını aşağı dikdi. "Görəsən Soltan doğrudan deyirdi ki, bizim evdə yaşayanlar var? Deyirdi məni onlara tapşırıb. Görəsən, elə şey var? Deyirdi sən ürəyində düşünəndə onlar eşidir. Onlar da birbaşa səsini qəlbinə danışır. Bəzən elə bilirəm vicdanımla danışıram. Bəli, Soltan elə onu deyirmiş. Bəlkə onlar doğrudan var" - Nəsrin başını qaldırıb tabuta baxdı. "Nə olar, Soltan, mənə bir işarə ver. Dediklərinin doğru olduğunu mənə başa sal" - səhnəyə baxdı. Tabutun ayaq tərəfindən böyük bir əklil qoyulmuşdu. Əklilin tən ortasında qəşəng bir ağ gül vardı. Bir anlıq elə bil gülün ətrini duydu Nəsrin. "Bağışla məni, ay Soltan" - Nəsrinə elə gəldi ki, bunu özü düşünmədi. Onu təsdiq etmək üçün tabuta baxıb "bağışla məni, Soltanım, bağışla" - dedi. Ona bir

anlıq elə gəldi ki, səhnədən danışanlar onun Soltanla söhbətinə mane olur. Yenə öz içinə qayıtdı. "Gərək səni son günlər xəstəxanaya qoymayaydım aparsınlar. Tək idim, vallah, gücüm çatmadı. Qulluq eləyə bilmədim. Hər dəqiqə həkim çağırmaq olmurdu. Hələbət ki, dözmək də olardı".

Həsən gəlib onun yanında əyləşdi. Hamı ayağa qalxmışdı.

- Nəsrin xanım, adamlar çölə çıxır ki, biz də rəhmətliklə vidalaşaq. Rəhbərliyin başsağlığını qəbul edin.

Nəsrin başını qaldırıb qarşısında Fatma xanımı və onun arxasınca başsağlığı vermək istəyənləri gördü. Özünü ələ aldı.

- Başınız sağ olsun. Bizim hamımız üçün böyük itkidir-Fatma xanım dedi.

- Sağ olun, zəhmət çəkmisiniz. Bu sözləri nə qədər təkrar etdiyi Nəsrinin yadında deyil. Nəhayət, Çiçək xanım onun qoluna girib səhnədə tabutun yanına qaldırdı. Nəsrin tabutun yanında donub qalmışdı. Çiçək ona yanaşıb:

- Ağəz, ağla da, heç olmasa yalandan olsa ağla, hamı sənə baxır axı -gözlərini sildi - ağla - Nəsrini tabuta tərəf itələdi. Nəsrin səndələyib əklilin üstünə yıxılmaqdan özünü zorla saxladı, zalda qadınların ağlaşma səsi eşidildi.

Cavan adamlar gəldi:

- Tabutu aparmalıyıq -dedilər.

Çiçək Nəsrinin qolundan yapışıb tabutdan araladı. Hamı kənara çəkilib onlara yol verirdi. Adamların onlara təəccüblə baxdığını görüb Çiçək bir özünə, bir də Nəsrinə baxdı:

- Aaa... vaxsey. Bu nədü?

Nəsrin elə bil yuxudan ayıldı, Çiçəyə baxdı.

- Nə?

Çiçək gözləri ilə Nəsrinin sinəsində qara kəlağayısının ətəyini göstərdi. Nəsrin baxanda əvvəl bütün bədənində tükləri ürpəşdi. Əklilin ortasındakı həmin ağ gül kəlağayısına ilişib durmuşdu. Düz Nəsrinin üzünə baxırdı. Ağ gülün yumşaq, olduqca zərif ətri nəfəsinə, ürəyinə doldu. Gözünün yaşları üzündən süzülüb sinəsinə, gülün üstünə töküldü. Gülü kəlağayıqarışıq sinəsinə basdı, uşaq kimi hıçqıra-hıçqıra ağladı.

Evə dönəndə Çiçək istədi onunla getsin. Nəsrin dedi:

- Çiçi, sağ ol, bacı. Sən olmasan, heç bilmirəm mən necə olardım. Sağ ol. Sən get evinizə.

- Yox a, o nə deməkdi? Gəlim başın qarışsın.

- Yox, bacı, get. Mən də yatmaq istəyirəm.

- Yaxşı, darıxsan çağır. - Çiçək öz evlərinə keçdi.

Nəsrin qapını açdı. Dönüb Çiçəkgilin qapısına baxdı. Qapı bağlı idi:

- Salam evimiz, evdəkilər, salam.

Evə keçdi. Elə bil ağır bir döyüşdən çıxıb gəlmişdi. Evi alınmaz bir sığınacaq, basılmaz bir qala idi. Çarpayıya uzandı. Qızılgülü yaylıqdan qopardı. Soltanın yerinə qoydu, əli ilə Soltanın yastığını sığalladı. "Heyf, bu boyda xoşbəxtliyin qədrini bilmədik" - düşündü.

Mustafa Çəmənli

Ruhların üsyanı

(Povest)

Gözümü dan üzünə açanda Allahıma dua elədim ki, sağ-salamatam. Axı elə bu yuxu da ölüm kimi bir şeydi. Otaq buz kimi idi. Yerimdən qalxıb pəncərəyə yanaşdım, bayırda sakit-sakit, lopa-lopa qar yağırdı. Birdən yadıma pəncərəmizlə üzbəüz, yolun o biri üzündə hər il günəşə aldanıb vaxtsız çiçəkləyən şaftalı ağacı düşdü. Nigarançılıq içində tez yolun o üzünə, günəşə aldanıb vaxtından əvvəl çiçəkləmiş o şaftalı ağacına baxdım. Ağappaq qarın içində şaftalı ağacının çəhrayı çiçəkləri hələ də canlı görsənirdi.

Görəsən indi Şuşada, Ağdamda da aldanıb çiçəkləmiş ağaclar varmı? Heyif o ağaclardan. Ağac olanda nolar, axı ağaclara da insan məhəbbəti gərəkdir. Deyirlər ki, ağaclar insandan məhəbbət görməyəndə quruyurlar. Eh, indi işğal olunmuş ərazidə kimdi onlara məhəbbət göstərən. Yəqin daşnaklar hamısını qırıb-çatıblar. Qəşəng-qəşəng qapı-pəncərə düzəldiblər özləri üçün. Humanist xalq belə də olar. Görəsən İsa bulağına dəyməyiblər? Eh, kim bilir? Əşi, bu "kirvə"lərin ayaqları dəyən yerdə düz bir əsr ot bitməz. Bulağa dəyməsələr də, yəqin ki, adını dəyişiblər. Ad dəyişməkdə, "özəlləşdirməkdə" mahirdirlər. Farağat yaşamağı sevmir də bu millət, gərək özündən bir hoqqa çıxartsın. Nə deyim, o İsa bulağının başında necə məclislər qurardıq. Hanı indi o İsa bulağı, qurulan məclislər? Lopabığ, daqqapapaq, həvədiş bir şair də vardı (elə indi də var), kabab yeyib, araqdan içib pələngə dönərdi. Qarabağlıların, İsa bulağının şəninə sağlıqlar deyərdi ha... Ancaq İsa bulağı darda olanda heç cınqırını da çıxartmadı. Amma canı sağ olsun, televiziyada tez-tez vətənpərvərlik nəğməsi oxuyur... Eh, gen gündə Vətəni sevməyə nə var ki, onu dar gündə sevmək lazımdı.

Bilmirəm səhər-səhər xeyir-şər eləməmiş bu nə ovqatdı məndə. Bu Şuşa hardan yadıma düşdü (bəyəm yadımdan çıxır ki?!). Hə, xatırladım, heç nə təsadüfi deyil axı, azca qabaq televiziyada diktor hava haqqında məlumat verdi. Bir deyən yoxdur ki, a başına dönüm, sənin nəyinə gərəkdir Şuşada hava necədi, necə olacaq. Vallah, az qalıram bu televizoru vurub sındıram. Biz ki indi Şuşanın havasından uda, suyundan içə bilmirik. Qədrini bilməmişik də. Bilməmişik! Biz ora ancaq kef eləməyə, kabab yeməyə, badələri ləbaləb doldurub bəlağətli sağlıqlar söyləməyə getmişik. Ə, qardaş, dünyanın heç harasında (bizim ölkədən başqa) əlində araq dolu badə durub bir saat sağlıq deyən tapmazsan. Hələ bu harasıdı, bir də gördün həpəndin biri badə əlində qalxdı ayağa, məclisdə olmayan birisinin, məsələn, filankəs ağanın sağlığına tost deməyə, hamını o kişinin şərəfinə ayağa qaldırmağa. Di kişisən ayağa durma. Deyən yoxdur ki, ə, yerində sakit otura bilmirsən?

Yox, hamımız diplomat olmuşuq. Evdə uşaqlar acından arvadın pişiyini ağaca dırmaşdırıb, biz isə əlimizdə badə, bizi heç it yerinə də qoymayan bir şirkət rəhbərinin şərəfinə dastan danışırıq.

Öl, ay kasıb, onsuz da lümlütsən də. Heç soruşan yoxdu bu şirkət rəhbəri Qarabağın yolunda nəyindən keçib? Hansı fədakarlığı göstərib?..

Hə, harda qaldıq? Yadıma düşdü, havadan danışırdıq. Şuşada hava necə olacaq? Çox yaxşı, çox əla. Əziz dədəyin o əziz başı haqqı bu saat "kirvələr" qol-qola girib Cıdır düzündə xizək sürürlər... Of, ürəyimiz partlayacaq da. Gorun çatlasın, Pənahəli xan, evin yıxılsın, İbrahimxəlil xan, görün yurdunuzda kimlər at oynadır.

Bəli, biz yurd-yuva qədrini bilməyəndə özgələr də gəlib at oynadacaq. Biz bunu gərək çoxdan, lap çoxdan dərk eləyəydik. Biz Pənahəli xanın tikdirdiyi o gözəl Şuşa qalasında onu yada salan balaca nişangah belə qoymadıq. Amma gəlmə ermənilər bizim o gözəl şəhərimizdə biz baxa-baxa gözlərimizin qabağındaca qanımızı şərab əvəzinə içən Stepan Şaumyanın dəvə boyda heykəlini qoymuşdular. İbrahimxəlil xanın kəndini də şəhər eləyib adını da Stepanakert eləmişdilər. İndi bilirəm, gözlərinizi bərəldib deyəcəksiniz ki, Rusiya bizi qoymurdu cınqırımızı çıxardaq. YOX! YOX! Biz milli heysiyyətimizi gərək hər şeydən üstün tutaydıq. Biz unutmuşduq ki, öz qalasına görə qanı qanından, dili dilindən, dini dinindən olan şah Qacarın başını kəsdirmişdi İbrahimxəlil xan. Ona xəyanət edən, rus padşahına danos yazan erməni məliklərini tutdurub Şuşa zindanına saldırmışdı o kişi. Amma deyin (söz vaxtına çəkər), düz iki yüz il bundan qabaq şəhid olmuş bu İbrahimxəlil xanın yaxasını buraxırıqmı? Axı bu kişini 1806-ci ilin iyun ayında, aylı bir gecədə o kosasaqqal, arvadsifət mayor Lisaneviç qanına qəltan eləyib, amma biz ondan yenə əl çəkmirik. Əşi, belə də iş olar. Əzizim İbrahimxəlil xan, biz öz günahımızı da yoğurub-yapıb qoymuşuq sənin üstünə. Nə yaxşı bir vaxtlar sən Qarabağ xanlığının xanı olmusan. Gözündən iraq, o günü bir teatr çıxarırdılar, sənin saraya gətirib çörək verdiyin, özünə vəzir seçdiyin, dərrakəsinə hörmət edib "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz" dediyin "Molla Pənah" qabağında heykəl kimi durub sənə qəhrəmanlıq dərsi keçirdi. Hə, qardaş, biz qılıncı, sərkərdəni sevmirik, bizimki aşıqdı, müğənnidi, artistdi, tamadadı, şairdi...

Hələ bu yaşa çatmışam eşitməmişəm ki, filan xanın, filan şahın yubileyi keçirilir. Bizim məmləkətimizdə hamı oxuyur. Hamı yazır. O günü bir el şairi (əslində bir nəslin şairi) evini satıb, Bakıya köçüb. Balalarına kirayə ev tutub. Deyib gərək şair paytaxtda yaşasın. Kişi ətcəmətən uşaqlarının boğazından kəsib əsərlərinin birinci cildini çap elətdirib. Hələ bu harasıdı, sələminə çoxlu pul götürüb kitabının təqdimat mərasimini keçirib. Televiziyadan da operator-rejissor gətirib özünü tarixə saldırdı. Çıxışının sonunda da dedi ki, yanın-yaxılın.

Bu da sənin üçün sənətkar, imkan varsa bir iki-üç metr boş yer saxlayın, Allah qoysa bu sənətkarın orada heykəlini qoyarıq. Hə, əzizim İbrahimxəlil xan, nə yaxşı çox şeyi bilmirsən. Srağagün nəvələriyin gözü qabağında səhnədə artistlər səni ələ salırdılar, başına ip salıb səni səhnə boyu sürüyürdülər. Hələ bu harasıdı, ay qəşəng kişi, yarlı-yaraşıqlı bir komitə sədri sənin əlindən lap bərk yanıqlıymış. Bilmirəm ona neyləmisən, əlindən çox yanıqlıdı, yaxanı buraxmır. Xəbərçilik olmasın, o gün sədr "Həyat" otelində yeyib-içib ağzının qatığını silə-silə bir kəndin qiymətində olan "Mersedes"inə oturmaq istəyirdi ki, bu evi yıxılmamış telejurnalistlər kəsdilər kişinin yolunu. Bu sədr dili qurumuş da ona verilən sualları düz başa düşmədi, ya nəyə görəsə, dedi ki, əşi, bu Qarabağ xanı İbrahimxəlil xan lap yekə arvadbazın biriymiş, Şuşa qalasında fahişəxana açıbmış... Səndən nə gizlədim, İbrahimxəlil xan, əlim üzümdə qaldı, ayağımın altından yer qaçdı. Doğrusu, bu komitə sədrinin belə lapdan XXI əsrdən XVIII əsrə hoppanmağını görəndə bir balaca sümüklərim eymәndi. Fikirləşdim ki, ey gidi dünya, olmaya qan özünü göstərib. Olmaya bu İbrahimxəlil xan həzrətləri bu sədr cənablarının ulu nənəsilə iş birliyi yapıb? Hər şey ola bilər. Artıq mən bu gözəl dünyada heç nəyə şəkk gətirmirəm. Bir

özünüz fikirləşin, o boyda komitənin o boyda sədri gözümüzün qabağında bir belə arvadbazı (hələ qadın alverilə məşğul olan başıpapaqlı başıboşlarımızı demirəm ha...) qoyub, iki yüz il bundan qabaq şəhid olmuş bir kişini indi deyirsiniz təsadüfənmi yada salıb? Sizi bilmirəm, mən əsla buna inanmaram...

...Gör necə yağır. Yəqin bu gecə bu vaxtsız çiçəkləmiş şaftalı ağacının çiçəkləri donacaq... Sən Allah, bir bu şaftalı ağacının yanından bizim evə tərəf gələn bu qıza bax. Elə bil bu zalım balası da indicə çiçəkləyib. Allah səni xoşbəxt eləsin, ay gözəl. Görən ürəyimdən keçənləri eşitdin? Hardan eşidəssən, mən səkkizinci mərtəbədə, soyuqdan naxışlanmış pəncərə şüşələri arxasında, sən də ki, yerlə göy arasında... Ay qız, keçmə bizim məhlədən... Amandı, birdən çaşıb o arvadbaz komitə sədrinin yanına gedərsən ha. Getmə, ağ köynəyə ləkə düşər... Eh, bu qız hardan çıxdı bu qış günündə? Bəs axı mən indicə XVIII əsrdə, İbrahimxəlil xanın yanındaydım. Hə... yox, həşəmətli xanım, mən demirəm ki, sənin ətəyində namaz qılmaq olar. Yox, sən də azacıq aşın duzu olmamısan. Ancaq doğrusu, səni o vaxtkı şəriət qanununa görə bağışlamaq da olar. Axı o zamanlar çoxarvadlılıq dəbdəydi, şəriətlə qadağan olunmamışdı. Həm də o zaman qız almaq özü də elə bir siyasət idi. Sən də bu siyasətdən ürəyincə bəhrələnmişdin. Sənin də ki, maşallah, nə az, nə çox, on üç arvadın vardı. (Bağışla ki, uşaqlarıyın sayını unutmuşam.)

...Altısı halalca kəbinli zövcələrin idi, yerdə qalanını da siğə elətdirmişdin. Səni heç qınamıram da, nöşün ki, sənin bu məsələdə bütün işlərin aşkar idi. Sənin onun-bunun qapısına at sürüb, onun-bunun halalına kəc baxmaqla işin yoxdu. Başımın üstündə Allah var, divanxanayın qapısı ağzında başını sapsarı saraltmış ənlikli-kirşanlı katibən də yox idi ki, ora-bura keçəndə əlini qoynuna salaydın, yançaqlarına çəkəydin...

Hə, bax, burada korlamısan, zati-aliləri. Heyif deyildi, ətli-əndamlı, yeriyəndə dəniz kimi ləpələnən katibə. Nə etmək, keçmiş olsun. Sənin bəxtinə bığıburma kişilərlə işləmək düşmüşdü.

Xan həzrətləri, yaxşı ki, sən çox şeydə bizim bu qəşəng komitə sədrinə oxşamamısan. Düzdü, sənin zamanında əsgərliyə getmək yoxdu. Var idi ey, amma başqa sayaq. Yekə bir dəftərin vardı ki, orada bütün Qarabağda yaşayanların hamısı siyahıya alınmışdı, ta onda kimsə sənə desin ki, Xan, başına dönüm, mənim oğlumu dəftərə yazma - elə söhbət ola bilməzdi. Ona görə də el-oba təhlükədə olanda hamı sanılı qoz kimi yerində olardı. Eh, ay gözəl kişi, indi Vətən darda olanda nazir, deputat oğlanlarının səsi Amerikadan gəlir. İndi böyüklərin balaları hamısı yad ölkələrdə oxuyurlar axı. Oxuyurlar ki, gəlib bizə rəhbərlik etsinlər. Kürsüyə çıxıb böyük-böyük salonlarda bizə vətəpərvərlik dərsi keçsinlər. Nəsə, lənət şeytana, bu hələ gələcəyin işidi. Amma nə sirdisə, Vətən darda olanda biz kasıblar qabaqda oluruq. Biz buna etiraz-zad eləmirik ha, qətiyyən! Ağzımız nədi etiraz eləyək. Nəsə, lənət şeytana... Nə qədər eləyirəm, "amma" yadımdan çıxmır. Bəli, amma! Amma bu varlıların balaları bizdən on qat artıq yeyib-içirlər axı bu Vətənin nemətindən. İndi öz aramızdı, oxuduğuma görə sən də öz dövrünə görə varlı-karlı kişi olmusan. Hörmətli vəzirin, bizim dəyərli tarixçimiz, rəhmətlik Mirzə Camal Cavanşir Qarabaği sən öləndən sonra xış-kotanını saydırıb. Zati-aliləri, sənin xış-kotanıyın sayı cəmi Qarabağ camaatınınkından artıq çıxıb. Eybi yox, istəməyənin gözü kor olsun. Mən bunu sənə bağışlayıram. Çünki sən kişi adam olmusan, bu Vətən-Vətən deyirlər ha, qorumaq lazım gələndə oğlanlarını gecənin qaranlığında Car-Balakənə qaçırdıb, kasıb-kusuba Vətən haqqında dastan oxumamısan, əksinə, düşmənin qabağına göndərmisən. Bununla da ürəyin soyumayıb, özün də vuruşmusan. Sənin qorxundan uşaqlarıyın anaları - on üç arvadıyın bircəciyi də cınqırını çıxartmayıb. Deməyiblər ki, əşi, bizi gözüyaşlı qoyma.

Əzizim İbrahimxəlil xan, elə özün də sağ ol ki, dar gündə camaatını başsız qoyub heç hara qaçmamısan. Düzdü, yadıcaların hamısı əlinə qələm alıb ən yeni tarix kitablarında yazıblar ki, Qacar ikinci dəfə Şuşaya hücum çəkəndə, guya sən əhli-əyalını başına yığıb qaçmısan. Amma hamı bilməsə də mən bilirəm ki, bu, ağ yalandır. Hərçənd bizim dünyagörmüş bığıburma babalarımız "igidlik ondu, doqquzu qaçmaq" deyib, amma çiynimdə oturub hər şeyi bitdə-bitdə yazan mələklər var, sənin qaçmağın barədə söylənənlər cəfəngiyatdır, vəssalam. Özü də o vaxt mənim ulu babam da sənin yanında olub, o da danışırmış, sonra, sağ olsunlar, fransız yazıçıları, tarixçiləri də sənin Şuşa qalasından qaçmadığını yazırlar. İşə bax da, özgələr, lap elə bu arvadbaz firənglər səni qəhrəman zənn eləyiblər, amma biz səni qorxaq sanmışıq. Amma başqa cür düşünənlər də var. Deyirlər ki, şah Qacar Şuşa qalasını mühasirəyə alanda sən də vəzir-vəkilin, sərkərdələrin, darğaların ilə Cıdır düzündə dayanıb şah Qacara acıq verirmişsən.

- Axta xan. Ay Axta xan, - deyə sənin nökərlərin səs-səsə veribmişlər.

Bax, o nökərlərin səsi indi də qulağımdadır. Xan həzrətləri, gərək sən bu nökərləriyin ağzını yumaydın, o boyda kişini xəcil elətdirməyəydin. Məgər bu şah Qacar rus İvan Qroznıdan çoxmu əzazil olub? Yox! Qaşların çatılmasın, sənin üstünə qoşun yeritdiyinə görə mən heç o Ağaməhəmməd şah Qacar əmioğlunu da bağışlamıram. Amma sən də gərək nökərlərinə o kişiyə "Axta xan" dedirdib yarasına köz basdırmayaydın. Şah Qacar da bu hərzə-hədyan sözləri eşidib sənin atandan qalma qalanı top atəşinə tutmayaydı. Axırda sən, İbrahimxəlil xan, gözün baxa-baxa camaatıyın ölümünə, evlərin dağılmasına dözmədin. Əmr elədin ki, barıt dolu 200 kuzə, 200 nəfər də atlı hazır olsun. Deyilənlər hazır olanda özün də atlandın.

- Gedək Qacarın toplarını susduraq, - dedin.

Barıt dolu kuzələr iki yüz atlının çiynində, sən də qabaqda Qala darvazalarından ildırım sürətilə çıxdın, düz birbaş Topxana meşəsinə, Qalaya tuşlanmış topçular alayının üstünə. Doğrudu, yadındadırsa, sən hələ Qaladan çıxmamış Qalabəyi Məhəmmədxan bəy qarşına yeriyib demişdi:
- Xan sağ olsun, bəlkə siz Qalanı başsız qoyub getməyəsiniz...

Sən onda onu mənalı-mənalı süzüb demişdin:
- Məhəmmədxan bəy, Pənahabadsız mən kiməm ki?

Çox keçmədi Qalaya tuşlanmış topları susdurdunuz. Qacar eşidəndə ki, sən Qaladan çıxmısan, çiçəyi çırtladı, qoşun göndərib sənin yolunu kəsdirdi? Bəli, sən İbrahimxəlil xan onda başa düşdün ki, Qaladan çıxmaqda səhv etmisən. Doğrudur, sən düşmən toplarını susdurdun, ancaq bu şücaətin sənə çox baha oturdu, qalaya girə bilmədin. Qacarın qoşunu yolunu kəsib, sənin bu cəhdinə imkan vermədi. Çarəsiz qalıb atıyın başını Car-Balakənə, qayının Ümmə xanın yanına döndərdin. Amma sənin şaha qarşı kin dolu ürəyində bir arxayınçılıq da vardı. Axı sən Ağaməhəmməd şah Qacarın başının kəsilməsi fərmanını hələ onunla birinci döyüşün zamanı vermişdin.

Qacar sənin Qalaya girə bilməyib Car-Balakənə üz tutduğunu görüb car çəkdirdi ki, ey Qarabağ əhli, Şuşa darvazalarını üzümüzə açın, xanınız sizi başsız qoyub qaçdı! Bu sözlərə inananlar da, inanmayanlar da darvazaları Qacarın üzünə açdı (ayrı əlac yoxdu). Şah Qacar qoşunu ilə Qalaya girdi. Lənət şeytana, fakt-faktlığında qalır, durum deyim ki, bu qanı özcə qanımızdan olan şahımız qəddar deyildi? Allah başıma daş salar, deyim ağılsız idi, xalqını, vətənini sevmirdi? Bu da yalan olar. Nəsə, Qacar əmioğlumuz bir neçə gün Qalada asıb-kəsməynən məşğul oldu. Xanın vəziri Molla Pənah Vaqifi də tutdurub saldı dama. Deyirlər o da tez-tez qapını döyüb soruşurmuş

ki, Qalada nə var, nə yox? Deməli, bu kişi Qacarın öldürüləcəyini əvvəlcədən bilirmiş. Doğrudan da Qacar Şuşa qalasında cəmi səkkizcə gün yaşadı. Səkkizinci günün gecəsi ay batandan sonra yatağındaca başı kəsildi. Çox adam ölən məqamda çox söz deyib, heç biri də yadda qalmayıb, amma Qacarın son nəfəsdə dediyi: "Ey evi yıxılmış, məni öldürdün, İran viran qaldı" kəlamı dillər əzbəri oldu. Qacarın kəsilmiş başını İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir xurcuna qoyub Məmmədrəfi bəyə verdi ki, aparsın əmisi İbrahimxəlil xana... Nəsə, keçmiş olsun.

Amma vəzirin Molla Pənah Vaqifi unutmadıq, kitablarını çap elədik, gözəlləri vəsf eləyən qoşmalarını əzbərlədik. Ömrünün axır çağında o kişinin də bəxti gətirmədi. Elə sənin sağlığında arvadı Qızxanımın badına getdi. Məhəmməd bəy Cavanşir - ona Batmanqılınc da deyirmişlər. Doğrusu, mən görüb-eləməmişəm, amma görənlər deyirmişlər ki, bu kişinin qılıncının ağırlığı bir batman imiş, ona görə də ona Batmanqılınc Məhəmməd bəy deyirmişlər. Nəsə, babalı deyənlərin boynuna, söyləyirlər ki, bu Məhəmməd bəyin Vaqifin arvadı Qızxanıma gözü düşübmüş (sən demə, belə nataraz işlər keçmişlərdə də olurmuş). Nə başınızı ağrıdım, arada gedib-gələn, xəbər aparıb-gətirən olur. Qızxanım da xəbər yollayır ki, a bəy, nə qədər ki şair nəfəs alır, bu sövda baş tutan deyil... Bir balaca bu yerdə adamın nəfəsi tıncıxır. Necə yəni "nə qədər ki şair nəfəs alır, bu sövda baş tutan deyil". İndiki məntiq elmilə yanaşanda belə nəticəyə gəlmək olar ki, məndən qat-qat yaşlı olan bu Molla Pənah Vaqifin nəfəsini kəs, mən də şəriətin qanunu ilə olum sənin halalca arvadın. Hə, qardaş, arvadsız ev bir qəpiyə dəyməz, amma fitnədən-feldən uzaq ola. İndi nolsun ki, sənin ərin yaşlı olub, bir cavanla bir yastığa baş qoymaq üçün gərək o kişinin qətlinə fərman verəydin? Lənət şeytana.

Nəsə, babalı deyənlərin boynuna, Batmanqılınc Məhəmməd Qızxanımın vüsalına yetişmək üçün Molla Pənahı oğlu Əliağa ilə (ona Alim də deyirlər) birgə verir cəlladın əlinə. Cəlladlar da qoca şairi qabaqlarına salıb Cıdır düzünə tərəf aparırmışlar ki, Xəzinə qayasından atsınlar dərəyə. Bir az yol getmiş Molla Pənah soruşur ki, oğul, bizi hara aparırlar? Oğlu cavab verir ki, ata, bir vaxtlar sənin adamları göndərdiyin yerə aparırlar! Eyhama bax a bir...

Deyirlər Molla Pənah oğlundan o kəlmələri eşitdikdən sonra üzüüstə torpağa düşüb deyir ki, canımı elə burda alın! İşə bax ki, bu qanlı olay da Şuşada olub. Görəsən kirvələr şairin məqbərəsinə toxunmayıblar ki? Toxunublarsa, heç nə. Daha mənim bunlara sözüm yoxdur.

Amma... Yenə bu qadasını aldığım AMMA. Batmanqılınc Məhəmməd bəy Cavanşirə də Qızxanımla uzun müddət bir yastığa baş qoymaq qismət olmadı. O da öz qiymətli başını gora salamat apara bilmədi. Ona görə ki, qolunun gücünə arxalanıb özünə xeyli düşmən qazanmışdı. Bir də əmisi İbrahimxəlil xanın Car-Balakəndə olmağından bəhrələnib hakimiyyəti ələ keçirmişdi. İbrahimxəlil xan da bunu eşidib çox pərişan olmuşdu. Çünki qardaşı oğlu ona xəyanət etmişdi. İbrahimxəlil xan öz oğlanlarından ona xəbər göndərmişdi ki, qardaşoğlu, xam xəyaldasan, şeytan səni azdırıb, mənim adamlarımı nahaqdan incitmə. Yaxın günlərdə Qaladayam. Batmanqılınc görəndə ki, tərəfdarları azdı, Qızxanımı da götürüb Qarabağdan çıxmışdı. Bu vaxt Şəki xanı kor Məhəmmədhəsən xan onun var-dövlətinə sahib çıxmaq istəmişdi. Ona xəbər göndərmişdi ki, mən kor bir kişiyəm, gəl qızımı verim sənə, kürəkənim ol, Şəki xanlığını da tapşırım sənə. Batmanqılınc işin axırını fikirləşmədən Şəkiyə — Məhəmmədhəsən xanın hüzuruna gəlmişdi. Xan da dərhal onun qollarını bağlatdırıb var-yoxunu əlindən almışdı, özünü də qanlısı şirvanlı Mustafa xanın hüzuruna göndərmişdi ki, əli qana batmasın. Mustafa xan da Batmanqılıncın bir vaxt onun atasını öldürdüyünü bildiyindən, onu görən kimi güllə ilə vurub öldürmüşdü. Qızxanım qalmışdı dul...

Aşıq Valeh qardaşımız dövrünün igid adamlarından olan Məhəmməd bəy haqqında yazmışdı ki:

Məhəmməd bəy kimi cəllad xunfəşan,

Görməmişdi hər kuzidə bir cahan.

Heyif ki, başadək sürmədi dövran,

Getdi ürəyində arzuman hanı.

Əzizim İbrahimxəlil xan, zaman keçdi, sənin bütün şücaətlərini unutduq. Çünki biz unutmağı yadda saxlamaqdan daha yaxşı bacarırıq.

... Aha, qapı döyülür, baxım görüm səhərin bu çağında kimdi. Qapını açdım, üzbəüz qonşumuz idi.

- Salam, ay qonşu.

- Əleyküm salam, səndən nə əcəb?

Qonşum qızardı, hər şey mənə əyan oldu. Qonşumuz:

- "Barmek" işıq pulu istəyir, - dedi.
Ona bir söz deməsəm də, məsələ aydın idi. Qonşumuz bu dəfə "Barmek"dən qaça bilməmişdi. Yuxulu-yuxulu qapını açanda daha geriyə yol olmayıb, əlini cibinə salıb, oradan da pul deyilən şoqərib çıxmayıb, üz tutub mənə. "Əl tutmaq Əlidən qalıb" - deyiblər, amma imkanı olana. Qabaqlar bu pul söhbətindən utanıb sıxılardıq, indi hamımızın vəziyyəti eyni olduğundan bir-birimizdən utanıb-eləmirik. Bu pul andıra qalmışın dalınca çox ora-bura qaçırıq, amma ortada bir şey yoxdu. Baş götürüb Rusiyaya gedənlərimiz də var, amma hərdən ordan pul gəlmək əvəzinə tabut da gəlir. Sağ olsunlar televiziya işçilərimiz, belənçik bəd xəbərləri isti-isti verməyi, camaatımızı məlumatlandırmağı unutmurlar.

Qonşumu yola salıb qapını örtdüm. Bah, bah, heç çölə çıxılası hava deyil. Əslində evimiz də elə çöl kimi bir şeydi, istilik sistemi neçə ildi işləmir. Yaxşı ki, bu televiziya var, adamın başını qatır... Bıy, kaş heç bu andıra qalmış televizoru açmayaydım. Bizim köhnə vətəndaşımız, komsomol işçimiz, "əziz kirvəmiz", çörəyimizə kəc baxmış, Xocalıda qanımızı axıtmış Köçəryanı görməyəydim. Zalım oğlu durub bu qarda-boranda Xankəndinə gəzməyə gəlib. İşə bax da, torpağımız o yana qalsın, adımıza da sahib çıxıblar — Köçəryan. Köçərinin axırına balaca bir "yan" artırıb olub Köçəryan. Axtarsan elə bu "yan" da bizimdi. Yan də, od tut yan! Əşi bunların işi Allaha qalıb da. A kişi, ərmənini eləyiblər erməni. Başımıza nə kül tökək bilmirəm. Ha yazırıq, ha deyirik ki, ay gözəl dünya, ay BMT, ay Avropa Şurası, ay Amerika, ay Rusiya...,

vallah, billah, bu haylar — ermənilər yox ha — haylar əsrlər öncə bizim bu gözəl ölkəmizdə dərman üçün tapılarmış. Bu haylar bir vaxtlar acından ölməmək üçün qaraçılara qoşulub Hindistandan Mesopotamiyaya gəliblər. O Mesopotamiya ki, indi adına İraq deyirlər. Və ABŞ-ın hörmətli prezidenti cənab Buş müəllim oranı əməlli-başlı abıra mindirib, qurd quzuyla bir yerdə yemlik yeyir. Sağ olsun demokratiyanın baş keşikçisi Buş müəllim! İraqın o despot padşahı Səddam Hüseyn kişinin əvvəl heykəlini uçurdub, sonra özünü də taxtdan salıb, Buş müəllimin istəyiylə orta əsrlərdəki kimi dünyanın gözü qabağında asdılar. Xəbərdarlıq belə olar ey! Hə, indi bu dünyanın padşahı olmaq istəyən Buş müəllim o İraqı yaxşıca abad eləyib. Düzdür, hərdənbir şəhərlərdə partlayış-zad olur, amma heç eybi yoxdur, yaxın günlərdə bu Səddamsız ölkə bir az da abadlaşacaq. Elə ki İraqın nefti ABŞ-a çatdı, bu ölkə cır alça ağacı kimi çiçəkləyəcək.

Hə, lap yadımdan çıxmışdı, axı, mən indicə haylar haqqında düşünürdüm. Hə, bu haylar gəlib o Mesopotamiyada nökərçilik eləyirmişlər. Midiyalıların atları üçün "Midiya otu" becərməklə, əkinçiliklə, şərabçılıqla məşğul olurmuşlar. Midiyalılar bu hayları Fərat çayı vadisinə köçürüb burada üzüm bağları saldırırdılar. Yazıq midiyalılar nə biləydilər ki, bunlar harada yaşasalar oranı "özəlləşdirmək" fikrinə düşəcəklər. Midiyalılar onların yaşadıqları yerə Ərməniyyə yaylası deyirdilər. Kaş deməyəydilər. Bu Ərməniyyə yaylası deyilən yerdə səksəndən artıq "ölkə" vardı, amma yatıb yuxu görmüş haylara birdən elə gəlmişdi ki, bu ərazilərin hamısı onlara məxsusdur. Əvvəla onların yaşadıqları yerə Ərməniyyə deyirmişlər, necə ki, biz bir vaxtlar onların daha sıx yaşadıqları kiçik bir əraziyə "Ermənikənd" deyirdik — şəhər yox ha! Amandı. Mən hələ ondan qorxuram ki, dünyaya səpələnmiş bu haylar bu "Ermənikənd"ini də məhv olmuş respublika kimi dünya tarixinə salalar. Allah, sən saxla...
Nəsə, mətləbdən aralı düşdük. Sonralar bu kirvələrin başlarını doldurublar ki, elə yaşadığınız ərazi sizin dədə-baba torpaqlarınızdır. A kişi, insafınız olsun də. Ə, dünən köçüb gəlmədiniz bura? Bu rus padşahları olmasaydılar, Allah bilir indi haradaydınız. Gör o çar zamanı Rusiyanın İrandakı səfiri Qriboyedov siz kirvələrdə nə sifət görübmüşsə, götürüb imperatoruna şanlı bir məktub yazıb. Siz Allah, o məktubu oxumamısınızsa, oxuyun, nə olar. Əlbəttə, bu Qriboyedov cənabları sizi bizdən qat-qat çox istəyirdi (bizi görməyə gözü vardı ki...), amma sizdə nə görmüşdüsə, ürəyi dözməyib, vicdanı yol verməyib, götürüb çara yazıb ki, "Əlahəzrət, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin! Onlar elə tayfadırlar ki, həmin yerlərdə bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salaraq, bura bizim qədim dədə-baba torpaqlarımızdır deyəcəklər".

Sən Allah, kişidəki uzaqgörənliyə bax ey bir. Amma bu rus səfiri, "Ağıldan bəla"nın müəllifi, general Paskeviçin bacısı oğlu İranda özünü heç yaxşı aparmadı. Bunun da cəzasını çəkdi. Ağa Yaqub adlı müsəlmanlığı qəbul etmiş bir erməni (yenə erməni!) — Şah hərəmxanasının bu xacəsi xəzinədən qırx min tümən oğurlayıb Qriboyedovun evinə qaçmışdı. Şah da cin atına minib xəyanətkarı ondan geri istəmişdi. Amma Qriboyedov erməni Ağa Yaqubun daz başından öpüb, onu geri qaytarmamışdı, əksinə şahın ünvanına hərzə-hədyanlar söyləmişdi. Bir gün, beş gün — xalq sonda dözmədi bu təhqirə. Qızmış kütlə üz qoydu Rusiya səfirliyinin üstünə. Kütlə səfirliyin altını üstünə çevirdi, "Ağıldan bəla" müəllifinin meyiti ayaqlar altında qaldı. Ağa Yaqubun da o qiymətli başı tağından ayrıldı. Şahın səfirliyi qorumaq üçün göndərdiyi qoşun dəstəsi hadisə yerinə yetişəndə iş işdən keçmişdi. Fətəli şah papağını qabağına qoyub çox fikirləşdi — istəmədi Rusiya ilə yenə müharibə başlasın. Qriboyedovun meyitini bir öküz arabasına qoyub Tiflisə yola saldı. Sonra Nadir şahın Hindistandan gətirdiyi dünyaca məşhur almazı nəvəsi Xosrov Mirzədən Peterburqa — çara hədiyyə göndərdi ki, əlahəzrət, olan oldu, keçən keçdi, Ağa Yaqub da öldü, Qriboyedov da, başın sağ olsun, başqa səfir göndər. Çar qiymətli almazı görəndə Qriboyedovu da unutdu, Ağa Yaqubu da. Amma hayların Azərbaycana köçürülməsini dayandırmadı, çünki müsəlmanlara zərrəcə etibarı yoxdu.

***

... Hə, gərək biz kirvələrə oxşamayaq, insafla danışaq. Bu hay qardaşların bir vaxt Van gölü ətrafında bir erməni Çarlığı olub. Xub, çox gözəl, amma, qardaş, gəl əyri oturaq, düz danışaq, Van gölü hara, Azərbaycan hara? Sonra onu da deyim ki, sizin o böyük Tiqranınızın zamanında dövlətinizin ərazisi bir az genişlənmişdi də. Qətiyyən buna da şəkk eləmirik. Amma bizim bu Qarabağın dağlıq hissəsinə ki, öz aləminizdə Arsax adını vermisiniz, ancaq vallah, o sərkərdə II Arsağın - əslində bizim o Ərsaqımızın sizə heç bir qram da dəxli yoxdur. Hələ onu da deyim ki, haman bu Ərsaq — sizin "dil"də Arsax — sizin o həşəmətli padşahınız Tiqranı da bir kərəm döyüşdə məğlub edib. Onu da yəqin bilirsiniz ki, sonra da bu Tiqran Roma sərkərdəsi Lukulla məğlub oldu. Sizin o "imperiya"nızın, dövlətinizin taleyi isə IV əsrdə Roma-Sasani müharibəsində bir kərəmlik həll olundu. Əlbəttə, mən buna heç də sevinmirəm. Ancaq siz də bir insafa gəlmirsiniz axı. Nəsə, lənət şeytana, indi bu Köçəryanların işi qalıb o bir Allaha. Qurban olduğumun bir kərəm nadinclik edən bu haylara bərk acığı tutdu: yeri beşik kimi yırğaladı ki, ədalətsizlik eləyənlərə dərs olsun. Amma heç bircə qram da dərs olmadı, əzilmiş başlarını beton divarların arasından kərtənkələ kimi çıxardıb, onlara baş çəkməyə gəlmiş "sülh carçısı", başıxallı Qorbaçov qaqaşa dedilər ki, Qarabağ bizimdi! Əgər bizi sevirsənsə, Qarabağı ver bizə. (Guya Qarabağ Qorbaçovun şəxsi əmlakı idi.) Yenidənqurma ustası xallı Qorbaçov qaqaşın matı-qutu qurudu. İstədi desin ki, indi gəl danış da bunlarnan. Amma hesabı içəri verib bir söz demədi.

... Sən Allah, texnikanın gücünə bax ey, on beş ildi Şuşaya gedə bilmirik, amma budu ha, ANS göstərir. Üzümüzə ağ olan Köçəryan kirvə də yetim-yesirinə baş çəkməyə gəlib. Bax, bax, bu da sənin Şuşa qalan! Qarabağın tacı Şuşa! Bax, bax, yaxşı bax! Eyvanlarında Sonalar, Pərilər yox, Siranuşlar, Haykanuşlar boylanışır. Bəh, bəh! Bax ey bir, kül olmuş başımda Xan oxuyur:

Saray xanım sarayından baxanda,

Ağ gərdənə həmayillər taxanda.

Bağışla, Xan əmi, o eyvanlardan indi Saray xanım baxmır. Odur ey, Saray xanım çadır şəhərciyində şalvar yamayır, ayın axırını gözləyir ki, gedib yardımını alsın. Yaxşı ki, sən bu günü görmədin, ay Xan əmi. Yoxsa bağrın çatlardı. Yadımdadı, sən eygülü günlərdə oxuyardın ki:

Gəlin gedək Xan bağına xəzələ,
Gözüm düşdü ağacdakı gözələ.

Xan əmi, xəbərin yoxdu, Xanbağında indi "zati-aliləri" Qukasyan kirvə gəzir. Uşaq vaxtı qorxa-qorxa cır armud yığmağa gələrdi. İndi bu dazbaş, eynəkli tösmərək özünü Arsax "respublikası"nın prezidenti elan eləyib. (Yəni Dağlıq Qarabağın.) Özündənbəy kimi bir seydi. Heç onu da qınamıram. İndi prezident olmaq yaman dəbdədi. Balaca bir gül dükanının da prezidenti var.

Hə, görəsən İmarət yerindədi? Qarabağ xanlarının xeyir-şər yeri! İmarətdəki qəbirlər — Pənahəli xanın, İbrahimxəlil xanın, Xan qızı Natəvanın məzarları durурmu görən? Çətin.

Kanalı çevirdim, işimin adı nədir. Zavod yox, fabrik yox, hamımız oturmuşuq evdə. Baho, hörmətli Minsk qrupu yenə təşrif buyurub. Qarşılıqlı güzəştdən danışacaqlar. Görəsən o boyda Ermənistan torpağı bəsləri deyilmi, daha nə verməliyik?! Ədalətdən dəm vuran bu ədalətsizlərə baxın da bir... Bu Rusiya nümayəndəsi Merzlyakovun tox sifətini, tənbəl yerişini, hiyləgər təbəssümünü görəndə lap cin atına minirəm də. Buna bax da, sən Allah, guya ermənilərlə bizim

aramızda sülh sazişi bağlamağın tərəfdarıdır. Yalansa... Bağışlayın, siz Allah. Elə bu hayları qızışdıran, torpaqlarımızı silah gücünə alıb onlara verən bunlar olmadı? Haylar bu rus generallarının əlində maşa kimi bir şeydi, lazım gələndə istədikləri yerdə sönmüş ocaqları qarışdırsınlar...
Bu rus padşahları bizim torpaqlarımızın hesabına bu haylar üçün hələ bir dövlət da yaratdı. Mollanın mıxı kimi çaldı ürəyimizin başına. Dedi evi satıram, amma mıxı satmıram... Cığallığa bax da... Evi satır, mıxı satmır ki, bazara gedəndə eşşəyini gətirib evimizin içindəki mıxa bağlasın... Lənət sənə, kor şeytan.

Telefon zəng çalır. Görüm kimdi, Allah xeyir eləsin.

- Salam, — dostumdu, Qarabağ qaçqını.

- Əleyküməsalam.

- Bu gecə Qurban kişi rəhmətə gedib.

- Allah rəhmət eləsin! Nədən?

- Ürəyindən.

- Heyif. Harda basdıracaqlar?

- Biləcəri qəbiristanlığında. Başımıza gələnləri görürsən də. Qəbirlərimiz də pərən-pərən düşüb.

- Day demə.

- Yasa gələssən?

- Hökmən.

- Sağ ol!

- Hələlik, — dəstəyi aparatın üstünə qoydum. — Çovğun elə buna görəymiş.

Evin yıxılsın, kirvə. Sizin ucbatınızdan yurd-yuvamız dağıldı. Öz vətənimizdə qaçqın olduq. A kişi, adamda bir abır-həya olar, o boyda Vedibasarı, Dərələyəzi, Göyçəni, Mehrini, Zəngəzuru, İrəvanı verdik də sizə, bəs deyil, qardaş? Əşi, Allahınıza şükür eləyin ki, ruslar heç nədən sizə dövlət yaradıb verib. Bu rus padşahları qanımızı badələrə doldurub al şərab kimi başlarına çəkəndən sonra İran şahının əziz-xələf vəliəhdi, Azərbaycanın valisi Abbas Mirzə Kürəkçayda müqavilə bağlayanda axı siz kol-kosda gizlənmişdiniz. Sizdən nə gizlədim, heç bu gün o Abbas Mirzə qardaşımızı bu müqaviləyə görə günahlandırmıram da. Axı bir vaxt o, bizim uğrumuzda vuruşa atılanda bizlərdən rus qoşununa qoşulub ona qarşı vuruşanlar da olmuşdu. Ta bundan da böyük dərd yoxdur ha, sənin özününkü düşmənə qoşulub üstünə gələ. Amma nə etmək, cidanı çuvalda gizlətmək olmaz, belə bir nataraz iş tariximizdə olub, üstünü palazla örtmək olmaz. Uzun illər adını belə çəkmək istəmədiyimiz bu Abbas Mirzə kişi rus ordusu ilə bacardığı qədər vuruşub. Amma o, geri qalmış, zəif silahlanmış ordu ilə neyləyə bilərdi?

Yazıq cavan, İran şahına — atası Fətəli şah Qacara məktub göndərib silah istəyirdi, o da sərkərdə oğluna Quran göndərdi. Əşi, bu Fətəli kişi neyləyəydi axı, öz ölkəsi silah istehsal eləmirdi, gərək silahı fransızlardan, ingilislərdən alaydı, buna da kalan pul gərək idi. (Bir də onlar bəyəm istəyərdilər İran güclü olsun? Qətiyyən yox!) Bu pul deyilən şoqərib, uzaqgörənlik, məkrli siyasət isə onda yoxdu. Amma yenə sağ olsun, məmləkətin gözəl-göyçək qızlarından seçib özünə xeyli arvad ala bilmişdi. Vallah, bu keçmiş işdi, mən saymamışam, deyirlər bu qadasın aldığım Fətəli şah Qacar nə az, nə çox — düz üç yüz arvad alıbmış. Maşallah, göz dəyməsin... Oğul-uşaq əkməkdə də fərasəti olub a. Qadasın aldığım 258 övlad dünyaya gətirib. Gərək o zaman onu yaxşı uşaq istehsalçısı kimi Avropa ölkələrinə aparaymışlar. Yaxşı döl tutmaq olarmış ondan. Təəssüf ki, aparmayıblar. Amma gərək aparaydılar, çox şey itiriblər.

Yazıq Fətəli şahın dərdi başından aşırmış, zarafat deyil, o boyda ölkə, böyük bir külfət... Amma düşmənlərinin şər-böhtanı deyilsə, deyirlər bu İran şahı əntiqə bir hovuz tikdiribmiş, hovuzun ətrafında çəmənlikdə xalçalar döşətdirib, üstünə döşəklər, mütəkkələr düzdürüb istirahətlə məşğul olmağı çox xoşlayırmış. Sulu qəlyan da damağında. Arvadları da sağ-solunda. Bu su sonası kimi xanımlar şahın istəyilə lümlüt soyunub özlərini atırmışlar hovuza. Beş günlük

dünyadı... Şah da baxıb zövq alırmış. Hətta arabir can dəftərini açıb şeir də yazırmış. Amma bir kərəm vüsalına yetmədiyi, ancaq xətrini əziz tutduğu baş hərəmi, İbrahimxəlil xanın qızı, şairə Ağabəyim ağa Ağabacıya böyük bir şeir dəftərini verib deyir ki, "Oxu, bəyənmədiyin şeirin üstünə barmağını qoyarsan". Ağabəyim ağa da şahın şeirlərini oxuyub, dəftəri çevirir və şəhadət barmağını qoyur üstünə. Şah başına döndüyüm də qulaqlarına qədər qızarır.

... Allah, sən saxla. Adamın başı da çox möcüzəli bir şeymiş ha. İndi mən yazıq neyləyim ki, televizorda Şuşaya baxdığım, Köçəryan "qaqaşın" sifətindəki adama od qoyan o ironiyadan od tutub yandığım yerdə xəyalım uçub keçmişə, İran şahı Fətəli şah Qacarın sarayına. O əziz canınız haqqı, məndə zərrəcə günah yoxdur. Hamısı bu çiynimizdə qərar tutmuş bəzəkli "qarpızdadı". Bir balaca ki qurdaladın, gərək gecə-gündüz oturub xəyala dalasan, xəyalın sənə qaytardığı o olmuş işlərə tamaşa eləyəsən.

Mətbəxdən arvadağamın səsi gəldi:

- Xeyir ola, yenə xəyalın dağda-arandadı. Ay evi yıxılmışın oğlu, xalq-xalq deyə-deyə ömrünü çürütdün. Bir gör nə gündəsən. İndi kitab-dəftərə qiymət verən var? Dur get barı o "qul bazarı"na, bir usta tap gətir. O su bakını düzəltdir. Xarabaya su da çıxmır.

Fikirli olduğumdan, əvvəl-əvvəl əziz-xələf arvadımın nə dediyini başa düşmədim:

- O nə qul bazarıdı elə? Belə bazar da var? Qul satırlar? Quldarlıq dövrü-zaddı bəyəm?

Arvadağa əlində qab dəsmalı gəlib mat-mat üzümə baxdı:

- Ayıl, özünə qayıt, ay Mətləb. Yazıqsan, bizi də yazıq günə qoymusan. Dilim-ağzım qurusun, havalanıb-eləyərsən. Yox, qul bazarında qul satmırlar, işsizlərdi də, müştəri gözləyib, ona-buna yarayırlar. Odur ey, "Xalqlar dostluğu"nun yanında toplaşıblar, indiki dövrdə qul olmaz, amma oraya camaat arasında belə deyirlər.

- Söz danışdın da sən də. Bu qar-qiyamətdə "qul" hardadı, usta hardadı?

- Ağzında "qul" deyirsən. "Qul" üşüməz, üşüməyə haqqı yoxdu. Çünki evdə arvad-uşaq çörək gözləyir axı. Sənə baxma. Sən quru bəysən, quru bəy!

- Səhvin var, bəy döyüləm, amma qul olmağa da halım yoxdur. Qoy qar kəssin, gedib usta tapıb gətirərəm.

Arvadağa arxayınlaşıb mətbəxə keçdi.

Qarın isə kəsməklə arası yoxdur. Mənim isə yaddaşımda yayın lap qorabişirən çağıdır. Qoca tacir Dərbənd bazarından 39 qul almışdı, adətə görə də qırxıncı qulu qul sahibi ona bağışlamışdı. Bu bir adət idi. Ona bağışlanan bu qul yaşca aldığı qulların hamısından balacaydı, özü də arıq-sısqa bir uşaq idi. Tacir balaca qula baxıb istədi sahibinə qaytarsın ki, neynirəm bunu, ayaq üstə ölür. Amma uşağın ona zillənmiş ifadəli iri gözlərinə baxanda fikrindən daşındı.

Qul arabaları Hələbə tərəf yol gedirdi. Ayın işığında ətrafdakı hər şey sirli-sehrli görsənirdi. Kol-kosa soxulmuş cırcıramalar, böcəklər öz dillərində yorulmaq bilmədən oxuyurdular.

Qul arabaları tozlu yolla irəliləyirdi. Bağdadda onları nə gözləyirdi, ora sağ-salamat çatacaqdılarmı — arabadakılar ancaq bu barədə düşünürdülər. Onlar artıq öz taleləri ilə barışıb susmuşdular. Qul tacirinə hədiyyə verilmiş qırxıncı qul arabaya hamıdan axırda mindiyindən yeri arabanın lap arxasına düşmüşdü.

O, susaraq ətrafa baxırdı. Ora-bura qaçışan dovşanları görəndə balaca qulun arıq, qarayanız sifətində xəfif bir təbəssüm işarırdı. Ancaq bu təbəssüm işığı dərhal da sönürdü. Ata-anası basqınçılar tərəfindən öldürülmüş bu balaca qulun bu dünyada daha sevinib-şadlanmağa heç nəyi yoxdu. Nəyə sevinəydi, nəyə güləydi! Tanrı ona heç olmasa cəlbedici bir boy-buxun da verməmişdi ki, sabah onu da almağa can atan bir insan tapılaydı.

Qoca tacir ən qabaqdakı arabanın önündə dəvənin üstəydi. Hərdən onun zümzüməsi eşidilirdi. Deyəsən, qoca tacir yuxusunu qaçırmaq niyyətilə oxuyurdu. Onun bu zümzüməsi yorğun qullara sanki layla çalırdı. Hərdən canavar ulartısı da eşidilirdi. Qullar bir an bu məşum səsdən diksinib göz qapaqlarını qaldırıb key-key ətrafa baxıb, təzədən yuxulayırdılar.

Birdən qoca tacir nəsə bir tappıltı səsi eşitdi. Ətrafa boylandısa da, əhəmiyyət vermədi. Xeyli getmiş arabaları dayandırıb satın aldığı qulları özü bir-bir nəzərdən keçirəndə qırxıncı qulu yerində görmədi. Dəvəsini geri sürdü. Qırxıncı qul yuxulu-yuxulu arabadan necə düşmüşdüsə, eləcə yolun tən ortasında qalmışdı. Qoca tacir uzun qamçısının ucuyla balaca qulu dümsüklədi:

- Ölməyəsən səni. Qalx ayağa! Yönlü zibil olsaydın, qul alverçisi səni mənə bağışlamazdı.

Balaca qul ayağa qalxıb müti halda ağasının qarşısında dayanmışdı. Daha doğrusu, dəvənin. Tacirin dəvəsi yorulmaq bilmədən çənəsini oynadırdı.

Qoca tacirin yerində donub qalmış balaca qula nədənsə bir an rəhmi gəldi.

- Adın nədi? - soruşdu.

- Eldəniz.

Qoca tacir onu bir daha süzüb "adına bax, özünə bax" düşündü.

- Yeri min arabaya.

Eldəniz ay işığında ağaran tozlu yolla xeyli aralıda dayanmış arabalara doğru yeridi.

Tacirin dayanıb səhərin açılmasını gözləmək fikri yox idi. Sərinkən yolu başa vurmağa çalışırdı. Gündüz göydən sanki od yağırdı. Adam başını soxmağa kölgəlik axtarırdı.

Qoca taciri də hərdən elə dəvənin üstündəcə huş aparırdı. Bu dəfə dəvənin fınxırtısına mürgüdən gözünü açdı. Qara nər nə üçünsə narahat idi. Əyri boynunu bir az da əyərək yerindən tərpənmirdi. Tacir dizləri ilə nəri mahmızlasa da, xeyri olmadı. O, birdən ay işığında yolun tən ortasında quyruğu üstə şahə qalxmış iri gürzə ilanını gördu. Canından xəfifcə bir üşənti keçdi. İlan yerindən tərpənmirdi, tez-tez haça dilini çıxarıb şəffaf gözləri ilə düz qoca tacirə baxırdı. Qoca tacir elə nərin üstündəcə uzun qamçısını şaqqıldatmağıyla şahə qalxmış gürzəni kənara atmağı bir oldu. Gürzə şappıltı ilə yerə düşdü və bir an sonra sürünərək tikanlığın içində görünməz oldu. Bu mənzərəni seyr edən qullar arxayınlaşıb gözlərini təzədən yumdular.

Arabalar beşik kimi yırğalanırdı. Hərdən arabanın təkərləri çala-çuxura düşüb qulları yuxudan oyadırdı. Amma yorğun qullar tezcə də yuxuya gedirdilər. Bəlkə də onlar heç vaxt bu gecəki qədər yatmayacaqdılar. Ağzında qul deyirsən, qul nədi, yatdı nədi.

Bir neçə ağac getmiş, tacir nərin ovsarını dartdı. Yenə qulları bir-bir gözdən keçirməyə başladı. Sonuncu arabaya yaxınlaşanda qəzəbdən sifətinə qan doldu. Eldəniz arabada yox idi.

Tacir nərə bir qamçı çəkdi. Qəfil qamçıdan diksinən qara nər irəli sıçradı. Yenə həmin mənzərə idi. Eldəniz yolun tən ortasında yıxılıb qalmışdı. Elə yatırdı, elə bil yumşaq yorğan-döşəkdə idi. Qoca tacirin qamçısı şaqqıldadı, amma yenə bu balaca qulu vurmağa onun əli gəlmədi. Balaca qul isə yenə toz-torpağın içindən qalxıb gözlərini ovuşdurdu. O, bu dəm ağasından hər cür cəza gözləyirdi. Gecənin bir aləmində, kəndlərdən, şəhərlərdən uzaq bir yerdə bu balaca qulun səsinə səs verən kim olacaqdı ki? O, yenə də qoca tacirin qabağında dayanıb ona veriləcək cəzanı gözləyirdi. Tacir isə nə səbəbsə, yenə ona cəza vermədi. Onu balacalığınamı, cılızlığınamı bağışladı, Allahdanmı qorxdu, bilmədi, ancaq qoca tacir onu vurmaq üçün göyə qaldırdığı qamçısını astaca endirdi.

- Eldəniz, bir də arabadan düşsən, səni qoyub gedəcəm! - dedi. - Eşitdinmi?

- Eşitdim, ağa.

- Bax, deyirəm, bir də belə eləsən, səni qoyub gedəcəm, sən də qurd-quşa yem olacaqsan.

Uzaqlarda yenə canavar uladı. Elə bil o da tacirin dediklərini təsdiq eləyirdi. Eldəniz yerə baxa-baxa arabalara doğru getdi. Ay işığında onun tozlu yolda yalın ayaqlarının ləpirləri aydınca görünürdü. Qoca tacir qara nərini onun ləpirlərinin üstü ilə sürürdü. Arabaya çatanda tacirin köməkçisi özünü yetirib onu bir göz qırpımında yerdən qaldırıb arabanın arxasına atdı.

Tacir ona bir də tapşırdı:

- Bax, sənə dediklərim yaddan çıxmasın.

Sonra qara nərini qabağa sürdü. Arabalar da onun arxasınca yerindən tərpəndi.

Eldəniz Allaha yalvardı ki, daha onu yuxu tutmasın. Əgər onu yuxu tutsaydı, yenə də yumalanıb düşəcəkdi yerə. Ağası sözünün sahibi olsaydı, qurd-quşa yem olacaqdı.

Eldəniz gözünə dolmuş yuxu ilə bacarmırdı. Doğrudan da, düz demişlər, yuxu baldan şirin imiş. O, indi bu balın lap içindəydi. Nə qədər yol getmişdilər xəbəri olmamışdı. Amma birdən hiss etdi ki, altında nəsə silkələnmir, çalxalanmır. Yuxulu-yuxulu əlini yanlarına atdı. Əlləri yumşaq toza batdı. Aha, deyəsən, yenə də yumalanıb düşüb yerə. Bircə tacir onu qoyub getməyəydi.

Gözlərini açdı, yerdə arxası üstə uzanmışdı. Günəş yavaş-yavaş qalxmaqdaydı. Ay batmışdı, göyün üzünə çilənmiş ulduzlar sönmüşdü. Balaca qul qalxıb oturdu. Qul karvanı yox idi. Qoca tacir verdiyi sözə əməl eləmişdi, onu bu çölün düzündə atıb getmişdi. Bəs o, indi neyləsin?

Oturub qurd-quşa yem olacağı anımı gözləsin? Bəlkə geri qayıtsın? Hara, kimin yanına? Yox, ancaq irəli, qul karvanının ardınca getmək olardı. Karvan isə gözə görünmürdü. Eldəniz arabaların izini tutub gedirdi. Günortaya qədər dayanmadan yol getdi, amma qul karvanına çata bilmədi. Elə bil karvan yağlı əppəyə dönmüşdü. Ayaq saxladı, bərk acmışdı. Şəlliyi görüb yaxınlaşdı, salxım-salxım böyürtkənləri görəndə sevindi. Günəşin işığında bərq vuran qapqara böyürtkən gilələrindən dərib yeməyə başladı. Əlləri, ağzı bənövşəyi rəngə bulaşmışdı. Yeyib doyandan sonra yola çıxdı. Getmək lazım idi. Bilmirdi ki, qoca tacir qulları hara aparacaq, hansı karvansarada dayanacaq. Amma araba təkərlərinin izi çox aydınca görsənirdi. Dünyanın o başına qədər də olsa, bu izi tutub gedəcəkdi. Çünki başqa çıxış yolu yox idi. Bu ucsuz-bucaqsız düzənlikdə ondan başqa kimsə yoxdu. Ətraf kol-kosluq idi. Hərdənbir iri ağaclara da rast gəlirdi. Çobanaldadan quşları ayağının altında ora-bura uçuşurdu. Siçanlar yuvalarından çıxıb acından civildəşirdilər. Günəş isə göydən od ələyirdi. Bir sirkan topasını götürüb başına tutdu ki, gün onu ütməsin. Yaxşı ki, arabaların izi itmirdi. Amma bu izin sonu da görünmürdü. Ancaq o, yenə də qul karvanına çatacağına ümidini itirmirdi. Dayanmadan gedirdi. Elə bil ki, onu qabaqda səadət gözləyirdi. Amma yaxşı bilirdi ki, qabaqda onu heç bir səadət-filan gözləmir. Qul karvanına çatıb qullardan biri olmaqdan, kiməsə satılmaqdan başqa nə ola bilərdi ki?

Qul! Bu sözdən heç xoşu gəlmirdi. Kiminsə qulu olmaq faciyədi. Doğrusu, azad olmağın heç yolunu da bilmirdi. Amma, balaca da olsa, nə zamansa azad olacağına qəlbində bir ümid işarırdı. Nə zaman, bilmirdi. İndilikdə karvana, ancaq karvana çatmalı idi. Taleyi, sabahı o karvandan asılıydı.

Gün əyilmişdi, artıq havada da bir sərinlik vardı, amma qul karvanı görünmürdü. Bütün qüvvəsini toplayıb tələsdi. Gecə düşməmiş, araba təkərlərinin izini itirməmiş karvana çatmaq istəyirdi. Xeyli getmişdi ki, uzaqdan qaraltı görsəndi gözlərinə. Qəlbində ümid işardı. Bircə o qaraltıya tezcə çataydı.

Günəş artıq batmaq üzrə idi. Üfüq şəfəqdən al rəngdə idi. Bir azdan şər qovuşacaqdı. Günəşin son şəfəqləri də çəkiləcəkdi. Sonra gecə düşəcəkdi. Gecənin də ki zəhmi yaman ağırdı.

Hiss eləyirdi ki, qaraltı hərəkət etmir, dayanıb. Tələsdi. Beynində acı fikir dolaşdı: "Qul olmağamı tələsirsən? Qul olmağamı can atırsan? Sənin ki atan-anan qul olmayıb. Səni ki anan qul doğmayıb. Eybi yox, qoy səni qul zənn etsinlər, amma təki ürəyində qul olma... Qul olma... Qul olma..."

Aha, odur, qul karvanıdır. Yəqin dincəlirlər. Karvan da, qullar da, tacirin qulluqçuları da toranlıqda aydınca görsənirdilər. Amma deyəsən, onu unutmuşdular. Bəlkə belə deyildi. Hər halda karvana çatdığı üçün sevindi. Təkliyin, tənhalığın qorxusunu artıq yaşamışdı.

Qoca tacir balaca qulu qarşısında görəndə gözlərinə inanmadı.

- Sənsən?

- Mənəm.

- Bəs sən necə gəldin?

- Arabaların izini tutub gəldim.

- Mən elə bildim, sən artıq qurd-quşa yem olmusan.

- Sağ olsunlar, mənə toxunmadılar.

Tacirin dodaqları qaçdı:

- Yəqin səndən qorxublar!?

- Məndən yox, ağa, mən kiməm ki... Tanrımdan qorxublar.

Tacirin qaşları çatıldı. "Qul olsa da dərrakəsi var" - düşündü.

- Get dincəl, - dedi tacir, sonra da əmr elədi ki, ona yemək versinlər.

Yeməyini yeyib yatdı. Tacir sabah onları qul bazarına çıxaracaqdı...

Gecə keçdi, səhər açıldı. Qoca tacir qul karvanını qul bazarına çəkdi. Balaca qul bazarın darvazasından at belində onlara yaxınlaşan, zahirən də ətrafdakılardan seçilən atlıya tamaşa edirdi. Atlını görən bazar əhli ehtiramla ikiqat əyilib təzim edirdilər. Pıçapıç gəlib qullara da çatdı.

- Bu adam Sultan Mahmudun vəziri Əbu Hamid ibn Əhməd əl-Sümeyrədir.

Vəzir Əbu Hamid atını düz onlara sarı sürürdü. Qulamları da ardınca. Vəzir onlara çatıb dayandı. Cilovdar özünü yetirib, vəzirin atının cilovundan yapışdı.

Qoca tacir vəzirin qarşısına yeriyib təzim etdi.

- Xoş gördük, vəzir həzrətləri.

- Xoş gördük - deyə vəzir bir-bir qulları nəzərdən keçirdi. Balaca qulun — Eldənizin qarşısında ayaq saxladı, xeyli bu çəlimsiz, yapışıqsız, qayışbaldır oğlanı süzdü: - Xocam, bu uşaqdan başqa bütün qullarını alıram, - dedi.

Qoca tacir baş əydi:

- Buyuruq sizindir, ağa.

Qullar tacirdən ayrılıb vəzirin qulamlarının yanına toplaşdılar. Eldəniz tək qalmışdı. İndi taleyi necə olacaqdı, qoca tacir onunla necə rəftar edəcəkdi.

Bəs bütün günü karvana çatmağa buna görəmi can atmışdı? Bu zəhmətə, əziyyətə dəyərdimi? Birdən özünü vəzirin atının ayaqları altına atdı.

- Ağa, məni də götür!

Vəzir balaca qulun cəsarətindən heyrətlənmişdi:

- Sən hələ balacasan, - dedi.

- Mən də böyüyəcəm də, ağa.

- Böyüyərsən, baxarıq.

- Bilsəydim mənə sahib çıxan tapılmayacaq, heç bu qul karvanının dalınca qaçmazdım.

Vəzir Əbu Hamid üzünü qoca tacirə tutdu.

- Bu uşaq nə deyir, Xocam?

Tacir əhvalatı vəzirə danışdı. Vəzir hələ də qarşısında dayanmış balaca qulu bir daha başdan-ayağa süzüb:

- Keç qulların yanına, balaca, - dedi.

Vəzir Əbu Hamidin ürəyində balaca qula qarşı qəribə bir hiss yaranmışdı. Mərhəmət və məhəbbət... - Gedək!

... Günlər ötüb-keçirdi. Balaca qul da yavaş-yavaş böyüyür, ətə-qana dolur, ərgənlik yaşına dolurdu. Vəzir Əbu Hamid bu yeniyetmənin dərrakəsindən, bacarığından, çevikliyindən çox razı idi. Vəzir artıq heç ona qul gözüylə baxmırdı.

Eldənizin istəyi də elə bu idi. O, nəyin hesabına olursa-olsun qul adını üstündən götürmək istəyirdi. Boş vaxtlarında nişan qoyub ox atır, cıdıra çıxır, qılınc çalmağı öyrənirdi. Bir dəfə onun bu işlərini görən vəzir Əbu Hamid:

- Eldəniz, döyüş fəndlərini öyrənirsən, yoxsa sərkərdə olmaq istəyirsən? - soruşdu. Eldəniz nəzakətlə baş əyib:

- Ağam izin versə, sərkərdə də ola bilərəm.

- İnandım. Gün gələr sınayaram səni.

- Döyüş meydanında?

- Bəli, ancaq döyüş meydanında. Davadan öncə hamı qəhrəmandı, oğlan. Hərbə girmək, ölümün qabağına çıxmaq qəhrəmanların işidir.

- Hörmətli ağam. Tanrımızdan arzum budur, mən sizin gözünüzdən düşməyim, ucalım. Mənə şərəfli bir döyüş meydanı qismət olsun, sınaqdan keçim.

Bu söhbətdən heç bir ay da keçməmişdi, 1122-ci il idi. Bir gecə ismaililər vəzir Əbu Hamidin evinə hücum edib, onu öldürdülər, amma var-dövlətinə sahib ola bilmədilər. Bu hadisə o qədər gözlənilməz və sürətlə baş verdi ki, Eldəniz heç bir şücaət göstərə bilmədi. Vəzirin ortada qalmış meyitinə acı-acı baxaraq onun dediyi: "Davadan öncə hamı qəhrəmandır" sözlərini yadına salıb bərk kədərləndi. Sultan Mahmud qiyamçıları layiqincə cəzalandırdı. Ancaq vəzirinin var-dövlətinə sahib çıxmağı da unutmadı. Hətta onun qullarını da öz himayəsinə götürdü. Eldəniz də bu qulların arasındaydı. Sultan sarayında da onun bəxti gətirdi. Burda da ondan razı qalmışdılar. Fərasətinin sorağı Sultan Mahmudun da qulağına çatmışdı. Sultan Mahmud fikirləşdi ki, bu cavanın gələcəyi var, onun tərbiyəsilə məşğul olmaq lazımdır. Bir gün o, Əmir Nasehi yanına çağırıb dedi ki, bu Eldənizin təlim-tərbiyəsilə özün məşğul ol. Onunla qul kimi rəftar etmə! Qəlbində bizə kin bəslər. Kinli adamın da, bilirsən də, əlindən yaxşılıqdan başqa hər şey gələr.

Əmir Naseh baş endirib: - Buyuruq sahibisiniz, Sultanım, necə məsləhət bilirsiniz, elə də olacaq, - dedi.

Sultan Mahmud Eldənizi yanına çağırtdırdı.

- Səni Əmir Nasehə tapşırıram, ox atmağı, qılınc oynatmağı, at çapmağı ondan öyrənərsən. Siyasət dərsi keçərsən, adamlarla rəftar qaydalarını öyrənərsən.

Eldəniz təzim etdi.

- Allah sizdən razı olsun, Sultanım. Yolunuzda canımdan keçməyə hazıram.

Sultan başını ahəstə tərpədib susdu. Bu o demək idi ki, gedə bilərsiniz.

Əmir Nasehlə Eldəniz Sultanın otağını tərk etdilər.

***

... Sarayda ölüm sükutu vardı. Hamı qəmə qərq olmuşdu. Səbəb də Sultan Mahmudun gecənin yarısı qəflətən dünyasını dəyişməsi idi. Eşitdiyi xəbərdən Eldənizin də qanı bərk qaralmışdı. Artıq o, on ilə yaxın idi ki, Sultan Mahmudun sarayında yaşayırdı. Ancaq doğru deyiblər ki, hər gecənin bir hökmü var. Tanrının izni ilə Sultan Mahmud haqqa qovuşmuşdu. Ölənlə ölmək olmaz, deyirlər. Gecə-gündüz yas saxlayıb ölkəni başsız qoymaq olmazdı, ona görə də Sultan II Toğrul taxta çıxdı.

... Televizorda son xəbərləri verirdilər. Tərtər bölgəsində atəşkəs yenə də pozulmuşdu. Bir əsgərimiz snayperlə vurulmuşdu. Di gəl döz də bu dərdə. Bu da atəşkəs. Belə də atəşkəs olarmı?

Kəssə hər kim tökülən qan izini,

Qurtaran dahi odur yer üzünü.

Ulu şair, hələ də yer üzündə tökülən qanların qarşısını alan kimsə yox!

Baho, bu ATƏT-in Minsk qrupu yenə Bakıya gəlib ki. Vallah, bu Merzlyakovu görəndə lap dişim bağırsağımı kəsir, gör necə tənbəl-tənbəl, dərdsiz-qəmsiz yeriyir. Bəlkə elə bu Qarabağın "açarını" vaxtı ilə Yeltsin verib ona ki, bu "açarı" bərk-bərk saxla. Hələ bu Stiven Mənə bax, sən Allah. Yaxşı, ay dünyanın başbilənləri, ay demokratiyanın ali mərtəbəsində qərar tutmuş ölkələr, bu Qarabağ münaqişəsini həll etmək istəyən kəslərin arasında niyə bir nəfər də olsun müsəlman bəndəsi yoxdur? Yəni sizcə bu müsəlmanlar sülh istəmir? Nəyə görə sizin nəzərinizdə müsəlman olan kəs barbar, geriqalmış, terroristdi? Bizə olunan bu zülmlər, haqsızlıqlar bircə gün sizə olsaydı, görərdik necə sülhpərvərsiniz. Yer üzündə heç bizim millət qədər sülh istəyən var bəyəm? Sülhsevər olmasaydıq torpaqlarımız işğal olunmazdı. Ə, qardaş, bu yalançı danışıqlara son qoyun dayna. İrəvanda bir cür, Bakıda bir ayrı cür nağıl danışmayın də. Qaraya qara, ağa ağ deyin. Bircə söz bilirlər: "qarşılıqlı güzəştlər olmalıdı". Daha hansı güzəştləri etməliyik, ay dünyanın demokratik ölkələrinin demokratik kişiləri? Torpağı işğal olunan, yurdu viran qalan, mədəniyyəti, tarixi abidələri ayaqlar altında tapdalanan bir xalq işğalçı dövlətə nəyi bağışlamalıdır?! Şəhərləri yerlə yeksan olmuş, övladları pərən-pərən düşmüş, çadırda doğulub, çadırda ölən, ünvanı çadır şəhərciyi, vaqonlar olan bu insanlar sizin sevdiyiniz, hər zaman tərəfini saxladığınız haylara daha nə bağışlamalıdır? Nəyi güzəşt etməlidir? Biz vaxtı ilə elədiyimiz güzəştlərin indi altını çəkirik. Ermənistan dövləti bəs bizim torpaqlarımızda bərqərar olmayıbmı? Yəni sizin doğrudanmı tarixdən xəbəriniz yoxdu? Doğrudanmı vaxtilə ermənilərin İrandan, Türkiyədən Azərbaycana Rusiya dövləti tərəfindən köçürülüb yerləşdirilməsindən heç kəsin xəbəri yoxdu? Axı kitab oxuyan hər kəsə tarixi qaynaqlar bəllidir. Ola bilməz ki, hər kəsə məlum olan, siz cənablara məlum olmasın. Belə olan halda biz daha neyləməliyik ki, bizi anlayasınız, cənablar? Deyirsiniz müharibə yolverilməzdir! Çox gözəl, sizinlə şərikik, bəs bu haylara özgə torpağını işğal etməyə kim haqq verib? Gəlirsiniz, xala-xətrin qalmasın, gedib hələ qaçqınlara da baş çəkirsiniz. "Bu cür şəraitdə yaşamaq olmaz, qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdır" - bəyanatlarınız ürəyimizdən xəbər verir. Bəs nəticəsi? On beş ildir ki, gəlib-gedirsiniz, həmsədrlər bir-birini əvəz eləyir (təkcə Merzlyakovdan başqa - deməli, Qarabağın açarı bu kişidədir), di gəl ki, münaqişə həll olunmur. Çox fikirləşdim, götür-qoy etdim və nəhayət bu qərara gəldim ki, bu həmsədrlər, demokratik ölkələrin demokratik kişiləri bu işə qarışmasalar, beş-on gecə bizim dərdimizi çəkməsələr, gedib öz evlərində rahatca otursalar, inanıram ki, haylarla bizim şərikli malımız dərhal həll olunacaq. İntəhası, nə gizlədək, sakit oturmursuz, ağalar! Ədalət tərəzisinin gözünü əyirsiniz. Sizdən soruşan yoxdur ki, bu dünya xalqlarına sizi kim vəkil seçib? Belə də vəkillik olarmı, ağalar?

... Bu quş qripi də bir bəla olub keçib xirtdəyimizə də. Belə getsə, heç nə, başımız bir az da quş qripinə qarışar. Tanrı bəzi pis adamların üzündən yer üzünə dərmanı tapılmayan bəla göndərir ki, ağlımızı başımıza yığaq, amma nəticə çıxartmırıq da. Əməlimizdən əl çəkmirik ki, çəkmirik...

Yaxşı, bu Eldəniz necə oldu? Bu hardan gəlib yadıma düşdü?

Hə, onu da yadıma arvadımın o "Qul bazarı" kəlamı salmışdı. Üzünü görmədiyim, amma orta məktəbdə tarix kitabından adını bildiyim Eldəniz gəlib xəyalımdan keçdi. Dünyaya çox qullar gəlib-gedib, amma mən biləni bir neçə nəfərin adı tarixə düşüb — Spartak, Alptəkin, Mahmud Qəzvinin atası Səbüktəkin... bir də Atabəy Şəmsəddin Eldəniz...

Hə, qardaş, bəxt yaxşı şeydi, II Toğrul Sultan Mahmudun yerində rahatlanandan sonra Eldənizi də unutmamışdı, onu özünün "məmlük"ü eləmişdi. Sultan Toğrulun gözəl-göyçək, ağıllı, tədbirli arvadı Möminə Xatun da nədənsə ona çox iltifat göstərirdi. Hərdən fürsət düşəndə ona deyirdi ki, Eldəniz, bu saray intriqa yuvasıdır, fitnə-fəsad işlərdən həmişə uzaq dur. Belə etsən heç vaxt başın ağrımaz. Eldəniz də onu lal baxışlarıyla öpüb-oxşayır, söz verirdi ki, cəncəl işlərdən yüz ağac uzaq olacaq... Möminə Xatun da gəncin atəş kimi yanan gözlərinə qıyğacı bir nəzər salaraq uzaqlaşırdı. Möminə Xatunmu məsləhət bilmişdi, yoxsa Sultan II Toğrul özü bu fikrə gəlmişdi, nə idisə, Sultan Eldənizi bir gün azyaşlı oğlu Arslana Atabəy təyin etdi.

Amma Sultan II Toğrul da çox yaşamadı, 1135-ci ildə dünyasını dəyişdi. İndi də Sultan Məsud taxta çıxdı. Eldəniz yenə saraydaydı, yenə Arslanın Atabəyi idi. İndi o, Arslanın Atabəyi kimi Möminə Xatunla lap tez-tez görüşürdü. Artıq onun atəş saçan baxışları ürkək deyildi. Möminə Xatun da Eldənizin ona zillənmiş lal baxışlarından qaça bilmirdi. Daha doğrusu, qaçmaq istəmirdi. Bu xanım-xatın qadın artıq öz taleyi ilə barışmışdı, həmişə yas içində yaşaya bilməzdi ki. Bir gün Sultan Məsud elə bil Eldənizin gözlərindən qəlbini oxudu. Ona dedi ki, Möminə Xatunu sənə almaq istəyirəm, razısanmı? Eldənizin yanaqları allandı, başını aşağı saldı. Sultan sualını təkrar elədi:

- Razısanmı?

- Ey böyük Sultan, məsləhət sizindi. Amma bilmirəm Möminə Xatun bu izdivaca razılıq verərmi?

Sultan Məsud gülümsədi:

- O sənlik deyil. Belə bir cavan xanımın ərdə olmağı məsləhətdir.

- O sultanın xanımı olub, mən isə...

- İndi sən qul deyil, bir Atabəysən.

- Mənə belə həssas yanaşdığınıza görə sizə minnətdaram, amma mən qul olanda da qul deyildim. Sultan Məsudun qaşları çatıldı:

- Anlamadım. Necə yəni qul olanda da qul deyildim?!

- Çox-çox cah-calal sahibi var ki, ağa olsa da, qul kimi bir şeydi. Nəfsinin, tamahının quludur. Mən isə lap balacaykən bir qul kimi Həmədana gətirilsəm də, ruhum heç vaxt qul olmayıb.

***

- Mətləb, telefon... - uşaqların anasının o biri otaqdan səsi gəldi. Bağışla, Eldəniz kişi, səndən ayrılmalı olacam. Telefon zəng çalır, qoy görüm kimdi. Telefona çatıb - ya Allah, xeyir elə - deyib dəstəyi qaldırdım. - Bəli.

- Salam, - kişi səsiydi, amma hələ kimliyini anışdırammamışdım.

- Əleykəssalam. Kimdi?

- Mətləb müəllim, tanımadın məni?

- Səsin doğma gəlir, amma...

- Ə, məni nə tez unutdun, danışan Muraddı.

- Ay saqqalın ağarsın, bayaqdan adını de də, vallah, başımda min bir səs var, o saat tanıyammadım. Çoxdandı səsin gəlmir.

- Hardan gəlsin. Səsimizi batıranın səsi batsın.

- Amin! Ay Murad, indi haralardasan?

- Qaçqın harada olar? Səpələnmişik rayonlara. Mən qardaşın da Sabirabad düzündə. Qarğı-qamışdan özümə bir çavıstan tikmişəm, birtəhər başımızı girləyirik.

- Darıxma, inşallah, bir gün hər şey yoluna qoyular.

- Yaxşı ki, demirsən bu Novruz bayramı Cıdır düzündəyik.

- Yox, elə səhvə yol vermərəm, Novruza nə qalıb. İndi kiçik çillədi.

- On beş ildi özümüz-özümüzü aldada-aldada yaşayırıq, dünya dövlətləri də başımızın altına yastıq qoyur. Qorxur birdən ayılıb-eləyərik.

- Dünya dövlətləri deyil elə bizi bu günə qoyan, əl-ayağımızı bağlayan.

- Görünür bizim canımızda təpər yoxdu. Kimi dindirirsən deyir lazım gəlsə... Bu «lazım gəlsəni» bir vurub öldürən yoxdu də. Lazım gəlsə, lazım gəlsə... On beş ildi yurdumuzda ermənilər turp əkir, özü də irisindən, biz yenə də deyirik lazım gəlsə.

- Görünür bizim bilmədiyimiz işlər çoxdu.

- Biz nəyi bilmirik ey... Dünya yaranandan ağıllı fikirləşincə dəli vurub çayı keçib. Belə çıxır ki, dünyanın naz-neməti dəlilərə qismət olub. Ay qardaş, görən bir hesablayan var son bu on beş ildə nə qədər qaçqın-köçkün dünyasını dəyişib? Elə bir rayon yoxdur orada qaçqın qəbiristanlığı salınmasın. Bunu Allah götürər, qağa? Nə qədər ağsaqqal, ağbirçək Vətən deyə-deyə dünyadan köçdü. Uşaqlarımız çadır şəhərciklərində, qarğı-qamış çavıstanlarda doğuldu. İndi onlar böyüyüb on beş yaşına çatıb, hələ biz nəğmə oxuyuruq. Çox keçmişəm bu dağlardan, Durna gözlü bulaqlardan...

- Niyə susursan, qağa?

- Doğru sözə nə deyim, Murad, söz tapa bilmirəm. Yadındadı, bir vaxt Azadlıq meydanında mitinqlərdə - Qarabağ! Qarabağ! - deyə qışqırırdıq.

- Gör indi səni qoyarlar ora gedib, Qarabağ! Qarabağ! - qışqırasan.

- Başqa söz deyirəm. Onda biz özümüz qışqırıb, özümüz eşidirdik. Gərək onda millət gedib doluşaydı Qarabağın meşələrinə, kəndlərinə, qoruyaydı yurdunu.

- Deyirsən də, səni ora buraxan vardı? İstəsəydilər səni o vaxt heç o Azadlıq meydanına da buraxmazdılar, amma onda belə lazımdı... Çoxlarının sifəti çıxdı ortalığa. Sandıqlar açıldı, pambıq töküldü...

- Yox, sənինlə razı deyiləm, Murad, millət ayağa qalxmışdı, onun qarşısında kimsə dayana bilməzdi. Amma bu danılmazdı ki, millətin azadlıq niyyətini başqa məcraya yönəldənlər oldu. Hakimiyyət hərisləri bu oyanışdan öz xeyirlərinə istifadə etmək istəyirdilər.

- Əşi, bunlar hamısı bəhanədi. Görünür canımızda can yanğısı yox, can qorxusu var. Qardaş, gəl etiraf eləyək, Vətən sevgimiz can sevgimizdən az imiş. Belə olmasaydı, heç nəyə, heç kəsə baxmazdıq.

- Nəsə, qardaş, olan oldu, torba da doldu.

- Mətləb, olan olub, torba hələ dolmayıb. Belə getsə heç vaxt da dolmayacaq. Xristian dünyası hər yerdə biz türkləri sıxışdırmaqdadır. Elə bil sözləşiblər, hər yerdə hayların müdafiəçisi kimi çıxış eləyirlər. Bəlkə bunlar haylardan törəyiblər, xəbərimiz yoxdu?

- Əşi, bunlar hamısı siyasətdir. Bu hayları da bədbəxt eləyiblər. Tarixdən bixəbər insanlar ağızlarını açıb, gözlərini yumurlar: 1915-ci ildə Türkiyədə erməni soyqırımı belə oldu, elə oldu. Bunlar deyir ki, qoy haylar atılıb minsin boynunuza, amma ona düş aşağı deməyin. Qoy gəmidə oturub, gəmiçiynən dava eləsinlər. Guya canıyanan çıxıblar, əslində bu söz-söhbətin hamısı biz türkləri boğmaq, parçalamaq, taqətdən salman üçündür.

- Çünki biz zaman-zaman hər şeyə laqeyd olmuşuq. Əşi, keçər-gedər demişik. Ona görə də indi başımız bəla çəkir.

- Bax, sözün düzü budur.

- Nəsə, Mətləb, Allah axırımızı xeyir eləsin. Yadındadı, sənin bir sağlıq deməyin vardı...

- Elə, sağlıqlar olmadı bizi bu günə salan? (gülüşdük).

- Əşi, sağlıqsız da keçinmək olmaz. İnsan robot deyil ha. Sənin o vaxt söylədiyin o sağlıq son vaxtlar tez-tez yadıma düşür... Baxardın evlərin pəncərələrindən gələn işığa, deyərdin, o evdən ki, işıq gəlir, deməli, orada insan var, bizim dostlarımız var, gəlin içək işığın—dostlarımızın sağlığına. Qoy həmişə dostların işığı gəlsin.

- Hə, Murad, hərdən mənim belə əsrdən uzun bir sağlıq deməyim vardı.

- Sənin dostun adicə sağlıq deyildi, nəsə çox fəlsəfi bir söhbət idi. Yaxşı, Mətləb, sağ ol. Vaxt tapıb bir gün görüşərik.

- Allah qoysa.

Güllü yaxın gəlib soruşdu:

- Kim idi zəng eləyən?

- Tələbə yoldaşım. Murad idi.

- Yazıq Murad, o boyda topdağıtmaz mülkü qaldı ermənilərə. Yaxşı ki, ürəyi partlamır.

- İnsan həm də ağır günün dostudur, ay Güllü. Bir çətən külfəti var, dözsə yaxşıdı.

- Sən Allah, o nə sağlıqdı elə?

- Yadından çıxıb? Hərdən axı xudmani məclislərdə mənim bir sağlıq deməyim vardı.

- Heyif o günlərdən, - Güllü köksünü ötürdü. - Sən də bu dünyada çox əziyyət çəkmisən, ay Mətləb, təzəcə-təzəcə ağ günə çıxırdıq, indi də bu torpaq dərdi, qaçqın-köçkün dərdi.

- Güllü xanım, dərd gələndə batmanla gəlir. Birinə cavan, birinə yaşlı vaxtlarında. Mən isə lap uşaqlıqdan tapmışdım o dərdi.

- Sən Allah, ürəyimi sıxma. Hava da açılıb, dur get usta gətir, bakı düzəltdir. Novruz bayramı qapının ağzını kəsdirib.

- Gedib gətirərəm, qoy bir az uzanım bu divana, kefim pozuldu, keçmiş-keçəcək düşdü yadıma.

- Əşi, unut getsin, sən Allah...

- İnsan hər şeyi unudar, öz həyatını, keçmişini heç vaxt unuda bilməz, Güllü... - Murada nə deyim, yenə dərdini dəbərtdi.

- Muradda nə təqsir. Allah verən talehdi... Nəsə, beş dəqiqə uzanım, gedib sənin o «qul bazarı»ndan usta gətirərəm.

- Mənim niyə bazarım olur, işsizlərin bazarıdı. Camaat balasını saxlamaq üçün əməyini satır. Onu da alan olsa... Gedim mən də bir şey bişirim.

«Sən ölməyəsən, zəmanə arvadı lap filosof eləyib». Güllü mətbəxə keçdi, mən də qaldım keçmişimlə baş-başa. Mənim uşaqlığım hərdən keçmişimin içindən kədərlə boylanırdı. Mən lap balaca olanda bir gün hiss elədim ki, evimizdə nəsə çatışmır. Mən bu çatışmayan nəsəni ondan duymuşdum ki, mənim kimi balaca uşaq olan evlərdə cavan kişilər yaşayırdılar. Belə cavan bir kişi isə bizim evimizdə yoxdu. Evimizin baş tərəfində divara bir şəkil vurulmuşdu və o şəklin üzünə qara ipək parçadan örtük çəkilmişdi. Qəlbimə dammışdı ki, mənim taleyim o üzü örtülü şəkillə çox bağlıdı. Bir gün anamdan soruşdum ki, bu şəklin üzünü niyə örtmüsünüz? Cavab vermədi, susdu, üz-gözünə kədər çökdü. Nənəmdən soruşdum, o da o saat yaylığının ucunu gözlərinə apardı. Evimizin bir küncündə ağzı daima qıfıllı bir sandıq vardı, anamın cehiz sandığı idi. Bu sandıqda da divardan asılmış üzü örtülü şəkillə bağlı nəsə vardı, çünki bizim evimizdə ağzı bağlı başqa bir şey yox idi. Özü də mənə elə gəlirdi ki, bu sandığın ağzı da mənə görə bağlanır. Nənəm, sevimli nənəm həmişə qara geyirdi, saçına xına qoymurdu, son zamanlar hətta papiros da çəkirdi. Nədənsə mən mehrimi anamdan çox nənəmə salmışdım. Gecələr də onun yanında, böyük ağac taxtın üstündə yatırdım. Bəlkə də ona görə ki, nənəm mənə şirin-şirin nağıllar danışırdı. Çox-çox sonralar bildim ki, onun mənə söylədikləri nağıl-filan deyilmiş, atamla, babamla, kəndimizlə bağlı hadisələr, əhvalatlar imiş. Yavaş-yavaş böyüyürdüm, artıq başa düşürdüm ki, divardan asılmış üzü örtülü şəkil mənim atamın şəklidi, sandıqdakı balaca xəncər, əsgər beretkası, üçkünc məktublar da o şəklin sahibinə — mənim atama məxsusdu. Mən bütün bunları ondan duymuşdum ki, hərdən nənəm bu əşyaları ortaya töküb üstündə ağı deyərdi. Sən demə, nənəmin bu əşyaları ortalığa töküb ağlamağının da səbəbi varmış. Əlbəttə, mən bunları çox sonralar, yolum kənd qəbiristanlığımıza düşəndə bildim. Atamın qəbri yoxdu orada. Bir-bir başdaşlarının üstünü oxuyurdum, amma atamın adına rast gəlmirdim. Mən onda başa düşdüm ki, atam kəndimizdən çox-çox uzaqlarda vəfat eləyib. Vəfat etdiyi yerdə də dəfn edilib.

Elə bir axşam olmazdı ki, atam haqqında düşünməyəm. Ancaq bir yaşında itirdiyim atamı heç cür xatırlaya bilmirdim. Bir gecə isə qəribə bir yuxu gördüm. Bu, yuxudan çox arzuya oxşayırdı. Yuxuda görmüşdüm ki, atam başdan-ayağa palçığa bələnib. Onu bu vəziyyətdə gətirib evimizin böyründə qazılmış su quyusunun yanına qoymuşduq. Quyudan su çəkib atamın cənazəsini yuyurduq. Palçığı yuyandan sonra atam dirilib oturmuşdu: - Tez mənim paltarımı gətirin geyinim, - demişdi. Onun səsini eşidib yuxudan oyanmışdım. Bu ana qədər onun səsi mənim başımda yoxdu.

Səhər yuxumu nənəmə, anama danışmışdım. Anam hönkürmüşdü, nənəm əlini üzünə atmışdı, qonşu arvadlar çəpəri adlayıb anamla nənəmə qoşulmuşdular. Ağlaşma səsi kəsiləndən sonra arvadlar nənəmə təsəlli vermişdilər ki, Allaha şükür, heç olmasa yurdunda oğlu qalıb. Mən bu əhvalatdan sonra anama, nənəmə, babama atamla bağlı heç bir sual vermirdim. Mən onların göz yaşı töküb ağlamasını istəmirdim. Ona görə də mənim atamla bağlı verəcəyim saysız-hesabsız suallarım həmişəlik ürəyimdə qaldı. Amma hərdən nənəm özü atam haqqında nağıla bənzər söhbətlər eliyərdi. Bu nağılların qəhrəmanlarından biri də hökmən babam olardı. Sən demə, babam kəndimizdə Sovet hökumətini quranlardan imiş. (Amma sonralar babam qurduğu hökumətdə nə görmüşdüsə - Sovet hökuməti dovşanı araba ilə tutur - söyləmişdi). Nənəm deyirdi babam heç evdə oturan deyildi. Qorxu-hürkü də bilməzdi. Amma mərdi-məzarlığı da yoxdu. Müharibədən qabaq bu Soltanbud meşəsi qaçaq-quldurnan doluydu. Bir dəfə babam lap cavan vaxtı Ağdam bazarına gedibmiş. Görür meydan adamla dolub. O da yaxınlaşır camaata. Deyirlər bəs, təzə hökumət yaranıb. Hə, bir nəfər hörmətli kişiyə söz verirlər (Mən çox-çox sonralar bildim ki, bu hörmətli kişi yazıçı Əbdürrəhim bəy Haqverdiyev imiş). O da bircə kəlmə deyir: - «Yaşasın Bakıdan gələn Şura hökuməti!» Ona görə baban sənin atanın adını Şura qoymuşdu. Yazıq Şura! - deyə nənəm yaylığının ucuyla gözünün yaşını qurulayardı. Mən gözləyərdim ki, nənəm yenə atam haqqında danışsın. Qəsdən sual verməzdim ki, birdən danışmaz. Nənəm marağımı görüb öz nağılını danışardı: — Bir dəfə yaylağa getmişdik. Bıy, başıma xeyir, deyirəm bir dəfə yaylağa getmişdik. Bir dəfə yox ey, hər il gedirdik. Nəsə, getmişdik yaylağa. Hər kəsin öz yurd yeri vardı. Alaçıqlar tikib bütün yayı qalardıq göy yaylaqlarda. Nəsə, getmişdik yaylağa, baban da qalmışdı kənddə əkin-biçinlə məşğul olmağa. Yayın o qorabişirən vədəsində bir də görürdün dağların başını bulud aldı. Az keçməzdi göy guruldayıb şimşək çaxardı, leysan yağış başlardı, deyərdin bəs qiyamət günüdür. Belə bir yağışlı havada alaçığımızın qabağında at kişnədi. Elə bildim gələn babandı. Çölə çıxdım, beş nəfər atlı alaçığın yanındaydı. Onlar qaçaqlardı. Bellərində patrondaş, çiyinlərində beşatılan vardı. Başçıları soruşdu: - A gəlin, evdə kim var? Dedim, başıpapaqlımız kənddədir. Dedi, isti çayınız olmaz? Dedim, — olar, düşün qonağımız olun. Atdan düşdülər. Sənin atan Şura da onda heç dil də açmamışdı, totuq bir uşaqdı. Uşağı verdim baldızım Sürəyyaya, getdim çay qaynadam gətirəm. Qaçaqların böyüyü alar uşağı qucağına, bir az atar-tutar. Sürəyyadan soruşar ki, qızım, bu uşağın adı nədi? Sürəyya da nə bilsin, deyər ki, Şura. Qaçağı elə bil ilan vurar. Tapançasını çəkər uşağı vursun. Qaçaq onda atanı vurub öldürsəydi, indi sən dünyada olmazdın. Hə, çay əlimdə girdim içəri, gördüm qaçaq tapançasını çıxarıb. O saat dalağım sancdı. Qardaş, dedim, ona lağınan Şura deyirik, əsl adı Sabirdi. Qaçaq çəp-çəp mənə baxıb Şuranı qaytardı özümə. Elə bil üstümə gün doğdu. Bir bəladan sovuşdum. Amma sonra onu elə Sovet hökuməti əlimdən aldı. Müharibədən bir neçə il sonra onu əsgər apardı. Bir il keçdi. Nə oldu, yad yerdə, yad ölkədə, tifilimin başına nə gəldi, bilmədim. Bir gün ölüm xəbərini aldıq. Çox ağır günlər idi. Babam getdi atanın cənazəsini gətirsin, amma gətirə bilmədi. Yad ölkədə torpağa tapşırıb qayıtdı. Sənin onda bir yaşın vardı. Allah mənə ömür versin, sənin toyunu görüm. Əhd eləmişəm, onda qırmızı geyinəcəm.

Mən onda Allaha yalvarırdım ki, bircə tez böyüyəm, nənəm əhdinə çata, qırmızı tuman geyinib toyumda oynaya. Axı nənəm heç vaxt toylarda oynamırdı. Kəndimizdə hamı da bilirdi ki, nənəm toyda niyə oynamır. İllər ötdü, böyüdüm, amma mən evlənmək yox, ali məktəbdə oxumaq eşqinə düşdüm. Bizim vaxtımızda ali məktəblər az idi. Gəlib günlərlə Bakının küçələrində qalırdıq. Mənim o sağlığa oxşar söhbətim də burdan başlayırdı. Xudmani məclislərdə söz demək məqamı mənə çatanda qalxırdım ayağa. Deyirdim ki, mən sağlıq demirəm ha, bir balaca dözün. Gözlərinizin qabağına on yeddi-on səkkiz yaşlı bir cavan gətirin. O oğlan axşam Yevlaxda qatara minib səhər tezdən gəlib düşüb Bakıya. Tanıdığı bir kimsə yox, gedəcəyi ünvan yox. Gərək imtahanı verib axşam qatara minib qayıtsın evlərinə. Üçüncü imtahan nə üçünsə günbatana qalmışdı. Kitablarını universitetin qabağındakı bağda bir daşın altında gizlədib getdi imtahana. Onda imtahanlar indiki kimi bir günün içində, özü də tapmacasayaq suallarla keçirilmirdi. Biletini çəkib otururdun üç-dörd müəllimin qabağında, cavabını verirdin, əgər verə bilsən... Müəllimlər səni, atanı, ananı tanımırdılar. (Yəqin ki, tanıdıqları, tapşırılanları da vardı, yoxsa adamsızlar illərlə «konkursa» düşməzdi, professorlar öz sorğu-suallarıyla adamın suyunu çıxardıb buraxırdılar.) Nəsə, imtahan çox gec başlamışdı. Oğlanı nigarançılıq üzürdü, çünki imtahan belə uzansa, qatara çatmayacaqdı. Bəs onda bu oğlan harada qalacaqdı? İmtahan ağır və gərgin keçirdi. İki professorun arasında nə üstəsə mübahisə düşmüşdü. Onların üz-gözlərindən zəhər-zəhqum yağırdı. Talelərin həll olunduğu bir zamanda onların nəyi şərikli düşmüşdü görəsən? İki alıb çıxanların sayı çoxalmışdı. Növbə oğlana çatdı, bilet çəkib oturdu. Bir az keçmiş professor çağırdı ki, gəl cavab ver. Oğlan biletə düşən sualların cavabını verdi. Qaş-qabağından zəhər tökülən professorun eyni bir balaca açıldı, oğlanın qiymət vərəqəsinə bir yağlı dörd yazdı. Oğlan imtahandan çıxanda axşamdan xeyli keçmişdi. Bu vaxta qatar qalmazdı. Bir az çöldə dayanıb gözlədi. Bayaq onun yanında oturan oğlan da qımışa-qımışa ona yaxınlaşdı. İmtahandan kafi qiymət almışdı. Qoşalaşıb üzüaşağı düşdülər. O zamanın ən məşhur «Naxçıvan» mehmanxanasına gəldilər. İlahi, necə biganə adamlar vardı. Dodağı poamadalı xanım heç onları adam yerinə qoymadı, «yerimiz yoxdu» deyib durdu. Gecə keçirdi. Bu boyda qonaq evində onlara rəhmi gələn yoxdu. Əlacsız qalıb çıxdılar çölə. Sonradan qiymət alan oğlan dedi ki, qardaş, bizim bir tanış var, mən gedirəm onlara. Oğlan ona yaxşı yol dedi, qaldı küçənin ortasında tək-tənha. On səkkiz yaşlı bir gəncin gecənin yarısı kimsəni tanımadığı bir şəhərdə tək qalması bilirsinizmi nə deməkdi? Oğlan ətrafa baxırdı, uca binaların pəncərələrindən işıq gəlirdi. (Deməli, bu şəhərdə ondan başqa hər kəsin işığı vardı.) Amma o, bu işığın birini tutub kimsənin qapısını döyə bilmirdi, çünki o işıq sahiblərindən heç kəsi tanımırdı. Bir anın içində onun üçün sevdiyi nağıllar yalan olmuşdu. Axı nağıllarda yolu azmış qəhrəman işığı tutub gedirdi, qarşısına çıxan ilk evin qapısını döyürdü:

- Ay ev yiyəsi.

Ev sahibi soruşurdu:

- Kimsən?

- Allah qonağı.

- Allaha da qurban olum, qonağına da, - qapılar taybatay açılırdı qonağın üzünə.

Yox, indi nağıllardakı kimi deyildi. İndi qapının bambalaca gözlüyündən baxırlar, qapının ağzında duranı tanımasalar, heç orada yıxılıb öləsən səslərini də çıxartmazlar.

Oğlan məcbur olub üz tutdu Sovetskinin yastı-yapalaq məhəllələrinə. Gecə keçirdi, yorulmuşdu, qıçları taqətdən düşmüşdü. Hava isti olduğundan adamlar küçələrə su səpib oturmuşdular. Kişilər nərdtaxta oynayır, qadınlar dərdləşirdilər. Oğlan ürək eləyib kimsəyə bir söz demidi. Ondan soruşan da yoxdu ki, kimsən, nəçisən, hardan gəlib, hara gedirsən? Burası şəhər idi, burada bir-birini tanımayanlar salam-kalamsız ötüşürdülər. Oğlan qəlbinə yatan, ona doğma olan, anasını, nənəsini, babasını xatırladan bir insan axtarırdı. Burda elə bil qadınlar qocalmırdı. Hamı qarasaç idi. Nəhayət, oğlan bir topa adamın içində ağsaç bir qadın gördü, ürəklənib ona yaxınlaşdı.

- Ana, bir gecəlik qalmağa yeriniz olarmı?

Qadının mehriban səsi eşidildi:

- Olar, oğlum, keç içəri. Oğlan içəri keçəndə gözlərinə inanmadı, bura əməlli-başlı yataqxanaydı. Oğlan içəri göz gəzdirdi, yaşıdları çoxdu. Amma evin baş tərəfindəki çarpayının üstündə iki canlı «kuklanı» görəndə diksindi. İstədi geri qayıtsın, amma gec idi. Çünki ömründə bu boy-buxunda adamlar görməmişdi. Onların biri qadın, biri kişi idi. Hər ikisi qırx, qırx beş yaşında olardı. Onların bədənləri qurşaqdan aşağı inkişaf eləməmişdi. Amma hərəkətləri çox çevik idi. Qadının sifəti təkəmseyrək tük gətirmişdi, kişi isə nə barədəsə üyüdüb-tökürdü. Onlar artıq talelərilə barışmışdılar, deyib-gülürdülər. Arada oğlanlardan biri kişini balaca uşaq kimi qoltuğuna vurub ayaqyoluna apardı. Yəqin ki bu oğlan bu evdə çoxdan lövbər salmışdı, özünü çox sərbəst aparırdı. Qonşu otaqdan üzünü hələ də görmədiyimiz bir qadının deyintisi gəlirdi. Qadın, deyəsən, hələ də gəlib çıxmayan ərinin qarasına danışırdı.

Gecə keçirdi. Nəhayət, yerlər salındı. Nazik, ensiz ocaqqırağı döşəklər idi. Balaca, özü də xeyli nimdaş yastıqlar qoyulmuşdu. Oğlan yatağın ürəyincə olmadığını görüb paltarını soyunmadan yerinə uzandı. Anası onu o qədər təmizliyə öyrətmişdi ki... Oğlanı nə vaxt yuxu tutdu, bilmədi. Yuxudan səsə oyandı. Axşamdan üzünü görmədiyi o qadın hardansa qayıdıb evinə gələn kişisini divara qısnamışdı. Kişi günahkar olduğundanmı, abır-həya etdiyindənmi, səsini içinə salmışdı. Qadın isə susmaq bilmirdi. Onun hikkəli səsi oğlanın başına düşmüşdü... «Rayonun gədələrini yığıbsınız bura. Xaraba qalmış elə bil yataqxanadı, yataqxana». Qadının bu sözləri elə bil oğlanın yeddi qatından keçdi. Yerindən sıçrayıb qalxdı, əlini cibinə salıb yer haqqını nimdaş yatağın üstünə atıb evdə çıxdı. Kimsə gözə görünmürdü. Dan yeri yavaş-yavaş ağarırdı... Söhbətinin bu yerində badəsini qaldırırdı yuxarı: - O oğlan mən idim. İndi çıxıram balkona, şəhərin hansı səmtinə baxıram, ürəkdolusu nəfəs alıram. Ona görə ki, dostlarımın, tanışlarımın o sayrışan işıqlar içində öz işıqları var. Ona görə deyirəm qoy həmişə işığınız gəlsin. İşığı yanmayan ev görəndə qəlbim sıxılır...

- Mətləb, hələ evdəsən? - Güllünün qınaq dolu səsi məni xəyaldan ayırdı. Fikirləşdim ki, lap ağ elədim. - İndi gedirəm usta gətirməyə - deyib yerimdən qalxdım. Arvadımın «şükür» kəlməsi ürəyimdə evdən çıxdım.

Yola çıxıb maşının sürətini artırdım. Maşının pəncərəsindən baxıb gördüyüm uzundraz binalar bir az kefimi korladı. Ona görə yox ki, gözüm götürmədi, yox, istəməyənin gözü çıxsın. Sadəcə, Bakı mənim gördüyüm şəhər deyildi. Axı bu uzundraz binaları niyə harda gəldi, necə gəldi tikirlər? Qorxuram axırda bu şəhərdə görk üçün bir qədim tikili qalmaya. İlahi, doğrudanmı, bu uzundraz evləri tikənlərin qəlbində müqəddəs heç bir hiss qalmayıb... Deyirəm, yaşa doldum, saç-saqqalım ağardı, amma uşaq kimi sadəlövh qaldım. Yenə deyirəm, ağıllı fikirləşincə dəli vurur çayı keçir. Ona görə ki, dəlinin qabağına çıxan yoxdur. Budur, iş adamları bizim bu şəhərlə bağlı xatirələrimizi gözümüz baxa-baxa şumlayırlar. Belə getsə bir nişanə qalmayacaq. Ə, qardaş, o Sovetski deyilən yerdə, damına qır basılmış meynəli evlərdə gəncliyimiz keçib axı. Əşi, bu Hacı Zeynalabdinin də pulu olub də. Axı bu kişi özünə əriştə kəsəndə, xalqı üçün də umac ovub. Tikdikləri budur ey, gözümüzün qabağında. Sağlığında ona millət atası deyirdilər. Di gəl ki, Sovet hökuməti o kişini də müflis elədi. Hələ Nərimanov olmasaydı, bolşeviklər o yaşda kişini elə şəhərin ortasındaca güllələyəcəkdilər. Muzdur hökumətinə bəy, xan, zadəgan gərək deyildi. Onunku oraq-çəkic idi, nökər-nayıb idi, başını salsın aşağı, işini görsün. Varlı adam görəndə Sovet hökumətinin canına qaşınma düşürdü. Yazıq Hacı dünyasını dəyişəndən sonra canı qədər sevdiyi Sonası çöllərdə qalıbmış, bir tikə çörəyə möhtac imiş. Hə, Hacının arvadı Sona xanımı görməsəm də, qızı Sara xanımı görmüşdüm. Çiynində köhnə bir meşin çanta (deyirdilər ki, o, çantada Hacının bəzi-bəzi sənədləri var), beli bir az əyilmiş, nimdaş geyimli, arıq vücudlu Sara xanımla Nizami muzeyinin yanında çox rastlaşmışdıq. Onun üzündə əbədi bir kədər donub qalmışdı. Və mən biləni, o, bu dünyadan üzü gülmədən getdi. Onu göstərib deyirdilər ki, çiyni çantalı bu qadın milyonçu Tağıyevin qızı Sara xanımdır. Biz Sara xanıma heç əhəmiyyət də vermirdik, ona görə ki, o, vaxtilə milyonçu qızı olmuşdu. Müəllimlərimiz bizi başa

salmışdılar ki, bu milyonçular bizim xalqımızın canını alıblar (amma sonralar oxuyub bildim ki, bu kişilər milyonları alınlarının tərilə qazanıblar, bizim indiki bəzi məmurlar kimi oğurluq pulla sahibkar olmayıblar), Nəsə, Sovet hökumətinin muzdurdan xoşu gəldiyi üçün, biz də fürsəti əldən vermirdik, tərcümeyi-halımızda fəxrlə yazırdıq ki, bəs, mən muzdur oğlu, muzdur nəvəsiyəm. Ona görə belə yazırdıq ki, onda bizi Kommunist partiyasının üzvü eləyirdilər, sonra vəzifə verirdilər və biz bundan sonra adam balası kimi yaşayırdıq. Bir sözlə, biz muzdur sözündən qətiyyən utanıb-eləmirdik. Çünki Sovet hökuməti muzdur hökumətiydi. Ona görə də biz muzdur nəvələri milyonçu qızı Sara xanımın yanından saymazyana keçib-gedirdik. Halbuki Sara xanım bizə nisbətdə daha yoxsul bir gündəydi. Biz Tağıyevi unudub, Murtuza Muxtarova dalımızı çevirib, bərk-bərk Leninin ətəyindən yapışmışdıq. Bu kişi hələ uşaq bağçasından bizim ən əziz «babamız» olmuşdu. Biz bu babalar babasının şərəfinə qoyulmuş heykəllərinin ətrafında əl-ələ tutub yallı gedirdik. Şairlərimiz onun adına zırpı-zırpı şeirlər qoşurdular. Ona görə ki, onda ad-san sahibi olurdular. Heyif deyil can rahatlığı. Xalq-xalq deyib Bayılda yatmaqdansa, Lenin babanın şərəfinə şeirlər yazıb pərqu yorğan-döşəkdə, arvadın isti qucağında yatmaq yaxşıdı. Yoxsa Cavidin, Müşfiqin gününə düşərdilər. Amma bir dəfə bizim rayonda bu Lenin babaya bağışlanılmaz bir hörmətsizlik eləmişdilər. Hansı qudurmuşsa zibil dolu zənbili nə yollasa Lenin babanın həmişə qabağa uzanan əlinə keçirtmişdi. (O kişi qabağa uzatdığı əli ilə bizə cənnətin — Kommunizmin yolunu göstərirdi.) Onda rayon bir-birinə dəymişdi.

Nəsə, lənət şeytana. Milyonçu qızı Sara xanımdan danışdığım yerdə bu dünya proletariatlarının dahisi yadıma hardan düşdü, bilmirəm. Amma bu Lenin kişi bizi Allahsız, peyğəmbərsiz eləmişdi, cibimizə Allahsızlar cəmiyyətinin biletini qoymuşdu. Allahımızı danırdıqsa, Allahın yanında milyonçular kim idi ki... Hələ bir gəl var-dövləti əlindən alınmış Sara xanım ola. Biz Sara xanımın qoluna girib, gedək bir qismət çörək kəsək - demək o yana qalsın, ona heç quruca salam da vermirdik. Sara xanım da yanından keçib-gedən kütləyə əhəmiyyət vermirdi. Çiynində köhnə çantası qapı-qapı düşüb məmurlara sübut etməyə çalışırdı ki, atasının xalqı, milləti üçün elədiklərini yazdıqları tarix kitablarında heç olmasa inkar eləməsinlər. Onu kabinetinə buraxmayanlar, qapı ağzında saxlayanlar vardı. Amma o, ütün bu acılara, biganəliklərə dözürdü. Hərdən əyilmiş qəddini düzəldib üzünü göyə tuturdu və yəqin ki, Allahı köməyə çağırırdı.

Muzdurlar ölkəsi günü-gündən tənəzzülə gedirdi. Kommunistlər başlarının üstündə asdıqları Leninin portreti altında rüşvət almaqdan daha qorxmurdular. İndi nə Xruşşov vardı, nə də Brejnev (əslində heç onlardan da qorxmamışdılar). İndi hakimiyyətdə başı xallı Qorbaçov idi. Kim isə onun o bəzəkli başına yenidənqurma ideyasını salmışdı. Allah bilir, bəlkə bu da gecə-gündüz Qorbaçovun başına fırlanan hayların işi idi. Qorbaçovun yenidənqurması baş tutmadı. Bir səhər də yerimizdən durub balkona hava almağa çıxanda gördük ki, haylar - Qarabağ bizimdir! - deyib qışqırır. Biz də eləmədik tənbəllik qaçdıq Azadlıq meydanına. Onda bura Lenin meydanı deyirdilər. Burada da Leninin əlinin biri irəli uzanmış halda heykəli vardı. Biz Leninin heykəli altında qışqırışırdıq ki, elə şey yoxdu, Qarabağ bizimdi, onu kimsəyə vermərik!

Milyonçu qızı Sara xanımın əlləri göydəydi. İndi də millət - Azadlıq, Azadlıq - deyə hayqırırdı. Bir səhər də eşitdik ki, Sovet hökuməti öz ömrünü başa vurub. 70 yaşlı Sovet imperiyası dağılmışdı. 70 yaşlı Sovet hökuməti milyonçu qızı Sara xanımı qocaldıb taqətdən salmışdı. Amma vaxtilə Sara xanımın yanından saymazyana keçib-gedən muzdur uşaqları indi tez-tez onun qapısını döyürdülər...

***

«Qul bazarı»na çatanda gözüm kəlləmə çıxdı. Burda yalan olmasın, bir zavodun adamı vardı. Maşından düşdüyümü gördüm. Azı yüz adam məni dövrəyə aldı.

- Nə lazımdı? - deyə yer-yerdən dilləndilər.

- Qardaşlar, mənə usta lazımdı, usta. Su bakımız deşilib, qaynaqçı lazımdı. - Bəlkə on yerdən səs gəldi: - Qaynaqçı mən.

Axır ki, bir nəfəri maşına oturda bildim. Qarayanız, qırx, qırx beş yaşlarında bir kişiydi. Arxaya qanrılıb adını soruşdum:

- Şəmsəddin, - deyə cavab verdi.

Sən bir təsadüfə bax, bütün günü Şəmsəddin Eldənizi anmışdım. İndi də bu müasir Şəmsəddin çıxmışdı qarşıma.

- Nəçisən, qardaş, nə sənətin sahibisən?

- Mən əslində inşaatçıyam. İşim də çox yaxşı gedirdi. Sovet hökuməti dağılandan sonra çoxları kimi mən də işsiz qaldım.

- Gedib şirkətlərdən birində işləyə bilməzsinizmi?

- Elə bilirsiniz şirkətdə işləmək asandı?

- Çətindi, eləmi?

- Əlbəttə, çətindi. Yaxşı ki, bu svarşikliyi bacarıram, yoxsa uşaqlarım acından ölərlər.

- Allah eləməsin.

- Allah heç nə eləmir, müəllim, adamı adam kimi yaşamağa onun çeşid-çeşid insanları qoymur. Elə-belə heç nə yoxdu, müəllim, hər sahənin öz sahibi var. Pulunu balta kəsməyən adamlar var ki, beş ay evində qul kimi işləyirsən, amma zəhmət haqqını ondan alınca canın çıxır.

- Darıxma, keçid dövrüdür, müvəqqəti çətinlikdi.

- Bu nə keçiddi bilmirəm, vallah, onu keçib qurtara bilmirik. Pulu olan ancaq ev tikir, ay müəllim. İyirmimərtəbəli evlər. Gör bircə nəfər fabrik, zavod işə salır. Yox, ancaq ev tikir. Deyirlər, filan yerdə ev tikmək olmaz, sürüşmə zonasıdı. Kimə deyirsən, bir aydan sonra görürsən orada iyirmimərtəbəli binanın bünövrəsi qoyulub.

- Yaxşı, sən ki inşaatçısan, niyə gedib bu evtikənlərin yanında işləmirsən?

- Elə bilirsiniz orada mənə böyük vəzifə verəcəklər. Yox, hər kəsin öz adamı var. İndi bilik çox da vacib deyil. Şərt sənin kimliyindi. Kimin pulu var, hər şeyi var. Yox, yoxundur, get çıx Qız qalasına, oradan başı üstə özünü at yerə. Necə ki, atanlar var.

Şəmsəddin susdu. Deməyə söz tapmırdım. Hər kəsin öz həqiqəti, öz məntiqi var. Bu yaşda kişiyə ağıl öyrətməyəcəkdim ki... Yəqin bunun atası vaxtilə ona ad verəndə elə bilib oğlu öz zəmanəsinin Şəmsəddin Eldənizi olacaq... Ancaq bu yazıqda nə günah var, neyləsin, əlindən nə gəlir... Hə, amma Dərbənd bazarından alınmış bir qul Eldənizlər dövlətini yaratmışdı.

***

Sultan Məsud sözünün ağası olmuşdu, II Toğrulun dul qalmış xanımı Möminə Xatunla danışıb onu Eldənizə ərə getməyə razı salmışdı. Doğrudan da, Eldənizin həyatında möcüzə baş vermişdi, dünənə qədər hökmü az qala dünyanın yarısına çatan II Toğrulun sevimli xanımı aylı-ulduzlu bu yaz axşamında onun arvadı olacaqdı. Eldəniz hələ zifaf axşamı ərəfəsindəydi. Bilmirdi yerdədi, bilmirdi göydədi, eləcə hiss-həyəcan içindəydi. Elə bil canından od qalxırdı. İndi bu an Möminə onun yanında olsaydı, Eldənizin alovuna bələnərdi. Ancaq o ana hələ vardı. Möminə Xatun da, Eldəniz də axşamın düşməsini gözləyirdilər. Gecə sirr saxlayan, gündüz faş edəndi. Gecənin yorğanı zülmət kimi qaranlıq, gündüzünkü nurdur.

Qaravaşlar Möminə Xatunu, nökərlər Eldənizi hamama apardılar. Gəlini bəzəndirdilər, bəyi geyindirdilər. Məclislər quruldu. Musiqiçilər ud çalır, rəqqasələr oynayır, müğənnilər oxuyurdular. Bütün bu toy-büsat Eldənizdən çox Möminə Xatunun şərəfinəydi. Möminə hər kəsin atmadığı addımı atmışdı. O, oğlunun Atabəyinə, Dərbənddən alınıb gətirilmiş bir qula ərə getməyə razılıq vermişdi. Doğrudur, əri II Toğrul hələ sağlığında ona əmir titulu vermişdi, amma hər halda, Eldənizin keçmişini bilənlər, eşidənlər vardı. Doğrusu, Möminə Xatun qəlbinin dərinliyində heç vaxt Eldənizə qul gözüylə baxmamışdı, əksinə, onun daim ehtirasdan yanan bir cüt odlu baxışlarını öz üstündə hiss eləmişdi.

... Nəhayət çal-çağır bitdi. Xanımlar, qaravaşlar gəlin otağını tərk elədilər. Mömınə tək qaldı. İndi Eldəniz gələcəkdi. Ər görmüş Mömınə Xatunu həyəcan bürümüşdü. O, neçə vaxt idi yas içində idi, az qala kişi nəfəsinə yadırğamışdı... Qapı açıldı. Gələn Eldəniz idi. Yaxşıca geyinib-kecinmişdi. Həmişəkindən yaraşıqlı görsənirdi. Mömınə Xatun başına salınmış qırmızı çarqatın altından Eldənizin hərəkətlərini izləyirdi. Qadının qəlbindən: "Darıxma, Eldəniz, mən səni sultanlar sultanı eliyəcəm" fikri keçdi.

Eldəniz asta addımlarla Mömınəyə yaxınlaşdı, salam verdi. Tanrı onun taleyinə dul bir qadın — amma sultanlara layiq bir qadın yazmışdı. Otaqdakı şamdanların hamısı yanırdı, ona görə də otaq nur içindəydi. Eldənizin dünənə qədər xanım dediyi, əlçatmaz, ünyetməz bildiyi, gecələr xəyalı ilə yaşadığı Mömınə indi onun yanında idi. O, əl atıb al-qırmızı çarqatı Mömınənin başından götürdü: - Mən dünyanın xoşbəxtiyəm, Mömınə! Çox xoşbəxtəm! - deyə Eldənizin həyəcanlı pıçıltısı sükutu pozdu.

Mömınə susurdu. Gözləri yarıyumulu idi, elə bil Eldənizə baxmağa utanırdı. Qadının yanaqları lalə kimi qızarmışdı, bədəni od içindəydi. Eldəniz Mömınənin sürüşüb gərdəninə tökülmüş şəvə saçlarına sığal çəkdi. Ah, saçın nə gözəl rayihəsi varmış... Oğlan sanki bu xoş qoxudan məst olmuşdu. Qadının odlu baxışları bir an Eldənizin baxışlarıyla toqquşdu. Eldəniz daha dözmədi, Mömınəni qucaqlayıb öpüşlərə qərq elədi. Mömınə sanki lal olmuşdu, səsi çıxmırdı. O, sadəcə bu anların çox, lap çox uzanmasını istəyirdi. Bu xoş bahar gecəsində bu gözəl qadın kişi nəvazişindən vəcdə gəlib çiçəkləyirdi (Təkcə ağaclar çiçəkləmir ki...). Eldənizin qüvvətli əlləri onun sinəsində, gərdənində dolaşırdı.

amdandakı şamların son şöləsi titrəyib söndü. Həya pərdəsi aradan götürüldü. Eldəniz tələsmədən bir-bir Mömınənin paltarlarını çıxarırdı. Onun bu cür təmkinliyi ehtiras içində yanan qadını daha da alovlandırırdı. Artıq onun əynində heç nə yox idi. Mömınənin ağappaq bədəni qaranlıq otaqda aydınca görünürdü. Eldəniz qadını arxası üstə uzandırdı... Ömrə yazılası bir an keçdi. Mömınə ehtirasdan Eldənizin sinəsi altında inildədi. II Toğrulun ruhu pəncərədən baxırdı.

... Qaynaqçı Şəmsəddin bakın deşilmiş hissəsini kəsib atdı, yerinə başqa dəmir parçası qaynaq elədi. O, işini bitirib əlini yudu. Çox üz vursam da yeməyə oturmadı, bir stəkan çay içib haqqını alıb evdən çıxanda dedim, tələsmə, gəlirəm. Mən onu maşına oturdub götürdüyüm yerə apardım. Şəmsəddin mənim ona göstərdiyim qayğıdan çox razı qaldı. Həmişə qulluğunuzda hazıram dedi. Onunla sağollaşıb maşına oturdum. Başqa bir işim yoxdu. Güllünün çoxdan bəri müzakirəyə çıxartdığı bak məsələsini axır ki, müsbət həll eləmişdim. "Əşi, qadın var ev tikir, qadın da var ev yıxır". Maşallah, bizim bu Güllü ev tikənlərdəndi. Ürəyimdən keçənləri onun üzünə deməsəm də (axı biz dədə-babadan qadını üzünə tərifləməyə adət etməmişik), nə gizlədim, haqqında çox müsbət fikirdəyəm. Kişi o zaman xoşbəxt olur ki, qadını onu başa düşür. Bu mənada, ailə xoşbəxtliyim vardı. Mən Güllünü gəncliyimin lap qaynar çağında tapmışdım. O, məni, mən də onu yarı yolda qoymamışdıq. Güllü olduqca evcanlı, ailə qədri bilən qadındı. Hərdən fikirləşirəm ki, o olmasaydı mən neyləyə bilərdim. Hər qadın ağır günün dostu olmur axı. Güllü isə ən ağır günlərimin yol yoldaşıydı. Həyatın çiynimizə qoyduğu yükü birlikdə çəkmişdik. Biz ev-yurd olana kimi bu işıqlı dünyada kirpiklərimizlə od götürmüşdük. Bu illər ərzində həyatın min bir üzünü görmüşdük, ev yıxmağa, qan tökməyə hər an hazır olan, həsəd, paxıllıq içində alışıb-yanan insan cildinə girmiş nə qədər "heyvanla" rastlaşmışdıq.

Rəhmətlik nənəm bir gün gedib Güllünü görəndən sonra elə hey onun barəsində mənimlə danışmaq istəyirdi. Mən isə utandığımdan Güllü haqqında danışmaq istəmirdim... Can, ay nənə, kaş o günlər olaydı, Allahımdan razıyam ki, sənə mənim toyumu görməyə ömür verdi. O, mənim toyumu görməkdən ötrü nələrdən keçməmişdi. Bütün el-oba mənim toyuma — babama, nənəmə, anama gözaydınlığı verməyə gəlmişdi. Mən bu diqqətdən, bu təmənnasız ülfətdən riqqətə gəlib kəndimizin bu safqəlbli insanlarını bağrıma basmaq istəyirdim. Bu insanlar mənim qəlbimdə insanlara qarşı əbədi məhəbbət, mərhəmət, sədaqət işığı yandırmışdılar. Onlar öz doğmalıqları, saflıqlarıyla mənim boynuma el yükünü qoymuşdular. Mən bu ağır, amma şərəfli yükü ömrüm boyu çəkməyə hazır idim.

Mənim toyum elə bil elin toyuydu. Əlbəttə, mənə olan bu məhəbbət dünyadan vaxtsız köçmüş atama, vaxtsız qocalmış babama, nənəmə, anama görəydi... Mənim nənəm əhdinə əməl elədi. O, mənim toyumda başına qırmızı yaylıq örtüb, əyninə qırmızı tuman geyinib oynadı. Onun ağ birçəyi qızılgül içində ağ zanbaq kimi görünürdü. Nənəm qol götürüb mənim qarşımda oynayırdı. Nənəm oynaya-oynaya yasdan çıxırdı, bircə gün də olsa qəm-kədər şələsini yerə qoymuşdu. Nənəm düz 25 il bu günü gözləmişdi. Nənəm oynayırdı, babam göz yaşlarını gizlətmək üçün başını aşağı dikmişdi.

Nəhayət, "Vağzalı" çalındı, Güllü evimizə gəlin gəldi...

***

Səhərimizi günəşli bir günlə açdıq. Dünənki soyuq havadan əsər-əlamət yoxdu. Elə bil yaz günüydü. Qışın ömrünə lap az qalmışdı. Balkona çıxdım, Güllü də ardımca gəlib yanımda durdu. Hava xoş olduğundan küçədə canlanma vardı, maşınlar ora-bura şütüyürdü. Qonşumuz Qəmər xanım səhər-səhər hardansa gəlirdi. Şəfqət bacısı işləyirdi. Onu evlərə çağırtdırıb iynə vurdururdular. Başıaşağı qadındı, amma bir eybi var: həmişə qaş-qabaqlı gəzib-dolanır.

- Güllü, - dedim, - bu Qəmərin bircə dəfə üzünü gülən görmədim də. Elə bil əri ölüb.

- Boy... ölüb də. Yasına getmişdin ki...

- Yazıq kişi elə onun niyabətlik yağan üzündən öldü.

- Danışdın da.

- Vallah, doğru sözümdü. Zalımın qızı ömründə bir dəfə kişinin üzünə gülmədi. Elə bil dünyanın xərcini-borcunu bundan alıblar.

- Mətləb, heç kəs heç kəsin içini bilmir. Biz hardan bilirik o nə çəkir. Hələ bilmək olmaz, bəlkə onun sir-sifətindəki bu qaş-qabağı elə o ölən kişi verib gedib bu dünyadan.

- Nə deyim, bəlkə də haqlısan... Amma arvad ki, sosur oldu, apar qaytar.

- Qaytara bilsə. Ağızda demək asan gəlir, - deyə duruxdu: - Mən onun kimi olsaydım, qaytarardın? - soruşdu.

- Qaytara bilməsəydim, yəqin ki, indiyə qalmazdım.

Güllü ürəkdən güldü. Hiss elədim ki, fərəhlənir. O, otağa keçib televizoru açdı. Neyləsin, zəmanəmiz bu qutusuz keçmir. Bu boyda dünya artıq bu balaca qutunun içindədir. İstədin, istəmədin sevdiklərini də, sevmədiklərini də görəcəksən. Çağırılmamış qonaqdı bu televizor. Qapını döymədən açıb girəcək evinə, təzə əxlaq, mədəniyyət, sevinc-kədər... gətirəcək sənə. Bu möcüzəli qutu evdə adamların bir-birilə danışmaq ünsiyyətini də əlindən alıb. Bizdən çox o danışır. Maşallah, televiziya kanalları da çox. Seriallar da baş alıb gedir. Belə getsə braziliyalı olacağıq. Göz dəyməsin, biz də gördüyümüzü dərhal götürürük. Daha olar, olmaz, bizə yaraşar, yaraşmaz söhbəti yoxdur. Niyə beləyik, bilmirəm.

- Boy... kül olsun bu qızın başına, ay Mətləb, uzundraz gözəlçəmiz gedib Almaniyaya, iki qabırğasını çıxartdırıb gəlib. Bu həkimlərdə də insaf yoxdu ey, Allahın yaratdığının əleyhinə gedir, qızın iki qabırğasını çıxarıb veriblər əlinə. Allah, sən sonrakı gündən saxla. Hələ çox hoqqalar görəcəyik.

Güllünün heyrət dolu səsi məni televizorun qabağına gətirmişdi. Ona görə gətirmişdi deyirəm ki, son zamanlar söz vermişəm bu qutudan uzaq olum, az-az baxım. Vaxtımı alır, hərdən də bu qutuda gördüklərim məni əməlli-başlıca əsəbiləşdirir. Həkimlər də deyir ki, bütün xəstəliklərin başında əsəb dayanır. Doğrusu, mən də əsəbdən xəstələnmək istəmirəm. İndi xəstəxanaya düşənin gərək bir anbar pulu olsun, dava-dərmanı da adamın özünə aldırırlar... Mən yazıqda isə bu pul yoxdu.

Güllü dediyini bir də təkrar elədi:

- Mətləb, bax, bu müğənni qız gedib Almaniyada iki qabırğasını pul verib çıxartdırıb. Biz ağrıyan dişimizi çıxartdırmağa ürək eləmirik. Sən bunun əlli yaşına çatanda halına baxarsan, özünə səkkiz qabırğa axtaracaq. Qurban olduğum, insanda heç nəyi artıq yaratmayıb, o da ola qabırğa.

- Balam, sənin ürəyin doluymuş ki...

- Əşi, görmürsən nə oyunnan çıxırlar. Burnunu düzəltdirən kim, başını qırxdırıb saqqal saxlayan kim, ayaqqabısını taydəyişik geyinən kim, əyninə arvad paltarı geyinib qulağına sırğa taxan kim. Bizimkilər də bu matah işləri elə qəşəng nümayiş etdirirlər ki... Bu qabırğasını çıxartdırana desən ki, yaralı bir əsgərimizə yüz qram qan vermək lazımdı, məni bağışla, tumanını başına keçirər.

- Onun kimilərinə Qarabağ yox, özünü göstərməyə boş meydan lazımdı. İstəmirsən qanın qaralsın, televizoru söndür.

- Mən söndürdüm, bəs başqası... Bilirsən indi bu gülməşəkərdən neçəsi dərsini aldı. Baxarsan, qabırğasını çıxardanların sayı necə artacaq.

- Səhnə qurban tələb eləyir, Güllü, özünü yorma, qabırğa onların, məsləhət onların. Bu şou əhlinin işi Allaha qalıb. Çoxunun savadı yox, sözü yox, di gəl ki, toylarda, ekranda, efirdə at oynadırlar. Əsl sənət, sənətkar abrına qısılıb qalıb bir tərəfdə. Doğrusu, dözülməz haldı. Amma nə etmək, çoxlarının dediyi kimi — bu da günümüzün reallığıdır.

- Olmaz belə reallıqdan, - deyə, Güllü televizoru söndürüb ayağa qalxdı.

- Mətləb, bazar günüdü, dur get bazarlıq elə.

- Yaxşı, nə lazımdı yaz bir kağıza, - deyib qalxdım.

Mən lap uşaqlıqdan bu bazar gününü sevirəm. Yaddaşımda bazar günü ilə bağlı çox əziz, unudulmaz xatirələrim var. Bazar deyən kimi Ağdam bazarı yadıma düşür. Bütün bazarlar bir-birinə bənzəyir, ancaq nədənsə mənə elə gəlir ki, Ağdam bazarı öz gurluğu, zənginliyi, əlvanlığı ilə seçilirdi. İlahi, nələr yoxdu o Ağdam bazarında. Bazar özü də millətin mənəvi, maddi sifətidi, pulsuz teatrıdı, tamaşasıdı, cürbəcür xasiyyətli alıcının, satıcının ünsiyyət yeridir. Qəribədir ki,

Ağdam bazarının daimi sakinlərinin — qaymaq satan, pendir-şor, təndir çörəyi satan uşaqlar, qadınlar, dərzilər, dəmirçi, papaqçı kişilər — bu sadə peşə adamlarının simaları gözlərim önündən getmir. Neyləyək ki, bu bazara, bu bazardakı insanlara qənim kəsildi yağı düşmən. Kaş o Ağdam bazarını bir də görəydim, o təbii, rəng-boyasız, məkrdən, hiylədən uzaq insanlarla alış-veriş eliyəydim. Ey gidi dünya...

Mən gözümü açanda qapımızda sürüylə qoyun, qoşa-qoşa inək, camış və nəhayət bir cüt kəhər at görmüşdüm. Mən təbiətin qoynunda böyüdüyümdən təbiət aşiqiydim. Bağça-bağ, meşə, yamyaşıl çəmənlər, səs-səsə verən İsaq-Musaq quşları, bülbüllər, qaratoyuqlar ... ömrümün bir parçasıydı. Mən morçumlu (onların boğazında gözoxşayan sırğaya bənzər bir cüt təbii qotaz olardı) qoçların, bir də atların vurğunuydum. At çapmaqdan aldığım zövqü, ləzzəti heç nədən almırdım. Axı bizim keçmişimiz at belində keçmişdi. At igidin yaraşığıdı demişik. Mən kiçik yaşlarımda kəndimizdə at ilxısı da görmüşdüm. Bir də Sovet hökuməti qurulmamışdan qabaq kəndimizdə Firidun bəyin at ilxısından nağıla bənzər söhbətlər eşitmişdim. Deyirdilər ki, Firidun bəyin beş yüzə qədər atı varmış. O, bu at ilxısını yerlə-göylə əlləşən bir qara ayğıra etibar eləmişimiş. Yazağzı atları yaylağa ötürərmişlər, bir də qırov düşəndə atlar kəndimizə qayıdarmış. Atlar Əsgərandan keçəndə ayaqlarının səsi kəndimizdə eşidilərmiş. Amma Sovet hökuməti qurulandan sonra əvvəl Firidun bəyin atlarını əlindən almışdı, sonra kolxozun at ilxısının da axırına çıxmışdı.

Bir dəfə bağçamızda ağac əkmək üçün çala qazanda pas atmış bir qılınc tapmışdım. Mən bu paslı qılınca görə o qədər sevinmişdim ki... Bu o çağlardı ki, "Koroğlu" kitabı bizim kəndimizə də gəlib çıxmışdı. O zaman adamlar nağıla, dastana yaman maraq göstərirdilər. Mən bu "Koroğlu" dastanını bir dəfə oxuyub başa çıxmışdım. Qış gecələri qonum-qonşu qadınlar bizim kəllayı evə toplaşırdılar. Qadınlar isti peçin altında qurudulmuş pambığı didirdilər ki, əyirib nəsə toxusunlar. Mən isə onlara Koroğlunun səfərlərindən oxuyurdum. Mən o günlərdə Koroğlunun qəhrəmanlıqlarına o qədər bənd olmuşdum ki, at belinə qalxanda özümü Koroğlu sanırdım. Həyətimizdən tapdığım paslı qılınc da əlimə lap göydən düşmüşdü. Gecə-gündüz onu daşa, bülövə sürtüb ağartmaqla məşğul idim. Nəhayət, onu əvvəlki halına sala bilməsəm də, parıldada bilmişdim, hətta qılınca qın da düzəltmişdim. Qılıncı belimə bağlayıb kəhəri ora-bura çapanda elə bilirdim ki, Koroğluyam. Amma mən Koroğlu ola bilmədim, çünki koroğluluğun dövranı keçmişdi. İndi niyyətinin saflığından asılı olmayaraq, soyuq silah saxlamağa görə də adama iş düşürdü. Amma o zaman özlüyümdə bir şeyi yəqin elədim ki, koroğluluq bizim ruhumuzdadır...

Bizim dördtəkərli furqonumuz vardı. Mənim çox sevdiyim kəhər atları babam tez-tez furqona qoşardı. O, furqonla bazara, dəyirmana, ot-ələf dalınca gedərdi. Furqon ikitəkərli arabaya nisbətən daha rahat idi. Mən biləndə ki, babam bazar günü bazara gedəcək, gecə gözlərimə yuxu getməzdi. Biz bir yerdə bazara gedəndə ona köməyim də dəyirdi. Babam hərdən furqonu

bacısıgilə — Sürəyya mamam (bibim) gilə sürərdi. Sürəyya mamam çox istiqanlı qadın idi, mən onu lap çox istəyirdim. Həm də ona görə çox istəyirdim ki, nənəmin mənə söylədiyi nağıllarında həmişə Sürəyya mama da olardı. Həmişə atamın körpə çağını onun qucağında təsəvvür eləyirdim. Sürəyya mamamın taleyi əvvəl gətirməmişdi, əri Musa ilə xoşbəxtliyi çox çəkməmişdi. Sovet hökuməti kənddə kolxoz qurmağa başlayanda qürurlu, şücaətli Musa dayı kolxoza üzv yazılmamışdı. (Musa anamın doğmaca dayısı idi). Kəndimizdən Musa dayı gücdə, şücaətdə başqa birisi yoxmuş. Musa dayı torpağından, mal-davarından keçmir, buna görə adı Sovet hökumətinin qara siyahısına düşür. Hökumət də çarəni onda görür ki, Musa dayını "kulaq" eləyib göndərir Sibirə. Bu əhvalat mənim yaşımdan çox-çox illər qabaq olub. Kəndimizdə Musa dayının şəxsiyyətindən, şücaətindən indi də danışırlar. Nəsə, Sürəyya mamam onun yolunu çox gözləyir, amma Musa dayıdan bir xəbər-ətər çıxmır. Başına gələnləri bir özü bilir, bir də Allahı. Musa dayının anası Yaxşı qocamı isə yaxşı xatırlayıram. Yaxşı qocam (mən ona nənə yox, qocam deyərdim) tez-tez bizə gələrdi. Onun yetmiş-yetmiş beş yaşı olardı. Çox azdanışan, həlim təbiətli qarıydı. Başı daim qara yaylıqla örtülü olardı. Oğlunun dərdi onu yumağa döndərmişdi. Qış günlərində isti odun peçinin böyründə oturub hərdən burunotu çəkərdi. Yazıq arvad bir gün kimdənsə eşidir ki, Sibirdən Yevlağa gətirilən şalbanlarda dustaqlar adlarını yazırlar. Deyirdilər ki, Musa dayı da Sibir meşələrində ağac kəsməklə məşğuldur. Yaxşı qocam bir gün yanına üç-dörd qadın alıb Yevlağa — şalban ağaclarının üstünü oxutmağa aparmışdı. Amma Yevlaxda üst-üstə qalaqlanmış minlərlə şalbana nəzər salmaq onlara nəsib olmamışdı. Şalbanların üstündə Musa dayının adına rast gəlməmişdilər. Yaxşı qocamın sonuncu ümidi də, beləcə, puç olmuşdu.

Yaxşı qocam yaxşı urf tuturdu. Hərdən başım ağrıyanda Yaxşı qocam urfuma baxardı, həmişə də - səni rəhmətlik dədənin urfu tutub, - deyərdi. Ata nənəm dərhal atamın ruhu üçün qazan asardı, doğrudan da az sonra başımın ağrısı kəsərdi. Yaxşı qocam Musa dayımın yolunu gözləyə-gözləyə çox yaşadı, amma oğlundan xəbər-ətər çıxmadı, axırda da oğul həsrətiylə dünyasını dəyişdi.

Sürəyya mamam da ərinin yolunu 1946-cı ilə qədər gözləmişdi. Elə bu zamanlar Sovet hökuməti İrandan qoşununu çıxartmışdı. Şahın ordusuyla Güney Azərbaycandakı Milli hökuməti üz-üzə qoymuşdu. Şah qoşunu Mir Cəfər Pişəvəri hökumətini məğlub eləmişdi. Beləcə, bir il fəaliyyət göstərən Mir Cəfər Pişəvəri hökuməti süqut edir, qaçan qaçır, tutulan tutulur, bir dəstə demokrat da (onlara kəndimizdə demokratlar deyirdilər) bizim kəndə gəlir. El-oba o taylı qardaşlarımızın qayğısına qalıb, dərdlərinə şərik olurlar, əl tuturlar. Sürəyya mamam da artıq ata evinə qayıdıbmış. Demokratların arasında ərgən oğlanlar da varmış. Demokratlardan Xəlil adlı birisi Sürəyya mamama vurulubmuş. Mamam da ona biganə deyilmiş. Bir dəfə mamam Xəlilgilə isti xörək aparanda Xəlil fürsət tapıb ürəyini ona açır. Mamam onunla ailə qurmağa etiraz eləmir, amma deyir ki, qorxuram qardaşım bu işə qol qoymasın. Qardaşım ata əvəzidi, sözündən çıxa bilmərəm. Bir müddət keçir, Xəlil mamamı qaçırmaq fikrinə düşür. Bir axşam ona da əsgər şineli geyindirib çıxır yola, piyada Ağdama sarı gedirlər. Təsadüfən Ağdam bazarından kəndə qayıdan babam qarşısından keçib gedən bir cüt əsgəri görür, amma qaranlıq olduğundan onları tanımır.

Kişi kəndə çatıb həyətə girəndə bacısı qabağına çıxmır, dalağı sancır, atların başını döndərib el yolu ilə Ağdama sarı çapır. O, bu cavan "əsgərlərə" elə Ağdamın həndəvərində çatır. Bacısına bircə dəfə: - Otur furqona, - deyir. Qorxusundan səsini çıxartmayan Sürəyya mamam çıxıb oturur furqonda. Babam yolun ortasında donub qalmış Xəlilə — mənim papağımı yerə soxmaq istəyirsiniz, sabah elçini göndər... - deyib atların üzünü döndərir kəndə tərəf. Yol boyu bacısıyla bir kəlmə də danışmır. Səhər Xəlilin elçiləri gəlir bizə. Babam Allahın əmrilə Sürəyya mamamı verir Xəlilə ərə. Onlar toy eləyib köçürlər şəhərə.

Xəlil dayı çox mehriban, suyuşirin bir kişiydi. O, Təbriz ləhcəsiylə danışdığından diqqəti dərhal cəlb eləyirdi. Əlindən də hər iş gəlirdi. Gözəl ayaqqabılar, başmaqlar tikirdi. Ancaq toxuduğu xalçaların əvəzi yoxdu. Xalça ustası kimi bütün şəhərdə məşhur idi. Xəlil dayı hərdən dədə-baba yurdunu yada salıb kövrələrdi. Mən onda hələ bilmirdim ki, bizim ölkəmizi iki yerə parçalayıblar. Təbrizimiz, Mərəndimiz, Ərdəbilimiz, Urmiyamız, Zəncanımız bizdən iraq düşüb... Müharibə vaxtı açılan yollar təzədən bağlanıb. Bütün bu acı həqiqətləri mən çox-çox sonralar bildim.

Sən demə, insan yaşa dolub böyüdükcə dərdi də böyüyürmüş. Bizi Təbrizsiz, Zəncansız qoyan qüvvələr indi də ermənilərin əlilə bizi Qarabağsız qoymuşdular. Budur, mən Ağdam bazarından danışıram. Hayların, Ağdamı işğal eliyən hayların o qədər ağır günlərini görmüşük ki... Qapı-qapı düşüb iş axtarardılar, bənnalıq, dülgərlik eliyərdilər. Ot çalardılar, taxıl biçərdilər. Görəsən onlar niyə o ağır günlərini, əl tutduğumuz çağları unutdular? Meşələrimizdən cır armud, əzgil yığıb taxıla dəyişən kirvələr, nə üçün torpaq iddiasına düşdülər?

Cavanşirlər tayfasından Abbasqulu ağa adlı bir tarçalan olub. O, bir axşam bir karvansarada gecələmişmiş. Kişi görür ki, onunla bir otaqda gecələyən erməni kirvəmiz heç cür yata bilmir, ah-uf eləyir. Soruşur, kirvə, nə olub, nə baş verib? Kişi az qala ağlaya-ağlaya deyir ki, bəs, Ağdam bazarında balta sapı düzəldib satırdım, sapın birini oğurlayıblar. Abbasqulu ağa yerindən dik qalxır. Deyir ə, köpək oğlu, Sovet hökuməti ata-babamdan qalma meşələrimi əlimdən alıb verib sənin kimi sarsaqlara, heç mən ağlamıram, sən bir balta sapına görə gözüyün qorasını tökürsən. Səsini kəs! Sənin o balta sapın da mənim meşəmin ağacındandı.

Kirvə səsini kəsir.

Bax, ay Buş müəllim, indi həmən balta sapı satan hayların ucbatından Ağdam bazarına həsrət qalmışıq.

Mən xəyalən o Ağdam bazarından heç cür çıxa bilmirdim, fırlana-fırlana qalmışdım. Ağdamda babamı tanımayan yoxdu. Mən bunu ondan bilirdim ki, kişi tez-tez ayaq saxlayıb adamlarla hal-əhval tuturdu. Babam öz uca boyuna, iri əl-ayağına, fiziki gücünə görə də ətrafındakılardan dərhal seçilirdi. Babam çox zarafat sevən, sərrast danışan, Allahını tanıyan, amma mollaları sevməyən bir adamdı.

Bizim rayonda qəribə-qəribə, heç kəsə bənzəməyən kişilər olmuşdu. Çoxunun da peşəsinə görə öz ayaması vardı. Dünyanın ən uzun adamı da bizim rayonumuzda yaşayırdı. Yalan-gerçək danışırdılar ki, Sovet hökuməti onunla şərt kəsib, müqavilə bağlayıb, canını bəri başdan sığorta elətdirib ki, dünyasını dəyişəndə basdırılmasın. Babalı deyənlərin boynuna, Sovet hökuməti istəyirmiş ki, dünyanın ən uzun adamının dünyasını dəyişəndən sonra skeletini saxlasın (amma bəri başdan deyim ki, Sovet hökumətinin bu sevdası baş tutmadı). Bu kişinin uca boyu ilə tən gəlməyən zərifdən zərif ürəyi vardı. Mən bilmirdim ki, dünyanın bu ən uzun adamı nə barədə fikirləşir, dünyasını dəyişəndən sonra skeletinin bu dünyada qalmasına necə baxır, fərəhlənir, yoxsa kədərlənir. Bütün bunları bir özü, bir də Allahı bilirdi. Amma mənim bildiyim bu idi ki, dünyanın ən uzun adamı bu dünyada ən zərif xasiyyətin sahibi idi. Elə ki, birisinin toyu olurdu, əlində bir dəstə güllə gələrdi, dəvətsiz-filansız, toy sahibini təbrik eliyər, bir qismət çörək yeyib çıxıb gedərdi. Bazara girəndə bu kişinin uca boyu lap uzaqdan adamın diqqətini cəlb eləyirdi. Mənə elə gəlirdi ki, dünyanın bu ən uzun adamı danışıb-eləmir, danışsa da ürəyində danışır. Hər halda, mənə belə gəlirdi. İndi kirvələrin kəramətindən mən Ağdam bazarına gedə bilmirəm. Getsəm belə, orada minadan, qumbaradan başqa nə tapa bilərəm? Vaxtilə qapımızda turp əkənlər, indi mina əkiblər. Görən necə oldu o sıralanmış dərzi, papaqçı dükanları, dəmirçixanalar, o sadə peşə adamları? Yay vaxtı günorta saatlarında radioda muğamat konserti verilərdi. O boyda bazar, şəhər sükuta qərq olardı. Hamı xanəndəyə qulaq asardı. Ax, necə xoş günlər idi. Nə deyim kirvələrə, nə deyim daşnaklara... Görəsən o köçhaköçdə dünyanın ən uzun adamı neylədi? Şəhərdən salamat çıxa bildimi, sağ-salamatdımı? Aman, İlahi, torpaq həsrətilə necə kişilər getdi bu dünyadan...

Vaxt-vədə ötürdü, mən isə mikrorayon bazarından çıxa bilmirdim. Elə bilirdim Ağdam bazarındayam, bu alış-veriş eliyən adamlar da elə o bazarda gördüyüm adamlardı! Amma bu belə deyildi...

***

Qapını Güllü açdı.

- Şükür, gəlib çıxdın, bir getsən nə vaxt gələrsən?

- "Düz sözə nə deyəsən" - Vallah, fikir-xəyal məni aparmışdı Ağdam bazarına.

- Mətləb, səni başa düşürəm. Amma hamı necə, sən də elə, dözmək lazımdı.

- Görəsən biz dözmək sözündən ayrı söz bilirik? Niyə dözməliyəm, nəyin naminə dözməliyik? Yurdsuzun, yolsuzun biri sənin torpağında dövlət qurur, bayrağını ucaldır, sən də dözürsən. Nə qədər can bəsləmək olar?

- Əlimizdən nə gəlir, neyniyə bilərik?

- Könlümüzdə olsa çox şey. Pul qazanıb milyarder olan görürsən nə oğlanlarımız var. Amma Qarabağın ərazisini xəritədə göstərə bilməyənlərimiz də istənilən qədərdir.

- Mətləb, vallah, belə getsə, sən xəstələnəcəksən. Nə qədər fikir-xəyal eləmək olar?

- Deyirsən hələ bir fikir də eləmiyək?

- Bu daşnaklar yeyib-içdiyimizi burnumuzdan gətirdi də. İndi də "Sarı gəlin" mahnısını öz adlarına çıxıblar, deyir hələ muğamat da bizimdi. Yaxşı ki, muğamat oxuya bilmirlər.

- Bizim xanəndələrin böyründə Danel, Saşa, Karapet, Nefton oturub kamança çalanda tökülənləri yığışdıracaqdılar də. Oxumağı öyrənə bilməsələr də, çalmağı öyrəniblər. Amma Allah bizə verdiyi boğazı onlara verməyib. Bunlara deyən yoxdur ki, "Bayatı-Şiraz", "Bayatı-türk" ...hara, siz hara? Bir də bizim muğamlarda Quran sədası var. A kişilər, insaf eləyin, siz hara, Quran hara?

- Bayaq televiziyada deyirdilər ki, bəstəkar Qara Qarayevi də öz bəstəkarları kimi Avropa ölkələrinə sırımaq istəyirlər. Bizimkilər də bəyanat verib.

- Bəyanat vermək azdı, bütün dünyaya varlığımızı göstərməliyik. Qaldı ki, onlar birinci dəfə deyil ha, bizim bəstəkarlarımızın əsərlərini öz adlarına çıxırlar. İstedadsızların peşəsi çırpışdırmaqdır. Amma birdən elə ağ eləyirlər ki, adamın damarlarında qanı donur. Hələ Üzeyir bəyin sağlığında Ruben Mamuliyan adlı birisi dünyaca məşhur "Arşın mal alan"ı Hollivudda klassik erməni komediyası kimi səhnəyə qoyubmuş. Axırda o zaman bu işə Stalin də qarışıb. Müharibənin o şiddətli vaxtında "Arşın mal alan" filmini çəkib dünyaya göstəriblər ki, ayıbdı, kirvə, elə şey yoxdu.

- Dünyanın da elə bil gözü kordur.

-Şərəfsizlər bildiyini eləyirsə, oğru cəzasız qalırsa, dünya neyləsin.

Qapının zəngi çalındı. "Xeyir ola", gedib qapını açdım. Məmiş idi. Məmiş bizə gələndə kefimiz açılardı. Baməzə adamdı. Özü də harda nataraz, qəribə, gözlənilməz işlər vardı onun başına gəlirdi. Bilmirdim bu onun xarakterindən irəli gəlirdi, ya Allahın qismətiydi...

Məmişə xoş gəldin deyib qonaq otağına apardım. Onu doğma bildiyimdən neçə dəfə demişdim ki, Məmiş, adını dəyiş. Məmiş də etiraz eləmişdi ki, dayı (mənə dayı deyirdi), adımı rəhmətlik dədəm verib, dəyişə bilmərəm. Məmiş elə bərkdən danışıb-gülərdi, elə hay-küy qoparardı, nə gizlədim, mən də cana gələrdim. O, həmişə evimizə xoş ovqat gətirərdi. Ona görə də onun hər gəlişinə sevinərdik.

- Nə var, nə yox, ay Məmiş? Çoxdandı görükmürsən.

- Şükür Allaha, birtəhər dolanırıq.

- Tanış-tunuşa rast gəlirsənmi heç?

- Hərdən rastlaşıram, Kefin çəkən də var, dünyasını dəyişən də.

- Məmiş, həmişə istəmişəm soruşam, sonra yadımdan çıxıb. Bizim rayonun o binəva dəlisi necə oldu?

- Dəlimiz çoxdu, ay dayı, kimi deyirsən?

- Ə, genə ağlına gələni danışma, bizim Qarateli deyirəm.

- Qaratelin nəyi dəlidi?

- Ağıllıydı? Əyninə yeddi taxta tuman geyinib, əlinə taxta çömçə alıb o kolxoz bazarında nə oyunlar çıxartmırdı.

- O dəli deyildi, ay dayı, onu dəli eləyib çöllərə salan vardı.

- Yaxşı qoy oturmuşuq.

- Doğru sözümdü. Onun başına gələni bir mən, bir Allah, bir də Qaratel bilirdi. Bir gün dedim bu Qarateli güdəcəm. Qarabaqara onu izləyirdim. O, gedib balaca bir həyətə girdi. Xeyli gözlədim, həyətə girməyə ürək eləmirdim. Bilmirdim orda ondan başqa kim yaşayır. Amma maraq məni öldürürdü. Həyət qapısını azca aralayıb keçdim içəri. Gördüm səs-soraq yoxdu. Bir az da ürəkləndim, irəli gedəndə ayağım divara söykənmiş belə toxundu. Səsə bir xanım çıxdı. Gözlərimə inanmadım, Qaratel idi. Saçları topuğundan, əynində qəşəng xalat, ayağında yumşaq tapışqa... Qaratel məni görüb yerindəcə donub qalmışdı.

- Qaratel...

O, asta səslə: - Gəl içəri, - dedi. Mən də çaşıb qalmışdım. Bəs bu nə dəli oynuydu Qaratel illərlə çıxartmışdı. Qaratel düşdü qabağa, mən də onun arxasınca. Həyətdə tut ağacı vardı, kölgəsində də iri bir taxt qoyulmuşdu. Gedib taxtda oturdum. Nə o danışırdı, nə də mən.

Qaratel həyətdəki balaca samovara od salırdı.

- Zəhmət çəkmə, Qaratel, - dedim. O, çönüb mənə baxdı, gözləri dolmuşdu.

- İndiyə kimi heç kəs mənim evimə gəlməyib, bu halımı görməyib, hamı məndən uzaq qaçıb. Ağlıma gəlməzdi ki, kimsə məni izləyib dalımca gələr.

- Sən ki belə gözəlsən, ağıllısan, özünü niyə dəliliyə qoymusan, Qaratel? - soruşdum.

Qaratel cavab vermədi, başını aşağı salıb çay dəmləyirdi. Bir az keçmiş iki stəkan çay gətirdi. Özü də oturdu.

- İç, - dedi.

Qulağıma inanmırdım. Deyirdim, balam, bu Qaratelin nə qəşəng səsi var. Mən çayı içib yerimdən qalxmaq istəyəndə Qaratel dedi ki, otur, gəlirəm. Evə keçib, tez də qayıtdı. Əlində kitab vardı. Quranı ipək dəsmalın üstünə qoyub dedi:

- And iç ki, bu sirri kimsəyə açmayassan.

- Dedim, - burda nə sirr var ki, məni Qurana and içdirirsən? And pis şeydi. Arxayın ol, gördüyümü heç kəsə danışmaram. Dedi, yox, and iç, mən sənə başıma gələnləri danışacam. Qoy barı bir nəfər mənim dərdimi bilsin.

Əlimi Qurana basıb and içdim. - Dayı, indi Quran məni bağışlasın, bu sirri sənə danışıram. Bilirəm ki, sən söz danışan deyilsən. Hə, Qaratel başladı dərdini mənə danışmağa. Dedi ki, hökumət istəyirdi ki, qızlar da mexanizator olsunlar. Başımızı piyləmişdilər, guya ölkədə oğlan çatışmırdı... İndi fikirləşəndə az qalıram özümü öldürəm. Ə, bütün günü traktor sürən qızdan kişiyə arvad olar, dünyaya uşaq gətirə bilər?! Gecəmiz, gündüzümüz yoxdu. Hər qız da yazılmırdı ha, mexanizatorluğa, Amma mən yazılmışdım. Qəhrəman olmaq eşqinə düşmüşdüm. Maşınla pambıq yığıb qəhrəman olacaqdım. Kişilərin arasında tək idim. Bir gün maşın sahədə qırıldı. Düzəldə bilmirdim. Axşam düşmüşdü. Mənimlə bir traktorist də işləyirdi. Cavan oğlandı. Amma yaman şitəngiydi. Mənə tez-tez söz atırdı. Gecə keçdi, maşını düzəldə bilmədik, elə orada qoyub el yolu ilə şəhərə doğru gəlirdik. Bərk yorulmuşduq. Yolda su dəyirmanına çatanda oğlan dedi, baxaq görək kim var burda. Dəyirmanda kimsə yoxdu. Dəyirmanın böyründə ot tayası vardı. Ot bağlamalarından ikisini çəkib üstündə oturduq. Oğlan mənə lap yaxın oturmuşdu. Dedim bir az kənara çəkil. O, elə bil mənim sözümə bənd imiş. Bir göz qırpımında məni qucaqlayıb ot bağlamasının üstünə yıxdı. Ayı kimi güclüydü, altında çapalayırdım. Vallah, üzüm ayağının altına, - dedi, - kasıbçılıq, aclıq tüğyan eləyirdi, əynimdə heç alt paltarı da yoxdu. Mən onu üstümdən itələyib yerə salmaq istəsəm də bacarmırdım. Ətraf zülmət içindəydi, bir kimsə yoxdu. Nə gizlədim, mən onunla çarpışsam da, canıma elə bil od düşmüşdü. Mən sustalıb arxası üstə düşəndə o, mənim bakirəliyimi pozdu... Ağladım. O da indi tutduğu əməldən peşman olmuşdu. Yaxşı deyiblər ki, ehtirasın gözü kor olur. Amma iş işdən keçmişdi. Lap əvvəldən bilirdim ki, o, məni almayacaq. Onu məhkəməyə verməyimin nə xeyri olacaqdı? Day da adım dildə-ağızda gəzəcəkdi. Nəsə, gecəyarısı gəlib çıxdım evə. Ağlıma hardansa gəldi ki, özünü qoy dəliliyə. Sabah el-obada rüsvay olmaqdansa, dəli ol, düş şəhərin küçələrinə. Düz iyirmi beş ildi hamı məni dəli hesab eləyir. Mən iyirmi beş il itin zülmün çəkmişəm. Alçaldılmışam, çoxlarını alçaltmışam, amma hər əziyyətə dözmüşəm. Demişəm qoy mənə dəli Qaratel desinlər, ancaq qəh... Qaratel deməsinlər. - Sözünü qurtarıb gözümün içinə baxdı. - Cavan oğlan, indi bildin dəliliyimin səbəbini? Dərdimi gördün?

Dedim - gördüm, bacım, gördüm.

- Məmiş, indi hardadı o bədbəxt?

-Eşitmişəm ki, şəhəri ermənilər işğal edəndə dözməyib, özünü tankın altına atıb. O, şəhərsiz yaşaya bilməzdi, bizə baxma.

- Məmiş, vallah, səni belə bilməzdim. Nə səlis danışırsan. Ağıllı, dilavər, iti zehnli oğlansan, niyə ali məktəblərin birində oxumadın?

- Əvvəl imkanım olmadı, sonra da həvəsim. İndi də oxumağın nə mənası, təyinat yox, təminat yox. Belə diplom mənim nəyimə gərəkdi?

- Elə fikirləşmə, oxumaq vacibdir. Nəsə, indi hardasan, nə işlə məşğulsan?

- Bir işin qulpundan yapışmışam da.

- O nə işdi elə, çox məxfidi?

- Məxfi niyə olur?

- Bəs niyə gizlədirsən?

- Gizlədiləsi işi gizlədərlər də, dayı.

- Köhnə adətini aldın əlinə, yenə başladın qaravəlli danışmağa.

- Qaravəlli danışmıram, dayı, desəm inanmayacaqsan.

- Niyə inanmıram?

- Onda bil, ay dayı, indi mənim sənətim it otarmaqdı.

- Başladın da yenə.

- Görürsən, inanmırsan. Doğru sözümdü. İndi mən qəşəng bir avçarkanın sürücüsüyəm.

- Allah sənə ağıl versin, bizi biabır elədin.

- Heç kəsi biabır-zad eləməmişəm, ağlım da başımdadı. İş axtarırdım. Döymədiyim qapı qalmamışdı. Bir sahibkara rast gəldim. Kişi bərk gedən kommersantlardandı. İndi bilirsən dayna, Sovet hökumətinin qorxusundan Kubinka bazarında alver eliyənlər hamısı sahibkardı. Bir pul saymağı yaxşı bilirlər, bir də qol çəkməyi. İncimə, sənin nəyin var, dayı? Vur-tut bu evindi, oxumaqdan gözüyün də şövqü gedib. İncimə, düz olub hara nə qoymusan? Beş-üç manat qazanırsan, onu da aparıb verirsən dost-tanışın toyuna. Amma gör mənim əyriboyun kommersantım pulun çoxluğundan necə qudurubsa, bir "Jiquli"nin açarını verib mənə ki, mənim avçarkamı gəzdir. Kişi mənə ayda 100 dollar pul, 40 litr də benzin verir. Deyir get özün üçün kef elə, nədənsə ürəyimə yatmısan. Mən də dedim, baş üstə, ağa nəçənnik, sənin əziz itini necə lazımdı gəzdirərəm. Bir də indi çoxları özünə cangüdən saxlayır, elə bu avçarka da mənim cangüdənimdi. Özü də sahibini gəzdirməkdənsə itini gəzdirmək yaxşıdı. Budu ey, bir saatdı maşında şonquyub gözləyir, heç səsini də çıxartmır. Amma özü olsaydı, indi bağırtısından bina uçmuşdu. Bax, belə-belə işlər, dayı,

- Məmiş, dayının sənə daha sözü yoxdu...

- Mənə də it otarmaq xoş deyil, dayı. Özümü alçaldılmış, təhqir olunmuş hesab eləyirəm. Amma hamı bilməsə də, sən gözəl bilirsən ki, toxun acdan xəbəri yoxdur. Gör necə qudurğanlar peyda olub ki, itinə şofer tutur. Gör dünyanın harasıdı, dayı? Bu cür adamlarla torpağı kirvələrdən geri almaq olmaz, dayı. Olmaz, dayı, olmaz...

Məmiş birdən qəhərlənib susdu.

- Torpağı millətimizin qeyrətli oğulları alacaq, darıxma.

- Torpağın, yurdun qədrini bilməyən adamlar birdən ağızlarına nə gəldi danışırlar, adam qırıla-qırıla qalır. Bəzi gülməşəkərlər deyirlər, sabah Qarabağ alınsa, çoxu geri qayıtmayacaq. Di gəl danış da belələriynən.

- Elə adamların sözünə əhəmiyyət vermə. Onlar nə bilir yurd həsrəti nədi. Biz Qarabağa ellikcə qayıdacağıq. Özün bilirsən ki, mən köçkün deyiləm, amma Qarabağ alınanda hökmən el-obamızla bir yerdə olacam.

- Allah qoysa, dayı. İcazə ver, gedim.

Güllü onun səsini eşidib gəldi:

- Heç hara gedib-eləmirsən, çörək gətirirəm, biz də acıq, - dedi.

Məmişi yarı xoş, yarı zor süfrə başında oturtduq. Çay-çörəkdən sonra çıxıb getdi. Onun yarı gülməli, yarı ağlamalı söhbəti məni uzun-uzadı düşündürdü.

***

... insan düşünməsə, görünür, yaşaya bilməz. Bəs görəsən bu nə sirdir ki, doğmalarının, əzizlərinin yanında oturmusan, amma fikrin dağda-bağda gəzir. Xəyalımız nə qədər azad, nə qədər sərbəstdir. Heç bir sərhəd tanımır. Haqqında düşünmədiyin, bir kərə üzünü görmədiyin insanlar gecəyarısı doğan ulduzlar sayaq yaddaşında doğub-sönürlər. Atabəy Şəmsəddin Eldəniz də öz qiyafəsində son vaxtlar tez-tez yaddaşımda şimşək tək çaxırdı. Eldənizin doğrudan da bəxti üzünə gülmüşdü. Ağıllı bir qadınla evlənmişdi. Möminə Xatun onun evinə doğmalıq, istilik gətirmişdi. Qadın pərvanətək onun başına fırlanırdı. Möminə Xatunla bir damın altında olmaq çox xoş idi. Ona görə ki, onunla hər barədə söhbət etmək olurdu. Eldəniz onunla bir yerdə olanda yorulub bezmirdi. Ailə həyatında bu çox böyük xoşbəxtlik idi. Möminə Xatunun ayağı ona çox düşərli oldu. İllər keçdi Möminə Xatunun iki oğlu oldu. Böyüyünün adını Məhəmməd, kiçiyinin adını isə Arslan qoydular. Sultan onu yanına çağırtdırıb demişdi ki, səni Arrana hakim təyin eləyirəm. Eldəniz axşam sevinə-sevinə evə gəlmişdi. Möminə Xatun ərinin sifətindəki işıqdan duymuşdu ki, nə isə şad xəbər var.

- Eldəniz, xeyirdimi? - soruşdu.

- Sultan məni Arrana hakim təyin elədi. Biz günü sabah yola düşməliyik, etiraz eləmirsən ki?

- Qətiyyən. Mən çox şadam ki, Sultan sənə böyük bir ölkəni idarə etməyi etibar eləyib. Sənin günəşin doğub artıq.

Eldəniz beləcə ailəsi, qul-qaravaşıyla Bərdəyə gəlmişdi. O, taxta oturar-oturmaz öz adına pul da kəsdirdi. Çox keçmədən ölkənin hər yerində öz hökmünü göstərə bildi. O, oğulluğu Arslan şahın təlim-tərbiyəsini də bir an unutmurdu. Onun ürəyində niyyət vardı. Haçansa oğulluğunu sultan taxtına oturdacaqdı. O, təkcə Azərbaycanı yox, böyük bir imperiyanı bu yolla idarə eləmək fikrinə düşmüşdü.

... İllər gəlib-keçdi, Eldəniz bir-bir bütün niyyətlərini həyata keçirməyə başladı, oğulluğu Arslan şahı sultan taxtına oturtdu. Artıq o, sadəcə Eldəniz deyildi, Şəms-əd-din (dinin günəşi) Eldəniz idi. Onun böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın hacibi, kiçik oğlu Qızıl Arslan qoşun böyüyü oldu. Şəmsəddin Eldəniz Naxçıvanı özünə paytaxt seçdi. Beləcə, vaxtilə Dərbənd bazarında qul kimi satın alınmış çirkin, cılız, kiçik bir uşaq öz dərrakəsinin gücünə Azərbaycan Eldənizlər — Ağabəylər dövlətinin banisi oldu.

***

- Mətləb! Mətləb!!! Nə bərk yatmısan, oyan. Eşitmirsən, Qarabağda ruhlar üsyan eləyiblər!

- Nə eləyiblər deyirsən?

- Üsyan baş verib ey, üsyan...

- Orada kimimiz qalıb, kim eləyəcək üsyanı?

- Bəs demədim ruhlar üsyan eləyiblər. Səni yuxu tutub, baş verənlərdən xəbərin yoxdur. Millət ayağa qalxıb. Uşaqlı-böyüklü hamı Qarabağa üz tutub.

- Güllü, bəlkə səhv eşitmisən, bizim camaat alver eləməyə gedər, Qarabağa yox.

- Sən də zarafat eləməyə vaxt tapdın da. Alver nədi? İndi xalqın yadına alver düşür? Hamının dünyadan köçəni var da, balam. Başımıza gələni görürsən də. O qədər yolumuzu gözlədilər ki, axırda ruhlar dözməyib yurdlarına qayıdıblar. İnanmırsan mənə? Niyə mənə elə baxırsan? - deyə Güllü yerindən qalxdı: - Tez elə, qalx, qatara gecikirik.

- Nə qatar, ay qız? Sən hansı qatardan danışırsan?

- Boy, necə yəni hansı qatar? Bakı - Ağdam qatarını deyirəm də. Ağdama həmişə bu qatarla getmirdik?

- Əvvəllər hə, on beş ildir kirvələrin kəramətindən daha Ağdama qatar getmir.

Güllü gəlib qolumdan yapışdı:

- Qalx, qalx! Yollar açılıb, qatara gecikirik. Maşını qoy qarajda qalsın, vağzala taksi ilə gedərik. Uşaqlara da bərk-bərk tapşırmışam, evdən bayıra çıxmasınlar.

- Yaxşı, gedək, - deyib yerimdən durdum. Pal-paltarımızı götürüb evdən çıxdıq. Az qala uçurduq.

... Vağzalda adam əlindən tərpənmək olmurdu, arı pətəyitək qaynaşırdı. Hamı Qarabağda ruhların üsyanından danışırdı. Gedənlər o qədər çox idi ki, bütün qatarların üstünə Bakı - Ağdam yazılmışdı. Adamlar tələsə-tələsə vaqonlara doluşurdular. Cavanlar əllərində üçrəngli bayrağımız vaqonların üstünə çıxmışdılar. Deyəsən Güllü yanılmamışdı. Xalq Qarabağa qayıdırdı.

Fikirləşdim ki, bu qayıdış gərək çoxdan, lap çoxdan baş verəydi. Nahaqdan bir belə vaxt itirdik, itki verdik. Biz gərək özümüzə qayıdaq, kəndimizə qayıdaq, torpağımıza qayıdaq. Biz gərək dünyaya səs salaq, qazanc dalınca gedənlər, incik düşənlər, küsənlər yurda dönsünlər.

Dispetçerin yorğun səsi eşidildi:

- Diqqət, diqqət! Hörmətli sərnişinlər, Bakıdan Ağdama gedən 656 nömrəli Bakı - Ağdam qatarına birinci platformadan minik başlanır.

Güllünün əlindən tutub vaqonlardan birinə tərəf yeridim. Əməlli-başlı basabas idi. Hamı birinci qatarla getmək istəyirdi. Yurda birinci çatıb torpağı öpmək səadəti görəsən kimə qismət olacaq?

- Dayı! - Məmişin səsi idi.

- Məmiş, hardasan?

- Burdayam, dayı, beşinci vaqonda. Gəlin, sizə yer saxlamışam. - Məmiş vaqonun balaca pəncərəsindən bizə əl eləyirdi. Onu görəndə çox sevindim. Məmişin "Qaratel" nağılı bir meh kimi xəyalımdan keçdi. Yazıq Qaratel! Özünü erməni tankının altına atan bədbəxt Qaratel! Kaş sən bu günü görəydin, ay Qaratel.

Birdən mənə elə gəldi ki, Şəmsəddin Eldəniz də, arvadı Möminə Xatun da, nənəm, babam da mənimlə birgə vaqona qalxırlar. Onlar görünmürdülər, amma mən onların varlığını lap yaxından hiss eləyirdim.

- Niyə dayandın? - Güllü çiynimə qısılıb soruşdu. Üz-gözündən sevinc yağırdı.

- Heç, elə-belə, - dedim.

Birtəhər vaqona qalxdıq. Məmiş qabağa yeriyib boynumu qucaqladı:

- Boyuna qurban, ay dayı.

- Elə demə.

- Dayı, şükür, ölmədik bu günü də gördük. Əhvalatı eşidən kimi aparıb "Jiquli"ni qaytardım yiyəsinə, avçarkanı da açıb buraxdım azadlığa! Boynuəyri kişi az qalırdı məni öldürsün. Dayı, gərək bizə it otartdıranları bir də Qarabağa buraxmayaq.

- Yaxşı, Məmiş, yaxşı... Özünü ələ al.

Məmiş keçib öz yerində əyləşdi. Biz də oturduq. Qatar tərpəndi. Dinib-danışmırdıq, baş verənlər bizə yuxu kimi gəlirdi. Deyəsən maşinist də Qarabağa tez çatmağa tələsirdi. Qatar çox sürətlə gedirdi. Əyilib pəncərədən göyə baxdım, dumduru idi. Çölün-çəmənin xoş qoxusu vaqonun pəncərəsindən süzülüb içəri dolurdu.

Vaqonun üstündə qol-qola girmiş cavanlar üçrəngli bayrağı başları üzərində yelləndirərək dövlət himnini oxuyurdular:

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Qatardakılar da cavanlara qoşulmuşdular. Hamı oxuyurdu. Mən də oxuyurdum. Amma göz yaşlarımı heç cür saxlaya bilmirdim. Güllü tez-tez:

- Qurban olum, Mətləb, sən ağlama, qoy mən ağlayım, - deyirdi.

Məmiş:

- Bizi bu günə qoyanlar təkcə ermənilər yox, həm də bizə it otartdıranlar oldu, ay dayı. Adamı adam yerinə qoymayan, dünənin tum satanları, corab-dəsmal alveri eləyənləri görmədikləri günə düşüblər. Onlar nə bilirlər Vətən nədi, Yurd nədi. Onlarınkı var-dövlətdi, puldu, əyyaşlıqdı.

Mən ona bir söz demədim, qalxıb vaqonun balaca pəncərəsindən geriyə boylandım, qatarların sayı-hesabı yox idi. Minlərcə insan atlı-piyada, maşınla yola çıxmışdı. Deyəsən qaçqınlığın, köçkünlüyün sonuydu. Uşaqlar, yeniyetmələr əllərində məşəl tutaraq qatarın yanıyca gedirdilər. Ruhların üsyanı milləti uşaqdan böyüyə ayağa qaldırmışdı. Ölülərlə dirilərin ruhları biri-birinə qovuşmuşdu.

... Qatarlar durmadan irəliləyirdi. Səhərin açılmağına az qalırdı.

Deyirlər gecə hamilədir, sabah nə doğulacağını kimsə bilmir. Amma mən bilirdim ki, sabah torpağımızın Azadlığı doğulacaqdır.

İnanmayanlar gördüyüm son yuxunu yozsunlar.

İyul, 2006 - 30 noyabr 2007

Kamil Əfsəroğlu

Xəzri

Povest

“Azərbaycan” jurnalının oxucularına təqdim etdiyim bu povest 5-6 il öncə qələmə aldığım bir hekayəmin işlənmiş povest variantıdır. O yazı mətbuatda yaxşı qarşılansa da, bir müəllif kimi məni bir o qədər də qane etmirdi, hiss edirdim ki, demək istədiyim bəzi mühüm mətləblər hələ qalıb. Onlar mənə yaxın keçmişimizə bugünün prizmasından baxmaq, vaxtilə kölgədə qalmış bir çox məsələlərə işıq salmağa imkan verir.

Müəllif

Möcüzə baş verəcəyini gözləmək ağılsızlıq olardı. Xilas yolu qalmadığını dumanlı da olsa, dərk eləyirdi. Qatıb-qarışdırdığı içkinin havası beyninə vurmuşdu, yıxılmasın deyə, əlindəki nazik ağaca dayaqlanmışdı. Başını dikəldib yamaca sığınmış "Şanxayın" miskin mənzərəsini qəmli-qəmli seyr elədi. Alçaq damlı, yastı-yapalaq evlərin, ağacsız həyətlərin arasında nəyisə seçib ayırmaq istəyirdi elə bil. Ayaqlarının altındakı qalın qatran layı yavaş-yavaş yumşalırdı.

Dərindən, sinədolusu nəfəs aldı. Doluxsundu. Onu bu cəhənnəm girdabından qurtarmaq cəhdimin əbəs olduğunu görüb, kirimişcə durub baxırdım, qollarım yanıma düşmüşdü. Yolda

bizə ürcah olmuş yava it halımıza yanırmış kimi tələşla zingildəyir, ora-bura çovuyurdu. Köpəkdən bir kar aşmasa da, dar ayaqda yanımızda qaraltı olmağı hardasa təsəlliydi...

* * *

Damı qır örtülü xırda evlərin sığındığı darısqal həyət "Şanxayın" qəlbisindəydi. Aralıdan yeddibaşlı əjdahanı andıran yöndəmsiz Xar tut ağacı, lakmus kağızı rəngindəki taxta darvaza bu həyəti başqalarından ayıran yeganə nişanəydi. Sakinlərin bəxti gətirməmişdi: həyətin darısqallığı bir yana, bu kiçicik məkanın yeganə yaşıllığı olan Xar tut ağacı da barsız-bəhərsiz idi. Ancaq ağacın qısırlığını heç kəs dərd eləyib ürəyinə salmırdı. Yoğun gövdəsini örtmüş cod qabığı çat-çat, çopur-çopur idi, timsah dərisini xatırladırdı. Şah budağı da yox idi, hara gəldi qol-qanad atmışdı. Şirəsiz yarpaqları sərt, qalın idi və bu suyumsuz ağac səhnə dekorunu xatırladırdı.

Obaşdan, qoltuğumda dəftər-kitab, darvazadan çıxanda, günləri sayıram. Bir aydır həyətdə yeganə rus olan, təqaüdçü Polina xalanın kirənişiniyəm. Bir aydır şəhərin Şanxay deyilən bu ucqar məhləsində tələbə həyatının qayğılarıyla yaşayıram. Əsl sakinlər kimi mən də "şanxaylı" olmağımla öyünürəm, özüm də bilmirəm niyə. Səliqəsiz gecəqondularıyla ürək sıxan bu miskin məhlənin öyünüləsi heç nəyi yoxdu - adından savayı. Çalın-çarpaz, adsız-ünvansız dalanlar, döngələr darısqal və dolanbacdır. Taxta hasarlı, daş barılı bu dalanlar, döngələr o qədər ensizdir ki, buradan keçən it-pişik quyruğunu yelləyə də bilmir. Cin düyünü təki qarmaqarışıq küçələrdən şeytan da baş açmaz. Əslində, bunlar küçə də deyil, "şanxaylıları" evlərindən aparan, evlərinə qaytaran çala-çuxurlu cığırlar, yollar-yolağalardır. Hardasa uzaqlarda - Sakit okean sahilindəki Şanxaydan fərqli, burada səhər təzə ovlarını dükan-bazara çıxaran balıqçıların cır səsi, çığır-bağırı ilə açılmır. Bu məhlənin adamları balıq kimi bir nemətin varlığından xəbərsizdilər sanki. Gözüqıyıq, kökəsifət çinlilər kimi hər gün nazik bambuq çubuqlarıyla qaynadılmış düyü tıxanlar, həlim içənlər də yox idi. Düşəndə, bir də ki bayram günləri plov ətri gəlirdi evlərdən.

* * *

Çəhrayı rəngli, ensiz taxta darvaza həyətin yeganə çıxışı və yeganə girişiydi. Axşam işdən qayıdanlar iri ağızlı nəhəng qıfı xatırladan yarıaçıq darvazadan kölgə təki səssizcə sürüşüb içəri keçirdilər. Hərə bir qırımda gəlirdi - baxırdı işin-gücün gətirməyinə. İşi gətirdi-gətirmədi, təkgöz otaqda tək-tənha yaşayan Şıxəlinin kefi yüz biri vururdu. Bu dəfə də dünya-aləm vecinə deyildi, Araz aşığından idi, Kür topuğundan. Vərdişindən qalmadı, oxuya-oxuya həyətə girdi:

“Tapançanı almışam ki, atmağa,

Almamışam, patronların satmağa...”

- Ay Şıxəli, ayıbdı axı!.. - ikinci mərtəbədəki eyvanda çay içən Bayandur kişi onun sözünü ağzında qoydu. - Oxumağa mahnı qəhətdi? - soruşdu. Görünür, mahnının nə sözlə bitəcəyini bilirdi, yoxsa ona nə düşmüşdü, dursun qonşusuna yol göstərsin. Bir də, Şıxəli uşaq deyildi axı, özü demiş, vaxtında evlənsəydi, oğlu "morexodkanı" çoxdan bitirmişdi. Ancaq mənə elə gəlirdi ki, Bayandur kişi dinməsə belə, törə-tösmərək bu adam oxuduğu mahnının dalını gətirməzdi. Əslində, onun söylədiyi mahnı da deyildi, ara-bərə meyxanasıydı. Deyəsən, "kefkom" qonşum kiminləsə çənə vurmağa bir bəhanə axtarırdı və cənginə Bayandur kişi keçmişdi.

- Nolub, nə qəbahət eləmişəm, qədeş? - Şıxəli höcətindən qalmadı, başını dikəldib altdan yuxarı Bayandur kişini gileyli-gileyli süzdü. - Xalq mahnısıdı da, oxuyuram özümçün, - dedi. - Bunu filarmoniyanın artisti oxuseydi, ona gözün üstə qaşın var deyən olmazdı, mən ölüm. Şıxəli kimdi? Kakoy-nibud yetim piyaniskə...

Xar tutun altında kitab oxuduğumu görüb, xırda, qıyıq gözlərini üzümə dikdi. Məni özünə havadar bilirmiş kimi, ərklə dedi:

- Görürsən də, student, ağzımı açmağa bəndəm, hərə bir yannan üstümə düşür ki, filan oldu, bəhmən oldu. Göz-görəsi vətəndaşın hüququnu tapdayırlar. Alə, mən külbaş, neynirəm? Heç nə,

oxuyuram özümçün. Ürəyim doludu, maşallah, qaynıyır köhnə "polutorka" radiatoru təki... Qədeş, kim deyib bunu - "İncəsənət millətə məxsusdu".

- Lenin, - mən ələüstü cavab verdim. - Amma millətə yox, "xalqa məxsusdu" deyib. - Qonşumun sualına cavab tapmaqdan ötrü baş sındırmağa gərək yox idi. Bu fikri şüar eləyib hər yanda asmışdılar.

- Sağ ol, student! - minnətdarlıq elədi. - Sən deyən düz olar, oxumuş cayılsan. Amma bir yannan da nə fərqi - millət olsun, ya xalq. Mənə od qoyan alayı şeydi, qədeş. Bəgəm, ağsaqqalımız belənçik söbətlər eliyəndə, yetim Şıxəlini fikirləşmiyib?

Lenini ağsaqqal adlandırmağı nəsə mənə yapışmadı, gülməli gəldi, ancaq özümü ələ aldım.

- Əlbəttə, fikirləşib, - dilləndim. Bu sözləri özümdən uydurmamışdım, məktəbdə bizi belə öyrətmişdilər - öyrətmişdilər ki, proletariatın rəhbəri özünü yox, həmişə başqalarını düşünüb, bütün bəşəriyyətin dərdini çəkib. Bəşəriyyət deyəndə, təbii ki ora Şıxəli də aid idi.

Mənim sözlərimdən qonşum lap ürəkləndi.

- Deyilənə görə, o yazıq elə kasıb-kusuba dayılıq eliyib, - dedi. - Şıxəli kimdi, xalq deyil bəgəm? Talant belənçiginə batıb gedir də... Mənim də böyüyüm, ağsaqqalım olseydi, səsim filarmoniyadan gələrdi, Şanxaydan yox. Bir müğənni var ey, "Ağ paltardasan"ı oxuyur - mənim yanında olardı "patsan", qərdeş canı.

Qonşum üzünü mənə tutub danışsa da, deyilənləri Bayandur kişi özünə götürdü.

- Şıxəli, - dedi, - gəl, əyri oturaq, düz danışaq. Əvvəla, heç kim sənin hüququnu tapdamır. Təzə kvartirant da Allah şahididi, - məni göstərdi. - İkincisinə qalan yerdə, ağzını bağlayan yoxdu, oxu. Ancaq abırlı-başlı oxu, həyətdə arvad-uşaq var. Nə çox xalq mahnısı - məsələn, "Asta yeri, kəmər düşər belinnən".

Bayandur kişinin nəsihətamiz sözləri bəlkə də Şıxəlinin beyninə batardı, ancaq mahnının adı onu qıcıqlandırdı. Qaşları çatıldı, üzünün ifadəsi dəyişdi. Deyəsən, yaşca özündən böyük, ahıl qonşusundan belə söz-söhbət gözləmirdi.

- Bu nə danışır, alə? - təəccübünü gizlətmədi. - Kəmər düşsə, tuman da düşəcək də, söbəti yoxdu. Tuman da düşdü, avtomatik olur anadangəlmə lüt-üryan. Öz aramızdı, sən də az aşın duzu deyilsən a, Bayandur qədeş. Necə yəni "asta yeri, kəmər düşər belinnən"? Besplatnı konsertsən, Ətağa... "İncəsənət xalqa məxsusdu" - amma yetim əntiqə deyib, mən ölüm...

Şıxəli dil boğaza qoymurdu. Dediyinə görə, onun dilini açan içkidi və o da içir ki, dili açılsın. Qəribədir, bu bir ayda mən onu həmişə beləcə dilli-dilavər görmüşəm. Doğrudur, hərdən ağzını Allah yoluna qoysa da, bədniyyətliyi yox idi. Şıxəlisiz həyətin ab-havası bəlkə də başqa cürə - cansıxıcı və sönük olardı. Başqalarını deyə bilmərəm, mən belə düşünürdüm. Bəlkə günlər keçdikcə, bu qılboyun, nanıq adama bələd olduqca, o məndən ötrü adiləşəcək, digər sakinlərdən seçilməyəcəkdi. Qonşular deyir ayıq vaxtı onu tanımazsan, halı-xasiyyəti tamam dəyişir, qaraqabaq, hətta uşaq kimi utancaq olur. Ağzından kəlbətinlə də söz çəkə bilmirsən... Maraq məni boğurdu, bircə dəfə də olsa, qonşumun o halını görmək istəyirdim. Deyirdim, kaş içki dükanlarını bir günlüyə bağlayaydılar. Bax, onda darvazadan yəqin ayrı Şıxəli girərdi - özgə qılıqda, özgə qırımda... Belə çıxırdı ki, bu darısqal, uzunsov həyətdə iki Şıxəli yaşayırdı: biri az-çox mənim bildiyim, o biri isə hələlik tanımadığım. Tanımadığım o Şıxəlini özlüyümdə başqa cür təsəvvür edirdim: başqa qiyafədə, başqa sur-suyumda, həm də müəmmalı.

- Öz aramızdı, Lenin də hara gəldi, özünü dürtüb ha, - Şıxəli dilotu yemişdi elə bil. - Soruşan gərək, qədeş, sən özün mandalinadan-balalaykadan bir instrumentdə çala bilirsən bəgəm, durub sənətdən yazırsan. Əlbət, heç səsi də olmuyub oxusun.

Bayandur kişi bayaqdan təmkinini pozmasa da, daha hirsini cilovlamadı. Özündən çıxdı, elə bil atabaanasını söymüşdülər.

- Gəda, sən antipartiyasan! - səsini qaldırdı. - Bircə o qalmışdı, dünya proletariatının rəhbərinə sataşasan?! 37-ci il olsaydı, sənin başına bir oyun açardılar, yetişmişin qala-qala kalın tökülərdi. Göndərərdilər Sibirə, ya da pryamoy qəbirə. Bəs nə bilmişdin?.. Elə indinin özündə də başını tumarlamazlar - boynunun ardınnan basıb salallar ağzıbirə, qalarsan bəyirə-bəyirə.

Qonşusunun qəfil hücumundan Şıxəli özünü itirdi. Çaşıb qalmışdı, üzündə tər puçurlanmışdı. Sifətinin ifadəsi bir andaca dəyişmişdi, elə bil sərxoşluğu ruh kimi vücudunu tərk edib harasa qeyb olmuşdu. Dili topuq vururdu:

- Qədeş, mən yetim nə dedim ki? Lenin babanın qadasını alım, partiyanın da başına dönüm...

Əlinin arxasıyla üzünün tərini sildi, daha nəsə demək istədi, ancaq səsi titrədi, sözünün dalını gətirə bilmədi. Onun bu halını görüb, Bayandur kişi burnunu dikəltdi, dorçununu dartdı. Bu vəziyyətdə o, rəqibini yerə sərmiş qoca Roma qladiatorunu xatırladırdı, bir o qalmışdı, enliağız qılıncını yıxdığının ürəyinə saplasın.

- Bax belə, sözünə sərhəd qoy, danışığını bil! - Bayandur kişi təşərləndi, stəkan-nəlbəkini götürüb içəri keçdi. Elə bunu gözləyirmiş kimi, Şıxəlinin pusquda durmuş sərxoş qırımı, nəşəsi özünə qayıtdı, ovurdları batmış ətsiz sifəti yenə əvvəlki ifadəni aldı.

- Sən buna bax, alə, qoca vaxtında mənə politikadan dərs verir, - Bayandur kişinin qarasınca mırtdandı. - Millətin başına biz ağıl qoyuruq... Bilirsən, nöş cavabını vermədim, qədeş? - məndən soruşdu.

Mən çiyinlərimi dartıb, başımı buladım. Şıxəlinin ağlında nələr dolaşdığını hardan biləydim? Belə baxanda, onun fikrini bilmək mənə maraqlıydı.

- Ona görə ki, beləsinə etibar yoxdu, gedib adamı baqaja qoyar, - gileyləndi, - politiçeski statyaynan basallar qazamata, gedərəm çala-çala. Yetim oğlanam, dalımda duranım da yoxdu ki, bərk ayaqda vəkil tutub məni qurtarsın... Bayandur - sən bunun adına baxginən, özü kimi fistirinkədi. Dayandur olseydi, deyərdin bir mənası var. Özünü elə aparır, guya həyətin komendantıdı, Lenin babanı da mənnən çox istiyir. Başınnan böyük danışmağına baxma, belənçiklərin bərkdə əli yoxdu. Uşaq deyilik, görə-görə gəlmişik. Alə, məni alayı şey yandırır e - bu hüştülümün yetmişə yaxın yaşı var, fəhlə-gənclər axşam məktəbini dünən bitirib, kamal attestatı alıb. Soruşan gərək, məhlə uşağı, atam-qərdeşim, bu yaşda attestat sənin nəyivə lazımdı, bir ayağın burdadı, o birisi gorda. Komediyadı, mən ölüm... Bayandurdu, Dayandurdu-nədi, durub mənə ağıl verir. Söbət deyil ki... Arvadı, rəhmətlik Bikəxanım, bakılı qızıydı, onun sayəsində kişi olub.

Həyətdə az-çox tanıyıb təmas qurduğum iki-üç nəfərdən biri də Bayandur kişiydi. Ortaboy adamdı, yeriyəndə sağ ayağını çəkirdi, davada yaralanmışdı. Üzdə qanısoyuq görünsə də, elə quruluğu yox idi, içi nurlu, işıqlıydı. Bayandur kişiylə mən ayrı-ayrı bölgələrdəndik, amma o məni "eloğlu" deyib çağırırdı. "Eloğlu" sözü ürəyimə yatırdı və qonşumun bu bircə kəlməsi, istiqanlılığı təzəcə məskunlaşdığım həyətdə mənə qəribliyimi unutdururdu. Qızı və iki nəvəsiylə eyvanlı mənzildə yaşayırdı. Dediyinə görə, yeznəsi Seyidalı bivecin biridi, iki ildir qazanc dalınca Rusiyaya gedib. Qızıl mədənlərində işləyir. Uşaqlardan ötrü atalarının nə qulluqda çalışmağının mənası yox idi, ancaq anaları Zəriş bununla açıqdan-açığa öyünürdü. Arvadlarla söhbət eləyəndə yerli-yersiz ərinin işini gözə soxurdu. Elə öyünürdü, guya Rusiyanın qızıl mədəni onlara işləyirdi. Hər dəfə poçtdan göndəriş kağızı gələndə sevincindən quş olub uçurdu. Həyətə car çəkirdi ki, əri "posılka" göndərib, gedir almağa. Poçt bağlamasında nə olduğu onun özündən də çox qonşuları maraqlandırırdı. Hamı elə bilirdi ki, Seyidalı pal-paltar yerinə nə vaxtsa bir yeşik saf rus qızılı göndərəcək və bu sovqatdan onlara da pay düşəcək.

Poçt şöbəsi uzaqda deyildi, Hərbi Dəniz Donanmasına yaxın yerdə, "Admiralski dom" deyilən binanın yanındaydı. Xanlar küçəsindən üzüaşağı dümdüz, enli daş artırma uzanırdı. Bu dik artırmanı enmək elə bir əziyyət deyildi, ancaq buranı qalxmaq cəhənnəm əzabıydı. Zəriş, qoltuğunda fanerka qutu, pilləkənləri qalxanacan əldən-ayaqdan düşürdü, nəfəsini çiyinlərindən alırdı. Amma yorğunluğunu unudurdu, bəlkə də elə bilirdi ki, qutunun işıldayan mıxlarını söküb qapağını açanda ger-geyim yox, başqa sovqat görəcək. Nə görmək istədiyini özü bilirdi. Ondan da çox, bağlamayla Bilqeyis arvad maraqlanırdı. Uzaq Sibirdən gələn uzunsov balaca yeşik ondan ötrü sirli-sehirli mücrüydü.

Sonuncu bağlama dünən gəlmişdi. Zərişin hıqqıldaya-hıqqıldaya həyətə girdiyini görüb Bilqeyis arvad eşiyə çıxdı. Mkıçın arvadı Zoya pəncərədən boylandı. Daha kiminsə qapısı cırıldadı. Bayaqdan həyətdə elə sakitlik vardı, deməzdin ki, burada adam yaşayır.

- Ağez, ərin yenə şmotkə göndərib? - Bilqeyis arvad marağını boğmadı.

- Nə bilim, hələ açmamışam, - Zəriş könülsüz-könülsüz dilini sürüdü.- Başqa nə göndərəcək?

- Qızıl göndərsin də, nə vaxtacan şmotkəynən baş aldadacaq?

Bilqeyis arvad elə danışırdı, guya poçt bağlamasında qızıl olub-olmamağının ona bir isti-soyuğu vardı.

Zəriş dilini saxlamadı:

- Ay arvad, sənin nə borcuna qalıb, ərim pal-paltar göndərir, ya qızıl.

- Həri?! Düz deyirsən, nə işimə qalıb, ər sənin, sər sənin. - Bilqeyis arvad ağzını büzdü. Özlüyündə qət elədi ki, yeşikdəki qızıl deyil. Qızıl olsaydı, ağır olardı və o boyda qutunu Zəriş təkbaşına daşıya bilməzdi. Deyəsən, Zoya da bu qənaətdəydi, pəncərənin qabağından çəkildi. Kiminsə qapısı cırıldayıb örtüldü.

Yenə sakitlik çökdü. Hərdən Bayandur kişigilin mənzilindən nəvələrinin şən çığır-bağırı gəlirdi. Atalarının göndərdiyi sovqatı bölüşürdülər. Bağlamadan qızıl yox, pal-paltar çıxmağına yalnız onlar sevinirdi. Ekiz oğlan uşaqlarıydı. Yeddi yaşları tamam olmadığından məktəbə getmələri qalmışdı gələn ilə. Həmişə dəst geyinirdilər. Anası onları necə seçib ayırırdı, baş açmırdım. Zahiri bənzərlikdən savayı uşaqların təbiətində, xasiyyətlərində də eynilik vardı: biri kefsizləyəndə o birinin də qırımı dəyişirdi. Ağızlarının dadı da bir idi, südlüsıyığın ölüsüydülər, eyvanda oturub elə iştahla qaşıqlayırdılar, deyirdin bəs dünyanın naz-nemətini yeyirlər. Alma şirəsindən isə zəhlələri gedirdi. Anaları onlara yarımca stəkan şirə içirdənəcən dindən-imandan olurdu.

Bir yol Zəriş uşaqlarını yenə dilə-tova tutanda məni göstərdi, ekizlərə dedi, alma şirəsi içsəniz, tez böyüyəcəksiniz, təzə kvartirant kimi institut oxuyub mühəndis olacaqsınız. Qonşumun danışığından bəlliydi ki, mənim harda oxumağımdan xəbərsizdi. Bir də ondan ötrü bunun nə mənası vardı?.. Ekizlər əvvəl bir ağızdan etiraz elədilər ki, mühəndis yox, kosmonavt olmaq istəyirlər. Sonra da başladılar analarını sorğu-suala tutmağa ki, bəs köhnə kvartirant hara gedib? Zəriş özündən nələr uydurmadı? Dedi köhnə kvarirant institutu bitirib, diplom alıb, hal-hazırda işləyir, qurur-yaradır... Zavallı qadın elə bildi ki, bununla da canını qurtaracaq. Ancaq uşaqlar dil boğaza qoymadılar. Uydurdular ki, köhnə kvartirant, əlbət, marojna düzəldilən yerdə işləyir. Anaları onları başdan eləmək üçün tezcənə övladlarının fikriylə razılaşdı. Nəfəs dərməyə macal tapmamışdı ki, təzə sorğu-sualla qarşılaşdı: "Köhnə kvartirant yaxşıydı, yoxsa təzə kvartirant? - uşaqlar bir ağızdan soruşdular. Zəriş qaldı çaşbaş, bilmədi nə cavab versin. Belə söhbəti ortaya atmağına peşman olmuşdu. Mənə sarı boylandı, bildi ki, uşaqları maraqlandıran sualı qulağım alıb. Məni yalnız üzdən tanısa da, "əlbəttə, təzə kvartirant yaxşıdı" - deyib candərdi dilini sürüdü. Halına-xasiyyətinə bələd olmadığı adam haqqında fikir söyləməkdən özü xəcalət çəkdi. Elə mən də deyilənləri ciddi qəbul eləmədim.

O söz-söhbət Zərişə dərs olmuşdu: alma şirəsi içirtməkdən ötrü ekizləri dilə-tova tutanda ta məni nümunə göstərmirdi. Məni heyrətləndirən bir də başqa şey idi: ətirli meyvə şirəsini bəyənməyən ekizlər iyli balıq yağını həvəslə, su təki içirdilər. Təkcə uşaqlarda deyil, böyüklərdə də ikrah doğuran bu dərmanı ekizlərin necə içdiyini görməyim deyə, üzümü çevirirdim.

Səhərlər babalarının "Qalxın!" əmriylə uşaqlar yuxudan oyanıb eyvana çıxırdılar. "Boysırası düzlən!" - Bayandur kişinin bu əmri gülməli görünürdü, çünki bir almanın iki yarısı olan uşaqların nə boy-buxunu bir-birindən seçilirdi, nə də sir-sifəti. "Bir-iki, bir-iki!.." - əmriylə uşaqlar hıqqıldıya-mıqqıldıya oturub-durur, əllərini havada oynadırdılar. Yuxulu gözləri yumulmaqdan ötrü sino gedirdi. Sonra taxta qılınc, qalxan yerinə isə qazan qapağı götürüb vuruşurdular. Bax, onda yuxuları qaçır, üzlərinin ifadəsi dəyişirdi. Elə döyüşür, bir-birinə elə zərbələr endirirdilər, onların doğma qardaş olduğuna adamın inanmağı gəlmirdi. Bəlkə də belə tərbiyə ekizlərə ekiz olduqlarını unutdurmaq və onların içindəki təbiətən mövcud ruhi bağlılığı qırıb, hər birində "mən" eqosu yaratmaqdan ötrüydü. Bayandur kişi deyirdi, yeznəsinin o işi yaxşıdı ki, uşaqların tərbiyəsiylə uzaqdan-uzağa - məktubla da olsa, məşğuldur. Sibirdə başı daşa dəyəndən sonra həyatı dərk eləyib. Övladlarına Sparta tərbiyəsi verməyi də o yazıb göndərib.

Bayandur kişinin mənzilindən hərdən qaynadılmış düyü ətri gəlirdi. Qıyıqgöz olsaydı, görən deyərdi kişinin qanında çinli qarışığı var. Söz düşəndə öyünürdü ki, əsl şanxaylı Allahın verən günü düyü yeməlidir, cana xeyirdi, ömrü uzadır. Çinlilər o qədər düyünü boşuna yemirlər ki...

Şıxəli ayaqda qalmaqdan yorulmuşdu, üzbəüzdəki kətildə oturdu. Boğazını uzadıb Bayandur kişinin eyvanına sarı boylandı, onun bayıra çıxmağını gözləyirdi. Deyəsən, söz savaşındakı məğlubiyyətiylə barışa bilmirdi.

Üst-başı kir-pasaq olan Volodya yırtıq qaloşlarını sürüyə-sürüyə həyətə girməsəydi, Şıxəli bəlkə də Bayandur kişini səsləyib çağıracaqdı.

Volodya yaşlı adam idi, Şanxayın dəlisiydi. Döyükə-döyükə həyətə girirdi, bir gözü darvazada olurdu, elə bil qorxurdu ki, bu iri taxta qapını bağlayıb dalının rəzəsini vuracaq, onu küçəyə buraxmayacaqlar. Bağlı, qapalı həyət qala divarları təki onu sıxır, ürpəndirirdi. Əlbət, ondan yana çəhrayı darvazadan bəri üzə çox az hallarda adlayırdı.

Tələşlə bir Şıxəliyə baxdı, bir mənə, büzüşüb yerindəcə hərəkətsiz qaldı. Bulanıq ala gözlərinin sönük işartısı olmasaydı, deyərdin dirrikdə-bostanda qarğa-quzğun perikdirən müqəvvadı. Ona yazığımız gəldiyini üzümüzdəki ifadədən duyub ürəkləndi. Yaxınlaşdı, "Ay şabaş, day şabaş" - deyib, çırtıq vurub oynamağa başladı, atılıb düşdü. Şıxəli onun cındır pencəyinin cibinə pul qoydu. Mən də bir neçə xırda qəpiyi Volodyanın ovcuna basdım. Volodyaya elə bu lazım idi, oyununu saxladı, səhnədəymiş, kimi sakitcə təzim elədi, qaloşlarını sürüyə-sürüyə, dalı-dalı həyətdən çıxdı. Mən bu fındıqburun rusu Şanxaya köçdüyümün səhərisi görmüşdüm. İri zibil yeşiyinin arxasında, taxtadan düzəldilmiş sığınacaqda gecələyirdi. Lal-dinməz gəzib dolaşır, adamlara ürək qızdırmırdı. Heç vaxt heç kimə əl açmırdı, yalnız atıla-düşə oynayanda şabaş götürürdü. Səhərin korunda məhləyə gələn zibil maşınının yolunu səbrsizliklə gözləyirdi. Zibilyığanın kor zurnasının səsi aləmi başına alırdı. Bu səs məhlə sakinlərini zibil atmağa çağırırdı. Maşın məhləyə er gəldiyindən adamları yuxudan eləyirdi. Volodya sığındığı yerdən çıxır, mağardaymış kimi qol götürüb dingildəyirdi, "Ay şabaş, day şabaş!" - deyib yerində hoppanır, ayaqlarını yerə vura-vura o baş-bu başa gedirdi. Əl-qolunun hərəkəti kor zurnanın yeknəsəq züyültüsünə yatmırdı, hətta adama elə gəlirdi o, çalınanı eşitmir, ovsunçu neyinin hərəkətinə uyuyan ilan kimi, sadəcə, başını tərpədir, ora-bura yelləyirdi. Yazığı gəlib Volodyaya şabaş verən olurdu. O isə hamıya - pul verənə də, verməyənə də eyni cür təzim eləyir, maşın məhlədən gedənəcən ortalıqdan yığışmırdı.

Bir yol məhlənin ayağından qoşa zurna səsi eşidildi. Hamı çaşıb qalmışdı. Zibil maşınından on-on beş addımlıqda təptəzə süd maşını dayanmışdı. Qəribə oydu ki, zibilyığanla südsatanın pülədiyi dəmir düdüklər eyniydi, hər ikisindən də bir avaz gəlirdi. Bu nəfəsli alətlərin xanələri yox idi, yəqin bilərəkdən elə düzəltmişdilər ki, hər kəs durub istədiyini çala bilməsin. Maşınlar da eyniydi, fərq ondaydı ki, birinin arxasında “MOLOKO” yazılmış iri, mavi çən, digərində üfunətli iri zibil bunkeri vardı. Qoşa zurna sədası dəli Volodyanı da çaşdırmışdı. Qol qaldırıb ortalıqda gəzindi. Bilmək olmurdu kimin çalğısına oynayır - zibilyığanın, yoxsa südsatanın.

Obaşdan məhləyə gələn maşınlar bu ixtiyar adamdan ötrü oyuncaq idi, uşaq kimi onu ovundurub əyləndirirdi...

Şıxəli başını bulayıb Volodyanın qarasınca heyfsləndi:

- Bu bədbəxtin "istoriyası" alayıdı, uzun zırıltıdı. Qədeş, sən onun elənçik olmağına baxma ha, savadlı adamdı, generalmış.

Eşitdiyimə ürpəndim, tüklərim biz-biz oldu. Məhlə uşaqlarının bu havalını "General" çağırdıqlarını qulağım almışdı, ancaq kir-pasaq içində olan, üzü-başı tüklü, fındıqburun rusun nə vaxtsa həqiqi general olduğunu ağlıma gətirməzdim. Elə bilirdim bu adı ona ayama yaraşdırıblar.

- Yazıq niyə bu vəziyyətə düşüb? - soruşdum. Hiss elədim ki, sualı verəndə səsim titrədi.

- Nə bilim, - Şıxəli dedi, - bəgəm təkcə Volodyadı? Belələri o qədər olub ki... Stalin vaxtı heç nəyin üstündə adamın başına oyun açırdılar. Bayandur qədeş demiş, göndərirdilər Sibirə, ya da pryamoy qəbirə. Bu bədbəxt heç nədən, arvadının güdazına gedib. Müharibədən sonra o yannarda - Şimali Qafqazda voyennidə xidmət eliyirmiş. Arvadı özündən cavanmış, özü də dünya gözəliymiş. NKVD naçalnikinin onun arvadına gözü düşür. Nəsə elə düzüb qoşur ki, bu bədbəxti "vraq naroda" - xalq düşməni çıxarırlar. Paqonlarını söküb özünü də basırlar türməyə. Ordan da ki, belənçiyinə çıxıb, havalı. Görünür, qisməti buymuş...

- Yazıq, - mən təəssüfləndim.

- Çoxdanın əhvalatıdı, - Şıxəli sözünün dalını gətirdi. - Bir kərəm bizim küçədən bir rus ofiseri keçirdi - yadımda deyil, polkovnik idi, ya podpolkovnik. Ucaboy adam idi. Volodyanı görəndə tanıdı, yaxınlaşıb qucaqladı. Soruşdu ki, “tovariş general, vı menya ne uznali, çto s vami, Vladimir Qeorqieviç? General Ponkratov, çto oni sdelali s vami?” Volodya isə key-key durub onun üzünə baxırdı, heç nə xatırlamırdı. Deməginən, bir məktəbdə kursant olublar, Krımda vuruşublar. Volodyanın istoriyasını da bizə o ofiser danışdı... Yaxçı adama oxşuyurdu. Nöşün ki, başqası olseydi, bəlkə də özünü tanımazlığa vurar, keçib gedərdi. Deyərdi əyibdi, dəliyə nöş baş qoşum? O, elənçik eləmədi. Köhnə dostunun cibinə pul qoymaq istədi, amma Volodya götürmədi. Dedim, “tovariş ofiser, sən bu adamın belənçik olduğuna baxmaginən, yolçuluq eləmir, ancaq şabaş götürür”. “Kazbek” papirosunun tənbəkisini boşaldıb zurna düzəltdim. Məşhur "Katyuşa" mahnısı var e, onu çaldım, Volodya girdi ortalığa, "ay şabaş, day şabaş" deyib oynadı özüçün. Ofiser özünü saxlaya bilmədi, hönkürüb ağladı. Ayrılanda general hüzurundaymış kimi, Volodyanın qabağında "smirno" diyandı, əlini gicgahına aparıb "çest" verdi... O "kartina" indi də gözlərimin qabağınnan getmir - kinoydu elə bil.

Eşitdiyim söhbətdən yamanca duyğulanmışdım, gözlərim nəmlənmişdi. Bunu gizlətməyə çalışsam da, deyəsən, qonşumun nəzərindən yayınmamışdı.

- Baxıram, gözlərin doldu, student, - dedi. - Belənçik haqq-hesablar məni də birtəhər eliyir. Qədeş, baş açmıram, axı nöş belə olmalıdı? - gileyləndi. - Qurban olduğum Allah dünyanın işlərini nöş nizamlamır, görmür bəgəm? Soruşan gərək, bu günahsız yetimi nöş belə kökə salırsan? Bunun ailəsini dağıdan o "podonokun" ağlını başınnan al, onun cəzasını verginən də... Nöş belə olmalıdı?

Şıxəlinin sualı adi sual deyildi. Kökünü axtarsan, gedib qədimlərə, bəlkə də lap daş dövrünə çıxar. Əlbət, bu sual insan oğlunu o vaxtlardan düşündürüb...

Qonşumun səsinə qapıldığım düşüncələrdən ayrıldım.

- Özümü tərifləmək olmasın, mən elə adamam, yeri gəldi sözümü deyirəm, söbəti yoxdu, - öyündü, - heç kimnən, heç nədən də çəkinmirəm. Bəs necə? Lələşivi sonra tanıyaceysən. Qədeş, sən bizim məhlədə təzəsən. Bir şeyi bilginən: Şanxayda "yek" Şıxəli var, ikincisi yoxdu, ola da bilməz. Buralarda sənə sataşıb eləsələr, çəkinmə, deginən qərdeşivə. Bizim həyətin kvartirantına ilişənin yeddi başı gərək. Qərdeşivin vesini sonra göreceysən. Uçastkovı da öz uşağımızdı, o günnəri kafedə məniynən pivə içirdi - qonşu stolda oturmuşdu. Axır vaxtlar aramız soyuyub, yoxsa lap can-cigərdik. Bir balaca söbətimiz düşmüşdü. Həyatda belənçik şeylər olur.

- Nə söhbət? - özüm də bilmədən soruşdum. Böyükləri sorğu-suala tutmağın yersiz olduğunu bilsəm də, sözləri qəsdən deyil, lapdan ağzımdan qaçırmışdım. Gözləyirdim ki, Şıxəli məni tənbeh edib soruşacaq ki, məktəbdə səni belə öyrədiblər? Peşmanlığım çox sürmədi, qonşum elə bil bayaqdan bu sualı gözləyirdi.

- Bir kərəm məni çağırmışdı yanına, otdeleniyə, - bayaqkı həvəslə söhbətinə davam elədi. - Mən də kak vseqda, yaxşıca vurmuşdum, yerin məlum. Uçastkovı gördü ki, dəməm, özü də necə lazımdı. Dedi, alə, qaranoy, get, ayılanda gələrsən. Dedim, rəis, qısası, deginən gəlmə, ayıq vaxtım olur ki?.. Soruşdu, Şıxəli, Sovet milisi haqqında xalqın fikrini, əlbət, bilirsən? Dedim, rəis, nöş bilmirəm, şəhər uşağı deyilik bəgəm? Amma bir az nalayiq sözdü, dilim dönmür deyim. Fikrimi göydə oxudu, uşaq deyildi, neçə ildi çiynində paqon daşıyır. Şəhərdə çoxları ağzıgöyçəklik eliyib milislərə "it" deyir.

- İt? - heyrətə gəldim.

- Həri... Baxdım ki, yetim özünü artistliyə vurur, guya belənçik haqq-hesablardan xəbəri yoxdu. "Mənim milisim məni qoruyur", eşitmisən? - soruşdu. Dedim, nöş eşitməmişəm? Belənçik şuar da var, otdelenninin qapısından asılıb. Gördüm, söbətim ürəyinnən oldu. - Sağ ol, - dedi, - yaxçı, sənin milisin səni qoruyursa, sən neyləməlisən? - soruşdu. Burda ilişdim, bilmədim nə cavab verim. Qaldım mıqqıldıya-mıqqıldıya. Qorxdum, ağzımdan lişni söz-söbət çıxar, rəisin dınqırına dəyər, sonra gəl bunun könlünü al, görüm necə alırsan... Dedim, mənim milisim məni qoruyursa, mən də əvəzində ona daş daşımalıyam...

- Daş niyə, Şıxəli? - marağımı boğmadım. Bu yerdə qonşum söhbətinə ara verdi. Cibindən siqaret çıxardıb damağına aldı, alışdırdı. Acı tüstünü acgözlüklə ciyərinə çəkdi. Siqareti sümürəndə az qalırdı ovurdları bir-birinə yapışsın, ətsiz-əzasız üzü lap arıq görünürdü. Bir qullab da vurub mənim sualımı cavablandırdı:

- Nöşün ki, daş daşımaqdan savayı ağlıma alayı fikir gəlmədi, - dedi. - Otdelenni üçün miyana bir bina tikirdilər, düşündüm ki, yəqin, kömək lazımdı. Sözüm böyük çıxmasın, milis olsun, pojarnik olsun, ya jeleznodorojnik, dəxli yoxdu, hamıya əl tutmuşam. Allah məni də belənçik yaradıb. Hə... Gördüm, cavabım uçastkovını açmadı. Dedi, Şıxəli, daşı özüvə daşıyarsan, mən sahə tikinti mühəndisi deyiləm, sahə milis müvəkkiliyəm... Nəsə, bala-bala gəldi mətləbə. Dedi, sənin kimilərinin köməyi olmasa, milis gücsüzdü, bir şey eliyən deyil. Biz milislər sizin kimi cayıllara arxalanırıq, kürəyimizi söykəmişik xalqa. Sən özün mənnən yaxşı bilirsən, Şanxay qarışıq məhlədi, burda it yiyəsini tanımır, gündə bir hadisə olur. Dünən sizin həyətdən aşağıda biri özünə ev tikirmiş, gedib uçurduq, sənədi yox idi. Belənçik şeylər görsən, tez milisə xəbər ver. Bunun əvəzində sənin də qazancın olar... Nəsə, naxodu oxudum Muradovu, nə demək istədiyini göydə tutdum, yəni işverənlik - "şestyorkalıq" elə. Yamanca tutuldum, bilmədim nə cavab verim, qalmışdım oddana-oddana. Ağır söz deyəcəm, xətrinə dəyəcək, demiyəcəm, o da olmur. Qeyidib dedim, rəis, bağışla, mən getməliyəm, bu gün ikinci smendə işliyirəm. Həm də içkiliyəm, ayıq vaxtı gələrəm. O da uşaq deyildi, bildi ki, kulturnı "otkaz" getdim, yəni mənnən əlivi üz, qədeş. Çao, bambino! Hə, o günnən bu yana aramız soyuqdu. Olsun də, podumaeş, Şanxaylı Şıxəli heç kəsin qabağında gözükölgəli deyil...

- Niyə qoymullar camaat özünə ev-eşik tiksin? - soruşdum. Qonşum mənə elə baxdı ki, elə bil məni indi görür və bayaqdan mənimlə yox, başqa bir adamla söhbət eliyirmiş.

- Qədeş, - dedi, - oxumuş adamsan, bu sualı mən sənə verəceydim, sən mənnən soruşdun. Özüm də çaşbaş qalmışam. Pis çıxmasın, bu necə quruluşdu: ev yıxanı da tuturlar, ev yapanı da. Götür bizim bu həyəti - ailə var, beş-altı adam bir otaqda yaşayır. Bəgəm, bunlar evdi, binadı? Toyuq hinidi. Bax, bu dirəyə təpik vursam, Bayandur qədeşin mənzili balkonlu-zadlı yumalanıb duracaq neft buruqlarının yanında...

Qonşum danışığına son qoymaq fikrindən uzaq idi. Söhbətinin mövzusu tez-tez dəyişirdi və mən hər eşitdiyimdə nəsə maraqlı bir şey tapırdım. Mühazirə dinləyirmiş kimi, cınqırımı çıxarmadan qulaq asırdım. Yeganə yaşıllığı Xar tut ağacı olan darısqal həyət mənim universitetim, şən əhval-ruhiyyəli Şıxəli isə kürsüdən mühazirə söyləyən çəlimsiz "professor" idi. Onun üdülədiyi "fənnin" adını bilməsəm də, dediklərini ötürmürdüm, elə bil "professorun" borcunu nə vaxtsa imtahanda qaytarmalı olduğumun məsuliyyətini bilirdim. Belə götürəndə, həyatın özü də bir universitetdir və insan ömrü sınaqlardan, imtahanlardan keçir. Bilmirdim ki, bu darısqal, miskin həyət sonradan birdəfəlik bağlanacağım "şəhər həyatı" deyilən ömür yolumun ilk pilləsidir. Bilmirdim ki, bu həyət barsız-bəhərsiz, qısır Xar tut ağacıyla, bir-birinə bənzəməyən sakinləriylə nə zamansa yazacağım povest və hekayələrə köçəcək... Bu balaca həyətdə hələ rastlaşmadığım qonşular da vardı. Amma, nədənsə, mənə elə gəlirdi, üzünü görmədiyim o insanları da tanıyıram. Özlüyümdə fikirləşirdim ki, qapısı qıfıllı mənzillər də elə onlarınkıdı. Qatar bələdçisi Bahar xalayla, Neft daşlarında işləyən Tahirlə yəqin ki, bu gün-sabah rastlaşacağam. Çapıq Xudamı görmək isə mənə qismət olmayacaq. Onun mənzilinin qapısındakı qıfıl illərlə beləcə paslı-pasaqlı qalacaq, ona açar salan olmayacaq. Eşitdiyimə görə, şəhərin məşhur oğrularından sayılan Koverkot ləqəbli bu adamın türmədən çıxmağına hələ çox vardı. O vaxtacan mən tələbəlik illəriylə, həm də kirənişin həyatıyla vidalaşmış olacağam. Hələlik isə şəhərin bu ucqar məhləsində həyatın miskin həyəti öz darısqal qoynunu mənə də açmışdı.

- Qədeş, sənin bəxtin xozeyka sarıdan yaxçı gətirib, - Şıxəli siqaretinə qullab vurdu. - Tyotya Polina əntiqə adamdı, Allah ona ömür versin. Mənim xətrimi də alayı cür istiyir. Əlim aşağı olanda borca beşdən-üçdən verir, deyir get boğazıvı yaşla, beş günlük dünyadı. Sən özüvə götürmə, amma kvartirantları fərli çıxmır, vuranşik olmullar. Vurmaq bir yana, hamısı əfəl olur. Sənnən əvvəl bir student yaşıyırdı, rayonnarının adı quş adıdı - ruslar pavlin deyir.

- Tovuz? - soruşdum.

- Hə, o rayonnan idi. Bir kərəm mənə dedi, Şıxəli, rus qızıyla tanış olseydim, mənə rus dili öyrədərdi. Dedim, alə, söbəti yoxdu, belənçik şeylər xırda məsələdi... Sən də məni bağışla, mənnən kiçiksən, tanışım Natalya Sergeevnanın Tanya adında bir qonşusu var, studentkadı. Fikirləşdim, bunlarınkı yaxşı tutar, ikisi də tələbədi. Nəsə, qızla danışdım, o da sağ olsun, "otkaz" getmədi. Dedi evdə yox, troleeybusda öyrədərəm. Gəlsin, hər səhər dərsəcən məni "provojat" eləsin. Belə götürəndə, şəhərdə cayılların rus qızlarıyla tanışlığı elə tramvaydan, troleeybusdan başlıyır. Nə isə, oğlana dedim, qədeş, ta nə istiyirsən: nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım, sabah tezdənnən Tanya səni ostanovkada gözləyəcək, necə lazımdı. Alə, bu da qeyidəsən ki, Şıxəli, qalsın başqa vaxta, çəkmələrim köhnədi, təzəsini alım, sonra tanış olaram... Çəkmə alana kimi, şalvar köhnəldi, şalvar alanacan pencək ... Gah dedi plaşım yoxdu, gah saatım... Baş açmırdım, ger-geyimin dil öyrənməyə nə dəxli? Nəsə, o yetim qardirobunu dəyişəneycən gördüm Tanya 1 nömrəli troleybusda AZİ-də oxuyan zənci oğlana rus dili öyrədir... Yoxam da əfəl adamnan, oğul gərək şustrı, diribaş olsun. Düz deyil, qədeş?

Cavab tapmağa çətinlik çəkdim. Doğrusu, Şıxəlinin uzun-uzadı danışığına sonda qiymət verməli olacağımı gözləmirdim. Əslində, bu son da deyildi və mənim cavab verib-verməməyim heç nəyi

dəyişmirdi. Bunu, əlbət, qonşum da yaxşı bilirdi. Amma deyəsən, sualı boşuna verməmişdi. Bəlkə də qəsdi mənim - yeni kirənişinin halını-xasiyyətini öyrənmək idi, başqa bir şey deyildi.

Dənizdən əsən meh özüylə xoş ətir gətirdi. Başımı qaldırdım, gözlərimi çəhrayı darvazaya dikdim. Bilirdim ki, burnumu oxşayan bu xəfif bihuşedici ətrin dalınca gözəl-göyçək qız içəri girəcək. Onun gəlişiylə həyətin ab-havası dəyişir, yan-yörə işıqlanırdı. Yerişi də başqaydı: ayaqlarını yerə ehmal basırdı, sanki yerimir, bir əlçim ağappaq bulud təki havada ağır-ağır süzürdü. Tut ağacının yanından ötəndə yerişini lap ləngidirdi, qıyqacı məni süzür, bic-bic gülümsəyirdi. Özümü kitab oxuyurmuş kimi göstərsəm də, altdan-altdan ona göz qoyurdum. Oğrun baxışımdan özüm də utanır, sifətim pörtüb qıpqırmızı qızarırdı. Qız isə əksinə, mənim bu halımdan lap şıltaqlaşır, yaraşıqlı sifətindəki təbəssüm anidən şaqraq gülüşə çönürdü. Ağzıma su alıb susurdum. Qız da dillənmirdi. Əslində, onun qara, qaynar gözlərindəki ifadəni sözə çevirməyə ehtiyac da yox idi. Süzgün baxışları deyirdi: "Salam, təzə kvartirant!". Əlbət, o da mənim gözlərimdəki ifadəni oxuyurdu: "Salam, Nora!" Sonra onun dolu, yaraşıqlı ayaqları gözlərimin qabağından ötüb keçirdi, o qədər yaxından ötürdü ki, o yan-bu yana yellənən qısa ətəyinin məltəmi üzümü yalayırdı. Bir-birinə sürtünən ətli baldırlarının xəfif pıçıltısını eşidirdim. Ehmal-ehmal artırmanı qalxırdı. Vur-tut beş-altı pilləli bu daş artırma göyün nərdivanıydı sanki, qızı göyün yeddinci qatına qaldırırdı. Baxışlarımı kürəyində hiss eləyir, məni xoş, şirin duyğulardan ayırmağa qıymırmış kimi, qalxmağa çox da tələsmirdi. Kandarda bir anlığa ayaq saxlayıb bic-bic gülümsəyir, mavi rəngli qapının arxasında qeyb olurdu. Onun xəfif ətri isə bir müddət həyətdən çəkilmirdi, havanın canına hopub qalırdı.

Nora anası ilə birlikdə yaşayırdı. Mənzillərinin pəncərəsi həyətə açılırdı. Səhərlər tül pərdə arxasından Noranın silueti görünürdü. Güzgü qabağında durub, çılpaq çiyinlərinə dağılmış saçlarını darayır, su sonası kimi öz gözəlliyindən həzz alırdı. Mən evdən çıxanda hansısa güclü bir qüvvə fikrimi tül pərdəli pəncərəyə dartdı. Bəlkə də o şıltaq qız guzgüdə təkcə özünə baxmırdı, həm də məni görür və utancaqlığıma gülürdu. Nora evdə olanda həyət də başqalaşır, işıqlanırdı. Əlbət, elə o üzdən dilənçi kor oğlan da həyətə Nora evdə olanda gəlirdi. Qapqara eynəyinin arxasından qaranlığın upuzun dəhlizinə baxan gözləri iynə ucu qədər bir işartının acıydı. Korun ən böyük diləyi nə olar - işıq, nur! Mənə elə gəlirdi, cavan oğlan pul-para yox, bir qətrə nur dilənirdi. Yazıq-yazıq zarıyırdı: "Dünya işığına həsrət qalmış Allah bəndəsinə əl tutun!.." Dilənçi əlindəki çubuğu irəli uzadıb ehtiyatla yeriyir, artırmaları qalxıb Noragilin pəncərəsi qabağında dayanırdı. Nora tül pərdəni çəkib dilənçi oğlana pul uzadırdı. Yox, puldan çox bir dıqqan da olsa, işıq payı verirdi. Oğlanın əli havada ora-bura gəzir, Noranın əlini tapırdı. Dilənçi, qızın pambıq təki ağappaq əlini ovcundan buraxmaq istəmirdi - kor tutduğunu buraxmaz. Nora yarıaçıq döşlərini belə gizlətmirdi. Bir dəfə Bilqeyis xala onu məzəmmətləyəndə Nora gülə-gülə dedi: "Nədi, ay arvad? On je slepoy. Kar ki deyil, kordu, kakaya emu raznitsa: ya qolaya, ili net.

Bir yol, dərsdən qayıdanda Bilqeyis xalanı həyətin ortasında əli üzündə duran gördüm. Heyrətdən yazıq arvadın dili tutulmuşdu. Onun boylandığı səmtə çöndüm, gözlərimə inanmadım. Kor dilənçi pəncərədən xəlvətcə boylanıb güzgü qabağında özünə sığal verən Noraya baxırdı. Ağzı açıla qalmışdı.

- Vaxsey!.. Sənin kor gözüvə şiş batsın! - Bilqeyis xala özünə gəlib qiyyə çəkdi. Onun səsinə dilənçi diksinib daşın üstündən yerə gəldi. Əlini gəzdirib əl ağacını tapdı, ayağa qalxıb ehtiyatla artırmaya tərəf gələ-gələ zarıdı:

- Dünya işığına həsrət qalmış Allah bəndəsinə...

Bilqeyis xala onun sözünü ağzında kəsdi:

- Yalansa, sənin kor gözün tökülsün! Camaatın qızında nə işin var, ay binamus!

Dilənçi çubuğunu yerə sürtə-sürtə keçib getmək istəyəndə, Bilqeyis xala iri əndamıyla onun yolunu kəsdi.

- Adə, bir diyan görüm! - əmr elədi. - Sən korsan, yoxsa artistlik eliyirsən, bizi barmağıva doluyursan?! - Əl atıb oğlanın qara eynəyini çıxartdı, gözlərinə zənd elədi. Oğlanın gözləri ağara qalmışdı, bəbəkləri yox idi. Bilqeyis xala gördüyündən ürpəndi, ufuldayıb geri çəkildi. Dilənçi adəti üzrə əzbərlədiyi sözləri təkrarlayıb, zarıya-zarıya həyətdən çıxdı.

- Oy, mamoçka! - Noranın səsi eşidildi. - Tyotya Bilqeyis, znaçit on ne slepoy bıl da? Kor deyilmiş? - pəncərədən soruşdu.

Bilqeyis arvad sifətini turşutdu.

- Slepoydu, kordu, - deyib Noranı sakitləşdirmək istədi. - Ağəz, bu yetimin gözlərinin qarası itib, baxanda adam qorxur. - Üzünü döndərib astadan deyindi. - Günahın yekəsi bu başı batmışın özündədi, külü qoyum sənin qız başıva! Güzgünün qabağından yığışır ki?..

Həmin əhvalatdan sonra kor dilənçi bir daha həyətə ayaq basmadı. Bayandur kişi onu şəhərdə görmüşdü, deyir, əl ağacını qoltuğuna vurub elə qaçırmış, milislər çata bilmirmiş.

... Bihuşedici xoş ətrin dalınca Noranın özü həyətə girdi. Həyət işıqlandı elə bil. Nazlı-qəmzəli yerişindən özü də həzz alırdı. Oynaq, şux baxışlarından yenə od tökülürdü, həyətə sığmırdı. Mənə elə gəlirdi, onun işvəsi təkcə bu miskin həyətə yox, heç şəhərə də sığmazdı. Əynində qolu, ətəyi qısa, bəyaz don vardı. Boynundan asdığı qızıl zəncirin ucundakı xaç, çatal hulu təki qabarıq döşlərinin arasına sallanmışdı.

Noranı görcək Şıxəli qəddini dikəltdi, qızı mənalı-mənalı süzüb zarafatdan qalmadı:

- Privet, krasavitsa yujnaya!

- Ni komu ne nujnaya, - Nora qafiyə tutdu. Hazırcavablığına təəccübləndim. Əlbət, qonşusuyla ilk deyişməsi deyildi.

- Elə nöş deyirsən, ceyran? - Şıxəli dilinin şirin yerinə saldı. - Tı nujnaya. Sənin gözəlliyin korun gözünü açır...

Noranın şaqraq gülüşü həyəti başına götürdü. Şıxəlinin eyhamını anlamışdı.

- Lalın dilini necə? - deyib gözlərini mənə sarı süzdürdü.

Şıxəli də onun sözlərindəki eyhamı tutdu.

- Təzə kvartirantdı də, çəkinir, özün sonra göreceysən ki, dostumuz alayı cayıldı. Arada qərdeşimizi imtahana çəkirəm, əvvəlki kvartirantlar kimi ölüvay deyil.

- Eşit, inanma, - Nora nazlı-nazlı dilləndi. Yanımdan ötəndə ətəyinin məltəmi yenə üzümü yaladı, yenə çılpaq baldırlarının pıçıltısını eşitdim. Daş artırmalarla yenə buludlardan yuxarı - göyün yeddinci qatına qalxdı sanki.

- Erməni malı, can dərmanı! - Şıxəli Noranın qarasınca astadan söz atdı. Üzünü mənə tutdu.

- Svoyski qızdı, amma bir balaca yelbeyindi, - dedi. - Deyəsən, sənə də ilişir a, qədeş?.. Mkıçın bacısı qızıdı. Dayısı Noraya oxşamır, ətiacı adamdı, üzdə deməsə də, bizim milləti görən gözü yoxdu. Buranın çörəyini yeyir, amma bizi bəyənmir.

- Niyə gedib Ermənistanda yaşamır? - soruşdum.

- Yaşıya bilməz, axı. Nöşün ki, oralarda Qarabağ, Bakı ermənilərini vtoroy sort adam sayırlar. Heç dilləri də tutmur. Yerevanda Qarabağ ermənilərinin danışığını məsxərəyə qoyurlar, bunları Osmanlıdandönmə bilirlər.

- Bizim qonşuluğumuzda erməni kəndləri var, - dedim, - ordakı adamların çoxunun familiyası türk sözüdü: Qəhrəmanyan, Nalbəndyan, Yüzbaşyan, Tumanyan...

- Sağ ol, student! - Şıxəli axtardığını tapıbmış kimi sevindi. - Oxumaq belə şeydi e, mənim ağlıma gəlməzdi. Mkıçın da familiyası Qəhrəmanyandı. Deyəcəm, alə, a vtoroy sort dığa, sizin dilinizdə "Qəhrəman" sözü var bəgəm? Get özüvə podxodyaşi bir familiya tapginən. Qəhrəmana bax, mən ölüm. Davada da olmuyub ki, deyəsən cəbhədə nəsə eliyib.

- Təqaüdçüdü?

- Həri. Arvadı Zoya özünnən on beş yaş kiçikdi, poçtda telefonistka işliyirdi, qovdular. Adamların danışığına qulaq asırmış. Allah buları da alayı cür nakazat eliyib - uşaqları yoxdu. Doğmuyan arvadların uşaqdan zəhləsi gedir. Mən belənçik bilməzdim. Arada bir fikir verginən, gör Zoya o ekizlərə necə əyri-əyri baxır. Əri Mkıç da elədi, uşaq görəndə, elə bil torbada ilan görür.

- Şıxəli, deyəsən, Bakıda erməni çoxdu ha.

- Həri. Ermənikənd bazarı deyirlər, orda yaşıyanların hamısı dığalardı. O zonada lotuluq eliyirlər. Elə ki, aşağılara düşdülər, olurlar quzu. Yaman bic millətdi. Qədeş, sənə deyim, şəhərdə yaxçı yaşıyanlar elə ermənilərdi. Uzağa nöş gedirsən? Götür bu Mkıçı, həyətdə duşevoyu, tualeti olan yedinka mənzil olarınkıdı, qalan hamı obşi tualetə, obşi hamama gedir. Özün ki, Allah şahidisən, görürsən.

- Nə yaxşı, Mkıçın varıdı?

- Erməni bic olur axı...

-Biz onlara bic erməni deyirik, onlar da bizə gic müsəlman.

- Həri, eşitmişəm. Belə baxanda, bizim millət fışdırığa gedəndi, mən ölüm. Ürəyiyumşağıq, Allah bizi də beləncik yaradıb... Hə, sözü Mkıça gətirirdim. O yetim haralara şikayət yazmadı - Moskvaya, lap Kremləcən. Özünnən uydurmuşdu ki, guya bu yetimin atası Azərbaycanda Şura hökumətini quranlardan olub. Ərizəsi Kremldə işləyən bir erməninin əlinə düşüb, o da bunu podderjka eliyib, necə lazımdı. Qədeş, məni düzgün başa düşginən: bir məmləkətdə ki, tualet tikməyə icazəni Kreml versin, onnan nə ölkə olar?..

Həyətin qurtaracağında daşdan tikilmiş, ikigözlü ayaqyolu vardı. Sol qapıda "M", sağdakında isə "J", yazılmışdı. Ora ensiz bir cığır gedirdi. Mkıçla onun arvadından savayı sakinlərin hamısı böyüklü-kiçikli bu cığırı tapdaqaltı eləmişdi. Səhərlər işə, dükan-bazara tələsən yataqdan er qalxırdı ki, ayaqyolu növbəsinə dayanmasın. Üzbəüz çıxanlar özgə adamlar kimi dilucu, soyuq salamlaşır, nəsə qəbahət iş tuturmuşlar kimi, sıxılır, utanıb xəcalət çəkirdilər. Bu xəcalət cığırını yalnız bir nəfər şən əhval-ruhiyyəylə gedib gəlirdi - Bayandur kişi. Dünya vecinə deyildi, müharibə iştirakçısı, əmək veteranı olmağı onu həyatdakı bir çox növbələrdən, guya həyətdəki ayaqyolu sırasından da azad edirdi. Əlində aftafa, qəzet, qarşılaşdığı qonşularla arın-arxayın hal-əhval tutur, onları söhbətə çəkirdi. Ayaqyoluna girdi, çıxmaq bilmirdi. İlk günlər həyətdə rastlaşdığım çox şey mənə qəribə, həm də gülməli gəlirdi. Bayırda dayanıb növbə gözləyən Şıxəliylə ayaqyolundakı Bayandur kişinin dialoqu isə ayrı bir tamaşaydı, iki göz gərəkdi baxsın. Şıxəli əvvəl iki-üç dəfə yalandan öskürürdü, içərdəkinə çatırmaq istəyirdi ki, bayırda gözləyən var. Sonra hövsələsini boğmayıb soruşurdu: "Bayandur qədeş, çox qalıb?". İçəridən Bayandur kişinin səsi gəlirdi: "Hələ birinci səhifədəyəm, baş məqalədə..." Şıxəli səsini udurdu. Su içənə ilan dəymədiyi kimi, harada oturmağından asılı olmayaraq "Baş məqalə" oxuyana pəl vurmağa heç kimin cürəti çatmırdı. "Baş məqalə" qəzet və jurnalların birinci səhifəsindəki dövlət əhəmiyyətli rəsmi yazılara deyirdilər.

- Fikir vermisən, qədeş? - Şıxəli məndən soruşdu. - Bayandur kişi "Kommunist" qəzetini tualetdə oxuyur. Alə, obşi tualet çitalnı zaldı bəgəm, orda qəzet oxuyallar? Tem bolee "Kommunist" qəzeti. Bu işi mən tutsam, demaqoqluq eliyəllər ki, bəs Şanxaylı Şıxəli partiyanın qəzetini tualet kağızı yerinə işlədir. Qulağımdan yapışıb atallar qazamata, mən ölüm.

Ayaqyolunun ümumi olmağı Şıxəlinin ağrılı yeriydi, barışa bilmirdi. Əslində, bununla heç kəs barışmırdı, sadəcə, dilə gətirmirdilər. Belə söz-söhbəti təkcə Şıxəli dilinə gətirirdi. Hətta bir dəfə götürüb Kommunal Mənzil İdarəsinə ərizə də yazıb ki, tualet tikməyə icazə alsın. Ərizəsinə cavab verməyiblər. Cavab vermək bir yana, çağırıb onu divara qısnayıblar, borclu çıxarıblar. Deyiblər, Şıxəli, yadında saxla ki, sən kapitalizmdə yox, sosializm cəmiyyətində yaşayırsan. Bu quruluşun bünövrəsi ümumilik prinsipi üstündə qurulub. Hər şeyin "obşi" olmağı insanları yaxınlaşdırır, mehribanlaşdırır, kapitalizmdəki kimi hər kəs özünü fikirləşmir... O da qayıdıb deyib, mən istiyirəm mənzilimdə öz tualetim olsun, bunu gətirib siyasətə nöş bağlayırsınız? Etirazım yoxdu, yaşayaq sosializmdə, ancaq tualetə kapitalist kimi gedək... O sözün üstündə başı çox ağrılar çəkib, o yan-bu yana dartıb incidiblər. İncidiblər ki, bu gün ayaqyoluna kapitalist kimi getmək istəyən sabah şəxsi maşın arzusunda olacaq, ailədə adambaşına ayrıca yataq otağı istəyəcək. Bu da sosializm-kommunizm prinsiplərinə yaddır...

Eyvanlardan, aynabəndlərdən uzanan şəridlər hörümçək toru kimi hər yanı sarımışdı. Adama elə gəlirdi bu iplər yalnız pal-paltar sərmək üçün deyildi, həm də otaqları, mənzilləri bir birinə bağlayan və bu darısqal otaqlarda, mənzillərdə yaşayanları yaxınlaşdıran tellərdi. Yalnız Mkıçgilin şəridi Xar tut ağacına bağlanmışdı, əlbət, üzbəüz mənzildəki qonşuyla yola getmədiklərindən belə eləmişdilər. Şəridin üstü boş olmurdu, taxta tutqaclarla asılmış pal-paltar quruyar-qurumaz, Zoya onları yığışdırır, yerinə suyu süzülən başqalarını asırdı. Mənə elə gəlirdi bu bəstəboy, qarayanız arvad hər gün pal-paltar yumaqla özünü ovundurur, gün keçirir. Onların eyvanından uzanan boz ip sonsuz-övladsız bir ailəylə qısır ağac arasında həm də qismət bağıydı elə bil...

Şəridlərdən asılmış mələfələri külək qabardanda onlar ağ yelkənə bənzəyirdi. "Ağ yelkənlər" xəzri yelindən dartınıb yellənir, şappıltı salır, az qalırdı şəridləri qırıb qopartsın. Qapalı, darısqal həyət taxta eyvanları, kirli şüşəbəndləriylə quma oturmuş köhnə gəmini xatırladırdı. Sakinlərin başlarını dürtdükləri bambalaca otaqlar da kayutadan seçilmirdi. Qəribəydi ki, Şıxəlidən savayı bunun fərqinə varan yox idi və sanki təkcə onlar deyil, Yer üzünün bütün inasanları beləcə kayuta-mənzillərdə güzəran sürürlər... Elə bilirdim nə vaxtsa soyuq şimal küləyi - dəli bir xəzri əsəcək, bu sükansız "gəmini" lövbərdən qoparıb dənizin dalğalı ağuşuna atacaq...

- İndi tarazam, - Şıxəli əlini qarnına çəkdi, - vurmuşam, necə lazımdı. İnsana nə qalır, heç nə. Beş günlük dünyadı, onun da ikisi "vıxodnoya" düşür. Student, inşallah, sabahda-biri gündə sabantuy qurarıq: sən "zakuskasını" alarsan, mən də "Ağdam" götürərəm, iki qonşu nuş eliyərik özümüzçün.

- 0,50, yoxsa 0,75 litirlik? - bu dəfə mən soruşdum. Əslində bu, sualdan çox, cavab idi, o cavab ki, qonşum yatsa, yuxusuna da girməzdi. Qulaqlarına inanmırmış kimi, kirimişcə məni süzdü. Təəccüblü baxışından aşkarca bəlliydi ki, belə cavab gözləmirdi və əlbət, özlüyündə bir daha əmin oldu ki, mən həyətin əvvəlki kirənişinləri kimi deyiləm, başqa hal-xasiyyətliyəm. Çiçəyi çırtladı. Əlini kürəyimə vurub məni tərifləndi:

- Malades, student! Var də oğullar... Xoşum gəldi söbətinnən, - uşaq kimi sevindi, tez də əlavə elədi:

- Atalar necə deyib - "Ağdamı" ver vurana, bir şüşə də artıq...

Onun dedikləri də mənə qəribə gəldi. Ataların "Çörəyi ver çörəkçiyə, birini də artıq" kəlamını eşitmişdim. Bu hikmətli ifadəni bilməyən yoxdur. Qaldı "Ağdam" çaxırı haqqında deyilənlərə, doğrusu, bu, məndən ötrü yenilik idi. Görünür, bu çaxır elə qədimlərdən matah olub, yoxsa atalar boşuna danışmazdı.

Özümü gözütox göstərmək istədim.

- Şıxəli, qalsın başqa vaxta, - dedim, - dərslərim çoxdu. Bir də, mən düşəndə - bayramnan-bayrama içirəm.

Deyəsən, bu sözlərim qonşumu açmadı, çeçələ barmağıyla peysərini qaşıdı. Bəlkə də başı qaşınmırdı, nəyisə yadına salmağa çalışırdı. Onun nə fikirləşdiyini, nə düşünüb-daşındığını bilmirdim. Hardan biləydim?

- Student, bu gün ayın neçəsidi? - soruşdu.

- 30 sentyabr, - cavab verdim. - 1969-cu il, - hər ehtimala qarşı xatırlatdım.

- Üzümüzə gələn bayram 7 noyabrdı - Şura hökumətinin qurulduğu gün. Mən buna kasıb-kusub bayramı deyirəm. Yaxşıca otmeçat eliyərik, necə deyirlər "Ley-pey Bombey". Düz deyil, qədeş?

Razılıq əlaməti olaraq kirimişcə başımı tərpətdim. 7 Noyabr ölkədə xüsusi şövqlə qeyd edilir. Ən böyük hərbi parad da həmin gün olur. Millət ellikcən televizorun qarşısına yığışır. Təntənəli marş sədaları altında Qızıl meydandan tanklar-toplar, raket daşıyan maşınlar, onların dalınca isə əsgəri hissələr, kursantlar nizamla keçirlər. Meydan təlatümə gəlir, titrəyir. Levitanın gur səsi dalğa-dalğa yayılır, imperializm əleyhinə şüarlar səslənir. Adama elə gəlir ki, 7 Noyabr bayramdan çox, ölkənin gücünü, qüdrətini nümayiş etdirmək, kimlərəsə hərbə-zorba gəlmək üçündür. Bu bayram payızın çiskinli-yağışlı vaxtına düşsə də, xalq küçələrə tökülür, şənlənir, yeyib-içir. Yəqin, bayramlar həm də insanları ürək qısan yeknəsəqlikdən qurtarmaqdan, baş

qatmaqdan ötrüdü.

- Əvvəl günlər bayramlarda vurarsan, sonra aydan-aya, həftədən-həftəyə, - Şıxəli mənə yol göstərdi. - Belənçiginə, yavaş-yavaş yoluna düşər. Moskva da birdən qurulmuyub, bala-bala tikilib... Şəhər yeridi, öyrəşeceysən. Özün məni bezdiräceysən ki, Şıxəli qədeş, gedək boğazımızı yaşlıyaq, necə lazımdı. Elədi, elə deyil?

- Bəlkə də, - bu dəfə işimi ehtiyatlı tutub, qeyri-müəyyən bir cavab verdim. Bəri başdan nə deyə bilərdim? Yaşayarıq, görərik. Məndən fərqli olaraq, Şıxəli söz-söhbətində ürəkliydi, sanki hər şey doğrudan da onun dediyi kimi olmalıdı. Öyrənmək istədikləri də az deyildi, o üzdən də marağını boğmur, sualı suala calayırdı.

- Student, sən bilərsən, deyir, yaxçı, naturalnı çaxır kənddə olur. Əlbət, sizin kənddə də vinzavod var ki, içki məsələsindən başın çıxır. 0,75 dedin e, hər adam belənçik söbətləri bilməz, bu professional sözüdü, mən ölüm. Deyirəm, qurban olum Allaha, axır ki, həyətimizə dostoynı kvartirant yetirdi.

Şıxəli vinzavod məsələsində yanılmışdı, çünki kəndimizdə əzəldən belə zavod olmayıb. Bizlərdə camaat pambıq əkib-becərir. Araq-çaxırı da hər kəs qapısının məhsulundan çəkir. Qəzənfər kişinin düzəltdiyi içkiyə isə, heç söz yoxdu. Onun tut arağı bütün rayonda manşırdı, tərifi dillərdən düşmür. Əli bərəkətlidi, daşdan da araq çəksə, matahdı. Qəzənfər kişi deyir, tut arağını qaydasında içəsən, dərmandı. Tumo olanda, mədəsi pozulanda özünü öz dərmanıyla sağaldır, doktora-filana gedib-eləmir, başqalarına da məsləhət görmür. Elə ona görə də hamı onun çəkdiyi içkiyə araq yox, dərman deyir... Bu sözləri eşidəndə, Şıxəlinin çiçəyi çırtladı. Toxtadı ki, sən demə, indiyəcən araq deyil, dərman içirmiş və bundan belə içməyi heç kəs qaxınc eləyib onun başına vura bilməz, heç uçastkovı Muradov da... Birinci dəfəydi araq haqqında belə tərif eşidirdi. Çaşıb qalmışdı.

- Baş açmaq olmur, - təəccüblə çiyinlərini dartdı. - Kimisi arağı dərman bilir, kimisi zəhər. Alə, zəhərdisə, dükanda nöş satıllar? Zəhərdisə, doktorlar gecə növbəsində nöş xəstələrin spirt payınnan kəsib içirlər? Zəhər olsa, gülləni başına sıxsan da, içməzlər. Loqika yoxdur ey... Şıxəli ölmür elənçik "zəhər" üçün?.. Qədeş, xırdala gəlsin, qiyamət söbətlər eliyirsən, mən ölüm. Rusların ataları yaxçı deyib: "Vek jivi, vek uçis"... Müsibət kvartirantsan, mən ölüm. Qədeş, kətdə araq çəkən təkcə Qəzənfər kişidi bəgəm?

- Yox, hamı çəkir. Elə qapı yoxdu ki, küpnən araq-çaxırı olmasın, - dedim. - Dul qadının da həyətində küp var, ehtiyatını üzməz. Qədim şirəviş daşında elə çaxır düzəldillər, gəl görəsən. Yeddi para kəndin hamısı araq-çaxır çəkəndi. Hər kəs xeyir işini qapısının içkisiylə yola verir.

- Mənim yerim məlum... Qiyamət cayıllardı sizin kətdilər, mən ölüm, - Şıxəli üzünü görmədiyi, tanımadığı yerlilərimi öydü. - Gürcü kimidilər, əlbət; içib keflənəndən sonra ağız-ağıza verib oxuyurlar. Ölmürəm eləncik kənd üçün? Propiska eləsələr, gedib orda yaşıyardım, necə lazımdı. Beş günlük dünyadı, kim bu dünyadan nə aparıb? Heç kim... Lütfəli demiş, varam kənd həyatına, ye, iç, eninlə uzunun bərabər olsun...

Qonşumun bəzi fikirləriylə razıydım. Doğrudan da, bu dünyadan heç kəs heç nə aparmır. Qaldı Lütfəli söhbətinə, onun bu fikrinə şərik ola bilməzdim. Kənddə camaat səhərdən axşama kimi işdə-gücdədi, tarladan çıxmır, elə ona görə də eniylə uzunu bərabər olan tapılmaz. Kənd camaatının mayası zəhmətlə tutulub. Doğrudur, elə ki, məhsul yığıldı, iş-güc səngidi, kolxoz əməkgününü böldü, çoxları aradan çıxıb, qaçırdı şəhərə kefə. Onları qınayan da olmurdu. Niyə qınasınlar?.. Bir müddət kəndin əhalisi seyrəlirdi. Pambıq briqadiri Hümbətalı da ta at belində qapı-qapı düşüb camaatı tarlaya səsləmirdi. Bir müddət Hümbətalını saya salan olmurdu. Yəni: "Bağda ərik var idi, salam əleyk var idi..." Pambıq briqadiri şəhərə gedənlərin qarasınca gileylənirdi, guya ondan izn almalıdılar. Özü bir dəfə də olsun kənddən qırağa çıxmayıb. Söz-söhbət düşəndə, yekəxanalığından qalmırdı, deyirdi, ac başım, dinc başım, şəhərdə nə itim azıb?.. Heç iti azsa da, dalınca getməzdi, qəpiyinin qədrini bilən idi. Fikirləşəndə ki, kəndin cavanları pambıq pulunu şəhərdə matışkalara xərcləyir, hövlündən bilmirdi neyləsin, elə bil onun cibinin pulunu xərcləyirdilər... Qəribədir, kənd-kəsək kefə-istirahətə şəhərə axışır, Şıxəli də bu axının tərsinə axmaq istəyir.

Söhbət necə uzanmışdısa, Günəşin qüruba endiyini belə hiss etməmişdim. Axşamamacal Şanxayın özgə mənzərəsi olur, ehmal-ehmal batan günəşin qırmızımtıl şüası səmanın maviliyinə qarışır. Rənglərin qarışığından qəribə bir çalar yaranır. Dənizin də siması dəyişir, suyu göylüyünü itirir. Çəhrayı darvazalı həyətdə bunu məndən başqa görən yoxdu elə bil, sanki təbiət təkcə məni ovundurmaq üçün dondan-dona girir. Adama elə gəlir Şanxay qüruba çəkilən Günəşlə dənizin tən ortasındadır: əlini yuxarı uzatsan təpənin belinə əyilmiş Günəşə, aşağı uzatsan, sahili neft buruqlaryla çəpərlənmiş dənizə çatar. Bu hündür yerdən baxanda dəniz də səma tək ümmansız görünür. Onun mavi sinəsində sədəf düymələri xatırladan ağ gəmilər fit verib Bakı buxtasından ağır-ağır uzaqlaşır, bir sahildən o biri sahilə yön alır. Gecələr isə onların zəif, qırmızımtıl işıqları sayrışır. Dənizin bənizində qara xalı xatırladan Nargin adasındakı mayak göz vurub gəmilərə yol göstərir. Bu "xal" dəryaya yaraşır. Dənizin bənizində xal-adalar çoxdu, sahilə yaxını Nargin olduğundan, gözə görünən odur... Dəniz də canlıdır, təbiət onu öz bətnindən doğub - kiçik göl kimi, sonra o, yavaş-yavaş böyüyüb, dəniz olub. Deyilənə görə, şəhərlə üzbəüz, suların altında başqa bir şəhər də var - sirlərlə dolu şəhər. Nə vaxtsa o şəhərin də öz sakinləri, öz həyatı olub: günəşin doğmasıyla küçə və meydanlar canlanıb, adamlar işə-gücə, dükan-bazara yollanıblar... Carçılar küçəbəküçə düşərək, təbil vura-vura car çəkib, xalqı hökmdarın fərmanlarından hali ediblər... Kaş dəniz söz eşidən olaydı, azacıq çəkiləydi və o qədim şəhər öz izdihamı, dükan-bazarı, başıpapaqlı, uzun əbalı adamlarıyla yenidən zühur eləyəydi...

Mavi sulara tamaşa eləməkdən doymuram. Dəniz mənim uşaq dünyamdakı o xəyali dənizə bənzəyir də, bənzəmir də. Uşaq dünyamın dənizi sakit, lal suluydu, dilsiz-ağızsız idi. İndi baxıram, üzünün dönən, dəlisov vaxtı da olur: özündən çıxır, dalğaları şahə qalxıb sahildəki daşlara-qayalara çırpılır. Özünü göstərmək istəyir, elə bil qorxur ki, insanlar onun varlığını unudarlar. Xudpəsənd Xəzər həm də tələş içindədir, sanki nə vaxtsa dünyanın çarxı dönəcək, Yer üzü yenidən buzlağa çevriləcək, həyat yox olacaq... Min illər, milyon illər ötdükcə planetin hərarəti yavaş-yavaş özünə qayıdacaq, həyatın ilkin nişanələri görünəcək, yeni bir dövr başlayacaq, yeni sivilizasiya yaranacaq. Təbii ki, o vaxtın adamları da tarixin sirlərinə yiyələnməkdən ötrü baş sındıracaqlar: arxeoloji qazıntı işləri görəcək, axtarışlar aparacaqlar. Nələr tapmayacaqlar? Beton evlərin, dəmiryol relslərinin, körpülərin qalıqlarına rast gələndə, bəlkə də heyrətlənəcək, insan övladının bir vaxtlar belə kasıb şüura, bəsit mədəniyyətə malik olduğuna çaşıb qalacaqlar...

Ayağa qalxıb qonşumla xudahafizləşmək istədim, ancaq macal tapmadım.

- Səhər açılan kimi özümü verəcəm Cənnətə, - Şıxəli əllərini bir-birinə sürtdü.

Heyrətdən alacalanmış gözlərimi onun şişib tuluqlamış üzünə dikdim. Sözünün dalını gözləyirdim, maraq məni boğurdu. Üzündə sakit, ancaq ötkəm bir ifadə vardı. İnsan oğlu ağlı kəsəndən behiştə getmək arzusuyla yaşayır, o müəmmalı aləmin yolunu-yolağasını axtarır. Qonşumun inamlı danışığından bəlliydi ki, o yanları çoxdannan su yoluna döndərib. Hər şey insanın əlində deyil? İndi insan Aya uçur, qalmışdı Cənnətə getmək olsun. Məgər Behişt Aydan da uzaqdır ki?.. Görünür, yolunu-yolağasını bilən yoxdur, yoxsa, bu dünyada qalan olmaz, qayğılardan yaxa qurtarmaq üçün hərə şələ-küləsini dalına atıb qaçar Cənnətə. Orada da ki, nə iş var, nə güc, hamı kefdədir. Hər kəs behişti özü bildiyi təki təsəvvür edir. Deyilənə görə, Cənnət bağ-bağatlı, gül-çiçəkli bir aləmdir. Orada su, süd, şərab və bal çayları axır. Guya Cənnət gümüş və qızıl kərpiclərdən qurulub, hətta ağacların budaqları da altundandır. Gül-çiçəyin ətri adamı bihuş eləyir, orada hurilər, qılmanlar əmrə müntəzirdilər. Əlbət, o sirli-sehirli aləm daim süd rəngindədir, işıqlıdır, gecəsi, qaranlığı da olmur. Söz-söhbətdə qaranlığı, zülməti Cənnətə yox, Cəhənnəmə yaraşdırırlar. Yaxşısın görən bilər... Orta məktəbdə oxuyanda tarixdən dərs verən Əsgər müəllim bizi kənddən aralıdakı qədim qalaya gəzintiyə aparmışdı. Onun izahından sonra bu yarıuçuq tikiliyə münasibətimiz dəyişdi, ona ta adi daş qalağı kimi yox, möhtəşəm bir abadə təki baxırdıq. Qalanın aşağısından ensiz cığır uzanırdı. Bu cığırı pənah tutmuş ahıl bir kişi atının cilovunu dartdı. Aralıdan: "Məllim, bu Cənnət-Cəhənnəm deyirlər ha, nə deyən şeydi, hardadı?" - soruşdu. Elə soruşdu, sanki azmışdı və o Dünyaya yol-yolağa axtarırdı. Biz kirimişcə durub Əsgər müəllimə baxdıq. Onun nə cavab verəcəyi maraqlıydı. Əsgər müəllim elə bil bu sualı çoxdan gözləyirdi, fikirləşmədən dedi: "Ağsaqqal, gördüyün bu bağlı-bağatlı, sulu-havalı işıqlı dünya var ha, Cənnət dediyin budu. Elə ki, insan öldü, quyuladılar torpağın altına, Cəhənnəm də oradı".

Şıxəlinin səsinə xəyaldan ayrıldım.

- Qədeş, meylin çəkirsə, gəl sən də get Cənnətə, - qonşum dəvət elədi. Şıxəli ataların nə vaxtsa söylədiyi "Cəhənnəmə gedən özünə yoldaş axtarar" fikrini alt-üst edib bildirmək istəyirdi ki, təkcə Cəhənnəmə yox, elə Cənnətə gedən də özünə yoldaş axtarır.

- Uzaq deyil, - dedi, - Şanxayın aşağısındakı meydandan "20" nömrəli avtobus gedir. Yolpulu qərdeşivin boynuna.

Sidq-ürəkdən təklif elədi. "Olsun, bir yol da mən onu qonaq eliyərəm" - fikirləşdim.

- Şıxəli, tezdən saat 6-da yuxudan qalxsam, necədir? - soruşdum. Sualım sorğudan çox, qonşumun dəvətini qəbul etdiyimə işarəydi.

- Alayı cayılsan, sənnən xoşum gəldi, - məni tərifl ədi. - Kitab-dəftərini də götürərsən, Cənnətdən ta evə qayıtmarıq: sən dərsə gedərsən, mən də Akademiyaya.

- Elmlər Akademiyasında işləyirsən?

- Həri.

Nəsə xatırlayıb əlavə elədi:

- Tezdənnən "zavtrak" eləmə, mən də yeməyəcəyəm.

Səbəbini soruşmaq istəyirdim, ancaq sözüm ağzımda qaldı. Məni maraqlandıran sualı yarıaçıq darvazadan özünü güclə içəri təpən Bilqeyis arvad verdi:

- Xeyir olsun, yemək nöş yemirsiz, analiz verəssiz?

- Yox, ay arvad, analiz-manaliz nədi, sabah "pryamoy" Cənnətə gedirik, Cənnətə, - Şıxəli cavab verdi. - Ən ləziz nemətlər də ordadı.

- Qonşu, elə yerlərin yolunu bilirsən, bizdən nöş gizlədirsən, yoxsa bizə yaraşdırmırsan? Adə, Cənnətə mənim kimisi getmiyəndə, kim gedəcək?

- Oralar sənlik deyil, ay arvad, - Şıxəli sözkəsənlik elədi, ancaq Bilqeyis arvad da dilini saxlamadı.

- Kimlikdi? - incik-incik soruşdu. - Düzünü bilmək istiyirsən, Cənnət elə mənim yerimdi...

- Ay arvad, nöş malı mala qatırsan? Sən deyən Cənnətə mən baxmıram, İnkir-Minkir baxır. Gör onlara bir "xod" tapa bilirsən, yerivi bəri başdan bron eləsinnər. Cənnətə təkcə sən yox e, hamı getmək istiyir, amma günahları qoymur.

Bilqeyis arvad Şıxəlinin danışığından bir şey anlamadığındanmı, yoxsa özünü günahsız bilmədiyindənmi, ta sözü çevirmədi. Dolu bədənini güclə daşıyan ətli ayaqlarını sürüyə-sürüyə yarızirzəmi mənzilinə tərəf getdi. Şıxəli üzünü mənə tutdu.

- Student, sözümüz sözdü?

-Əlbəttə!

- Qalginən səlamət!

- Səhərə qədər!

* * *

"Mənzildə sakinlərdən savayı özgə canlı yaşaya bilməz!" - nə həyətin girəcəyindən, nə də günəşdən qorunan qoyun-quzu kimi bir-birinə qısılmış xırda evlərin divarından belə elan asılmamışdı. Bu, kirənişini olduğum təqaüdçü Polina Qriqoryevnanın sadə, təmiz qəlbinin hayqırtısıydı və onun yazılmamış şüarı suda-quruda yaşayan bütün canlılara - gəmiricilərdən tutmuş ta sürünənlərəcən, hətta gözə görünməyən mikroblara da aid idi. Onurğalılardan təkcə kirənişin istisnaydı.

Bu darısqal həyət Polina Qriqoryevnanın sərt sanitar-gigiyena qayda-qanunlarıyla yaşayırdı. Başqa yeri həşəratlar, gəmiricilər başına götürəndə, bizim həyətdə dərmana biri də tapılmazdı. Polina xala, özünün dediyi kimi, bütün ömrünü onlarla mübarizədə çürüdüb. Şəhər sanitar-epidemiologiya stansiyasında işləyib, oradan da təqaüdə çıxıb. Deyir, onun adı gələndə, həşəratların, gəmiricilərin canına vəlvələ düşürmüş. Ağbirçək çağında da təbiətin bu iyrənc varlıqlarıyla ulduzu barışmırdı. Yaşı yetmişi haqlamış bu mehriban qadının əlində əlacı olsaydı, bütün Yer üzünü həşəratlardan təmizləyərdi. Təqaüdə çıxdığı on ildən artıqdı. Ancaq indinin özündə də keçmiş iş yoldaşları onu unutmur, bayram tədbirlərinə dəvət edir, hörmətli qonaq kimi yuxarı başda əyləşdirirlər. Polina Qriqoryevna da bundan qürur duyur. Deyir, onu yaşadan insanların mehribanlığıdır, yoxsa çoxdan ruhu göylərdə dolaşardı. Onu yaddan çıxartmayan bir də Mişa dayı idi - Polina xalayla bir yerdə işləyib. Bu həyətə köçdüyüm bir ayda onu iki-üç dəfə görmüşəm. Orta boylu, kürən kişidi, jurnallardakı aktyorlar kimi şabalıdı saçlarını səliqəylə yana darayırdı. Geyiminə fikir verən idi, səliqə-sahmanlıydı. Polina xala məni ona təqdim edib dedi:

- Mişa, poznakomsya, təzə kvartirantdı, əsl biz istəyəndi, adı da Arifdi.

Bizburun kişi əzik qalstukunu dartışdırdı, xəfifcə gülümsədi. Damarları çıxmış ətsiz əlini mənə uzatdı.

- Mixail Mixalıç, - dedi, - Mımretsov, - familiyasını da əlavə elədi. Onun cır səsi, rəsmi davranışı, ələlxüsus da soyadı mənə gülməli gəldi, özümü güclə saxladım. Polina xala qəribə familiyasına görə Mımretsovun yerinə xəcalət çəkirmiş kimi, tez dilləndi:

- Mixalıç, zaçem tak ofisialno? Pust on tebya zovyot prosto dyadey Mişoy.

- Pust... - Mixalıç çiyinlərini dartıb mızıldandı. Nimdaş meşin çantasından kağız bağlama çıxartdı. Ehtiyatla bağlamanı açıb, heç kimə məhəl qoymadan künc-bucağı dərmanlamağa başladı. Həyətə bələdliyi vardı, gəmirici və həşəratların törəyəcəyi yerləri yaxşı bilirdi. İşini qurtarandan sonra dəhlizə keçib əllərini yaxaladı. Ortası köpüb qabarmış çantadan bir şüşə çaxır çıxartdı.

- Mişa, doroqoy, zaçem denqi na vino tratiş? - Polina xala dil-ağız elədi. Əslində, bilirdi ki, dyadya Mişanın hədiyyəsi bahalı deyil. Mımretsov əliboş gəlsə belə, Polina xala onu xoş ovqatla, mehriban qarşılayardı. Ondan ötrü ən dəyərli hədiyyə keçmiş iş yoldaşının gətirdiyi zəhər idi və yaxşı bilirdi, nə qədər ki, Mımretsov təqaüdə çıxmayıb, siçan-tarakan dərmanından onun korluğu olmayacaq.

Dyadya Mişa gələn günü həyəti zəhlətökən, kəskin bir iy bürüyürdü, az qalırdı adamın ödü-öfkəsi boğazına qalxsın. Bilqeyis xala burnunu tutub donquldanırdı. Deyirdi: "Bu Mımretsovdu-nədi, onun zəhəri mənim də axırıma çıxacaq. İştahım kəsilir, boğazımnan su da keçmir". Bayandur kişi də atmacasından qalmırdı, sataşırdı: "Ay arvad, sən o rusa "sağ ol" de ki, onun hesabına bəlkə arıqlayasan. Elə Polina Qriqoryevna da sağ olsun, o olmasa, siçan-siçovul həyəti başına götürər".

Mımretsovun gəlişindən xəbər verən yalnız dərman, zəhər iyi deyildi. Həyətdə canlanma yaranırdı. Bircə stakan şirin çaxıra kişi əməlli-başlı keflənirdi. Keflənməyi bir yana, içki dərdini tərpədirdi, özü də elə tərpədirdi, onu tanımaq olmurdu. İlk baxışdan qaradinməz görünən bu nanıq adamın dili açılırdı, nə açılırdı, gəl onu susdur, görüm susdura bilirsənmi? Sinədəftər idi, qulaq asan olsaydı, bəlkə də saatlarla şeir söyləyər, yoruldum deməzdi.

Həyətin ortasında dayanmış Mımretsovun səsinə qonşular eyvana çıxdılar, kimisi pəncərədən boylandı. Bilqeyis xala yanını qapısının ağzındakı kətilə yıxdı. Zoya şəriddən asılmış paltarları yığıb eyvandan baxdı. Ekizlər də eşiyə çıxdılar, balkondan boylandılar. Polina xala onu dilə-tova tutub fikrindən daşındırmağa çalışsa da, Mımretsov buna məhəl qoymadı.

- Ruki proç, ne meşay mne, staruxa İzerqil, - deyib bozardı. Onun ipə-sapa yatmadığını görən Polina xala daha bərkini tutmadı, incik halda bir kənara çəkildi, əlləri qoynunda durub gözlədi.

Tamaşaçıları çox görən bizburun rus lap ruhlandı, səhnədəymiş kimi əliylə saçlarını yana daradı, qəddini dikəltdi. Sinəsini körük təki qabardıb burnunu hul tutdu. Həlim, axıcı səsi dalğa-dalğa həyətə yayıldı:

“Ya pomnyu çudnoe mqnovenye,

Peredo mnoy yavilas tı...

Puşkinin bu məşhur şeiri mənə orta məktəbdən tanış idi, əzbərləmişdim. Bu əsərin yaranma tarixini dərsdə müəllim bizə danışmışdı. Demişdi ki, Aleksandr Sergeyeviç təbiətən gözəllik aşiqi olub, bu şeiri də gözəlliyinə məftun olduğu bir kübar qadına - Anna Kernə həsr eləyib. O qadının bənzərsiz gözəlliyini belə mənalı və məharətlə yalnız Puşkin vəsf edə bilərdi. Sonralar məşhur rus bəstəkarı Qlinka şeirə gözəl romans bəstələyib... Deyirlər, Peterburqun bahalı restoranlarından birində sifətini qırış basmış, qəddi əyilmiş yaşlı bir qadın yarıqaranlıq küncə çəkilib şərab içər, dönə-dönə "Ya pomnyu çudnoe mqnovenye" romansını sifariş verərmiş. Əllərilə üzünü örtüb, səssizcə için-için ağlayarmış. Bilən yoxmuş ki, bu qarı bir vaxtlar öz gözəlliyi ilə şairi məftun eləmiş Anna Kerndir...

Mişa dayının həlim, axıcı səsi həzin su şırıltısını andırırdı, hamını sehrləmişdi. "Bu zalım balası əməlli-başlı artistdi ki..." - fikrimdən keçirdim. O, gözlərini yumub şirin avazla söyləyirdi. Dodaqları tərpənməsəydi, deyərdin bəs ayaq üstəcə yatıb. Birdən səsi titrədi, sözlər dodaqlarında qırıqlandı, əriyib hıçqırtıya döndü. Əllərilə üzünü örtdü.

Gördüyüm bu mənzərədən duyğulanmışdım. Rolunun öhdəsindən məharətlə gələn bir aktyoru alqışlayırmış kimi ürəkdən çəpik çaldım. Gözləyirdim ki, indicə hamı mənə qoşulacaq, həyəti sürəkli alqış səsləri bürüyəcək və bu qəribə tamaşanın seyirçiləri qoca "aktyoru" dönə-dönə səhnəyə qaytaracaqlar. Amma nə əl çalan oldu, nə də səsini çıxaran. Ekizlər də əvvəl qımıldanmadılar, sonra bir-birinə baxıb xısın-xısın güldülər. Yaşlı kişinin ağlamağı balacaları heyrətə gətirmişdi. Onların aləmində ağlamaq uşaqlara yaraşırdı, böyüklərə yox. Bəlkə də bunu acizlik əlaməti bilirdilər. Özləri də uşaq olsalar, ancaq belə vərdişləri yox idi, onları bir dəfə də ağlayan görməmişdim. Görünür, aldıqları Sparta tərbiyəsi boşuna deyildi.

Qonşular eyvanlardan, pəncərələrdən kölgə tək səssizcə sürüşüb çəkildilər, sanki heç nə görməmiş, heç nə eşitməmişdilər. Tamaşaya yarımçıq baxanların yerini doldurmaq istəyirmiş kimi Mkıç hövlnak eyvana çıxdı. Qalın şüşəli eynəyinin arxasından xırda gözləri oynadı. Üzünü arvadına tutdu.

- Zoyacan, poçemu plaçet etot Mımretsov? - xəbər aldı. - Ləv marter eli .

Arvadı çiyinlərini çəkdi. Ekiz qardaşlar bu dəfə ucadan güldülər.

- Ləv marter!... - ekizlərin biri lağ elədi, o biri tayı da tutuquşu kimi eşitdiyini təkrarladı. Balacalar bir-birinə qoşulub uğundular, amma bu gülüş Mımretsovun ünvanına deyildi. Zoya çönüb uşaqları kinli-kinli süzdü, ətli boğazını uzadıb aşağıya boylandı, hikkəsini boğmadı:

- Polina Qriqoryevna, uspokoyte je eqo, lyudi smotryat na nas!

Erməni arvadın bu qahmarlığından əvvəl bir şey anlamadım, özünü niyə araya qatırdı, o ki rus deyildi. Məhəccərin üstünə əyilmişdi, Piy bağlamış boğazından sallanan qızıl xaç köhnə saat kəfgiri tək ora-bura yellənirdi.

Polina xala yaxınlaşıb, uşaq ovundurmuş kimi əlini Mişa dayının saçlarına çəkdi, onu dilə tutdu:

- Mişa, doroqoy, uspokoysa... Vozmi sebya v ruki.

Polina xalanın canıyanmışlığından o daha da kövrəldi, bu dəfə hönkürdü. Ağlayıb ürəyini boşaltmaq istəyirdi. Onun bu halı Polina xalanı mütəəsir eləmişdi, gözləri dolmuşdu, deyirdin, indicə Mişa dayıya qoşulub gözünün qorasını sıxacaq.

- Yazıq, dərdli adama oxşuyur, neyləsin? - Bilqeyis xala Mımretsovun halına yandı. - Ay Polina, sən bilərsən bu biçarənin dərdi nədi axı? - aralıdan soruşdu.

Polina xala him-cimlə ona nəsə işarə elədi.

Mişa dayı toxtayıb, dərindən ah çəkdi. Cibindən dəsmal çıxarıb göz yaşlarını sildi. Diksindi, elə bil yuxudan ayıldı. Nəsə qəbahət iş tutduğunu anlayıbmış kimi başını aşağı saldı. Meşin çantasını qoltuğuna vurub darvazaya sarı yönəldi.

- Nu, k çyortu vsex vas! - əlini havada yelləyib həyətdən çıxdı.

Polina xala lal nəzərlərilə onu yola salıb köks ötürdü, fikirli-fikirli başını buladı, dinməzcə evə keçdi...

* * *

Polina xalayla tanışlığımın qəribə bir tarixcəsi vardı. Onunla şəhərin mərkəzindəki ev bazarında rastlaşmışdım. Əslində, ora ev bazarı deyildi, bağlı-bağatlı, fontanlı kiçik parkdı, dəniz sahilindəki Azneft meydanınadək enirdi. Şəhərin qədim bağlarındandı, bu yaşıllığı on doqquzuncu əsrdə salmışdılar. El arasında bağa Goburnat bağı deyirdilər. Özünəməxsus ab-havası vardı, havanın isti keçməsinə baxmayaraq, günün günorta vədəsi belə burada meh gəzirdi. Ancaq mən bura sərinlənmək üçün gəlməmişdim, kirayə ev axtarırdım. Fontanın yanında topalaşmış adamlara yaxınlaşdım, çəkinə-çəkinə soruşdum:

- Kirayə ev kim verir?

Sözlərimə məhəl qoyan olmadı. Təkrar bir də soruşanda orta yaşlı kişi səsimə döndü.

- Oğul, - dedi, - inşallah, xeyir işin olanda - evlənmək xəyalına düşəndə bizə yanaşarsan. Biz manıslarıq - toy çalanlar... Ev alverinə, bax, ordakılar baxır, - aşağı səmti göstərdi.

O səmtdə daha çox adam toplanmışdı. Görünür, ev korluğu çəkənlər evlənmək qayğısıyla yaşayanlardan daha çoxdur. Əlində, elan tutanlar da vardı. Onlardan söz soruşanda cavab vermək yerinə dinməzcə işarəylə elanı göstərirdilər, yəni hər şey burada yazılıb. İlk baxışdan adama elə gəlirdi ki, belələri laldı, danışmağa dilləri yoxdu desin, elan gəzdirirlər.

Milis işçilərini görüb dağılışdılar. İşlərini bilirdilər, özləri çıxıb getməsə, onları buna məcbur edəcəkdilər. Paqonlular təşər-təşər dolaşırdılar, comalağı dağıtmaqla guya ölkədəki mənzil problemini bir andaca həll etmişdilər və bu məmləkətdə nə ev satan vardı, nə də ev alan. Belə götürəndə, əlbət, özlərinin arasında da ev, mənzil arzusuyla yaşayanlar yox deyildi. Milislərin ədası yerə-göyə sığmırdı. Bəlkə də şəhərin o vaxtkı qubernatoru bu bağ-bağatda belə ədayla gəzişməmişdi.

Bağın canlılığı bir andaca çəkildi, suyu sovulmuş dəyirmanı xatırlatdı. Çamadanı yerə qoyub skamyaya çökdüm. Yan-yörədə tək-tük adam gözə dəyirdi. Bəmbəyaz geyimdə bir qrup hərbi dənizçi sahildəki meydana sarı enirdi. Qara çəkmələri, bellərindəki enli kəmərin qızılı dəmiri parıldayıb yanırdı. Günlüksüz furajkalarının ensiz, qara lentləri kürəklərinə sallanmışdı. Matrosların hamısı sarışın, fındıqburun idi. Şəhərdə hərbçilərlə tez-tez rastlaşırsan, amma onların arasında yerli, qaraşın adam görməmişəm. Nə bilim, bəlkə mənim ürcahıma çıxmayıb.

Üzbəüz skamyada cavan oğlanla bir qız oturmuşdu, tələbəyə oxşayırdılar. Şirin-şirin söhbət edirdilər, daha doğrusu, oğlan dil-dil ötürdü. Qız eşitdiklərinə gülümsəyir, arabir də üzündəki təbəssüm şirin gülüşə çönürdü. Öz aləmlərindəydilər, guya bu boyda parkda onlardan savayı bir kimsə yox idi.

Dərd məni almışdı, harada gecələyəcəyimi fikirləşirdim. Gəzməkdən ayaqlarımın heyi kəsilmişdi. Qatarda gecəni pis yatdığımdan gözlərim yumulmaqdan ötrü sino gedirdi. Özümü toplamağa çalışsam da, bacarmırdım, elə bil kirpiklərimdən bir pud yük asılmışdı...

Gözlərimi açanda harada olduğumu əvvəl kəsdirmədim. Deyəsən, gözlərimin acısını yaxşıca almışdım. Tələbə oğlanla qızın yerində yaşlı ər-arvad əyləşmişdi. Elə bildim nə az nə çox, düz əlli illik yuxudan ayılmışam və mənimlə üzbəüz oturmuş ixtiyar ər-arvad da şirin-şirin deyib-gülən həmin tələbə oğlanla qızın qocalığıdı. Ürpəndim. Tez əlimə-ovcuma baxdım, üzümü ovuşdurdum: yox, nə əllərim, nə də sir-sifətim qırışmışdı, qulaqlarım da kardan düşməmişdi, maşınların səsini, budaqlarda gizlənmiş quşların oxumağını aydınca eşidirdim. Gözlərimin nuru da zəifləməmişdi... Qəribədir, bu yarım əsrdə mən heç dəyişməmişdim...

Dənizdən əsən sərin məltəm sifətimi oxşayırdı, elə bil meh dəryanın sərin suyuyla üz-gözümü yuyurdu. Kirpiklərimdən asılmış ağırlıq çəkilib itmişdi, özümdə xoş bir yüngüllük duyurdum.

Mənimlə bir skamyada yaşlı rus qadın oturmuşdu, başını qaldırmadan, sinninə yaraşmayan bir çevikliklə ilmək vurub corab toxuyurdu. Nazik, uzun millər onun damarları çıxmış barmaqları arasında səssizcə, qəribə bir hənglə tərpəşirdi. Əlini işdən ayırmadan şirin bir ləhçəylə dedi:

- Yaman şirin yatmışdın, oğlum. Yəqin, gecəni yuxusuz qalmısan?

- Hə, qatarda yol gəlmişəm... Kirayə mənzil axtarıram, - ümidsiz-ümidsiz dilimi sürüdüm. Qadın başını heç qaldırmadı da, elə bil bayaqkı sualı verən o deyildi. Fikri toxuduğu corabdaydı. Mən

də sürətlə tərpəşən gümüşü millərin hərəkətinə baxırdım. Niyə baxırdım, özüm də bilmirdim. Millərin iti hərəkəti gözlərimi yordu, nəzərlərimi ayırdım.

Hannan-hana qadın dilləndi:

- Aydındır ki, kirayə mənzil axtarırsan. Tələbəsən, durub ev almayacaqsan ki... Özü də birinci kurssan, hə? - çoxbilmişlik elədi.

- Bəli.

Qadın yalnız indi başını qaldırıb, qalın şüşəli eynəyin üstündən məni süzdü. Doğrudan da tələbə olub-olmadığımı yoxlayırmış kimi, başladı sorğu-suala, elə bil imtahan götürürdü. Əslində bu, tələbə həyatımın ilk sınaq imtahanı idi. Qəribə oydu ki, suallar ixtisasıma, yəni filologiya elminə yox, biologiyaya aid idi.

- Heyvanları sevirsən? - yaşlı qadın soruşdu.

- Bəs necə, kənddə qoyun-quzu saxlayırdım, - dedim.

- İt-pişiyi deyirəm.

-Pişik niyə heyvan olur? Onun haqqında tərifə heç nağıllarda da rast gəlməzsiniz. Yeganə faydası siçan tutmaqdı, onu da öz qarnını doyurmaqdan ötrü edir. Amma it sadiq, vəfalı heyvandı. İnsan itləri iyirmi min il bundan əvvəl əhliləşdirib. Nə qədər ağıllı, vəfalı da olsa, itin də it yeri olmalıdı - mənzildə yox, həyətdə.

- Bəs gəmiricilərə, həşəratlara necə baxırsan?

- Lenin burjuaziyaya baxan kimi, - bu dəfə fikrimi obrazlı şəkildə, daha sərt ifadə elədim.

Qadın ta heç nə soruşmadı, deyəsən, aldığı cavablardan razı qalmışdı. Ancaq bu söhbəti niyə saldığının səbəbini hələ də anlaya bilmirdim. Hər halda, nəsə məqsədi vardı, yoxsa boşuna soruşmazdı.

Əlindəki ip yumağını və uzun, nazik milləri tələm-tələsik çantasına dürtdü.

- Hə... Mənim adım Polina Qriqoryevnadı, - dedi, - Şanxayda oluram. Sənnən ötrü bir şey fikirləşərik...

- Şanxayda? - təəccüblə soruşdum.

Qadın güldü.

- Bizim məhlənin adıdı - Şanxay deyirlər, - izah elədi. - Uzaq deyil, Sabunçu vağzalından avtobus işləyir, qabağında yazılır: "Vağzal-Şanxay". 1 nömrəli trolleybus da yaxınnan keçir... Bəri başdan deyirəm, mənzilim böyük deyil, darısqaldı, ancaq təmizdir. Bəyənəcəksən. Ən əsası odur ki, ucuzdu - əsl tələbə malıdı. Qiymət məsələsində dil taparıq, amma xozyayka kimi sənnən bir tələbim olacaq: təmizlik, təmizlik, yenə də təmizlik, çistota, çistota, eşyo raz çistota!..

Mən bayaqkı sorğu-sualın illətini indi anladım. Əslində, bu elə mənim də ürəyimdən xəbər verirdi. "Təmizlik, təmizlik, yenə də təmizlik!" - bu sözləri sadə rus qadın yox, bir siyasət adamı desəydi, şüar eləyib, yapışdırardılar daşa-divara. Məncə, Polina Qriqoryevnanın dedikləri də elə-belə sözlər deyildi və mahiyyətcə Leninin "Oxumaq, oxumaq, yenə də oxumaq" şüarından heç də geri qalmırdı...

Polina xalanın mənzili ikigözlüydü. Deyəsən, əvvəllər birotaqlı olub, sonradan arakəsməylə iki yerə bölüblər. Dəhliz də güllü pərdəylə bölünmüşdü. Pərdənin arxasında qab-qaşıq yığılmış dolab, ikigözlü qaz pilətəsi və qab yumaq üçün su kranı vardı. Balaca "Saratov" soyuducusu isə bəri üzdəydi. Köhnə olduğundan tırıltısı mənzili başına götürürdü. İlk günlər bu tırıltıdan yata bilmirdim, ancaq bir müddətdən sonra alışdım. Özü də elə alışdım ki, işləməyəndə onun səsindən ötrü darıxırdım, nəğmətək şirin gəlirdi mənə.

Qaldığım otaq kiçik idi, kayutanı xatırladırdı: dəmir çarpayı, köhnə paltar dolabı, stol və iki kətil güclə yerləşirdi. Nəfəslikdən azca böyük olan pəncərə otağın yeganə təbii işıq süzgəciydi. Səhərlər günəş dənizin mavi sularından boylanıb dünya-aləmi nura bürüyəndə onun ilıq şəfəqlərindən mənə də azacıq pay düşürdü. Qonşu həyətdə yaşayan şofer Ənnağı yük maşınını

axşamdan pəncərəmin önündə saxlayırdı. Nə qədər ki, maşını xoda salıb getmirdi, mən mavi səmanın da üzünə həsrət idim. Hərdən ürəyimdən keçirdi ki, kaş Ənnağının maşınının təkərinə mıx bataydı, həyətə gəlməyəydi. Bax, onda mən də günəşin üfüqdən necə doğduğunu görərdim.

Ənnağının qarasınca Polina xala da mırtdanır, gileylənirdi. Mənim ürəyimdəkiləri dilinə o gətirirdi. Dediyinə görə, kvartirantla xozyaykanın fikirləri az hallarda üst-üstə düşür. Bizimki tuturdu. Polina xala kirənişinin qeydinə qalan ev sahibəsiydi. Əgər yük maşını kirənişinin pəncərəsinin işığını kəsirsə, bu, təbii ki, ev sahibəsini də narahat etməyə bilməz. Həm də ona görə ki, qaranlıq otaqda elektrik işığından daha çox istifadə olunurdu. Hər dəfə işıq qəbzlərini yazıb hazırlayanda mülayim, mehriban qarının qırımı dəyişirdi, donquldanırdı: "Bu şoferlərə elə yaxşı ad qoyublar - yetmiş üçüncü millət", - deyirdi. Maraqlıdır, görəsən, tələbələr neçənci millətdir? Neçənci olur-olsun, əhalinin bu sadə zümrəsinə Polina xalanın xüsusi hörmət bəslədiyi gün təki aydın idi.

Otaq kifayət qədər işıqlı olmadığından, elektrikə qənaət edim deyə, dərslərimi pəncərənin qabağında hazırlayırdım. Buna bəndmiş kimi, tükləri daranmış ağappaq Məstan pişik o üzdən qalxıb otururdu pəncərədə, matdım-matdım mənə baxırdı. Deyəsən, məhləyə təzə gəlmiş kirənişinin pələnglərin qədim əcdadlarına münasibətini anışdırmaq istəyirdi. Mənəcən bu darısqal otaqda kim yaşayıb bilmirəm, onu bilirəm, heyvancığaz çətin ki, məndən nəvaziş görsün. Pişiklərə heç vaxt rəğbətim olmayıb. Bu hisslər məndə lap uşaq vaxtlarından vardı - oğru pişiklərin yumurtadan təzəcə çıxmış cücələri tutub yediyini görəndən sonra. Pəncərənin o üzündən gözlərini üzümə dikmiş ağ pişik həmcinslərinin harada və nə vaxtsa törətdiyi əməllərə görə cavabdeh deyildi. Ancaq hər halda, mənim ona biganəliyimi sezmişdi; belə şeylərə heyvanlar insandan da həssasdı.

Yaman təkəbbürlüyüdü, lovğa pişiyə oxşayırdı. Qəribə baxışı vardı, sanki demək istəyirdi, təzə kirənişin, sən mənə elə-belə, barmaqarası baxma ha. Mən küllüklərdə küllənən sırtıq-sital pişiklərdən deyiləm, yiyəm var...

İstər pişik olsun, istər it, onlara yiyə duran gərəkdi. Yiyəsizlik heyvandan ötrü böyük dərddi.

Pişik, pələnglərin əcdadına biganəliyimi görsə də, özünü o yerə qoymurdu, dorçununu dartıb oturmuşdu. Pəncərədən düşmək fikri yox idi. İstəyir, axşamacan otursun, mənə nə? Beləcə, günlər ötdükcə yavaş-yavaş mən bu mənzərəyə alışırdım. Ancaq alışqanlıq bu heyvan cinsinə olan münasibətimin dəyişməsi demək deyilidi, sadəcə, Məstanı görmürmüş kimi davranırdım. Amma bir yandan da özümü tələbkar müəllimin nəzarəti altında dərs hazırlayan şagird kimi hiss eləyirdim. Bəzən isə elə bilirdim ki, biz siçan-pişik oyunu oynayırıq. Gözlərimi kitabdan ayırıb, başımı qaldıranda pişik üzünü döndərirdi, guya mənim nə işlə məşğul olduğumun ona isti-soyuğu yoxdur, məni görmür. Kitab oxumağımdan çox, yazı yazmağımla maraqlanırdı; qələmin ağ vərəqdə necə sürüşdüyünə oğrun-oğrun baxırdı. Naxış-naxış artıb çoxalan hərflər, sətirlər əməlli-başlı onu əyləndirirdi. Bizim bu oyunumuz demək olar hər gün baş verirdi - səssiz-səmirsiz. Bu səssizliyi kimin pozmağı onun məğlubiyyəti demək idi.

Bir yol miyoltu səsinə başımı qaldırdım, sevincimdən əllərimi bir-birinə sürtdüm. Bu tabsız miyoltu pişiyin məğlubiyyət etirafıydı. Elə bil deyirdi: "Tələbə, səninki gətirdi. Vaxt gələr, mənə işin düşər, məni onda tanıyarsan".

Doğrusu, ağlımın qırağından da keçməzdi ki, nə vaxtsa ağ tüklü, nərmənazik pişiyə işim düşə bilər...

Polina xalanın qəfil qışqırığına yerimdən sıçradım. Titrək fəryada pişik də döyükdü, tələşlə üzümə baxdı. Miyoldadı. Onun bu miyoltusunu anlamaqdan ötrü baş sındırmağa gərək yox idi. Soruşmaq istəyirdi ki, nə baş verib, sənin "xozyaykan" niyə belə fəğan qoparır? Eyni sual məni də düşündürürdü.

Dəhlizə çıxanda gözlərimə inanmadım. Polina xala kətilin üstündə durub titrəyirdi. Dili-dodağı təpimişdi. Sifətinin qanı qaçmış, üzü ağappaq ağarmışdı.

- Arif, sınok! Sənə qurban, kömək elə, pomoqi! - yazıq-yazıq zarıdı.

"Bu yaşda qoca arvad kətilin üstünə necə çıxıb?" - ürəyimdə özüm özümdən soruşdum. Ancaq bundan da vacibi "niyə çıxıb" sualıydı.

Dəhlizin ortasında saytal bir siçovul dayanmışdı, ətürpədən səslə ciyildəyirdi, "onu kətilin üstünə mən çıxartmışam" - demək istəyirdi elə bil. Uzun, nazik bığlarını saymazyana oynadır, Polina xalanın küy-kələyinə məhəl qoymurdu. Məhəl qoymaq bir yana dursun, öz əməlindən həzz alırdı sanki. Deyəsən, həzzdən də çox yaşlı arvaddan qisas alırdı: "Həə, necəsən, qoca bədxah? Adamı kətilə belə dırmaşdırarlar e. Ayağının biri burdadı, o biri gorda, amma əməlindən əl götürmürsən: tələ qurursan, dünya-aləmi zəhərləyirsən. Cavanlıqda nələr eləmisən, onu Allah bilir. Nəslimizi-kökümüzü qırıb tökmüsən. Yadında qalsın: nə qədər qırsanız da, axırımıza çıxa bilməzsiniz, insan gücsüzdür. Bizi də yaradan var, kim yaradıb, o da canımızı alacaq. Biz heç əbədi-əzəli düşmənlərimiz olan pişiklərdən qorxmuruq, qalmışdı insan olsun..."

- İndi payını alarsan, iyrənc məxluq! - dedim. Ağlıma gələn o oldu ki, bu sırtıq gəmiricinin dərsini versə, Məstan verər. Ona belə ov lazımdı, "hopp" eləyib udsun.

Otağa keçib pəncərəni açdım, dilimin şirin yerinə salıb pişiyi səslədim. Onun yumşaq tüklərini tumarladım. Məstan döyüküb qalmışdı, məndən belə bir nəvaziş gözləmirdi. "Myao" eləyib ağzını açanda yanlardan iti köpək dişləri göründü. Bu iti dişləri Allah bu heyvana niyə verib? Gəmiriciləri gəmirməkdən ötrü. Onları işə salmağın məqamı gəlmişdi. Amma mən pişiyin əzəli-əbədi düşmənini necə parçalayacağına baxmaq istəməzdim.

Pişik götür-qoy eləyirdi. Həmişə maraqla boylandığı və ona müəmmalı görünən bu darısqal otağa girmək fürsətini qaçırmaq istəməyib ehtiyatla döşəməyə tullandı.

- Hə, bəsdir yeyib yatdın, pələng dərisi geymiş pəhləvan. İndi hünərini göstər görüm, - deyib Məstanı dəhlizə ötürdüm. Kətilin üstündə dimdik dayanıb əsən Polina xala pişiyi görüb toxtadı, səsini uddu. Pişik belini dikəldib, tüklərini qabartdı. Bayaqdan meydan sulayan siçovul Məstanı görəndə bir istədi aradan çıxsın, siçan deşiyini satın alsın, ancaq gör-görkəmindən "xanım-xatınlıq" yağan ağ pişikdə o təpər olmadığını hiss edib, fikrindən daşındı, acıqlı-acıqlı fınxırdı. Arxa ayaqları üstə durub iti dişlərini qıcadı, sağ pəncəsiylə pişiyə necə cırmaq atdısa, yazıq heyvan dəhlizdən güllə təki çıxdı. Yanğılı myoltusu indi eşikdən gəlirdi. "Bu ki, lap əfəlmiş", - Məstanın qarasınca donquldandım. Pişiyin əkildiyini görən Polina xala bayaqkından da bərk fəğan qopardı, elə bil ətini kəsirdilər. Bəlliydi ki, nə qədər mənfur gəmirici dəhlizdədir, yazıq arvad da bir o qədər kətilin üstündə dayanıb bağıracaq, əsim-əsim əsəcəkdi.

Məzlum-məzlum mənə baxırdı, yeganə ümidi kirənişinə idi. Bəli, qəhrəmanlığı mən göstərməliydim. Kim anadan qəhrəman doğulur ki? Heç kim. Adam hansısa bir əməliylə qəhrəman olur.

- Arif, sınok! Şvabranı götür, öldür onu! Ubeyy! - dili topuq vura-vura Polina xala yol göstərdi. Mən döşəməsiləni götürəndə siçovul döyükdü. Deyəsən, işin zarafatdan adladığını duymuşdu, tələşlə üzümə baxırdı. Onun iyrənc ciyiltisi, arabir fınxırıb kəsici dişlərini göstərməyi belə mənasız idi. Qələtini qanmışdı, qanmışdı ki, özünü zibilə salıb, daş qayaya rast gəlib. Biz üzbəüz durub baxışırdıq. Mən bu iyrənc varlığı heç vaxt belə yaxından görməmişdim. İyrənsəm də, üzümü çevirmədim. Heyvanın idbar suyumundan görünürdü ki, bu nacinslərin əlində əlac olsa, Yer üzündə yaxşı nə varsa, hamısını dişlərindən keçirər, məhv edərlər. Polina xala kimilər olmasaydı, bu iyrənc kəsəyənlər artıb çoxalar, dünyanı bürüyərdi.

Otağa sükut çökmüşdü. Polina xala ta qışqırmırdı, deyəsən, səsi batmışdı. Əllərini bir-birinə daraqlayıb məzlum-məzlum baxırdı. Siçovul da səsini udmuşdu, ciyildəmir, dişlərini göstərmirdi. Heyvan indi bu yolla sayıqlığımı yayındırmağa, oğurlanıb aradan çıxmağa fürsət axtarırdı. Əlimdə uzun dəstəkli taxta, durmuşdum, cərimə zərbəsi vurmağa hazırlaşan xokkeyçiyə bənzəyirdim. Mənə elə gəldi darısqal, yarıqaranlıq dəhlizdə yox, buz örtüklü geniş bir meydançadayam və boz siçovul buzun üstündə hərəkətsiz qalmış şaybadır, kətilin üstündə dayanıb əsim-əsim əsən Polina xala isə oyunun hakimidir, o hakimi ki, açıqdan-açığa kirənişinin tərəfindəydi.

- Öldür onu! Ubey! - Polina xalanın cır səsinə özümə gəldim. Elə bil qışqırmadı, nəfəsini toplayıb var gücüylə hakim fitini pülədi və hər şey bir andaca baş verdi...

Həmin hadisədən sonra "şvabra" deyilən taxta parçasının üzərinə düşən vəzifənin biri də artdı. Sən demə o, gəmiricilərlə mübarizədə ən etibarlı silah imiş. Adı döşəməsilən olsa da, uzun dəstəkli taxta daha çox tavanla təmasdaydı. Axşamlar "zenit artilleriyası" vəzifəsini yerinə yetirirdi. Yaxşı da kara gəlirdi. Üstdəki mənzildən eşidilən səsləri: çarpayı cırıltısını, ayaq tappıltısını, xorultunu susdurmaq üçün Polina xala döşəməsilənlə taxta tavanı "atəşə" tuturdu. O vaxtadək ki, sakitlik çökürdü. Polina xalanın dediyinə görə, yuxarıda yaşayanların rəsmi kəbini yoxdur. Sarısaç, bizburun qız Saratov vilayətindəndir. Qonşu Sabutay onunla dəmiryol vağzalında tanış olub. Sabutay vağzalda dəllək işləyir. Polina xala onların əhvalatını evində qalan hər kirənişinə danışıb, indi isə məni hali eləmək istəyirdi. Əslində, onun danışdıqları maraqlıydı və çalışırdım ki, eşitdiklərimi qulağımdan ötürməyim. Polina xalanın dediyinə görə, Sabutay perronda turist qıza dondurma alır. Qız dondurmanı yeyib qurtarana kimi dəllək ona eşq elan edir. Cavan qızlar arasında yelbeyinlər az olmur. Biləndə ki, oğlan Şanxayda yaşayır, özü də hallı-pulludur, Maşa çamadanını götürüb qatardan düşür. Rəfiqələrinə tapşırır valideynərinə çatdırsınlar ki, Maşa şanxaylı Sa Bu Taya ərə getdi. Çində yaşayacaqlar... Qızın ata-anası bu xəbərə yamanca sevinir, şadlıqlarından şənlik eləyirlər. Bütün kənd də onlara qoşulur. Məclis qurulur. Kənd sovetinin sədri təmtəraqlı bir tost söyləyir. Deyir, bu hadisə təkcə bir ailənin yox, bütün vilayətin həyatında əlamətdardır. Bundan belə yollar açılacaq, get-gəl artacaq. Pokrovkadan Şanxaya kim bilir nə qədər gəlin köçəcək. Gözəl-göyçək Maşa ilk qaranquşdur, onun ardınca uçanlar çox olacaq. Sovet sədri qızın anasına ürək-dirək verib, onu da deyib ki, yolun uzaqlığını dərd eləməsin, təyyarənin əlində o boyda yol heç nədir, çox olsa, dörd-beş saat vaxt aparacaq. Kürəkəniniz Sa Bu Tay dəvət göndərər, gedib Çini görərsiniz, maraqlı ölkədir. Bir də onu deyib ki, nəvələrin qıyıqgöz doğulacağını da dərd eləyib ürəklərinə salmasın, ruslar nəlbəkigöz olub dünyanı düzəldiblər?.. Yavaş-yavaş bambuk çubuğuyla düyü yeməyi, həlim içməyi öyrənin ki, o yanlara qonaq gedəndə çinli qohum-əqrəbanın yanında biabır olmayasınız...

İnişil qızın anası gəlibmiş, bunları Polina xalaya o danışıb.

Gəmiricilər üzərində zəfəri qeyd eləmək üçün Polina xala məni axşam yeməyinə çağırdı. Planetdə bir siçovul da azalmışdı. Bu, yaşlı qadından ötrü əsl bayram idi.

Dadlı rus blininin ətri otağı bürümüşdü. Yuxaya oxşayan yayma dadlı-tamlıydı, xoşuma gəlirdi. Odur ki, Polina xala blini bişirəndə kirənişini də unutmurdu.

Stolun üstündə alma cemi, qaymaq və bir şüşə "Kəmşirin" şərabı vardı. Polina xala şərab süzməyi mənə həvalə elədi və heç bir sağlıq söyləmədən içkini başına çəkdi. Mən də ev sahibəsindən geri qalmadım. Acqarına içdiyimdən sirkə qoxusu verən şərabın havası beynimə

vurdu, elə bil çaxırı mədəmə yox, başıma boşaltmışdım. İçki Polina xalanı da tutmuşdu, danışanda hərdən dilini sürüyürdü,

- Arif, oğlum! - dedi. - Bilirsən, sən neyləmisən? Əsl qəhrəmanlıq göstərmisən...

Qulaqlarıma inanmadım. Nə qəhrəmanlıq, nə igidlik? Mən sadəcə vətəndaş və bir də kirənişin borcumu yerinə yetirmişəm. Kim olsaydı, mənim kimi hərəkət edərdi. Burada nə var ki?..

- Polina Qriqoryevna, axıı...

- Sözümü kəsmə, mən nə dediyimi yaxşı bilirəm. Sən özünü vaxtında yetirib o mənfur krısanın axırına çıxmasaydın, kətilin üstündən yıxılıb o dünyalıq olacaqdım. Təsəvvür edirsənmi?

Nə cavab verəcəyimi bilmirdim, kirimişcə oturub baxırdım. Şərab Polina xalanın dilini açmışdı, dolu ürəyini boşaltmaq istəyirdi. Mən onun dediklərini diqqətlə dinləyirdim. Hərdən ev sahibəsinin səsi harasa uzaqlaşırdı, o qədər uzaqlaşırdı ki, sanki bir də qayıtmayacaqdı. Dodaqlarının tərpənməyindən görürdüm ki, danışır. İyrənc bir gəmiricinin axırına çıxmaq, bəlkə həqiqətən də qəhrəmanlıqdır. Yoxsa, bu yaşlı arvada nə düşüb, ağzını Allah yoluna qoysun.

Bayaqdan itmiş səsi qayıtdı.

- Guya sən bağlamazdın? - Polina xala soruşdu. Özü də cavab verdi: - Bağlayardın!..

"Görəsən nəyi soruşur? Yoxsa, evin çöl qapısını deyir?" - özlüyümdə götürqoy elədim. Soruşdum:

- Açarla?

- Yox! Sinənlə!

- Nəyi?

- Ambrazuranı! Kimdi o? Aleksandr...

- Matrosov, - Polina xalanın söhbəti hardan gətirdiyini indi anladım. Qəribəydi ki, bu yaşlı qadın mənim bir gəmiricini öldürməyimlə düşmən pulemyotunu sinəsiylə qapayan Aleksandr Matrosovun qəhrəmanlığı arasında fərq görmürdü. Onun nəzərində siçovullar da hitlerçiydi, faşist idi.

- Başqasının həyatını qurtarmaq qəhrəmanlıq deyil ki? - soruşdu.

- Qəhrəmanlıqdı, - mən dilucu cavab verdim. Polina xala bayaqdan bu cavabı gözləyirdi.

- Ay sağ ol! Spasibo tebe! Axır ki, mənim fikrimlə razılaşdın, - dedi. - Bunu içək sənin timsalında bütün qəhrəmanların sağlığına! Za nastoyaşix qeroev!

Mən dolu stəkanı yenə birnəfəsə boşaltdım. Adı "Kəmşirin" də olsa, şərabın dadı qaldıqca dəyişirdi elə bil, şərbətə oxşayırdı. Beləsi adamı lap tez tutur.

Beynim dumanlandıqca, Polina xalanın dediklərinə özlüyümdə haqq qazandırır, yavaş-yavaş inanmağa başlayırdım ki, ziyanvericiləri, gəmiriciləri qırmaq doğrudan da qəhrəmanlıqdır. Qəhrəmanlıq olmasa belə, hər halda faydalı və şərəfli işdi. Əgər elə deyildisə, Polina xalaya o qədər fəxri-fərman verərdilərmi? Bu mükafatların bir neçəsi, idman zalında olduğu kimi, divardan asılmışdı. Fikirləşirdim ki, "Ən xeyirxah və mehriban insan" mükafatı da təsis edilsəydi, onu alanlar arasında hökmən Polina Qriqoryevna da olardı.

Dəmir çarpayının baş tərəfindəki divardan çərçivəyə salınmış bir şəkil asılmışdı. Polina xalanın gənclik illərinin nişanəsiydi. Şəkildən sarışın, məsum bir qız baxırdı. Başında yanakı qoyulmuş beret vardı, saçları alnına tökülmüşdü. O vaxtın dəbi, ger-geyimi adama qəribə gəlir. Çoxdan çəkildiyindən şəkil saralıb soluxmuşdu. Polina xalanın qırışlı üzünün cizgiləriylə sarışın qızın sifəti arasında bir bənzərlik axtarsam da, tapa bilmirdim, başqa-başqa adamlardı elə bil. Dəyişməyən yalnız gözlərin işartısıydı.

Ürəyim doluydu, istəyirdim ev sahibəsinin - bu mehriban, qayğıkeş insanın sağlığına badə qaldırım. Deyim ki, nəinki Şanxay deyilən məhlədə, dünyada belə onun tayı-bərabəri yoxdur və elə bilirəm, onu indi yox, çoxdan tanıyıram. Sən demə, ev sahibəsi də mənim haqqımda bu fikirdəymiş.

- Bilirsən, oğlum, biz ev bazarında rastlaşanda elə bildim ki, səni lap körpəliyinnən tanıyıram. Özüm də məəttəl qalmışdım. Skamyada oturub elə şirin-şirin yatmışdın, oyatmağa əlim gəlmirdi... Nə isə, görünür, qismət bu imiş... Deyim ki, qonşular da səndən razıdır. Soruşurlar, Polina Qriqoryevna, bu tərbiyəli kvartirantı hardan tapmısan? Mən də deyirəm, hardan tapacam, ev bazarınnan...

Eşitdiyim tərifdən duyğulanmışdım, gözlərim nəmlənmişdi. Doluxsunduğumu gizlətmək üçün başımı sallayıb yeməklə məşğul oldum. Polina xalanın əlinin duzu vardı, bişirdiyi ləzzətliydi. Təkcə yeməyi yox, elə sözü-söhbəti də duzlu, maraqlıydı. Sən demə, Leninqrad blokadasının ağır, məşəqqətli günlərini yaşamaq ona da qismət olub. Necə sağ qaldığını indi də ağlına sığışdıra bilmir. Bir kimsəsi, qohum-əqrabası yoxdur, hamısı müharibədə qırılıb. Dava vaxtı çəkdiyi zilləti, ağrı-acını xatırladıqca qəhər onu boğur, danışanda hərdən səsi titrəyirdi. Deyir, dava vaxtı acından ölməmək üçün adamlar əllərinə keçəni yeyirmişlər: it, pişik, hətta siçovul da. Bu qadında heyvanlara, gəmiricilərə sonsuz nifrətin hardan gəldiyini indi anladım. Bəlkə də Polina xala hər dəfə onları görəndə o dəhşətli günlərin ağrı-acısını yenidən yaşayır, dərdi təzələnirdi. Bu yaşlı, ifallı qadın, həyatı sadəcə pak və təmiz görmək istəyirdi.

- Nə qədər ki, iyrənc gəmiricilərin, həşaratların kökü kəsilmiyib, insan onlarla döyüşməlidi, vuruşmalıdı - sonuncusu qırılanacan! - Polina xala dedi. Səsini qaldırdı: - Pridyot vremya... Vaxt gələcək, dünya bu iyrənc varlıqlardan biryolluq xilas olacaq!..

Söylədiklərinə nə özü, nə mən inanmasam da, axırıncı badələri son damlasınadək bu sağlığa içdik.

Polina xala danışdıqca, onun keçdiyi həyat yolu gözlərim önündə canlanırdı. Bu, yalnız bir qadının naxışı, alın yazısı deyildi, müharibənin məşəqqətlərini yaşamış, od-alov keçmiş milyonlarla insanın tale, ömür yoluydu.

Başını qaldırıb divardakı şəklinə baxdı, köks ötürdü. Ötən günlərin qəmli-qüssəli xatirələrini həzin bir şərqi əvəzlədi. Pəsdən oxuduğu kədərli nəğmə, əslində, bayaqkı kövrək xatirələrin davamıydı. Ancaq şərqi də çox sürmədi, onun titrək dodaqlarında donub qaldı. Səssizcə, için-için ağladı, astadan dua edib, xaç çevirdi...

* * *

Sentyabrın sonuncu günü aydın, günəşli bir səhərlə açıldı. Yay yerini xəzantökən payıza verdiyinə peşmanmış kimi, təzədən qayıtmaq istəyirdi elə bil.

Yuxudan er qalxsam da, Şıxəlinin axşamkı sözlərini xatırlayıb, dilimə heç nə vurmadım. Görünür, belə lazımdır, Cənnətə acqarına getmək məsləhətdir. Hər halda, orda qəlyanaltı eləməyə bir şey tapılar, yemək-içmək qıtlığı olmaz.

Qonşum məni həyətdə gözləyirdi. Gözlərinin altı tuluqlanmışdı, axşam içdiyi içkinin təsiri hələ də üzündən çəkilməmişdi. Üzündən çəkilməyibsə, deməli, beynindən də silinməyib. Bunu Şıxəlinin danışığından da bilmək olurdu, sözləri ərincək-ərincək tələffüz edirdi.

- Sabahın xeyir olsun, qonşuu! - məni salamladı.

- Sabahın xeyir!

Həyətdən çıxdıq. Üzü gündoğana baxan Şanxay üfüqdən təzəcə boylanan günəşin qırmızımtıl şəfəqlərinə bələnmişdi, dənizin mavi sinəsində bərq vururdu. Uzaqlarda göyümtül duman gəzişirdi. Buradan baxanda adama elə gəlir ki, dəniz günəşin anasıdır, səhərlər onu bətnindən doğur və hər səhər doğulan da eyni günəş deyil, təzədir, sadəcə, bir-birinə bənzəyirlər.

Məhlə yatıb yuxuya qalmışdı, günəşin üfüqdən boylanmağından xəbəri olan yox idi. Dənizdən gələn sərin meh, yuxulu sifətimi yalayırdı. Meh əsməsəydi, bəlkə də gözlərim yumular, ayaq üstəcə yatardım. Yaxşı ki, dəniz vardı, mavi sulu, mavi gözlü dəniz. Özü də lap yaxındadır - əlimi uzatsam, çatar.

Məhlənin ayağındakı kiçik meydan şəhərin cənub qapısıdı, burada canlanma duyulurdu. Maşın çox olmasa da, arabir eşidilən motor gurultusundan səhərin ünsüzlüyü paramparça olmuş, qeybə çəkilmişdi. Qeybə çəkilən bir də mavi dəniz idi, görünmürdü. Görünməsə də, onun lap yaxında - istilik elektrik stansiyasından o tayda olduğu yosun qoxuyan mehdən bilinirdi.

- Qədeş, o donqarbel adama fikir verginən, - Şıxəli işarəylə dayanacaqdakı kişini göstərdi. - Myaskombinatın "pravitelski" sexində fəhlə işliyir, - dedi. - Amma gəl ki, padşah kimi dolanır, nastoyaşi milyonerdi. Heç akademik elənçiyinə dolanmır.

Şıxəlinin göstərdiyi kişi sur-suyumu, geyim-keçimiylə ətrafdakılardan heç nəylə seçilmirdi. Diqqət çəkən onun yöndəmsiz biçimiydi.

- Bilirsən də, hökumət adamlarının yemək-içməyi spes-zakazdı, onlar qara camaatın yediyini yemir. Mərkəzi Komitədə işliyənlərin, nazirlərin Şıxəlidən nəyi artıqdı, qədeş? Onların da iki gözü, bir ağzı var, mənim də. Yoxsa, göydən zənbillə düşüblər? Beləncik şeyləri fikirləşəndə, odlanıram, prosto tüstüm görsənmir. Elə bilməginən Şanxaylı Şıxəli ancaq özünü düşünür, öz hayındadı. Söbəti yoxdu. Nöş beləncig yaşamalıyıq, başa düşmürəm? Bu, "jizn" deyil ki... Nə bilim, danışmırsan olmur, danışırsan da, Bayandur kimisi deyir, sən antipartiyasan. Bəgəm, mən artıq-əskik söbət eliyirəm, qədeş?

Şıxəlinin sualı qəliz idi. Mənə qalsa, dediklərində qəribə heç nə görmürdüm, bu da onun fikridi. Hamı eyni cür düşünə bilməz ki... Qaldı qonşumun dediklərini yozmağa, o, baxır adamına, kim necə qəbul edir. Bayandur kişi kimisi, əlbət, buna başqa don geydirərdi. Elə don geydirərdi, elə tərəfgirlik eləyərdi, guya Şıxəlinin dediyi o "pravitelski" sosika-kolbasadan ona da pay çatır.

Şıxəlinin, dediyinə görə, o donqarbelin nazir qədər hörməti var və şəhərdə onu hamı tanıyır. Axşamlar Şanxayın itləri avtobus dayanacağına çıxıb donqarbeli qarşılayır, üst-başını iyləyə-iyləyə düz həyətəcən ötürürlər. Paltarından gələn hisə verilmiş kolbasanın, sosiskanın iyinə yarım litr araq içmək olar. Oğurluq-doğurluq çıxardığı nemətləri gətirib məhlədə xırd eliyir.

Qonşum söhbətinə ara vermirdi. Deyəsən, avtobus gələnəcən baş qatır, vaxt öldürmək istəyirdi.

- O pravitelski kolbasadan hərdən mən də alıram, - dedi, - yeyəndə qabığını da soymuram. Alayı şeydi. Qədeş, bu kişi gətirib satdıqları sexin "otxodlarıdı", indi sən gör, nazirlər yeyən necədi. Nə isə, onu bilirəm ki, bu məmləkətin adamları bir razmerdə yaşamır. Küçədə-bayırda şüar asırlar e - bərabərlik, xoşbəxtlik haqqında, oların hamısı fuflodu, sözdü, qədeş. Nə bərabərlik, bərabərlik hərləyən kimdi? Bir dənə şüar var - "İnsanı zəhmət ucaldır" - onu görəndə elə bil məni söyürlər.

- Niyə?

- Necə yəni niyə? Bu qədər də olmaz axı. Mən özümü demirəm, götür həyətimizdəki Tahiri, Neft daşlarında qara qızıl çıxardır, di gəl ki, çırağa tökməyə kerosini dükandan pulnan alır. Alə, o yetim aylarla ev üzü görmür, zəhmət onu haçan ucaldacey, ölənnən sonra? Hökumət bicdi, eləsinin başını alayı cür bişirir. Birisinin adına mahnı qoşdurur, o birisinə şeir. Soruşan gərək, ac qarına şeir mənim nəyimə gərəkdi? Aclıq olsun, kef olsun, bunda deyiblər e...

Şəhərə sarı gedən maşınlar şəhərdən çıxanlardan çox idi. Adama elə gəlirdi, şəhər bir yandan dolan, bir yandan boşalan nəhəng bir qabdır və belə davam eləsə, axşama kimi maşın əlindən dolub daşacaq.

Biz tərs səmtə getməliydik, Şıxəlinin dediyi Cənnət-məkan o səmtdəydi. O yandan gələn avtobuslar təpiliydi. "Əlbət, bu insanlar Cənnətdən qayıdırlar. Görəsən, camaat elə yerdən niyə qaçır"? - fikirləşdim.

Mindiyimiz avtobus böyük deyildi. Şəhərdə beləsinə "Alabaş" deyirlər. İlk dəfə bu sözü eşidəndə gülmüşdüm. Kənddə bu adı itlərə verirlər. Qonşumuz Zəkəriyyə dayı da köpəyini alabaş çağırır, ancaq niyə, bilmirəm. Onun itinin başı ala deyil axı.

Oturmağa yer yox idi. Oturanlar qədər də ayaq üstə duran vardı. Motorun yeknəsəq səsindən savayı heç nə eşidilmirdi, hamının dili qarnına girmişdi, cınqırını çıxaran yox idi. Kimi oturduğu yerdə, kimi isə ayaq üstəcə mürgüləyirdi. Gözü açıq olanlar da vardı. Ancaq elə bil onlar da yuxudaydılar, sadəcə, gözüaçıq yatmışdılar. Səssizlik adamı darıxdırır, yolu dartıb uzadırdı, guya üz tutub getdiyimiz bu güzarın sonu yoxdu, bitib tükənməyəcək. Nədənsə özümü tənha hiss elədim, sanki "Alabaş" deyilən bu köhnə, taraqqa avtobusda yalqızdım, heç sürücü də yox idi, maşın yellənib gedirdi. Hara gedirdi, məni hara aparırdı, bilmirdim. Bir onu bilirdim ki, getdikcə sürət artırdı. O qədər artdı ki, təkərlər yerdən üzüldü, avtobus quş təki qıy vurub havada süzdü. Ağ bulud topaları lap yaxındaydı, əlimi uzadıb onları ovcuma yığmaq istəyirdim, ancaq sürüşüb əlimdən çıxırdı. Buludların yanından şəhər bambaşqa görünürdü. İnsanlar qarışqa kimi qaynaşır, maşınlar ora-bura şütüyür, dayanmaq bilmirdi. Şəhər sükunət sevmir, burada hər şey tərpənməli, titrəməli, hərəkətdə olmalıdır. Burada həyat qaynar qazan təki qaynamalıdır.

- Cavan oğlan, əlivi götür! Bu yetimin boynu dəstəkdir ki, bərk-bərk yapışmısan?! - Şıxəlinin səsi məni xəyaldan, mürgü vuranları isə yuxudan oyatdı. Ötkəm danışığından o, sərnişindən çox, konduktora oxşayırdı.

Oğlan tanımadığı adamın haqlı iradından qızardı, əlinin yerini dəyişdi. Bayaqdan boynunu əyib durmuş kişi qamətini düzəltdi, "yetim" adlandırılmasından xoşlanmasa da, dönüb minnətdarlıqla Şıxəliyə baxdı, yəni "sağ ol, qardaş, sən olmasan, yolu axıracan əzab-əziyyətlə gedəcəkdim".

- Alə, pioner! - Şıxəli üzünü çantasını qucaqlayıb arxada oturmuş məktəbliyə tutdu. - Məktəbdə sizə belənçik tərbiyə veriblər? "Timur və onun komandası"nı oxumamısan? Böyük-kiçik söbəti var. Çatdı sözüm sənə? Leninin işi uğrunda mübarizəyə hazır ol!

Məktəbli yerindən dik sıçradı. Sağ əlini qılıncına alnına aparıb "Həmişə hazıram!" - dedi. Yerini cavan qadına verib, əsl Timurçu olduğunu sübut elədi.

- Alə, qədeş, qapının ağzında nöş diyanmısan, keç qabağa! - Şıxəli bu dəfə orta yaşlı kişiyə irad tutdu. Ancaq onun sözləri kişini açmadı, dönüb tərs-tərs baxdı. Dilini saxlamadı:

- Sənin nə işinə qalıb, konduktorsan?

Şıxəli onun eyhamını cavabsız qoymadı.

- Konduktoram-kiməm, özüm bilərəm, - dedi. - Lap adi vətəndaşam. Xətrivə nöş dəyir? Düz söz belənçikdir də, istiot kimi yandırır. Bu dünyada heç kimə yaxşılıq yoxdur, mən ölüm.

- Yaxşılıq deyəndə, sən kimsən axı, mənə yaxşılıq eləyəsən! - kişi də söz altda qalana oxşamırdı. - Nə qədər olmasa, sənnən üç-dörd bayram böyüyəm. Uşaq deyiləm ha, durub mənə öyüd verirsən! - üzünü sərnişinlərə tutdu: - Mənə ağıl verənə baxın. Sir-sifətinnən görünür - axşam necə gillədibsə, üst-başınnan "vinzavod" iyi gəlir.

Kişi dayanacaqda enməsəydi, söz-söhbət uzanacaqdı. Onun dedikləri Şıxəlini möhkəm tutmuşdu. Başını pəncərədən çıxardıb hayladı:

- Qədeş, yadında saxlaginən, kişidən "vinzavod" iyi gələr, sənin kimi parfümerni mağaza ətri yox!..

Sərnişinlər gülüşdü. Şıxəli bunu söz meydanından qalib çıxmağı kimi başa düşdü, özünü dartdı. Üzündə zəfər qazanmış sərkərdə təkəbbürü vardı. Deyəsən, sərnişinlər də elə bu fikirdəydilər, yarıyuxulu gözlər indi ona başqa ifadəylə baxırdı. Bu gözlərdə sezilən bir də minnətdarlıq hissiydi, yəni, sağ ol, avtobusda hər kəs öz hayındadı, bircə səndən savayı. Hər kəs oturmağa özünə yer axtarır, sənsə başqalarının qayğısına qalırsan. Əslində, bu, sosialist əxlaq kodeksinin əsas prinsiplərindən idi - özünü qurban ver, başqasını xilas et. O başqası kimdir axı? Tanıdın, tanımadın, fərq etməz, sosializmdə yad yoxdur, bütün insanlar doğmadır, qardaşdır. Deyilənə görə, yaxın gələcəkdə - kommunizmdə insanların düşüncəsi, tərbiyəsi bundan beşbetər olacaq. Bir az dərinə getsən, bəlkə buna heç ehtiyac da yoxdur. Əgər adamlar başqasının xoşbəxtliyi naminə öz səadətini itirməyə hazırdısa, tanımadığı birinin yolunda həyatını qurban verirsə, ta bundan o tərəfi nə ola bilər?

Növbəti dayanacaqda da biz düşdük. Bura dayanacaq demək də doğru olmazdı. Ətrafda çor vurmuş ağacları xatırladan saysız-hesabsız neft buruqlarından, mancanaqlardan savayı heç nə görünmürdü. Görünən bir də tək-tük iri neft çənləriydi. Uzaqda bir xırda bina qaralırdı. Buruqlar meşəsi uzanıb dənizəcən gedirdi. Dəmir qurğulardan dənizdə - qırxayağı xatırladan estakadaların üstündə də vardı. Bu cansıxıcı məkanda Cənnətdən əsər-əlamət görünmürdü, heç iyi də gəlmirdi. Qatran, mazut dolu iri çala-çuxurlar Cəhənnəmin qır qazanlarıydı sanki. Qır "qazanlarına" hələ od salmamış, üstünün qıl körpüsünü çəkməmişdilər. Qazanların altını yandıran pələqulaq şeytan-şəyatinlər yatıb yuxuya qalıblar, yoxsa? Qır pıqhapıq qaynayanda gəl üstündəki qıl körpüdən keç, görüm keçə bilirsənmi? Buradan yalnız günahsızlar keçə bilər. Günahsız insan hardadı?.. Əlbət, elə o üzdən də Behişt deyilən o aləmdə tünlük olmaz. Cəhənnəmdə isə əksinə, ayaq basmağa bəlkə də yer tapılmaz...

Yol uzanmasın deyə qatran dolu çala-çuxurların ortasından keçib gedirdik. Gedirdik deyəndə, Şıxəli qabağa düşüb bələdçilik eləyirdi, mən də kirimişcə düşmüşdüm onun dalınca. Qonşum başını qaldırmadan yeriyirdi, dönüb arxaya baxmırdı, elə bil mədənlərin arasında təkcəydi, məni unutmuşdu.

Axşamın sərinindən qatran layı bərkiyib hamarlanmış, qapqara səthi çoxdan su görməyən torpaq təki cadar bağlamışdı. Sulardan boylanan qırmızımtıl günəş Göyün qançıxmış gözünə bənzəyirdi, gecəni narahat yatmışdı. Səma yuxulu günəş gözüylə bic-bic bizi süzür, sirli-sirli gülümsəyirdi. Elə bil bizi irəlidə nələr gözlədiyini görürdü. Hərdən yerişimi soyudub boylanır, qarşıdakı yolu-yolağanı seçməyə çalışırdım. Saysız-hesabsız buruqların, mancanaqların əlindən uzağı görmək olmurdu. O üzdən də adamın ürəyi qısılırdı. İrəlini görməkdən ötrü, əlbət, göylərə qalxmaq lazımdır, yaxın-uzaq gələcək yalnız oradan görünür, yəqin...

Arabir dəniz tərəfdən qağayıların ney ahəngini andıran titrək səsi eşidilirdi. Yol bitmək bilmirdi. Yamaca sığınmış Şanxay darısqal həyətləri, xırda evlərilə getdikcə uzaqlaşır, uzaqlaşdıqca da kiçilirdi. Hər dəfə qanrılıb arxaya baxanda elə bilirdim biz yox, Şanxay ayaq götürüb bizdən qaçır. Aralıdan bu fəhlə qəsəbəsi doğrudan da miskin Çin məhləsini xatırladırdı. Bir-birinin qarnına girmiş evlər oyuncaq evciklərə bənzəyirdi. Şanxay naşı bir rəssam fırçasından çıxmış mənzərəni andırırdı. Bizim həyətin çəhrayı darvazası güclə də olsa seçilirdi. Açıq rəngli darvaza

məhlənin qəlbisində işaran mayakı xatırladırdı və sanki dənizdə ora-bura üzən gəmilər bu darvaza-mayakı səmt götürürdülər. Deməginən, bir vaxtlar həyətdə yaşamış bosman Timofey Petroviç taxta doqqazı elə bu məqsədlə çəhrayı rənglə boyayıbmış ki, uzaqdan seçilsin. Hər səfərdən qayıdanda Nargin adasını keçən kimi qırıq-qırıq fit verirmiş. Onun yük gəmisinin fitini Şanxayda yaxşı tanıyırmışlar. Eşidəndə bilirmişlər ki, Timofey Petroviç səfərdən qayıdır. Arvadı Mariya əl-ayağa düşüb, ərini qarşılamaq üçün hazırlıq görürmüş, məhlə uşaqlarından birini araq dalınca çaparaq dükana qaçırdırmış. Timofey Petroviçin gəlişiylə həyət canlanırmış. Arvadlı-kişili qonşuları başına yığıb yeyib-içir, kef çəkirmiş. Sonra da köhnə balalaykasını sinəsinə sıxıb rus çastuşkaları çalıb-oxuyurmuş. Uşaqlar onun botsman düdüyünü püləyib züy tuturmuşlar. Yeni səfərəcən həyət beləcə şənlənirmiş. Bu dəniz fatehinin səfərləri o qədər uzun çəkərmiş ki, bir müddət sakinlər belə bir qonşuları olduğunu yaddan çıxarar, arvadı Mariya isə Timofey adda əri olduğunu az qala unudarmış - ta o tanış fit səsi yenidən eşidilənəcən... Bunları mənə Bayandur kişi heyfslənərək danışmışdı. Bilmirdim niyə heyfslənirdi: mənim Timofeyi görmədiyimə görəmi, yoxsa onun köçüb Kerç şəhərinə getdiyi üçünmü?..

Məhlənin lap aşağısında köhnə hamamın dimdik dəmir borusu tüstülənirdi. Uzaqdan baxanda adama elə gəlirdi bu hamam binası döşdəki tikililərə dayaqdı, əgər o olmasa, domino daşları təki qarış-quruş evlər-evciklər yuxarılarda bənd almaz, sürüşüb gələr üzüaşğı. Belə baxanda, deməzsən ki, Şanxayda insan yaşayır.

Mənim ayaq sürüməyimə Şıxəli arxaya döndü, ilk dəfə görürmüş kimi dayanıb aralıdakı fəhlə qəsəbəsini mənalı-mənalı süzdü. Nəsə xatırlayıb gülümsündü.

- Yeddi-səkkiz ilin söbətidi, - dedi, - o vaxt Xruşşov Bakıya gələndə Şanxayı göstərib, soruşub ki, bura nədir belənçik? Mərkəzi Komitənin başçısı xəcalətdən pul kimi qızarıb, bilmiyib nə cavab versin. Deyib, Nikita Sergeyeviç, bunlar donuz damlarıdı... Alə, Xruşşova kəf gəlmək olardı? Bicbalanın birisiydi. Bir adam ki, Stalin kimi əjdahanın cəsədini mavzoleydən çıxartsın, adını yer üzündən silsin, ona üçlük atmaq olar? Damlardakı antennaları göstərib, deyib ki, Vəli qədeş, dünya-aləmi mən barmağıma doluyuram, sən də mənə paçka basırsan? Məndə 21-di. Qədeş, bəgəm sizdə donuzlar televizora baxır?.. Hardan bilsin ki, Şıxəli kimilərinin ömrü belənçik donuz damlarında çürüyür. Sənə deyim, Rusiyetdə donuz damları bizim Şanxay evlərinnən rahatdı: isti-soyuq suyu postoyannı, qışda da "oteplenni" işliyir, necə lazımdı. Deməginən, Şıxəli ancaq özünü fikirləşib danışır. Heç vaxt naşükür olmamışam. Mənə nə var, başımı dürtməyə, daldalanmağa balaca "krışam" oldu, bəsimdi. Millətin dərdini çəkirəm, yoxsa özümə çoxdannan bir gün ağlamışdım. Alə, nöş belənçik olmalıdı axı?..

Buruqların arasını acı bağırsaq təki uzanan dəmir borular sarımışdı. Pas tutmuş borular yerin üzə çıxmış damarlarıydı elə bil, yan-yörəyə şaxələnmişdi. Ağacdələn kimi yorulmadan torpağı dimdikləyən mancanaqların zəhlətökən taqqıltısından, cırıltısından savayı heç nə eşidilmirdi. Bəlkə də bu səslər olmasaydı, neft qoxuyan bu bulaşıq məkan lap bezdirici, cansız görünərdi. Bir vaxtlar proletar yazıçısı Maksim Qorki qara qızılla zəngin bu mədənləri cəhənnəmə bənzətmişdi. Ağlıma da gəlməzdi ki, nə vaxtsa həmin mənzərəni gözlərimlə görəcəyəm. Adamın inanmağı gəlmirdi ki, bu ürək qısan məkanda - torpağın altında bir dünya sərvət yatır. Dəmir borular dolaşıq düşmüş bağırsaq təkiydi, nə başı vardı, nə ayağı. Fışıltıyla axan qatı maye boruların

içində alataş qalmışdı elə bil, çıxmağa yol axtarırdı. Dəmir mancanaqlar bir ucdan torpağın iliyini sorurdu. Aralarında əldən düşənlər, işləməyənlər də vardı: əlbət, o quyularda ta bir şey qalmamışdı.

Haradasa it hürdü. Biz də elə nağıllardakı təki it hürən səmtə üz tutduq. Mancanaqların zəhlətökən səsi içindən eşidilən hafiltı heyvan səsi də olsa, canlıydı. Dəniz yaxındaydı, ancaq havadan yosun qoxusu gəlmirdi. Bəlkə də gəlirdi, sadəcə, onu burundeşən qır-mazut iyindən ayırmaq olmurdu. Hava isindikcə, aləmi bürümüş bu iy-qoxu daha da güclənirdi. Torpağın altının nə təlxi, üfunəti vardı, vurub üzə çıxmışdı. Yerin altı iylənmişdi elə bil, adamın ürəyini bulandırırdı. Yox, təkcə adamın yox, əyri-üyrü sahil boyu uzanan şəhərin də başı dönürdü bu iydən.

Ayaqlarım ağırlaşmışdı, sözümə baxmırdı. Bu heysizliyi yavaş-yavaş bütün vücudumda duyurdum. Dilim ağzımda qupquru qurumuşdu, boğazım gicişirdi. Bircə qurtum su olaydı kaş. Bir yandan da tərləməyim bədənimin mayeyə olan ehtiyacını artırırdı. Hərdən gözüm qaralırdı, saysız-hesabsız buruqlar, mancanaqlar, "bağırsaq" borular harasa qeybə çəkilir, itirdi. Mənə elə gəlirdi ucsuz-bucaqsız səhrada susuz qalmış, dəvəsi ölmüş ərəbəm. Susuzluğun nə demək olduğunu onu yaşayan bilər. Təyyarəçi Antuan de Sent Ekzüperinin qəzaya uğrayıb Ərəbistan səhralarında susuzluqdan nələr çəkdiyini indi anladım. Əlbəttə, onun düşdüyü vəziyyətə baxanda, mənə şükür. Amma yox, susuzluq hər yerdə eyni cür dəhşətli və amansızdır. Tərslikdən, külək də səmtini dəyişmişdi, arxadan əsirdi, yoxsa üz-gözümə çırpılar, sərinlədərdi canımı. Hərdən dönüb dalı-dalı gedirdim, xəfif yel sifətimi yalayırdı. Doğrudan da Bakı küləyinə etibar yoxdu, üzü tez-tez dönür: gah belə əsir, gah da elə. Bayaqdan gilavar idi, indi çöndərmişdi xəzriyə - Şimaldan əsirdi. Qoy əssin...

Qara bir it şöngüyüb aralıdan bizə baxırdı. Əlbət, bayaq hürən bu köpək idi, onun kal hafiltısını səmt götürmüşdük. Ancaq bu səmtdə də eyni mənzərəydi. Əksinə, qır-mazut dolu çala-çuxurlar daha da çoxalmışdı. Torpağın üzü qara yara tökmüşdü elə bil. Qara itin səsinə gedən ağ günə çıxmaz ki...

İtin yanından keçəndə onun tüklərini tumarlamaq istədim, kənara çəkildi, qapqara quyruğunu bulayıb astadan zingildədi. Bu adi zingilti deyildi, köpək nəsə demək istəyirdi. Elə bil soruşmaq istəyirdi ki, səhərin korunda buruqların arasında, cəhənnəmin bu xaraba guşəsində nə itiniz azıb?.. İtimiz yox, özümüz azmışdıq.

Başımı qaldıranda Şıxəlini görmədim, buruqların arasında qeybə çıxmışdı. İyli-qoxulu mədən əjdaha olub bir gözqırpımındaca onu udmuşdu. Bir istədim barmaqlarımı ağzıma salıb fit çalım, amma fikrimdən daşındım, elə bilirdim mədənin ürəkbulandıran iyi-qoxusu barmaqlarıma da bulaşıb.

Tənhalıq hissi yorğunluğumu, canımın təşnəsini lap da artırdı. Gücürləyib yerişimə haram qatdım, addımlarımı yeyinlətdim. Səmti itirmişdim, elə bilirdim getdiyim yolun nə başlanğıcı var, nə də sonu və mən çıxılmaz bir labirintdə havayıdan avara-avara dolaşıram.

İrəlidə, ensiz maşın yollarının qovuşağında kiçik tikili qaralırdı. Yox, bu bir ilğımdır. Səhrada susuz qalıb ölümlə çarpışan adamın gözünə belə şeylər görünür. Gözlərimi ovuşdurub baxdım, bu dəfə qaraltını aydın seçdim - yastı damlı kiçik köşk idi. Ayaqlarımı güclə sürüyürdüm. Kaftar it də dalımca düşmüşdü. Heysiz-heysiz yeriyirdi, yəqin, aclıq-susuzluq onu da əldən salmışdı. Mənə elə gəldi ki, dalımca dabanqırma gələn it deyil, ac yalquzaqdı və məni özünə yol yoldaşı yox, qurban bilir. Heyi olsaydı, üstümə atılar, iti dişlərini boğazıma keçirərdi. Ancaq onda o təpər yox idi. Heyi qalmadığından, yeganə silahı səbr idi. Yalquzaq əldən düşsə də, əl çəkməyəcək, izləyəcəkdi, ta qurbanı gücdən düşüb yerdə hərəkətsiz qalanacan onun dalınca gedəcəkdi. Ürpəndim, canımı dişimə tutub yeriyirdim. Yox, durmayacağam, nə qədər ki, dizlərimdə taqət, canımda hey var, irəli gedəcəyəm. İrəli!..

Zingilti səsinə geri qanrıldım. Köpək quyruğunu döşək eləyib şöngümüşdü, dilini bir qarış çıxardıb ləhləyirdi. Bayaqdan dalımca düşmüş heyvanın yalquzaq yox, it olduğuna sevindim. Səslədim. Köpək qulaqdan mayıf imiş kimi mənə məhəl qoymadı, şöngüdüyü yerdəcə qaldı. Yəni mənimki buracandı, buracan yoldaşlıq elədim, bəsindi... Cibimdə dişə dəyən bir şey olsaydı, itə atardım. Heyvanın ac olduğu aşkarca görünürdü, qarnı belinə yapışmışdı. İyli-qoxulu neft mədənlərində dişə vurmağa çətin ki, xırda-mırda bir canlı tapsın. Haradan tapacaq? Bağrına mazut hopmuş torpağın altında qızıldan yuva qursan da, bir kəsəyən, gəmirici belə burada tutduruq verməz. Bu məkanda eşidilən yalnız borularla axan neftin uğultusu, mancanaqların yeknəsəq taqqıltısıdı ki, bu da soyuqluq gətirir, adamı üşüdürdü. Elə bil bu uğultu həm də yerin təkindən gəlirdi. Sanki torpağın altında neft dolu nəhəng qazan qaynayırdı, himə bənddi, indicə fontan vurub aləmi basacaqdı.

Sürtünən dəmir-dümürün ətürpədən cırıltısını, taqqıltısını eşitməyim deyə, əllərimlə qulaqlarımı tutdum. Dünya-aləm bir andaca səssizliyə çulğalandı. Belə halətdə torpağı dimdikləyən mancanaqların hərəkəti lap gülməli görsənirdi, səssiz kinoydu elə bil. Bu ünsüzlükdən buruqlar səltənəti daha da usandırıcı, bezdiriciydi. Səssizliyin də qaramatı varmış.

Yolun qırağındakı kiçik köşkün qabağında iri hərflərlə "Soyuq pivə" yazılmışdı. Gözlərimi geniş açıb yazını bir də höccələdim. İstəyirdim, bu ikicə kəlmə uzansın. "Soyuq pivəə..." - höccələdikcə gözlərimə işıq gəlirdi, elə bilirdim, bu sərin mayeni içirəm, içdikcə də doymuram.

Şıxəli köşkün açıq pəncərəsindən boylanan ağ xalatlı kişini tələsdirdi:

- Mirtağı, ciyərim yandı, tez süz görüm! Pojardı!..

Qonşumun bu sayaq danışığı mənə toxundu, guya ciyəri yanan tək odur. Deyəsən, bu qədər yolu mənimlə gəldiyini unutmuşdu. Ac gözlərini şırnaqdan süzülən köpüklü pivədən ayırmırdı.

- Qədeş, soyuqdur? - soruşdu. Şıxəlinin sualı yersiz idi. O, sadəcə hövsələsini cilovlaya bilmirdi. İri krujka pivənin soyuqluğundan tərləyib donuq rəng aldı.

- Soyuq nədi? Şimal buzlu okeandı, mən ölüm, - satıcı malını öydü. - Şıxəli, bu qərdeşimizi tanımadım, - məni göstərdi.

- Həyətimizin təzə kvartirantıdı, canlara dəyən oğlandı, - qonşum məni tərifl ədi. - Tanıginən, Cənnətə mənsiz gəlsə, mərifətli qulluq eliyərsən.

- Mənim gözüm üstə, - sağ əli məşğul olduğundan satıcı sol əlini sol gözünün üstünə qoydu. Qızıl dişlərini göstərib qımışdı. Mənə elə gəldi, onu haradasa görmüşəm. Yox, bəlkə də şəhərdəki pivəsatanlara oxşadırdım. Onlar da Mirtağı kimi qızıldişlilər, sanki pivəxanada işləmək üçün satıcının qızıldiş olmağı şərtdir. Oxşarlıq həm də onların əyinindəki qısa ağ xalatda, davranışlarındadır. Mirtağı da müştərinin üzünə baxmırdı, diqqəti şırnaqdan süzülən kəhrəba rəngli mayedəydi. Süzdüyü köpüklü içkini kim içir, ondan ötrü heç bir mənası yox idi. Bu balaca köşkün qarşısında növbə düzülsəydi, bəlkə Mirtağı bizə bir o qədər məhəl qoymaz, bizimlə söhbətə girişməzdi. Mədənlərin ortasında tək-tənha qaldığından çənə vurmağa bir Allah bəndəsi axtarırdı.

Şıxəli qurumuş dodaqlarını yaladı.

- Nöş belənçiginə süzülür, qədeş?- hövsələdən oldu. - Alə, bunun "davlenisini" artırginən, tez dolsun də!

- Çəşm! - Mirtağı əyilib kranı açdı, ilan fısıltısına bənzər səs gəldi, şırnağın şırıltısı artdı.

Şıxəli gözünü şırnaqdan ayırmadan soruşdu:

- Alə, Miri, "çəşm" deyirsən a, o nə deməkdi elə?

Mirtağı belə sual gözləmirdi, bilmədi nə cavab versin. Başını qaldırmadan mızıldandı:

- Qədeş, mən ölüm, heç özüm də düz-əməlli bilmirəm. Mənnən qabaq burda Məmmədağa kişi işliyirdi, onnan eşitmişdim. Elə ha deyirdim, mənasını soruşaram, qismət olmadı, kişi rəhmətə getdi. Rəhmətlik danışığını bilən, abırlı adam idi... "Çəşm" pis söz olmaz...

- Farscadı, "göz üstə" mənasındadı, - mən izah elədim. Mirtağı özünü necə itirdisə, krujkanın dolub daşdığını belə görmədi.

- Eşitdin, qədeş, sənə nə deyirdim? - Şıxəliyə baxıb irişdi. - Dedim, nalayiq söz olmaz də...

Şıxəli qürurla məni süzdü, əlini kürəyimə vurdu, dönüb mənalı-mənalı satıcıya baxdı. Buna cavab olaraq satıcı da qızıl dişlərini göstərdi.

- Kvartirant kəllədi, bu mən ölüm, - məni təriflədi. - Allah belançik birisini bizim həyətə də yetirsəydi, əntiqə olardı, millətə xeyri dəyərdi. Şıxəli qədeş, bəxtiviz gətirib, necə lazımdı.

Qonşum özünü dartdı.

- Bəs necə? Biz hər adamı həyətə buraxmırıq, - öyündü. Elə öyündü, guya kirənişin məsələsində Polina xala qonşularla məsləhətləşir, onarın razılığını alır. Nə bilim, bəlkə də elədi, mənim xəbərim yoxdu.

Şıxəli ağzını marçıldadıb yenə dodaqlarını yaladı. Ona baxıb qeyri-ixtiyari mən də qurumuş dodaqlarımı yaşlamaq istədim, ancaq dilim oduna dönmüşdü. Udqunmaq istədim, udquna bilmədim, boğazım da qupquru qurumuşdu. Ürəyimdə Şıxəliyə həsəd aparırdım, o, buz təki soyuq içkiyə məndən bir addım yaxın idi. Bax, indicə dolu krujkanı alıb, köpüklü içkini birnəfəsə başına çəkəcək... Bunu görməyim deyə, gözlərimi yumdum. Səhrada dili ağzında qurumuş adamın durub su içənə tamaşa etməyinin nə demək olduğunu o iztirabı yaşayan bilər.

- Student, al, vur bədənə, gör nə görürsən.

Şıxəlinin səsinə gözlərimi açdım. O, ağ köpüklü şüşəni mənə uzatdı. Mən hələ də nə baş verdiyini anlamır, kirimişcə durub baxırdım, gördüyümə inanmağım gəlmirdi.

- Nöş baxırsan, qədeş? - Şıxəli soruşdu. - Atalar deyib, su kiçiyindi.

Özümü toxtadıb, qonşumun təklifindən imtina eləmək istədim, guya susuzluğa dözümüm var, günlərlə içməyim, eynimə də gəlməz. Amma Şıxəli təkidindən əl çəkmədi.

Krujkanı dodaqlarıma apardım, üzdəki qalın ağ köpüyü acgözlüklə uddum, onun dalınca soyuq pivənin dadı damağıma dəyəndə gözlərimə işıq gəldi. Bir qurtum, iki qurtum, üç qurtum... İlahi! Bu nə halətdi? Qıcqırıb qıvşamış arpa tamı verən mayenin sərinliyi damarlarımla axıb bütün vücüdumu sarıdı. Gözlərimin qabağında nəsə işartılar oynadı, süngü buruqlar birdən-birə ağac olub yarpaqladı, qır, mazut dolu çalalar göy sulu nohurlara, göllərə çevrildi, havadan qatran iyi yox, bihuşedici gül-çiçək ətri gəldi...

Şüşə krujkanı dodaqlarımdan ayırmırdım. Bu nədi ki, elə bilirdim, yaxındakı dənizin suyunu belə sümürüb boşaltmağa nəfəs çatdıraram.

- Alə, tələbə, tormozla görək, - Şıxəli məni dayandırmaq istədi. - Nəfəsin gedər, qayıtmaz, bizi salarsan zibilə, - krujkanı əlimdən dartdı. Qımışdı: - Hə, necədir, student, de görüm indi hardasan?

-Cənnətdə! - mən düşünmədən cavab verdim. Bu sualın ayrı cavabı yox idi.

- Cənnət belənçik olur də, özgə cür olmaz ki... - qonşum özündən razı halda dilləndi. Nimçədəki noxuddan bir-ikisini ağzına atdı. - Bu pivnoy yedinkadı, mən ölüm, - dedi. - Şəhərin ən bərkgedən restoranında pivə içsən, belənçiyinə kayf verməz. Xramvozduxdu - Kislovodsk, - Şıxəli tərifl ədi. - Buranın havasında yod var, o da ki, dərmandı, müftə-müsəlləh, qəbul elə özünçün. Sənə deyim, taksiylə də gələ bilərdik, amma onda Cənnət olmazdı, olardı adicə pivnoy. Eləsi Şanxayda da var. Yoxsa, bu qədər yolu payi-piyadə nöş gəlirdik?..

Mən indi bildim, yəqin elədim ki, Cənnətin yolu Cəhənnəmdən keçir, könlü balıq istəyənin ayağı suda gərək. İnsanın xisləti belədir: pisi görməsə, yaxşının qədrini bilməz. Buruqların arasındakı

kiçik pivə köşkü bu kimsəsiz məkanda bir mayak idi. Ancaq bu "mayak" işıqsızdı, uzaqdan qaraltı təki görünürdü və adamlar yolu azmasınlar deyə, əlbət, onun qaraltısını səmt götürürlər.

- Növbə dəyişəndə, neftçilər tökülüb gələcək, - Şıxəli dedi. - Bircə saata o boyda çəlləyi sümürüb qurudaceylər. Bu pivnoy olmasa, yetimlər susuzluqdan qırılar, mən ölüm.

Qonşumdan eşitdiyim bir xəbər isə məni lap haldan eləmişdi: sən demə, "Neftçi" komandasının oyunçularından da bura pivə içməyə gələnlər var. Futbolçu Eynullayev qardaşları Bayılda Mirtağı ilə bir həyətdə yaşayırmışlar. Dediyinə görə, Şıxəli onlarla Yasamal gölünün suyu qədər pivə içib. Mənimsə inanmağım gəlmirdi ki, azarkeşi olduğum bu məşhur oyunçularla qonşu məhlədə kirənişin yaşayıram. Bunu dost-tanışa danışıb öyünəcəm. Niyə də öyünməyim? Bilirəm ki, mənə həsəd aparan çox olacaq...

Məndən fərqli olaraq, qonşum pivəni birnəfəsə yox, aramla, qurtum-qurtum içir, yanğısını yavaş-yavaş söndürür, bununla da aldığı ləzzəti uzatmaq istəyirdi. Hərdən də əlində tüstülənən papirosa qullab vururdu. “Kazbek”in qəribə tüstüsü vardı, sarımtıl idi, burula-burula qalxdıqca arabir yaşıla da çalırdı. O, ağzından buraxdığı tüstünün havaya necə ağır-ağır qalxdığını sakitcə izləyir, arabir krujkanı dodaqlarına aparırdı. Şıxəlinin üzünün ifadəsi də dəyişmişdi, yeri gəldi-gəlmədi gülümsəyirdi. Danışığı da əvvəlki deyildi, astadan, sözləri uzadıb danışırdı.

- Mirtağı qədeş, alver necə gedir? - Şıxəli maraqlandı.

Satıcı onu eşitmirmiş kimi, əvvəl dillənmədi, əlini çiynindən asdığı dəsmala sildi, yalnız bundan sonra müştərinin sualına cavab verdi:

- Miyana. Qədeş, sən məni yaxçı tanıyırsan, bilirsən ki, heç vaxt naşükür olmamışam. Üç də qazananda "min bərəkət" demişəm, beş də qazananda... Qazandığım özümə qalsa, pis deyil, dolanmaq olar. İmkan vermillər: bunun uçastkovısı var, sanepidstansiyası var... Hərə bir yannan cibini açır. O gün təzə pojarnik gəlmişdi. Hara gəldi burnunu dürtür, ilişməyə bir şey axtarır. Onnan qabaqkı alayı cayıl idi, yüz araq, bir bakal pivəyə yola salırdım gedirdi. Təzə pojarniknən dil tapmaq çətindi...

Mirtağı daha nəsə demək istəyirdi, ancaq aralıda şöngümüş itin qəfildən acıqlı-acıqlı hafıldamağını eşidib səsini uddu, şüşənin arxasından buruqlara sarı boylandı. Sifətinin ifadəsi dəyişdi. Onun bu halı Şıxəlinin gözündən yayınmadı. Sual dolu nəzərini dostunun üzünə dikdi. Baxışından Mirtağı onun nə soruşmaq istədiyini anladı, ağzını açmağını gözləmədi, əllərini çiynindən sallanan ağ dəsmala silə-silə dedi:

- Allaha qurban olum... Adını tut, qulağını bur buna deyiblər e... Pojarnikdi gələn, it bircə ona hürür.

- Əlbət, heyvanın gözü paqon-maqon götürmür, - qonşum mülahizə elədi, it hürən səmtə baxdı.

Buruqların arasıyla hərbçi qiyafəsində bir adam gəlirdi. Əlindəki daşı hürüb özünü həlak eləyən köpəyə sarı tolazladı. Dəmir-dümürə dəyən daşın çıxardığı gurultu kilsə zəngini xatırlatdı, boğuq it hafıltısına qarışıb mədən boyu yayıldı. İt hürə-hürə daşın dalınca götürüldü, sonra qayıdıb yenidən hərbçiyə qıcandı.

Şıxəli bu mənzərəni kirimişcə izləyirdi, sanki kinoya baxırdı.

- Alə, bu qiryətli itmiş ki... - qımışdı. - Pojarnikin yumşaq yerinə bir kərəm ağız atsa, o yetim bu yannara ayaq basmaz, mən ölüm.

- Amma nə dedin, qədeş, - eşitdiyi pivəsatanın ürəyinə sarı yağ təki yayıldı. - Mən ölüm, bu pojarnikin əlinnən cana yığılmışam. Ərinmir, bu qədər yolu pay-piyadə gəlir ki, "proverka" aparsın. Deyirəm, nəçənnik, canınnan bezmisən? Hər yan qır-mazut çalasıdı, düşərsən çuxura harayıva çatan da olmaz. Qeyidir ki, Mirzəliyev, sən mənnən narahat olma.

- Mirzəliyev kimdi, qədeş? - Şıxəli başını qaldırdı.

- Mənəm də, familyam yadınnan çıxıb bəgəm?..

- Həri? İnciməginən, təkcə sənin yox e, hərdən öz familyamı da unuduram. Yaxçı ki, sənin yadıva salan var, o pojarnikə "sağ ol" de.

- Paqonnuların adətidi, adamnan rəsmi danışırlar...

- Həri.... - qonşum pivəyə ağızdolusu qurtum vurdu.

Mirtağı köşkdən çıxıb aralıdan köpəyə acıqlandı. Yalnız bundan sonra itin hirsi yatdı, mırıldadı, zingildədi, kiridi. Mancanağın yanındakı torpaq topasının üstünə sərələndi.

Pivəsatan çağırılmamış qonağı köşgün qabağında qarşıladı. Mirtağının üzünün ifadəsi dəyişmişdi, özünü elə göstərirdi, guya qonağın yolunu çoxdan gözləyir, gəlişinə şaddır.

- Nəçənnik, xoş gəlmisən, həmişə sən gələsən, - irişdi. Müfəttiş soyuq baxışlarını, qızıl dişlərini göstərib, irişən satıcıya dikdi.

- Mirzəliyev, keçən dəfə soruşmaq istiyirdim - bu iti sən saxlayırsan? - maraqlandı.

- Yoxx! Atam qəbri, mənnik döyül, nəçənnik, - Mirtağının dili topuq vurdu. - Besprizornudu, buralıqda sülənir özüçün. Başı batsın, məni dost-tanış yanında xəcalətli eliyir.

- Amma bizə hürmədi a, Miri, - Şıxəli söhbətə qarışıb dostuna göz basdı. Onun eyhamlı sözləri müfəttişinin qulağından yayınmadı. Qıyğacı nəzərlə Şıxəlini süzdü, dinmədi. Qoltuğundakı meşin qovluğu əlindən qoymayıb, köşkün ora-burasına zənd elədi, elektrik naqillərini nəzərdən keçirdi. Nəsə gizli bir işin üstü açılacağından qorxurmuş kimi satıcı xoflu-xoflu onun dalınca fırlanırdı, arabir çiynindən sallanan dəsmalla üzünün tərini qurudurdu.

Müfəttiş qovluğu açıb kağız çıxartdı, nəsə yazıb kağızı ortadan çırıb yarısını Mirtağıya uzatdı. Dedi ki, bu dəfəlik onu cərimələyir, sonrasından Allah saxlasın. Köhnə naqilləri dəyişdirməyi, sayğaca yeni, saz qoruyucular quraşdırmağı tapşırdı. Satıcı günah işlətmiş uşaq kimi başını aşağı sallayıb kirimişcə dinləyirdi. Qeyri-ixtiyari çiynindən asdığı dəsmalın ucunu didişdirirdi. Gizlətməyə çalışsa da, onun ürəyindən keçənləri duyurdum elə bil: "Bu yetim qəmişini çəksəydi, canım əlinnən qurtarardı..."

- Mirzəliyev, dediklərimi unutma, cəriməni də gecikdirmə, yoxsa müəssisəni bağlayaram, - müfəttiş bir daha xəbərdarlıq elədi.

Mirtağının belinə cərimə yox, elə bil dağ yıxmışdılar. Qaməti əyilmiş, büzüşüb yumağa dönmüşdü.

- Nəçənnik, müəssisə deyəndə, balaca butkədi də, - yazıq-yazıq zarıdı. - Benzinkolonka döyül ki, pivnoydu... Pivə də ki, ömürbillah "oqneopasnı" sayılmıyıb, od vursan da, yanmaz. - Bu sözləri deyib gözucu Şıxəliyə baxdı. Şıxəli baş barmağını dikəldib işarə vurdu, yəni ki, əla dedin. Bununla kifayətlənməyib, söhbətə qarışıdı, dostuna havadarlıq eləmək istədi.

- Kişi söbətidi, mən ölüm, - dedi, - Pivə yanmır a, yanğını söndürür. O qədər yolu nöş gəlmişik? Gəlmişik cigərimizin odunu-alovunu söndürməyə...

Dostunun sözlərindən ürəklənən Mirtağı nəsə demək istədi, amma müfəttiş ona aman vermədi.

- Mirzəliyev, bil ki, ən böyük benzinkolonka üstündə durduğumuz bu torpağın altıdı. Özü də elə benzinkolonkadı ki, bütün Sovet İttifaqı burdan "zapravka" eliyir...

Mirtağı dönüb yenə mənalı-mənalı dostuna baxdı, yəni bu nə danışır?

Şıxəli pivə içməyinə ara verdi, nəzərini buruqlara sarı dolandırdı. Dedi, Stalin davanı Bakı neftiynən udub. Biliyini göstərməyə yaxşı fürsət tapmışdı. Qıyqacı məni süzüb gülümsədi, yəni necədi, student? Mən başımı yüngülcə tərpətdim. Qonşum ruhlanıb daha nəsə əlavə eləmək istədi, ancaq söz tapmadığındanmı, yoxsa fikri dolaşdığındanmı danışmadı.

Müfəttiş onun dediklərilə razılaşdı.

- Doğrudur, - dilini sürüdü.

- Kliyent vseqda prav, - qonşum burnunu dikəltdi. Pivədən bir qurtum içib, əyilib qulağıma pıçıldadı: - Alə, bu pojarnik elə bilir biz balqabağıq, dünyadan xəbərimiz yoxdu...

"Klient vseqda prav" Şıxəlinin öz fikri deyildi, dükan-bazarda asılmış elandan əzbərləmişdi. Bu elana müştərilər nə qədər diqqətli olsalar da, satıcılar bir o qədər nifrət edirdi. Odur ki, eşitdiyi Mirtağını da açmadı, qəribə baxışla dostunu süzdü. Onun bu baxışı satdığı pivə təki soyuq idi.

Müfəttiş vəzifə borcunu axıracan yerinə yetirmək istəyirdi.

- Mirzəliyev, - dedi, - mənim işim xəbərdarlıq eləmək, ölçü götürməkdi. Xırda bir ehtiyatsızlıqdan mədəni odduyarsan, sənnən qabaq məni basallar Bayıl türməsinə.

Mirtağı onun tutarlı söz-söhbəti qabağında nə cavab verəcəyini bilmirdi, gözünü döyə-döyə baxdı, sonra ağlına nə gəldisə təşərləndi:

- Nəçənnik, sən Mirtağını yaxçı tanımırsan. Pojar olsa, kişi döyüləm, bu boçkaları açıb, pivəni rasxoda buraxmasam. Za to, bilərəm ki, Vətən yolunda zərərə düşmüşəm. Kinoda göstərillər də, "krupnı" pojarları elə pivəylə söndürüllər, köpüklənir, necə lazımdı.

Mirtağının sözlərini qulaq ardına vuran olmadı: mən Şıxəliyə baxdım, Şıxəli də çönüb təəccüblə müfəttişi süzdü.

Müfəttişin dodaqları qaçdı.

- Mirtağı, bildiyin şeyi danış, - qınadı, - sən deyən pivə deyil, kimyəvi tərkibli xüsusi mayedir.

- Həri? - satıcı soruşdu. - Alə, mən də fikirləşirəm, pojarniklər bu qədər malı nöş zay eliyillər? - Səsinə həlimlik gətirib təklif elədi: - Nəçənnik, pivə buz kimidi, bəlkə bir krujka...

- Sağ ol, vəzifə başındayam - müfəttiş susuzluqdan qurumuş dodaqlarını yaladı, pivə çəlləyinə sarı heç baxmadı da. Qovluğunu qoltuğuna vurdu, ayrılanda bir də xəbərdarlıq elədi:

- Dediklərimi unutma, naqilləri dəyişdir.

- Çəşm, - satıcı əlini gözünə apardı.

Yanğınsöndürmə idarəsi müfəttişinin getməyilə elə bil Mirtağının beli, qəddi-qaməti düzəldi, sanki çiynindən dağ aşırdılar.

-Eşitdin də, qədeş, yetimin dediklərini? - üzünü dostuna tutdu. Şıxəli ona ürək-dirək verdi:

- Qorxmaginən, sənə paçka basır.

- Qədeş, özün yaxçı bilirsən, vaxt vardı pojarnikləri adam saymazdıq. Bu şpankə özünü elə dartır, elə bil uçastkovıdan böyük adamdı. Bircə buna haqq vermirəm. Vermirəm deyəndə, təklif eliyirəm, götürmür. Götürsə, arxayınçılıq olardı, yoxsa qalırsan nigaran...

- Nastoyaşi kommunistdi ki... - qonşum dilləndi. - Miri, bəlkə az olduğu üçün götürmür, taksasını qaldırginən, - məsləhətindən qalmadı.

- Necə lazımdı, onun qulluğunda hazıram, Miri canı. O yetimin xasiyyəti belənçikdi, çörək qazanan döyül. Tərsin biridi, eşitdiyimə görə idarədə buna "Zakon Zeynal" deyirlər.

- Hərii?

- Həri. Amma nolsun? O almasa da, pul alan çoxdu, bilmirəm hansını yola salım.

Qonşum pivədən iri bir qurtum içib, ağsaqqal təbiriylə satıcıya məsləhət verdi:

- Miri, uşaq deyilsən ki, bu dünya dövri-qədimnən belənçik gəlib, belənçik də gedəcək. Yeyirsənsə, gərək yedirdəsən də... Naşükür olma, nə qazanırsan, "min bərəkət" deginən.

Pivəsatan isə gileyindən qalmırdı, deyəsən, nəzər qaytarmaq istəyirdi.

- Bu bapbalaca budkaya Cənnət deyirlər, - səsi lap cılızlaşdı. - Əsl Cəhənnəmdi, mən ölüm, iti bağlasan, durmaz. Bir parça çörəyin xatirinə dözürəm, əlacım nədi? Bura pivə içənə yaxçıdı. Mən də ki, seyid nəvəsiyəm, içki-miçki bilmərəm...

- Əlbəttə, qədeş, içməginən, - Şıxəli satıcının sözlərinə dəstək verdi. Əyilib qulağıma pıçıldadı: - İnanma, bizə paçka basır... Alə, get özüvə, məndəki tuzdu. Seyid nəslinə bax, Şanxayın bir nömrəli nəşəxorudu, mən ölüm. Yaxçı tanıyıram, məniynən bir sinifdə oxuyub. Məktəbdə hamı bunu Miri çağırırdı, cılız uşaq idi. İndi kefi kökdü, "tüklənib". Kalan pulu var, amma haçan dindirirsən, ağlayır. Soruşan gərək, qədeş, nöş ağlayırsan, malını-pulunu əlinnən alan var? Şanxayda ilk "QAZ-21" Mirtağıda olub. İndinin özündə qarajda iki maşını var. Hökumət hara baxır, bilmirəm. Nöş soruşan yoxdu, qədeş, buları hansı pula almısan? Amma yetim Şıxəli daş atıb birinin pənəcərəsini sındırsa, qulağınnan tutub salacaqlar qazamata ki, bəs sovet vətəndaşına maddi ziyan vurmusan. Alə, Mirtağı gözgörəti camaata pivədən çox, köpük içirdir, ona gözün üstə qaşın var deyən yoxdu. Bu nədi bəgəm, vətəndaşa maddi ziyan vurmaq deyil?..

Qonşum daha nələrsə deyirdi, amma mən onun dediklərini eşitmirdim. Acqarına içdiyim pivənin nəşəsi məni götürmüşdü, ayaqüstü xumarlanırdım.

- Miri, adama bir dənə buterbrod təşkil elə, - Şıxəli sifariş verdi. Onun sifarişi ürəyimdən oldu, tezdəndən dilimə loxma dəyməmişdi. Üzünü mənə tutdu.

- Qonşu, buterbrodla aran necədi? - soruşdu.

- Əla, - dedim, - tezdən heç nə yeməmişəm, acam.

- Qədeş, bura sənə restorandı - "Novaya Yevropa"dı bəgəm? - məni qınadı. - Mən deyən alayı buterbroddu: pivənin üstünnən yüz araq vuracağıq, sonra yenə pivə gillədəcəyik, olacaq buterbrod. Qarışdıranda buna "Severnoe siyanie" də deyirlər. Öyrən, student, gərəyin olar. Soruşsalar, deyərsən məllimim Şanxaylı Şıxəlidi.

Qonşumun təriflədiyi buterbroddan sonra kefim lap duruldu. O, papirosuna dərin qullab vurub susdu. Daha danışmırdı, gözləri yol çəkirdi, özü demiş, "çorta" getmişdi. Satıcı da başını piştaxtaya qoyub mürgüləyirdi.

Şıxəli boşqabdakı köpüb şişmiş noxudllara duz səpdi, bir-ikisini götürüb ağzına atdı. Gözləri axırdı. Nəsə xatırlayıb dilləndi:

- Bizim məhlədən baxanda sahildə gəmilər görsənir ey, ora hərbi flotiliyadı, bəri tərəfdəki hündür hasarlı boz bina isə məşhur Bayıl türməsidi... Uşaqlığım o türmənin həndəvərində keçib. Dənizə yaxındı, gedib orda balıq tuturdum...

- Tarix kitabında var, 1820-ci ilin tikilisidi, - dedim. - Stalin də Çar zamanında Bayıl türməsində yatıb.

- Həri? Bilmirdim. Deyirlər onun yatdığı kameranı muzey kimi saxlayırlarmış. O yetim də az aşın duzu olmuyub a, bank yarırmış, oğurluq eliyirmiş. Mədənləri yandırırmış... Student, Stalin nöş belənçik eliyirmiş?

Mən tələsmədən oxuyub bildiklərimi qonşumla bölüşürdüm. Əslində, bundan həm də zövq alırdım. Məni sıxan bir şey idi - cınqırını çıxartmadan maraqla "mühazirə" dinləyən "tələbə" "müəllimdən", yəni məndən xeyli yaşlıydı. Ancaq qonşum buna bir o qədər də əhəmiyyət vermirdi. İzah eləyib dedim, bolşeviklər mədənləri yandırırdılar ki, camaat bezib cana yığılsın, çara qarşı çıxsın. Stalin də bankı özü üçün yarmırdı, o pula qəzet buraxır, partiyanın işini aparırdılar. Diqqətlə qulaq assa da, deyəsən, eşitdikləri qonşumun ağlına batmırdı.

- Həri? - ağzını sürüdü. - Qədeş, səniynən razıyam, - dedi, - amma nə qədər olmasa, elənçik işlərin adı oğurluqdu, banditlikdi. Partiyanı dolandırmağın alayı bir "çestni" yolu yoxmuş bəgəm?

Mən çiyinlərimi dartdım. Şıxəlinin bu sualı qəliz idi. Dinmədiyimi görüb, öz sualını özü cavablandırdı:

- Deyirəm, dünyanın işinə bax, mən ölüm, bandit olasan, axırda da gəlib o boyda nəhəng ölkəyə xozeyinlik eliyəsən. Qədeş, oxumuş adamsan, sən yaxçı bilərsən, deyir, o yetim milyonlarnan insanın qanını axıdıb. Türmə görmüş adam idi, ölkəni də qazamata döndərmişdi, türmə qanunlarıyla idarə eliyirdi... Sözü alayı söhbətə gətirirdim, Stalin araya düşdü...

- Deyirdin, dənizdən balıq tuturdun.

- Hə, gənc naturalist idim. Dərsdən qayıdan kimi, tilovu götürüb gedirdim balığa. Bir kərəm türmənin yanından keçəndə, gördüm kağıza bükülü daş düşdü yola. Götürüb açdım, məktub idi. Hasarın o üzündən bir dustaq atmışdı. İndiki kimi yadımdadı, yazmışdı: "Gənc naturalistə atəşin salam! Səni əlində tilov görəndə uşaqlıq illərim yadıma düşür. Bir vaxt mən də pioner qalstuku bağlayardım. "Timur və onun komandası"nı oxumaqdan gözlərimin kökü saralmışdı. Kameradakılarla mərcə getmişəm ki, sən də Timur kimi cəsursan, qorxmazsan. İnanıram ki, haqsız və ədalətsiz tutulub dəmir barmaqlıqlar arxasına atılmış sovet vətəndaşına pioner yardımını əsirgəməzsən..." Adres də yazmışdı ki, gedib Mərdəkanda yaşayan qərdeşinə məktub çatdırım.

Mən cınqırımı çıxartmadan qonşumun söhbətinə qulaq asırdım. Şıxəlinin maraqlı söhbəti mənim, elə onun özünün də başını qatmışdı, bizə hər şeyi unutdurmuşdu.

- Nə isə, qədeş, məktubu oxuyanda gözlərim doldu, - Şıxəli söhbətinə davam elədi. - Üzünü görmədiyim o haqsız tutulmuş adamın halına ağlamağım gəldi. Bilirsən də, uşaq qəlbi kövrək olur. Nə başıvı ağrıdım, səhəri gün dərsdən çıxıb əkildim Sabunçu vağzalına. Elektriçkaya minib, getdim düz Mərdəkana. Güc-bəla ilə adresi tapdım. Qədeş, kaş oleydin yanımda, qərdeşivi necə qarşıladıqlarını gözünlə göreydin - kosmonavtı qarşılıyıllar a, bax elənçiginə... Alayı aləm idi, fısqırıq. Qohum-əqraba yığıldı başıma, məni qucaqlıyıb öpür, cibimə pul basırdılar. Mən də sıxılırdım, deyirdim nə böyük iş görmüşəm, pioner borcumu yerinə yetirmişəm, məktəbdə bizi belənçiyinə öyrədiblər... Nə isə, lələşivi necə lazımdı yola saldılar. Türmədəki o dustağın qərdeşi kiçik bir bağlama verdi, dedi, Şıxəli, bu soyuqdəymə dərmanıdı, balığa gedəndə atarsan barının o üzünə, amma elə elə ki, görən olmasın... Alə, mən də kak "çestnıy" pioner, nə demişdilər, elədim, bağlamanı atdım o taya. Uşaqdım də, ağlım kəsmirdi. Bir kərəm də o üzdən mənə pul atdılar, yazmışdılar ki, aptekdən spirt alarsan, rezin qrelkaya töküb tulluyarsan bizə, boğazı ağrıyan var. Pulun da artığını xərclərsən özünçün. Bir neçə kərəm belənçik haqq-hesablar oldu. Aradan çox keçmişdi. Bir kərəm dərsdən təzə gəlmişdim, Nəzifə nənə də evdə yox idi. Gördüm qapı döyüldü. Açdım. Bir kişiydi, yanağında çapıq. Soruşdu, Şıxəli, tanımadın? Başımı buladım. Dedi, türmədən sənə pul atan mən idim, gəldim sənə "sağ ol" deyim. Kişi kişinin yaxşılığını itirməz... Mənə əntiqə hədiyyə də bağışladı: təsbeh, bir də knopkalı bıçaq idi, türmədə özü düzəltmişdi. Dedi pioner qalstukuvu bağla, çıxaq şəhərə. Nə isə, mindik taksiyə, getdik. Alə, baxıram şəhərin gəzməli yerləri qalıb, bu yetim Naxalstroy, Zibillidərə gəzir. Fikirləşdim, bu xarabalıqdan nə ləzzət alır axı, gəzməyə yer qəhətdi? Nə başıvı ağrıdım, gəldik Papanin küçəsinə. Dəmir darvazalı bir həyətə girdi, mən də taksidə gözlüyürəm. Çıxanda əlində kiçik bir bükülü vardı. Dedi, pioner, bunu qoy cibivə, arxayınçılıq olsun. Bir-iki adresə də getdik. Fikirləşdim, türmədən təzə çıxıb, qohum-əqrabalarını görmək istiyir. Sonra taksini sürdürdü paroma. Orda başı araçqınlı bir özbəklə nəsə xosunlaşdı, alış-veriş elədi. Domsovetin yanında taksini buraxdı. Meydandan dənizkanarı bulvara tərəf keçəndə, baxdım ki, kişinin rəngi qaçdı, oldu kağız təki. Milisləri görmüşdü. Alə, mən nə bilim, bu yekəlikdə kişi paqonnulardan qorxar. Milislər yaxınlaşanda, bu yetim mənə qeyidəsən, Şıxəli, oğlum, bu gördüyün heykəl dünya proletariatının rəhbəri Lenin babanın heykəlidi, Leninin işi uğrunda mübarizəyə hazır ol!.. Nəyi bilməsəm də, belənçik şeyləri yaxçı bilirdim, məktəbdə öyrətmişdilər. Əlimi alnıma aparıb pioner salamı verdim, "həmişə hazıram!" - dedim. Milislər heç nə soruşmadılar, razılıqla başlarını tərpədib uzaqlaşdılar. Yetim yarım saata güclə özünə gəldi. Nədən qorxurdu, bilmədim. Sonradan başa düşdüm, daha doğrusu, dostum Balaəmidən öyrəndim. Baləmi dedi, sən bilməmisən, o kişi nəşə satırmış, səni straxovka üçün götürürmüş. Kimin ağlına gələr ki, pionerin cibində elənçik şey-şüy ola bilər. Kişi iki-üç kərəm də gəldi.

Sonra yoxa çıxdı, elə bil heç belə adam olmuyub. Əlbət, təzədən ilişmişdi. Amma yaxçı yazmışdı - "Haqsız və ədalətsiz tutulmuş vətəndaş..." Nə bilim, yaxşısını Allah bilir...

Başını atıb yatmış Mirtağını süzüb, Şıxəli mənalı-mənalı gülümsədi. Elə bildim silkələyib onu oyadacaq, zarafata salıb deyəcək ayıl, stansiyaya çatmışıq. Ancaq satıcını oyatmağa əli gəlmədi, özü kranı açdı, boş krujkanı pivə şırnağının altına tutub doldurdu. Bu dəfə birnəfəsə yox, arxayınca, aramla içdi. Söhbətindən də qalmadı:

- Bu Mirtağıynan məktəbdə dramkrujoka getmişik. Aktyor olmaq istiyirdik. Məllim deyirdi, Mirini bilmirəm, amma, Şıxəli, sənnən artist çıxar, özü də necə lazımdı. Dərsdən çıxanda hərdən qaçırdım muzkomediyaya, deyirdim miyanə bir uşaq rolu verəllər, oynuyaram özümçün. Sonra da bala-bala məşhurlaşaram. Amma məni yaxına qoymurdular, deyirdilər, alə, qaranoy, get dərsivi oxuginən... Mənə elə söz demək olardı? Salırdım tərsliyimə, qapıdan qovurdular, pəncərədən girirdim. Beş-on gün dekorasiya quranların yanında hərləndim. Baxdım, artistlər yavaş-yavaş mənə isinişir. Bir kərəm rəhmətlik Lütfəli Abdullayev dedi, bu uşaqda ki, belə həvəs var, ürəyini qırmaq insafdan deyil, yaman "nastırnıdı"... Yadımda deyil nə komediyasıydı: rejissor dedi, Şıxəli, əsərdə uşaq rolu yoxdu, amma sənincün bir şey fikirləşmişik. Mən işarə verəndə, ağlıya-ağlıya səhnənin bu başınnan girib, o biri başınnan çıxarsan, vəssalam. Ayın axırında gəlib kassadan qanorarını - üç manatını alarsan. O saat beynimdə hesabladım, otuz marojna eliyirdi. Min bərəkət. Nəsə, komediya başladı. Anşlaq idi, boş yer yox idi. Student, sən səhnədən, pərdənin arxasından zala baxmamısan?

- Yox, - dedim.

- Alayı söbətdi, adam elə hisslər keçirir, sözlə demək çətindi, gərək özün görəsən. Gözümü rejissordan çəkmirdim, işarəsini gözlüyürdüm. O da hərdən him-cim eliyirdi ki, tələsmə. Nəsə, bir də gördüm məni itələdilər ki, haydı, çıx səhnəyə. Özümü itirdim, bilmədim neyniyim, key kimi baxırdım. Yadıma sala bilmirdim, səhnədən ağlaya-ağlaya keçməliyəm, yoxsa gülə-gülə. Fikirləşdim ki, ağlamaq bəgəm yetim Şıxəlinin boyuna biçilib? Həyatda da ağla, səhnədə də. Tem bolee, bura muzkomediyadı. Paradda necə gedirlər, elə keçdim - gülə-gülə, tamaşaçılara əl yelliyə-yelliyə. Bir də onu gördüm, aləm qarışdı, pərdəni saldılar. Bildim ki, başımnan böyük qələt eləmişəm, asta qaçan namərddi, aradan çıxdım... İlk rolum "udaçnı" alınmasa da, amma sənə deyim, artistlik xəyalı başımnan çıxmırdı. Sözüm böyük çıxmasın, sənə deyim, artistlik həvəsi qərdeşində indi də var. Elə bilirəm nə vaxtsa öz böyük rolumu oynuyacam... Həə, belə-belə işlər, qırılsın keşişlər...

* * *

"Cənnət" deyilən pivəxanadan nə vaxt çıxdığımızı yadıma sala bilmirdim. Bir onu bilirdim ki, günəş bir boy qalxıb, hava isinib. Gəldiyimiz yolla qayıdırdıq, bu dəfə bələdçilik mənim boynuma düşmüşdü, irəlidə gedirdim. Mənim ardımca Şıxəli ayaqlarını sürüyürdü, onun dalınca isə əfəl, qara it gəlirdi. Köpəyin bu etibarından duyğulandım, gözlərim doldu. İt olmasa belə, gözlərim yenə dolacaqdı. Niyə? Bilmirdim. Bir onu bilirdim ki, ağlayıb ürəyimi boşaltmaq istəyirdim. Ancaq ağlamağa səbəb yox idi. Dalımızca düşmüş itdə də o təpər yox idi ki, hürsün, üstümə cumsun, mən də deyim, qorxudan ağlayıram... Yerimiz-yurdumuz yadıma düşmüşdü: Ağoğlan dağı, Hasanlı meşəsi, Məmmədbəy kəhrizi gözlərimindən çəkilmirdi. "Şəl üzümünün yaxşı vaxtıdı, qoz da çırpılar, yəqin" - fikirləşirdim. Qəhər məni boğurdu, elə bil o doğma yerlərdən ayrıldığım cəmi bircə ay yox, düz bir ildir...

İtin qəfil hafıltısı məni fikirdən ayırsa da, ayağımı saxlamadım. Dəmir buruqların arasında it səsi də qəribə çıxırdı, soyuq, cingiltili. Səs dəmir meşəlikdə dəyişir, parçalanıb qırıq-qırıq olurdu. Sanki bu, it hürməyi deyildi, nəsə naməlum bir heyvanın səsiydi, adamı üşüdürdü.

Yerişimə haram qatdım, üzücü mənzərəni görmək istəmirdim. İstəyirdim bu üfunətli, qırlı-mazutlu məkandan - cansız, ölgün dəmirlər səltənətindən tezcənə yaxa qurtarım. Getdiyi yolu geri qayıtmaq adamdan ötrü lap müşkülmüş: yol həmin yol deyildi, - elə bil, dartılıb uzanmışdı. Əslində, burada yol da yox idi, saysız-hesabsız cığırlar vardı, özü də narın torpaqdakı soxulcan izləri təki qarmaqarışıq idi. Ancaq bu cığırlar dinozavrlar boyda nəhəng soxulcanların iziydi elə bil, bütün mədəni sarımışdı. Torpağı cırmaq-cırmaq eləmiş traktor tırtıllarının rəddi də gözə dəyirdi. Cığırların, izlərin baş-ayağı görünmürdü, cin düyünüydü. Mazut gölməçələri də artıb çoxalmış, böyümüşdü sanki, adamın gözləri alacalanırdı. Nə yaxşı, dəniz vardı - ağ köpüklü, mavi sulu Dəniz. Özü də lap yaxındaydı. Dəniz səssiz-ünsüz və lal idi. O qədər səssiz-ünsüz idi ki, onun da dəli-dolu çağları olduğuna, hərdən tərs damarı tutduğuna inana bilmirsən. Elə bilirsən Dənizin özü boyda da təmkini, dəniz boyda səbr kasası var.

Yolu qarasına gedirdim. Dənizin mavi gözlərini, lal baxışlarını kürəyimdə hiss edirdim. Dönüb dala baxmırdım, baxmırdım ki, birdən dənizi də qapqara - qırla, mazutla dolu görərəm. Ürəyimdə dəniz boyda məhəbbət, dəniz boyda həsrət, mən Dənizdən qaçırdım...

Köpəyin hafıltısına fikirdən ayıldım. Bu hafıltı bambaşqaydı. Ayaq saxlayıb geri döndüm. Şıxəli xeyli dalda qalmışdı. Əlini havada yelləyib məni səsləyirdi. Ona sarı getdim. Mən gəldiyim yolu qayıdırdım, ayaqlarımın hərəsi bir pud ağırlığındaydı.

Qonşum qatran çalasının ortasında müqəvva təki hərəkətsiz qalmışdı. Müvazinətini saxlasın deyə əlindəki ağaca dayaqlanmışdı.

- Tələbə, belə qonşuluq olmaz ki, - gileyləndi, - bayaqdan fit çalıram, məni vecivə də almırsan, baş alıb gedirsən. Demirsən, qonşum harda ilişib qalıb? Bu yetim köpək məni tanıyıb-eləmir, amma gördü zibilə düşmüşəm, şöngüyüb oturdu yanımda. Sənsə... Mən səni alayı cayıl bilirdim, mən ölüm.

Mən günahkarcasına mızıldandım, dilim ağzımda güclə dönürdü.

- Şıxəli, fikirliydim, - deyib susdum. Başqa nə deməliydim ki?..

- Köpey hürməseydi, çıxıb gedeceydin dərsə. "Vışka" qəzetində Akademiyanın nekroloqunu oxuyanda yadıva düşəcəkdim. Tələbə dostlarıva deyəcəkdin ki, rəhmətliklə tezdən pivə içmişəm, indi o dünyadadı... Yaxçı, vaxt ötür, o məftili uzat mənə. Hər şey qurban olduğum Allahın əlindədi: məsləhətsə, dartıb məni çıxardaceysən, məsləhət deyilsə...

Qəhər onu boğduğundan, sözünün dalını gətirə bilmədi. Mən qıra bulaşmış məftili Şıxəliyə uzatdım. Bu adi məftil parçası, neft mədənlərində, əlbət, çoxlarının dadına çatıb, çoxlarını ölümdən qurtarıb. İki dəqiqə sonra məlum oldu ki, məftil işə yarayan deyil. Şıxəlini elə bil ayaqlarından qatran layına mıxlamışdılar, qaldırıcı kran da gəlsə, onu yerindən qopara bilməzdi. Belə yerdə güc özü gücsüzdü, ona görə də baş işlətmək gərək idi. Ola bilməz ki, bunun elmi həlli, yolu olmasın. Elm elə bir açardır, düşmədiyi, açmadığı qapı yoxdur. Ancaq orta məktəbdə həvəslə oxuyub öyrəndiyim humanitar fənlər belə yerdə kara gələn deyildi. Durub şeir oxumayacaqdım ki... Məktəbdə dəqiq elmlərə barmaqarası baxdığıma görə, gec də olsa, özümü qınadım. Yaddaşımın büküyündə ilişib qalan bilgiləri yadıma salmağa çalışdım. Sərxoş beynim xəsislik edir, oxuduqlarımı güc-bəlayla özümə qaytarırdı. Əlbəttə, Paskal qanununun Şıxəlinin düşdüyü bu vəziyyətə aidiyyatı ola bilməzdi, çünki bu fiziki qanun təzyiqin bütün istiqamətlərdə bərabər paylanmasını bildirir. Bəlkə, Arximed qanunu uyğun olardı: mayeyə batmış cismin həcmi onun sıxışdırıb çıxardığı mayenin həcminə bərabərdir. Evrika! Özüdür ki, var: əgər Şıxəlini cism qəbul eləsək, tam batandan sonra onun sıxışdırıb çıxaracağı qırın həcmi cismin həcminə bərabər olacaq... Sevincim çox sürmədi. Durduğum yerdəcə məni soyuq tər bürüdü. Arximedin bu fiziki qanunu cismi mayeyə batırır, çıxartmır. Ayaqlarım heydən düşmüşdü, az qala dizlərim büküləcəkdi. Xəstəsindən əlini üzmüş həkim kimi ümidsiz-ümidsiz köks ötürdüm. Köpək üzümə baxdı. İt hissiyyatlı heyvandır, elə bil vəziyyətin çıxılmaz olduğunu məndən də yaxşı bilirdi. Yazıq-yazıq zingildədi, guya qıra batan Şıxəli yox, o, özü idi. Bir yerdə ki, şüurlu, ağlı başında insan gücsüzdür, Allahın heyvanı orada nə edə bilərdi? Heç nə...

Gözlərim dolmuşdu, qəhər məni boğurdu. Qonşum bunu görməsin deyə, üzümü döndərdim. Ancaq, deyəsən, onun özü də işin zarafatdan adladığını, xilas yolu qalmadığını dərk eləmişdi. Cibindən siqaret çıxartdı, ancaq nə fikirləşdisə, alışdırmadı, ovcunda ovxalayıb tulladı. Bircə qığılcımdan çala od tutub alovlanardı. Bir var yavaş-yavaş batıb gedəsən, bir də var diri-diri alovda yanasan. Mənə elə gəlir, ağlı başında olan ikinci yolu seçməzdi. Nə qədər sərxoş olsa da, Şıxəli doğru yol tutmuşdu.

- Student, deyirəm, dünyanın işinə bax, - Şıxəli fikirli halda dilləndi. - Yaxşı deyiblər, kimin əvvəli, kimin axırı. Əlbət, mənim də alnıma yazılan buymuş...

Özünü tutmağa çalışsa da, danışanda səsi titrəyirdi. Onun dedikləri məni dəhşətə gətirdi, ümidimi hər yerdən qırdı. Vücudumdan soyuq bir gizilti keçdi, titrədim. Elə bil buz mağarasındaydım, titrətmə canımı almışdı.

- Kəlməşəadətimi də bilmirəm ki, oxuyum, - dedi. - Hardan bilim, evdə bişmiyib, damnan düşmüyüb...

Mən ağzıma su alıbmış kimi səsimi udub qonşuma baxırdım. Hərdən onu görmürdüm, gözlərimin qabağından yoxa çıxırdı, bir müddət sonra yenidən peyda olurdu, sanki mənimlə gizlənpaç oynayırdı. Əslində isə, qonşum heç yerə qeyb olmurdu, içkinin təsirindən mənim gözlərim axırdı və huşa getdiyimdən onu nəzərdən itirirdim.

- Elə bilmə, Şıxəli ağciyərdi, ölümnən qorxur, - təşərlənməkdən qalmadı. - Yox, Ətağa cəddi. Onsuz da bir gün yaranan, bir gün gedəcək bu dünyadan, alayı yolu yoxdu. Qorxduğum bilirsən nədi? Deyəcəklər, Şanxaylı Şıxəli qırda batıb. Özümə görə, vesim, hörmət-izzətim var. Dənizdə batsaydım, vecimə da almazdım. Əlbət, mənim də qismətim buymuş... Hökumət adamlarının ağzına çullu dovşan sığışmır, neftə, qıra-mazuta "qara qızıl" deyirlər. Sən elə bilirsən, sabah qəzetlər yazacaq Akademiyanın işçisi Şıxəli qara qızılda batıb? Söbəti yoxdu. Yazacaqlar, içib piyan olub, şestoy mədəndə qır "otxoduynan" dolu çuxurda gəbərib, gedib işinin dalısıyca... Soruşasan, qədeş, sizə gələndə, qır-mazut qara qızıl olur, Şıxəliyə gələndə, "otxod"?.. Mən ölüm, belançiyinə haqsız dünyada yaşamaqdansa, elə ölmək yaxçıdı. Yaxçı ki, pivnoyda bir dənə “Kazbek” doldurub çəkdim.

- O nədi ki, Şıxəli?

- Sən elənçik şeyləri bilməzsən. Bilməsən yaxçıdı, yoxsa qurşanarsan “Kazbek”ə, beynin dumanlanar, oxumaq-yazmaq yaddan çıxar. Bu saat mənnən ötrü çöl də bayır kimidi, Ətağa.

Fikir vermirsən, bəgəm? Elə bil o dünyaya yox, Passaj bazarına Hövsan soğanı almağa gedirəm. Dünya vecimə deyil. Buruqların arasınnan nemes tankı çıxsın, kişi deyiləm, özümü altına atıb onu partlatmasam. Aleksandr Matrosovdan əskik oğlanam, bəgəm?

-Yox! - dedim.

- Məni qınama, deyirəm, yəqin, o da Kazbek çəkib nəşələnibmiş, yoxsa, ürək eləyib özünü nemes pulemyotunun ağzına atmazdı, can şirindi. Bir qullab vurannan sonra olursan əcdaha... Bilirsən Kazbekə nə doldururlar?

- Tənbəki, - cavab verdim.

- Elənçik bilməyin yaxçıdı, - Şıxəli dedi. Sonra əlavə elədi: - Qədeş, tənbəkini tabaçnı fabrikdə doldururlar. Şanxayda isə onu boşaldıb içinə alayı şey yığırlar. Sən deyən, elənçik bazı deyiləm, hərdən, düşəndə dilxoşluq üçün bir-iki qullab vururam özümçün. Alə, bu həyat ayağısürüşkən arvad kimiymiş, ona etibar yoxdu, mən ölüm. Bir adama pisliyin keçməsin, mərdimazarlıq eləmiyəsən, axırın da belənçik olsun. Allaha qurban olum, özü bilən məsləhətdi.

Hönkürüb ağlamaqdan özümü güclə saxlayırdım. Başımıza nə iş gəldiyini dumanlı da olsa dərk eləyirdim. Hərdən isə heç nə dərk eləmirdim, beynim tormozlanır, işləmək istəmirdi. Orta məktəbdəki anatomiya kabinetində insan beyninin gipsdən düzəldilmiş fiquru vardı. Bir-birinə bitişik iki yarımkürədən ibarət idi, üstünü qırış basmışdı. Nədənsə o fiquru görəndə qəribə hisslər keçirirdim. Mənə elə gəlirdi, insan yorulanda, bərkə düşəndə beyninin qırışları daha da çoxalır. Şıxəlini deyə bilmərəm, bu halda mənim beynimin qırışları bəlkə olduğundan on dəfə çox artmışdı. Bu, yaxşıydı, ya pis, bilmirdim, onu bilirdim ki, başım öz başım deyildi.

- Şıxəli, it qalsın yanında, mən gedim, köməyə adam çağırım, - birtəhər sərxoş beynimi işə saldım. Ancaq təklifim qonşumun ağlına batmadı.

- Faydası yoxdu, - dilini sürüdü, - olan olub, keçən keçib. O qədər yolu gedəsi, adam tapası-tapmayası, çox çəkər. Qeyidib göreceysən Şıxəlinin izi-tozu da yoxdu. Bir də, qədeş, sən buralara nabələdsən, uzağa gedə bilməzsən, çuxura düşüb batarsan. Heç olmasa birimiz sağ qalaq... Yanımda ol, sənə deyiləsi sözüm var, qoy ürəyimdə qalmasın. Deyirsən, gedim, köməyə adam çağırım. Səhər-səhər bu mədənlərdə kimin nə iti azıb? Neftçilərin qrafikini bilirəm, iki saatdan sonra burdan alabaş avtobus keçəcək. Tak çto, ip ucu olseydi, sənə məsləhət verərdim. Can mənimdi, qırda batan mənəm, düz deyil, qədeş?

- Hə, - dedim. Amma yox, qonşumun bu halı məni onun özündən az yandırmırdı. "Axı o niyə qırda batmalıdı?" sualını ürəyimdə təkrarlayırdım. Bu sözləri dilimə gətirmirdim. Gətirsəm, nə olasıdı, kim eşidəcəkdi? Eşitsə, yalnız Şıxəli eşidərdi. Onun eşitməyindən nə fayda, biçarənin özü bu suala cavab axtarırdı.

Şıxəlinin dediyinə görə, neft mədənləri çox qurban udub. Şanxayda bir cuhud yaşıyırmış, iti hardasa buralarda qıra düşübmüş. Yiyəsi gedib köməyə adam çağırsın, qayıdanda görüb it də gedib, ip də. "İt batan yerdə insan onnan da tez batar" - fikri məni lap üşəndirdi. Məndən fərqli olaraq, qonşumun davranışında qəribə bir soyuqqanlıq vardı, elə bil düşdüyü vəziyyəti hələ də dərk eləmirdi.

- Qədeş, rus demiş, ya ne pervıy i ne posledniy... Qırda-mazutda keçmişdə də batan olub, indi də var, sabah da olacaq. Alə, bu çuxurlar da bu dünyanın qır qazanlarıdı də, günahı olanları qurban olduğum Allah hərləyib-fırlayıb cəzasını verir. Məni də belə cəzalandırır. Yəqin, nəsə günah işlətmişəm, xəbərim yoxdu. İnsan belə vücuddu - özünün pis əməlini görmür... Beş-altı ilin söbətidi. Burdakı mazut çuxurlarından birində kişi meyiti tapmışdılar, yetim yetmiş il bundan əvvəl batıbmış. Cibinnən Nikolay yüzlükləri çıxmışdı, maaş alıbmış. Zalım balası qırın içində elə qalmışdı, deyirdin indi durub yeriyəcək. Əlbət, o da günah sahibiymiş...

Şıxəli yetmiş il əvvəl qırda batan fəhləylə özü arasında hardasa tale oxşarlığı görürdü. Ancaq dediyinə görə, o fəhlə milliyətcə rus olub, ekspertiza göstərib ki, içkiliymiş.

- İçki məsələsində ruslara çatan olmaz. Bizim adımız çıxıb. Götür məni - hamı elə bilir Şıxəli Allahın verən günü araq-çaxır vurur. Yəqin, sən də elə fikirləşirsən?

Mən susdum, nə deyib, nə danışacağımı bilmirdim.

- Dedin, ya demədin, bilirəm ki, sən də o fikirdəsən. Belə baxırsan ki, Şıxəli hər gün dəmdi. Student, istiyirsən inan, istiyirsən yox, elə olub həftələrlə dilimə içki dəymiyib. Nə gizlədim, əlim aşağı olub. Mən də neyləyim, özümü vururam kefliliyə, guya dəməm. İstəmirəm məhlə cayılları desinnər ki, Şıxəlinin cibində siçanlar oynaşır. Xəcaləti bəsdi mənə. Hərənin bir cür xasiyyəti var. Mən içmiyəndə, sıxılıram, dilim bağlanır. Soruşan gərək, yekə kişisən, nöş utanırsan, kimin yanında gözü kölgəlisən?.. Sən məhlədə təzəsən, gəldiyin nə qədər olar?

- Bu gün düz bir aydı.

- Bu bir ayda görmüsən ki, Şıxəli həyətə girəndə oxumasın?

- Yox.

- Görə də bilməzsən. Baxan deyir dünya-aləm Şıxəlinin vecinə deyil. Alə, bəgəm mən yetimin dərdi-azarı yoxdu, yoxsa insan deyiləm? O var ki, mən içimdə çəkirəm. Bu dünyada gərək özüvü arsızlığa vurasan. Mən də ki, bacarmıram, özümü artistliyə vururam. Arsızlıqdansa artistlik yaxçıdı.

Qonşumun dediyindən belə çıxırdı: hamı kimi, onun da içdiyi günlər də olur, içmədiyi günlər də. Fərqi ondadır ki, içməyəndə də kefli görünmək istəyir, artistlik eləyir. Deyir, Şıxəlinin dərd-sərinin kimə nə dəxli var? Hər kəs öz hayındadı... Sadə, sadə olduğu qədər də maraqlı-müəmmalı olan bu adam elə bir dövranda yaşamaq istəyirdi ki, orada hamı olduğu, göründüyü kimidir və Şıxəli kimisinin də özünü artistliyə vurmağına gərək yoxdur. O, həyatı, özü demiş, alayı cür görmək, alayı cür yaşamaq istəyirdi.

Heyrətdən az qaldı dilim tutulsun - bu batabatda qonşum öz sevimli mahnısını oxuyurdu: "Tapançanı almışam ki, atmağa..." Ancaq mahnını yarımçıq saxladı, yenə ardını gətirmədi. Məni maraq boğurdu: görəsən, o nə sözdü ki, bu nanıq, şüyüm adam onu dilinə gətirmir? Əgər səbəbini indi öyrənməsəm, bu məndən ötrü ömürlük sirr olaraq qalacaq. Ürəyimdən keçənləri oxuyurmuş kimi, qonşum dilləndi:

- Qədeş, bilginən, mən böyük-kiçik yerini gözləyən cayılam. Biz, şəhər camaatı, cəddi-babadan belənçik olmuşuq. Bağışla ki, mahnını axıra kimi oxumuram. Amma sənə deyim, nə hikmət var, elə axırdadı. İkicə kəlmədi, di gəl ki, bir poemacan mənası var. İşdi-şayətdi maraqlansan, bir kərəm yoluvu Kömürçü bazarına salarsan. Baləmini soruşarsan - Sedmoy paralelniynən Poluxinin tinində morojna satır. Deyərsən, rəhmətlik Şıxəlinin dostuyam, o, mahnını oxuyar sənincün.

Vaxtın daraldığını hiss etdiyindən qonşum söhbətinə ara vermirdi: birini tamamlamadan o birinə keçirdi. Mənsə heç nəyin fərqində deyildim, sakitcə onu dinləyirdim. Artıq heç bir çıxış yolu qalmadığını bilirdim, o üzdən də qonşumun dediyini təkcə maraq naminə yox, bir vəsiyyət kimi qəbul edir, ürəyimdən keçirirdim ki, bacardığım qədər onun vəsiyyətlərini yerinə yetirim.

İt zingildədi, şöngüdüyü yerdən qalxdı, pərə qulaqlarını dikəldib şəkləndi, nəsə hənir almışdı. Uzaqdan motor səsi gəlirdi. Boylandım, heç nə görünmürdü. Yaxındakı buruğa qalxdım ki, bəlkə bir şey seçə bildim. Paslu-puslu dəmir pillələri qalxmaq ağaca dırmaşmaqdan çətin gəlirdi mənə. Yuxarı çıxdıqca gözlərim qarşısındakı mənzərə dəyişirdi. Dəniz lal baxışıyla mənə, mən də dənizə baxırdım. Sahil boyu batmış gəmilərin dor ağacları, tüstü boruları dikəlirdi. Bəzilərinin paslı gövdəsi də sudan bayırdaydı. Ora gəmi qəbiristanlığıydı. Dikələn tüstü boruları, dor ağacları isə sulardan boylanan başdaşlarıydı sanki...

Hardasa lap uzaqlarda qazma baltasının səsi gəlirdi. Bir traktor tozanaq qaldıra-qaldıra arxasına bağlanmış dəmir boruları dartıb aparırdı.

Əlimi ağzıma tutub var gücümlə hayladım: "Mərdan hey! Mərdan!!" Səsim uzağa getmədi, elə bil şüşə təki qırılıb buruğun dibinə səpələndi. Bir də çağırmaq istədim, amma bu dəfə səsim o qədər zəif və cırıltılı çıxdı ki, özüm güclə eşitdim. Gümanım vardı ki, kənddəki qonşumuz Mərdan buruq qazanların arasındadır. Neçə vaxtdı şəhərə gəlib, neft mədənlərində işləyir. Çoxları kimi Mərdanı da bu yerlərə dartıb gətirən neftçi həyatının romantikasıydı. O vədə nələr danışmırdı? Deyirdi, tezliklə qəzetlərdə şəklimi görəcəksiniz - qabaqçıl qazmaçı Mərdan Mustafayev. Əzəl başdan öyünüb onu da deyirdi ki, radioda "Neftçi Mərdan" mahnısı eşitsəniz, təəccüblənməyin... Mərdanın şəhərə gəldiyi vaxtdan illər keçmişdi, ancaq onun şəninə hələ ki mahnı qoşmamışdılar və radioda tez-tez səslənən yenə də məşhur "Neftçi Qurban" mahnısı idi...

Buruqdan enəndə it qabağıma qaçdı, quyruğunu bulayıb zingildədi. Üzümdəki ümidsiz ifadəni duyduğundanmı, yoxsa nədənsə tez də səsini uddu, büzüşdü.

- Tələbə, buruğa nöş dırmaşırsan? - Şıxəli başını qaldırdı. - Bu, sənə alça, gilas ağacıdı bəgəm? Yıxılıb eliyərsən, bu da bir dərd olar.

- Buruğa çıxdım ki, bəlkə bir adam görərəm, köməyə gələr. Kəndçimiz Mərdan da hardasa buralarda işləyir.

- Hərii? O da "qara qızıl" çıxardır?.. Ada bax - Mərdan... Mustafa Mərdanov eşitmişəm, "Əhməd hardadı" kinosunda Leylanın atasıdı. O artistin adı Mərdan olsaydı, gülməli çıxardı - Mərdan Mustafayev. Düz demirəm, qədeş?

Şıxəli öz dediyinə özü güldü. "Bu nə qəribə adamdı, bir ayağı gordadı, dünya-aləmi vecinə almır" - heyrətləndim. "Qoy gülsün, yüngülləşsin, axır gülüşüdü", - özlüyümdə ona haqq qazandırdım. Bəlkə də Şıxəli elə bunu dərk elədiyindən gülürdü, gülürdü ki, ürəyini boşaltsın. Ya da, sadəcə olaraq, o dünyaya şən, özü demiş, "vesyolı" getmək istəyirdi.

Gülməyinə ara verib, əlinin arxasıyla yaşarmış gözlərini sildi.

- Bespoleznidi, mən ölüm, - donquldandı, - səhər-səhər burda Mərdanın nə iti azıb?

Nəsə xatırlamağa çalışdı, yarımçıq qalmış bayaqkı söhbətinə qayıtdı:

- Qonşu, sənnən nə gizlədim, mənim elə oxuduğuma baxmaginən, tapançanın patronlarını çoxdan satmışam, - vacib bir sirr açırmış kimi səsini qısdı. Əslində bu, gizli qalası sirr idi, qardaş qardaşa açmazdı. - Alayı yolum yox idi, - dedi, - nöş gedib kiməsə əl açmalıydım? Mən heç zaman kasıbçılıqdan utanmamışam. Nöş utanmalıyam? Hamı varlı olmaz ki... Çətin günlərim çox olub. Tapança söbətini bunnan belə gizlətməyin nə adı var? Uçastkovı Muradov dalımca o dünyaya gəlmiyəcək ki... Onun o dünyada nə işi var? Milislərin işi, haqq-hesabı ölülərnən yox, dirilərnəndi; cibişdana üç manat qoy, bu dünyada kimi deyirsən, qulaqlayıb salsınnar Bayıl türməsinə. Sənə dediyim dostum Baləmi var ey, yetimin cibinə nəşə atıb heç nədən ilişdirmişdilər. Kalan pul basıb canını qurtardı... Qədeş, sən şəhərə nabələdsən, nə yatmısan, nə də yuxu görəsən. Belə baxırsan, bu şəhər dediyin, gennən yekə bir qazana oxşuyur. Düzdü, düz deyil?

Şıxəlinin bu dəfəki sualı lap qəliz idi. Ha çalışdım ki, şəhəri xəyalımda iri qazan şəklində canlandırım, ancaq bacarmadım. Şəhərə nə don deyirsən, geydirmək olar, bircə qazandan savayı. Qonşumun bu müəmmalı bənzətməsi marağımı yerindən oynatmışdı. Odur ki, onu fikrindən yayındırmaq istəməyib cavab vermədim, kirimişcə durdum. Deyəsən, Şıxəli məndən heç cavab da gözləmirdi, sözünün dalını gətirdi:

- Amma bu qazanın içinə baxanda, görürsən çömçəsi yuyulmuyub. Qazanı da qarışdıran nədi, qədeş?

- Çömçə! - bu dəfə fikirləşmədən, tez cavab verdim. Cavab verdim deyəndə, qışqırdım. Səsim bütün mədəni başına götürdü. hətta elə bil buruqların, mancanaqların arasıyla yayılıb hardasa uzaqlarda əks-səda verdi: "Çömçə! Çömçəə!.." İmtahandan müvəffəq qiymət almış tələbə kimi sevinirdim. Şıxəli cavabımdın razı qalmışdı. Məni tərifləndi:

- Molodes, student! Tem bolee yuyulmamış bulaşıq çömçə, - dedi. - Nə fərqi varmış, bilmirəm? Qazan nə qədər təmiz olur-olsun, çömçə ki, yuyulmadı, heç nə, apar qeytər... Bu qazanın nələr qaynatdığını yaşıyıb özün göreceysən. Onda lələşivi yadıva salıb deyəceysən, Allah sənə rəhmət eləsin, Şıxəli... Bəs necə? Görə-görə gəlmişik, dünənki uşaq deyilik. Uşaq dedim, yadıma düşdü. Yeri gəlmişkən, sənə bir sirrimi də açım, özümlə gora aparmıyacam ki... İndiyəcən heç kim - dostum Baləmi da bilmir ki, mən detdom uşağıyam. Beşinci sinifdə oxuyanda Nəzifə adlı yaşlı arvad məni övladlığa götürdü. O vaxtdan Şanxayda yaşayıram, o balaca mənzil də Nəzifə nənədən qalıb. Allah qəni-qəni rəhmət eləsin, adı kimi də təmiz ürəyi vardı. Hər bayramda gül alıb qəbrini ziyarət eliyirəm... Hə, dünya elələrindən də xali deyil... Məni Şanxay adam elədi, yoxsa kim bilir axırım necə olacaqdı? Detdomda böyüyənlərin fərlisi az olur... Nəslim-nəcabətim hardandı, məni dünyaya kim gətirib xəbərim yoxdu. Bilmirəm Biləcərliyəm, ya Kəlbəcərli?.. Yaxçısını Allah bilir. Mənə deyirlər, Şıxəli, sənin ürəyin təmizdi. Deyirəm, əlbət, qanımda rayonlu qarışığı var, rayonnular çestni olullar axı. Bir şeyi başa düşmürəm - Şıxəli kimi cayılı da detdoma verəllər? Qədeş, heç nə istəmirəm; imkan olaydı, tapaydım ata-anamı, soruşaydım, nöş belançik eləmisiz, alə?.. Sən bilən, nə cavab verəllər, student?

Mən çiyinlərimi dartdım, nə deyə bilərdim? Şıxəli doluxsunmuşdu. Görürdüm ki, özünü güclə saxlayır. Kaş ki, ağlasaydı... Dar ayaqda insanın içindəki ağırlıq göz yaşıyla çıxır. Mən Şıxəlinin üzünü görmədiyi naməlum valideynlərinin ona nə cavab verəcəyini haradan bilərdim? Ancaq onun könlünü qırmaq da istəmirdim. Özümdən uydurdum:

- Əlbət, deyərlər, bağışla bizi, Şıxəli, - öz uydurmamdan utandım, üzüm pörtdü.

- Doğrudan, student? - dili topuq vura-vura o, soruşdu. - Yəni "bağışla" deyərlər, qədeş?

- Sən necə, onları bağışlardın, Şıxəli? - suala sualla cavab verdim.

Susdu. Nəsə fikrə getdi. Sualıma pəsdən zümzümə elədiyi şərqiylə cavab verdi:

Ax, zaçem ya na svet poyavilsa,

Ax, zaçem menya mat rodila...

Köks ötürdü. Qəhər boğduğundan səsi titrəyirdi.

- Bu mahnını kinoda yetim bir uşaq oxuyur, - dedi, - Rusiyadakı detdomnan çəkiblər. O filmə düz doqquz kərəm baxmışam. Hər baxanda da uşaqlıq illərim yadıma düşür, ağlıyıram. Baləmi soruşur, qədeş, bu kino səni nöş belənçik ağladır? Mən də cavab vermirəm, nə deyim? Baləmi hardan bilsin ki, o kinodakıları mən həyatda yaşamışam. Detdom uşaqlarının güzəranı hər yanda eynidi, fərqi yoxdu - Rusyetdə olsun, ya burda, yetim yetimdi. O həyatı onu yaşıyan yaxçı bilər.

Şıxəlinin dediyi "Şkid Respublikası" filmini görmüşdüm. Ekranlara çıxdığı iki-üç il olardı. Film iki "detdom" uşağının yazdığı eyni adlı əsər əsasında çəkilib. Başlarına gələnləri və gördüklərini yazıblar.

Qonşum danışmırdı, fikri haradasa uzaqlardaydı. Bəlkə də xəyal onu qayğılı keçmişinə - dediyi o uşaqlıq illərinə götürmüşdü. Əlini nəmlənmiş gözlərinə apardı. Elə bil bunu kirpiklərində donmuş yaş gilələrini silməkdən ötrü yox, işıqlı dünyayadakıları görməsin deyə gözlərini qapamaq üçün elədi.

- Həyatdı da! - köks ötürdü. - Uşaqlığım detdomda keçsə də, heç vaxt dolaşıq işlərə baş qoşmamışam, - dedi. - İndinin özündə də mənnən pislik görən olmuyub, Allaha şükür, sən özün şahidsən. Bir aydı qonşuyuq, mənnən artıq hərəkət görmüsən, qədeş?

- Yox!

- Amma nolsun? Mənim qismətimə baxginən... Alə, nöş belə olmalıdı axı?!..

Mən kirimişcə durmuşdum. Dinib danışmasam da, gözlərimi qonşumdan çəkmirdim. Məndən fərqli olaraq o, dil boğaza qoymurdu, danışıb ürəyini boşaltmaq istəyirdi. Ürəyi isə doluydu.

- Qədeş, üstümü unnu görüb, məni dəyirmançı bilməginən a, - dedi. - Balacalığımnan qazanan olmuşam, əlim pulnan oynuyub. Bəs necə? Amma bədxərclik eliyirdim, sağa-sola xərcləyirdim özümçün. Neyniyim, alə, eşitmişdim atalar deyib, pul əl çirkidi. Mənim yerimə özgəsi olseydi, yağın içində bir dənə "Moskviç" - "Ostorojno, babuşka" deyirdilər - alıb, qoymuşdu qapıya. Məktəbdə mənə milyoner-pioner deyirdilər. Tay-tuşum şirniquş üzünə həsrət qalanda, mən üç-dörd marojna alırdım, hərəsinə bir dişdək vurub atırdım zibil yeşiyinə. Deyən yox idi, Şıxəli, bu puldan at zapasa, nöş bədxərclik eliyirsən? Kim deyəcəkdi? Uşağın başının üstündə gərək böyüyü olsun ki, öyüd versin. Detdomda bizə tərbiyə, öyüd-möyüd verirdilər, amma götürən az

olurdu. Ata-ana tərbiyəsi alayıdı. Çoxları deyilənlərin tərsini eliyirdi, acıqnan. Həyatdan heyf çıxırdılar...

Qəhər onu boğduğundan söhbətinə ara verdi. Boynunu irəli uzadıb udqundu, dərindən, sinə dolusu nəfəs aldı. Qır, mazut iyi ciyərini qıcıqladığından, əlini ağzına tutub uzun-uzadı öskürdü. Öskürəkdən nəmli gözləri daha da doldu. Alın yazısına bağladığı taleyinin bu cür faciəli sonunu gözləmirdi. Başını qaldırıb havada uçuşan quşların dalınca baxdı, ah çəkdi. İki gilə göz yaşı yanaqlarından üzü aşağı axdı. Mən görməyim deyə əlinin dalıyla tez göz yaşlarını sildi.

- Deyirdin, bayramnan bayrama içirsən, - dünən mənim dilimdən tutduğu sözləri xatırlatdı. - 7 Noyabr bayramına bir şey qalmıyıb. Heyf, o bayramı "otmeçat" eləmək bu il mənə qismət deyilmiş. Tyotya Polinayla yeyib-içəndə məni də yada salarsız. Stakana araq süzüb, ağzına bir fal çörək qoyarsız, yəni rəhmətlik Şıxəlinin yeri məlum. Tyotya Polina bilir, olarda belə adət var... Eh!.. Olseydi, "yüz" vurardım, necə lazımdı...

Onun bu sözlərindən lap qəhərləndim. Dodaqlarımın islandığını hiss elədim, ağzımda duzlu bir dad duydum, göz yaşlarımın tamıydı. Əslində, bu dad-tam mənə uşaqlıqdan, bəlkə də lap körpəlikdən tanış idi. Ancaq indiki göz yaşlarım həm də təlx idi və elə bil mən bir az əvvəl içdiyim o acını-zəqqumu ağlayırdım. İstəyirdim bayaqdan damarlarımda dolaşan, ayağımdan tutmuş beyniməcən vurmuş o zəhər göz yaşlarıyla birlikdə bədənimdən çıxsın.

Şıxəlinin dediyi "yüz qram" söhbəti onun vəsiyyətlərindən bəlkə də ən asanıydı, hətta o qədər asan idi, onu nəinki 7 Noyabrda, Yeni ildən tutmuş ta dünya zəhmətkeşlərininin Həmrəylik günü olan 1 Mayacan bütün bayramlarda gözüyumulu yerinə yetirmək olardı.

- Arxayın ol, Şıxəli, sən deyən kimi eliyərik, - söz verdim. - Sən "yüz" deyirsən, mən lap "yüz əlli" süzərəm. Qonşuluq bir yana dursun, biz həm də dost olmuşuq. Dost dosta nə gündə gərəkdi?

- Dar gündə, - o, əlüstü cavab verdi. - Qədeş, bunnan da dar gün olmaz ki... Mənim də taleyim beləymiş! Öz əlimdədi, bəgəm? Öz əlimdə olseydi, bu qır çuxurunda nə itim azmışdı? Allahın qismətidi, hərliyib-fırlıyıb çıxartdı qənşərimə... Tələbə, üzüvə tərifləmək olmasın, sənnən dünyalar qədər razıyam, əlinnən gələni elədin. Haqqını halal elə...

- Halal eliyirəm! - dedim. Bu sözləri hıçqırtıyla dedim. Ağladığımı gizlətməyin mənası yox idi. Nəyə düçar olduğu qonşuma gün kimi aydın idi və mənim özümü hardasa toxtaq göstərmək cəhdlərim də yersiz görünürdü. Şıxəli demiş, artistlik eləmək əlimdən gəlmirdi. Lap gəlsə də, mənası nədir?

Oturduğum yerdən qalxdım. Şıxəli məni indi görürmüş kimi, təəccüblə ayaqdan başa süzdü. Dedi:

- Qədeş, baxıram, maşallah, boyun birdən-birə uzanıb elə bil...

Qonşumun dediklərində məntiq vardı, ancaq bir şeyi bilmirdi ki, uzanan mənim boy-buxunum deyildi. Yavaş-yavaş qıra batdıqca o özü kiçilir, mənə aşağıdan yuxarı baxırdı. Nəsə xatırlayıb, əlini cibnə saldı. İpə keçirilmiş açar toplusunu mənə tərəf atdı.

- Mənzilimin açarlarıdı, - dedi. - Dediklərimi yadında saxla: məhliyə qayıdanda, səs salmazsan, guya heç nə olmuyub. Bilqeyis arvad soruşsa, Şıxəli hardadı, deyərsən qaldı Cənnətdə... Şifonerin altındakı əskiyə bükülü "TT"-ni götürərsən...

-"TT" nədi, Şıxəli? - marağımı boğmayıb onun sözünü kəsdim.

- Evivəcən səni, alə, sən kinoya-zada baxmırsan bəgəm? Tapançadı. "Nad Tissoy" kinosunu görməmisən?..

- Görmüşəm, sərhədçilərdəndi.

- Həri... Orda şpion Andreyi "TT"-ylə vurur də... Yadında olsun, əskini açmaginən, əlivin izi silahda qalar. İz də ki qaldı, vsyo, göyə çıxsan da, axtarıb tapaceylər. Sonra gəl sübut eləginən, günahsızsan. Ay elədin ha...

Heyrətdən gözlərim alacalanmışdı, qulaqlarıma inanmırdım. Elə bilirdim həyatının son dəqiqələrində ağını itirib, başlayıb sayıqlamağa. Bir yandan onu qınamırdım da. Niyə qınamalıydım, Şıxəlinin yerinə başqası olsaydı, əlbət, çığır-bağırı mədəni başına götürərdi. O çox sakit idi və dediklərini qəribliyə salmağa gərək yox idi.

- Qədeş, nöş mənə belənçiyinə baxırsan? - soruşdu. - İnan, mən tyomnı işlərdən uzağam. O tapançanın istoriyası alayıdı, yoxsa, yaraq Şıxəlinin nəyinə gərəkdi, yetim oğlandı. Tapanca gəzdirən cayılın karlı dayısı olmalıdı ki, dar ayaqda arxasında diyansın. O əhvalat olmaseydi...

- Hansı əhvalat? - maraqlandım.

- Uzun söbətdi, - dedi, - başlasam, qorxuram axırına çatmayım. Əybi yoxdu, yarımçıq qalsa, ardını Baləmi sənə danışar... Sənin kimi cavan-cahıl vaxtlarım idi. Vid-fason da qərdeşində, necə lazımdı. Çyornı qoroddan o yanda park var - Nizami parkı deyirlər - Balaəmiylə ora tansa getmişdik. Sən də məni bağışla, iki "priyezji tyolkayla" tanış olmuşduq, Rusiyetdən gəlmişdilər. Tanış olanda Balaəmi qızlara dedi ki, "sentralnı" bazarın bazarkomunun oğludu, mənim də atam guya rıbkombinatın direktorudu. Doğrusu, mənim belənçik şeylərnən aram olmuyub, alə, nə var, onu deginən. Nəsə, əldən düşəneycən tans oynadıq, özümüzçün. Arada şokoladnan konyak da vururduq. Qızlar əvvəl-əvvəl özlərini naza qoydular ki, guya papa-mama balalarıdı, bullara içki olmaz. Sonra necə girişdilərsə, bizə fora verdilər. Dedim, Balaəmi, qonaqları aparaq "Jemçujina"ya narşərabnan balıq kababı yesinlər, görmüyüblər, tem bolee, pulumuz da var. Başım qızlarnan söbətə qarışmışdı. Bir də gördüm Baləmi əlində yekə bir kulok gəldi. Qəyidib dedi, qədeş, restoranı neynirsən, otuz dənə pirojki almışam, iki "Ağdam" çaxırı. Sən arxayın ol, gedəciyik, pirojkiynən o məsələ... Nəsə, gec idi, avtobus-zad da işləmirdi. Qızlarla qol-boyun, payi-piyadə şəhərə qəyidirdik. O vədə "Podmoskovnıe veçera" mahnısının mod vaxtıydı, oxuyurduq özümüzçün: "Ne slışnı v sadu daje şoroxi..." Balaəminin elənçik bayırlığı yoxdu, içəndə açarını itirir. Ağzına gələni danışırdı: gah deyirdi kinoaktyordu, gah da gəmidə starpom. Rus qızlarına nə var, nə deyirsən, inanırlar. Nəsə, kefikök gedirdik. Hardan çıxdılar, bilmədim: iki nəfər arxadan bıçağı dirədi böyrümüzə...

- Bəs siz neynədiniz? - hövsələmi boğmadım.

- Alə neyləyəcəyik? Bıçaq olarda, biz də ki, ayaq üstə güclə diyanmışıq. Gördüm vəziyyət ruscadı, baş işlətmək lazımdı. Dilə tutmaq istədim. Dedim, məhlə uşağı, bıçağı yığışdırın, söbətimizi eliyək. Bu "bacılar" da qonaq gəliblər. Yaxçı deyil, gedib millət haqqında alayı söbət eliyəllər. Oğlanlardan biri qəyitdi, alə, millət-zad nədi, ciblərivizi çevirin, saatınızı açın... Nəyimiz vardı aldılar, matişkələrin sırğalarını çıxartdılar. Alə, bir də eşitdim "part" güllə açıldı. Baxdım ki, Baləminin xalası oğlu Lotu Tarikdi. Sən demə, tansda bizi qızlarla görübmüş, yaxınlaşmıyıb ki, cavanlıq eliyirlər. Aramızda pərdə vardı, o bizdən yaşlıydı. Nəsə, Tarik tapançanı tuşladı oğlanlara. Ayrı həngameydi, mən ölüm, komediya idi - "Toy kimindi". Oğlanlar qəmiş təki əsirdi. Aldıqlarını qeytərdilər. Tarik gözünə döndüyüm dedi, alə, belənçik haqq-hesab yoxdu, komediya qurtarmıyıb, soyunun. Nələri vardı, tutub aldı. Bizə də dedi, kişisiniz, üstünüzdə yaraq gəzdirin. Bir adres verdi, dedi gedərsiniz Bayılda "Rıbnıy dvor" deyilən həyət var, ora. Dyadya Vitya adında otstavnoy miçman var, onu taparsınız, deyərsiniz, bizi Lotu Tarik göndərib, "cücəli toyuq" lazımdı.

- Cücəli toyuq? - Şıxəlinin sözünü kəsdim.

- Həri. Lotu dilində tapanca-patrona belə deyirlər... Nə başıvı ağrıdım, o vaxtdan birini aldım, dedim dar günün yarağıdı, gərəyim olar. Amma, qədeş, bu günəcən heç gərəyim olmuyub. Cücələrini çoxdan satmışam, patronsuz da ki, silah nəyə yarayır? Heç nəyə... Hə, sənə onu deyirdim; şifonerin altındakı tapançanı götürərsən, aparıb atarsan Şanxayın aşağısındakı obşestvenni tualetin kanalizasiyasına. Evimnən silah çıxmağını istəmirəm. Ölənin dalınca danışan çox olur, deyəcəklər Şıxəlini sakit adam bilirdik, demə, tyomnı işlərnən məşğulmuş, banditin biriymiş... O dünyanı bilmirəm, hələ yoldayam, ancaq bu dünyada heç kimə etibar yoxdu, mən ölüm. Evimnən tapança çıxsa, milislər açılmamış cinayətləri yazacaqlar yetim Şıxəlinin ayağına, deyəcəklər, ölüb gedib. Yadınnan çıxartma, tapançanı kanalizasiyaya əskiyə bükülü atarsan. Nə sirləri ört-basdır eləmir kanalizasiya? İşıqlı dünyaya nə var, hər şey göz qabağındadı. Hörümçək toru təki yeraltı dünyası da var şəhərin. Şəhər altında şəhərdi kanalizasiya. Bu yetim Şıxəli o yeraltı dünyada nələr görmüyüb?..

- Şıxəli, kanalizasiyada nə işin var?

- Qədeş, necə yəni nə işin var? Hərənin çörəyi bir yerdən çıxır, mənimki də, Allaha ağır getməsin, kanalizasiyadan çıxır.

- Axı deyirdin, Akademiyada işləyirsən.

- Evivəcən səni, demişəm Akademiyada işliyirəm, deməmişəm ki, akademikəm. Söbət deyil ki... Bəgəm, Akademiyada təkcə akademiklər işliyir? Oranın tualeti, kanalizasiyası yoxdu ki?.. Yoxsa, Akademiyadakılar insan deyil, qədeş? Konsertsən, Ətağa...

Şıxəlinin söhbətindən belə çıxırdı ki, Akademiya da bir qazandı və bu qazanda nələr qaynadığından heç akademiklərin özləri baş açmır. Hamı üzdə gülür, dalda bir-birinin ayağının altını qazıyır. Hətta vəzifə üçün pusquda durub kiminsə ölməyini gözləyənlər də var. Birini ürək xəstəliyinə salmaqdan ötrü Moskvaya şər-böhtan yazanlar da az deyil. Təmiz, vicdanlı o qədər alimi ləkələyiblər. Çoxusu dözməyib, ürək tutmasından dünyasını vaxtsız dəyişib.

Bu eşitdiklərim məndən ötrü bir yenilik idi. Ən əsası oydu ki, mən qonşumun dediklərinə, onun səmimiyyətinə inanırdım. Ona görə ki, Akademiya dediyi o qazanda nələr qaynadığını, kimin nə qaynatdığını akademiklərdən də yaxşı o bilir. Nə olsun ki, kanalizasiya təmizləyir. Hətta mənə elə gəlirdi, Şıxəli bu peşəni göydəndüşmə seçməyib, bilərəkdən seçib. O, həyatı təmiz, pak görmək istəyirdi. Bəlkə də əlində əlacı olsaydı, insanların qəlbini xəbislikdən, beyinlərini pis fikirlərdən təmizləyərdi.

- Akademiyada işləyənlərin də yaxşısı-pisi var, - Şıxəli söhbətinə davam elədi. - Sənə deyim, bu elm adamları var a, özləri kimi "skupoy" - zıqqı yer üzündə tapılmaz. Çoxu günorta nahar da eləmir, mən ölüm. Baxırsan pofessordu, koridorun küncünə çəkilib xəlvətcə kotlet-çörək tıxır, elə bil əlinnən alacaqlar. Neçə kərəm dəvət eləmişəm, demişəm, professor, gedək stolovada adama bir borş içək, xərci mənim boynuma... Dünyanın malı dünyada qalır, qədeş. Akademik ol, ya kanalizasionşik, hamısı birdi, hamı o dünyaya eyni cürə - lümlüt gedir. Götürginən məni, nə aparıram? Heç nə. Tapançanı da götürmürəm, o dünyada mənim nəyimə gərəkdi? Düz deyil, qədeş?

- Düzdü, - dedim. Gözgörəlik eləmirdim. Şıxəlinin dediklərində həqiqət vardı. Qədim Misirdə fironları torpağa tapşıranda əyalını-arvadını, nökər-naibini öldürüb onunla birlikdə basdırırmışlar. Qızıl-gümüş əşyalarını, silahını da qəbrə qoyurmuşlar. Uzun əsrlərdən sonra arxeoloqlar həmin qəbirlərin, sərdabələrin çoxunu tapıblar. O vaxt fironu necə quyulayıblarsa, eləcə də qalıb: nə əyalı ona əyallıq eliyib, nə də nökərləri nökərlik. Qızıl dəstəkli qılınc da qınından çıxmayıb. Şıxəli o fironların yerində olsaydı, əlbət, özüylə o dünyaya heç kəsi aparmazdı, qızıl dəstəli qılınc da götürməzdi, necə ki, indi yaraqsız-zadsız gedirdi.

Qır çuxurunun hamar səthi səhər günəşinin parlaq şəfəqlərini əks etdirir, sayrışırdı. Bu geniş meydan səhnəydi sanki, Şıxəli də bu səhnənin ortasında dayanıb "olum, ya ölüm" monoloqunu söyləyən aktyor. Onun deyib-danışdıqları bir insan ömrünün acılı-şirinli səhifələriydi, çevirdikcə səhifələnirdi. Kim bilir, bəlkə onun simasında incəsənət həqiqətən istedadlı bir aktyoru itirib. Aktyor olsaydı, görəsən hansı rolları oynayardı? Kitablardan oxuduğum qəhrəmanları gözlərimin qabağından keçirdim. Sonra xəyalımda geniş bir səhnə canlandı. Sürəkli alqış səsləri altında tamaşaçılara təzim edən aktyor qrimsiz idi və tamaşanın nə dekoru vardı, nə də recissoru.

- Əvvəllər "Parkommuna" zavodunda işləmişəm, - qonşum söhbətinə davam elədi. - Sənə deyim, fərqi yoxdu; zavod kanalizasiyası olsun, ya Akademiya kanalizasiyası, hamısınnan eyni zibil axır. Çoxları bizim işə alayı cür baxır, amma sənə deyim, kanalizasiya həyatın aynasıdır. O ayna ki, əyri-üyrü, gizli nə işlər var, aşkarca göstərir. Sən də məni bağışla, o qədər qadın alt paltarı çıxartmışam ki... Elə oyunnardan çıxırlar, desəm, inanmazsan. Tak çto, elə bilməginən Akademiyada yalnız elmlə məşğul olurlar.

-Nə deyim, Şıxəli, doğrusu, mən başqa cür fikirləşirdim, - dedim, - elə bilirdim, Akademiyada işləyənlərin hamısı akademikdi.

- Yox, alə! Sapojnikdən tutmuş plotnikəcən, nə peşə sahibi deyirsən, orda taparsan, bircə kisəçidən savayı.

- Denən, Akademiya məişət xidməti kombinatıdı ki...

- Doğru tapmısan, mən ölüm, elənçik bir şeydi. Bir də, qədeş, akedimikdi, professordu, onlar kimdi bəgəm? Sənin kimi, mənim kimi adamdılar, oların da iki gözü, iki qulağı var, bizim də... Yeri gələndə, oların Şıxəliyə işi düşür, mənim olara yox. Evdə su kranı işləmir, mənim yanıma qaçırlar, qaz pilətəsi xarab olur, mənnən məsləhət alırlar. Hərdən papağımı qabağıma qoyub fikirlişirəm ki, belənçiyinə "prostoy" şeylərdən baş çıxartmayan necə alim olur axı?

Sözünə-söhbətinə birdən ara verdi. Mancanaqların taqqıltısı, gurultusu yenə beynimə düşdü. Bu zəhlətökən səslər bayaqdan harasa çəkilmişdi elə bil, yenə qayıtdı. Yerin altındakı uğultu da artmışdı. Mədənin bu səs-küylü ab-havasına alışmış köpək də nədənsə zingildədi. Bayaqdan bəri şöngüdüyü yerdəcə sakit-sakit Şıxəlinin üzünə baxırdı, guya onun danışdıqlarından nəsə qanırdı və indi zingildəyib demək istəyirdi, a zalım balası, nə durmusan, danış, ürəyini boşalt, əzrayıl başının üstünü kəsdirib.

Şıxəli uzaqlara yönəlmiş nəzərini baxdığı səmtdən ayırıb, üzümə dikdi. Mənə elə gəldi, onun gözləri quyuya düşüb, arıq sifəti daha da bürüşüb. Beş-on dəqiqə içində insan necə də dəyişərmiş.

- Bayaq bir söbət elədim ha - “toyuq” məsələsi, - xatırlatdı.

- Nə toyuq? - mən soruşdum.

- Kinosan e sən! Alə, indidən belə başlasan, axırın necə olacaq, dərslərivi beynində necə saxlayaceysən? Cücəli toyuq söbəti elədim axı...

- Hə, yadıma düşdü - "Revolver".

- "Revolver" yox, "TT"... Əvvəl vaxtlar üstümdə gəzdirirdim. Gördüm yox ey, əməlli-başlı məni dingildədir. Yetənə yetirdim, yetmədiyimə bir daş atırdım. Xasiyyətim elə dəyişmişdi, məni tanıyanlar qalmışdılar mat-məəttəl. Deyirdilər, buna nolub belənçiginə, əvvəlki Şıxəliyə oxşamır. Gördüm yox e, belə çox getməz, xatası çıxacaq. Məhlədə yatıb-çıxan cayıllar vardı, oların gözünnən tük də yayınmaz. Bir kərəm biri qeyidib dedi, Şıxəli, səni nəsə dingildədir, olmuya üstündə yaraq gəzdirirsən? Dedim, yox, alə, nə yaraq, nə daraq?.. Doğrusu, yamanca qorxdum, ehtiyat elədim ki, uçastkovı duyuq düşər, onnan sonra gəl canını qurtar, görüm necə qurtarırsan. Statyası on iləcən iş göstərir. Fikirləşdim, tutub salarlar Bayıl türməsinə, dalımca "peredaça"

gətirənim də olmaz. Kim gətirəcək, əmim yox, dayım yox... Tapancanı əskiyə büküb şifonerin altında gizlətdim. Yenə oldum əvvəlki Şıxəli... Dyadya Vitya ölüb, yoxsa aparıb qəytərərdin, pulunu alıb xərcliyərdin özünçün, tələbə babasan. Kalan pul vermişdim, nöş batsın? Bir var pulu dost yolunda xərcliyəsən, bir də var havayıdan verəsən küləyə. Qazanmaq kişi işidi, amma əliəyriliynən yox. Onun da yolları var...

Qonşumun müəmmalı sözləri qulağımdan yayınmadı, marağımı çəkdi. Tələbənin şəhər yerində pul qazanmaq yollarından birini özüm bilirdim - gündüz oxuyub, axşam işləmək. Mənə görə, bu yeganə yol idi. Şıxəlinin söhbətindən isə belə çıxırdı, şəhərdə pul qazanmağın bir yox, çox yolu varmış. Və qonşum o yollardan xəbərdardır. Kaş, əcəl aman verəydi. Bayaqdan az qala bütün tərcümeyi-halını danışıb, bu söhbətə gələndə sözü niyə uzadırdı, bilmirdim. İnsanı tanımaq olmur. "Mən gedirəm, yerdə qalanın canı çıxsın" - deyib fikirləşən o qədərdi ki... Elələri həmişə olub, olacaq da. Ancaq Şıxəli elələrindən deyildi, bilirdim ki, mən soruşmasam da, o özü açıb deyəcək.

- Sənə deyim pulu necə qazanırdım? - məni intizarda qoymadı. - Montin tərəfdə "Cındırtrest" deyilən bir idarə var, köhnə-möhnə, xlam şeyləri gətirib ora tökürlər. Köhnə arxiv qəzetlərini yığır, gətirib stadionda satırdım.

- Köhnə qəzeti neynirdilər ki? - marağımı boğmadım.

- Evivəcən səni. Necə yəni neynirdilər? Papaq düzəldib başlarına qoyurdular. İki saat günün altında oturmaq halva yeməkdi bəgəm? Buranın da gününnən olmaz, adamı ütür. Yayda sifətim elə qaralırdı, Mauqliyə oxşuyurdum... Hə, bir kərəm "Cındırtrest"də eşələnirdim, nə tapsam yaxçıdı?

- Pul! - mən cavab verdim.

- Yox! Pul deyildi, amma pulagedən idi. Bir alimin elmi işiydi. Onu yazanın adı-famili də yadımdadı - Mirtalıbov Qiyas idi, deyəsən. Üstündə tarix də vardı, otuzuncu illərin haqq-hesabıydı. O vədə Stalinin asıb-kəsən vaxtlarıydı, bircə sözün üstündə adamın axırına çıxırdılar. Yəqin, o işi yazan alimi də güllələmişdilər, yazdığını da atmışdılar zibilliyə. Nə isə, qədeş, papkanı vurdum qoltuğuma, gəldim AZİ-nin qabağına. Fikirləşdim, bir-iki marojna puluna sataram. Burnumun suyunu axıda-axıda diyanıb durmuşam qapının ağzında. Hava da yaman soyuq idi. Gördüm bir kişi gəlir, əlində qara çanta, başında qara şlyapa. Baxdım vid-fasonunnan oxumuş adamına oxşuyur, beşdən-üçdən versə, bu verər. Cavan adam idi, bəlkə də institutu təzə qurtarmışdı. Qovluğu alıb vərəqlədi, yetimin rəngi qaçdı. Dedim ölər, düşərəm zibilə. Bir istədim aradan çıxım, gördüm yox e, dostum girişib oxumağa, az qalırdı kağızı yesin. Soruşdu ki, buna nə qədər verim? İstədim deyim, əmi, ikicə marojnanın pulunu ver, götür apar, amma elə bil Allah dilimi-ağzımı bağlamışdı. Dinmədim, yəni uşaq deyilsən, özün bunun qiymətini bilmirsən

bəgəm? Ta heç nə soruşmadı, cibindən palazqulaq bir yüzlük çıxarıb cibimə basdı. Dedi, get, qaranoy, bir də bu tərəflərdə görünmə. Çıxdım aradan, asta qaçan namərddi. O pula bir-iki ay dolandım, necə lazımdı. On beş-iyirmi il sonra o yetimi Akademiyada gördüm. İstədim salam verim, hal-əhval tutum, gördüm yox e, özünü tanımazlığa vurdu. Dedim, qudurasan qurbağa, Şıxəlinin hesabına alim olub, indi məni priznavat eləmir. Professora bax!.. İnsanlar cürbəcürdü: yaxşısı da var, pisi də. Adam var, çörəyi dizinin üstədi, adam da var, yaxçılığı unutmur...

Sinə dolusu nəfəs aldı, nəzərləri yenə harasa uzaqlaşdı. Büzüşüb durmuşdu, elə bil dəmir-dümür dolu buruqlar səltənəti bütün əzəmətiylə çiyinlərindən onu yerin altına itələyirdi, guya qır dolu çuxur o dünya deyilən bir dünyanın qapısıydı.

- Student, - Şıxəli sükutu pozdu. - Sənlə əntiqə qonşuluq eliyəcəkdik, heyif ki, qismət olmadı. Yaxçı planlarım vardı, bayramlarda "DK İliç"ə gedəcəkdik. Alayı haqq-hesabdı, o qədər moryak arvadı, polkovnik qızı gəlir, bilmirsən hansını seçəsən. Sən də məni bağışla, şokolad kimi rus qızları özləri adama kişniyir. Bir yannan baxanda, oları da qınamalı deyil, ərləri aylarla dənizdə üzür, ev, ailə görmür - çelovek-amfibiyadılar. Arvad bədbəxt də neyləsin, gözü orda-burdadı. Şanxay uşaqları da pişik siçanı tutan kimi "hop" eliyib oları qapazlıyır. Bunu ərləri də bilir, çoxu arvadlarının məşuquynan dostluq da eliyir. Kaspiyski flotilyanın nə hərbi sirri var, hamısı bizimkilərin ovcunun içindədi. Hansı gəmi nə vaxt reydə çıxacaq, nə vaxt uçenie olacaq - bunları kontr-admiraldan qabaq Şanxay uşaqları bilir, mən ölüm. Moryaklar arvadlarına deyir, arvadlar da lyubovniklərinə. Qədeş, belə baxıram, razvedçiklərə gərək yoxdu, nə voyenni tayna deyirsən, ortalıqdadı.

- Maraqlıdı, - qeyri-ixtiyari qonşumun sözünü kəsdim.

- Maraqlı nədi, qədeş, kinoydu, kino, - qonşum həvəsləndi. - Uzağa nöş gedirik, öz başıma gələni danışım. Cavan vaxtlarım idi, vid-fason da necə lazımdı. Çesuna parçaların mod vaxtıydı, amma hər adamda olmazdı. Dərzi Qrişaya yaxçı şalvar tikdirmişdim - qızqaytaran. Bir cüt də lakirovannı çəkmə almışdım, yeriyəndə cır-cır cırıldayırdı. Belə çəkmələr dəbdəydi. Tanış qızım vardı, adı Katya idi, mən Katyuşa deyirdim. Bir kərəm qızla qolboyun gedirdik. Bayıl bazarının yanında əri qənşərimizə çıxdı. Starşi leytenant idi. Özümü yığışdırdım ki, dava-dalaşa hazır olum. Gördüm yox ey, obstanovka mirnidi. Katyuşa ərinə dedi, İqoryok, poznakomsya, eto izvestniy Şıxəli iz Şanxaya, xaroşiy paren. Nəsə, başa saldı ki, sən dənizdə olanda məni yalqız buraxmır. İqoryok da sağ olsun, əlini gicgahına aparıb "çest" verdi. Dedim, bərəkallah, moryak!.. O günnən dostlaşdıq. "Stremitelni" esminesində xidmət eliyirdi, mərifətli də içən idi, "Ağdam" vururdu. İçəndə voyennidə nə sirr var, açıb tökürdü ortalığa. Deyirdim, İqoryok, doroqoy, belənçik şeylər danışma, özüvi də zibilə salarsan, məni də. Deyirdi, arvadım Katyanı sənə etibar eliyirəmsə, deməli, hərbi sirləri də danışa bilərəm. Bilirəm, Şanxay uşaqlarının ağzı bərkdi... Nə isə... Başıma çox işlər gəlib. Vaxt ola, mən danışam, sən yazasan - hazırca kinodu mən ölüm, çəkən lazımdı. Kinostudiyanın mənnən xəbəri yoxdu, yoxsa yapışarlar yaxamnan, əl çəkməzlər. Amma sənə deyim, cavanlığımı yaxçı keçirmişəm, gileyim yoxdu. Sən yaşda olanda gündə üç-dörd qıza svidanie verirdim, hamısı da leytenant arvadı, ya da podpolkovnik qızı, konfet kimi. O yannarın qızları göyçək olur, ağappaq, qaymaq təki... Mən olara Beluqa deyirdim.

- Beluqa? - təəccübləndim.

- Həri. Yəni ağ balıq də, - açıqladı. - Qədeş, sənə deyim, indinin özündə də cavanlıq havası başımdadı a. O günnəri parkda bir qıza yanaşıb ürəyimi açmaq istədim. Ürək də ki, maşallah, çoxmənzilli ev kimidi, hamıya yer tapılır. Nə başıvı ağrıdım, saldım dilimin şirin yerinə. Mən danışıram, qız da gülümsüyür. Komplimentdən döşüyürəm, opıtnı uxajoram, mənə nə var? Birdən qız qəyidəsən, dyadya Şıxəli, vı menya ne uznali? Bunu eşidəndə çaşıb qaldım, fikirləşdim məni hardan tanıyır? Vnimatelni baxanda üzündəki xaldan tanıdım, xəcalətdən ət tökdüm. Mən qızın anasına svidanie verəndə, o, uşaq idi, detsada gedirdi, indi böyüyüb krasavitsa olmuşdu... Dedim, yaş gedir, baş gedir, Şıxəli, ayağını yorğanıva görə uzat... Parka çıxanda hərdən polkovnik arvadlarına qırmaq atırdım, düşən də olurdu, otval verən də. Ömür-gün keçir, əlində deyil ki, vaxtı tutub saxlıyasan.

Qonşumun bu sözləri məni tutdu, başımdan bir fikir ötdü: "Görəsən, insan vaxtı saxlamağa qadir olsaydı, bəşəriyyətin taleyi necə olardı?" Bu sual, əlbət, mənə qədər də kimlərisə düşündürüb. Düşündürmək bir yana dursun, bəlkə buna cəhd edənlər də olub. İnsan nələrə əl atmır, nə xülyalarla yaşamır? Bunun hesabını aparanmı var?.. Amma yox, mən zamanı saxlaya bilmişdim. Bu nə qədər də asanmış, heç bilməzdim. Bir göz qırpımında dünya-aləm candan oldu, heydən-hərəkətdən düşdü. Mədəni başına götürmüş mancanaqlar donub qaldı, boruların içiylə axan neftin fışıltısı kəsdi, günəş şüaları hərarətini itirdi, buludlar səmada hərəkətsiz durdu. Qeybə çıxan bir də ürəyimin döyüntüsüydü. Beynim də işləmirdi. Komadaydım. Yox, əslində, mən komaya düşmüş bir Dünyadaydım. Bu vəziyyətdən insanı çıxartmaq müşküldü, qalmışdı o yekəlikdə Dünya olsun. Həyatda hərəkətsizlikdən dəhşətli şey yoxmuş, elə hərəkətsizliyin özündə də həyat yoxmuş...

İt hürüşünə diksindim, gözlərimi geniş açıb baxdım. Dünya komadan çıxmışdı, günəşin hərarəti özünə qayıtmışdı, buludlar yenə bir-birini qovur, qaçdı-tutdu oynayırdı. Mancanaqlar yeri dimdikləyirdi, borularda axan neftin fışıltısı gəlirdi. "Tıp-tıp-tıp" - bu da mənim ürəyimin döyüntüsüydü. Bu döyüntü zamanın saniyələrinə köklənmişdi, bəlkə də əksinə, zamanı insan ürəyinin döyüntüsünə görə saniyələrə bölüblər?..

- Yaşamaq yaxçıdı, qərdeşim, - Şıxəli dərindən köks ötürdü. - Heyf, vaxtsız getdim! İndi kim kimin ölüsünü ağlayır? Heç kim. Gərək, bir qohum-əqraban olsun ki, ağlasın... Yetim oğlanam - bıvşiy detdomovskiy malçik. Məni ağlasa, təzə lyubovnitsam Valentina Semyonovna ağlayacaq, alayı kimim var? Dul qadındı, Bayıldakı Admiralski domda yaşayır... Student, bilirsən, bizim millətdən nöş moryak çıxmır? Belənçik şeylərə görə. Evin kişisi ailəsinin başının üstündə durmalıdı, gedib dəryada üzməməlidi. Nə bilim? Qurban olduğum Allah hər milləti bir xasiyyətdə yaradıb, deyib-danışmaqla düzələn deyil.

Qonşum kiridi, yenə dərindən köks ötürdü. Mənə elə gəldi ağzını açıb ta danışmayacaq. Sükut məni darıxdırırdı, elə darıxdırırdı, guya qır çuxuruna düşən Şıxəli yox, mən özüməm. Oturduğum yerdəcə çubuqla torpağın üstündə şəkillər cızırdım, nə cızırdım, nə çəkirdim bilmirdim. Gözlərimə inanmadım: cızığa qara böcək düşmüşdü, baş alıb gedirdi. Bu iyli-qoxulu məkanda nə ölümü var, başına yer qəhətdi? Nə biləsən, bəlkə bu həşaratı yaşadan elə üfunətdir. Yer üzündə nə sayaq desən canlı tapılır. Amma yox, beləsi görünməyib, uzun bığları, güclə sezilən nöqtə gözləri vardı. Allahın yaratdığına bax... Əlbət yaradıb ki, dünya boş qlmasın. Yox, o Yer canlısına oxşamırdı, oxşamaq bir yana dursun, elə bil heç canlı deyildi, xırda-mırda dəmir hissəciklərdən yığılmışdı. Əyri-üyyrü tüklü ayaqları, uzun, qara bığları nazik telefon telini andırırdı. "Başqa planetdən gəlmiş robot-böcək" - fikrimdən keçirdim və bu kəşfimdən həzz aldım. Böcəyin hərəkəti qəribəydi: gah gedir, gah dayanır, bığlarını dikəldib ora-bura döndərirdi. Hərəkətdə olanda güclə eşidilən cırıltılı səs çıxardırdı, sanki oynaqlarının sürtkü yağı qurumuşdu. "Görəsən hansı planetdən gəlib, onu Yerə niyə göndəriblər?" - özüm-özümdən soruşdum. Öz sualım özümə gülməli gəldi. "Necə yəni niyə göndəriblər? İnsanlar başqa planetləri öyrəndikləri kimi, oradakılar da bizimlə maraqlanırlar. Niyə də olmasın? Əlbət, o əlçatmaz planetlərdə sivilizasiya yerdəkinnən milyon il qabaqdır, biz onlara yetmərik. Gör, oralarda elm, texnika nə qədər inkişaf edib ki, Yerə robot-böcək göndəriblər. Yəqin göndəriblər ki, yerdəki sərvətlərimizi öyrənsinlər, onlara yiyələnsinlər..." Bu fikir məni əməlli-başlı ovundururdu. Sərxoş beynin uydurmasınnan olmaz, ayıq vaxtımda belə şeylər çətin ki ağlıma gəlsin? Yoxsa, bütün fantastik əsərlər, uydurmalar elə içkili beyinlərin məhsuludu?..

Böcək alataş qalmışdı, cızıqdan çıxmağa can atırdı, amma çıxa bilmirdi - qapanmış dairə təki qarmaqarışıq cızıqların da çıxışı yox idi. Nədənsə bu idbar həşərata yazığım gəldi. Görəsən, necə gəlib buralara düşmüşdü?.. Bu cansız məkanda indi biz dörd canlı idik: iki insan, bir it və bir böcək. Dəhşətli oydu ki, birazdan, bəlkə də bir neçə dəqiqədən sonra sayımız bir nəfər azalacaqdı.

Böcəyi ovucumun içinə aldım, o, xilaskarına minnətdarlıq edirmiş kimi dal ayaqları üstə dikəldi, üzümə baxıb uzun qara bığlarını oynatdı. Döyükdü, deyəsən, əlimin hərarəti ona təndir istisi təki dözülməz gəldi, ovucumun içindəcə ora-bura çovudu, qanadlarını açdı ki, havalansın, amma bacarmadı. Ağzımı yaxınlaşdırıb astadan üfürdüm.

-Uçağan uç, xəbər apar ki, qır çuxuruna düşən var, - pıçıldadım. Nəfəsim həşaratdan ötrü külək qədər güclüydü. Xırda qanadlarını bu küləyə sarı açıb havalandı, ancaq uça bilmədi, qondu yerə. Böcək uçmaq üçün yaranmamışdı, çətir tək açılan qanadcıqları isə onu hündürlükdən endirməyə yarayır, özgə işə yox...

Deməyəsən, bu mənzərəni bayaqdan qonşum da izləyirmiş.

- Alə, o hara uçur? - dedi. - Donuzanqurdudu. Bununki odu, zir-zibildən şarik düzəldib diyirləsin ora-bura. Sən də o yetimin boynuna qoyursan ki, xəbər aparsın: düşübdü qır çuxuruna, özünü tez yetir ona...

Mən dinmədim. Əslində, dinmək istəyirdim, amma nə deyib, nə danışacağımı bilmirdim. Durub qonşuma təzədən təskinlik verməyəcəkdim ha. Onsuz da ondan ötrü bunun heç bir mənası yox idi.

- Student, bir şey soruşum sənnən - de görüm təqaüd alırsan? - Şıxəli maraqlandı.

Bu vurhavurda belə bir fikrin hardan ağlına gəldiyinə təəccübləndim.

- Hə, alıram, - ağzımı sürüdüm.

- Voenni tayna deyilsə, nə qədər? Heç olmasa, işinə yarayırmı?

- Belə də, əlimnən tutur. Ayda iyirmi səkkiz manat verirlər, min bərəkət.

- Qədeş, nə bərəkət, nə hərəkət, o nə puldu ki, şükür eliyirsən? Nə başa yaraqdı, nə də coraba yamaq... Mənnən sənə əmanət, aldığının hamısını kitab-dəftərə xərcləmə. Beşdən-üçdən at zapasa, gərəyin olar. Bu gün-sabah moryak qızlarıynan tanış olaceysən. Elə olsun, yeri gələndə, cibinnən marojna pulu çıxsın, yoxsa özüvü biabır eliyərsən. Şanxay uşaqlarının nəyi olmasa da, marojna pulları həmişə var. Bunnan belə Şıxəli olmuyacaq ki, dara düşəndə sənə əl tuta. Şanxayda elə bir tanış-bilişin də yoxdu, ona ağız açasan... Hə, yaxçı yadıma düşdü: Nora var ha, ilişməyə musurman oğlan axtarır. Desə, gəl bizə, sənə erməni dili öyrədim, getmə. Nəyivə lazımdı? Əmisi oğlu Vova Bayıl türməsində naçalnikin şoferidi, qara "VOLQA" sürür. Milisdə dost-tanışı çoxdu, heç nədən səni ilişdirər. Student adamsan, nöş özüvü zibilə salasan?

Köpək ağzını açdı, dilini bir qarış çıxardıb əsnədi. Şıxəli iti indi görürmüş kimi onu qıyqacı süzdü. Köpək quyruğunu buladı, astadan zingildədi.

- Halal olsun bu itə, - qonşum minnətdarlıq elədi, - yal verməmişəm, sümük atmamışam, amma dar ayaqda yanımızdan əl çəkmir. Başqası olseydi, deyərdi, alə, nə işimə qalıb, kim batır, kim qalır. Heyvan insanın çoxunnan etibarlıymış, mən ölüm. Onsuz da olan olub, keçən keçib, amma dünyaya ikinci kərəm gəlseydim, bu iti aparıb qapıda saxlıyardım, xəcalətinnən çıxardım, necə lazımdı.

- Polina xala qoymazdı, - mən xatırlatdım.

- Doğrudan a, heç ağlıma gəlmir. Həyətin komendantı odu axı. Tyotya Polinada siçan-siçovul bir yana, it-pişiyə də dəvə kini var. Amma elənçik olmağı yaxçıdı, yoxsa xəstəlik, mikrob həyəti basar.

- Polina xala müharibə vaxtı Leninqrad blokadasında olub, - dedim. - Danışırdı ki, insanlar acından əllərinə keçəni yeyirmişlər, it-pişikdən, siçan-siçovuldan da iyrənmirlərmiş.

- Nə danışırsan, alə? - Şıxəli üz-gözünü turşutdu, tüpürdü. - Görəsən, tyotya Polina da yeyib? - soruşdu.

Mən dinmədim.

- Deyirəm axı, onda bu qədər kin hardandı? Allaha qurban olum...

Başını qabaq ayaqlarının üstünə qoyub uzanmış köpək yerindən qalxdı, silkindi, qıçını qaldırıb dəmir borunun dibini islatdı. Torpaq sapsarı, zəhərli sidiyi su bilirmiş kimi, acgözlüklə canına çəkdi. Üzdə qabarcıqlı sarımtıl köpük qaldı. Şıxəli bu mənzərəni səssizcə seyr edirdi.

- Bu köpək də işini görməyə vaxt tapdı, - donquldandı. - Mənim də yadıma saldı, havayı deyil, nə qədər pivə içmişəm. Pivəni içən mən, yüngülləşən köpək. Bir anekdot var e, deyir mən olmuşam zənci, bu olub gürcü...

Şıxəli nəsə üdülüyürdü, mən onun dediklərin eşitmirdim, öz aləmimdəydim. Allaha yalvarırdım ki, bir möcüzə yetirsin və o möcüzə bizi, daha doğrusu, qonşumu düşdüyü bu girdabdan qurtarsın. Möcüzə isə yalnız nağıllarda olur: otur gözlə ki, cəsur Məlikməmməd, ya da ağıllı Ağatlı oğlan özünü köməyə yetirəcək. Nağıla inanmağın özü bir nağıldı.

Gözlərimi qıyıb ilıq şəfəqlərini yan-yörəyə səpmiş Günəşə baxdım. Gözlərim qamaşdı. Aydın səmada tək-tək bəyaz bulud topaları gəzişirdi. Bir əlçim bulud isə ağ at şəklindəydi, sanki Ağatlı oğlan atını Günəşə doğru çapırdı. Az çapdı-çox çapdı, axırda Günəşi haqladı. Buludun özündən

qat-qat böyük kölgəsi mədənin üstünə çökdü. Havanın ilıqlığı bir andaca çəkilib itdi, buruqların arasına sərinlik gətirən xəfif meh əsdi.

Qıçlarımı qan tutmuşdu. Ayaqqabılarımı çıxardıb ayaqlarımı ovxaladım. Torpağın sərinliyi ayaqlarımdan üzüyuxarı, ta beyniməcən yayıldı. Bu sərinlik kütləşmiş beynimi qıcıqlayıb ayıltdı elə bil. Oturduğum yerdən sıçrayıb qalxdım. Qışqırdım:

- Tapdım! Tapdım!..

Səsim mədəni başına götürmüşdü. İt döyüküb üzümə baxdı, niyə sevindiyimi qanırmış kimi quyruğunu buladı, burnunu dikəldib bir ağız hürdü. Onun hürməyi gülməliydi. Elə bil səsinin parası qaldı içində və bir it də içində hafıldadı - boğuq-boğuq.

- Tapdım!.. - bu dəfə lap ucadan çığırdım.

Şıxəli mənim çığır-bağırımdan bir şey kəsdirmədiyindən çaşıb qalmışdı.

- Alə, nolub, nə bayramdı, nəyi tapmısan, deginən biz də bilək, - həyəcanlandı. Matdım-matdım mənə baxırdı. Mənsə elə bir kəşf eləmişdim ki, nəinki qonşumun, heç bədbəxt Arximedin ağlına gəlməzdi, necə ki, gəlməyib. Adamı batırmağa nə var, asandı, oğul istəyirəm, batanı qurtarsın... Yeni kəşfimlə ta qədimdən bəri dillərdə dolaşan "sərxoş başda ağıl olmaz" klassik bir fikri də alt-üst eləyirdim. Əgər sərxoş başda ağıl olmasaydı, belə işıqlı fikir ağlıma hardan gələrdi?

Mənim kəşfim sadə bir məntiqdən doğurdu: qıra yapışan Şıxəlinin ayaqqabılarıdı, ayaqları ki, deyildi. Bir az da keçsə, gec olar, yumşalmış qır ayaqqabılarının üstünü örtməkdəydi. İndi hər dəqiqənin, hətta saniyənin əhəmiyyəti vardı. Mən iri taxtanı çuxurun ortasına atdım, Şıxəliyə dedim ki, ayaqyalın taxtanın üstüylə gəlsin. O, hələ də bir şey anlamırmış kimi, durub mənə baxırdı. Ölümdən qurtarmağın bu qədər bəsit yolu olduğuna heyrətləndiyindən, danışmağa söz tapmırdı, bəlkə də gördüyünə inanmağı gəlmirdi. Özünü cəmləşdirdi, dərindən nəfəs aldı, müvazinətini itirməsin deyə, kəndirbaz kimi qollarını yana açıb taxtanın üstüylə mənə tərəf gəldi, əlimnən yapışıb çuxurun kənarına sıçradı. Əli buz təki soyuq idi, barmaqları qıc olduğundan açılmırdı. Bir müddət durduğu yerdəcə səssiz-ünsüz dayandı, cınqırını da çıxartmadı, elə bil dili tutulmuşdu. Arabir üzünün ətsiz əzaları səyriyirdi, sudan çıxmış adam kimi titrəyirdi. Deyəsən, cəmi bir neçə dəqiqə əvvəl ölümlə üz-üzə dayandığını indi dərk

eləyirdi. Heysiz halda yerə çökdü, əllərilə üzünü tutub hönkürdü. Şıxəlinin indi sevincdən ağladığını qara köpək də hiss eləmişdi, bu dəfə təpərli zingildədi. Dili olsaydı, görən, bizə nə deyərdi? Mən əlimi onun dalğalı tüklərinə çəkdim, heyrətə gəldim. Bayaqdan qara köpək bildiyim heyvanın rəngi, sən demə, ağmış. Mədənin kirindən-pasağından bu kökə düşübmüş. Üstündən də it iyi yox, elə mazut qoxusu gəlirdi. Tükləri eyzən "qara qızıla" bulaşsa da, amma bu biçarənin günü elə it günüydü. Heyvana yazığım gəldi. Onun kirli başını tumarladıqca, köpək xoşlanır, minnətdarlıq əlaməti olaraq, quyruğunu bulayırdı. Məndən gələn spirt qoxusunu alıb başını çevirdi, Şıxəliyə sarı getdi, eyni iyi ondan da duyub geri çəkildi.

- Bu köpeyə halal olsun, mən ölüm, - Şıxəli heyvanı tərifl ədi. - cənnətə bir də gələndə, bunun xəcalətinnən çıxarıq, kolbasa-çörək gətirərik. Allah insanı itə də borclu qoymasın.

Şıxəlini bilmirəm, mənə belə Cənnət lazım deyildi. Bir Cənnətin ki, yolu Cəhənnəmdən keçsin, orada nə xeyir olar? Ot-alaf bir yana, qanqal belə bitirməyən bu cansız, qısır məkandan baş götürüb hara gəldi qaçmaq istəyirdim.

- Student, - Şıxəli dilləndi, - başıvı lap vaxtında işlətdin, yoxsa o dünyalıq olmuşdum, saniyə söbəti vardı. Şanxaya mənsiz qeyidəcəkdin. Boynuva minnət qoymuram, özümnən çox, səni fikirləşirdim ki, qonşum buralara nabələddi, buruqların arasınnan necə çıxacaq? Qır çuxuruna düşüb o da o məsələ...

Əsl dost belə olar. Sən demə, bayaqdan mən onun halına yananda, Şıxəli də mənim dərdimi çəkirmiş. Duyğulandım, gözlərim nəmləndi.

- Çox sağ ol, Şıxəli! - minnətdarlıq elədim.

- Dəyməz, söbət deyil ki... - dedi, - qonşu deyilik bəgəm?

Bu sözləri elə bir tərzdə dedi, elə bil bayaqdan qırda batan o yox, məndim və kəlləsini işlədib məni ölümün cənginnən o qurtarmışdı.

- Sənə deyim, ümidimi üzməmişdim, - dedi. Ruslarda misal var - nadejda umiraet posledney. Yəqin, bu da bir sınaqmış, Tanrı məni sınağa çəkirmiş. Həm də, mənə ümid verən qaraçı arvadın sözləriydi. Dənizkənarı bulvarda falıma baxıb demişdi, Şıxəli, sən bir kərəm dolu çuxura düşəceysən, amma qorxmaginən, qurtaraceysən. Deyirəm, işə baxginən, qaraçı arvad necə

demişdi, elə də oldu. Nə bilim, bəlkə də hər şey alayı cür qurtarardı, göydəkinin məsləhətinə şükür.

Nəsə xatırladı, səsinin tonu dəyişdi, kiminsə eşidəcəyindən ehtiyat edirmiş kimi astadan dedi:

- Qədeş, bayaq bir söbət elədim ha - cücəli toyuq məsələsi...

- Həə, tapança...

- Bilməzsən, orda-burda ağzınnan qaçırarsan, salarsan məni zibilə. O söbəti unutginən, mən elənçik şey danışmamışam, sən də eşitməmisən. Özüm də detdom uşağı deyiləm: atam frontda qalıb, anam da bir santexnikə qoşulub qaçıb... Öz günahımdı, çərənçilik elədim. Dedim, ta gedirəm, hardan bileydim ki, yarı yoldan qeyidəcəm. Həyatın işlərini nə bilmək olur? Düz deyil, qədeş?

- Düzdür, - başımı tərpətdim. Ancaq mənim bu cavabım onun yalnız həyatla bağlı verdiyi sualın cavabıydı, başqa dediklərinin yox.

- Bir şey yaxçı olmadı, çəkmələrim getdi, təptəzəydi, köhnə univermaqdan almışdım. Qədeş, alayı yol yox idi ki, qonşuvu çəkməli-zadlı qurtareydin?

Heyrətdən az qaldı nitqim tutulsun. İşə bax, ölümdən qayıdıb, indi nəyi özünə dərd eləyir? Onu inandırmağa çalışdım:

- Qonşu, inan ki, başqa yol yox idi, olsaydı, gizlətməzdim. Sənin çəkmələrin, mənim çəkmələrim, nə fərqi varmış, qırda batmağına qıymazdım. Bu, yeganə xilas yoluydu. Bəlkə də gələcəkdə alimlər nəsə yeni bir üsul tapacaqlar, amma hələ ki...

- Doğru deyirsən, mən ölüm. Gəmidə spasatelni kruqacan hər şeyi fikrləşiblər, amma qır məsələsi ağla gəlmiyib. Əlbət, onun da vaxtı gələr... Bəribaşdan bir şeyi də deyim - yadında qalsın, Şanxaylı Şıxəli hüştülüm cayıllardan deyil. Bu çağeycən heç kəsə borclu qalmamışam. Şəhər yeridi, kim bilir sabah adamın başına nə gələcək? Hələ havalar isti keçir, bazar günü plyaja da gedərik. Rayon adamısan, dənizi harda görmüsən? Şər deməsən, xeyir gəlməz: suda boğulub eləsən, onda göreceysən qərdəşivin qabiliyyətini. Borclu borclunun sağlığını istər.

Qonşumun çəkdiyi atalar misalı onun dilə gətirdiyi fikirlə uzlaşmırdı: borclu borclunun borcunu qaytarmaqdan ötrü onun suda boğulmağını gözləməliydi. Bir də, mən Şıxəlini borca xilas eləməmişdim axı...

- Student, səni Şanxayda tanıyan var? - nə fikirləşdisə, qəfildən soruşdu.

- İt də tanımır, - əlüstü dilləndim. Cavabım qonşumun xoşuna getdi.

- Lap kinodakı kimi danışdın. "Uzaq sahillərdə" Karranti şlyapalı kişidən soruşur, səni Triyestdə tanıyan var? O da sənin kimi cavab verir. Qədeş, olmuya, sənin də könlünnən artistlik keçir?

- Artistlik?.. Yox!

- Yoxluyarsan, bəlkə alındı... Belə baxanda, insanların hamısı artistdi, mən ölüm... Kimisi tragediya oynuyur, kimisi komediya...

Qonşumun sözlərini qəribliyə salmadım, hardasa sözlərində həqiqət vardı. Bəs görəsən o özü həyat deyilən nəhəng teatrın hansı aktyorudu: traqik, ya komik? Yoxsa, traqikomik?..

Şıxəli yalın ayaqlarına baxıb barmaqlarını oynatdı. Hovunu almaq üçün ayaqlarını ovuşdurdu. Sözlü adam təki üzünü mənə tutdu.

- Şanxayda özümə görə vesim, xatir-hörmətim var, - dedi, - baxaceylər, Şıxəli gəlir, özü də bosoy - ayaqyalın. Məhlə cayılları da ki, şəbədə qoşmağa adam axtarıllar. "Bosoy Şıxəli" deyerlər mənə. Şıxəli, bunnan sonra yaşa, görüm necə yaşayırsan? Onnansa ölüm yaxçıdı, Ətağa cəddi. Kaş ki, qırda bataydım. Nöş məni qurtardın, qədeş?.. Bosoy Şıxəli! Alə, pozordu, mən ölüm!

Oturduğu yerdən dikəlib, qır çalasına tərəf getdi. Mən dəhşətə gəldim. İt də tələşlandı, hürdü. Qır layı xeyli sıyılmışdı, Şıxəlinin çəkmələrini udmuşdu. İri çala iştaha gəlmişdi, yekə, qara ağzını açıb qurban gözləyirdi, canlı-cansız deməzdi, hamısını bir göz qırpımındaca "hop" eləyib udardı.

İçkinin məstliyindən başım dönsə də, yerimdən yay təki sıçradım. Özüm də bilmədim bu güc mənə hardan gəldi. Şıxəlinin qolundan yapışıb, onu geri çəkdim. O isə dartınıb, əlimdən qurtarmağa çılışırdı.

- Qədeş, burax qolumu! - səsini qaldırdı. - Kişi deyil, öz payına, ölərəm, o adı üstümə götürmərəm. Bosoy Şıxəli!.. Burax qolumu, köyneyimi cırarsan, kitayskidi - firma "Drujba!.."

Hələ də bir şey qanmayan köpək bir yerdə dayanmır, zingildəyə-zingildəyə vurnuxurdu. Şıxəli ipə-sapa yatmırdı.

- Məhlənin burnufirtıqlı şpankələri də məni "Bosoy Şıxəli" çağıracaq! - dartınıb əlimnən qopmaq istədi. Mən var gücümlə ona müqavimət göstərsəm də, hiss eləyirdim ki, çox dayana bilməyəcəyəm. Güc bir şeyə yaramayacaq, odur ki, qonşumu dilə tutmağa çalışdım.

- Şıxəli, - dedim, - sakit ol, fikirləşib bir yol taparıq.

- Skazka danışırsan, student! Bunun yolu-zadı yoxdu, nə yolu olacaq?! Yoxsa, şanxaylıların ağzını bağlayaceysən? Söbət deyil, mən ölüm... Priçoskamı zay elədin, - barmaqlarını daraq yerinə saçlarına çəkdi. Amma deyəsən, sözüm onu tutmuşdu. Sual dolu nəzərini üzümə dikdi, yəni təklifin nədi?

- Mənim ayaqqabılarımı geyərsən, - təklif elədim. Əslində, bu, yeganə çıxış yolu idi. Bəlkə başqa yol vardı, sadəcə, düşünüb-daşınmağa vaxt gərəkdi. Məsələ də elə vaxtın darlığındaydı. Hər şey dəqiqələrə, saniyələrə bağlıydı. Sərxoş beynimin tutması tutsa da, hərdən işləyirdi.

Şıxəli sakitləşdi, təklifim ağlına batmışdı. Cibindən kiçik bir güzgü çıxardıb özünə baxdı, üz-gözünü turşutdu - elə bil güzgüdən baxan tanış gəlmirdi. Ağzını əydi, dilini çıxartdı. Güzgüdəki də eyni hərəkətləri təkrarladı. Çöhrəsinə bic bir təbəssüm yayıldı. Elə bil qrim otağındaydı, tumar çəkib əyri-üyrüsünü hamarlamaq istəyirmiş kimi üzünün dərisini dartışdırdı, saçlarını sahmana saldı. Guya indi pərdə qalxacaq, bu tosqun-tösmərək adam səhnəyə çıxıb öz böyük rolunu oynayacaqdı. Götürsən, qırlı-mazutlu mədən özü nəhəng və geniş bir səhnəydi, saysız-hesabsız buruqlar, mancanaqlar, şaxələnmiş paslı borular isə bu səhnənin dekorları. Budur, tamaşa başlayacaq. Yox, bəlkə də tamaşa çoxdan başlamışdı, bundan beləsi isə son pərdənin son akkordlarıydı.

Şıxəli qançıxmış gözlərini, ayaqqabılarıma dikdi.

- Neçə razmerdi? - soruşdu.

- Qırx bir.

- Mən qırx iki geyirəm.

- Olsun, birtəhər geçir ayaqlarına, onsuz da köhnədi.

Məni tərifləməkdən qalmadı:

- Tələbə, sən kəlləsənmiş, mən ölüm. Elənçik fikirlər tapırsan, akademikin ağlına gəlməz... Yaxçı, bəs özün neyniyəceysən?

- Əşşi, kimdi məni tanıyan?

- Düz söbətdi, mən ölüm. Amma bir az yaxçı alınmır axı... Kitab-dəftərini verərsən, mən götürərəm, nöşün ki, avtobusda millət səni ayaqyalın görüb elə biləcək ağıldan o məsələ... Eybi yoxdu, yarımca saata Şanxaydıyıq. Kinoda necə deyir - terpi kazak, atamanom budeş... Kimnən utanaceysən, tem bolee səni, özün demiş, it də tanımır. Düz demirəm, qədeş?

Mən başımı tərpətdim. Söz ağzımdan çıxıb, dünya qopsa belə, sözümün yiyəsiyəm.

Şıxəli hıqqıldıya-mıqqıldıya ayaqqabıları ayağına keçirdi. Ayağa qalxıb yerində atılıb-düşdü, guya idmançıydı, qaçışa hazırlaşırdı. Elə bildim Şıxəli sıyılmış qır-mazut çuxurlarıyla dolu bu mədəndə məni yalqız buraxıb qaçacaq. Vücudumu soyuq tər bürüdü.

O, bir neçə dəfə də yerində atılıb düşdü. Sağ ayağının barmaqları ayaqqabının ucundan bayıra çıxdı.

- Alə, sənin çəkmələrin indidən ağzını ayırdı ki... - qımışdı, - nə tez acdı?.. Eyb etməz, sapojnik Aşota verərik, iki-üç dənə mıx vurar.

Bayırda qalmış barmaqlarını oynatdı, köynəyinin yaxalığını qaldırıb əliylə saçlarını alnına dağıtdı, çubuğu çiyninə aldı. Qarşımda hansısa hind filminin qəhrəmanı dayanmışdı.

- "Cənab 420" kinosunda Rac Kapur necə deyir, qədeş? - gülümsədi. - "Yapon başmaqları, aparın məni..."

“ Mera cita hecabani,

İpatlun İngilistani,

Torpelal kopi Rusi,

Pirpidil he Hindustani...”

Şıxəli məşhur hind mahnısını oxuya-oxuya düşdü yolun ağına. Mən yalın ayaqlarımı ehtiyatla yerə basır, ondan geri qalmırdım. Daldan isə köpək gəlirdi. Eşitdiyi melodik, şən ahəngdən hər şeyin yaxşı bitdiyini hiss etdiyindən heyvanın da qırımı dəyişmişdi, təpərli yeriyirdi, elə bil bayaqkı əfəl it deyildi. Günəşli bir payız səhəri başımıza gələn bu macəranın şən mahnıyla bitməyinə daha çox mən sevinirdim.

Şəhərə aparan asfalt yola çatmağa macal, birdən köpək durdu, şöngüdü. Zingildədi. Mən qayıdıb onu dilə tutsam, başına tumar çəksəm də, yerindən tərpənmədi. Məsum gözləri elə bil deyirdi: "Mənimki buracandı, başım qarmaqarışıq şəhəri götürmür. Orda nə itim azıb ki, biri daşı götürüb nallıya ayağıma, ac başım, dinc başım".

- Qədeş, itnən oynamaginən, qov getsin işinin dalısıycan. Gəl gedək! - Şıxəli məni tələsdirdi. - Bir o qalmışdı, dəli Əbə kimi dalımızca it gəzdirək.

İtə acıqlandı:

- Poşol otsyuda!

Köpək sıçrayıb keri çəkildi, heyrətlə dönüb mənə baxdı, nəsə soruşmaq istəyirdi. Şıxəli köpəyi söyüb qovmasaydı belə, it bizimlə gedəsi deyildi. Əlbət, neft qoxuyan bu miskin məkana, buruqların arasına elə insanların əlindən təzikib.

Köpəyin kirdən qapqara qaralmış tüklərini sığalladım. - Əlvida, vəfalı dost! - dedim.

Yolun qırağındakı dayanacağa çatanda dönüb arxaya baxdım. Köpək hələ də arxamızca baxırdı. Sonra qalxıb taytıya-taytıya gəldiyi yolu geri qayıtdı. Uzaqlaşdıqca kiçilirdi. Buruqların arasında görünməz oldu...

Avtobusda sərnişin az idi. Özümə yer tapmırdım, yalın ayaqlarımı adamların nəzərindən gizlətməyə çalışırdım. Deyəsən, bu davranışımla əksinə, daha çox diqqət çəkirdim. Şüşədə əksimi görüb özümü tanımadım, saçlarım qarışmış, köynəyimin qolu sökülmüşdü.

Dodaqları boyalı, cavan qadın yan tərəfdən heyrətlə mənə baxırdı.

- Oy, mamoçka!.. - içini çəkib tez irəli keçdi. Daha kimsə nəsə donquldadı. Donqultular, pıçıltılar bir-birinə qarışdı, yəni ictimai nəqliyyatda beləsinin nə ölümü var? İnsanların bu qədər üzüdönük olduğunu bilməzdim. Bir-birlərini tanımayan yad adamlar birdən-birə doğmalaşmışdılar elə bil. Biri deyəni tezcənə digəri təsdiqləyirdi. Ağzını açmayanlar isə baxışlarıyla danışırdılar. Sanki avtobusdakıların hamısı bir ailənin üzvləriydi, təkcə məndən savayı. İnsanların bu sayaq münasibəti kimi deyirsən ağıldan eləyərdi. Yad baxışların ağırlığı

məni sıxırdı. İstəyirdim qapını açıb atılım yerə, qaçım insanlardan. Mənim bu hərəkətim yəqin ki, heç kimi təəccübləndirməzdi.

- Yazıq, cavan uşaqdı, - orta yaşlı bir kişi əyilib dostunun qulağına pıçıldadı.

- Əlbət psixdi, bolnisadan qaçıb, - dostu mülahizə elədi. - Durdomun ostanovkasında düşər.

- Alə, durdomun ostanovkasında özün düşərsən, - Şıxəli dözməyib bozardı. - Bu millət belədi də - adam axtarırlar fışdırığa götürsünlər. Elə baxırsınız, guya Marsdan gəlib. Tələbədi. Boğulan, batan vardı, onu xilas eliyəndə bu kökə düşüb, yoxsa qərdeşimizə nolub, güləbətin kimi oğlandı.

- Suda batırdı? - törəboy kişi marağını boğmadı. Əslində, o, bütün sərnişinlərin əvəzindən soruşurdu.

- Yox, quruda, - Şıxəli bic-bic qımışdı. - "Azərbaycan gəncləri" qəzetini oxuyanda bilərsiniz dünyada necə cayıllar var.

Şıxəli əsl dost kimi vaxtında köməyimə yetmişdi. Elə bil avtobusdakılar bayaqkı adam deyildilər, sanki dayanacaqda əvvəlkilər düşmüş, başqa sərnişinlər minmişdi - hamısı da mehriban, gülərüz. İndi mənə özgə sayaq baxırdılar və bu baxışlarda xoş bir ilıqlıq vardı. Tanımadığım adamlar mənimlə eyni avtobusda getdiklərilə açıqdan-açığa fəxr eləyirdilər. İnsanlardan baş açmaq olmur - gah belədilər, gah da elə...

Bayıl meydanında avtobusdan endik. Sərnişinlər arxamızca boylanırdılar. Tösmərək kişi başını pəncərədən çıxarıb hayladı:

- Qardaş, bağışla, gənc qəhrəmanın adı nə oldu?

- Daşdəmir! - Şıxəli dönüb avtobusun dalınca qışqırdı.

- Yumşalırsan, yumşalır! - yanımızdan keçən birisi məşhur atalar misalını tamamladı.

Ensiz küçəylə üzüyuxarı qalxdıqca aşağıdakı meydan kiçilib balacalaşır, dəniz ayaq götürüb uzaqlaşırdı. Neft iyindən başı dönən şəhər heysiz-heysiz sahilə sərələnmişdi. Xəzri əsirdi...